**Nazim Tapdıqoğlu**
**(Vəlişov)**

# Azərbaycan faciələrinin təqvimi

*(Hər bir azərbaycanlı üçün yaddaş kitabı)*

- 8396 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2010

**Nazim Tapdıqoğlu (Vəlişov):** "Azərbaycan faciələrinin təqvimi".
Bakı - 2010

***Kitabın işıq üzü görməsində "Kitab Evi" İctimai Birliyinin sədri***
***Salatın Əhmədliyə** və*
***Arif Rəsulova** dərin təşəkkürümüzü bildiririk.*

*Son dərəcə qiymətli, tədqiqat səviyyəli bu kitabda başı tarixən min bir bəlalar çəkmiş Azərbaycanın ayrı-ayrı illərdə üzləşdiyi fəlakət və faciələrin təqvim tarixləri toplanmışdır. Kitabda təqvimin xronoloji ardıcıllıqla düzülən hər bir gününün müxtəlif faciəli hadisələri əks olunmuşdur. Kitab faciəli, amma eyni zamanda dəyərli tarixi keçmişimizi əks etdirən və bu səpkidə ürəklə, əsl vətənpərvərlik ruhu, türkçülük eşqi ilə yazılan ilk sestemli, universal nəşrdir. Müəllif hər bir təqvim gününün Azərbaycan xalqı üçün faciəvi xarakter daşıdığını sübut etməyə çalışmış və buna, demək olar ki, nail olmuşdur. Gərgin axtarışlar və böyük zəhmət bahasına araya-ərsəyə gətirilən və geniş oxucu auditoriyası üçün nəzərdə tutulan bu kitab yəqin ki, oxucular tərəfindən maraqla qarşılanacaq və öz layiqli qiymətini alacaqdır. İnanırıq ki, bu kitab gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə almasında böyük rol oynayacaq, tarixi faciələrimizi əks etdirən tədqiqatlar arasında özünə layiqli yer tutacaqdır...*

ISBN: 978-9952-29-033-2

© N.Tapdıqoğlu
"MBM" nəşriyyatı 2010

# ÖN SÖZ

**Hörmətli oxucu!** Yəqin ki, bu kitabı oxuduqca yanıb-yaxılacaqsan, ürəyin ağrıyacaq. Mən də bunları yazdıqca yanıb-yaxılmışam, ürəyim ağrıyıb. Bu kitab əsrlərdir ki, başına min bir məşəqqətlər, müsibətlər, faciələr gətirilən azəri türkünün, Azərbaycan xalqının arxiv oyanışıdır, xalqın əzilib-küsdürülən taleyinin ağlayan səhifələridir. Ümumilikdə Azərbaycanımızın ömrünə, tale qismətinə yazılan və bizi alovsuz, tüstüsüz yandıran bu qara, qanlı səhifələr onun qan yaddaşıdır. Bu kitabdakı faciəli təqvim tarixləri adi yazılar deyil; əslində onlar sözlərlə əfsanələşərək qeyri-adiləşmiş qəmli nəğmələrdir. Uzun illər topladığım bu mühüm materialları övladlarımıza ibrət olsun deyə tarix üçün, gələcək üçün qələmə almışam.

**Faciə** - ərəb sözü olub, *"bəla", "müsibət", "bədbəxtlik", "fəlakət", "dəhşətli, üzücü hadisə"* mənasını ifadə edir. Azərbaycan xalqının keçdiyi şərəfli tarix yolu əfsuslar olsun ki, faciələrlə zəngindir. Elə faciələr vardır ki, onun ictimai-tarixi məzmunu olur. Bu tip faciələrdə taleyin hökmünə qarşı çıxan, məğlub olduqda belə onunla barışmayan şəxsiyyətin, xalqın qəhrəmancasına fəallığı özünü əks etdirir. Azərbaycan xalqının tarixi haqqını, şərəfini qorumaq ictimai fikrimizin əsas vəzifəsi olmalıdır. Fikrimcə, Azərbaycan xalqı minlərlə dünya xalqları içərisində başı ən çox bəlalar çəkən, haqqı daha artıq tapdanan, saysız-hesabsız fəlakətlər görən, faciələr yaşayan 10 xalqdan biridir və bəlkə də birincisidir. Kitabda zaman-zaman xalqımızın başına gətirilmiş fəlakətlər konkret faktlarla göstərilib.

Məlumdur ki, Azərbaycan türklərinin tarixi dədə-baba torpaqlarında sonradan məskunlaşan ermənilər gəldikləri andan bu torpaqlara sahib olmaq iddiasındadırlar və onlara xaricdən havadarlıq edənlər də çoxdur. Başımıza gələn faciələrin bir qismi də bu məkrli planlarla bağlıdır. Erməni vəhşiliklərini bu gün yaddaş tariximizdən silsək, hələ bundan sonra da neçə faciələrə rast gələ bilərik. Tarix özü bir məktəbdir. Ondan yaxşı dərs alanlar heç vaxt məğlub olmurlar.

Kitabda ermənilərin uzun zaman Azərbaycan türkünə qarşı törətdiyi qanlı hadisələr *(cinayətlər, vəhşiliklər, qarətlər, talanlar, terror aktları, soyqırımlar...)* baş verdiyi dəqiq tarixlərlə *(gün, ay, il)* əks olunub. Ayrı-ayrı təqvim tarixlərində həyata keçirilən bu qanlı olaylar Azərbaycan xalqının eyni zamanda erməni işğalçı qəsbkarlarına qarşı mübarizə əzminin göstəricisidir. Məlumdur ki, ermənilərin azərbaycanlılara qarşı törətdikləri terror aktları saya gəlməyəcək qədər çoxdur. Əlbəttə, mənim toplayıb-araşdıraraq araya-ərsəyə gətirdiyim mövcud bu erməni vəhşilikləri onların xalqımıza qarşı törətdikləri terror aktla-

rının miqyası cəhətdən kitabda öz əksini hələ tam şəkildə tapmamışdır. Sadəcə olaraq mən zaman-zaman xalqımıza qarşı ermənilərin törətdikləri bəzi terror aktlarının, necə deyərlər, sxemini cızmışam.

Yanvar ayının ilk günündən başlayaraq, dekabrın son gününə qədər hər ayın günlər və illər üzrə xronoloji ardıcıllıqla olan hadisələrini sistemləşdirib kitabda ayrıca bir fəsil kimi verməyə çalışmışam. Bəzi hadisələr, olaylar özlüyündə müəyyən dərəcədə xüsusi faciə xarakteri daşımasa da, məhz tarixilik baxımından xalqımız üçün böyük əhəmiyyət kəsb etdiyinə görə onları kitaba salmağı lazım bilmişəm. Bir sıra təqvim tarixlərində bəhs olunan olaylar müxtəlif mənbə və sənədlərə əsaslandırıldığı üçün təkrarlara da yol vermişəm. Kitabda 1988-ci ilin fevralından başlayan və 12 may 1994-cü ilə *(atəşkəsə)* qədər davam edən Qarabağ müharibəsinin yaddaşımıza köçürülməsi vacib olan ayrı-ayrı təqvim tarixlərinə də geniş yer ayırmışam. Məlumdur ki, biz Qarabağ müharibəsində *(1988-1994-cü illər)* ümumiyyətlə, Qarabağ ərazisində irili-xırdalı **880** yaşayış məntəqəsi itirmişik. Əlbəttə ki, bütün bunların hər biri bizim üçün böyük faciədir. Mən Qarabağda yaşadığım üçün bu kəndlərin əksəriyyətini görmüşdüm. Füzuli, Cəbrayıl, Ağdam, Şuşa, Xocavənd, Xocalı rayonlarının əksər yaşayış məntəqələrini qarış-qarış gəzmişəm. Qarabağ ərazisində ermənilərlə müxtəlif döyüşlərin, onların vəhşiliklərinin, eləcə də bir sıra yaşayış məntəqəsinin işğala məruz qalmasının şahidi olduğum üçün onlara da kitabda bəzi yer ayırmağı vacib hesab etmişəm.

**Əziz oxucu!** Ümidvaram ki, geniş oxucu auditoriyası üçün nəzərdə tutulan bu kitab nə qədər kiçicik qüsurları, məziyyətləri olsa da belə, Siz Oxucular tərəfindən kifayət qədər maraqla qarşılanacaqdır...

***Hörmətlə: müəllif Nazim Tapdıqoğlu (Vəlişov)***





# YANVAR

**1 yanvar 1813-cü il** - Möhkəm qala olan ***Lənkəran qalası*** ruslar tərəfindən qəti hücumla tutulur. Çoxlu sayda adamlar həlak olurlar...

**1 yanvar 1841-ci il** - ***10 aprel 1840-cı il*** tarixli qanun qüvvəyə minir, komendant idarə üsulu ləvğ edilir, ümumrusiya idarə sisteminə keçilir...

**1 yanvar 1862-ci il** - Zaqafqaziya ***mərz palatası*** fəaliyyətə başlayır...

**1 yanvar 1868-ci il** - ***"Qafqaz və Zaqafqaziyanın idarə olunmasının dəyişdirilməsi haqqında"*** adlı imperator fərmanı *(9 dekabr 1867-ci ildə təsdiq olunub)* qüvvəyə minir...

**1 yanvar 1906-cı il** - Erməni yaraqlıları Ağdam rayonunun ***Papravənd*** kəndinə hücum edir. **15** nəfər həlak olur...

**1 yanvar 1906-cı il** - Silahlı erməni daşnaqları Xaçın dərəsindəki ***Sırxavənd*** kəndində günahsız müsəlmanları qətlə yetirirlər...

**1 yanvar 1919-cu il** - Qarakənddə məskən salmış erməni daşnaqları ***Qaryagin*** *(indiki Füzuli rayonu)* - ***Ağdam*** yolunda günahsız azərbaycanlıları amansızlıqla qətlə yetirirlər...

**1 yanvar 1920-ci il** - Erməni daşnaqları ***Üçmüəzzin*** mahalının azərbaycanlılar yaşayan **Əxis** kəndinə basqın edərək, burada amansız **qətllər** törədirlər. Sağ qalan kənd əhalisi doğma yurd-yuvalarından didərgin düşür...

**1 yanvar 1940-cı il** - Azərbaycanda ***Latın*** əlifbası ***Kiril*** əlifbası ilə əvəz olunur...

**1 yanvar 1990-cı il** - ***Ağdam-Şuşa*** yolu ilə hərəkət edən azərbaycanlıların idarə etdikləri avtobuslar ermənilər tərəfindən daşa basılır...

**1 yanvar 1992-ci il** - Laçının Təzəkənd kəndinin müdafiəsində ***Qarıqışlaq*** kənd sakini, 1973-cü il təvəllüdlü **Rafiq Həsən oğlu Orucov** həlak olur...

**1 yanvar 1992-ci il** - Erməni yaraqlı quldurları Ağdam rayonunun ***Əhmədavar*** və ***Çuxurməhlə*** kəndlərinə basqın edirlər. **4** nəfər azərbaycanlı həlak olur, **28** nəfər yaralanır...

**1 yanvar 1994-cü il** - Murovdağ ətrafında uğursuz döyüş əməliyyatı aparılır. Milli Ordunun könüllü əsgəri, bakılı **Aydın Allahverdi oğlu Quliyev** və onunla bərabər digər **9** nəfər azərbaycanlı əsgər həlak olurlar...

**2 yanvar 1918-ci il** - Terrorçu daşnaq qrupları indiki Türkiyə ərazisində olan ***Qətranlı*** kəndinə və onun yaxınlığındakı oymaqlara ***silahlı basqın*** edirlər. Vali-

deynləri qətlə yetirilmiş **1400** uşağı bir yerə yığaraq Qətranlı kəndinin mərkəzi meydanında diri-diri yandırırlar...

**2 yanvar 1919-cu il** - ***Ağdaş*** şəhəri yaxınlığındakı yaşayış məntəqələri erməni silahlı quldur birləşmələri tərəfindən dağıdılır. Sakinlərin əksəriyyəti vəhşicəsinə öldürülür...

**2 yanvar 1920-ci il** - RSFSR Xarici İşlər Komissarı Çiçerin yaranmış vəziyyətlə əlaqədar Azərbaycanın Xarici İşlər naziri F.Xoyskiyə birinci notasını göndərir. Əslində o, Azərbaycan hökumətindən Denikinə qarşı tələsik müharibəyə girməsini tələb edir...

**2 yanvar 1938-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə tanınmış ziyalı **Cabir Abbas oğlu Məmmədov** güllələnir...

**2 yanvar 1938-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası *(Nikitçenko, İvlev, İşşenko)* Səyyar sessiyasının qərarı ilə tanınmış ziyalılar - Tağı Abbas oğlu Şahbazi *(Simurq)* və görkəmli aktyor Ülvi Rəcəb güllələnirlər...

**2 yanvar 1990-cı il** - Ağdamdan Şuşaya gedən **5** sərnişin avtobusu yolda ermənilər tərəfindən hücuma məruz qalır. **25** nəfər azərbaycanlı xəsarət alır, **3** maşın yandırılır, adamlar soyulub qarət olunur...

**2 yanvar 1992-ci il** - Prezident fərmanı ilə Xankəndi şəhəri, Şuşa, Ağdərə, Xocavənd, Xocalı, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Xanlar, Goranboy və Tərtər rayonlarını əhatə edən ərazidə ***Prezident İdarə Üsulu*** tətbiq edilir; ərazinin idarə olunması Prezident müvəkkili ***M.S.Məmmədova*** tapşırılır...

**2 yanvar 1992-ci il** - Xocalıda elektrik xətti tamam kəsilir...

**2 yanvar 1992-ci il** - Ağdamın ***Əhmədavar, Çuxurməhlə, Xıdırlı, Şelli, Gülablı kəndləri*** ermənilər tərəfindən atəşə tutulur. Əhmədavar kəndində **2** nəfər ağır yaralanır...

**2 yanvar 1992-ci il** - Goranboy rayonunun Todan kəndi erməni yaraqlıları tərəfindən atəşə tutulur. 1 nəfər həlak olur, 1 nəfər yaralanır...

**3 yanvar 1121-ci il** - Gürcü qoşunları çar IV Davidin başçılığı ilə Sultan Mahmudun torpaqlarına soxulur. Müsəlman hakimləri Arran və Naxçıvan hakimi şahzadə Toğrulun başçılığı ilə ***(30 minlik ordu)*** gürcülərə qarşı çıxırlar. Tiflis yaxınlığında baş verən döyüşlərdə müsəlman qoşunu məğlub olur, ***4000*** döyüşçü əsir alınır. Toğrul əsir düşməkdən qurtularaq Gəncəyə sığınır...

**3 yanvar 1804-cü il** - Gəncə xanı ***Cavad xan*** və oğlu ***Hüseynqulu xan*** ruslarla döyüşdə qəhrəmancasına həlak olurlar. Gəncə qalası işğal edilir. Gəncə xanlığı ləğv olunur. Ermənilər şəhərin alınmasında rus qoşunlarına kömək edirlər.





Cavad xanın **250** döyüşçüsü həlak olur, **500** adamı isə əsir alınır. Azərbaycanın cənub bölgələrinə yol açılır. Gürcüstanın Şərq sərhədlərinin təhlükəsizliyi təmin edilir, rus qoşunları Xəzər sahilinə çıxır, Həştərxanla əlaqənin təmin edilməsinə şərait yaranır. **Gəncə şəhəri** rus qoşunları tərəfindən tutulur. Rus qoşunu Gəncə məscidində gizlənib-daldalanan 500 nəfər qoca, arvad, uşağı amansızcasına qətlə yetirir. Gəncədə ümumilikdə **2000**-dən çox adam həlak olur, 18.000 adam əsir düşür. Erməni quldurbaşısı ***Qriqor Manuçaryan*** özünün 500 nəfərlik dəstəsi ilə Gəncənin işğalında yaxından iştirak edir, yüzlərlə dinc sakinin qətlə yetirilməsində xüsusi "fəaliyyət" göstərir...

**3 yanvar 1821-ci il** - Rus çarı ordu qərargahları yanında təsərrüfatlar yaratmaq haqqında fərman verir. Hərbi xidmətlərini başa vurmuş hərbçilərin Cənubi Qafqazda qalmaq istəməməsi səbəbindən bu fərmanın tələbləri baş tutmur...

**3 yanvar 1919-cu il** - Erməni daşnaqları Zəngəzurun **Qatar** kəndinə hücum edirlər. Əhali kənddən didərgin salınır. **Məşədi Qələndər** kişi camaatın gözü qarşısında üzərinə neft tökülərək diri-diri yandırılır. **Kərbəlayi Allahverdinin** başı kəsilir...

**3 yanvar 1920 - ci il** - Erməni daşnaqları Zəngəzurun ***Saldaş*** kəndinə hücum edirlər. 1 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirilir...

**3 yanvar 1920 -ci il** - Silahlı erməni dəstələri Zəngəzurun ***Əliquluuşağı*** kəndinə basqın edirlər. Ölənlər və yaralananlar olur. Əhali doğma ocaqlarından didərgin düşür...

**3 yanvar 1943 -cü il** - Azərbaycanın görkəmli ziyalısı, yazıçı, hüquqşünas Yusif Mirbala oğlu Vəzirov ***(Yusif Vəzir Çəmənzəminli)*** Qorki vilayətinin Suxobezvodnoye kəndində sürgündə olarkən həyata əlvida deyir...

**3 yanvar 1935-ci il** - Ermənilər ***"Ermənistan"***da türk mənşəli yer-yurd adlarını kütləvi surətdə dəyişdirməyə başlayırlar: Baş Abaran-Aparan, Baş Abaran rayonu-Aparan rayonu, Damcılı-Mravyan, Babakişi-Viyakan (Abaran rayonu); Boğazkəsən-Dzorakap, Bozdoğan-Sarakap, Molla Göyçə-Maralik (Ağin rayonu); Manas-Allahverdi, Hacıdur-Tsaxkaşat (Allahverdi rayonu); Qaranamaz-Yeni Yol, İyli Qarakilsə-İlli, Alakilsə-Baytar, Sultanabad-Şurabad, Quzukənd-Hozukənd, Ellər Oyuğu-Ellər (Amasiya rayonu); Paşakənd-Marmarik, Quru Fontan-Fontan, Dərəçiçək-Tsaxkadzor, Ərzəkənd-Arzakan (Axta rayonu); Avdalağalı-Vavaçen, Vəliağalı-Dzoradyuğ, Göl-Lisk, Dəlikdaş-Tsakkar, Aşağı Qaranlıq-Martuni, Alqırıx-Astxadzor, Zolaxaç-Zolaxar, Kolagirən-Tsovinar (Aşağı Qaranlıq rayo-nu); Əskipara-Voskepar, Ayrım sovxoz qəsəbəsi-Bdğovan, Balakənd-Dovex, Qurumsulu-Dostlu (Barana rayonu); Ağkilsə-Azad, Zərzibil-Zarkənd, Böyük Qaraqoyunlu - Əzizli, Qırxbulaq-Akipk, Güney-Sətənəxaç, Hüseynquluağalı-Nərimanlı, Sultanəliqışlaq- Canəhməd (Ba-

sarkeçər rayonu); Böyük Qarakilsə-Kirovakan-Quqark, Həmzəçimən-Bozigah, Dərəkənd-Dzoraqyuğ, Qamışqut-Yegeknut, Nikitino-Fioletovo, Hacıkənd-Debed (Böyük Qarakilsə rayonu); Dəvəli-Ararat, Keşişverən-Zovaşen, Çəmbərək-Surenavan, Aşağı Qarabağlar-Çimənkənd (Vedi rayonu); Vorontsovka-Kalinino, Boqdanovka-Noraşen, Qızılkilsə-Qızıldaş, Molla Eyyublu-Evli, Cücəkənd-Qızıl Şəfəq (Vorontsovka rayonu); Alılı-Salvard (Qarakilsə rayonu); Dəymədağlı-Şrvenants, Kilsəkənd-Şraşen, Kürdkənd-Lernad-zor, Sirkətac-Xdrants, Axtaxana-Xladağ (Qafan rayonu); Dəlilər-Dəllər, Aysoru Düyünü-Verin Dvin, İmanşalı-Mxçyan, Ayaslı-Haykestan, Axund Buzavand-Bzovan (Qəmərli rayonu); Alıxan-Getik, Üçüncü Qarakilsə-Dzoraşen, Qızılkilsə-Karmravan, Güllübulaq-Vardaxpyur, Gürcüyolu-Torosgyuğ, Dərəköy-Dərəkənd, Təzəkənd- Tazagyuğ, Titoy Xaraba-Bavra (Qızıl Qoç rayonu); Hacı Nəzər-Kamo, Aleksandrovka-Qəribcanyan, Türk Qarakilsəsi-Axurik, Böyük Kəpənəkçi-Musaelyan (Düzkənd rayonu); Kərpicli-Geğadir, Baş Gərni-Gərni, Cadqıran-Raz-dan, Göykilsə-Kaputan, Yelqovan-Kotayk (Ellər rayonu); Böyük Arxvəlli-Medz Mantaş, Kiçik Arxvəlli-Pokr Mantaş, Haçakilsə-Paros (Ərtik rayonu); Qızıldəmir-Voskevaz, İlançalan-Artaşavan (Əştərək rayonu); Şöllü Mehmandar-Mehmandar, Donuzyeyən-Zəngilər, Haçapara-Zəhmət, Eyləs-İpəkli, Həbilkənd-Kalinin (Zəngibasar rayonu); Yelenovka-Sevan, Çubuxlu-Dzovagyuğ (Yelenovka rayonu); Qaranlıqtəpə-Xavaradzor-Lusadzor, Saratu-Haçdərək-Həştərək, Haçasu-Açacur, Güney-Getaşen, Qaradaş-Sevkar, Aşhigah-Lalakənd-Laligyuğ, Bibis-Coğaz, Kirdəvan-Yenokavan, Ayrım Polad-Ayrım, Karvansaray-İcevan (Karvansaray rayonu); Göytur-Getap, Keşişkənd rayonu-Mikoyan rayonu, Həsənkənd-Şatin, Qoturvan-Qoduxvənd-Gədikvənd (Keşişkənd rayonu); Kəvər-Yeni Bayazid, Dəliqardaş-Saruxan, Kosaməmməd-Batıqyan (Kəvər rayonu); Gorus-Qoris, Qaladərəsi-Qalidzor (Gorus rayonu); Puşgah-Haykedzor (Meğri rayonu); Yeni Armavir-Nor Armavir, 10 nömrəli sovxoz-Dzerjinski qəsəbəsi, 3 nömrəli sovxoz-Likaşin qəsəbəsi, Hacı Bayram-Baxçalar, Qurdqulu-Armavir, Kərimarx-Sovetakan, Sərdarabad-Hoktember-Hoktemberyan, Molla Bayazit- Bambakaşat (Sərdarabad rayonu); Paşalı-Əzizbəyov, İtqıran-Gülüstan, Sultanbəy-Bartsruni (Soylan rayonu); Düzkənd-Baroj, Zorba-Sorik, Quldərviş-Vosketas, Pirmələk-Areq, Siçanlı-Avtona, Şıxhacı-Şqarşik (Talin rayonu); Üçkilsə-Vağarşapat-Eçmiədzin, Hacıqara-Hay Keşat, Hacılar-Mrqastan, Molladursun-Şaumyan (Üçkilsə rayonu); Bəykənd-Medz Pərni, Keşişkənd-Gehapot (Hamamlı-Spitak rayonu); Qırmızıkənd-Mixaylovka, Mixaylovka-Krasnoselsk (Çəmbərək rayonu); Qoturbulaq-Katnaxpyur (Calaloğlu-Stepanavan rayonu); Tovuzqala-Berd (Şəmşəddin-Berd rayonu)...





**3 yanvar 1938-ci il** - *"Üçlüyün"* qərarı ilə tanınmış ziyalı **Asəf Səttar oğlu Rəhmanov** güllələnir...

**3 yanvar 1938-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının bağlı məhkəmə iclasının bir gün əvvəl keçirilmiş iclasının qərarı ilə tanınmış ziyalı, SSRİ EA Azərbaycan filialının elmi işçisi, APİ-nin dilçilik kafedrasının müdiri **Abdulla Məmməd oğlu Tağızadə** güllələnir...

**3 yanvar 1938-ci il** - Azərbaycan SSR XDİK İdarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə içərisində azərbycanlı ziyalılar da olan **47** nəfər güllələnir...

**3 yanvar 1990-cı il** - Erməni yaraqlıları Əsgəran rayonunun ***Cəmilli*** kəndinə hücum edir. Atışma zamanı kənd sakini Yunis Abbasov ağır yaralanır...

**3 yanvar 1990-cı il** - Daşnaq terrorçular Xankəndində hərbi xidmətdə olan azərbaycanlı leytenant zabit Əzizovu və Kərəmli ***(Ağdərə rayonu)*** kəndinin çobanı Əşrəf Cəfərovu girov götürürlər. Əşrəfin otardığı çoxlu sayda qoyun sürüsü ermənilər tərəfindən oğurlanır...

**3 yanvar 1993-cü il** - Azərbaycan Respublikasının Prezidenti *"Ağdam rayonu ərazisində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında"* fərman verir...

**4 yanvar 838-ci il** - Xalq Qəhrəmanı Babək və onun qardaşı Abdulla əsir kimi Samirə şəhərinə gətirilir...

**4 yanvar 1668-ci il** - Şamaxıda minlərlə adamın ölümünə səbəb olan güclü zəlzələ baş verir...

**4 yanvar 1938-ci il** - Azərbaycan SSR XDİK İdarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı Sumbatovun əmri ilə tərkibində azərbaycanlıların da olduğu 50 nəfər güllələnir...

**4 yanvar 1990-cı il** - Əsgəran qəsəbəsi ilə Ağdam şəhərinin arasındakı körpü erməni terror qrupu üzvlərindən olan Q.Sarkisyan və başqaları tərəfindən partladılır...

**4 yanvar 1992-ci il** - Ağdam rayonunun Papravənd kəndi ermənilər tərəfindən atəşə tutulur...

**4 yanvar 1992-ci il** - Şuşa şəhərinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 1 nəfər dinc azərbaycanlı sakin ağır yaralanır. Başdan-başa muzey şəhəri olan Şuşanın bir neçə dəyərli memarlıq abidəsi dağıdılır...

**4 yanvar 1992-ci il** - Erməni hərbi silahlı birləşmələri Füzuli rayonunun ***Aşağı Veysəlli*** və ***Dördlər*** kəndləri istiqamətində hücuma keçirlər. Ölənlər və yaralananlar olur...

**4 yanvar 1993-cü il** - Erməni silahlı birləşmələri Füzuli rayonunun Aşağı

*Veysəlli kəndi* istiqamətində hücuma keçirlər. Müdafiə zamanı Azərbaycan tərəfi də xeyli itki verir...

**4 yanvar 1994-cü il** - Ağdam rayonunun *Salahlı Kəngərli kəndi* yaxınlığında tankları yandırıldıqdan sonra şuşalı **Tofiq Əhməd oğlu Əsədov** girov düşür, az sonra həlak olur...

**4 yanvar 1994-cü il** - Xocavənd rayonunun *Çeyilli* yüksəkliyi ərazisində ağır yaralansa da, axırıncı qumbaranı sinəsinə sıxıb özünü düşmən tankının altına ataraq, onu partladıb yoldaşlarını xilas edən 1964-cü il təvəllüdlü Ağcabədinin Hindarx kəndinin vətənpərvər, cəsur oğlu, Azərbaycanın Milli Qəhrəmanı **Etibar Bəylər oğlu İsmayılov** qəhrəmancasına həlak olur...

**4 yanvar 1994-cü il** - Ermənilərlə döyüşdə ağcabədili döyüşçülər - **Aydın Məhərrəm oğlu Cəfərov, Azər Hümmət oğlu Cəfərov, Rövşən Rəhim oğlu Cəfərov, Elşən Yusif oğlu Cəfərov, Elçin Piralı oğlu Daşdəmirov, Firdovsi Qafar oğlu Əbülhəsənov, Füzuli Qafar oğlu Əbülhəsənov, Münasib Hüseyn oğlu Əliyev, Zakir Kərəm oğlu Əliyev, Rafiq Türbəndə oğlu Həsənov, Vüqar Məhərrəm oğlu Həsənov, Namiq Fəxrəddin oğlu Hüseynov, Niyazi Voroşil oğlu Hüseynov, Faiq Şahmalı oğlu İbrahimov, Xaliq Fehruz oğlu İsmayılov, Sahib Həsən oğlu İsmayılov, Mübariz İsa oğlu Kərimov, Niyazi Savalan oğlu Kərimov, Namiq Vaqif oğlu Qəhrəmanov, Cahangir Əvəz oğlu Quliyev, Tahir Əbil oğlu Quliyev, Vüqar Yelmar oğlu Quliyev, Etibar Qənbər oğlu Mənsimov, Rizvan Qurban oğlu Orucov, Sənan Yusif oğlu Orucov, Fərid Əli oğlu Rüstəmov, Akif Binnət oğlu Şərəfov, Ceyhun Cavanşir oğlu Zeynalov** həlak olurlar...

**5 yanvar 1841-ci il** - Zaqafqaziyada, o cümlədən də Azərbaycanda dövlət əmlakının idarə olunması haqqında qanun **"birtərəfli"** qüvvəyə minir...

**5 yanvar 1842-ci il** - Cənubi Qafqaz diyarında **2 Dövlət Əmlakı Palatası** yaradılır...

**5 yanvar 1918-ci il** - Erməni quldur birləşmələri **Axalkalaki** yaxınlığındakı ***Acaraca, Danqal, Mulanis, Murcaxet, Radızka, Qavur, Gumriz*** kəndlərinə basqın edirlər. Bütün kəndlərin əhalisi vəhşicəsinə öldürülür...

**5 yanvar 1919-cu il** - Andranikin silahlı quldur dəstəsi Zəngəzur qəzasının azərbaycanlılar yaşayan **Quşçulu, Əcili, Aqqız** kəndlərini dağıdıb yandırır, əhalisinin bir hissəsini qırırlar...

**5 yanvar 1938-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə tanınmış ziyalı, SSRİ EA Azərbaycan filialının baş elmi əməkdaşı, ADU-nun Əsaslı kitabxanasının direktoru **Ağamir Sadıq oğlu Məmmədov** güllələnir...

**5 yanvar 1938-ci il** - Azərbaycanın görkəmli şairi **Mikayıl Müşfiq Qədir oğlu**





**İsmayılzadə** az zaman kəsiyində davam edən qondarma məhkəmədən sonra güllələnir...

**5 yanvar 1992-ci il** - Ağdam rayonunun *Mərzili* kəndi yaxınlığında yerləşən milis postu ermənilər tərəfindən atəşə tutulur. *1* nəfər ağır yaralanır...

**5 yanvar 1992-ci il** - Goranboy rayonunun **Şəfəq kəndi** ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar olur...

**6 yanvar 1478-ci il** - Ağqoyunlu hökmdarı **Uzun Həsən** Gürcüstana səfərə hazırlaşarkən **54** yaşında ölür...

**6 yanvar 1918-ci il** - Daşnaq terrorçuları Zəngəzur qəzasının Qarakilsə kəndində **türk qətliamı** törədirlər. **165** nəfər dinc sakin erməni amansızlığının qurbanı olur...

**6 yanvar 1919-cu il** - Andranikin silahlı dəstələri Zəngəzurun **Rəzdərə, Əsgərli** və **Vəlili** kəndlərinə basqın edir. Bu kəndlərin əhalisinə yaşından, cinsindən asılı olmayaraq divan tutulur; onlar qətlə yetirilir. Kəndlər darmadağın edilir...

**6 yanvar 1920-ci il** - Terrorçu erməni silahlıları Şirakel mahalının ***Düzkənd*** kəndinə basqın edirlər. **86** nəfər dinc sakin amansızlıqla qətlə yetirilir...

**6 yanvar 1920 - ci il** - Erməni daşnaqları Dərələyəzin ***Bilək*** kəndinə basqın edirlər. **50** kişi , **50** qadın və **25** uşaq qətlə yetirilir. Kənd tamamilə dağıdılır...

**6 yanvar 1938-ci il** - Azərbaycan SSR XDİK İdarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə tərkibində günahsız azərbaycanlılar olan **47** nəfər güllələnir...

**6 yanvar 1990-cı il** - Sübh çağı Ağdam şəhərində təzəcə tikilib istifadəyə verilmiş avtovağzalda partlayış baş verir. Avtovağzalın kassiri **Fuad Nağıyev** və sürücü **Fariz Ağayev** həlak olur; **2** nəfər isə ağır yaralanır...

**6 yanvar 1992-ci il** - Goranboy rayonunun Milli Özünümüdafiə Qüvvələrinin postuna ermənilər tərəfindən hücum edilir. **1** nəfər həlak olur, **7** nəfər yaralanır...

**6 yanvar 1992-ci il** - Erməni yaraqlıları Xocavəndin ***Axullu*** kəndinə basqın edirlər. Milis işçisi, 2 qız atası **Qabil Atakişiyev** qətlə yetirilir...

**6 yanvar 1992-ci il** - *«Referendum»*un nəticələrinə əsasən *«Dağlıq Qarabağ Respublikası»*nın Ali Soveti ***«Dağlıq Qarabağ Respublikası»***nın müstəqilliyi haqqında ***Bəyannamə*** qəbul edir. Azərbaycanın rəsmi dövlət qurumları bu məsələyə nədənsə etinasız yanaşırlar...

**6 yanvar 1992 -ci il** - Ağdamdakı *2711* saylı avtomobil dəstəsinə məxsus olan **61-98 AQD** nömrəli avtomaşın erməni terrorçularının basqınına məruz qalır. Sürücü **Famil Kazımov** qətlə yetirilir; avtomaşın basqınçılar tərəfindən

oğurlanır...

**6 yanvar 1993-cü il** - Cəbrayıl rayonunun ***Sirik*** kəndindəki post ermənilər tərəfindən atəşə tutulur...

**6 yanvar 1993-cü il** - Füzuli rayonunun bəzi kəndləri ermənilər tərəfindən raket atəşinə tutulur. İtkilər və dağıntılar olur...

**7 yanvar 1920-ci il** - Erməni silahlı quldurları Türkiyənin ***Donuxlu*** kəndinin bütün **12** müsəlman ailəsini qonşu ***Zeytun*** kəndinə apararaq, orada vəhşicəsinə qırırlar. Öldürülənlər arasında qadınlar, qocalar və uşaqlar da olur...

**7 yanvar 1990-cı il** - Ermənilər Xankəndi yaxınlığındakı ***Kərkicahan*** yaşayış məntəqəsinə hücum edir. Dağıntılar olur...

**7 yanvar 1990-cı il** - Erməni terrorçuları Xocalıya gedən dəmir yolunu yenidən partladırlar...

**7 yanvar 1992-ci il** - Ağdamdan Xocavənd rayonunun ***Qaradağlı*** kəndinə uçan vertolyot ermənilər tərəfindən 2 dəfə atəşə tutularaq zədələnir...

**7 yanvar 1992-ci il** - Füzuli rayonunun ***Yuxarı Veysəlli*** kəndinə erməni yaraqlıları basqın edir. Kənd sakini **Əhəd İsgəndərov** qətlə yetirilir, daha **4** nəfər dinc sakin güllə yarası alır...

**7 yanvar 1994-cü il** - Goranboy rayonu ərazisindəki ***Keçəlpətə*** uğrunda şiddətli döyüşlər gedir. İtkilər olur...

**7 yanvar 1998-ci il** - *"Vartan cəngavərləri"*nin Dağlıq Qarabağla əlaqədar iş adamları və diaspora nümayəndələri - ***O.Babayan, S.Solemanyan, T.Badamçıyan, Q.Qriqoryan, L.Şaqen, F.Petrosyan*** və başqaları tərəfindən imzalanmış ilk məktubu Prezident Bill Klintona təqdim edilir...

**8 yanvar 1780-cı il** - Xoy və Təbrizə də ciddi ziyan vuran güclü **zəlzələ** baş verir. **120.000** adam həlak olur...

**8 yanvar 1919-cu il** - Erməni quldur dəstələri Zəngəzur qəzasının ***Quşçulu, Hacılar, Ərkötü, Ağsallı, Sağarcalan, Açaquz, Oxçu*** kəndlərinə basqın edirlər. Çoxlu sayda kənd sakinləri qətlə yetirilir...

**8 yanvar 1938-ci il** - Azərbaycan SSR XDİK İdarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə tərkibində azərbaycanlılar da olan 49 nəfər güllələnir...

**8 yanvar 1992-ci il** - Xocavənd rayonunun ***Qaradağlı*** kəndi yaxınlığında erməni quldurları Böyük Vətən müharibəsi iştirakçısı **Qasım Hüseyn oğlu Əliyevi** amansızlıqla qətlə yetirirlər...





**8 yanvar 1992-ci il** - Saat *15.30*-da erməni yaraqlıları Xocavənd rayonunun Qaradağlı kəndinə güclü hücum edir. Milli Ordu döyüşçülərindən ***Məzahir Gülverdiyev*** qarın nahiyəsindən *(bir gün sonra o, əbədiyyətə qovuşur)*, ***Hidayət Əliyev*** isə ayağından yaralanır. Saat *17.00*-da ermənilər yaşayan Qağarza və Raravatumb kəndlərindən böyük dağıdıcı gücə malik olan *8* ədəd *«Alazan»* tipli raket mərmisi kəndə düşür. Bir neçə ev dağılıb yerlə yeksan olur...

**8 yanvar 1992-ci il** - Türkmənistandan ***"Krasnovodsk (Türkmənbaşı) - Bakı"*** reysi ilə hərəkət edən və sərnişin daşıyan ***"Sovetskaya Kalmıkiya"*** dəniz bərəsində erməni terrorçuları tərəfindən törədilən terror aktı nəticəsində *25* nəfər həlak olur, *88* nəfər yaralanır...

**8 yanvar 1993-cü il** - *Kəlbəcər, Zəngilan, Ağdam, Füzuli, Cəbrayıl* rayonlarının bir sıra kəndləri ermənilər tərəfindən atəşə tutulur. İtkilər və dağıntılar olur...

**9 yanvar 1606-cı il** - I Şah Abbas Şamaxı üzərinə yürüş edir. Çoxlu sayda adamlar ölür...

**9 yanvar 1919-cu il** - Zəngəzurdakı ***Pazdar*** kəndi ermənilər tərəfindən talan edilir, sakinlərinin bir hissəsi *(mənə yaşlı adamların dediklərinə görə 20 nəfərdən çox)* vəhşicəsinə öldürülür...

**9 yanvar 1938-ci il** - Azərbaycan SSR XDİK İdarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə tərkibində günahsız azərbaycanlılar da olan **45** nəfər güllələnir...

**9 yanvar 1978-ci il** - Qum şəhərində konstitusiya prinsiplərinə əməl olunması və şahlığın ləğv edilməsi tələbini edən növbəti nümayiş güllələbaran olunur. Onlarla adam öldürülür, yüzlərlə adam yaralanır. İranda demokratik dəyişikliklər uğrunda çıxış edən ruhanilərin nümayişi də ***güllələbaran*** edilir. Güllələbaran zamanı çoxlu sayda azərbaycanlı da həlak olur...

**9 yanvar 1990-cı il** - *Qraçik Sarkisyanın* başçılıq etdiyi erməni terrorçuları Şuşa rayonundan olan azərbaycanlıları girov götürürlər...

**9 yanvar 1990-cı il** - Ermənistan parlamenti DQMV-in iqtisadi inkişafı ilə bağlı qanunsuz müzakirə keçirir. Sessiyada *Şaumyankənd* rayonu *Çaykəndlə* birlikdə ***Dağlıq Qarabağ*** ərazisi kimi göstərilir...

**9 yanvar 1991-ci il** - Xocavənd rayonunun *Qaradağlı* kənd sakini, 1958-ci il təvəllüdlü Sultan Rəşid oğlu Bayramov *"UAZ - 469"* markalı ***53-55 AQT*** dövlət nişanlı maşında ermənilər tərəfindən qətlə yetirilir. Sürücü ***N. Səmədov*** ağır güllə yarası alır...

**9 yanvar 1991-ci il** - *Laçın-Şuşa* yolunun ***Qaladərəsi*** kəndi yaxınlığında *"Mo-*

*lodyoj Azerbaydjana"* qəzetinin müxbiri **Salatın Əsgərova** *(Azərbaycanın Milli Qəhrəmanı)* və onunla bir yerdə olan **3** nəfər hərbi qulluqçu *(kəşfiyyat batalyonunun komandiri, polkovnik* **Anatoli İllarianov,** *Laçın rayonunun hərbi komendantlığı qərargahının rəisi, mayor* **İqor İvanov** və *Sovet Ordusunun serjantı* **İvan Tojekin)** daşnaq ermənisi ***Arno Mixayloviç Mkrtıçyanın*** rəhbərlik etdiyi qrupun törətdiyi ***terror aktı*** nəticəsində vəhşicəsinə qətlə yetirilirlər...

**9 yanvar 1992-ci il** - Erməni yaraqlıları Füzuli rayonunun ***Qaradağlı*** kəndi istiqamətində güclü hücuma keçir. **Yavər İsgəndərov, Bəkir Quliyev, Nəriman Həsənov,** Milli Qəhrəmanlar - **Faiq Qəzənfər oğlu Rəfiyev** və **Nazim Qabil oğlu Quliyev** Füzuli rayonunun Qaradağlı kəndi ərazisində gedən döyüşdə həlak olurlar. Kənd sakinləri - ***Ələkbər Mənsimov, Natiq Əbdürrəhimov, Şahin Xəlilov, Şirəli Hüseynov, Nurəddin Məmmədov, Tahir Əhmədov, Natiq Hacıyev*** ağır yaralanırlar...

**9 yanvar 1992-ci il** - Xocavənd rayonunun **Axullu** kəndindən sonuncu azərbaycanlı da ermənilər tərəfindən qovularaq çıxarılır. Erməni yaraqlılarının təhriki və təkidi ilə kənd boşaldılır...

**10 yanvar 1732-ci il** - Paytaxt İsfahandan uzaqlarda olan Nadirqulu xanın razılaşmamasına baxmayaraq Osmanlılarla Səfəvilər arasında Bağdadda ***alçaldıcı müqavilə*** imzalanır. Bu anlaşmaya görə ***Təbriz, Ərdəhan, Kirmanşah, Həmədan, Hüveyzə*** və ***Loristan*** Səfəvilərə qalır; ***İrəvan, Naxçıvan, Tiflis, Gürcüstanın bir çox hissəsi, Gəncə, Şirvan və Dağıstan*** Osmanlılara verilir. Araz çayı iki dövlət arasında sərhəd olur. Ancaq Sultan da, Nadir də bu sənədi qəbul etmədikləri üçün o, tam gerçəkləşə bilmir...

**10 yanvar 1918 -ci il** - Erməni daşnaqları Zəngəzurda Mülk kəndinə hücum edirlər. 150 nəfər dinc sakin vəhşicəsinə qətlə yetirilir. Kənd yerlə yeksan edilir...

**10 yanvar 1990-cı il** - SSRİ AS RH Ermənistan AS-nın Dağlıq Qarabağa dair 1989-cu ilin dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi qərarların SSRİ Konstitusiyasına müvafiq olmaması barədə qərar qəbul edirsə də Ermənistanda buna diqqət verilmir...

**10 yanvar 1990-cı il** - DQMV Xüsusi İdarəsinin silahlı dəstə üzvləri ***Axullu*** kəndindəki mövqelərdə keşiş çəkən azərbaycanlı milis nəfərlərinə hücum edir. Toqquşma nəticəsində hücum edən tərəfdən vzvod komandiri leytenant **Tsibolyuk** həlak olur...

**10 yanvar 1990-cı il** - M.Qorbaçovun imzası ilə Dağlıq Qarabağ Muxtar Vilayət Partiya Komitəsinin fəaliyyətinin bərpa edilməsi haqqında ***qərar*** verilir...

**10 yanvar 1991-ci il** - Goranboy rayonunun ***Qazanbulaq*** ərazisində milis postu ermənilər tərəfindən atəşə tutulur. **400** baş qoyun oğurlanır...





**10 yanvar 1992-ci il** - Respublika Təşkilat Komitəsi ***Xankəndi*** şəhərini tərk edir...

**11 yanvar 1918-ci il** - Erməni daşnaq terrorçuları Zəngəzurun ***Qarakilsə*** kəndinə basqın edirlər. **49** nəfər azərbaycanlı dinc sakin amansızlıqla qətlə yetirilir...

**11 yanvar 1918-ci il** - Sovet Rusiyası *«Türkiyə Ermənistanı»* haqqında ***dekret*** verir...

**11 yanvar 1990-cı il** - DQMV Xüsusi Təyinatlı Silahlı Dəstələri ***Füzuli*** şəhərinə daxil olur. Şəhərdə izdihamlı mitinq keçirilir. Füzuli fövqəladə vəziyyət rayonunun komendantı, podpolkovnik ***Fetisov,*** eləcə də DTK və DİN rayon şöbələri əməkdaşlarının mitinqi pozmaq, dağıtmaq cəhdləri bir nəticə vermir...

**11 yanvar 1990-cı il** - Xocalıya yardım aparan qubalıların maşın karvanına ***Əsgəran*** yaxınlığında ermənilər basqın edir...

**11 yanvar 1990-cı il** - Lənkəranda hökumət orqanlarının fəaliyyəti dayandırılır...

**11 yanvar 1992-ci il** - Erməni quldur birləşmələri Füzuli rayonunun ***Cuvarlı, Hoğa*** (Üçbucaq) və Xocavənd rayonunun ***Axullu*** kəndlərinə hücum edirlər. Kənd sakinləri arasında ölənlər olur...

**11 yanvar 1992-ci il** - Erməni yaraqlıları ***Qaradağlı*** *(Xocavənd rayonu)* kəndinə hücum edirlər. Təqaüdçü ***Böyükkişi Lələ oğlu Şirinov*** ağır yaralanır. Əmək veteranı, **82** yaşlı **Qasım Əliyev** kəndin yaxinlığındakı *"Pambıqlı"* deyilən sahədə qoyun-quzu otardığı zaman ***Kəndxurd*** kəndindən atılan gülləyə tuş gəlir. 80-dan çox qoyun ermənilər tərəfindən oğurlanıb aparılır. Arasıkəsilmədən açılan atəşlərdən Qasım kişinin meyidi 2 gün dəfn edilə bilmir...

**11 yanvar 1993-cü il** - Füzuli rayonunun qərb əraziləri ermənilər tərəfindən güclü artilleriya qurğularından atəşə tutulur. Dağıntılar olur...

**11 yanvar 1994-cü il** - Ermənistan hərbi birləşmələri cəbhənin Tərtər istiqamətindəki ***Lüləsaz*** ***(keçmiş Akop Komari)*** kəndi səmtində, Ağdam və Beyləqan istiqamətlərində hücum etməyə cəhd göstərir...

**12 yanvar 1746-cı il** - Nadir şah cəfəriliyin qəbulu və şiələrə ***Kəbədə*** bir rükn ayrılması məsələsindən əl götürdüyünü, ancaq rükn olmadığına görə şiələrin **4** məzhəb adamlarından istədiklərinə qoşularaq *Həccin* tələblərini yerinə yetirmələrinə icazə verilməsini tələb edir...

**12 yanvar 1943-cü il** - Sovet qoşunları tərəfindən *Leninqradın mühasirəsi* ya-

rılır. Bir həftə davam edən bu qanlı döyüşlərdə yüzlərlə azərbacanlı igidlər də həlak olur...

**12 yanvar 1945-ci il** - Sovet qoşunları bütün cəbhə boyu hücuma keçir. Bu qanlı döyüşlərdə minlərlə azərbaycanlı da həlak olur...

**12 yanvar 1989 - cu il** - Erməni daşnaqlrı ***Xanlar** (Göygöl)* rayonunun Todan kəndinə hücum edirlər. **4** nəfər dinc sakin qətlə yetirilir...

**12 yanvar 1989-cu il** - SSRİ Ali Soveti Rəyasət Heyəti Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək məqsədilə *"Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında"* ***qərar*** qəbul edir. *A. Volskinin* başçılığı ilə Xüsusi İdarə Komitəsi (XİK) yaradılır. Komitənin tərkibinə **5** rus, **2** erməni, **1** nəfər azərbaycanlı təyin edilir...

**12 yanvar 1990-cı il** - Erməni yaraqlıları Goranboy rayonunun ***Todan*** kəndinə hücum edir. Kənddən **7** nəfər girov götürülür. Onlardan **4** nəfəri **(Abbasqulu, Bəxtiyar, Əliqara, Yadigar)** vəhşicəsinə qətlə yetirilir...

**12 yanvar 1990-cı il** - Xanlar rayonunun ***Quşçu*** kəndinə basqın edən **500** nəfər silahlı ermənilər kəndi dağıdır, onlarla silahsız, əliyalın azərbaycanlını vəhşicəsinə öldürürlər. Qadınlar, uşaqlar, qocalar ***güllələbaran*** edilir...

**12 yanvar 1992-ci il** - Ağdamdan ***Qaradağlıya*** uçan vertolyot atəşə tutulur. Vertolyotla Qaradağlı kəndinə *(Xocavənd rayonu)* ərzaq və hərbi sursat gətirən kənd icra hakimiyyətinin nümayəndəsi ***Cavay Hüseynov*** ağır yaralanır. Güclü atəş səbəbindən **2** saat ərzində ona kömək etmək mümkün olmur. O, çoxlu qan itirir. Həmin gün daha **2** nəfər - ***Şahruz Əliyev*** və kənd mağazasının müdiri ***Alov Əzizov*** da yaralanırlar...

**13 yanvar 1918-ci il** - Terrorçu erməni yaraqlıları Zəngəzur qəzasının azərbaycanlılar yaşayan **Pulkənd** yaşayış məntəqəsinə basqın edərək **19** nəfər dinc sakini qətlə yetirir. Kənd basqınçılar tərəfindən talan olunur...

**13 yanvar 1990-cı il** - Bakıda bir erməni daşnaq muzdlusu tərəfindən **2** nəfər azərbaycanlı qətlə yetirilir. Şəhərdə müxtəlif erməni talanları həyata keçirilir...

**13 yanvar 1990-cı il** - Füzuli rayon PK-nın birinci katibi ***Cavanşir Məmmədov*** istefa verir. Rayonun bir neçə yerində qarşıdurma hallarına yol verilir. Rayon mərkəzində **20. 000** nəfərlik izdihamlı mitinq keçirilir. Rayon PK-nın binasında plenum axşamadək davam edir. Plenumun işində Azərbaycan KP MK Təşkilat Şöbəsinin müdiri ***Səbuhi Abdinov*** iştirak edir...

**13 yanvar 1990-cı il** - Goranboy rayonunun ***Todan*** kəndi ərazisində şiddətli döyüş gedir. Erməni yaraqlıları fermada işləyən ata və onun oğlunu girov





götürür, bir nəfəri isə yaralayırlar. Ermənistana məxsus vertolyot kəndlərin üzərindən uçub atəş açaraq **3** nəfər Gəncə sakinini və **1** nəfər Todan kənd sakinini *(kolxoz sədri)* qətlə yetirir. Ermənistandan Çaykəndə vertolyotla silah və ərzaq gətirilir...

**13 yanvar 1992-ci il** - *Kərkicahan qəsəbəsi* ermənilər tərəfindən atəşə tutulur. Qəsəbə sakini İlham Bahadur oğlu Əliyev həlak olur, ***Asif Ələkbərov*** yaralanır, **2** ev yandırılır...

**13 yanvar 1992-ci il** - Milli Qəhrəman **Mehdi Yusif oğlu Abbasov** *Məlikcan* kəndi ətrafında erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**13 yanvar 1994-cü il** - Milli Qəhrəman **İsrafil Şahverdi oğlu Şahverdiyev** Füzuli rayonunun *Horadiz* kəndi uğrunda döyüşdə həlak olur...

**14 yanvar 1938-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə aralarında azərbaycanlı ziyalılar da olan **238** nəfər güllələnir...

**14 yanvar 1990-cı il** - Daşnaq terrorçular *Hadrut (Xocavənd)* rayonunun ***Tuğ*** kəndinə basqın edərək kəndin keşiyini çəkən hərbçilərdən birini qətlə yetirirlər...

**14 yanvar 1990-cı il** - Erməni yaraqlıları **5** azərbaycanlını qətlə yetirir...

**14 yanvar 1990-cı il** - Bakıdan Naxçıvana gedən qatara ***Meğri*** rayonu ərazisində ermənilər tərəfindən silahlı basqın olunur...

**14 yanvar 1990-cı il** - Ermənilər vertolyotla *Xanlar (Göygöl)* rayonunun ***Aşıqlar*** kəndinə hücum edirlər. **1** nəfər ölür, xeyli adam yaralanır...

**14 yanvar 1990-cı il** - Erməni yaraqlıları ***Hacıkənd*** yaşayış məntəqəsinə basqın edirlər. Kənd sakinləri - **Nemət Əli oğlu Vəliyev, Səbuhi Hacıyev, Ələkbər Hüseynov** amansızlıqla qətlə yetirilir...

**14 yanvar 1992-ci il** - Ağdam rayonunun ***Gülablı*** kəndi atəşə tutulur...

**14 yanvar 1992-ci il** - Milli Qəhrəman **Elman Süleyman oğlu Hüseynov** Qarabağın ***Vəng*** kəndi istiqamətində gedən qanlı döyüşdə həlak olur...

**14 yanvar 1994-cü il** - Erməni separatçılarının ideoloqlarından biri, yazıçı ***Zori Balayan*** milliyyətcə ləzgi olan hərbi əsir ***Azər Aslanovla*** *(o, 3 iyul 1994-cü il tarixdə Bakı metrosunun "28 May" və "Gənclik" stansiyaları arasında qatarda terror aktını həyata keçirmişdir)* görüşür...

**14 yanvar 1999-cu il** - Qeyri-adi zəkaya malik olan tanınmış ziyalı, alim, pedaqoq, şair, rəssam, jurnalist, münəccim, loğman, açıq fikirli xeyirxah insan, hadisələri öncəgörmək duyumlu ekstrasens **Etibar Elkin Məmmədəliyev** ***51*** yaşında Bakıda, Bayıldakı evində **2** gənc və idmançı oğlu ilə bərabər gecədən xeyli



8396
İşlər ... PREZİDENT KİTABXANASI

keçmiş muzdlu qatillər tərəfindən müəmmalı şəkildə *faciəli surətdə* qətlə yetirilir...

**14 yanvar 2002-ci il** - Baş qərargahı Şuşada yerləşən *"Kollektiv kəşfiyyat"*ın qeyri-leqal ilk yığıncağı keçirilir. Bunu ***Yerevan-Tehran*** əməkdaşlığının yeni səhifəsi hesab etmək olar...

**15 yanvar 1906-cı il** - Ümumrusiya müsəlmanlarının bir həftə davam edən və fikir ayrılıqları ilə müşayiət olunan ***II qurultayı*** keçirilir...

**15 yanvar 1915-ci il** - Rus qoşunları türk hərbi dəstələrini məğlubiyyətə uğradır...

**15 yanvar 1919-cu il** - Azərbaycan hökuməti tərəfindən ***Zəngəzur, Cavanşir, Cəbrayıl, Şuşa*** qəzaları hüdudlarında ərazisi mübahisə predmeti olan *"Qarabağ general-qubernatorluğu"* yaradılır...

**15 yanvar 1919-cu il** - Erməni yaraqlıları Göyçə dairəsi və Novobayazid qəzasındakı azərbaycanlılar yaşayan kəndlərdə ***qırğınlar*** törədirlər. Onlarla adam vəhşicəsinə öldürülür, yandırılır...

**15 yanvar 1943-cü il** - Böyük Vətən müharibəsi qəhrəmanı **Əli Əsədulla oğlu Dadaşov *(Lyonya Dadışev)*** güllələnir...

**15 yanvar 1989-cu il** - Daşnaq terrorçular Goranboy rayonunun ***Todan*** kəndinə ikinci dəfə silahlı basqın edirlər. Onlar **2** nəfər əliyalın, dinc sakini qətlə yetirirlər...

**15 yanvar 1989-cu il** - Daşnaq erməni yaraqlıları *Xanlar (Göygöl)* rayonunun ***Todan*** kəndinə ikinci dəfə basqın edir. **2** nəfər dinc sakin qətlə yetirilir...

**15 yanvar 1989-cu il** - M.Qorbaçovun fərmanı ilə Dağlıq Qarabağda ***"Xüsusi vəziyyət"*** elan edilir. Azərbaycanda, o cümlədən, Dağlıq Qarabağda saat 23-dən etibarən ***fövqəladə xüsusi vəziyyət*** elan olunur...

**15 yanvar 1990-cı il** - Ağdam rayon xəstəxanasına Xocavənddən ermənilərin xəsarət yetirdikləri **2** ağır yaralı gətirilir...

**15 yanvar 1990-cı il** - SSRİ Ali Soveti Rəyasət Heyətinin *«Dağlıq Qarabağda və bir neçə digər rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında»* 15 yanvar 1990-cı il tarixli əmrində Ermənistan SSR Ali Sovetinin Dağlıq Qarabağa dair qəbul etdiyi SSRİ Konstitusiyasına uyğun gəlməyən aktların millətlərarası münasibətlərin gərginləşməsinə gətirib çıxardığı göstərilir. DQMV və ona bitişik ərazilərdə ***fövqəladə vəziyyət*** elan edilir...

**15 yanvar 1990-cı il** - Erməni quldur birləşmələri Laçın rayonunun ***Hacılar*** kəndinə hücum edir. Kənd sakini, 1946-cı il təvəllüdlü **Allahverən Fərman oğlu Əbdüləzimov** *"Pirin yanı"* deyilən sahədə daşnaq terrorçusu tərəfindən vəhşi-





cəsinə öldürülür. Onun nobatçı yoldaşı ***Əhmədov*** isə aldığı güllə yarasından həmişəlik şikəst qalır.Terrorçular qoyun sürülərini də çəkib aparırlar...

**15 yanvar 1990-cı il** - Goranboy rayonunun ***Todan*** kəndində **2** azərbaycanlı **(Bayram İsmayıl oğlu Nəsibov, Yusif Zabit oğlu Kosayev)** ermənilər tərəfindən amansızlıqla qətlə yetirilir...

**15 yanvar 1990-cı il** - Kərkicahanda **3** azərbaycanlı erməni yaraqlıları tərəfindən öldürülür...

**15 yanvar 1990-cı il** - Səhər tezdən Bakıda ***yer sürüşməsi*** nəticəsində Qırmızıbayraqlı Xəzər Donanması baş bazasının bir neçə binası uçur. **22** nəfər Xəzər dənizçisi torpaq altında qalır. Bütün qüvvələr xilasetmə işlərinə cəlb olunur...

**15 yanvar 1992-ci il** - Əylis kəndi yaxınlığında Culfa şəhər sakinləri ermənilər tərəfdən atəşə tutulur. **2** nəfər həlak olur; **4** nəfər yaralanır...

**15 yanvar 1992-ci il** - Xankəndi şəhərinin yaxınlığında yerləşən ***Kərkicahan*** qəsəbəsi istiqamətində aparılan döyüşdə uğur qazanılmır. Döyüşçülərimiz qəsəbədən geri çəkilməyə məcbur olur...

**15 yanvar 1994-cü il** - Erməni hərbi birləşmələri Füzuli rayonunun ***Horadiz*** və ***Dördçinar*** kəndlərinə hücum edir. Tələfat və dağıntılar olur...

**16 yanvar 1732-ci il** - Səfəvi *(İran)* və Osmanlı *(Türkiyə)* imperatorluqları arasında imzalanmış *"Kirmanşah sülh müqaviləsi"* şərtlərinə görə ***İrəvan, Tiflis, Gəncə, Şamaxı, Şirvan*** bölgələri Osmanlılara verilir. Araz çayı hər iki dövlət arasında sərhəd hesab olunur...

**16 yanvar 1872-ci il** - Şamaxıda dağıntı və tələfatla nəticələnən güclü **zəlzələ** baş verir...

**16 yanvar 1920 - ci il** - Erməni silahlı birləşmələri Dərələyəzin ***Civə*** kəndini bombalayır. Kəndin **4** nəfər dinc sakini həlak olur...

**16 yanvar 1979-cu il** - İran şahı Məhəmməd Rza Misirə qaçır...

**16 yanvar 1989-cu il** - Daşnaq erməni yaraqlıları Goranboy rayonunun ***Şəfəq*** kəndinə basqın edir. **1** nəfər kənd sakini qətlə yetirilir...

**16 yanvar 1990-cı il** - Səhər saat ***4.55***-də erməni quldurları ***Martuni*** *(Xocavənd)* rayon İcra Hakimiyyəti başçısının Qaradağlı kəndi üzrə nümayəndəsinin müavini Murad Quliyevin, eləcə də Qiyas kişinin, Telman müəllimin, Elyar və Fazilin evlərini gülləyə tuturlar. Günorta Muğanlı kəndinin könüllü döyüşçüləri digər əsgərlərlə birlikdə Qaradağlını xilas etmək məqsədi ilə Xocavənd yaşayış məntəqəsi istiqamətində hücuma keçir. Arxadan texnika və kömək gəlmədiyi üçün döyüşçülərimiz geri çəkilməyə məcbur olur...

**16 yanvar 1990-cı il**- Erməni daşnaqlarının basqını nəticəsində Goranboy

rayonunun *Şəfəq* kəndində *1* nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirilir...

**16 yanvar 1990-cı il** - Ermənilər böyük qüvvə ilə Naxçıvan MR-nın ***Kərki*** kəndinə hücum edirlər...

**16 yanvar 1990-cı il** - Laçın rayonunun ***Hacılar*** kəndində **1** nəfər azərbaycanlı ermənilər tərəfindən öldürülür...

**16 yanvar 1992-ci il** - Xocavənd rayonunun ***Əmirallar*** kəndinin atəşə tutulması nəticəsində rayon icra hakimiyyəti başçısının müavini **Şahlar İbrahimov** həlak olur; daha **3** nəfər isə ağır yaralanır...

**16 yanvar 1992-ci il** - Fərrux kəndi və *"Qlobus"* yüksəkliyi yaxınlığında gərgin döyüşlər gedir. Azərbaycan hərbi rəhbərliyi nədənsə müdafiəyə keçməyə əmr verir...

**16 yanvar 1993-cü il** - Sərdar Həmidovun başçılıq etdiyi batalyon ***Çıldıran*** istiqamətində hücuma keçirsə də dərhal əvvəlki mövqeyinə qayıdır...

**16 yanvar 1993-cü il** - Qarabağın ***Çıldıran, Sırxavənd, Fərrux*** kəndləri və ***«Qlobus»*** yüksəklikləri istiqamətində iri miqyaslı hücum əməliyyatı keçirilir. Azərbaycan ordusu qələbə qazana bilməyib geri çəkilir. **30** nəfər azərbaycanlı əsgər şəhid olur...

**16 yanvar 2001-ci il** - Baş qərargahı Parisdə olan ***"Vartan cəngavərləri"*** radikal erməni qrupu dünyanın müxtəlif ölkələrində məskən salmış separatçı erməni diasporaları öz aralarında əslində azərbaycanlılara və türklərə qarşı yönəlmiş razılaşma və bağlaşma imzalayırlar...

**17 yanvar 1915-ci il** - Rus qoşunları Təbrizin işğalına başlayır...

**17 yanvar 1918-ci il** - Naxçıvanın ***Əznaburd*** kəndində erməni cəlladlarının törətdikləri vəhşiliklər nəticəsində **22** nəfər azərbaycanlı dinc sakin qətlə yetirilir...

**17 yanvar 1990-cı il** - Bakıda respublika rəhbərliyinin istefası tələb olunan ***Ümumxalq mitinqləri*** keçirilir...

**17 yanvar 1993-cü il** - Qarabağın **Vəng** kəndi ərazisində gedən döyüşlərdə igid tərtərlilər - **İlham Arif oğlu Allahverdiyev** və **Əli Zakir oğlu İsmayılov** həlak olurlar...

**17 yanvar 1994-cü il** - Tərtər bölgəsində şəmkirli döyüşçülər - **Bəylər Əli oğlu Abdullayev, Zakir Xalıqverdi oğlu Alırzayev** şəhid olurlar...

**17 yanvar 1994-cü il** - Səhər tezdən erməni quldurları Füzuli rayonu ərazisində, ***Horadiz*** qəsəbəsi istiqamətində yenidən hücuma keçir. Tələfat və dağıntılar olur...





**18 yanvar 1293-cü il** - Görkəmli elm və hünər sahibi, xəttat, musiqiçi, şair, filosof **Səfiyəddin Əbdülmömin ibn Yusif ibn Faxir Urməvi** *80* yaşında həbsxanada keçinir...

**18 yanvar 1915-ci il** - *Sarıqamış əməliyyatı* rusların qələbəsi ilə başa çatır...

**18 yanvar 1920 ci il** - Silahlı ermənilər *Böyük Vedi-Dəvəli* yolunu tuturlar. Burada çoxlu sayda azərbaycanlılara qarşı amansız ***qətllər*** törədilir...

**18 yanvar 1920-ci il** - Rusiya K(b)P MK-nin Siyasi Bürosu Azərbaycan hökumətinə münasibət məsələsini müzakirə edir. G.Çiçerinin məruzəsi və V.İ.Leninin təklifi üzrə iclas Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə ruhunda ***qərar*** qəbul edir. Qərarda göstərilir ki, *Xalq Xarici İşlər Komissarlığına tapşırılır ki, Azərbaycan hökuməti barəsində etimadsızlıq siyasəti yeritsin, ona qarşı qəti protest elan etsin...*

**18 yanvar 1990-cı il** - Ermənilər Naxçıvan MR-nın ***Sədərək*** qəsəbəsinə və ***Kərki*** kəndinə güclü hücuma keçirlər. Kərkililər kəndi tərk etmək məcburiyyətində qalırlar...

**18 yanvar 1992-ci il** - Milli Qəhrəman **Malik Hamil oğlu Əsədov** Şuşanın Nəbilər və Qaybalı kəndləri ərazilərində erməni yaraqlıları ilə döyüşdə həlak olur. Nəbilər kəndi işğala məruz qalır. Kənd işğal edilərək yandırılır. **Qaybalı** kəndi də müvəqqəti boşaldılır...

**18 yanvar 1992-ci il** - Erməni silahlı dəstələri Şuşa rayonunun **Nəbilər** kəndinə hücum edərək kəndi yandırırlar. Ölənlər və yaralananlar olur. Bu qədim yaşayış məntəqəsi erməni hücumu nəticəsində xarabalığa çevrilir. Kəndin əhalisi doğma yurdlarını tərk etmək məcburiyyətində qalaraq Şuşaya pənah aparır...

**19 yanvar 1920-ci il** - Erməni yaraqlıları ***Şuşa*** ətrafında azərbaycanlılar yaşayan kəndlərə basqınlar edirlər. Çoxlu sayda günahsız insanlar qətlə yetirilir...

**19 yanvar 1920-ci il** - İri erməni quldur birləşmələri ***Şuşa*** və ***Laçın*** istiqamətlərində hücumlarını davam etdirərək yollar üstündəki bütün kəndləri darmadağın edirlər. Uşaqlar, qadınlar, əlillər də vəhşicəsinə öldürülür...

**19 yanvar 1943-cü il** - Böyük Vətən müharibəsinin tərkib hissəsi olan ***Stalinqrad döyüşü*** başlanır. Həmin gün baş verən döyüşdə yüzlərlə azərbaycanlı da həlak olur...

**19 yanvar 1990-cı il** - Saat *19.00*-da yarımhərbi formada olan **4** nəfər silahlı adam teleradio mərkəzinə gələrək enerji blokunun növbə rəisi İ.Hüseynov və növbə rəisi V.Romanovla söhbət aparırlar. Saat **19.25**-də televiziyanın enerji bloku partladılır...

**19 yanvar 1990-cı il** - Naxçıvanın ***Sədərək*** rayonunda **10** nəfər azərbaycanlı ermənilər tərəfindən xüsusi qəddarlıqla qətlə yetirilir. Ölənlər arasında **4** və **6** yaşlı körpələr də olur. Naxçıvan MR Ali Soveti SSRİ tərkibindən çıxmaq haqqında ***qərar*** qəbul edir...

**19 yanvar 1990-cı il** - M.S.Qorbaçov və SSRİ Ali Soveti Rəyasət Heyəti Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq olunması haqqında ***fərman*** verir. Fövqəladə vəziyyətin elan olunacağı vaxt xalqdan gizli saxlanılır...

**19 yanvar 1990-cı il** - Sədərək müdafiə xəttində ermənilərin atdığı mərmi atəşi nəticəsində **İdris Ələsgər oğlu Məmmədov, Etibar Rzaqulu oğlu Əhmədov, Abbasəli Qaragöz oğlu Nəzərəliyev, Mirhəşim Mirşəmil oğlu Seyidov, Məhəmməd Əli oğlu Məmmədov, Vəli Məmməd oğlu Zeynalov, Elvin** *(7 yaş)* və **Malik** *(5 yaş)* **Nəsirovlar** və başqaları qəlpə yarasından həlak olurlar...

**19 yanvar 1990-cı il** - Milli Qəhrəman **Məhərrəm Mirəziz oğlu Seyidov** Sədərək uğrunda erməni yaraqlıları ilə baş verən döyüşdə həlak olur...

**19 yanvar 1991-ci il** - A.Baqmanyan, S.Baqmanyan və A.Antonyan növbəti ***terror aktı*** törədirlər. Belə ki, onlar DQMV Dİİ-nin rəisi, rus generalı ***V.Kovalyova*** silahlı hücum edərək, onu ağır yaralayırlar...

**19 yanvar 1992-ci il** - Şuşa şəhərinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində **2** nəfər dinc sakin həlak olur. Onlarla ev və qiymətli memarlıq abidələri dağıdılaraq zədələnir...

**19 yanvar 1993-cü il** - Ağdam şəhəri və rayonun ətraf kəndləri ermənilər tərəfindən toplardan və qrad qurğularından atəşə tutulur...

**19 yanvar 1994-cü il** - *701* saylı hərbi hissənin komandir müavini *Nəriman Zeynalov* **140** əsgərlə ***Susuzdağ*** mövqelərinədək irəliləyir. Ölənlər və yaralananlar olur...

**20 yanvar 1915-ci il** - Rus qoşunları ***Təbriz*** şəhərini işğal edir...

**20 yanvar 1975-ci il** - Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu - ASALA terroçu təşkilatı *(banisi mücahid Akop Akopyandır)* yaranır...

**20 yanvar 1920 -ci il** - Silahlanmış ermənilər Zəngəzur qəzasının ***Qaladərəsi*** - ***Xocahan*** arasındakı azərbaycanlılar yaşayan kəndlərə hücum edirlər. Sayı dəqiq qeydə alınmayan **qətllər** törədilir. Evlər yandırılır; 3-cü sahənin bütün kəndləri dağıdılır...

**20 yanvar 1989-cu il** - Silahlı ermənilər Naxçıvan MSSR-ın ***Sədərək*** qəsəbəsinə basqın edir. **10** nəfər qəsəbə sakini *(o cümlədən, 3 uşaq)* vəhşicəsinə öldürülür...

**20 yanvar 1990-cı il** - Silahlı ermənilər Naxçıvanın ***Sədərək*** yaşayış məntəqəsini atəşə tuturlar. **10** nəfər qəsəbə sakini vəhşicəsinə qətlə yetirilir...





**20 yanvar 1990-cı il** - Erməni silahlı dəstələri Naxçıvan MR-nın ***Kərki*** kəndini tam ələ keçirirlər...

**20 yanvar 1990-cı il** - Sovet ordusu və *"Sovet əsgərləri"* adı altında Rostov vilayətindən və Stavropol diyarından yığılmış əsasən erməni mənşəli əsgər və zabitlər Bakı şəhərinə hücum edərək burada dinc əhaliyə amansız **silahlı divan** tuturlar; dəhşətli qırğın törədilir. Bu ***faciəli Yanvar qırğınında*** Bakıda və digər bölgələrdə **131** nəfər ( **119** azərbaycanlı, **3** yəhudi, **3** tatar, **6** rus) dinc sakin öldürülür, **700** nəfərdən çox adam yaralanır. **400** nəfər həbs olunur. Həmin gün Bakıda fövqəladə vəziyyət rayonunun komendantı, general-leytenant Dubinyakın **1** saylı əmri elan edilir...

**20 yanvar 1991-ci il** - V.Qalayanın başçılıq etdiyi erməni terrorçular qrupu Azərbaycan Respublikasının Qarabağ Vilayətinin dağlıq hissəsinin Ağdərə rayonundakı ***Drmbon*** kəndi yaxınlığında Kəlbəcər şəhərinə gedən avtomobil dəstəsinə silahlı hücum edir. Maşının sürücüsü öldürülür...

**20 yanvar 1992-ci il** - Xocavənd rayonunun ***Qaradağlı*** kəndini erməni basqınından xilas etmək məqsədi ilə ***Muğanlı, Əmirallar, Kuropatkin*** kəndlərinin döyüşçüləri və Milli Ordunun köməyə gələn bir neçə üzvləri Xocavənd yaşayış məntəqəsinə hücum edir. Kömək gəlmədiyindən döyüşçülər tutduqları Xocavənd postlarını boşaltmağa məcbur olur. Bu hücum da müsbət bir nəticə vermir. **Şahmar İbrahimov** həlak olur; ***Eyvaz, Şahid*** və ***Niyaz*** adlı döyüşçülər isə ağır yaralanırlar...

**20 yanvar 1993-cü il** - Ağdam şəhəri növbəti dəfə ermənilər tərəfindən qrad qurğularından atəşə tutulur. Dağıntılar olur...

**20 yanvar 1994-cü il** - Kəlbəcər istiqamətində sağ cinahda kəşfiyyat komandiri ***Rəhman İsgəndərov,*** sol cinahda isə ***İntiqam Mirzəyevin*** başçılığı altında hücum başlayır. *Yanşaq* və *Almalı* kəndləri azad olunur. İtkilər olur...

**21 yanvar 1732-ci il** - Səfəvi dövləti ilə Rusiya arasında bağlanmış *"Rəşt müqaviləsi"*nə əsasən ***Bakı*** və ***Dağıstan*** Rusiyaya verilir. Kür çayından cənubda yerləşən Azərbaycan torpaqları Səfəvi dövlətinə qaytarılır. Müqavilədə Səfəvi dövləti daxilində rus tacirləri üçün güzəştli şərtlər də nəzərdə tutulur...

**21 yanvar 1938-ci il** - Azərbaycan SSR XDİK-in sədri vəzifəsini icra edən DT mayoru ***Borşovun*** əmri ilə **7** nəfər güllələnir...

**21 yanvar 1990-cı il** - Ağdam rayonunun ***Mərzili*** kəndi ermənilər tərəfindən atəşə tutulur...

**21 yanvar 1990-cı il** - Bakının ***Salyan*** kazarmasında hələ də döyüş gedir.

Azərbaycanlı əsgər və zabitlər osetin, çeçen, gürcü, inquş və digər millətlərin nümayəndələri ilə birləşib Sovet ordusuna qarşı vuruşurlar...

**21 yanvar 1991-ci il** - Ağdam şəhərindəki avtovağzal partladılır. Ölən, yaralanan və dağıntılar olur...

**21 yanvar 1992-ci il** - Ağdam rayonunun ***Cinli*** və ***Xıdırlı*** kəndlərinə erməni yaraqlıları basqın edir. Nəticədə **1** nəfər azərbaycanlı həlak olur...

**21 yanvar 1992-ci il** - Şuşan rayonunun ***Qaybalı*** kəndi erməni yaraqlılarının hücumuna məruz qalır. İtkilər olur. Əhali doğma yurdundan didərgin düşür...

**21 yanvar 1994-cü il** - Çəpni kəndi istiqamətində *(Kəlbəcər rayonu)* döyüşdə Ermənistandan gəlmiş taburlardan biri Azərbaycan Silahlı Qüvvələrinin mühasirəsinə düşür. Düşmənin **6** maşını, **200** əsgəri məhv edilir. Azərbaycan tərəfi də çoxlu sayda itki verir...

**22 yanvar 1906-cı il** - Erməni silahlıları Qurban bayramı günü Qazax qəzasının ***Qızılhacılı*** kəndinə basqın edərək kəndi yandırır, **2** nəfəri qətlə yetirir, **1** qocanı və **2** həddi-buluğa çatmamış qızı anaları ilə birlikdə əsir götürürlər...

**22 yanvar 1920 -ci il** - Silahlı erməni quldurları Böyük Vediyə taxıl almağa gəlmiş Ordubad sakinlərinə basqın edirlər. **3** nəfər qətlə yetirilir, taxıl yüklü **1** at və **21** uzunqulaq ələ keçirilir...

**22 yanvar 1920-ci il** - Erməni quldur birləşmələri **Hacı Qərib, Məkrə** müsəlman kəndlərini var-yoxdan çıxarır. Ölüm-dirim mübarizəsi aparan kəndlilərin qəhrəmancasına vuruşmasına baxmayaraq, müasir silahları olan erməni quldurlar dinc əhaliyə divan tuturlar. Sağ qalanlar ***Burcanarlı*** kəndinə qaçırlar...

**22 yanvar 1923-cü il** - Dağlıq Qarabağda kadr çatışmazlığı bəhanə edilərək ***S.Kirovun*** və ***A.Karakozovun*** məktubu ilə Ermənistandan **6** nəfər rəhbər işçi Dağlıq Qarabağa göndərilir...

**22 yanvar 1990-cı il** - Azərbaycan xalqı **yanvarın 20**-də milli-azadlıq uğrunda şəhid olmuş qəhrəman övladlarını Bakının Şəhidlər Xiyabanında son mənzilə yola salır...

**22 yanvar 1990-cı il** - Naxçıvan MR-nın ***Sədərək, Şada, Yuxarı Yayçı, Havuş, Günnüt, Batabat*** və digər sərhədboyu yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutularaq hücuma məruz qalır, qanlı döyüşlər gedir; itkilər olur...

**22 yanvar 1991-ci il** - Erməni terrorçuları ***A.Baqmanyan, S.Babayan, A.Abramyan*** və ***"Qarabağ"*** təşkilatının digər üzvləri Xocalı şəhər hava limanının rəisini qətlə yetirirlər...





**22 yanvar 1992-ci il** - Azərbaycanın Ağdamdakı hərbi hissələri Xocalı yolunu açmaq üçün Əsgərana hücum edirlər. Amma bu hücum müvəffəqiyyətlə nəticələnmir. İtkilər olur...

**22 yanvar 1992-ci il** - Erməni quldur birləşmələri Şuşa rayonunun ***Qaybalı,*** Ağdam rayonunun ***Xıdırlı*** kəndlərinə hücum edirlər. Dinc əhali arasında ölənlər və yaralananlar olur...

**22 yanvar 1992-ci il** - Ağdam rayonunun ***Papravənd*** kəndi yaxınlığındakı Azərbaycan Silahlı Qüvvələri əsgərlərinin postuna ermənilər tərəfindən vertolyotdan həmlə edilir. Yaralananlar olur...

**22 yanvar 1993-cü il** - Füzuli rayonunun Xocavənd rayonu ilə həmsərhəd kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur. Dağıntılar və tələfat olur...

**23 yanvar 1909-cu il** - İttihadçılar Osmanlı dövlət aparatına hücum edərək, nazir **Nazim paşanı** öldürürlər; **Kamil paşanı** istefa varməyə məcbur edirlər...

**23 yanvar 1920-ci il** - Erməni yaraqlıları Şərur mahalının azərbaycanlılar yaşayan ***Kərimqulubəyməzə*** kəndinə hücum edirlər. **2** nəfər azərbaycanlı qətlə yetirilir, **3** nəfər isə ağır güllə yarası alır...

**23 yanvar 1920-ci il** - Daşnaq terror qrupu Dərələyəz mahalının ***Ərkəz*** kəndinə hücum edərək **5** nəfəri qətlə yetirir, **3** qadını girov götürür, **600** baş qoyunu qənimət kimi sürüb aparırlar...

**23 yanvar 1920-ci il** - Rusiya xarici işlər komissarı ***Çiçerin*** Azərbaycana ikinci təcavüzkar ruhlu ***nota*** göndərir...

**23 yanvar 1990-cı il** - Bakıda **43** ziyalı adam nəzarət altına alınır. Hərbi komendantlıq Milli Müdafiə Şurasının ləğv olunması haqqında **qərar** verir...

**23 yanvar 1990-cı il** - Daşnaq terrorçuları Ağdərə ərazisində Kəlbəcərə gedən elektrik hava xəttini kəsirlər. Kəlbəcər rayonu elektrik enerjisindən məhrum olur...

**24 yanvar 1828-ci il** - Rus ordusu yenidən güclü hücuma keçir. Çoxlu sayda ölənlər olur...

**24 yanvar 1919-cu il** - Daşnaq terrorçuları Göyçə mahalının ***Çamırlı*** kəndinə silahlı basqın edir. Onlar **4** kişinin başını , **6** qadının isə döşlərini kəsirlər...

**24 yanvar 1920-ci il** - Terrorçu daşnaqlar Əştərək bölgəsinin ***Savan*** kəndini top atəşinə tuturlar. Ölənlər olur. Sağ qalan kənd əhalisi doğma yurdlarından didərgin düşür...

**24 yanvar 1945-ci il** - Tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı **Həzi Əhəd oğlu Aslanov** döyüş zamanı qəhrəmancasına həlak olur. H. Aslanovun yavəri olmuş Adil Əli oğlu Əliyevin məlumatına görə, marşal ***İ.Baqramyan*** H. Aslanova qısqanclıqla yanaşırdı; onun igidliyi, şəxsi keyfiyyətləri Baqramyanı narahat edirdi. Məhz Baqramyanın göstərişi ilə onun əkskəşfiyyatının polkovniki ***Pyotr Vasilyeviç Solovyov*** arxadan açdığı atəşlə H.Aslanovu qətlə yetirir...

**24 yanvar 1945-ci il** - **"Lenin"** ordenli igid döyüşçü, sanitar təlimatçısı, Sovet İttifaqı Qəhrəmanı **Məmməd Cəbrayıl oğlu Məmmədov** Almaniyamn ***Namslau*** şəhərində həlak olur...

**24 yanvar 1981-ci il** - İrəvanda nəşr olunan *"Sovet Ermənistanı"* qəzetinin redaktoru **Məhərrəm Bayramov** erməni millətçilərinin antitürk hərəkətlərini ifşa etməyə səy göstərdiyinə görə daşnaq terrorçusu tərəfindən namərdcəsinə qətlə yetirilir...

**24 yanvar 1990-cı il** - *Bakı-Sumqayıt* avtomobil yolunda *05-10 AQU* nömrənişanlı *"Jiquli"* avtomaşınının üzərinə *"Sovet əsgərinin"* idarə etdiyi tank çıxır. Nəticədə "Jiquli" maşınmdakı Azərbaycan Elmlər Akademiyasının Xlor-Üzvi Sintez İntitutunun əməkdaşları, görkəmli ziyalılar - professor **İbrahim İbrahimov**, professor **İsmayıl Mursaqulov**, kimya elmləri doktoru **Svetlana Məmmədova** həlak olurlar. Professor **İdris Əhmədov** və kimya elmləri namizədi **Parlaq Mustafayeva** isə yaralanırlar...

**24 yanvar 1993-cü il** - Ağdam şəhəri və şəhərə yaxın kəndlər ermənilər tərəfindən yenidən toplardan, qrad qurğularından güclü atəşə tutulur. Ağdamdakı hərbi hissələrin birində güclü partlayış baş verir. Ölənlər və yaralananlar olur...

**24 yanvar 1994-cü il** - Keçirilən döyüş əməliyyatında Laçının vətənpərvər oğlu **Rövşən Əli oğlu Rzayev** həlak olur...

**25 yanvar 1918-ci il** - Markarın başçılıq etdiyi silahlı erməni terrorçuları Cəbrayıl qəzasının ***Eyvatlı*** kəndinə basqın edərək kəndi dağıdırlar. Girov götürülən kənd sakini **Hüseyn Allahverdi oğlu Xələf** dağının gündoğan tərəfindəki daşarmud ağacına sarınır; ermənilər Hüseynin bədənini nişangah edərək onu vəhşicəsinə qətlə yetirirlər...

**25 yanvar 1978-ci il** - Ermənilər Qərbi Azərbaycanda xeyli sayda yer-yurd adlarını dəyişirlər: ***Karvansara***-Amre Taza, Qondaxsaz-Rya Taza, ***Korbulaq***-Şenkani, Kürd Pəmbi-Sipan, ***Çobanmaz***-Avşen, Carcaris-Derek, ***Quruboğaz***-Ortaçya, ***Axula***-Berkarat (Aparat rayonu); ***Qaçağan***-Arevadzor (Allahverdi-Tumanyan rayonu); **İlli**-Hoğmik (Amasiya rayonu); **Yuxarı Axta**-Lernanist (Axta-Hrazdan rayonu); **Qalaça**-Berdavan, Xoşkotan-Voskevan, **Dostlu**-Bereqqamavan, **Ləmbəli**-Baqrataşen, **Aşağı Körpülü**-Haxtanak, **Yuxarı Körpülü**-Verin Körpülü (Barana-Noyemberyan rayonu); **Babacan**-Qızılkənd, **Məkdağ**-Yenikənd, **Yuxarı Zağalı**-Axbradzor, **Kəsəmən**-Bahar, **Tüskülü**-Lusakunk, **Çaxırlı**-Sovetakert, **Çiçəkli**-Makeniş (Basarkeçər-Vardenis rayonu); **Bzovdal**-Bazum, **Kolagirən**-Drozakert, **Şahəli**-Vahaqnadzor, **Mollaqışlaq**-Güllüdərə, **Həmzəçimən**-Markahovit (Böyük Qarakilsə-Quqark rayonu); **Qaralar**-Aralez, **Qaraxaç**-Lusaşoğ, **Taytan**-Vanaşen, **Çimənkənd** (Aşağı Qarabağlar)-Urdzadzor (Vedi-Ararat rayonu); **Qarakilsə**-Lernhovit, **Qızqala**-Getavan, **Lorsovxoz**-Katnarat, **Şahnəzər**-Medzavan (Vorontsovka-Kalinino rayonu); **Sabunçu**- Araksavan (Qəmərli-Artaşat rayonu); **Kefli**-Kakavasar, **Palıdlı**-Arpeni, **Təknəli**-Kokohovit (Qızıl Qoç-Qukasyan rayonu); **Güllücə**-Zovk, **Kəmrəz**-Kamaris, **Kənkan**-Hatis (Ellər-Abovyan rayonu); **Aşağı Necili**-Sayat Nova, **Ağcaqışlaq**-Getapiya, **Yengicə**-Norabats, **Mehmandar**- Hovtaşat, **Masis sovxoz**-Darakert, **Xarratlı**-Arevabuyr, **Şöllü**-Daştavan (Zəngibasar-Masis rayonu); **Yayıcı**-Dzovaber (Yelenovka-Sevan rayonu); **Ağdan**-Qandzakar, **Laləkənd**-Vazaşen, **Tala**-Getahovit, **Coğaz**-Berkaber, **Tsirvaz**-Lusahovit (Karvansaray-İcevan rayonu); **Muğan**-Drovazard (Kəvər-Kamo rayonu); **Qamışlı**-Zartonk (Sərdarabad-Oktemberyan rayonu); **Daylaxlı**-Arin, **Səfolar**-Cermuk (Soylan-Əzizbəyov-Vayk rayonu); **Əhəngçi**-Zovasar, **Yuxarı Talin**-Talin, **Aşağı Talin**-Daştadem, **Sabunçu**-Hatsaşen (Talin rayonu); **Ağcaqala**-Tsaxqalanc, **Ayarlı**-Lernamerdz, **Ayğırlıç**-Aqnaliç, **Aşağı Zeyvə**-Arataşen, **Aşağı Xatınarx**-Qay, **15 N-li sovxoz**-Aygek, **Qrampa**-Dziazan, **Yuxarı Zeyvə**-Taronik, **Yuxarı Kolanlı**-Qriboyedov, **Qaraqoyun**-Ferik, **Muğan**-Hovdameç, **Samağar**-Geğakert, **4 N-li sovxoz**-Vocgehad, **Franqanots**-Amberd, **Yuxarı Xatınarx**-Aknaşen (Üçkilsə-Eçmiədzin rayonu); **Nalbənd qəsəbəsi**-Şirakamut, **Tapanlı**-Gıgasar, **Cigdəməl**-Arevşoğ (Hamamlı-Spitak rayonu); **Başkənd**-Ardzvaşen, **Yanıqpəyə**-Meşəkənd, **Qoturbulaq**-Ttucur (Çəmbərək-Krasnoselsk rayonu); **Qırğı**-Ardzvaberd, **Haxum**-Varaqavan (Şəmşəddin-Berd rayonu)...

**25 yanvar 1988-ci il** - Qafan RPK-nin birinci katibi, daşnaq **Mkrtıçyanın** rəhbərliyi ilə erməni terrorçuları Qafan və Qacaran şəhərlərində açıq şəkildə azərbaycanlı ailələrinin üzərinə həmləyə keçirlər. Azərbaycanlılara məxsus olan evlər dağıdılır; ev sahibləri döyülür, təhqir olunur, doğma yurdlarından qovulur. **2.000** nəfər azərbaycanlı qaçqın düşür. Qaçqınların bir qismi Azərbaycanın ətraf rayonlarına, bir qismi isə Sumqayıt şəhərinə gəlir. Bələliklə, Ermənistandan ilk qaçqınlar dəstəsi Azərbaycana pənah gətirir. Ermənilər növbəti *"etnik təmizləmə"* siyasəti həyata keçirməyə başlayırlar...

**25 yanvar 1990-cı il** - Ağdamdan yola düşən avtobus ermənilər tərəfindən

daşa basılır, **2** nəfər yaralanır...

**25 yanvar 1990-cı il** - "**Qurtuluş**" təşkilatının rəhbəri ***Məhəmməd Hatəmi*** həbs edilir...

**25 yanvar 1991-ci il** - Ağdamdan yola düşən avtobus ermənilər tərəfindən daşa basılır. Sərnişinlər erməni millətçiləri tərəfindən təhqir olunur. **2** nəfər azərbaycanlı ağır yaralanır...

**25 yanvar 1993-cü il** - Ağdamdakı hərbi hissədə törədilən partlayış nəticəsində çoxlu sayda ölənlər və yaralananlar olur. Ağdam şəhəri ermənilər tərəfindən toplardan və qrad quğularından atəşə tutulur...

**25 yanvar 2005-ci il** - AŞPA Terri Devisin və Devid Atkinsonun məruzələri əsasında Dağlıq Qarabağ üzrə qətnamə və tövsiyələr qəbul edir. AŞPA nədənsə 1994-cü ilin mayında Qarabağda atəşkəsə nail olunmasına görə Rusiyaya deyil, ATƏT nümayəndələrinə minnətdarlıq bildirir...

**26 yanvar 1904-cü il** - Podrat qazıma mexaniki zavodunun fəhlələri tətil edirlər. Tətil güllələbaran edilərək dağıdılır...

**26 yanvar 1989-cu il** - Azərbaycan KP MK-nın birinci katibi Ə.X.Vəzirov DQMV Xüsusi İdarə Komitəsinin sədri, Sovet İKP MK-nın şöbə müdiri A.İ.Volski ilə görüşür...

**26 yanvar 1990-cı il** - Saat *02.30*-da Moskvada çoxlu sayda milis işçiləri nümayəndəliyin qapı və pəncərəsini qırıb içəri daxil olurlar. Adamları avtomat qundağı ilə vurur, itələyir, üst-başlarını yoxlayırlar. AXC lideri ***Etibar Məmmədov*** həbs olunur...

**26 yanvar 1990-cı il** - Tərkibində erməni əsgərləri də olan rus ordusu ***Lənkəran*** şəhərinə yeridilir. Şəhər sakinlərindən **Salman Babaxan oğlu Baxşıyev, Taryel Hacıbala oğlu Abdullayev, Şahin Zahid oğlu Məmmədov, Rövşən Seyfulla oğlu Bədəlov, Rahim Vəliağa oğlu Məmmədov, Vaqif Məhəmməd oğlu Məmmədov** vəhşicəsinə qətlə yetirilir...

**26 yanvar 1990-cı il** - Neftçala şəhərinə yeridilən rus ordusu şəhər sakinlərindən **Nurəddin Aslan oğlu Ağahüseynov** və **Əbülfəz Böyükağa oğlu Cəfərovu** qətlə yetirir...

**26 yanvar 1991-ci il** - Ağdamdan Şuşaya gedən maşın karvanı ermənilər tərəfindən ***güllələbaran*** edilir. **1** maşın yandırılır, **3** nəfər yaralanır...

**26 yanvar 1991-ci il** - Ağdamdan Şuşaya gedən **6** yük maşını ermənilər tərəfindən atəşə tutulur, ağır yaralananlar olur...

**26 yanvar 1992-ci il** - Goranboy rayonunun **Qaraçinar** kəndi uğrunda gedən döyüşdə goranboylu **Vüqar Zülfüqar oğlu Bayramov** həyata əlvida deyir...





**26 yanvar 1992-ci il** - Daşnaq terrorçularının Şuşanı atəşə tutması nəticəsində **Zahid Rafayıl oğlu Nəsirov** həlak olur...

**26 yanvar 1992-ci il** - I Kəşfiyyat batalyonunun Şuşan rayonunun Daşaltı kəndi ərazisində ***"Daşaltı əməliyyatı"*** keçirmək cəhdi uğurlu alınmır. Azərbaycanlılardan **100** nəfərdən çox ölən, itkin düşən və yaralananlar olur...

**26 yanvar 1993-cü il** - Yuxarı Qarabağın ***Fərrux*** yüksəkliyi uğrunda şiddətli döyüşlər gedir. İtkilər olur...

**26 yanvar 1994-cü il** - Ermənilərlə döyüşdə zəngilanlı döyüşçülər **Səməd Rəhim oğlu Məmmədov** (Zəngilan şəhəri), **Cəlil Allahverdi oğlu Kalbalıyev** (Sarallı-Xəştab kəndi) həlak olurlar...

**27 yanvar 1911-ci il** - İran Azərbaycanında əksinqilabi çevriliş olur. Milli Şura Məclisinin işinə xitam verilməsinə yardım edilir. Məşrutə tarixinin ən üzüntülü hadisələrindən biri baş verir...

**27 yanvar 1922-ci il** - Azərbaycan K(b)P-nın qalmaqallı ***IV qurultayı*** keçirilir...

**27 yanvar 1991-ci il** - Ermənilər laçınlı **Firdovsi Səhliyalı oğlu Tağıyevi** amansızlıqla qətlə yetirirlər...

**27 yanvar 1993-cü il** - Ağdam şəhəri,eləcə də rayonun ***Bağbanlar, Muğanlı*** kəndləri ermənilər tərəfindən raket mərmilərindən atəşə tutulur. Dağıntılar olur...

**28 yanvar 1828-ci il** - Rus qoşunları Urmiyanı tutur. Çoxlu sayda azərbaycanlı qətlə yetirilir...

**28 yanvar 1919-cu il** - Silahlı ermənilər Andranikin quldur dəstələrinin başçılığı ilə ***Gığı*** dərəsi ərazisində yerləşən ***Girətağ, Qovşud, Baharlı, Gığı, Daşbaşı, Keybaxış, Kəqaçatu, Kuruzot, Mollalı, Kayçan, Acıbağ*** kəndlərini mühasirəyə alıb ultimativ şəkildə sakinlərin silahlarını və əmlaklarını təhvil verməlİərini tələb edirlər, əks təqdirdə onları məhv edəcəkləri ilə hədələyirlər. Ermənilər bu kəndlərin bəzisinə hücum edir. Kənd sakinlərindən ölənlər və yaralananlar olur...

**28 yanvar 1919-cu il** - Erməni yaraqlıları ***Gəncə*** quberniyasının azərbaycanlılar yaşayan ***Zağalı*** *(indi Daşkəsən rayonunun tabeliyində olan kənd)* kəndini yandırırlar. **25** nəfər dinc sakin, o cümlədən qadınlar və uşaqlar qətlə yetirilir...

**28 yanvar 1989-cu il** - *A.İ.Volski* Ermənistana gedərək onun rəhbərləri ilə gizli və açıq şəkildə ***Dağlıq Qarabağ*** məsələsini müzakirə edir...

**28 yanvar 1990-cı il** - SSRİ Müdafiə nazirinin müavini, ordu generalı *V.İ.Va-*

*rennikov* Gəncədə gəncəlilərlə görüşür. Yaranmış vəziyyət müzakirə olunarkən ermənilərin törətdikləri cinayətlərin üstü malalanır...

**28 yanvar 1991 -ci il** - Martuni *(Xocavənd)* rayonunun Xocavənd kənd sakini Fənər Nəzərova öz həyətində çörək bişirən zaman erməni yaraqlısı tərəfindən qətlə yetirilir. Kənd sakinləri - **Cəllad Şirin oğlu Əhmədov** və **12** yaşlı **İ.Məmmədov** ağır güllə yarası alırlar...

**28 yanvar 1992-ci il** - Füzuli şəhəri ermənilər tərəfindən qrad qurğularından atəşə tutulur. Dağıntılar olur...

**28 yanvar 1992-ci il** - Şuşa səmasında içərisində azərbaycanlılar *(çoxu qadın və uşaq)* olan və *Ağdam-Şuşa* reysi ilə uçan ***Mİ-8*** mülki vertolyotu ermənilər tərəfindən vurulur. Vertolyotdakılarm hamısı (**44** nəfər sərnişin ... və **3** nəfər ekipaj üzvü - **Ərəstun İsbəndi oğlu Mahmudov, Səfa Fətulla oğlu Axundov, Şakir Şamil oğlu Salahov** ) həlak olurlar...

**28 yanvar 2010-cu il** - Daşkəsən rayonu ərazisində yerləşən *"N"* hərbi hissəsində baş verən hadisə nəticəsində Silahlı Qüvvələrimizin **6** əsgəri həlak olur, **4** nəfər yaralanır...

**29 yanvar 1744-cü il** - Nəsrullah Mirzə Surxay xanın oğlu ***Şahzadə Məhəmməd*** xanın gözünü çıxarıb Osmanlı hərbi əsirləri ilə Qarsa göndərir...

**29 yanvar 1916-cı il** - Rus ordusu ***Ərzurum*** istiqamətində hücuma keçir...

**29 yanvar 1919-cu il** - Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur qəzalarını əhatə edən, mərkəzi Şuşa şəhəri olan *(Xosrov bəy Sultanov general-qubernator təyin edilir)*, yeni yaradılan general-qubernatorluğu ermənilər tanımaq istəmir və elə həmin gün onlar Zəngəzurda və Qarabağda terror aktını davam elətdirirlər...

**29 yanvar 1992-ci il** - Xocalıdan sonuncu vertolyot uçur. ***Xocalı şəhəri*** tam mühasirədə qalır...

**29 yanvar 1992-ci il** - Ağdam rayonunun şəhərin *(Agdam şəhərinin)* qərbində yerləşən kəndləri ermənilər tərəfindən atılan raket atəşlərinə məruz qalır. Yanacaqdoldurma məntəqəsinə düşən raket mərmisinin partlaması nəticəsində **1** nəfər həlak olur...

**29 yanvar 1992-ci il** - Ermənilər tərəfindən atılan mərmi Ağdamdakı **8** saylı SMD-nin həyətinə düşür. Sürücü **Nemət Abdullayev** həlak olur, **3** nəfər ağır yaralanır, **1** ədəd *KamAZ* markalı maşın yanaraq yararsız hala düşür...

**30 yanvar 1806-cı il** - Qafqaz canişini, knyaz ***Sisianov*** **1663** nəfər piyada qoşun və **10** top ilə Bakıya çatır. O, ***Naxər bulağı*** yaxınlığında *(sonralar Petrapet*





*(indiki Fəvvarələr meydanı) )* düşərgə salır...

**30 yanvar 1919-cu il** - Erməni silahlı dəstələri **Kəvər** mahalının ***Bığlı, Əfəndi, Hacı, Muğan, Əyrivənd, Ağzıbir*** kəndlərinə hücum edir. Didərgin düşən əhali Ağmanğan dağının yuxarı hissəsində mühasirədə saxlanılır, nəticədə **3000** sakin donaraq məhv olur. Hücum zamanı ermənilər ***Əfəndi*** kənd sakini **İbrahim Hacıhüseynoğlunun** gözlərini çıxarandan sonra onu diri-diri yandırırlar...

**30 yanvar 1919-cu il** - ***10-lar*** Şurasının iclasında ABŞ prezidenti V.Vilsonun təklifi ilə qərara alınır ki, *fevralın 28-də* ermənilər *10-lar* Şurasının iclasında «**Dənizdən dənizə Böyük Ermənistan yaratmaq**» proqramı ilə çıxış etsinlər. ABŞ Prezidenti V.Vilson bütün Sülh konfransı boyu ermənilərin müdafiəçisi kimi çıxış edir...

**30 yanvar 1920-ci il il** - Daşnaq terrorçular ***Uluxanlı*** dəmiryol stansiyasında azərbaycanlı qaçqınları daşıyan qatara hücum edirlər. **1** nəfər qətlə yetirilir, **12** nəfər girov götürülür, 85 nəfər isə qarət olunur...

**30 yanvar 1990-cı il** - Erməni yaraqlıları Gədəbəy rayonunun ***Şınıx*** bölgəsinə basqın edirlər. **Əsgər Xələfov, Arif Zeynalov, Fərhad Niftalıyev, İbrahim Hüseynov, Əkbər Qurbanov, Məhərrəm Vəliyev** vəhşicəsinə qətlə yetirilir. ***Güllü*** kənd sakini olan el ağsaqqalı ***Hüseyn Cəfərov*** girov düşür...

**30 yanvar 1990-cı il** - Gədəbəy rayonunun **5** nəfər azərbaycanlı sakini erməni terrorçularının qəfil hücumu nəticəsində itkin düşür. Bir neçə gündən sonra beşinin də cəsədi eybəcər hala salınmış vəziyyətdə Ermənistan ərazisindən tapılır...

**30 yanvar 1992-ci il** - Goranboy rayonunun ***Şəfəq*** kəndi ermənilər tərəfindən atəşə tutulur; **1** nəfər yaralanır...

**30 yanvar 1992-ci il** - Azərbaycan və Ermənistan eyni vaxtda ATƏM ***(ATƏT)*** üzvlüyünə qəbul edilirlər...

**30 yanvar 1992-ci il** - ***"Mİ-8"*** hərbi vertolyotundan Xocalı-Şuşa istiqamətindəki yaşayış məntəqələrinə üstündə ***"Böyük Ermənistan"*** xəritəsi cızılmış vərəqələr atılır. Azərbaycan hökuməti buna demək olar ki, heç bir reaksiya vermir...

**30 yanvar 1992-ci il** - Ağdam rayonunun ***Papravənd*** kəndinə erməni yaraqlıları basqın edir...

**31 yanvar 1902-ci il** - Qədim Şirvanın paytaxtı olan ***Şamaxıda*** çoxlu sayda insan təlafatı və dağıntılarla nəticələnən güclü zəlzələ baş verir...

**31 yanvar 1905-ci il** - Erməni yaraqlıları Cavanşir qəzası ərazisindəki ***Çıraqlı*** və ***Hacıqərvənd*** kəndlərində ***faciə*** törədirlər. Bu kəndlərdən olan **10** nəfər müsəlman qətlə yetirilir...

**31 yanvar 1990-cı il** - İmişli rayonunun ərazisində *"Bi-Bi-Si"* radiokorporasiyasının əməkdaşları, Böyük Britaniya vətəndaşları - ***Bencamin Braun*** və ***Pek Rorini*** SSRİ ərazisində yerdəyişmə qaydaları və sərhəd zonasında olmaq rejimini pozmaq üstündə yaxalanırlar. Onların üzərində müxtəlif məxfi sənədlər aşkarlanır. Azərbaycan hökuməti bununla bağlı heç bir tədbir görmür...

**31 yanvar 1991 -ci il** - Dağıstanın ***Temirtau*** stansiyası yaxınlığında ***"Moskva-Bakı"*** sərnişin qatarı partladılır. **16** nəfər həlak olur, **20** nəfər yaralanır...

**31 yanvar 1992-ci il** - Ağdamın Xıdırlı kəndi yaxınlığında **Təbriz Xəlil Rza oğlu Xəlilbəyli, Asif Talıbov, Azər Məmmədov** və daha bir neçə nəfər erməni yaraqlıları ilə döyüşdə həlak olurlar...

**31 yanvar 1992-ci il** - *Xramord, Fərrux* kəndləri istiqamətində döyüş əməliyyatları keçirilir. Fərrux kəndi ermənilərdən azad edilir. İtkilər olur...

**31 yanvar 1992-ci il** - Erməni terrorçuları Ağdam rayonunun ***Şelli, Abdal-Gülablı, Xıdırlı, Cinli, Əliağalı, Əhmədavar*** kəndlərinə hücum edirlər. **Faiq Həşimov, Xankişi Cəfərov, Azər Abbasov, Mübariz Vətənoğlu, Eldar Həsənov** həlak olurlar. **53** nəfər yaralanır...

**31 yanvar 1994-cü il** - Bərdə rayon İH-nin nümayəndələri gecə döyüş bölgəsindən qayıdarkən erməni snayperlərinin pusqusuna düşürlər. Düşmənin aramsız atəşləri nəticəsində *«Niva»* markalı maşın dəlik-deşik olaraq yararsız hala düşür...





# FEVRAL

**1 fevral 1734-cü il** - *Nadirlə* qiyam qaldırmış *Mahmud xan Bəluc* arasında Şirazda şiddətli döyüş baş verir...

**1 fevral 1904-cü il** - Balaxanı şosesində fəhlələr nümayiş edir. Nümayiş dağıdılır. Xəsarət alanlar olur...

**1 fevral 1920 -ci il** - Erməni yaraqlıları Şirakel mahalının ***Carcur*** kəndinə basqın edirlər. Ağır ***qətliam*** baş verir. **2.150** nəfər günahsız azərbaycanlı dinc sakin vəhşicəsinə qətlə yetirilir...

**1 fevral 1979-cu il** - Azərbaycanlılara qarşı aqressiv mövqe nümayiş etdirən ***Ayətulla Xomeyni*** Parisdən İrana gəlir...

**1 fevral 1992-ci il** - Goranboy rayonunun ***Tapqaraqoyunlu*** kəndi ermənilər tərəfindən aramsız atəşə tutulur. **3** nəfər azyaşlı uşaq həlak olur...

**1 fevral 1992-ci il** - Erməni yaraqlıları Ağdam rayonunun ***Cinli*** kəndinə basqın edirlər. Dinc sakin **Zahid Şükürov** həlak olur, digər **2** dinc sakin yaralanır...

**1 fevral 1992-ci il** - Terrorçu daşnaq birləşmələri Ağdam rayonunun ***Xıdırlı kəndi*** və ***Qarağacı məzarlığı*** istiqamətlərində hücuma keçirlər. **12** nəfər azərbaycanlı - **Təbriz Xəlilbəyli, Asif Talıbov, Azər Məmmədov** və başqaları müdafiə zamanı həlak olurlar...

**1 fevral 1994-cü il** - Bakı dəmir yolu vağzalında törədilən ***terror aktı*** nəticəsində (***"Bakı-Kislovodsk"*** sərnişin qatarının partladılması) **5** nəfər həlak olur, **20** nəfər yaralanır...

**2 fevral 1905-ci il** - Daşnaq terrorçuları Bakıda milli zəmində ***terror aktı*** törədirlər. Mühafizəçi əsgər cildinə girmiş erməni terrorçusu tərəfindən dustaq Aşurbəyov məhkəmə zalından çıxarılıb həbsxanaya aparılarkən yolda qətlə yetirilir...

**2 fevral 1919-cu il** - Pilimyan və Hişanyanın başçılıq etdikləri silahlı daşnaq dəstələri Gəncə quberniyasının ***Qızılvəng, Subasan, Şahab*** və digər kəndlərini dağıdır, əhalisini məhv edirlər. Qadınlar öldürülməzdən əvvəl zorlanır, uşaqlar isə diri-diri təndirə atılır...

**2 fevral 1920-ci il** - Erməni yaraqlıları Qərbi Azərbaycanın ***Şurakel*** şəhəri və onun yaxınlığındakı yaşayış məntəqələrində **1.350** nəfər azərbaycanlını vəhşicəsinə qətlə yetirirlər...

**2 fevral 1948-ci il** - Respublika Nazirlər Soveti Ümumittifaq hökumətinin

*köçürmə haqqında* çıxardığı qərarı qəbul edir...

**2 fevral 1992-ci il** - Goranboy rayonunun ***Tapqaraqoyunlu, Şəfəq*** və ***Zeyvə*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Tələfat olur...

**2 fevral 1992-ci il** - Keçmiş Ağdərə rayonunun ***Manikli*** kəndinə basqın edən terrorçu ermənilər **1** nəfər azərbaycanlını qətlə yetirir, **2** nəfəri isə yaralayırlar...

**2 fevral 1993-cü il** - Ağdam rayonunun ***Mərzili*** kəndi ermənilər tərəfindən atəşə tutulur...

**2 fevral 1993-cü il** - Füzuli rayonunun cənub-qərb cəbhəsində, ***Qoçəhmədli*** kəndi yaxınlığında keçirilən döyüş əməliyyatında həmin rayonun ***İşıqlı*** kənd sakini **Tahir Əmirxan oğlu Rəsulov** həlak olur...

**2 fevral 1994-cü il** - Zəngilanlı döyüşçülərdən - *Xaliq Seyidalı oğlu Mustafayev (Yuxarı Yeməzli k.), Əbülfət Mürşüd oğlu Alımirzəyev (Ördəkli k.), Əmir Dünyamalı oğlu Dünyamalıyev (Sobu k.), Əfqan Xudayar oğlu Həsənov (Şayıflı k.), Yavər İsmayıl oğlu İsmayılov (Hacallı k.)* ermənilərlə döyüşdə şəhid olurlar...

**3 fevral 1919-cu il** - Dusurun və Xaçatur Bukanın tapşırığı ilə **30** nəfər *Ağdərə ermənisi* azərbaycanlıların yaşadıqları kəndlərə basqın edərək mal-qara sürülərini aparmağa cəhd göstərirlər. Bu barədə Böyük Britaniyanın Şuşadakı nümayəndəsinə xəbər verilir...

**3 fevral 1943-cü il** - Stalin repressiyasının qurbanlarından biri, dəyərli ziyalı, ADR hakimiyyəti dövründə Azərbaycan Parlamentinin üzvü, Nazirlər Şurasının sədri vəzifəsində çalışmış **Həmid bəy Ağa Xəlil oğlu Şahtaxtinski** Rusiyanın ***Arxangelsk*** vilayətində *(o, 1941-ci ildə həbs edilmişdi)* həlak olur...

**3 fevral 1993-cü il** - Ağdam şəhəri və ətraf kəndlər ermənilər tərəfdən qrad qurğularından atəşə tutulur. Dağıntılar olur...

**3 fevral 1993 -cü il** - Füzuli şəhəri və şəhərin qərbində yerləşən kəndlər ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar olur...

**3 fevral 1992-ci il** - Daşnaq terrorçular Füzuli rayonunun ***Qacar*** kəndinə basqın edirlər. Dinc kənd sakini ***Həmid İbişov*** ağır yaralanır...

**4 fevral 1895-ci il** - Dövrünün görkəmli şəxsiyyəti **Hacı Mirzə Cavad Müctəhid Mirzə Əhməd Təbrizi oğlu,** Təbrizdə müəmmalı şəkildə ölür. Onun ölümü münasibətilə *Təbriz* şəhərində **40** gün matəm mərasimi keçirilir...

**4 fevral 1993-cü il** - Ermənilər ***Narınclar*** və ***Çıraqlı*** kəndlərini işğal edirlər.





Ağdam şəhəri və şəhərə yaxın olan kəndlər ermənilər tərəfindən mərmi atəşinə tutulur. İtkilər və tələfat olur...

**4 fevral 1994-cü il** - Tərtər şəhəri ilə Ağdərə yaşayış məntəqələri arasındakı 10 kvadratkilometrlik sahə zolağında erməni qəsbkarları ilə azərbaycanlı əsgərlər arasında bütün növ silahlardan istifadə olunmaqla şiddətli döyüşlər gedir. İtkilər olur. Keçmiş Ağdərə rayonunun ***Narınclar*** və Çıraqlı kəndləri erməni terrorçu birləşmələrinin hücumları nəticəsində işğal edilir. Hər iki kəndin əhalisi didərgin düşür...

**4 fevral 2000-ci il** - Ağcabədi rayonunun ***Bayat*** kəndindən hərbi səfərbərliyə alınmış vətənpərvər əsgər **Ramin Xəlil oğlu Sadıqov** döyüş bölgəsində həqiqi hərbi xidmət zamanı həlak olur...

**5 fevral 1743-cü il** - Dağıstanda itkilər vermiş ***Nadir şah*** Osmanlı ordusuna qarşı üçüncü yürüşə başlayaraq, Dağıstandan birbaşa Osmanlı torpağına **375.000** nəfərlik ordu ilə hücum edir...

**5 fevral 1905-ci il** - Erməni terrorçuları Bakıda Sabunçu kənd sakini **Ağarza Babayevi** öldürürlər. Həmin gün Bakıda daha **13** nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilir...

**5 fevral 1919-cu il** -Silahlanmış erməni saqqallıları ***Abdulluq*** Azərbaycan kəndinə hücum edərək **25** uşağı, **15** qadını və **60** kişini vəhşicəsinə qətlə yetirirlər, **144** ev yandırılır...

**5 fevral 1919 -cu il** - Erməni yaraqlıları ***Muğanski*** hökumətinin əmri ilə Lənkəran qəzasında onlarla kəndi yandırıb onları xarabalığa çevirirlər. Kəndlərin *(Qədirli, Xallıcanlı, Köçəkli, Ərəbli, Həsənli, Qarğalıq, Şəhriyar, Dəlləkli, Eminli, Məmmədxanlı, Ağatənəli, Xırmandalı, Toxulacaq, Kərbəlayi Abdullah Təkləsi və s.)* əhalisi didərgin düşür. Biçarə kənd qadınlarının ismətinə təcavüz olunur...

**5 fevral 1919-cu il** - Kilani-Turani Azərbaycan kəndində erməni quldurları **10** kişini, **1** qadını, **1** uşağı öldürür, **170** evi yandırırlar...

**5 fevral 1919-cu il** - Erməni yaraqlıları Göyçə mahalının ***Daşkənd*** oymağına hücum edirlər. **21** azərbaycanlı qətlə yetirilir. El sənətkarı **Aşıq Nəcəf** girov düşür. Onu **2** gün ac-susuz çalıb-oxumağa məcbur edirlər. Sonra onu Çaxırlı və Basarkeçər kəndləri arasında - ***Kültəpə*** adlı yerdə işgəncə ilə *(kürəyinə qaynar samovar bağlayıb küləyin əksi istiqamətində onu qaçmağa məcbur edirlər)* qətlə yetirirlər...

**5 fevral 1919-cu il** - Erməni silahlıları Göyçənin ***Şorca*** kəndinə hücum edir. Kəndin bütün kişiləri öldürülür. Uşaqlar təndirlərə atılır. Seçmə **8** qadın kənddən aparılıb **20** gün saxlanılır. Onlar şərəflərinə toxunulduqdan sonra buraxı-

lır...

**5 fevral 1938-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə **238** nəfər güllələnir...

**5 fevral 1971-ci il** - İran Azərbaycanının tanınmış xanəndəsi ***Əbülhəsənxan Musa oğlu*** **(İqbali Azər)** ölür...

**5 fevral 1992-ci il** - Xocavənd rayonunun ***Günəşli*** kəndi ermənilər tərəfindən işğal edilir...

**5 fevral 1992-ci il** - *1967*-ci il təvəllüdlü, laçmlı **Bəhmən İbiş oğlu Əliyev**, gəncəbasarlı **Emin Məhəmməd oğlu Məmmədov**, bakılı **Dayandur Həsən oğlu Salayev, Nəsib Nadir oğlu Kantiyev, Ayaz Zabitov, Bəxtiyar Qurban oğlu Nuriyev, Ayaz Qasımov**, ermənistanlı qaçqın **Nəsrullah Qasım oğlu Nəcəfov** Şuşada müəmmalı şəkildə həlak olurlar...

**5 fevral 1993-cü il** - Ermənilər Rusiyanın *7-ci* ordusunun ***128-ci*** motoatıcı alayının və **muzdlu** əsgərlərin *(əsasən kazakların)* iştirakı ilə Ağdərə bölgəsinə güclü hücuma keçirlər. Ölənlər, yaralananlar və dağıntılar olur...

**5 fevral 1993-cü il** - Erməni hərbi birləşmələri artilleriya hazırlığından sonra cəbhənin şimal sektorunda, ***Çıldıran*** yaşayış məntəqəsi ətrafında güclü hücuma keçərək 3 gün ərzində Sərsəng su anbarına doğru **10** kilometr irəliləyə bilirlər...

**5 fevral 1993-cü il** - Ağdam rayonunun **Mərzili** kəndi ermənilər tərəfindən güclü atəşə tutulur...

**5 fevral 1993-cü il** - Əks-hücum təşkil edən ermənilər zirehli texnika və ağır artilleriyanın köməyi ilə Ağdərə rayonunun **Çıldıran, Koçaqot, Arutyunoqomer** kəndlərini yenidən ələ keçirirlər...

**5 fevral 1994-cü il** - Türkiyənin hava hücumundan müdafiə qüvvələri radarlarının Suriyanın ***Hələb*** şəhərindən gizlicə İrəvana silah daşıyan təyyarə yaxaladıqları barədə məlumat verilir. Rusiya və Ukraynaya məxsus olan, həftədə **4** gün Suriyadan Odessaya və Soçiyə guya turist daşımaqla məşğul olan təyyarələri izləyən radarlar onların İrəvanda endiklərini aşkara çıxarır...

**6 fevral 1606-cı il** - Cəng tarixində qələbələri ilə öyünən, bütün Batını ayaqları altına qoyan Osmanlı sərdarı, yenilməz **Cığaloğlu Sinan** paşa zəhər içərək intihar edir...

**6 fevral 1828-ci il** - Erməni mənşəli çar generalı ***V.Mədətov*** baş komandanlığın göstərişi olmadan Təbriz yaxınlığında özbaşınalıq edərək talanlar törədir. Dinc əhaliyə qarşı silah işlədilir. Xeyli sayda ölənlər olur...

**6 fevral 1828-ci il** - Təbriz yaxınlığındakı ***Türkmənçay*** kəndində Abbas Mirzə ilə Paskeviç arasında danışıqlar yenidən başlanır. Bu danışıqlarda





A.A.Bakıxanov da iştirak edir...

**6 fevral 1905-ci il** - Bakıda Rusiya hakim dairələrinin təhriki və erməni milyonçuları ***Balabek Lalayev, Artyom Babayants, Akop Muradyan, Qriqori Sarkisyants, İsay Ter-Osipov*** və digər maqnatların havadarlığı ilə ermənilər planlı şəkildə əvvəl bir nəfər **Babayev** soyadlı azərbaycanlını qətlə yetirirlər. Sonra Bakıda ermənilər tərəfindən azərbycanlı soyqırımı törədilir. Bundan sonra Bakıda və quberniyanın digər yaşayış məntəqələrində davam edən şiddətli qırğınlar nəticəsində hər iki tərəfdən yüzlərlə adam həlak olur. Qan su yerinə axır. Dava bütün quberniyanı bürüyür. Bakıda və bütün Bakı quberniyası ərazisində hərbi vəziyyət elan edilir...

**6 fevral 1919-cu il** - Erməni daşnaqları Göyçə mahalının ***Məniman*** *(Nəriman)* kəndinə hücum edirlər. **29** kişi, **10** qadın, **12** uşaq ağır işgəncələrlə qətlə yetirilir. Onların cəsədləri eybəcər hala salınır - gözləri çıxarılır, qulaqları kəsilir. **37** evə od vurularaq yandırılır...

**6 fevral 1919-cu il** - Erməni quldurları kiçik bir Azərbaycan qışlağında çobanlara vəhşicəsinə divan tuturlar...

**6 fevral 1920-ci il** - Daşnaq yaraqlıları Gümrüdə ***terror aktı*** törədirlər. **500** nəfər azərbaycanlı qətlə yetirilir...

**6 fevral 1993-cü il** - Ağdam rayonunun ***Sırxavənd*** kəndi yenidən ermənilərin əlinə keçir...

**6 fevral 1993-cü il** - Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy *"Ağdam rayonu ərazisində fövqəladə vəziyyət rejiminin uzadılması"* haqqında fərman verir...

**6 fevral 1994-cü il** - Füzuli rayonunun ***Şükürbəyli*** kəndi istiqamətində erməni işğalçıları ilə döyüş əməliyyatı keçirilir. Füzulinin Üçbulaq kənd sakini **Museyib Qubad oğlu Abbasov** və Qarğabazar kənd sakini **Vaqif Əlqəmə oğlu Eminov** həlak olurlar. **5** nəfər isə yaralanır...

**7 fevral 1905-ci il** - Bakıda erməni terror təşkilatının əli ilə çoxlu sayda azərbaycanlı qətlə yetirilir...

**7 fevral 1916-cı il** - Rizeyə gəmilərlə rus desant dəstələri girir...

**7 fevral 1919-cu il** - Erməni silahlı quldur dəstəsi Göyçə mahalının ***Kələnti*** kəndinə soxulurlar. **15** kişini, **3** qadını, **5** uşağı vəhşicəsinə öldürürlər. Dinc kəndlilər qətlə yetirilməzdən əvvəl onlara işgəncə verilir. Bütün meyidlər eybəcər hala salınır...

**7 fevral 1920 -ci il** - Daşnaq erməni yaraqlıları Cəbrayıl qəzasının ***Qarğabazar*** kəndinə *(hazırda Füzuli rayonunun ərazisi hesab olunur)* basqın edir. **26**

uşaq, 34 qadın, 13 kişi qətlə yetirilir. 38 kişi, 15 qadın girov götürülür...

**7 fevral 1991-ci il** - DQMV PK-nin binası üzərində Azərbaycanın 3 rəngli bayrağı ilə yanaşı yaxınlıqdakı Vilayət Soveti İcraiyyə Komitəsi binası üzərində erməni bayrağı da dalğalanır...

**7 fevral 1991-ci il** - *Ağdam-Ağdərə* avtomobil yolunda ermənilər azərbaycanlıya məxsus olan avtomaşını güllələbaran edirlər. 1 nəfər ağır yaralanır...

**7 fevral 1992-ci il** - Ermənilər güclü artilleriya hazırlığından sonra **366**-cı rus atıcı alayının köməyi ilə ***Sırxavənd*** kəndinə hücum edir. **Rasim Ərşad oğlu Fərzəliyev** şəhid olur. Kənd sakini **İsa kişi** mərmi qəlpəsindən həlak olur. Dinc sakinlərdən - **F.Qasımov, T. Bəşirov, Q.Mehdiyev, B. Məmmədov, Ç. İbrahimov** yaralanırlar...

**7 fevral 1993-cü il** - Füzuli və Cəbrayıl rayonlarının əraziləri ermənilər tərəfindən atəşə tutulur. Tələfat və dağıntılar olur...

**8 fevral 1806-cı il** - Naxır bulağı adlanan ərazidə Bakı xanı Hüseynqulu xan görüş zamanı şəhərin rəmzi açarlarını Sisianova verərkən xanın əmisi oğlu ***İbrahim bəy (Aslan bəy)*** fürsət tapıb Sisianovu öldürür. Ara qızışdırılır. Yaranmış anlaşılmazlıq nəticəsində günahsız insanların qanı tökülür...

**8 fevral 1828-ci il** - Rus qoşunları ***Ərdəbili*** tutur. Onlar burda duz-çörəklə qarşılanır...

**8 fevral 1905-ci il** - Silahlanmış ermənilər Bakıda günahsız müsəlmanları qətlə yetirirlər...

**8 fevral 1907-ci il** - Təbrizdə ***silahlı üsyan*** baş verir. İran inqilabının mərkəzi Cənubi Azərbaycana keçir. Qubernator həbs edilir...

**8 fevral 1919-cu il** - Erməni silahlı quldurları azərbaycanlılar yaşayan kiçik bir kəndə soxularaq kəndliləri öldürür, onların əmlaklarını yağmalayır, kəndi yandırırlar...

**8 fevral 1919-cu il** - *«Daşnaksütyun»* beynəlxalq terror təşkilatının göstərişini yerinə yetirən erməni quldurları ***Qaramanlı*** Azərbaycan kəndində **15** uşağı, **36** qadını öldürür, **80** silahsız kişini bir-birinə bağlayaraq diri-diri torpağa basdırırlar...

**8 fevral 1919-cu il** - *"Azərbaycan"* qəzetində dərc olunmuş *"Ararat respublikasında"* adlı məqalədə Azərbaycan hökumətinin nazir-sədr yanındakı xüsusi tapşırıq məmurunun nazirə raportu verilir. Raportun son cümlələri belədir: *"Həmin 3 kəndin tarmar edilməsinə 4 gün qalmış Çamırrı kəndində ermənilər tərəfindən* **4** *kişi və 6 qadın öldürülmüşdür. Həm də kişilərin başı kəsilmiş, qadınların isə döşləri yarılmışdır. Onların meyidlərini biz özümüz basdırdıq. Şarab kəndinin*





*ələ salınmış qadın sakini xəbər vermişdir ki, Şarab kəndinin bütün kişiləri qılıncdan keçirilmiş, uşaqlar təndirlərdə yandırılmış, sonra bütün kənddən* **8** *qadını seçib* **20** *gün saxlayaraq ələ salıb namuslarına toxunduqdan sonra buraxmışlar..."*

**8 fevral 1993 -cü il** - Erməni yaraqlıları ***Ağdam, Füzuli*** və ***Cəbrayıl*** rayonlarının ermənilərlə həmsərhəd ərazilərində azərbaycanlılar yaşayan kəndlərə basqın edirlər. Dinc əhali arasında ölənlər və yaralananlar olur...

**9 fevral 1905-ci il** - Ermənilərin Rusiya hakim dairələrinin təhriki ilə Bakıda törətdikləri 3 gün davam edən şiddətli soyqırım bir qədər səngiyir...

**9 fevral 1919-cu il** - Erməni silahlı quldur birləşmələri Zəngəzur mahalının *Dovorus* Azərbaycan kəndini tamamilə çapıb-talayırlar, kəndlilərə ölüncə işgəncə verilir...

**9 fevral 1924-cü il** - Naxçıvan Muxtar Sovet Sosialist Respublikası ***(Naxçıvan MSSR)*** yaradılır...

**9 fevral 1979-cu il** - Tehranda baş verən üsyan böhranın dinc yolla nizama salınması planını pozur...

**9 fevral 1992-ci il** - Sırxavənd kəndi ərazisində qanlı döyüşlər gedir. İtkilər olur...

**9 fevral 1992-ci il** - Erməni yaraqlıları Şuşa rayonunun ***Malıbəyli*** kəndinə hücum edir. **1** nəfər qətlə yetirilir, **16** nəfər yaralanır. Kəndin ərazisinin bir hissəsi işğal edilir...

**9 fevral 1993-cü il** - Ağdam rayonunun ***Cinli*** kəndi ermənilər tərəfindən atəşə tutulur...

**9 fevral 1993-cü il** - Xocavənd rayonunun ***Nərgiztəpə*** ərazisindəki döyüşdə 1974-cü il təvəllüdlü, ağcabədili döyüşçü **Namiq Vahid oğlu Abdullayev** qumbaranı sinəsinə sıxıb özünü düşmən tankının altına ataraq şəhid olur...

**9 fevral 1993-cü il** - Xocavənd rayonunun yüksəklikləri uğrunda döyüşdə ağcabədili qəhrəmanlar - **Habil Mayıl oğlu Baxışov, Namiq Vahid oğlu Abdullayev, Pərviz Oqtay oğlu Əhmədov, Cavad Həsən oğlu Həsənov, Azər Firudin oğlu Hüseynov, Feyruz Telman oğlu Hüseynov, Maarif Xasay oğlu İbişov, Fərmayıl Məhəmməd oğlu Quliyev, Rizvan Bilal oğlu Quliyev, Hafiz Baloğlan oğlu Məmmədov, Hidayət Mirələm oğlu Səfərov, Həbib Sovet oğlu Səfərov, Həmid Şükür oğlu Şirinov, Müşfiq Malik oğlu Uluxanov** şəhid olurlar...

**9 fevral 1993-cü il** - Bütün Ağdam cəbhəsi boyu vəziyyət son dərəcə ağırlaşır. Şəhər və ətraf kəndlərdə çoxlu dağıntılar törədilir. Düşmən *Ağdamkənd* və *Xocavənd* istiqamətlərində hücum edir. Hücum Şelli kəndi ərazisində dayandırılır. *Şelli, Xramord* və *Ergi* istiqamətlərində cəbhə xəttinin yarılmasına cəhd göstə-

rilir. Ergi düzündə qızğın döyüşlər gedir. ***Papravənd, Boyəhmədli, Şahbulaq*** kəndləri və ***Ağdam*** şəhəri güclü atəşə tutulur. Ölənlər, yaralananlar və dağıntılar olur...

**9 fevral 1994-cü il** - Erməni hərbi birləşmələri gecə ordumuzun Tərtər rayonundakı mövqelərinə qəflətən hücum edir. İtkilər olur....

**9 fevral 1994-cü il** - Azərbaycanın ***Xudat*** stansiyasında ehtiyat yolda dayanan yük vaqonu partladılır. Dövlətə külli miqdarda ziyan dəyir...

**10 fevral 1124-cü il** - Çar IV David ***Şabran*** qalasını ələ keçirir...

**10 fevral 1828-ci il** - Rusiya ilə İran arasında ***Təbriz*** yaxınlığındakı ***Türkmənçay*** kəndində müqavilə imzalanır. Bununla da ***1826-1828-ci*** illər davam edən ***Rusiya-İran*** müharibəsinə son qoyulur. Müqavilənin şərtinə əsasən **Naxçıvan xanlığı, Ordubad dairəsi, İrəvan xanlığı** Rusiyaya birləşdirilir. Azərbaycan rəsmi olaraq **2** hissəyə parçalanır. İran Rusiyaya **20** milyon manat gümüş pulla təzminat verməyi öhdəsinə götürür. ***"Türkmənçay müqaviləsi"*** Xəzər dənizinin Rusiyanın daxili dənizi olmasını, orada hərbi donanma saxlamaq hüququ haqqında 1813-cü il ***"Gülüstan"*** müqaviləsinin şərtlərini təsdiqləyir. Rusiya Abbas Mirzəni İran taxt-tacının vəliəhdi kimi tanıyır. Hər iki dövlət səfarətxana açmağı nəzərdə tutur. Müqavilənin 15-ci maddəsinə əsasən erməni əhalisinə İrandan Cənubi Qafqaza köçməyə icazə verilir. İranın Zaqafqaziyaya iddialarına son qoyan *"Türkmənçay müqaviləsi"* 1828-ci il martın 20-də Rusiya, iyulun 3-də isə İran tərəfindən təsdiq olunur...

**10 fevral 1918-ci il** - Azərbaycan üçün əslində heç bir xeyri olmayan ***Cənubi Qafqaz Seymi*** yaradılır...

**10 fevral 1920-ci il** - Erməni yaraqlıları Gəncə qəzasının 9-cu sahəsinə daxil olan ***Şişqaya, Sadarağac*** və ***Hacı Qəriblər*** kəndlərinə basqın edirlər. Əhalinin çox hissəsi qətlə yetirilir. Sağ qalanlar ev-eşiyindən didərgin düşür. Qaçqınlardan 30 nəfəri donvurmadan ölür...

**10 fevral 1945-ci il** - Azərbaycanın igid oğlu, Sovet İttifaqı Qəhrəmanı **İsmayıl Xəlil oğlu Bayramov** həlak olur...

**10 fevral 1992-ci il** - Ali Baş Komandan, Prezident Ayaz Mütəllibov Qarabağ ərazisindəki silahlı qüvvələr üzərində vahid komandanlıq yaratmaq üçün **2** və **3** nömrəli əmrlər verir. **2** nömrəli əmrlə vahid komandanlıq ***Tahir Əliyevə,*** Goranboy ərazisinin müdafiəsi ***Dadaş Rzayevə,*** Şuşanın müdafiəsi isə ***Rəhim Qazıyevə*** həvalə edilir...

**10 fevral 1992-ci il** - Erməni silahlı birləşmələri Şuşanın ***Malıbəyli*** kəndi istiqamətində güclü hücuma keçirlər. ***Malıbəyli*** və ***Quşçular*** kəndlərinin könüllü





döyüşçüləri, eləcə də köməyə gəlmiş az sayda olan Milli Ordu əsgərləri ermənilərlə Malıbəyli kəndinin girəcəyində şiddətli döyüşə girirlər. Bir neçə döyüşçü şəhid olur və yaralanır...

**10 fevral 1994-cü il** - Milli Qəhrəman **Qorxmaz Abış oğlu Eyvazov** Cəbrayıl rayonunun ***Mərcanlı*** kəndi uğrunda erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**10 fevral 1994-cü il** - *"İgidliyə görə"* medalı ilə təltif edilmiş tağım komandiri **Rafiq Miryusif oğlu Orucov** Horadiz istiqamətində baş verən qızğın döyüşdə həlak olur...

**10 fevral 1994-cü il** - Kəlbəcər bölgəsində şəmkirli döyüşçülər - **Anar Abbas oğlu Qasımov, Mütalib Sevil oğlu Qasımov, Kamal Bəhman oğlu Əliyev** həlak olurlar...

**10 fevral 1995-ci il** - Polis işçisi, Milli Qəhrəman **Nurəddin İslam oğlu İbrahimov** Binə qəsəbəsində ***Qüdrət*** adlı cinayətkarı zərərsizləşdirərkən həlak olur...

**11 fevral 1725-ci il** - Rusiya Xarici İşlər Kollegiyasının qərarı ilə Xəzəryanı vilayətlərə, eləcə də Azərbaycana çoxlı sayda erməni və rus ailələrinin köçürülməsi planlaşdırılır...

**11 fevral 1906-cı il** - İrəvan mahalının **25** kəndinə hücum edən daşnaq terrorçuları həmin yerlərdə sayı qeydə alınmayan amansız ***qətliamlar*** törədirlər...

**11 fevral 1920-ci il** - Bakıda fəhlə klubu binasında Azərbaycan K(b)P-nın I qurultayı keçirilir. AK(b)P yaradılır...

**11 fevral 1979-cu il** - Tehranda inqilab qələbə çalır...

**11 fevral 1988-ci il** - Xankəndi şəhərində ermənilərin kütləvi toplantısı keçirilir...

**11 fevral 1992-ci il** - Goranboy rayonunun ***Zeyvə*** kəndi ermənilər tərəfindən atəşə tutulur. 6 ev dağıdılaraq yandırılır...

**11 fevral 1992-ci il** - Qarabağın dilbər guşəsi olan və Şuşanın **15** km şimal-şərqində, Xankəndi şəhərinin isə 2-3 kilometrliyində yerləşən cənnətməkan **Malıbəyli** və **Quşçular** kəndləri erməni-rus hərbi birləşmələrinin güclü hücumu nəticəsində işğal olunur. Azərbaycan tarixinə qara hərflərlə yazılan **Malıbəyli-Quşçular faciəsi** baş verir. Təxminən **2.500** nəfərlik əhali soyuq, şaxtalı fevral günündə keçilməz dağ-meşə yolu ilə ağır və üzücü **18** kilometr məsafəni qət edərək axşam saat **18.00** radələrində Ağdamın ***Abdal*** və ***Gülablı*** kəndlərinə yetişir. Bu faciədə yerli sakinlərdən **Abdullayev Rafiq İsmayıl oğlu, Alıxanov** Nazim **Qulam oğlu, Allahverdiyev Əli Aydın oğlu, Quliyev Aydın Ərşad oğlu, Quliyev Nicat Tofiq oğlu, Quliyev Çərkəz Əliqulu oğlu, Quliyev Rafiq Mustafa oğlu, Eyvazova Fizzə Cümşüd qızı, Əhmədov Gündüz Valeh oğlu, Əhmədov** Möhsüm

**Əbdürrəhman oğlu, Kərimov Haqverdi Tapdıq oğlu, Mehdiyev Ədalət Əlqəmə oğlu, Mədətov Cavid Adil oğlu, Mədətov Cəsarət Bayram oğlu, Mədətova Yeganə Dadaş qızı, Fərhadov Elşən Barat oğlu, Xudiyev Sərdar Bağdadur oğlu, Hümbətov İnqilab Niftalı oğlu, Teymurov Rizvan Rəhman oğlu, Zeynalov Qaryağdı Əsgər oğlu, Zeynalova Nubar Kərim qızı, Zeynalova Səriyyə Tağı qızı**... həlak olurlar. Sakinlər evlərindən bir çöp belə götürə bilmirlər. Kəndin müdafiəçiləri qadınların, uşaqların, qocaların düşmən əlinə keçməməsi üçün təpədən-dırnağa silahlanıb irəliləyən vəhşi ermənilərlə demək olar ki, əlbəyaxa döyüşür, tələfat verərək geri çəkilməyə məcbur olurlar. Ermənilər tərəfindən vəhşicəsinə yandırılan tarixi-memarlıq abidələri ilə zəngin olan ***Malıbəyli*** və ***Quşçular*** kəndlərinin tüstüsü göylərə bülənd olur. Köməksiz kənd camaatı düşmən pəncəsində pərən-pərən düşür. **4** nəfər yaşlı sakin kəndi tərk edə bilmir. Erməni terrorçuları onları amansızlıqla qətlə yetirirlər. Bir ana **3** aylıq körpəsini beşikdən götürə bilməsə də, namusunu düşməndən xilas edə bilir... Düşmən əlinə keçərsə, ismətinin tapdanacağını düşünən qadınlar ərlərinin, qardaşlarının, oğullarının gülləsi ilə ölməyi hər şeydən üstün tuturlar. Bu faciə zamanı tarixdə misli-bərabəri görünməmiş bir hadisə baş verir: bir ata düşmən gülləsindən ağır yaralanmış **17** yaşlı oğlunu aparmağın mümkünsüzlüyünü görüb həmin yeniyetmənin təkidli arzularına *("Ata, yalvarıram, məni erməniyə qoymayın!", "Ata, məni özün vur!")* əməl edir. Ata oğlunu üzüqoylu uzadıb gözlərini yumaraq əlindəki silahın tətiyini çəkir *(Allah bilir ki, ata o zaman hansı hisslər keçirirmiş)*; silahdan güllə açılmır. İkinci dəfə əlləri əsə-əsə atəş açır. Yenə güllə açılmır *(Möcüzəyə, qismətə bax, İlahi! Yəqin Ulu Tanrı atanı oğul qatili etməyə qıymamışdır)*. Oğlan yaralı vəziyyətdə orada qalır. Onun ölüb-qaldısından sonralar dəqiq bir xəbər olmur. Bəzi adamlar mərmi və güllə yağışlarının qurbanları olsalar da, kənd camaatının müəyyən hissəsi silahlı kənd cavanlarının *(onlar cəmi **58** nəfər idi)* igidliyi və bir də möcüzə nəticəsində ölümün caynağından xilas ola bilirlər...

**11 fevral 1992-ci il** - Əsgərana hücum hazırlansa da, respublika rəhbərliyi buna imkan və icazə vermir. Ağdamdakı hərbi qüvvələrin gücündən yetərincə istifadə olunmur...

**11 fevral 1994-cü il** - Kəlbəcər istiqamətində qızğın döyüşlər gedir. Milli Ordunun zabiti, baş leytenant **Sahib Hüseyn oğlu Hüseynov** ayağından ağır yaralanır...

**11 fevral** 2009-cu **il** - Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının komandanı, general-leytenant Rail Rzayev evinin yaxınlığında naməlum şəxslər tərəfindən güllələnərək faciəli surətdə qətlə yetirilir...





**12 fevral 1790-cı il** - Bütün İranı öz hakimiyyəti altına almış Ağaməhəmməd şah Qacar qardaşı Hüseynqulu Cahansuz şahın oğlu **Baba xanı** *(sonralar Fətəli şah)* özünə vəliəhd *(naibüssəltənə)* elan edir...

**12 fevral 1918-ci il** - Daşnaqların ***Ərzurum*** şəhərinin vağzalında törətdikləri terror aktı nəticəsində **10** nəfər türk dinc sakin həlak olur...

**12 fevral 1988-ci il** - İrəvanda *(Yerevanda)* küçələrə çıxmış ermənilər tərəfindən *"Ermənistanı türklərdən təmizləməli!", "Ermənistanda erməni yaşamalıdır!"* və s. millətçi şüarlar səsləndirilir...

**12 fevral 1988-ci il** - Xankəndi şəhərində DQMV-nin Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistana birləşdirilməsi tələbi ilə ermənilər tərəfindən mitinq keçirilir...

**12 fevral 1992-ci il** - Gəncədən Xocalıya ərzaq və yanacaqla yüklənmiş bir hərbi vertolyot gəlir. Yaşayış məntəqəsinin ətrafında yerləşən mövqelər ermənilər tərəfindən atəşə tutulur. Tələfat və dağıntılar olur...

**12 fevral 1992-ci il** - Rusiya Prezidenti ***B.N.Yeltsin*** *Telavi* vertolyot bazasında kursu bitirmiş erməni pilotlarına yeni və dəqiq hərbi uçuşa malik olan ***"Mİ-24P"*** markalı vertolyotların verilməsi haqqında *7-**ci*** ordunun baş komandanı, general-mayor ***Reuta*** göstəriş verir...

**12 fevral 1992-ci il** - Marşal Şapoşnikov azərbaycanlı deputat nümayəndələrinə *366-cı* alayın çıxarılması ilə bağlı razılıq bildirmir...

**12 fevral 1994-cü il** - Ermənistan ordusu **3** istiqamətdən *(Zod-Yanşaq, Kəlbəcər-Qamışlı, Ağdaban-Meydançay)* əks hücuma keçir. Ermənilər çoxlu itki verirlərsə də, Azərbaycan tərəfinin də çoxlu itkiləri olur...

**13 fevral 1745-ci il** - Nadir şah ikinci dəfə ***Şəkiyə*** hücum edir. Çoxlu sayda insan tələfatına yol verilir. Nadir şəkililəri itaətə gətirmək üçün yaşayış yerlərinin yaxınlığındakı bağları və taxıl zəmilərini məhv etməyi , ağacları kəsməyi əmr edir. Çətin dağ keçidlərindən məharətlə istifadə edən şəkililər itkilər verirlərsə də inadla vuruşurlar. Şəkililəri itaətə gətirə bilməyən Nadir şah Şəki şəhərini yandırmaq əmrini verir...

**13 fevral 1902-ci il** - Şamaxıda gücü təxminən ***9*** bal olan **zəlzələ** baş verir. Şamaxı şəhərində və **30-a** yaxın ətraf kənddə **3500** ev dağılır, yer səthində çatlar əmələ gəlir. **1300** nəfər adam həlak olur...

**13 fevral 1979-cu il** - Azərbaycan xalqı yeni inqilabdan da gözlədiyini ala bilmir. Cənubi Azərbaycana mutariyyət verilmir. Azərbaycan dilinin və mədəniyyətinin inkişafı üçün şərait yaradılmır. İslam rejiminin sərtliyi ilə əlaqədar

olaraq azərbaycanlılardan da mühacirət edənlər olur...

**13 fevral 1988-ci il** - Ermənilərin *Xankəndi (Stepanakert)* şəhərində-Dağlıq Qarabağ Muxtar Vilayəti Partiya Komitəsinin binası qarşısında, Mərkəzi Lenin meydanında **400** nəfərlik ilk mitinqi keçirilir. Mitinqdə *"Dağlıq Qarabağın Azərbaycandan ayrılması"* və digər millətçilik ruhlu şüarlar, qərarlar səsləndirilir. Mitinqə *"Krunk"* terrorçu təşkilatının sədri ***Arkadi Manuçarov*** rəhbərlik edir...

**13 fevral 1990-cı il** - Armen Mixayloviç Avanesyanın terrorçu qrupu *Yevlax- Laçın* avtomobil yolunun **105** kilometrliyində *Şuşa-Bakı* istiqamətində hərəkət edən avtobusu partladır. **2** sərnişin həlak olur, **13** nəfər yaralanır...

**13 fevral 1992-ci il** - Xocalıya ərzaq və yanacaqla dolu sonuncu *M-26* hərbi vertolyotu gəlir...

**13 fevral 1992-ci il** - Ağdam rayonunun ***Mərzili, Abdal-Gülablı, Şelli*** və s. kəndləri atəşə tutulur. Dağıntılar olur. Şəhərin mərkəzi meydanında mitinq keçirilir...

**13 fevral 2001-ci il** - Yerevan özünün hərbi və təhlükəsizlik sistemindəki elektron poçt kanallarına *"COMİT"* texnoloji sistemini də əlavə edir...

**14 fevral 1921-ci il** - Ağdamdan ermənilər yaşayan Darnavaz kəndinə konsert vermək üçün gedən **6** nəfər azərbaycanlı aktyor daşnaq ***Ağacan Azriyanın*** terrorçu qrupunun üzvləri tərəfindən qətlə yetirilir...

**14 fevral 1992-ci il** - Xocalı şəhəri ***Mehdikənd və Noraguh*** kəndləri istiqamətlərindən atəşə tutulur. Dağıntılar olur...

**14 fevral 1993-cü il** - Ermənilər *Tərtər-Kəlbəcər* yolunu kəsərək ***Sərsəng*** su anbarından cənuba və şimala doğru yerləşən yaşayış məntəqələrini ələ keçirirlər...

**14 fevral 1994-cü il** - Füzuli və Ağdam cəbhələrində gedən döyüşlərdə bir neçə Azərbaycan əsgəri həlak olur...

**15 fevral 1796-cı il** - Rusların hərbi hissələri general Savelyevin başçılığı ilə Dərbəndə çatır...

**15 fevral 1979-cu il** - Cənubi Azərbcanda inqilab tam qələbə çalırsa da, çoxlu sayda itkilər olur...

**15 fevral 1988-ci il** - DQMV XDS-nin sessiyası SSRİ və Azərbaycan SSR konstitusiyalarına zidd olaraq DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında ***qərar*** qəbul edir...

**15 fevral 1992-ci il** - Müdafiə naziri Şahin Musayev Əməliyyat İdarəsinin





baş zabiti, leytenant Fəhmin Hacıyevə müdafiə naziri əvəzi və baş qərargah rəisinin səlahiyyətli nümayəndəsi olması barədə vəsiqə verib onu Ağdama göndərir. Ona eyni zamanda qarşıya çıxan hər hansı çətinlikləri *(?)* yerindəcə həll etmək hüququ da verilir...

**15 fevral 1992-ci il** - Silahlı erməni hərbi birləşmələri Xocavənd rayonunun Qaradağlı kəndinə hücum edir. Kənd sakinlərinin və köməyə gəlmiş **15** əsgərin səyləri nəticəsində silahlı ermənilər geri çəkilməyə məcbur olur. **3** nəfər kənd sakini - **Nobil Əli oğlu Zeynalov, Xanalı Həbib oğlu Hüseynov, Altay Məhəmməd oğlu Həsənov** və köməyə gəlmiş əsgər **Manaf İslam oğlu Dadaşov** öldürülür, **2** nəfər ağır, ölümcül yaralanır...

**15 fevral 1993-cü il** - MDB-nin *128* saylı motoatıcı alayı və muzdlu kazaklar ***Ağdərə*** istiqamətində əks-hücuma keçərək azad edilmiş əraziləri işğal edirlər...

**16 fevral 1931-ci il** - Bakıda açılmış Azərbaycan zərbəçi kolxozçularının ***I Qurultayı*** kolxoz quruculuğunun ilk müvəffəqiyyətlərinə yekun vurur, kolxoz hərəkatını daha da inkişaf etdirmək uğrunda mübarizəsini *"qüvvətləndirməyə çağırır"*...

**16 fevral 1991-ci il** - Goranboy rayonunun ***Başqışlaq*** kənd sakini erməni yaraqlıları ilə döyüşdə avtomat silahla öldürülür...

**16 fevral 1992-ci il** - Milli Qəhrəman **Səfərəli Qurban oğlu Məmmədov** Qaradağlı kənd sakinlərini erməni quldurlarından xilas edərkən minaya düşərək həlak olur...

**16 fevral 1992-ci il** - Səhər erkən məkrli düşmən Xocavənd rayonunun ***Qaradağlı*** kəndini mühasirəyə alır. Park və kolxoz idarələri tərəfdən atılan atəş nəticəsində **6** nəfər kənd sakini yaralanır, **2** nəfər kənd sakini isə ölür. Atışma zamanı kəndə köməyə gəlmiş **14** Milli Ordu əsgərindən **1** nəfər də həlak olur...

**16 fevral 1992-ci il** - Erməni yaraqlıları ***Sırxavənd*** kəndinə basqın edirlər. Kənd sakini İntizam Bəşirov həlak olur...

**16 fevral 1992-ci il** - Ağdam şəhəri ermənilər tərəfdən mərmi yağışına tutulur. Mərmilərdən biri 2 saylı ruhi xəstəxananın həyatinə düşür. **2** nəfər həlak olur. Atılan mərmilər nəticəsində sürücü *Rasim Yunusovun* evi ciddi zədələnir, onun körpə uşağı yaralanır...

**16 fevral 1994-cü il** - ***8*** azərbaycanlı hərbi əsir ermənilər tərəfindən amansızlıqla güllələnir...

**17 fevral 1872-ci il** - İltizam sistemi ləğv edilir...

**17 fevral 1918 -ci il** - Andranikin başçılıq etdiyi erməni yaraqlıları Türkiyənin *Təpəköy* kəndində yaşına və cinsinə baxmadan bütün dinc əhalini qətlə yetirirlər...

**17 fevral 1990-cı il** - Naxçıvanda *Künnüt* kəndi *(Şərur rayonu)* erməni yaraqlıları tərəfindən işğal olunur...

**17 fevral 1992-ci il** - Ağdam şəhəri ermənilər tərəfindən atəşə tutulur. Ölənlər, yaralananlar, dağıntılar olur...

**17 fevral 1992-ci il** - Saat *5:30*-da erməni-rus hərbi birləşmələri hücum edərək bir neçə saat ərzində Xocavənd rayonunun *1100* nəfər əhalisi olan və ermənilər yaşayan qonşu ***Ağkənd, Aşan, Paravatumb, Qağarza, Qarakənd, Gavahın, Dağdağan, Kəndxurd, Kiş, Mirikənd, Mısmına, Müşkabad, Ningi*** *(Cəmiyyət)*, ***Harov*** kəndləri ilə əhatələnən azərbaycanlıların məskunlaşdığı cənnətməkan Qaradağlı kəndini işğal edir. Bu işğalda *23*-cü diviziyanın *366*-cı alayının da müstəsna xidməti olmuşdur. Ümumilikdə kənd sakinlərindən 77 nəfər ( **Abbasov Sərvər İldırım oğlu, Abdullayev Abdulla, Axundov Hafiz Elmaz oğlu, Arazov Eldar, Babayeva Validə Həmid qızı, Bayramov Arif İbrahim oğlu, Bayramov Elmdar Rəşid oğlu, Bayramov Rəşid Həşim oğlu, Bayramov Sultan Rəşid oğlu, Dadaşov Eldar İsa oğlu, Dadaşov Manaf İslam oğlu, Dadaşov Mikayıl İslam oğlu, Dadaşov Uğur Eldar oğlu, Doluxanov Rəhim Möhkəmə oğlu, Əliyev Qasım Hüseyn oğlu, Əliyev Xaliq Məhərrəm oğlu, Əliyev Vətən Əmirxan oğlu, Əliyev Zahid Zeynal oğlu, Əhmədova Sürəyya Cavad qızı, Əzizov Alov Əfqar oğlu, Əzizov Atəş Əfqar oğlu, Əzizov İltifat Yelmar oğlu, Həsənov Altay Məhəmməd oğlu, Həsənov Əvəz Yaşasın oğlu, Hüseynov Xanalı Həbib oğlu, Hüseynov Xandəmir Bəbir oğlu, Hüseynov Fehruz Mahmud oğlu, Hüseynov Həbib Həmzə oğlu, Hüseynov İbiş Həbib oğlu, Hüseynov Dəmir Musa oğlu, Hüseynov Niftalı Bakir oğlu, Hüseynov Nahid Adil oğlu, Hüseynov İmran Əhməd oğlu, Hüseynov Şahmurad Hüseynalı oğlu, Hüseynov Şura Hüseynalı oğlu, Hüseynov Əbülfət Mehman oğlu, Hüseynov Əsgər Səməd oğlu, Hüseynov Fədail Zülfüqar oğlu, Hüseynov Zülfiqar Dəmir oğlu, Hüseynova Səbiqə Mürsəl qızı, Hüseynova Qənirə Həmid qızı, Hüseynova Raxşəndə Bayram qızı, Hüseynova Rahilə Şahmar qızı, Hüseynova Məxmər Məcid qızı, Xəlilov Zahid Əyyub oğlu, Kazımov Nəsimi Kazım oğlu, Kazımov Səlim Kazım oğlu, Kərimov Əliqismət Qara oğlu, Quliyev Ələstan Nəriman oğlu, Quliyev Ələkbər Məmməd oğlu, Quliyev Əloğlan Ələstan oğlu, Quliyev Kamal Bəylər oğlu, Quliyev Gündüz Əlqəmə oğlu, Quliyev Mirzəli Müslət oğlu, Quliyev Nəbi Mütalib oğlu, Quliyeva Nazənin Rəşid qızı, Məmmədov Ədatət Şahmar oğlu, Məmmədov Ərəstun Ağalar oğlu, Məmmədov Məmməd Əmirxan oğlu, Mustafayev Qərib Həsrət oğlu, Mustafayev Talıb Yaqub oğlu, Nağıyev Aftandil Xanlar oğlu, Nazarov Sura İbad oğlu, Rəhimov Məhi, Rüstəmova Zivər Alıhüseyn qızı, Səmədova Gülzəndə Bakir qızı, Süleymanov Elçin Möhübbət oğlu, Şirinov Böyükkişi Lələ oğlu, Şirinov İltifat Əjdər oğlu, Tağıyev Faiq Həsrət oğlu, Tağıyev Elsevər Teyyub oğlu, Tağıyev Həsrət, Tağıyev Kamil Sərdar oğlu, Tağıyev Zakir Gülüm oğlu, Tağıyev Telman Tevon oğlu, Vəliyev Fazil Cavad oğlu, Vəliyev Füzuli Cavad oğlu, Zeynalov Nobil Əliş oğlu**) və eləcə də köməyə gəlmiş Milli Ordunun **14** nəfər əsgəri silahlı ermənilər tərəfindən xüsusi amansızlıqla qətlə yetirilir. Cəsədlərin çoxusu *(40-a qədəri)* ermənilər tərəfindən "Bəylik bağı" adlanan ərazidəki "Silos quyusu"na atılır. Gündüz saat *15.00* radələrində ermənilər əsir götürdükləri adamlardan **10** nəfərini ***Qağarza*** və ***Papavatumb*** kəndləri yaxınlığında güllələmək üçün maşından düşürüb sıraya düzürlər. On nəfərdən biri olan **Telman** adlı şəxs özündə saxladığı yeganə qumbaranı ermənilərin toplandığı istiqamətə atır. Özü də daxil olmaqla **9** nəfər azərbaycanlı və **3** erməni həlak olur. Ağır partlayışdan qəlpə yarası alan ***Vidadi Hüseynov*** isə möcüzə nəticəsində salamat qalır. Ara qarışan kimi cəld özünü tikanlı kollara vurub orada gizlənən *Vidadi* axşam toranlıq düşəndən sonra çox çətinliklə ermənilər yaşayan **2** kəndin ərazisindən keçərək *(həmin kəndlərin ərazilərində o, bir sıra faciələrlə də üzləşmişdir)* gecə saat 2 radələrində *(artıq 18 fevralda)* Ağdam rayonunun *Abdal-Gülablı* kəndinə gəlib çıxa bilir... Beləliklə, erməni quldur birləşmələri Xocavənd rayonunun azərbaycanlılar yaşayan Qaradağlı kəndini işğal edirlər. XX əsrin amansız və qələmin də yaza bilmədiyi çox ağrılı səhnələri olan dəhşətli Qaradağlı faciəsi baş verir. Xarici Kütləvi İnformasiya Vasitələrinin məlumatlarına görə, dinc əhaliyə qarşı olan bu cinayətlərdə erməni quldur və terror birləşmələri sırasında öz vətənlərində məhkum olunmuş və həbsxanalardan qaçmış ərəb muzdluları da iştirak etmişlər...

**17 fevral 1992-ci il** - Ağdam şəhərində izdihamlı mitinq keçirilir. **Qasım Kərimov** mitinqdə Ağdam rayonu PŞ-nin rəisi *İslah Paşayevin* bir sutka ərzində rayonu tərk etməsi tələbi ilə çıxış edir...

**17 fevral 1992-ci il** - Separatçı daşnaq yazıçı Zori Balayan (*"Ocaq"* kitabının müəllifi) Telavi hərbi bazasında silahlanmış ermənilərə başa salır ki, kim ***Böyük Ermənistan*** uğrunda vuruşursa, o, tarix yaradır...

**17 fevral 1993-cü il** - Ağdam rayonunun mərkəzi atəşə tutulur. Ölənlər, yaralananlar və dağıntılar olur. Düşmən ***Şelli*** kəndi istiqamətində hücum etməyə cəhd göstərir...

**17 fevral 1993-cü il** - Ermənilərin güclü hücumları nəticəsində ***Qozlu Körpü*** *(Hötevan)* və ***Heyvalı*** *(Drmbon)* kəndləri işğal edilir...

**17 fevral 1994-cü il** - Kəlbəcər bölgəsində şəmkirli igidlər - **Zakir Lətif oğlu Əliquliyev, Osman İbrahim oğlu Əliyev, Rasim Camal oğlu İsayev, Abbas Haqverdi oğlu Xudaverdiyev, Elman Qasım oğlu Qasımov, Bakir İskəndər oğlu Məm-**

**mədov, Mübariz Əsəd oğlu Mehdiyev, Şahlar Cavad oğlu Musayev, Coşqun Müzəffər oğlu Nəbiyev** ermənilərlə döyüşdə həlak olurlar...

**18 fevral 1610-cu il** - Şabran qalasında Osmanlı sərkərdəsi, Şirvan bəylərbəyi ***Zülfüqar xan Qaramanlı*** öz xeyməsində yatdığı halda doğranaraq qətlə yetirilir...

**18 fevral 1905-ci il** - II Nikolayın fərmanı ilə Bakıda və Bakı quberniyasının digər ərazilərində hərbi vəziyyət elan olunur...

**18 fevral 1929-cu il** - Moskva rəhbərliyinin qərarı ilə Naxçıvan MR-na məxsus olan *657* kv. km ərazi - ***Qurdbulaq, Horadiz, Oğbun, Almalı, İtqiran, Sultanbəy, Qarsevən, Kilid*** və digər kəndlər, həmçinin Zəngilan rayonunun ***Nüvədi*** kəndi, Qazax rayonunun **4.400** hektarlıq meşə sahəsi Ermənistana verilir...

**18 fevral 1988-ci il** - Azərbaycan Respublikası Ermənistandan *(Zəngəzurdan)* zorla çıxarılan 4 min nəfər Qafan rayon sakinlərini - qaçqınları qəbul edir...

**18 fevral 1988-ci il** - Ermənilərin *"Qarabağ"* və *"Krunk"* liderlərinin təşkilatçılığı ilə Xankəndində ixtişaşlar baş verir. İnstitutda azərbaycanlı müəllim və tələbələrin üzərinə hücumlar edilir. Onlar döyülərək təhqir olunur. Dərslər pozulur...

**18 fevral 1990-cı il** - *Yevlax-Laçın* yolunun *105*-ci kilometrliyində *"Şuşa-Bakı"* marşrutu ilə hərəkət edən sərnişin avtobusu ermənilər tərəfindən partladılır. Ölən və çoxlu sayda ağır yaralananlar ***(13 nəfər)*** olur. Bir neçə nəfər ömürlük şikəst olur...

**18 fevral 1992-ci il** - Ağdam rayon DİŞ-nin rəisi ***İslah Paşayev*** vəzifəsindən azad edilir...

**18 fevral 1992-ci il** - *«Qarabağ»* terror təşkilatından olan erməni saqqallıları azərbaycanlılar yaşayan Ağdam rayonunun Şelli kəndinə etdikləri hücum zamanı kənddən **2** məktəblini - **Natiq** və **Niyaməddin** İbadovları, eləcə də başqa **1** nəfər kənd sakinini girov götürürlər. Sonra isə ultimatum verirlər ki, ***Şelli*** kəndinin sakinləri qısa müddətdə doğma yerlərini tərk etməlidirlər, əks təqdirdə uşaqlara divan tutulacaqdır...

**18 fevral 1992-ci il** - Prezident fərmanı ilə ***Tahir Əliyev*** Ağdam şəhərinin komendantı təyin olunur. Ağdam rayonu ərazisində ***fövqəladə vəziyyət*** tətbiq edilir...

**18 fevral 1992-ci il** - Laçın rayonunun ***Hacılar*** kəndi emәni yaraqlıları tərəfindən güclü atəşə tutulur. Atışma zamanı **Şəfi Səməd oğlu Abdullayev** *(1968-ci il təvəllüdlü)* həlak olur...





**18 fevral 1993-cü il** - *"Azərbaycan Bayrağı"* ordenli **Bəylər Eldar oğlu Məmmədov** Aterk kəndi yaxınlığında həlak olur...

**18 fevral 1994-cü il** - Ömər aşırımı da daxil olmaqla, Kəlbəcərin şimal hissəsi ermənilərin nəzarəti altına keçir...

**18 fevral 1994-cü il** - Azərbaycan ordusu geri çəkilir. İki Azərbaycan briqadası mühasirəyə düşür. Qoşunlarımız **1500** nəfər itki verir...

**18 fevral 1994-cü il** - Moskvada Rusiya, Ermənistan və Azərbaycan nümayəndələrinin görüşündə Rusiyanın hazırladığı plan ***«müzakirə»*** *(sənəddə Şuşa, Laçın adı çəkilmir)* edilir...

**19 fevral 1921-ci il** - Erməni terrorçuları ***Zəngibasar*** ərazisində **18** nəfər azərbaycanlını qətlə yetirir...

**19 fevral 1937-ci il** - Görkəmli hərbçi, polkovnik **Qalib İbrahim ağa oğlu Vəkilov** həlak olur...

**19 fevral 1938-ci il** - Azərbaycan SSR XDİK-in müavini, mayor ***Rayevin*** əmri ilə **45** nəfər güllələnir...

**19 fevral 1978-ci il** - Qumda baş vermiş qanlı hadisənin 40-cı günü nümayişə çıxmış **100 min** nəfər adam polisin və ordunun zorakılığına cavab olaraq mövcud quruluşa qarşı üsyana qalxır. ***Üsyan*** qan içərisində yatırılır...

**19 fevral 1988-ci il** - DQMV Partiya Komitəsinin geniş tərkibdə büro iclası keçirilir. Ermənilər sosial-iqtisadi təzyiqlərə məruz qaldıqlarını bəyan edirlər. Xankəndi şəhər PK-nin birinci katibi ***Zaven Movsesyanın*** təklifi ilə büronun qərarından çıxarışı Moskvaya göndərmək və oradan nümayəndə heyəti çağırmaq qərara alınır...

**19 fevral 1988-ci il** - Bakıda ***Dağlıq Qarabağ məsələsi*** ilə bağlı ilk etiraz mitinqi keçirilir. ***Mitinq*** müxtəlif qüvvələr tərəfindən dağıdılır...

**19 fevral 1988-ci il** - İrəvanda *"Ermənistan yalnız ermənilər üçündür!"*, *"Ermənistanda yalnız ermənilər yaşamalıdır!"*, "Ermənistanı türklərdən təmizləməl!" şüarları altında antitürk mövqeli ***mitinq*** keçirilir...

**19 fevral 1988 - ci il** - Erməni terrorçuları İrəvanda **9** cümə məscidindən sonuncusunu, şəhərin bəzəyi olan gözəl memarlıq abidəsini - ***Göy Məscidi*** vəhşicəsinə yandırırlar...

**19 fevral 1992-ci il** - B.Yeltsin, L.Ter-Petrosyan və B.Şapoşnikov Moskvada məxfi görüşürlər...

**19 fevral 1992-ci il** - Xocavənd rayonunun ***Qaradağlı*** kənd sakinləri **Altay Məhəmməd oğlu Həsənovun** və **Xanalı Həbib oğlu Hüseynovun** meyidləri Ağdama gətirilərək oradakı *«Şəhidlər xiyabanı»*nda dəfn olunur...

**19 fevral 1992-ci il** - Erməni quldur birləşmələri Ermənistan ərazisindən *Qubadlı* rayonunun kəndlərini atəşə tutmuşlar. Dinc əhali arasında ölənlər olur...

**19 fevral 1992-ci il** - Milli Qəhrəman **Aqil Sahib oğlu Quliyev** erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**19 fevral 1992-ci il** - 7-ci ordunun Baş komandanı general Reutun Moskvadan aldığı 17 fevral tarixli, general A.N.Kovalyovun imzaladığı *"201/4 AK"* nömrəli sərəncama əsasən, **16** erməni üçün **9** müxtəlif markalı *(əsasən "Mİ-24P")* hərbi vertolyotlar ayrılır. 22 fevralda vertolyot eskadrilyası 366-cı alayın tərkibinə keçirilir...

**19 fevral 1992-ci il** - Erməni terrorçuları səhər saat 7 radələrində Qubadlı rayonunun *Əliquluuşağı* kəndinə basqın edirlər. **Mehman Ağayev, Gülməmməd Məmmədov, Anar Rəsulov** həlak olurlar. 4 nəfər *(Xəqani Abbasov, Vəliyar Əbdülov, Bəhlul Ağayev, İdris Cəlilov)* ağır yaralanır...

**19 fevral 1992-ci il** - Şuşa şəhəri ermənilər tərəfindən mərmi atəşinə tutulur. 35 ev dağıdılır. Şəhər sakini **Etibar Qaçay oğlu Əhmədov** yaralanır...

**19 fevral 1993-cü il** - Milli Qəhrəman **Vəzir İsa oğlu Sədiyev** ermənilərlə döyüşdə həlak olur...

**19 fevral 2004-cü il** - Budapeştdə vətənpərvər azərbaycanlı zabit ***Ramil Səfərovun*** şəxsiyyəti və onun mənsub olduğu Azərbaycan dövlətinin bayrağı erməni zabiti ***Qurgen Markaryan*** tərəfindən təhqir olunur...

**20 fevral 1988-ci il** - DQMV XDS-nin yalnız erməni deputatlarının iştirakı ilə keçirilən növbədənkənar sessiyası Vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın ərazi-inzibati bölgüsünə daxil edilməsi barəsində ***qərar*** qəbul edir. Dağlıq Qarabağın Ermənistan ilə birləşməsi haqqında Azərbaycan SSR-in və Ermənistan SSR-in hakimiyyət orqanlarına müraciət edilir. Ermənilər Xankəndində, Vilayət Partiya Komitəsinin binası qarşısında **3.000** nəfərin iştirakı ilə mitinq keçirir. Dağlıq Qarabağın Vilayət Soveti Ermənistana birləşmək haqqında qərar çıxarır və onu SSRİ Ali Sovetinə də göndərir...

**20 fevral 1988-ci il** - Yerevan Opera Teatrı meydanında keçirilən mitinqdə Ermənistanın tanınmış simaları tərəfindən Azərbaycana qarşı əsassız iddialar səsləndirilir...

**20 fevral 1991-ci il** - Erməni terrorçuları ***Xanlar (Göygöl)*** rayonunda mülki maşını gülləyə tuturlar. **2** nəfər azərbaycanlı həlak olur...

**20 fevral 1991-ci il** - *Laçın - Yevlax* avtomobil yolunun *106*-cı kilometrliyində ***Zərin bağı*** adlanan ərazidə *"Kamaz 5511"* markalı ***25 - 31 AQT*** nömrəli avtomaşın ermənilər tərəfindən partladılır. Sürücü **İlham Baxşeyiş oğlu Allahverdiyev** və onun yaxın qohumu **Güman Əvəz oğlu Qocayev** faciəli şəkildə həlak olurlar...





**21 fevral 1914-cü il** - *«Hnçak»* partiyası ***Qarsda*** və ***Ərdahanda*** silahlı üsyan qaldırır. **30.000** etnik türk öldürülür...

**21 fevral 1915-ci il** - Ermənilər Şərqi Anadolunun ***Bitlis, Van, Muş, Diyarbəkir*** və bir çox digər əyalətlərində üsyan qaldırırlar...

**21 fevral 1921-ci il** - Rza xan rus kazak hissələrindən ibarət **2.500** nəfərlik dəstəni Tehrana gətirir və çevrilişi həyata keçirir...

**21 fevral 1988-ci il** - Erməni vandalları ***İrəvanda (Yerevanda)*** qalmış son məscidə də hücum edərək onu yandırıb dağıdırlar...

**21 fevral 1988-ci il** - Sovet İttifaqı KP MK Siyasi Bürosunda ***«Dağlıq Qarabağ»*** hadisələrinə dair müzakirə ***(?)*** aparılır...

**21 fevral 1990-cı il** - Stepanakertdə *(Xankəndi şəhəri)* asfalt zavodunun hasarı arxasından ermənilər içərisində **32** nəfər azərbaycanlılar olan *Şuşa-Ağdam* marşrutu ilə hərəkət edən avtobusa qumbara atırlar. Sərnişinlər arasında olan Şuşa həbsxanasının əməkdaşı ***Səyyad Həsənov*** cəld tərpənərək qumbaranı avtobusun içərisindən götürüb bayıra tullayır. Güclü partlayış baş verir. Azərbaycanlılardan da xəsarət alanlar olur...

**21 fevral 1992-ci il** - Ayaz Mütəllibovun fərmanı ilə ***Səyyaf Verdiyev*** Ağdam rayon icra hakimiyyətinin başçısı vəzifəsindən azad olunur...

**21 fevral 1992-ci il** - Şuşanın **Qaybalı kəndi** ermənilər tərəfindən işğal olunur...

**21 fevral 1993-cü il** - Erməni hərbi birləşmələri Ağdamın ***Şelli*** və ***Ergi*** istiqamətlərində hücuma keçir. Şelli kəndi ətrafında şiddətli döyüşlər gedir...

**21 fevral 1997-ci il** - Azərbaycanın görkəmli ziyalısı, Sovet İttifaqı Qəhrəmanı, Milli Məclisin üzvü, tarixçi, akademik **Ziya Musa oğlu Bünyadov** faciəli şəkildə öldürülür...

**22 fevral 1762-ci il** - Rus çarı I Yekaterina ermənilərin *«Yüksək mərhəmətə layiq görülməsi»* haqqında ***fərman*** imzalayır...

**22 fevral 1918-ci il** - Urmiyada xristianlarla müsəlmanlar arasında qarşıdurma baş verir. Müsəlmanlardan da çoxlu sayda itkilər olur...

**22 fevral 1922-ci il** - Sovet respublikaları Rusiya Federasiyası ilə saziş bağlayır. Sazişə əsasən bütün respublikalar beynəlxalq münasibətlərdə öz mənafelərini müdafiə etməyi Rusiya Federasiyasına tapşırır...

**22 fevral 1988-ci il** - Bakıda ermənilərin Dağlıq Qarabağdakı hədyan hərəkətləri ilə bağlı azərbaycanlıların ilk nizamsız ***ümumxalq mitinqi*** keçirilir...

**22 fevral 1992-ci il** - Füzuli rayonunun ***Yuxarı Veysəlli*** kəndi erməni yaraqlıları tərəfindən zirehli texnikanın köməyi ilə işğal olunur. **8** nəfər həlak olur, **20** nəfər yaralanır, **16** yaşlı bir oğlan itkin düşür. Kəndin **1.000** nəfərlik əhalisi doğma yurd yerlərini tərk etmək məcburiyyətində qalır. Düşmən onlarla evi od vuraraq yandırır...

**22 fevral 1992-ci il** - Terrorçu ermənilər Füzuli rayonunun **Cəmilli** kəndinə silahlı basqın edirlər. **2** nəfər milis əməkdaşı həlak olur, **4** nəfər yaralanır...

**22 fevral 1992-ci il** - Ermənilər *Xocalı* şəhərini atəşə tuturlar. **3** nəfər həlak olur, **9** nəfər yaralanır...

**23 fevral 1918-ci il** - O dərəcədə də nüfuzu olmayan ***Zaqafqaziya Seymi*** açılır...

**23 fevral 1919-cu il** - Andranikin quldur dəstələrindən biri ***Tuğ*** kəndi *(hazırda Xocavənd rayonunun tabeliyindədir)* istiqamətində hücum edərək kəndi talan edir, azərbaycanlıların bir qismini öldürür, onların evlərini yandırır, əmlakını, mal-qaralarını daşıyıb aparırlar...

**23 fevral 1988-ci il** - Qarabağ müharibəsinin ilk qurbanları - Ağdam sakinləri **Bəxtiyar Quliyev** və **Əli Hacıyev** Əsgəranda şəhid olurlar. **19** nəfər yaralanır. Bu qanlı hadisə ilə ermənilər silahlı münaqişədə maraqlı olduqlarını nümayiş etdirirlər...

**23 fevral 1988-ci il** - Vilayət Aqrar-Sənaye Komitəsinin sədri ***Q.A.Poqosyan*** DQMV PK-nin birinci katibi vəzifəsinə seçilir...

**23 fevral 1988-ci il** - Ermənilər Ermənistanda *(Qərbi Azərbaycanda)* ***"etnik təmizləmə"*** siyasətini həyata keçirərək **4** mindən çox azərbaycanlını oradan qovurlar...

**23 fevral 1990-cı il** - Ermənistan SSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Azərbaycan Respublikasının ərazisi olan Qarabağın dağlıq hissəsində Ermənistan SSR Ali Sovetinə deputatlar seçilməsi üzrə **12** seçki dairəsi yaradılır. Bu qərar dünya praktikasında misli görünməmiş bir hal hesab olunur: bir dövlət qərar qəbul edib digər dövlətin ərazisində öz parlamentinə seçkilər keçirir. Tədqiqatçılar tərəfindən bu fakt *«Daşnaksütyun»*un göstərişini yerinə yetirən erməni terror və quldur birləşmələrinin işğalçılıq fəaliyyətində Ermənistan hökumətinin birbaşa iştirak etməsinin növbəti sübutu kimi qiymətləndirilir...

**23 fevral 1991-ci il** - Cəbrayıl rayonunun *Nüsüs, Qışlaq, Süleymanlı* kəndləri atəşə məruz qalır. **2** nəfər yaralanır. Erməni yaraqlıları ***Qışlaq*** kəndinə hücum





edir...

**23 fevral 1992-ci il** - Ağdam rayonu ərazisində yerləşən *Uzundərə* hərbi sursat anbarı və istehkamçı-mühəndis batalyonunun əmlakı zəbt edilir. Çoxlu miqdarda döyüş və hərbi sursatlar müxtəlif naməlum istiqamətlərə daşınır...

**23 fevral 1992-ci il** - Xramord kənd istiqamətində mövqe döyüşləri davam edir. Xocalı ilə birləşmək məqsədi ilə Əsgərana Ağdamdan gözlənilən hücum əməliyyatı nədənsə baş tutmur. ***Manikli*** kəndi ərazisindəki mühüm strateji əhəmiyyəti olan ***Sığnaq*** yüksəkliyi ermənilər tərəfindən atəşə tutaraq hücuma məruz qalır. Bir neçə nəfər azərbaycanlı həlak olur...

**23 fevral 1992 -ci il** - Şuşa şəhəri ermənilər tərəfdən top atəşinə tutulur. **Cümşüd Bəşirov** həlak olur. Onun oğlu ***Vidadi,*** yeznəsi ***Səfalı*** ağır yaralanırlar...

**23 fevral 1993-cü il** - Mövqe döyüşləri aparan düşmən ***Sərsəng*** su anbarı rayonuna çıxa bilir...

**23 fevral 1993-cü il** - Azərbaycan Respublikası Prezidenti Əbülfəz Elçibəy 1918-ci il soyqırımında həlak olan azərbaycanlıların şərəfinə Bakıdakı ***«26 Bakı Komissarı»*** bağında abidə ucaldılması haqqında **471** saylı qərar qəbul edir. Həmin bağın adının dəyişdirilərək ***«Qaçqınlar bağı»*** qoyulması qərara alınır. Amma bütün bunlar kağız üzərində qalır...

**24 fevral 1576-cı il** - Görkəmli alim, şair, rəssam, musiqiçi, astroloq, filosof **İbrahim Mirzə Əbülfət Zəhirəddin Bəhram Mirzə oğlu Cahi** öldürülür...

**24 fevral 1739-cu il** - Nadir şahın **90** minlik qoşunu ilə Məhəmməd şahın **200** minlik ordusu üz-üzə gəlir. Bu qanlı, məşəqqətli savaşda hər iki tərəfdən çoxlu sayda itkilər olur. Hindistan ordusunun baş komandanı ***Xan Dövran*** yaralanır, sərkərdələrdən ***Səadət xan*** əsir alınır...

**24 fevral 1830-cu il** - Rus generalı ***İ.F.Paskeviç*** Azərbaycana, ***Car-Balakənə*** qoşun yeridir...

**24 fevral 1920-ci il** - Zaruşat tərəfdən hücuma keçən daşnaqlar Düzkəndin ***Şurakəni*** yaşayış məntəqəsini tamam dağıdırlar. Bütün kişilər qılıncdan keçirilir...

**24 fevral 1920-ci il** - RK(b) P Qafqaz Ölkə Komitəsi, AK(b) P MK və BK partiya təşkilatlarını **hərbi vəziyyətdə** elan edirlər...

**24 fevral 1991-ci il** - *Şuşa-Ağdam* marşrutu ilə hərəkət edən avtobus ermənilər tərəfindən partladılır, ağır yaralananlar olur. ***Cəmilli*** kəndinə erməni yaraqlıları basqın edir; ölən və yaralananlar olur...

**24 fevral 1992-ci il** - Saat *22:00* radələrində *Ağdam-Əsgəran* yolu ilə Xramord kəndinə kəşfiyyata gedən Xüsusi Təyinatlı Milis Dəstəsi ilə *"Qarabağ"*

könüllülər dəstəsinin **18** üzvü yük maşınında naməlum səbəbdən qəzaya düşürlər. Partlayış nəticəsində **3** nəfər ağır bədən xəsarəti alır...

**24 fevral 1992-ci il** - Ağdam rayonunun ***Qarağacı*** qəbiristanlığı yaxınlığında yerləşən milis postunun ermənilər tərəfindən atəşə tutulması nəticəsində **16** nəfər azərbaycanlı yaralanır...

**24 fevral 1992-ci il** - ***Tahir Əliyev*** Prezident fərmanı ilə Respublikanın müdafiə naziri təyin olunur...

**24 fevral 1992-ci il** - Axşam saat *21:15*-də 4-cü ordunun 23-cü diviziyasının 366-cı alayının komandiri, polkovnik ***Y.Zarviqarov*** general rütbəsi ilə mükafatlandırılır...

**25 fevral 1506-cı il** - Dövrünün görkəmli şəxsiyyəti **Mövlanə Seyid Əhməd** Təbrizdə müəmmalı şəkildə ölür...

**25 fevral 1725-ci il** - *25* minlik türk qoşunu ***Təbrizə*** doğru hərəkət edir...

**25 fevral 1918-ci il** - Tiflisdə Zaqafqaziya seyminin plenar iclası keçirilir...

**25 fevral 1921-ci il** - Bolşeviklər başda olmaqla üsyan etmiş Gürcüstan fəhlə və kəndliləri Qızıl Ordunun köməyi ilə menşevik hökumətini yıxırlar və Sovet hakimiyyətini elan edirlər...

**25 fevral 1991-ci il** - ***Gülablı*** kəndi yaxınlığında ermənilər **2** azərbaycanlını girov götürməyə cəhd edirlər. **1** nəfər- sürücü ***Məhəmmədiyyə Mehdiyev*** qaçıb canını qurtara bilirsə də, o biri azərbaycanlı - Ağdam rayon DİŞ-nin əməkdaşı **Qorxmaz Muradov** vəhşicəsinə qətlə yetirilir...

**25 fevral 1991-ci il** - Erməni terrorçuları Əsgəran rayonunun ***Cəmilli*** kəndinə hücum edirlər. **14** yaşlı **Elşən Sadıqov** qətlə yetirilir...

**25 fevral 1992-ci il** - Ağdam rayon PŞ-nin rəisi **Rəşid Məmmədov** müəyyən müddət ötdükdən sonra (?) vəzifəsinin icrasına başlayır...

**25 fevral 1992-ci il** - Xocalıdan Ağdama ağrılı xəbərlər gəlir. Rəsmilər isə demək olar ki, heç bir tədbir görmür...

**25 fevral 1992-ci il** - DQ vilayət prokurorluğunun məsul işçisi ***Şahmalı Məmmədov*** Xankəndini tərk etmək məcburiyyətində qalır...

**26 fevral 1828-ci il** - Rus qoşunları tərkibində İrana qarşı vuruşan erməni zabiti, polkovnik ***Yeğızar Lazaryan*** Azərbycanda *(İran)* yaşayan erməni və digər xristianları ***İrəvan, Qarabağ və Naxçıvan*** vilayətlərinə köçürmək haqqında Rusiya rəhbərliyindən göstəriş alır...

**26 fevral 1905-ci il** - Qafqaz canişinliyi bərpa edilir. Vorontsov-Daşkov canişin təyin olunur. Bakı quberniyası ərazisində ***hərbi vəziyyət*** rejimi yaradılır...





**26 fevral 1921-ci il** - Sovet Rusiyası ilə İran arasında ***müqavilə*** bağlanır...

**26 fevral 1988-ci il** - Sumqayıtda ***Qriqoryanın*** başçılığı ilə erməni millətçiləri qarşıdurma yaradırlar. Bu *"qarşıdurma"* faciə ilə nəticələnir. Bir neçə gün davam edən bu münaqişədə **31** nəfər həlak olur. Sumqayıt şəhərində ermənilər tərəfindən törədilən bu təxribat xarakterli qırğınlar nəticəsində **6** nəfər azərbaycanlı öldürülür...

**26 fevral 1988-ci il** - M.S.Qorbaçov tərəfindən Ermənistana göndərilən Sovet İKP MK-nin katibi V.İ.Dolqix burada bəzi *«çıxışlar»* edir. Onun dediyi ***«Dağlıq Qarabağ məsələsinə baxılacaq»*** fikri erməni əhalisi tərəfindən alqışlanır...

**26 fevral 1992-ci il** - Erməni hərbi birləşmələri Qarabağda yerləşən Rusiyanın 366-cı motoatıcı alayının əsgərləri ilə birlikdə Xocalıda azərbaycanlılara qarşı dəhşətli soyqırım aktını törədirlər. ***Xocalı faciəsi*** erməni separatçı-terrorçuları ilə birlikdə Ermənistan hərbi qüvvələrinin insanlığa qarşı ən kütləvi genosididir. Öldürülənlərin əksəriyyəti xüsusi qəddarlıqla qətlə yetirilir. XX əsrin bu ən amansız faciəsində **107**-si qadın və **60**-ı uşaq olmaqla **613** nəfər azərbaycanlı dinc sakin öldürülür, **487** nəfər yaralanır və ya əlil olur, **1275** nəfər əsir alınır, **8** ailə tamamilə məhv olunur, **150** nəfər irkin düşür...

**26 fevral 1992-ci il** - Milli Qəhrəman **Əlif Lətif oğlu Hacıyev** son nəfəsinədək ermənilərlə vuruşaraq həlak olur...

**26 fevral 1992-ci il** - Ağdam özünümüdafiə qüvvələri tərəfindən Xocalı sakinlərini xilas etmək məqsədilə uğursuz əməliyyat keçirilir. Qaraqaya postunun yaxınlığında çoxlu sayda azərbaycanlı qətlə yetirilir. ***Allahverdi Bağırovun*** dəstəsindən **3** nəfər həlak olur...

**26 fevral 1992-ci il** - Milli Qəhrəman **Canpolad Yaqub oğlu Rzayev** ölüm təhlükəsi ilə üz-üzə qalmış xocalılara kömək edərkən ***Qaraqaya*** yaxınlığında həlak olur...

**26 fevral 1992-ci il** - Milli Qəhrəman ***Hikmət Baba oğlu Nəzərli*** erməni yaraqlıları ilə döyüşdə Xocalı rayonu ərazisində həlak olur...

**26 fevral 1992-ci il** - **20** yaşı tamam olan **Nazim Adil oğlu Rəşidov** və atası **Adil Məhəmməd oğlu Rəşidov** itkin düşürlər...

**26 fevral 1992-ci il** - Erməni terrorçuları Tərtər rayonunun ***Qapanlı, Seydimli*** kəndlərinə hücum edirlər. **4** nəfər həlak olur, **9** nəfər yaralanır...

**26 fevral 1992-ci il** - Erməni silahlı quldur birləşmələri Xankəndinin həndəvərində azərbaycanlıların yaşadıqları məhəllələri, eləcə də *Şuşa-Xocalı* boyunca və Şuşa şəhərinin ətrafında yerləşmiş bir sıra yaşayış məntəqələrini işğal edirlər...

**27 fevral 1827-ci il** - Rus qoşunları ***İrəvanı*** mühasirəyə alır. Çoxlu sayda itkilər verilir...

**27 fevral 1917-ci il** - Fevral burjua inqilabının qələbəsi ilə Rusiyada mütləqiyyət üsul-idarəsinə son qoyulur...

**27 fevral 1988-ci il** - Sovet İKP MK-nin Baş katibi M.S.Qorbaçov Azərbaycan və Ermənistan zəhmətkeşlərinə, xalqlarına müraciət edir...

**27 fevral 1988-ci il** - Sovet İKP MK-nin məsul işçisi, erməni ***Brudens*** Xankəndinə gələrək yalnız erməni liderlərindən ibarət olan çox məxfi bir iclas keçirir. O, Moskvaya qayıtdıqdan sonra ermənilər mitinqləri artıq vilayətin digər rayonlarında da keçirməyə başlayırlar...

**27 fevral 1988-ci il** - Ermənilər planlı şəkildə hazırladıqları ***"Sumqayıt faciəsi"***ni həyata keçirirlər. Bu təxribat aktı daşnaq terrorçular tərəfindən fitnəkarlıq məqsədi güdür. ***Eduard Qriqoryan, Ohanyan, Samoylov, Pavlovski*** və başqa muzdluların iştirakı ilə **32** nəfər (**26** erməni, **6** azərbaycanlı) qətlə yetirilir, **40** nəfər yaralanır...

**27 fevral 1990-cı il** - Laçın rayonunun ***Aşağı*** və ***Yuxarı Cicimli*** kəndləri ermənilər tərəfindən ***Gorus*** rayonu ərazisindən fasilələrlə avtomat və pulemyotlardan atəşə tutulur...

**27 fevral 1992-ci il** - **Firdovsi Fazil oğlu Vəliyev** Ağdamın ***Şelli*** kəndindən bir qədər kənarda - ***Qaraqayada*** pərən-pərən düşmüş Xocalı sakinlərini xilas edərkən erməni gülləsindən həlak olur...

**28 fevral 1918-ci il** - Trabzona gedəcək nümayəndə heyətinin birgə iclası keçirilir. İclasda erməni nümayəndələri Türkiyə Ermənistanı üçün muxtariyyət tələbi haqqında danışıb Osmanlı dövlətinin ***Qars, Batum, Ərdahana*** olan iddiasının rədd edilməsinin hüquqi əsasının olmadığını söyləyir. Bu, ***Türkiyənin daxili işlərinə müdaxilə*** idi...

**28 fevral 1919-cu il** - Erməni quldur dəstələri ***Seyid Kotanlı, Xaraba Kotanlı, Şaqaib*** azərbaycanlı kəndlərində əhalini qırıb-çatırlar. Meyidlər təhqir edilərək qarınları yırtılır, gözləri çıxarılır, qulaqları kəsilir...

**28 fevral 1919-cu il** - Hökumətin qərarı ilə Naxçıvan general-qubernatorluğu yaradılır. Andranikin buradakı özbaşınalığına son qoyulur. Amma türk ordusu Naxçıvandan *(Qafqazdan)* çıxdıqdan sonra vəziyyət yenidən kəskinləşir. Andranikin quldur dəstəsi Gorusdan ***Dıx*** kəndinə yollanır. Həmin dəstədən **400** nəfər Akara kəndi istiqamətində azərbaycanlılar yaşayan kəndlərə hücum edirlər. Öldürülmüş azərbaycanlıların cəsədləri eybəcər hala salınır, evləri yandırılır, əmlak və mal-qaraları talan edilir...





**28 fevral 1992-ci il** - Prezident fərmanı ilə Qarabağ zonası üzrə Silahlı Qüvvələrə komandanlıq o qədər də təcrübəsi olmayan ***Dadaş Rzayevə,*** Ağdam şəhərinin komandanlığı isə Ağdam DİŞ-nin rəisi ***Rəşid Məmmədova*** tapşırılır...

**28 fevral 1992-ci il** - Xocalıdan qaçıb canını qurtarmaq istərkən güllələr ilə öldürülmüş azərbaycanlıların bəzisinin müxtəlif bədən orqanları erməni qaniçənləri tərəfindən kəsilərək götürülür...

**28 fevral 1992-ci il** - Döyüşlərdə göstərdikləri fəallığa, fədakarlığa görə S.Priyman və Z.əl-Məhəmməd yüksək mükafata - ***"Qızıl Xaç"*** ordeninə layiq görülürlər...

**28 fevral 1992-ci il** - Füzuli şəhəri ermənilər tərəfindən qrad qurğularından güclü atəşə tutulur. *B.Sərdarov* ilə *28 May* küçələrinin kəsişdiyi ərazi, ***"Şəlalə"*** restoranının yaxınlığı dağıntılara məruz qalır...

**28 fevral 1992-ci il** - Ağdam şəhəri *19:30*-da ermənilər tərəfindən qrad qurğularından atəşə tutulur. Ciddi dağıntılar baş verir. **2** nəfər həlak olur, **2** nəfər yaralanır. Mərmi yağışı bir saatdan sonra yenə davam edir. Daha **10** nəfər dinc sakin həlak olur...

**28 fevral 1993-cü il** - Şimali Qafqazın ***Qudermes*** stansiyası yaxınlığında ***"Kislovodsk-Bakı"*** sərnişin qatarı erməni terrorçuları tərəfindən partladılır; **11** nəfər həlak olur, **18** nəfər yaralanır...

**28 fevral 1993-cü il** - Füzuli rayonunun ***Aşağı Veysəlli*** və Ağdam rayonunun ***Mərzili*** kəndlərindən olan erməni əsarətində əzablı işgəncələr çəkmiş **6** girov dəyişdirilir...

**29 fevral 1992-ci il** - Azərbaycanın Milli Qəhrəmanı, Xocalının igid oğlu **Tofiq Mirsiyab oğlu Hüseynov** ayağından yaralansa da, düşmən əlinə diri keçməmək üçün sonuncu qumbarasını partladaraq özünü öldürür...

**29 fevral 1992-ci il** - Azərbaycanın Milli Qəhrəmanı **Yavər Yaqub oğlu Əliyev** idarə etdiyi ***Mİ-24*** vertolyotu ilə havaya qalxarkən qəzaya uğrayaraq həlak olur...

# MART

**1 mart 1992-ci il** - Erməni terrorçuları Xocalıdan əsir götürdükləri **120** nəfəri güllələyirlər...

**1 mart 1992-ci il** - Xocalı şəhidləri ***Ağdam*** qəbiristanlığında torpağa tapşırılırlar. Meyid və girovların geri alınması üçün tədbirlər görülür. Ermənilər Ağdam rayonunun sərhəd kəndlərindən **83** baş xırdabuynuzlu heyvan aparırlar...

**1 mart 1992-ci il** - Xocalı faciəsi ilə bağlı ermənilərin ruslarla əlaqələrinə dair sənədlərin böyük bir qismi Zaqafqaziya Hərbi Dairəsinin aviasiya komandanı, general-mayor ***S.Lukaşovun*** əmrilə yandırılır...

**1 mart 1992-ci il** - **Şiraslan Qaçay oğlu Nəsibov** Qazançı kəndi uğrunda döyüşdə həlak olur...

**1 mart 1993-cü il** - Cəbrayıl, Füzuli, Ağdam rayonlarının əraziləri ermənilər tərəfindən atəşə tutulur. Tələfat və dağıntılar olur...

**2 mart 1240-cı il** - Görkəmli Azərbaycan mütəfəkkiri, alim, həkim, qazi, xeyriyyəçi **Şəmsəddin Əbdülabbas Əhməd ibn Xəlil ibn Cəfər ibn İsa Bərməki Xoylu** müəmmalı şəkildə ölür...

**2 mart 1903-cü il** - Bakıda ***siyasi nümayiş*** keçirilir...

**2 mart 1917-ci il** - Fevral burjua inqilabının qələbə xəbərindən sonra Bakıda çoxminli ***mitinq*** və ***nümayişlər*** keçirilir...

**2 mart 1921-ci il** - Azərbaycan K(b)P MK Siyasi Bürosunun iclasında Qarabağ üsyanının yatırılması üçün ***Ə.Qarayevin*** rəhbərliyi altında Azərbaycan hissələri göndərilir. Hökumət Qarabağa göndərilən dəstələrin maliyyələşdirilməsi üçün xeyli vəsait ayırır...

**2 mart 1991-ci il** - Ağdamın ***Cinli*** kəndinə ermənilər hücum edirlər. Dağıntılar olur...

**2 mart 1991-ci il** - Martuni ***(Xocavənd)*** rayonunun Xocavənd kəndi erməni yaraqlıları tərəfindən atəşə tutulur. Kənd sakini **Haqverdi Şəfi oğlu Yusifov** qətlə yetirilir...

**2 mart 1992-ci il** - Axşam *366-cı* alayın **523** nəfərlik şəxsi heyəti Gürcüstanın ***Vaziani*** şəhərinə aparılır...





**3 mart 1460 - cı il** - Şeyx Cüneyd Dağıstana və Şirvana ***hərbi yürüş*** edir...

**3 mart 1830-cu il** - Car-Balakən camaatlığı ləğv edilir...

**3 mart 1917-ci il** - Cənubi Qafqazda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə - OZAKOM-a verilir...

**3 mart 1988-ci il** - Erməni terrorçu-kamikadze millətlərarası zəmində toqquşma yaratmaq üçün adamların gözü qarşısında bir nəfər azərbaycanlını güllələyir...

**3 mart 1990-cı il** - M.Qorbaçovun sədrliyi ilə SSRİ Ali Soveti Rəyasət Heyətinin iclası keçirilir...

**3 mart 1992-ci il** - Ermənilər Ağdamın ***Gülablı*** kəndinin tərk edilməsi haqqında kənd əhalisinə ***ultimatum*** verir...

**3 mart 1992-ci il** - Şirin Mirzəyevin hazırladığı əməliyyat nəticəsində ***Qazançı*** kəndi tam nəzarətə götürülür. Ələ keçən girovların bir qismi ***Xocalı*** əsirləri ilə dəyişdirilir...

**4 mart 1460-cı il** - Ərdəbil hakimi ***Şeyx Cüneydin*** *(I Şah İsmayılın babası)* dəstəsi Samur çayı sahilində Şirvanşahlarla baş verən döyüşdə ***Şirvanşah II Xəlilullah*** tərəfindən məğlub olur, onun özü isə öldürülür...

**4 mart 1915-ci il** - Erməni Baradyan İngiltərədən kömək istəyir...

**4 mart 1992-ci il** - Erməni terrorçuları ***Sırxavənd*** kəndinə basqın edirlər. **7** nəfər həlak olur, **10** nəfər yaralanır, **2** nəfər itkin düşür...

**4 mart 1993-cü il** - Ağdam, Füzuli və Cəbrayıl rayonlarının əraziləri ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulur. İtkilər və dağıntılar olur...

**4 mart 1994-cü il** - Füzuli və Ağdam cəbhələrində gedən döyüşlərdə bir neçə Azərbaycan əsgəri həlak olur...

**5 mart 1831-ci il** - Talış xanı ***Mir Həsən xan*** Lənkərana gəlir və Lənkəran üsyanına rəhbərlik etməyə başlayır...

**5 mart 1922-ci il** - Azərbaycan MİK-nin III sessiyası kənd təsərrüfatı məhsulu vergisi haqqında ***qanun*** qəbul edir. Azərbaycanda ***ərzaq vergisi*** tətbiq edilməyə başlayır...

**5 mart 1938-ci il** - Azərbaycan SSR XDİK-in müavini, DT mayoru ***Rayevin*** əmri ilə **566** nəfər güllələnir...

**5 mart 1988-ci il** - Xankəndi şəhər İcraiyyə Komitəsi gizli fəaliyyət göstərən *«Krunk»* təşkilatını rəsmi olaraq Dağlıq Qarabağı Ermənistana birləşdirici komitə kimi təsdiq edir...

**5 mart 1992-ci il** - Ağdam rayonunun ***Sırxavənd*** kəndi erməni yaraqlıları tərəfindən güclü atəşə tutulur. **10** nəfər həlak olur...

**5 mart 1992-ci il** - Füzuli şəhərinin kənarları və Ağdam şəhəri ermənilər tərəfindən qrad qurğularından atəşə tutulur...

**5 mart 1992-ci il** - Milli Qəhrəman **Əlabbas Qara oğlu İsgəndərov** erməni yaraqlıları ilə ***Kolanı*** uğrunda gedən döyüşdə həlak olur...

**6 mart 1917-ci il** - 52 nəfərdən ibarət Bakı Fəhlə Deputatları Soveti ***(BFDS)*** yaradılır. Bakı Sovetinə seçkilər keçirilir...

**6 mart 1920-ci il** - Azərbaycan SSR-nin ***I Sovetlər qurultayı*** keçirilir...

**6 mart 1955-ci il** - Azərbaycan Demokratik Respublikasının yaradıcısı, görkəmli mütəfəkkir, Müstəqil Azərbaycanın ideoloqlarından biri **Məmməd Əmin Rəsulzadə** Türkiyədə, Ankarada həyata əlvida deyir...

**6 mart 1986-cı il** - Xəzər dənizinin Abşeron yarımadasına yaxın ərazisində **zəlzələ** olur...

**6 mart 1988-ci il** - DQMV PK-nin geniş büro iclası aşağıdakı bəndlərdən ibarət ***qərar*** qəbul edərək, onun təsdiqini birbaşa Sovet İKP MK-dən xahiş edir...

1.DQMV-nin adı dəyişdirilib DQEMV ***(Dağlıq Qarabağ Erməni Muxtar Vilayəti)*** qoyulsun;

2.Vilayətdə əsas dil erməni dili hesab edilsin;

3.Kadrların seçilib yerləşdirilməsində Azərbaycan rəhbərləri ilə məsləhətləşdirilməsin;

4.Xankəndi Tibb Texnikumunun nəzdindəki Azərbaycan qrupu ləğv edilsin;

5.Bütün kadrların təkmilləşdirilməsi yalnız Yerevanda aparılsın;

6.Buraxılan məhsulların etiketlərindən Azərbaycan yazıları çıxarılsın;

7.Azərbaycan tərəfindən həyata keçirilən hər hansı təftiş və nəzarətin aparılması qadağan edilsin;

8.Vilayətin yüksək rəhbər işçiləri Azərbaycan KP MK-nin nomenklaturasından çıxarılsın;

9.Şuşadakı texnikumlar ləğv edilsin, onların yerində internatlar açılsın;

10. Xankəndində filarmoniya yaradılsın;

11. Xankəndi Pedaqoji İnstitutunu ləğv edib, onun əvəzində Yerevan Kənd Təsərrüfatı İnstitutunun filialı açılsın;

12. DQMV-də olan Azərbaycan kəndlərinə erməni adları verilsin.

İclasda səsvermə hüququ olan 14 nəfər erməni lehinə, 2 nəfər azərbaycanlı isə əleyhinə səs verir. Bu səbəbdən tərəflər arasında qarşılıqlı təhqirlər, dartışmalar baş verir və bunlar ruslar tərəfindən yatırılır. Bütün bu məlumatlar təfsilatı ilə Respublika rəhbərliyinə çatdırılsa da məsələyə lazımi reaksiya verilmir...





**6 mart 1992-ci il** - Ağdamın ***Şelli*** kəndi ermənilər tərəfindən atəşə tutulur. **1** nəfər həlak olur, **3** nəfər yaralanır. **1** ev yerlə-yeksan edilir, bir neçə ev dağıntıya məruz qalır...

**6 mart 1993-cü il** - Azərbaycan Respublikasının Prezidenti *Əbülfəz Elçibəy "Ağdam rayonu ərazisində fövqəladə vəziyyət rejiminin uzadılması"* haqqında fərman verir...

**6 mart 2006-cı il** - Saat *12.00*-da Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən Füzuli rayonunun işğal edilmiş ***Aşağı Seyidəhmədli*** kəndi ərazisində yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin üzbəüz mövqeləri atəşə tutulur; hərbi qulluqçu ***Mühiddin Vəli oğlu Nazimov*** ağır yaralanır...

**7 mart 1919-cu il** - Lənkəran qəzasında, ***Hoveli*** kəndində rus evlərinin qonşuluğunda yaşayan ***Məcid Əjdər oğlunun*** evinə girən ermənilər onun qızıl əşyalarını, pullarını götürürlər. Sonra Məcidi güllə ilə öldürürlər. Mərhum cəmi bir həftə idi ki, evlənmişdi. Bolşevik adı altında pərdələnmiş ermənilər Məcidin və qardaşının arvadlarına qarşı hər cür ədəbsiz hərəkətlər edərək onları təhqir edirlər...

**7 mart 1992-ci il** - Ağdam aeroportu və Qalayçılar kəndi ermənilərin atəşinə məruz qalır...

**7 mart 1993-cü il** - Füzuli rayonunun Xocavənd rayonu ilə həmsərhəd kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**7 mart 2006-cı il** - Saat *4.45*-də Ermənistan Silahlı Qüvvələri bölmələrinin Tərtər rayonunun Qızıloba kəndinin cənub-qərbində yerləşən mövqelərindən açdığı atəş nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, əsgər **Pərviz Akif oğlu Cahangirov** həlak olur...

**8 mart 1722-ci il** - ***Gülnabad*** döyüşü baş verir. Əfqan qiyamçıları Səfəvilər üzərində qələbə çalırlar, İsfahanı işğal edirlər. ***Şah Sultan Hüseyn*** başda olmaqla Səfəvi xanədanı əsir götürülür...

**8 mart 1918-ci il** - Naxçıvanın *Nehrəm* kəndinə basqın edən silahlı ermənilər **3** nəfər azərbaycanlını qətlə yetirirlər...

**8 mart 1921-ci il** - Hadrut *(Xocavənd)* rayonunun *Domı* kənd sakini, türkün qatı düşməni, Qaragen Njdenin ordusunda xidmət etmiş daşnaq terrorçusu ***Tevon Stepanyan*** *(Cavadov)* beynəlmiləlçiliyi təbliğ etdiyinə, azərbaycanlılarla xoş davrandığına görə soydaşı **Şmavon Davidyanı** şaqqalayaraq qətlə yetirir,

sonra mərhumun anasını oğlunun parçalanmış meyidi ətrafında əl çalıb oynamağa məcbur edir...

**8 mart 1959-cu il** - Görkəmli Azərbaycan ziyalısı, vətənpərvər publisist, ADR hakimiyyəti zamanı parlamentin stenoqrafçısı vəzifəsində çalışan **Mirzə Bala Məmmədzadə** Azərbaycandan kənarda - İstanbulda ürək xəstəliyindən vətən həsrəti ilə həyata əlvida edir...

**8 mart 1991-ci il** - Xocavənd rayonunun *Qaradağlı* kəndi yaxınlığında, heyvandarlıq kompleksində, kənddən 3 km aralıdakı fermada, *«Kardaş»* adlanan ərazidə erməni yaraqlı quldurları hücum edərək **Zülfüqar Dəmir oğlu Hüseynovu** və **Ələkbər Məmməd oğlu Quliyevi** vəhşicəsinə qətlə yetirirlər...

**8 mart 1992-ci il** - Qazax rayonunun *Xeyrimli* kəndi ermənilər tərəfindən işğal edilir...

**8 mart 1992-ci il** - Ağdam şəhəri ermənilər tərəfindən artilleriya atəşinə tutulur. **1** nəfər həlak olur...

**8 mart 1992-ci il** - Ağdam rayonunun *Şelli* kəndi yaxınlığındakı milis postuna ermənilər tərəfindən basqın edilir. Ölənlər və yaralananlar olur...

**8 mart 1992-ci il** - Ağdam ərazisindəki *Qaraqaya* postuna erməni silahlıları basqın edir. **2** nəfər həlak olur, **6** nəfər yaralanır...

**8 mart 1993-cü il** - Ağdərə şəhəri ətrafında döyüşlər gedir. İtkilər olur...

**9 mart 1194-cü il** - III Toğrul az qüvvə ilə *Rey* yaxınlığında xarəzmlərin Qutluq İnanc Mahmudun başçılıq etdiyi dəstələrinin üzərinə hücuma keçir. O, oxla gözündən yaralanır və atdan yerə yıxılır. Qutluq İnanc - Sultan III Toğrulun başını kəsib Xarəzmşaha aparır. Xarəzmşah Təkiş onun başını Bağdada göndərir. Toğrulun başı bir neçə gün *Nubi* darvazasından asılı qalır, cəsədi isə *Rey* bazarında dar ağacından asılır...

**9 mart 1226-cı il** - Sultan Cəlaləddin **Tiflis** şəhərini zəbt edir...

**9 mart 1828-ci il** - Axırıncı rus qoşunu Təbrizi tərk edir. Türkmənçaya yanaşı olan müxtəlif kəndlərin erməniləri Qarabağa tərəf hərəkət edir...

**9 mart 1920-ci il** - Türkiyənin Zaruşat şəhərində erməni terrorçuları **100**-dən çox dinc, günahsız azəri-türk sakinini vəhşicəsinə qətlə yetirirlər...

**9 mart 1988-ci il** - Sovet İKP MK-də DQMV-nə dair *müşavirə* keçirilir. Azərbaycan və Ermənistanın I katiblərinin məlumatları dinlənilir...

**9 mart 1988-ci il** - Erməni liderləri M.S.Qorbaçovla vaxtilə Stavropolda birgə işləmiş, Ermənistan SSR Nazirlər Sovetinin keçmiş sədri vəzifəsində çalışmış *Markaryans* vasitəsilə Sovet İKP MK-nə təzyiq göstərirlər...

**9 mart 1991-ci il** - Xocavənd rayonunun *Qaradağlı* kənd fermasına basqın





edən erməni terrorçuları **5** uşaq atası **Zülfiqar Hüseynovu** və eləcə də **Ələkbər Quliyevi** qətlə yetirirlər...

**9 mart 1992-ci il** - Ağdam şəhəri və rayonun *Şelli* kəndi ermənilərin atəşinə məruz qalır. Ölənlər və yaralananlar olur...

**9 mart 2001-ci il** - Livanın Sayda liman şəhərindəki Dini Mərkəzdə Roma katolik kilsəsinin *"Allahın ordusu"* ilə *"ASALA"* erməni terrorçu hərbi korpusunun bir qolu olan ***"Vartan cəngavərləri"*** arasında *"Yardım Aktı"* imzalanır və müştərək bəyannamə qəbul olunur...

**9 mart 2006-cı il** - Murovdağ istiqamətində Silahlı Qüvvələrimizin əsgəri **Elmir Əliyev** xidməti borcunu yerinə yetirərkən həlak olur...

**9 mart 2006-cı il** - Ağdam rayonunun *Yusifcanlı* kəndi yaxınlığında Silahlı Qüvvələrimizin əsgəri **Rasim Əlövsət oğlu Ələkbərov** minaya düşərək bir ayağını itirir...

**9 mart 2008-ci il** - Azərbaycan Milli Ordusunun əsgəri **Yaqub Muxtarov** cəbhənin *Tovuz* rayonu ərazisində ermənilər tərəfindən əsir götürülür...

**10 mart 1718-ci il** - Pyotrun yaxın adamı Volınski rus elçisi ***Lopuxini*** *müəyyən məqsədlər üçün* Azərbaycana göndərir...

**10 mart 1735-ci il** - Gəncə şəhərində Nadir ilə Rusiya nümayəndəsi S.Qolitsın arasında *müqavilə* - Azərbaycanın Rusiya tərəfindən istilası barədə *Gəncə traktatı* imzalanır...

**10 mart 1831-ci il** - Lənkəran qalası üsyançılar tərəfindən mühasirəyə alınır...

**10 mart 1911-ci il** - Erməni əsilli *Yeprem (David Yantes Əsirbeğian)* yenidən Tehran polis təşkilatının sədri vəzifəsinə seçilir...

**10 mart 1923-cü il** - Zaqafqaziya Ölkə Komitəsi Dağlıq Qarabağa muxtariyyət verilməsini həyata keçirməyi tələb edir...

**10 mart 1937-ci il** - Azərbaycan SSR-nin Yeni Konstitusiyası qəbul olunur...

**10 mart 1948-ci il** - SSRİ Nazirlər Soveti azərbaycanlıların Ermənistandan köçürülməsi ilə bağlı tədbirlər planını müəyyən edən **754** nömrəli *qərar* çıxarır...

**10 mart 1988-ci il** - Xankəndində keçirilən mitinq vilayətin fövqəladə partiya konfransını keçirməyi tələb edir. Vilayət rəhbərliyi dərhal buna öz razılığını verir...

**10 mart 1988-ci il** - Yerevan ətrafında **10** nəfər azərbaycanlı ermənilər tərəfindən amansızlıqla qətlə yetirilir...

**10 mart 1988-ci il** - Zəngibasarın ***Mehmandar*** kəndində ermənilər **5** azərbaycanlını qətlə yetirirlər...

**10 mart 1990-cı il** - Daşnaq terrorçular ***Marneuli*** rayonunun *(Gürcüstan)* ***Sadaxlı*** kənd sakinini oğurlayırlar. İndiyə qədər həmin adamdan bir xəbər yoxdur...

**10 mart 1992-ci il** - Laçın rayonunun Zabux kəndindən **2**, Hacılardan **3**, Pircahandan **2**, Əhmədlidən **3**, Quşçudan **1** nəfər... ***"Müqəddəs Sultan-Karapet"*** qrupu və digər qurumlar tərəfindən oğurlanır...

**10 mart 1992-ci il** - Marşal Şapoşnikovun əmri ilə ***366-cı*** motoatıcı alay ləğv edilir...

**10 mart 1993-cü il** - Ermənistanın müdafiə naziri ***V.Manukyan*** gizli yolla Azərbaycan Respublikasının Ağdərə rayonuna gələrək orada yerləşdirilmiş erməni hərbi hissələrinin döyüş hazırlığını yoxlayır...

**11 mart 1918-ci il** - Ərzurum yaxınlığındakı ***Yaşıl*** yaylada ermənilər tərəfindən 2000-dən çox türk əhalisi məhv edilir...

**11 mart 1926-cı il** - Müsavat Partiyasının antisovet fəaliyyətini ləğv etmək məqsədilə Azərbaycan Fövqəladə Komissiyası görkəmli ziyalılar - **Dadaş Həsənovu, Əhməd Hacınskini, Əli Yusifzadəni** həbs edir...

**11 mart 1991-ci il** - Xocalı tikinti idarəsinə məxsus vertolyot Ağdərənin ***Qazançı*** kəndi üzərindən keçərkən ermənilər tərəfindən güllləbaran edilir. Vertolyot **3** yerdən deşilir...

**11 mart 1992-ci il** - Milli Qəhrəman **Elgiz Kərim oğlu Kərimov** Əsgəran yaxınlığında ermənilərlə şiddətli döyüşdə həlak olur...

**11 mart 1992-ci il** - Ağdam rayonunun ***Şelli*** kəndinə ermənilər tərəfindən basqın edilir. Zərərçəkənlər və dağıntılar olur...

**12 mart 1786-cı il** - Tehranda səltənət taxtına əyləşən ***Ağaməhəmməd şah Qacar*** Tehran şəhərinin şahlığın paytaxtı olmasına ***fərman*** verir...

**12 mart 1831-ci il** - Lənkəran qarnizonunun ***Şirvan*** və ***Qarabağ*** ilə quru yolla olan əlaqəsi kəsilir...

**12 mart 1854-cü il** - Türkiyə, İngiltərə və Fransa Rusiyaya qarşı İstambulda ***müqavilə*** imzalayırlar...

**12 mart 1922-ci il** - Azərbaycan, Gürcüstan və Ermənistan MİK-nin səlahiyyətli nümayəndələri ZSFSR-in yaradılması haqqında müqaviləni təsdiq edir...





**12 mart 1923-cü il** - Azərbaycan K(b)P-nın qalmaqallı ***V qurultayı*** öz işinə başlayır...

**12 mart 1992-ci il** - Əlavə qüvvə toplayan erməni yaraqlıları ***Sırxavənd, Baş Güney, Manikli*** istiqamətində hücuma keçirlər. Erməni birləşmiş silahlı qüvvələri ***Sırxavənd, Başirlər, Qaraşlar, Xatınbəyli, Telli Binə, Manikli*** kəndlərini işğal edib viran qoyurlar. **Baş Güney** və **Orta Güney** kəndləri mühasirədə qalır. Onlarla azərbaycanlı dinc sakin - qadınlar, qocalar, uşaqlar vəhşicəsinə güllələnir. Təkcə *Baş Güney* döyüşlərində **Ələddin, Əvəz, İsa, Qəzənfər, Xosrov, Əsəddin, Nizami, Ziya, Qurban** və daha bir neçə igid əsgər oğullarımız şəhid olurlar...

**12 mart 1992-ci il** - Qazax rayonunun **Aşağı Əskipara** kəndi ermənilər tərəfindən işğal olunur...

**12 mart 1992-ci il** - Erməni quldur birləşmələri tərəfindən ***Ağdam şəhəri*** növbəti dəfə güclü raket atəşinə tutulur. **30** adam həlak olur, **100** nəfər yaralanır. 15-dən çox bina və ev dağıdılır...

**12 mart 1992-ci il** - Ağdamın ***Qarağacı*** qəbiristanlığı ərazisindən bir neçə kilometr kənarda döyüşlər gedir. Şelli, Qalayçılar kəndləri ermənilər tərəfindən atəşə tutulur. **1** nəfər Şellidə həlak olur. ***Əhmədavar*** kəndi, ***Qaraqaya*** milis postu və ***Ağdam şəhəri*** güclü atəşə tutulur. Ölənlər və yaralananlar olur...

**12 mart 1992-ci il** - Şuşa şəhəri səhər erkən artilleriya atəşinə tutulur. **11** nəfər həlak olur, **31** nəfər yaralanır. Qadın və uşaqlar şəhərdən çıxarılır...

**12 mart 1992-ci il** - Qarabağın ***Xramord*** və ***Xanabad*** kəndləri ətrafında döyüşlər davam edir. İtkilər olur...

**12 mart 1993-cü il** - Qarabağın ***Canyataq*** və ***Gülyataq*** kəndləri istiqamətlərində mövqe döyüşləri gedir...

**12 mart 2001-ci il** - *"Vartan cəngavərləri"*nin Dağlıq Qarabağla əlaqədar məktubu ABŞ Prezidenti Corc Buşa ünvanlanır...

**13 mart 1736-cı il** - Azərbaycan Səfəvi dövləti ***süqut*** edir. ***Nadir*** Muğanda, suqovuşanda özünü şah elan edir...

**13 mart 1896-cı il** - Xalqımızın vətənpərvər, qəhrəman oğlu **Qaçaq Nəbi** öz yoldaşları ilə ***Kərbəla*** şəhərindən qayıdarkən Türkiyə ilə İran sərhəddində olan ***Larni*** kəndində dayanır. O, çarizm və İran hakim dairələrinin muzdlu nökərləri ***(Şahhüseyn*** və ***Kərbəlayi İman)*** tərəfindən **43** yaşında xaincəsinə qəflətən öldürülür...

**13 mart 1988-ci il** - Ali erməni kilsəsi rəhbərliyinin çağırışı ilə Nyu-Yorkda ermənilərin Dağlıq Qarabağ ermənilərini müdafiə edən mitinqi keçirilir. Mitinqdə Azərbaycana qəzəb dolu ittihamlar səsləndirilir...

**13 mart 1918-ci il** - Erməni terrorçuları Naxçıvan şəhərinin ***Zaviyə*** məhəlləsinə silahlı basqın edərək vəhşicəsinə qətllər törədirlər...

**13 mart 1991-ci il** - *Ağdam-Şuşa* yolu ilə hərəkət edən **40** maşından ibarət avtomobil karvanı ermənilərin hücumu nəticəsində zədələnir...

**13 mart 1991-ci il** - Goranboy rayonunun ***Todan*** kəndində **4** traktora, 7 sistern yanacağa ermənilər tərəfindən od vurulur...

**13 mart 1992-ci il** - Ağdam şəhəri ermənilər tərəfindən raket mərmilərindən güclü atəşə tutulur. **3** nəfər həlak olur, **10** nəfər yaralanır...

**13 mart 1992-ci il** - Ermənilər Goranboy rayonunun ***Şəfəq*** kəndinə hücum edir. **2** nəfər həlak olur, **1** nəfər yaralanır...

**13 mart 1992-ci il** - Goranboyun ***Zeyvə*** və ***Tapqaraqoyunlu*** kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur. **1** nəfər həlak olur, **2** nəfər yaralanır...

**13 mart 1995-ci il** - Xüsusi Təyinatlı Polis Dəstəsinin əməkdaşları ***Ağstafa*** və ***Qazax*** rayonlarında dövlət idarələrini ələ keçirirlər...

**14 mart 838-ci il** - Xalq qəhrəmanı **Babək** xəlifə Mötəsimin hökmü ilə edam edilir...

**14 mart 1812-ci il** - İngiltərə ilə İran arasında ***müqavilə*** imzalanır...

**14 mart 1831-ci il** - ***800*** nəfərlik üsyançı dəstə çar qoşunlarını ***Lənkəran*** ətrafında sıxışdırmaq istəyəndə, üsyançıların bu hücumu yerli əhalidən ibarət milis qüvvələrinin köməyi ilə dəf olunur...

**14 mart 1919-cu il** - Azərbaycanın tanınmış şairi, jurnalist **Əliqulu Ələkbər oğlu Nəcəfov *(Əliqulu Qəmküsar)*** Tiflisdə qaragüruhçular tərəfindən öldürülür...

**14 mart 1991-ci il** - *Ağdam-Şuşa* marşrutu ilə hərəkət edən ***Elman Paşayevin*** idarə etdiyi *73-53* ***AQYA*** nömrəli sərnişin avtobusu ***Əsgəran*** yaxınlığında ermənilər tərəfindən atəşə tutulur; **3** nəfər - Şuşa şəhər sakini, **20** yaşlı **İsrafil İnqilab oğlu Quliyev,** Kosalar kənd sakini **Cəllad Bayramov** və Ağdam rayonunun Əhmədavar kənd sakini **Yəhya** adlı bir nəfər həlak olur, **4** nəfər isə ağır yaralanır...

**14 mart 1992-ci il** - Erməni silahlı birləşmələri ***Ağdam-Ağdərə*** bölgəsində işğalçılıq hücumlarını davam etdirərək keçmiş Ağdərə rayonunun ***Sırxavənd, Baş Güney, Orta Güney*** və ***Manikli*** *(hazırda bu kəndlər Ağdam rayonunun balansındadır)* kəndlərini tamam zəbt edir. Bu döyüşlər zamanı **100** nəfərdən çox azərbaycanlı həlak olur, yaralanır, əsir və girov düşür...

**14 mart 1992-ci il** - Ağdərənin *Baş Güneypəyə* kəndinə ermənilər tərəfdən silahlı basqın edilir. **10** nəfər kənd sakini həlak olur...





**14 mart 1992-ci il** - Ağdam şəhəri və Şelli kəndi ermənilər tərəfindən yenidən atəşə tutulur...

**14 mart 1995-ci il** - Elçin Əmiraslanovun rəhbərliyi ilə OMON-çular Qazax və Ağstafada dəhşətli **qırğın** törədirlər. Ölənlər və yaralananlar olur...

**14 mart 1995-ci il** - Rövşən Cavadov Respublika Prezidentinin və Milli Məclis sədrinin istefasını tələb edir. Qiyamçılar 8-ci kilometr qəsəbəsində məskən salır...

**15 mart 1426-cı il** - Dövrünün görkəmli şəxsiyyəti, şair, filosof **Siyapuş Sultanəli ibn Şeyx Sədrəddin Musa** Beytülmüqəddəsdə ölür...

**15 mart 1827-ci il** - Bu gündən başlayaraq ermənilərin İrandan kütləvi surətdə köçürülməsi başlayır...

**15 mart 1918-ci il** - Andranikin silahlı dəstələri Xoy və Urmiyada böyük qırğınlar törədərək yüzlərlə azərbaycanlını vəhşicəsinə qətlə yetirirlər...

**15 mart 1918-ci il** - Ermən və müsəlmanlar arasında Şamaxı rayonu Meysəri kəndində ilk toqquşma baş verir. Ölənlər və yaralananlar olur...

**15 mart 1938-ci il** - Klassik şərq mədəniyyətinə yaxından bələd olan görkəmli ziyalı, vətənpərvər din xadimi, Zəngəzur qəzasının qazisi **Bəhlul Mustafa oğlu Əfəndiyev *(Bəhlul Behcət)*** NKVD üçlüyünün qərarı ilə ən ağır cəzaya (ölüm) məhkum olunur...

**15 mart 1940-cı il** - Yırtıcı heyvanlar təlimi üzrə ilk azərbaycanlı sirk ustası, akrobat, janqlyor və məşhur ekvilibrist **Ələkbər Fərrux** tamaşa zamanı ***faciəli*** surətdə həlak olur...

**15 mart 1988-ci il** - Dağlıq Qarabağ Muxtar Vilayəti Partiya Komitəsində keçirilən geniş müşavirədə faktlar qarşısında *(bu faktlar A.T.Rasizadənin çıxışında öz əksini tapmışdır)* davam gətirməyən ermənilər məqsədlərinin Ermənistana birləşməkdən ibarət olduğunu açıq şəkildə qeyd edirlər...

**15 mart 1992-ci il** - Milli Qəhrəman **Pərviz Əbdüləhəd oğlu Səmədov** döyüş zamanı erməni snayperinin gülləsindən həlak olur...

**15 mart 1992-ci il** - Ağdamın ***Şelli*** və ***Qalayçılar*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. ***Qalayçılar, Əliağalı, Cinli, Əlimədətli, Papravənd*** kəndlərinə erməni yaraqlıları güclü hücum edir. Qızğın döyüşlər gedir. İtkilər və dağıntılar olur...

**15 mart 1992-ci il** - Füzuli rayonunun ***Üçbulaq (Hoğa)*** və ***Govşad*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**15 mart 1993-cü il** - Xramord kəndi ətrafında qızğın döyüşlər gedir; itkilər olur...

**16 mart 1616-cı il** - Səfəvi hökmdarı Şah Abbasın vəliəhdi **Məmmədbağır Mirzə** qətlə yetirilir...

**16 mart 1918-ci il** - Azərbaycanlıların qanına susayan terrorçu ermənilər ***Naxçıvan*** şəhərində atışma zamanı **2** qadını və **1** kişini qətlə yetirirlər...

**16 mart 1921-ci il** - Türkiyə ilə RSFSR arasında bədnam ***Moskva müqaviləsi*** imzalanır...

**16 mart 1938-ci il** - Azərbaycan SSR XDİK-in sədr müavini, DT baş mayoru ***Rayevin*** əmri ilə **160** nəfər güllələnir...

**16 mart 1991-ci il** - Laçın rayonunun Dağlıq Qarabağ və Gorus rayonu ilə həmsərhəd olan yaşayış məntəqələri ermənilər tərəfindən atəşə məruz qalır. Yaralananlar və dağıntılar olur...

**16 mart 1992-ci il** - Ağdam şəhər qəbiristanlığı ərazisində atışma baş verir. ***Şelli*** kəndi ermənilər tərəfindən atəşə tutulur...

**16 mart 1992-ci il** - Goranboy rayonunun ***Şəfəq*** kəndi ermənilər tərəfindən atəşə tutuur. **1** nəfər həlak olur...

**16 mart 1992-ci il** - Füzuli şəhəri ermənilər tərəfindən güclü mərmi atəşinə tutulur. Qrad qurğularından atılan mərmilər rayon hərbi komissarlığının, mədəniyyət evinin, mərkəzi kolxoz bazarının, *"Uşaq aləmi"* mağazasının binalarına, eləcə də bir sıra yaşayış evlərinə ciddi ziyan vurur. Ümumilikdə, **8** nəfər həlak olur. Füzuli rayon sakinləri - **Fərid Asif oğlu Ağazadə, Asif Nəsib oğlu Ağayev, Mobil Balaca oğlu Kazımov, Saleh Qəmbərov, Şaiq Bəhram oğlu İdrisov** və daha **4** nəfər dinc, günahsız insanlar ermənilərin rayon mərkəzinə atdıqları *"Qrad"* mərmilərinin qurbanı olurlar. **15** nəfər yaralanır. Şəhərdə çoxlu dağıntılar olur...

**16 mart 1995-ci il** - Bakıda dövlət çevrilişinə cəhd olunur. Azərbaycanlı azərbaycanlıya qarşı silah işlədir. Qan bahasına olsa da tezliklə onun qarşısı alınır...

**16 mart 1995-ci il** - Moskvada Rusiya ilə Ermənistan arasında **25 il** müddətinə müqavilə imzalanır. Bu müqaviləyə görə Ermənistandakı Rusiya hərbi düşərgələrinə ***hərbi baza statusu*** verilir. Məhz bununla da, Rusiya qoşunlarının Ermənistanda fəaliyyəti hüquqiləşdirilir...

**16 mart 1995-ci il** - Xüsusi Təyinatlı Polis Dəstəsinin komandiri **Rövşən Bəxtiyar oğlu Cavadov** XTPD üzvlərinin tərksilah olunması əməliyyatı zamanı **faciəli** şəkildə həlak olur...

**16 mart 1995-ci il** - Milli Qəhrəman **Əjdər Xalıqverdi** oğlu **Babayev** Ağstafada dövlət çevrilişinin qarşısını alarkən həlak olur...

**16 mart 2008-ci il** - Saat *17.00* radələrində Beyləqan rayonunun ***Əlinəzərli*** kənd sakini, **13** yaşlı **Sarvan Elşən oğlu Məmmədov** Xocavənd rayonunun ***Qarasu*** deyilən ərazisində mal-qara otararkən ermənilərin basdırdıqları minaya düşür. O, sağ gözünü və sağ ayağını itirir...





**17 mart 1917-ci il** - Müvəqqəti hökumətin Bakıda yerli hakimiyyət orqanı olan ***"İctimai Təşkilatların İcraiyyə Komitəsi"*** yaradılır...

**17 mart 1918-ci il** - Cənubi Azərbaycanın Urmiya şəhərində ingilis, amerikan, fransız, rus konsullarının gözləri qarşısında erməni quldur yaraqlıları bir günün içərisində **10 000** türk və azərbaycanlını qətlə yetirirlər. Bu, ermənilərin xalqımıza qarşı törətdiyi çoxsaylı ***genosid*** faktlarından biridir...

**17 mart 1920-ci il** - Ermənilər Xankəndi üzərinə hücuma keçirlər. Azərbaycan tərəfindən **16** zabit, xeyli əsgər şəhid olur. Qarnizon rəisi, general ***Qacar*** tezliklə müdafiəni təşkil edə bilir. Lakin ermənilər Əsgəranı ələ keçirirlər. Qarabağ süvari alayı, Cavanşir piyada alayı, artilleriya batareyası mühasirəyə düşür...

**17 mart 1920-ci il** - F.Xoyski Çiçerinə növbəti ***nota*** göndərirsə də, ondan cavab almır...

**17 mart 1920-ci il** - V.İ.Lenin Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasına Bakını işğal etmək barədə ***teleqram*** göndərir...

**17 mart 1938-ci il** - Azərbaycan SSR XDİK-in sədr müavini, DT baş mayoru ***Rayevin*** əmri ilə tərkibində azərbaycanlılar da olan **222** nəfər güllələnir...

**17 mart 1988-ci il** - DQMV PK-nin plenumu keçirilir. Plenumda Sov. İKP MK Partiya Təşkilat şöbəsinin müdirinin müavini ***Q.A.Xarçenko*** iştirak edir. Ermənilər M.S.Qorbaçovun onları müdafiə etməsini rəsmi elan edərək, gərgin mübahisələrə girişirlər...

**17 mart 1991-ci il** - Cəbrayıl rayonunun ***Qışlaq, Süleymanlı, Doşulu, Quşçular*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**17 mart 1992-ci il** - Ermənilər ***Tərtər*** şəhərini toplardan, *"Alazan"* və *"Qrad"* qurğularından şiddətli atəşə tuturlar...

**17 mart 1992-ci il** - Gecə saat *12* radələrində ermənilər *Tərtər* istiqamətində güclü hücuma keçirlər. Şəhər qrad, alazan qurğularından və toplardan şiddətli atəşə tutulur. Tələfat və dağıntılar olur...

**17 mart 1995-ci il** - Baş leytenant **Əmiraslan Rza oğlu Əliyev** XTPD-nin üzvləri tərəfindən onların tərksilah olunması əməliyyatı zamanı həlak olur...

**18 mart 1901-ci il** - Rusiya Nazirlər Komitəsinin ***"Rusiyadan Mil və Muğan düzlərinə 40000 nəfərədək kəndli köçürmək haqqında"*** qərarı verilir...

**18 mart 1918-ci il** - Bakıda müsavat əsgərləri ilə bolşeviklər arasında güclü atışma baş verir. Hər iki tərəfdən ölən və yaralananlar olur. Şaumyanın daşnaq cəlladlarının müsəlmanlara qarşı törətdiyi və tarixdə **Mart davası** kimi tanınmış dəhşətli ***qırğın*** baş verir...

**18 mart 1918-ci il** - Erməni silahlı quldur dəstələri ***Şamaxı*** şəhərində yüzlərlə azərbaycanlını vəhşicəsinə qətlə yetirirlər. Qəddarlıqla qətlə yetirilənlər arasında Rusiya I Dövlət Dumasının üzvü **Məmmədtağı Əliyev** də olur...

**18 mart 1918-ci il** - Şamaxı qəzasının **53** kəndində ermənilər **8027** nəfəri, o cümlədən **4190** kişi, **2560** qadın, **1277** uşağı qətlə yetirirlər. Cəmi **10** gün ərzində öldürülən azərbaycanlıların sayı **12.000**-ə çatır...

**18 mart 1918-ci il** - Mədrəsə kəndindən Şamaxıya ermənilər tərəfindən top atəşləri açılır. Malakanlar da müsəlmanlara qarşı çıxış edirlər. Şəhər demək olar ki, bütünlüklə dağıdılır. Bu qırğınların əsas təşkilatçısı və təşəbbüskarı Stepan Lalayan, Mixail Arzumanov və Qaraoğlanov olmuşlar...

**18 mart 1921-ci il** - ADR-in Daxili İşlər Naziri vəzifəsində çalışmış **Behbud ağa Cavanşir** İstanbul şəhərində , *"Pera Palas"* oteli qarşısında daşnaq terrorçusu *Misaq Terlaqyan* tərəfindən arxadan atılan atəşlə qətlə yetirilir...

**18 mart 1990-cı il** - Erməni silahlıları Mehri ərazisində *Bakı-Naxçıvan* yük qatarına basqın edir. Zəngilan rayon sakinləri - maşinist **İsmayıl İbiş oğlu Allahverdiyev** qəddarcasına döyülür; onun köməkçisi **Elxan Ağamalı oğlu Qurbanov** isə başı kəsilərək qətlə yetirilir...

**18 mart 1992-ci il** - Ermənilər Tərtər rayonunun ***Qapanlı*** və ***Qaradağlı*** kəndlərini güclü artilleriya atəşinə tuturlar. **3** nəfər dinc sakin həlak olur...

**18 mart 1992-ci il** - Erməni quldur birləşmələri ***Tərtər*** şəhərini, ***Qazax*** və ***Zəngilan*** rayonlarının kəndlərini güclü raket atəşinə tuturlar. Dinc əhali arasında ölənlər olur...

**18 mart 1992-ci il** - Milli Qəhrəman **Rafiq Hüseyn oğlu Nəsrəddinov** erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**18 mart 1992-ci il** - Ağdam şəhəri atəşə tutulur. ***Şelli*** kəndi və ***Qarağacı*** qəbiristanlığı yaxınlığındakı postlar dağıdılır. ***Qalayçılar, Əliağalı, Papravənd, Cinli*** və ***Şotlanlı*** kəndlərində səhərə qədər atışma davam edir...

**18 mart 1993-cü il** - Milli Qəhrəman **Vəzir Surxay oğlu Orucov** Ağdərə yaxınlığındakı ***"Qlobus"*** yüksəkliyi uğrunda erməni yaraqlıları ilə döyüş zamanı həlak olur...

**18 mart 1994-cü il** - Xankəndi şəhəri yaxınlığında İran Hərbi Hava Qüvvələrinə məxsus *"Herkules"* tipli təyyarə ermənilər tərəfindən vurulur. **34** nəfər





İran diplomatı və onların ailə üzvləri həlak olur. Terrorçular cəzadan yayınırlar...

**18 mart 2006-cı il** - Erməni silahlı qüvvələri ***Tərtər*** rayonu ərazisindəki ***"Torpaqtəpə"*** postuna hücum edir, lakin itki verərək geri çəkilirlər. Azərbaycan tərəfdən **2** nəfər əsgər həlak olur, **1** azərbaycanlı əsgər isə ağır yaralanır...

**19 mart 1910-cu il** - Səttarxan və Bağırxan Tehrana yola salınır...

**19 mart 1918 -ci il** - Erməni yaraqlıları Bakıda günahsız azərbaycanlıları qətlə yetirirlər...

**19 mart 1918-ci il** - Erməni-assuri quldurları ***Urmiyada*** müsəlman əhaliyə qarşı dəhşətli qırğın həyata keçirirlər. Müsəlmanların yaşadıqları məhəllələr qəbiristanlığa çevrilir. ***Urmiya*** ilə ***Çehriq*** arasındakı müsəlmanlar yaşayan kəndlər məhv edilir...

**19 mart 1921-ci il** - Erməni yaraqlıları ***Naxçıvan*** şəhərində **12** nəfər azəri türkünü qətlə yetirirlər...

**19 mart 1925-ci il** - Sovet dövlət xadimi, yazıçı, publisist, Azərbaycanın böyük oğlu **Nəriman Nərimanov** Moskvada daşnaq peşəkarlığı nəticəsində müəmmalı şəkildə *(o, erməni yeznəsi Orconikidzenin milliyyətcə erməni olan sürücüsü tərəfindən nahar süfrəsində çayına zəhər qatılaraq aradan götürülür)* öldürülür...

**19 mart 1990-cı il** - DQMV Aqrar-Sənaye Komitəsinin sədri ***R.Ayriyanın*** təşəbbüsü ilə *«dərin şum işləri aparmaq üçün»* Prikarpatyedən **T-54** tipli **40** ədəd *«çıxdaş»* edilmiş tank gətirilir. Sonralar bu tanklar azərbaycanlıların vilayətdən və digər yaşayış məntəqələrindən qovulmasında işlədilir...

**19 mart 1992-ci il** - Xocalıda öldürülmüş azərbaycanlılar üçün kiçik qəbiristanlıq salınır. Orada **54** nəfər öldürülmüş günahsız azərbaycanlı dəfn olunur...

**19 mart 1993-cü il** - Düşmən Ağdam rayonunun ***Papravənd*** kəndi istiqamətində güclü hücuma keçir...

**19 mart 1994-cü il** - Bakı metropoliteninin ***"20 Yanvar"*** stansiyasında Ermənistanın xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən hazırlanan, separatçı ***"Sadval"*** ləzgi təşkilatı üzvləri - **Oqtay Sədrə oğlu Quliyev** *(özü də həlak olur)* və daha **5** nəfər *(onlar həbs olunurlar)* tərəfindən həyata keçirilən terror aktı nəticəsində **14** nəfər həlak olur, **49** nəfər yaralanır...

**20 mart 1828-ci il** - Rus çarı I Nikolay ***"Türkmənçay"*** müqaviləsini təsdiq

edir; *"Türkmənçay"* müqaviləsi qüvvəyə minməklə Araz çayının sol sahili Rusiyaya birləşdirilir. Yeni erməni vilayəti yaratmaq haqqında rusların verdiyi vəd artıq bir növ reallaşır...

**20 mart 1918-ci il** - Erməni zabiti **3** əsgərin müşayiəti ilə *"İsmailiyyə"* binasına daxil olaraq onu yandırır *(bu qrupa daşnaq terrorçusu T.Əmiryan başçılıq edib)*. Bu gün Bakıda çoxlu sayda azərbaycanlı qətlə yetirilir. Erməni quldurları **80** yaşlı **Hacı Əmir Əliyevin** evinə soxularaq onu, **60** yaşlı arvadını öldürür, **3** körpənin boğazını kəsir, Hacı Əmirin **25** yaşlı gəlinini diri-diri divara mismarlayırlar. Həmin gün azərbaycanlılardan ibarət çoxlu sayda meyid ermənilər tərəfindən dənizə və quyulara atılır...

**20 mart 1919-cu il** - Erməni quldur birləşmələri İrəvan mahalının ***Qaraxaç, Gədilli, Qarabağlar, Ağasıbəyli, Dəhnəz, Sağanlı*** Azərbaycan kəndlərinə yenidən soxulur. Dinc müsəlman əhalisinə qarşı vəhşiliklər edilir. Erməni quldurları kişilərə divan tutduqdan sonra qadınları əsir götürürlər...

**20 mart 1919-cu il** - Erməni silahlı quldur birləşmələri Naxçıvana hücuma keçir. Faşistlər qarşılarına çıxan bir neçə Azərbaycan kəndini yer üzündən silirlər. Ordubad tərəflərdə özünü qəza rəisi təyin edən ***Aşot Mosesyantsın*** quldur dəstəsi azğınlıqlar törədir...

**20 mart 1920-ci il** - Ermənilər Qarsda və Azərbaycanla sərhəd rayonlarda ***hərbi*** əməliyyatlara başlayırlar...

**20 mart 1938-ci il** - Azərbaycan SSR XDİK-in DT idarəsinin baş mayoru ***Rayevin*** əmri ilə tərkibində çoxlu azərbaycanlı olan **234** nəfər güllələnir...

**20 mart 1991-ci il** - Yuxarı Qarabağın ***Xocavənd*** və ***Qaradağlı*** yaşayış məntəqələri minaatanlardan və pulemyotlardan atəşə tutulur. ***İnqilab Hüseynovun*** və ***Məmməd Şükürovun*** evləri partladılır; **3** yaşlı körpə ***Elçinin*** qorxudan dili tutulur...

**20 mart 1992-ci il** - Laçınlı **Əjdər Həsi oğlu Hüseynov** ermənilər tərəfindən qətlə yetirilir...

**20 mart 1992-ci il** - Ağdam rayonunun ***Qalayçılar, Əliağalı, Şelli*** və ***Gülablı*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**20 mart 1993-cü il** - Qarabağın ***Papravənd, Canyataq*** və ***Gülyataq*** kəndləri istiqamətlərində şiddətli döyüşlər gedir. İtkilər olur...

**21 mart 1735-ci il** - Səfəvilərlə Rusiya arasında ***Gəncə müqaviləsi*** imzalanır. Rus qoşunları Azərbaycanın Xəzəryanı torpaqlarını tam tərk edir...

**21 mart 1747-ci il** - III Sam Mirzə ***Təbrizdə*** və ***Ərdəbildə*** Əfşar hakimiyyətinə qarşı ***üsyan*** qaldırır. O, hakimiyyət nümayəndələrini qıraraq özünü hakim elan





edir. Bundan sonra ölkəni üsyanlar bürüyür...

**21 mart 1752-ci il** - Gürcü çarları Azərbaycan torpağında xanlar tərəfindən hədiyyələrlə qarşılanırlar. Amma Gəncə yaxınlığındakı bu görüş xanların gözlədikləri kimi nəticələnmir. Gürcü çarları hədiyyələri aldıqdan sonra danışıq aparmaq üçün xanları çadıra dəvət edirlər. Gəncə şəhərindən bir qədər yuxarıda, Qızılqaya adlı yerdə ***"Qızılqaya xəyanəti"*** adlanan hadisə baş verir. Azərbaycanın xanları Teymuraz və II İrakli tərəfindən aldadılıb həbs edilir və Gürcüstana aparılır. Şəki hakimi Hacı Çələbi xan az sonra onları əsirlikdən azad etdirir...

**21 mart 1828-ci il** - Çar hökuməti tərəfindən ***İrəvan*** və ***Naxçıvan*** xanlıqlarında ***«Erməni vilayəti yaradılması haqqında»*** fərman verilir. Bununla da qədim Azərbaycan yurdları olan İrəvan, Naxçıvan, Ordubad bölgələrində erməniləşmə siyasəti həyata keçirilməyə başlayır. Rus çarı *«Erməni vilayətləri»*nin yaradılması haqqında qərar imzalayır. İrəvan, Naxçıvan xanlıqlarında və Ordubad bölgəsində erməniləşdirmə siyasətinə başlanılır. *"Erməni vilayəti"* tərkibində İrəvan vilayəti, Naxçıvan əyaləti və Ordubad dairəsi, onların tərkibində isə mahallar təşkil olunur. Rusiyanın əli ilə **15** mahaldan ibarət ***"Erməni vilayəti"*** yaradılır. Tarixin sonrakı dönəmində ermənilər Azərbaycan əraziləri hesabına xeyli torpaqları mənimsəyirlər...

**21 mart 1918-ci il** - Hamazasp və Anastas Mikoyanın əmri ilə İçərişəhərin girəcəyindəki binanı erməni saqqallıları kerosin tökərək yandırırlar...

**21 mart 1918 -ci il** - Erməni quldurları ***Pəmbək*** Azərbaycan kəndində **13** yaşından yuxarı olan 411 nəfər azərbaycanlını diri-diri yandırırlar. Azərbaycanlılar yaşayan ***Arqut*** kəndində **60** adam qətlə yetirilir; onlardan **12** nəfərinin başı kəsilir. Gözəldərə Azərbaycan kəndində **100**-dən çox dinc sakin erməni yaraqlıları tərəfindən qətlə yetirilir. Meşəyə qaçan bir dəstə qadın erməni terrorçularına əsir düşməmək üçün özlərinə sui-qəsd edirlər...

**21 mart 1919-cu il** - Silahlı erməni daşnaqları **Naxçıvan** bölgəsində qarşılarına çıxan bir neçə kəndi dağıdaraq əhalisini qırırlar...

**21 mart 1919 -cu il** - Erməni silahlı birləşmələri İrəvan mahalının ***Qarağac, Qədili, Qarabağlar, Ağasıbəyli, Dəhnəz, Sağanlı*** kəndlərinə yenidən hücum edərək əhalini qətlə yetirirlər. Kişilərə divan tutulur, qadınlar əsir götürülür...

**21 mart 1938-ci il** - Azərbaycan SSR XDİK-in DT baş mayoru ***Rayevin*** əmri ilə **68** nəfər güllələnir...

**21 mart 1992-ci il** - Milli Qəhrəman **Səfiyar Abuzər oğlu Behbudov** ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**21 mart 1992-ci il** - Erməni terrorçuları Qazax rayonunun ***Aşağı Əskipara, Məzəm, Sofulu, Cəfərli, Quşçu Ayrım*** kəndlərinə basqın edirlər. **4** nəfər həlak

olur, 6 nəfər yaralanır...

**21 mart 1992-ci il** - Erməni quldur birləşmələri tərəfindən Qazax rayonunun ***Aşağı Əskipara*** kəndinin artilleriya atəşinə tutulması nəticəsində **5** nəfər ölür, **5** nəfər yaralanır...

**21 mart 1993-cü il** - ABŞ-ın Nyu-York və Nyu-Cersi ştatlarında **8.000** erməni ***Azərbaycan əleyhinə nümayiş*** keçirir; BMT-ni və ABŞ-ı Ermənistana kömək etməyə çağırır...

**22 mart 1789-cu il** - Məmləkəti birləşdirmək arzusunda olan Azərbaycanın görkəmli dövlət xadimi, diplomat, tədbirli siyasətçi **Qubalı Fətəlixan Hüseynəli xan oğlu** ölür...

**22 mart 1918-ci il** - Dronun başçılıq etdiyi terroçu daşnaqlar İrəvan quberniyasının bir neçə kəndində ***qətliamlar*** törədirlər...

**22 mart 1918-ci il** - Terrorçu ermənilər *Ərəş* qəzasının *Ağdam-Qəbələ* yolunun ***Ağtala*** hissəsində yolçulara hücum edib, onları qətlə yetirərək, cəsədlərini ağaclardan asırlar...

**22 mart 1919-cu il** - Erməni silahlı quldur birləşmələri Azərbaycanın ***Xankəndi*** şəhərinə basqın edirlər. Qətlə yetirilən azərbaycanlılar arasında qadınlar, qocalar və uşaqlar vardır...

**22 mart 1920-ci il** - Şuşada bolşeviklərin sifarişi ilə ermənilər xəyanətkarcasına Azərbaycan xalqının əziz Novruz bayramı günündə silahlı qiyam törədirlər. Əksər yerlərdə bu erməni separatçı qiyamı dəf olunsa da, onlar ***Əsgəran*** qalasını ələ keçirə bilirlər. Ermənistan silahlı qüvvələri Rusiya ilə Azərbaycana qarşı eyni vaxtda müharibəyə başlamaq haqda razılaşmaya əsasən ***Zəngəzur, Naxçıvan*** və ***Qarabağ*** istiqamətlərində işğalçı yürüşə başlayır. Erməni pristavları general-qubernatorun görüşünə gəlmək adı ilə 200 nəfərlik silahlı dəstə ilə hissə-hissə Şuşaya girib daxildəki ermənilərlə birləşirlər. Birləşmiş erməni silahlı dəstələri ***Şuşa*** şəhərinin azərbaycanlılar yaşayan hissələrinə hücum edirlər...

**22 mart 1920-ci il** - Şirəyöl mahalının ayrı-ayrı kəndlərinə basqın edən daşnaq qruplaşmaları **200** nəfər azərbaycanlını qətlə yetirirlər...

**22 mart 1921-ci il** - Erməni yaraqlıları Qərbi Azərbaycanın *Arpaçay (indiki Axuryan)* qəsəbəsində amansız terror aktı törədərək **148** nəfər dinc türk sakinini qətlə yetirirlər...

**22 mart 1932-ci il** - Uzun illər (1917-1930) daşnaq terrorçularına qarşı mübarizə aparmış el qəhrəmanı **Abbasqulu bəy Şadlınski** muzdlu erməni qatili tərəfindən qətlə yetirilir...

**22 mart 1949-cu il** - Günahsız olduqları halda gənc və azadfikirli Azərbaycan ziyalıları - **İsmixan Rəhimov, Gülhüseyn Abdullayev, Hacı Zeynalov** *25* **il, Kamal Əliyev, Aydın Vahidov, Azər Ələsgərov, Musa Abdullayev** *10* il müddətinə azadlıqdan məhrum olunurlar...





**22 mart 1991-ci il** - Sur kəndi erməni yaraqlıları tərəfindən atəşə tutulur...

**22 mart 1991-ci il** - *Yevlax-Laçın* avtomobil yolunun *134*-cü kilometrliyində DQ üzrə Respublika Təşkilat Komitəsinə məxsus avtomaşın ***Qaladərəsi*** kəndi yaxınlığında erməni yaraqlıları tərəfindən avtomat silahlardan atəşə tutulur. Nəticədə sərnişin - Gəncə şəhər sakini **M.Vəliyev** həlak olur, **3** nəfər sərnişin isə ağır yaralanır...

**22 mart 1992-ci il** - Milli Qəhrəman **Mərfət Əhməd oğlu Nəsibov** Quşçu Ayrım kəndi ərazisində erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**22 mart 1992-ci il** - Ağdamın ***Muğanlı*** kəndinə ermənilər tərəfindən basqın edilir. 1 nəfər öldürülür, 200 baş mal-qara aparılır...

**22 mart 1992-ci il** - "UAZ-469" markalı ***60-25 AZU*** dövlət nişanı olan azərbaycanlıya məxsus avtomaşın ***Qazax*** rayonu ərazisində partladılır; **3** nəfər həlak olur, **2** nəfər yaralanır...

**22 mart 1993-cü il** - Cəbrayıl rayonunun bir neçə kəndi ermənilər tərəfdən atəşə tutulur...

**22 mart 1993-cü il** - ***Papravənd, Canyataq*** və ***Gülyataq*** istiqamətlərində erməni silahlı birləşmələri ilə şiddətli döyüşlər davam edir. Ölən və yaralananlar olur...

**23 mart 1918-ci il** - **850** nəfər Bakı qaçqını ***"Poseydon"*** gəmisi ilə Mahaçqalaya gəlir. S.Şaumyanın sonradan göndərdiyi Lalayanın quldur dəstəsi bu qaçqınların **535** nəfərini vəhşicəsinə qətlə yetirir...

**23 mart 1918-ci il** - Qəbələ bölgəsinin ***Civar*** oymağına basqın edən erməni silahlıları əhaliyə divan tutur, onlara ağır işgəncələr verirlər. Uşaqların gözləri çıxarılaraq saplara düzülür və o, boyunbağı kimi qətlə yetirilən qadınların birinin boğazına keçirilir...

**23 mart 1919-cu il** - *«Daşnaksütyun»* terror təşkilatına mənsub erməni quldur dəstələri ***Şuşa*** şəhərinə basqın edirlər...

**23 mart 1919 cu il** - Erməni silahlı qrupları Göyçə mahalının ***Kiçik Məzrə*** və ***Hüseynquluağalı*** kəndlərinə basqın edərək əhalini qətlə yetirirlər. Kiçik Məzrədə **90**, Hüseynquluağalıda **30** nəfər azərbaycanlı öldürülür...

**23 mart 1920-ci il** - Qarabağda ***daşnaq qiyamı*** başlanır. Daşnaq terrorçular Xankəndindəki Azərbaycan ordu hissələrinə hücum edib şəxsi heyətdən **3** nəfəri qətlə yetirirlər...

**23 mart 1920-ci il** - Ermənistan hökumət qoşunları barışığı növbəti dəfə pozaraq, Azərbaycanın ***Əsgəran*** şəhərini qəsb edirlər. Qırğın əməliyyatında əsasən *«tayqulaq Andranik»in* quldur dəstələri iştirak edirlər. Onlar dinc əhaliyə qarşı xüsusilə daha çox qəddarcasına cinayətlər törədirlər...

**23 mart 1920-ci il** - Ermənistan qoşunları quldur birləşmələrinin köməyilə ***Xankəndi*** və ***Şuşa*** şəhərlərinə basqın edərək bununla da ***23 noyabr 1919-cu il*** tarixli barışıq sazişini pozurlar. Hər iki şəhərdə onlarla qadınlar, uşaqlar, qocalar qətlə yetirilirlər...

**23 mart 1946-cı il** - Böyük Vətən müharibəsində partizan hərəkatının fəal iştirakçısı, leytenant ***Qədim Yaqub oğlu Məmmədov*** ölür...

**23 mart 1990-cı il** - Erməni yaraqlıları ***Qazax*** rayonunun kəndlərinə silahlı basqın edirlər; dəmir yolun yatağı, yanacaqdoldurma stansiyası partladılır, içərisində azərbaycanlı mülki əhali olan avtobus güllələbaran edilir...

**23 mart 1992-ci il** - ***Ağdam şəhəri*** və rayonun ***Gülablı, Şelli, Papravənd*** və ***Abdal*** kəndləri ermənilər tərəfdən atəşə tutulur. Yaralananlar və dağıntılar olur...

**23 mart 1994-cü il** - Azərbaycan tərəfinin təkidli tələbi ilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşları **10** nəfər azərbaycanlı hərbi əsirin meyidini Bakıya gətirir...

**24 mart 1918-ci il** - Lənkərana gedən ***"Evelina"*** gəmisi bolşeviklər tərəfindən tərksilah edilir...

**24 mart 1919-cu il** - Germanisdən irəliləyən erməni silahlı quldur birləşmələri ***Şeşikdağ*** Azərbaycan kəndinə basqın edir və yeni hakimiyyətin - kommunistlərin adından bütün kəndliləri qırıb-çatır...

**24 mart 1920-ci il** - Erməni quldur birləşmələri *«Daşnaksütyun»* terror təşkilatının göstərişini yerinə yetirərək, ***Tərtər*** şəhəri yaxınlığındakı kəndlərə silahlı basqın edir və ***23 noyabr 1919-cu*** il tarixli barışıq sazişini növbəti dəfə pozurlar...

**24 mart 1945-ci il** - Azərbaycanın igid, vətənpərvər oğlu, Sovet İttifaqı Qəhrəmanı **Məmiş Şahbaz oğlu Abdullayev** həlak olur...

**24 mart 1988-ci il** - Sovet İttifaqı KP MK və SSRİ Nazirlər Soveti ***Qarabağ*** probleminin ədalətli həllinə zidd olan və ikili standarta əsaslanan qərar *("1988 -1995-ci illərdə Azərbaycan SSR DQMV-nin sosial-iqtisadi inkişafını gücləndirmək tədbirləri haqqında")* qəbul edir...

**24 mart 1988-ci il** - Azərbaycan SSR AS RH-nin qərarı ilə Birləşdirici Komitə *(Xankəndi şəhər İcraiyyə Komitəsi özünün 5 mart 1988-ci il tarixli qərarı ilə gizli işləyən «**Krunk**» təşkilatını rəsmi olaraq Dağlıq Qarabağı Ermənistana birləşdirici komitə kimi təsdiq etmişdi)* ləğv edilsə də, o, öz fəaliyyətini dayandırmır...





**24 mart 1990-cı il** - Saat 7 radələrində Ermənistan SSR Noyemberyan rayonu ərazisindən erməni millətindən olan yüzlərlə silahlı şəxs qəflətən **3** istiqamətdən Qazax rayonunun ***Bağanis-Ayrım*** kəndinə hücum edirlər. **600** nəfər əhalisi olan **100** evlik bu kənd yerlə-yeksan edilir. Sonra ermənilər bu meyidlərin üzərinə benzin tökərək onları yandırırlar. Kəndin **438** nəfər dinc sakini canlarını qurtarmaq üçün kəndi tərk etməyə məcbur olurlar. Basqınçı silahlı dəstənin başında *"Xaç gəzdirənlər"*in rəhbəri ***Ohanes Beqlaryan*** dururdu. Beləliklə, Qazax rayonunun **Bağanis Ayrım** kəndi ermənilər tərəfindən işğal olunur. Kənd yerlə yeksan edilir. Kənd sakinləri Dadaş Bayram oğlu, onun həyat yoldaşı Pakizə Qulu qızı , qızları Havvaxanım və Aliyə , 2 aylıq nəvəsi Hafiz öz evlərində ermənilər tərəfindən diri-diri yandırılır. Almməmməd Gülməmməd oğlu isə əl-ayağı sarılaraq xüsusi amansızlıqla ot tayasında yandırılıb öldürülür. Ənvər Əsgərov və Məcid Əhmədov güllələnirlər, milis baş leytenantı Zirəddin Əliyev ağır yaralanır...

**24 mart 1990-cı il** - Erməni silahlı quldurları Qazax rayonunun ***Pirili, Çaylı*** kəndlərinə qəflətən hücum edir. Dinc sakinlər öldürülür, evlər yandırılaraq dağıdılır...

**24 mart 1990-cı il** - Yaxşı silahlanmış erməni quldur birləşmələri *«Qrad»* tipli kütləvi tələfat sistemli silahlardan atəş açaraq, Azərbaycanın Qazax rayonunun kəndlərinə hücum edirlər. Mülki əhali arasında çoxlu sayda ölənlər olur...

**24 mart 1992-ci il** - Erməni quldur birləşmələri Füzuli rayonunun ***Divanalılar*** kəndini raket atəşinə tuturlar. Dinc əhali arasında ölənlər və yaralananlar olur...

**24 mart 1992-ci il** - Milli Qəhrəman **Namiq Nəsir oğlu Yusifov** Tovuzun ***Koxa Nəbi*** kəndi yaxınlığında ermənilərlə döyüşdə həlak olur...

**24 mart 1992-ci il** - ATƏM-in Nazirlər Sovetinin Helsinki şəhərində keçirilən iclasında münaqişənin tənzimlənməsi üçün ***Minsk Qrupu*** yaradılır...

**24 mart 1992-ci il** - Şelli, Papravənd, Abdal, Gülablı, Əhmədavar, Əliağalı, Qalayçılar, Çuxurməhlə kəndləri və Ağdam şəhəri atəşə tutulur. **3** nəfər yaralanır, çoxlu dağıntılar olur...

**24 mart 1992-ci il** - Daşnaq terrorçular ***Şuşa*** şəhərinə həmlə edirlər. **2** nəfər itkin düşür. Az sonra onlar qətlə yetirilir...

**24 mart 1993-cü il** - Zəngilan şəhəri ermənilər tərəfindən qrad atəşinə tutulur. Zəngilan şəbəkə rayonunun rəisi **Dadaş Zeynalov** və şəhər sakini **Elman Qu-**

liyev həlak olurlar. Elektrik şəbəkəsinin *Yaqub* adlı sürücüsü ağır yaralanır...

**25 mart 1739-cu il** - Nadir şahın öldürülməsi şayiəsi yayılır. Hindistanlılar şahənşahın təxminən **5.000** əsgərini öldürürlər. Bundan xəbər tutan **Nadir şah** ertəsi gün əhalini qırmağı əmr edir və **6** saat içərisində üsyanı yatırır...

**25 mart 1920-ci il** - Erməni *"Daşnaksütun"* təşkilatının yaraqlı dəstəsi ***Cəbrayıl*** şəhərinə basqın edərək dinc əhaliyə qarşı qətliam törədir. ***Xıdırlı, Davalı*** və digər Qarabağ kəndləri yandırılır...

**25 mart 1920-ci il** - Erməni quldur birləşmələri ***Xudərə, Dankeyrə, Davalı*** müsəlman kəndlərini qarət edərək yandırırlar. Dinc əhali arasında çoxlu tələfat olur. Sağ qalanlar qonşu kəndlərə qaçırlar...

**25 mart 1938-ci il** - Azərbaycan SSR XDİK DT baş mayoru ***Rayevin*** əmri ilə tərkibində azərbaycanlılar da olan **318** nəfər güllələnir...

**25 mart 1988-ci il** - Ermənistanın ***Ararat*** rayonunun azərbaycanlılar yaşayan kəndlərində *100*-dən çox ev ermənilər tərəfindən yandırılır; onların əhalisi dədə-baba torpaqlarından qovulur...

**25 mart 1988-ci il** - Vedibasarda el ağsaqqalı **Seyid Ağabala** ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**25 mart 1992-ci il** - Ağdamla Əsgəran arasındakı post dağıdılır; düşmən əks-hücumla geri oturdulur. ***Şelli, Qalayçılar, Əhmədavar, Çuxurməhlə, Abdal-Gülablı*** kəndləri atəşə tutulur...

**25 mart 1992-ci il** - Erməni quldur birləşmələri ***Tərtər, Goranboy, Zəngilan*** və ***Qubadlı*** rayonlarının kəndlərini atəşə tuturlar. Dinc əhali arasında çoxlu sayda ölənlər olur...

**26 mart 1918-ci il** - S.Lalayanın başçılıq etdiyi terrorçu qrup Azərbaycan milyonçusu **Yusif ağa Hacı ağa oğlu Dadaşovun** qarşısını kəsirlər. ***S.Lalayan*** tələb edir ki, o, sağ qalmaq istəyirsə onun qılıncının altından keçsin. Yusif ağa Hacı ağa oğlu cavabında deyir: *"Mən türkəm. Türk ölər, amma harsın dığasının qılınsının altından keçməz"*. Terrorçular Yusif ağanı qətlə yetirir, cəsədini qarət edir və onu itirirlər...

**26 mart 1919-cu il** - *«Daşnaksütyun»* terror təşkilatının quldur dəstələri tərəfindən ***Yeni Bayazid*** mahalının azərbaycanlı əhalisi kütləvi surətdə qırılır...

**26 mart 1930-cu il** - Sovet hərbi dəstələri Muğanda ***Mustafa bəy*** və ***Həsən bəy Mustafaoğlunu*** üsyançı olduqları üçün həbs edirlər...

**26 mart 1944-cü il** - İgid dənizçi, Sovet İttifaqı Qəhrəmanı **Əmi Ağa oğlu Məmmədov** həlak olur...





**26 mart 1962-ci il** - Siyəzən rayonu ərazisində **7** bal gücündə ***zəlzələ*** baş verir. Dağıntılar olur. Sunami dalğaları müşahidə edilir...

**26 mart 1992-ci il** - Ağdamın ***Əliağalı, Papravənd, Şelli, Cinli*** kəndləri atəşə tutulur...

**26 mart 1994-cü il** - *"Sərhədsiz həkimlər"*in, Qırmızı Xaç Cəmiyyətlərinin, İnsan Hüquqları ilə məşğul olan beynəlxalq təşkilatların üzünə bağlı olan ***"Sonasar"*** əsir düşərgəsi *(Laçın rayonu)* ***"Sonasar bazarı"*** kimi tanınmağa başlayır...

**26 mart 1998-ci il** - Vaxtilə ***Şuşa*** məscidindən oğurlanmış yaşı **400** ildən çox olan 6 xalçadan üçü Nyu Cersi ştatında Ümummilli Erməni Konqresinin iclasında nümayiş etdirilir...

**27 mart 1831-ci il** - Lənkəran qalası üsyançılar tərəfindən mühasirəyə alınır...

**27 mart 1872-ci il** - Qafqaz müsəlmanlarının lideri, dövrünün görkəmli maarifçi-pedaqoqu **Məmməd Əfəndi Müfti Osman Əfəndi oğlu Müflizadə 51** yaşında müəmmalı şəkildə dünyasını dəyişir...

**27 mart 1906-cı il** - Erməni-tatar müşavirəsinin üzvləri S.Arutyunov, A.Kalantar, Xatisov qraf İ.Vorontsov-Daşkovla görüşürlər. Onlar ***Şuşa*** qəzasında baş verən qanlı toqquşmalara son qoyulmasını, erməni vəhşiliklərinin qarşısının alınmasını xahiş edirlər...

**27 mart 1917-ci il** - Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti Icraiyyə Komitəsi seçilir...

**27 mart 1993-cü il** - Ermənilər Kəlbəcəri zəbt etmək üçün ***Vardenis, Cermux, Laçın dəhlizi*** və Qarabağın şimal-şərq sektoru tərəfdən güclü hücuma keçirlər.

**27 mart 1993-cü il** - Erməni qoşun birləşmələri ***Kəlbəcər*** rayonu ərazisində qəfil hücuma keçirlər. ***Ağqaya*** və ***Mərcimək*** kəndləri uğrunda şiddətli və gərgin döyüşlər gedir. İtkilər olur...

**27 mart 1993-cü il** - Ermənilər ***Kəlbəcər*** şəhəri istiqamətində hücumu genişləndirərək ***Taxtabaşı, Bağlıpəyə, Çərəktar*** kəndlərini işğal edirlər...

**27 mart 1993-cü il** - Erməni silahlı qruplaşmaları ikinci dəfə Kəlbəcər rayonunun ***Ağdaban*** kəndinə hücum edirlər. **49** nəfər dinc sakin amansızlıqla qətlə yetirilir. Evlər dağıdılır, əhali didərgin düşür...

**28 mart 1938-ci il** - Azərbaycan SSR XDİK-in sədr müavini, DT baş mayoru ***Rayevin*** əmri ilə tərkibində günahsız azərbaycanlılar da olan **209** nəfər güllələnir...

**28 mart 1984-cü il** - Tehranda Türkiyə səfirliyi əməkdaşlarına qarşı erməni terrorçuları ***"plan"*** həyata keçirirlər. Erməni terrorçusu Semaperdyan bombanın partlaması nəticəsində həlak olur. Türk səfirliyinin əməkdaşı ***İsmayıl Pamukçu*** və Türkiyənin İrandakı səfirinin birinci katibi ***Həsən Oqtay*** ağır yaralanır. Ermənilərin ASALA terror təşkilatı məsuliyyəti öz üzərinə götürür...

**28 mart 1990-cı il** - Naxçıvanın ***Kərməçataq*** kəndinə hücum edən erməni yaraqlıları **38** yaşlı **Vəli Zeynalovu** qətlə yetirirlər...

**28 mart 1991-ci il** - Cəbrayıl rayonunun İsaqlı kəndindən Xocavənd rayonunun ***Dolanlar*** kəndinə doğru hərəkət edən *"KamAZ"* markalı yük maşını erməni terrorçuları tərəfindən partladılır. **2** nəfər mülki şəxs həlak olur, **1** nəfər isə yaralanır. Rayonun ***Qışlaq, Doşulu, Sirik, Süleymanlı*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Ermənilər ***Tatar, İsaqlı, Şıxlar*** kəndlərinə hücum edir...

**28 mart 1992-ci il** - Daşnaq terrorçular Goranboyun sərhəd kəndlərini atəşə tuturlar. *"Kamaz-5410"* markalı ***40-53 AQS*** dövlət nişanı olan avtomaşın ermənilər tərəfindən partladılır; **3** nəfər həlak olur, **2** nəfər yaralanır...

**28 mart 1992-ci il** - Ağdam rayonunun ***Şelli, Abdal-Gülablı*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Tələfat və dağıntılar olur...

**28 mart 1992-ci il** - Goranboy rayonunun ermənilərlə həmsərhəd kəndləri atəşə tutulur. **1** nəfər həlak olur, **1** nəfər yaralanır...

**28 mart 1993-cü il** - Ermənilər güclü hücum nəticəsində ***Kəlbəcər*** rayonunun ***Ağqaya, Mərcimək, Təzəkənd, Ağcakənd, Narışlar*** kəndlərini işğal edir...

**29 mart 1555-ci il** - Amasiyada ***Səfəvi-Osmanlı*** dövlətləri arasında ***müqavilə*** imzalanır...

**29 mart 1803-cü il** - Aylarla davam edən qanlı döyüşdən sonra Qulyakovun başçılığı ilə rus qoşunları Zaqatala yaxınlığındakı ***Carıqarlı*** kəndini tuturlar...

**29 mart 1918-ci il** - Stepan Lalayanın silahlı dəstəsi Bakıdan Şamaxıya gəlir...

**29 mart 1918-ci il** - Lənkərana getmək istəyən paraxodun saxlanması və tərksilah edilməsi milli qırğın üçün bəhanə olur. Bakı şəhərində ermənilər tərəfindən yüzlərlə azərbaycanlı amansızlıqla qətlə yetirilir...

**29 mart 1919-cu il** - İrəvan quberniyasının ***Yeni Bayazid*** qəzasının **26** türk kəndinin əhalisi erməni yaraqlılarının törətdikləri vəhşiliklər haqqında *(yandırılıb dağıdılmış* ***270*** *kənd barədə)* dünya müsəlmanlarına müraciət edirlər...





**29 mart 1990-cı il** - Tovuz rayonunun ***Əlibəyli*** kəndi ərazisindəki meşədə müxtəlif partlayıcı və partladıcı vasitələrlə, əldə düzəlmiş qumbaralarla, odlu silahlarla silahlanmış Ermənistanın Berd qəsəbəsində *(Şəmsəddin rayonu)* yaşayan ***Ervand Qaleçyan, Samvel Xaçaturyan, Araik Aperyan*** saxlanılır. Az sonra onlar nədənsə *(?)* azad olunurlar...

**29 mart 1990-cı il** - Babək rayonunun ***Gərməçatax*** kəndində **1** nəfər azərbaycanlı ermənilər tərəfindən amansızlıqla öldürülür...

**29 mart 1990-cı il** - Daşnaq terrorçularının atəşi altında qalan ***Sədərəkdə*** **12** yaşlı azərbaycanlı bir qız ağır güllə yarası alır...

**29 mart 1992-ci il** - Ağdamın ***Şelli, Abdal-Gülablı*** kəndləri yenidən atəşə tutulur. Tələfat və dağıntılar olur...

**29 mart 1992-ci il** - Milli Qəhrəman **Nizami Murad oğlu Məmmədov** Şuşa ermənilərin atdığı *"Kristal"* raketlərdən atəşə tutulan zaman yaralıları təhlükəsiz yerə apararkən , orada dinc əhalinin təhlükəsizliyini təmin edərkən həlak olur...

**29 mart 1992-ci il** - Milli Qəhrəman **Fərhad Qəmbər oğlu Hümbətov** ermənilərlə döyüşdə həlak olur...

**29 mart 1992-ci il** - Milli Qəhrəman **Cəmil Səmədxan oğlu Niftəliyev** Ağdam rayonunun Şelli kəndi ərazisində erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**29 mart 1992-ci il** - Milli Qəhrəman **Sadıq Dayandur oğlu Hüseynov** Şuşada ermənilərlə döyüşdə həlak olur...

**29 mart 1992-ci il** - Milli Qəhrəman **Tabil Qasım oğlu Həsənov** Yuxarı Qarabağda erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**30 mart 1918-ci il** - Bakı rayonlarında kortəbii mitinqlər başlayır. Qızıl Ordu dəstələrinin provakasiya xarakterli güllələbaranı Bakı Kommunasının bolşevik-daşnaq rəhbərliyinə imkan verir ki, azərbaycanlı əhaliyə qarşı hücuma başlasınlar. Erməni-bolşevik qüvvələri ***(Şaumyan, Avakyan, Saakyan, Korqanyan*** və daşnaq muzdlusu ***Petrovun*** rəhbərliyi ilə) Bakıda və ətraf ərazilərdə bir neçə gün davam edən müsəlman soyqırımı törədirlər. Saakyanın əmri ilə gəmidən atəşlər açılır. Qızıl Ordu qərargahının rəisi ***S.Avetisyan,*** dəstə rəhbəri ***Amazasp*** və ***Kozarev*** azərbaycanlılara xüsusilə şiddətli divan tuturlar. **10 000**-dən çox adam qətlə yetirilir. Bakının ***«Məmmədli», «Zibilli dərə»*** və digər məhəllələrində günorta radələrində ermənilər tərəfindən süngülərə taxılmış onlarla azərbaycanlıların meyidləri aşkarlanır. Azərbaycanlıların evləri, onlara məxsus olan dükan-mağazalar, bazarlar, binalar, mətbəələr, redaksiyalar, xəstəxanalar, məktəblər ... ermənilər tərəfindən vəhşicəsinə yandırılır. Təzəpir məscidi top atəşinə tutulur. **80** yaşlı **Hacı Əmir Əliyevin** evinə soxulan ermənilər onu və **60** yaşlı ar-

vadını vəhşicəsinə öldürürlər. H. Ə.Əliyevin 25 yaşlı gəlini ermənilər tərəfindən diri-diri divara mismarlanır; erməni qaniçənləri onun gözləri qarşısında 3 körpəsinin başlarını kəsirlər...

**30 mart 1920-ci il** - Erməni quldur birləşmələrinin qəfil basqını nəticəsində ***Bağırbəyli, Müsəlmanlar*** kəndləri ələ keçirilir. Sağ qalan azərbaycanlılar qəsb edilmək təhlükəsi qarşısında olan ***Şuşa*** şəhərinə qaçırlar...

**30 mart 1920-ci il** - Nəsib bəy Yusifbəylinin beşinci hökumət kabineti istefa verir. Nəticədə Azərbaycanda siyasi böhran yaranır...

**30 mart 1991-ci il** - Cəbrayıl rayonunun ***Cələbilər*** və ***Şıxlar*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Güclü dağıntılar olur...

**30 mart 1991-ci il** - Goranboy rayonunun ***Todan*** və ***Gürzalılar*** kəndləri ermənilər tərəfdən atəşə tutulur. Dağıntılar olur...

**30 mart 1992-ci il** - Terrorçu daçnaqlar Füzuli rayonunun Hoğa (Üçbulaq) kəndinə basqın edir. Evlərini tərk etməyənlər silahlı ermənilər tərəfindən qətlə yetirilir. Sağ qalan əhali yurd-yuvasından didərgin salınır. Ölən və yaralananlar olur. Kənd ermənilər tərəfindən dağıdılır...

**30 mart 1993-cü il** - Kəlbəcər şəhəri və ona yaxın olan bir neçə yaşayış məntəqələri ermənilər tərəfindən top və qrad qurğularından atəşə tutulur. Bir neçə yaşayış məntəqəsi ermənilər tərəfindən zəbt olunur. Tələfat və dağıntılar olur. Daşnaq terrorçu birləşmələri Kəlbəcər rayonunun ***Başlıbel*** kəndinə basqın edirlər. Kənd sakini **Çingiz Məhəmməd oğlu Əmiralıyev** bacısı Aygünün düşmən əlinə keçməməsi üçün onu boğub öldürür; özü isə terrorçularla ölənə qədər əlbəyaxa döyüşür. Ölən və yaralananlar, habelə dağıntılar olur...

**30 mart 1993-cü il** - İrəvanın ***"Zvarnots"*** aeroportuna Livandan **1500** nəfərə qədər muzdlu yaraqlı gətirilir...

**31 mart 1918-ci il** - Bakıda ermənilər Azərbaycan xalqına qarşı qanlı və faciəli qırğın həyata keçirirlər. Erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar edir, əhalini uşaqdan böyüyə qədər ucdantutma qətlə yetirirlər. Bakı küçələrində **15 minə** qədər azəri türkünün doğranmış meyidi aşkar olunur. *S.Şaumyan* Moskvaya göndərdiyi məktubda göstərir və etiraf edir ki, Bakıda mart qırğınlarında Bakı Sovetinin **6000** silahlı əsgəri ilə bərabər *"Daşnaqsütun"* partiyasının **4000** nəfərlik silahlı dəstəsi də iştirak edib və bunları o, Sovet Hakimiyyətinə sədaqəti ilə izah edir. Bu qırğın ***Quba, Şamaxı, Salyan, Göyçay, Kürdəmir, Qarabağ, Təbriz, Urmiya, İrəvan, Qars...*** bölgələrində ermənilər tərəfindən həyata keçirilmiş azərbaycanlıların soyqırım aktına rəvac verir. **10** minlərlə günahsız azərbaycanlı dinc sakinlər ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilirlər. Azərbaycan Respublikasının Prezidentinin 26 mart 1998-ci il tarixli fərmanı ilə ***"31 mart - Azərbaycanlıların soyqırımı günü"*** elan edilir...





**31 mart 1990-cı il** - Azərbaycan KP MK-nin plenumu keçirilir. Burada ***Qanlı Yanvar*** hadisələrinə siyasi və hüquqi qiymətin verilməsindən boyun qaçırılır...

**31 mart 1992-ci il** - Cəbrayıl rayonunun bir neçə kəndi ermənilər tərəfindən müxtəlif növ silahlardan atəşə tutulur...

**31 mart 1992-ci il** - Ağdam rayonunun ***Əliağalı, Cinli, Qalayçılar, Papravənd*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar olur...

**31 mart 1992-ci il** - Erməni quldur birləşmələri Füzuli rayonunun kəndlərini, eləcə də Füzuli şəhərini artilleriya və raket atəşinə tuturlar. Dinc əhali arasında ölənlər və yaralananlar olur...

**31 mart 1992-ci il** - Şuşan rayonunun ***Qaybalı*** və ***Kosalar*** kəndləri erməni silahlılarının hücumuna məruz qalır. **1** nəfər dinc sakin həlak olur, **7** nəfər yaralanır...

**31 mart 1993-cü il** - Füzuli rayonunun ***Üçbulaq kəndi*** *(Hoğa kəndi)* ermənilər tərəfindən tam işğal olunur. Ölənlər və yaralananlar olur...

**31 mart 1993-cü il** - Azərbaycanın ***Kəlbəcər*** şəhəri artilleriya atəşinə tutulduqdan sonra güclü hücuma məruz qalır. Rayonun **12** kəndi düşmən əlinə keçir. İtkilər olur. Daşnaq terrorçuların ***Milli*** kəndinə basqını zamanı kənd sakini **Zərnişan Kazım qızı Camalova** özünü Qamışlı körpüsündən çaya atıb intihar edir. **Tunel ağzı** deyilən ərazidə ***21-91*** nömrəli *"Kamaz"* markalı maşına ermənilərin etdikləri basqın nəticəsində azyaşlı uşaqlar da daxil olmaqla **25** nəfər (1979-cu il təvəllüdlü ***Nəsibə Qara qızı Quliyeva,*** 1980-ci il təvəllüdlü ***Azər Qara oğlu Quliyev,*** 1983-cü il təvəllüdlü ***Yaşar*** və ***Məzahir Qara oğlanları,*** 1985-ci il təvəllüdlü ***Aygün Qara qızı*** və ***başqaları***) girov götürülür...

# APREL

**1 aprel 1918-ci il** - Bakıda ermənilər tərəfindən qətlə yetirilmiş minlərlə insan indiki *Şəhidlər Xiyabanı* yerləşən ərazidə basdırılır...

**1 aprel 1918-ci il** - Erməni terrorçuları Ərəş qəzasının *Sarıhacılı* kəndində tarladan evlərinə qayıdan 3 azərbaycanlı qadını oğurlayıb aparırlar. Bir müddət sonra həmin qadınların döşləri kəsilmiş halda olan meyidləri tapılır...

**1 aprel 1992-ci il** - Ağdamın *Abdal* və *Gülablı* kəndləri ermənilər tərəfindən atəşə tutulduqdan sonra hücuma məruz qalır. **3** nəfər yaralanır, **15** ev yandırılır...

**1 aprel 1992-ci il** - Milli Qəhrəman **Seymur Qəhrəman oğlu Məmmədov** Məlikcan kəndi uğrunda gedən döyüşlərdə erməni snayperinin gülləsinə tuş gələrək həlak olur...

**1 aprel 1993-cü il** - Erməni hərbi birləşmələri Füzuli şəhərinin *4* kilometrliyinə çataraq ***Məngələnata yüksəkliyi*** uğrunda döyüş əməliyyatlarına başlayırlar. Ölən və yaralananlar olur...

**1 aprel 1993-cü il** - Erməni silahlı birləşmələri ***Kəlbəcər*** rayonu ərazisindəki gözəl dağ kurort qəsəbəsi olan ***İstisuyu*** işğal edərək yandırırlar...

**2 aprel 1827-ci il** - Rus qoşunları ***İrəvana*** üçüncü dəfə güclü hücuma keçir. Çoxlu sayda itkilər olur...

**2 aprel 1918-ci il** - Zaqafqaziya Seyminə ***Bakı*** hadisələri ilə bağlı məlumat verilir. Müsəlman sosialist blokunun sədri Z.Məmmədbəyov tələb edir ki, Bakıda azərbaycanlılara qarşı törədilən ***vəhşiliklər*** barəsində tədbir görülsün. M.Ə.Rəsulzadə bildirir ki, Seym Azərbaycana kömək etməyəcəyi təqdirdə baykot olunacaqdır. Amma gürcü və erməni fraksiyaları Azərbaycana kömək etməkdən imtina edirlər...

**2 aprel 1989-cu il** - Rusiyanın ermənipərəst, millətçi deputatı Qalina Starovoytovanın başçılığı ilə Ermənistandan Dağlıq Qarabağa **40** nəfərlik *«təbliğatçı»* dəstəsi gəlir...

**2 aprel 1989-cu il** - Əsgəranda yuva salmış terrorçu daşnaqlar ***Daşbulaq*** kəndinə basqın edirlər. 3 azərbaycanlı ev partladılır, **8** ev yandırılır. Kəndin azərbaycanlı əhalisi ev-eşiyindən didərgin düşür...

**2 aprel 1990-cı il** - Erməni separatçıları Gürcüstan SSR vətəndaşlarından **2** nəfərini azərbaycanlı olduqlarına görə qətlə yetirirlər...





**2 aprel 1992-ci il** - Ağdamın ***Şelli*** kəndi ermənilər tərəfindən atəşə tutulur...

**2 aprel 1992-ci il** - Ermənilər Ağdam rayonunun ***Abdal*** və ***Gülablı*** kəndlərindən geri oturdulur...

**2 aprel 1992-ci il** - Ağdam rayonunun ***Papravənd*** kəndi ermənilər tərəfindən atəşə tutulur. **1** nəfər həlak olur, **1** nəfər yaralanır...

**2 aprel 1993-cü il** - Füzuli rayonunun ***Qacar, Aşağı Divanalılar*** və ***Gövşad*** kəndləri ermənilər tərəfindən işğal edilir...

**2 aprel 1993-cü il** - Füzuli şəhərinin **4** kilometrliyində - ***Məngələnata*** yüksəkliyində qanlı döyüşlər gedir. Hər iki tərəfdən itkilər olur...

**2 aprel 1993-cü il** - Kəlbəcərin ***Başlıbel, Taxtabaşı, Əsrik*** kəndlərinin dinc əhalisinin yığışdığı **3** yük maşını Tunel ağzında güllələbaran edilir. Taxtabaşı kənd sakinləri - **Qəzənfər, Sərxan, Habil, Mehman, Qafar, Yusif** və başqalarının da daxil olduğu **100-ə** yaxın kişi və qadın orada ***güllələbaran*** edilir. Ölənlərin cəsədləri yandırılır. **8** qadın, **15** kişi girov götürülür. Yalnız bir gecə ərzində Kəlbəcər rayonunun ***Başlıbel*** kəndində **28** kişi və qadın tikə-tikə doğranılır, **18** nəfər əsir düşür. Kəndin elə də çox silahı olmayan özünümüdafiə dəstəsi müasir texnika ilə təchiz olunmuş erməni quldur birləşmələrinə qarşı qızğın müqavimət göstərir. Kəndlilərin var-yoxları talan edilir, evlərə od vurulur. Daşnaq terrorçuları Kəlbəcər rayonunun Çaykənd sakini **Etibar Xansuvar oğlu Həşimovu** *Meydan çayı* ətrafında girov götürürlər. Terrorçular avtomat atəşləri ilə onun bədənini şaqqalayıb qəddarcasına **2** hissəyə bölürlər...Ermənistandan və Dağlıq Qarabağdan olan erməni hərbi birləşmələrinin güclü hücumları nəticəsində **Kəlbəcər rayonu** işğal edilir. Yüzlərlə sakin şəhid olur, **321** nəfər əsir düşür...

**2 aprel 1993-cü il** - Goranboy rayonunun ***Gülüstan-Xarzarut*** yolu yaxınlığındakı keşikçi məntəqəsinə erməni yaraqlıları basqın edir. **6** saatdan çox davam edən döyüşdə Azərbaycan tərəfindən **5** nəfər həlak olur, **10** nəfər yaralanır...

**2 aprel 2002-ci il** - Ermənistan hərbi kəşfiyyat və əks-kəşfiyyat xidmətlərində ***"Post-14"*** Proqramının mahiyyətində nüvə tədqiqatı ilə bağlı SQ Baş Qərargahında xüsusi müşavirə keçirilir...

**3 aprel 1916-cı il** - Ərzurum şəhəri rus ordusu tərəfindən alınaraq yandırılır...

**3 aprel 1918-ci il** - Erməni daşnaqları Ərəşin ***Bağır dərəsi*** deyilən ərazisində ələ keçirdikləri **5** azərbaycanlının bədənlərini süngü ilə deşərək, onları vəhşicəsinə qətlə yetirirlər...

**3 aprel 1918-ci il** - Bakıdan qatarla ***Nəvai*** stansiyasına gələn daşnaq terror-

çuları kəndə basqın edirlər. **555** kişi, **260** qadın, **140** uşaq terrorçular tərəfindən amansızlıqla qətlə yetirilir. Stansiyadakı bütün tikililəri ermənilər od vuraraq yandırırlar...

**3 aprel 1990-cı il** - M.Qorbоçovun imzası ilə **17** bənddən ibarət "Fövqəladə vəziyyətin qanuni şərtləri" qərarı qəbul olunur. SSRİ Ali Sovetinin sədri A.Lukyanov qərarın qüvvəyə mindiyini rəsmi şəkildə elan edir...

**3 aprel 1990-cı il** - Ermənilər Dağlıq Qarabağın Azərbaycan Respublikasından ayrılmasını və orada referendum keçirilməsini *«Müttəfiq Respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında»* 1410-1 nömrəli SSRİ Qanununun Muxtar Vilayətə verdiyi səlahiyyətlərlə əsaslandırırlarsa, Şaumyan *(Ağcakənd)* rayonunun da ermənilərin kompakt yaşadıqları rayon olduğunu iddia edərək həmin qanunun 3-cü maddəsinin ona da öz statusunu müəyyənləşdirmək imkanı verdiyini əsas gətirirlər. Azərbaycanın rəsmi dövlət qurumları nədənsə ermənilərin bu və bunun kimi digər təcavüzkar iddialarına etinasız yanaşır...

**3 aprel 1992-ci il** - Ağdam rayonunun ***Şelli*** kəndi ermənilər tərəfindən atəşə məruz qalır...

**3 aprel 1993-cü il** - Kəlbəcər şəhərini tərk etmiş Azərbaycan ordusunun hissələri Murovdağın ətəklərinə doğru geri çəkilir. İtkilər olur...

**4 aprel 1919-cu il** - Erməni quldur birləşmələri ***Böyük Vedi*** kəndinə yaxınlaşırlar. Müsəlman ağsaqqalları ilə görüş üçün rəsmi səbəb danışıqlar aparılması idi. Gözlənilmədən ermənilər tərəfdən açılan atəşlər nəticəsində Böyük Vedi kəndinin iki nümayəndəsi - **Zeynalabdin Şıxəli oğlu** və **Nəsrulla bəy Bəşirbəy oğlu** öldürülürlər...

**4 aprel 1993-cü il** - **30** yaşlı Kəlbəcər rayon sakini ***İmarət Məmmədovanın*** gözləri qarşısında ermənilər **8** mülki şəxsi, o cümlədən, İmarətin **8** yaşlı oğlu Talehi güllələmiş, sonra meyidləri yandırmışlar...

**4 aprel 1993-cü il** - Füzuli və Ağdam rayonlarının əraziləri ermənilər tərəfindən atəşə tutulur...

**4 aprel 1993-cü il** - Erməni yaraqlıları muzdluların köməyi ilə Füzuli rayonunun ***Üçbulaq*** kəndinə yenidən hücum edirlər. Kənd yandırılır. İtkilər olur...

**5 aprel 1915-ci il** - General Yudeniç Qafqaz canişininə yazdığı sənəddə bildirir ki, ermənilərin işğal etdikləri torpaqları müharibədən sonra onlardan geri almaq və ya tutulanların onlara məxsus olmadığını sübuta yetirmək çətin olacaqdır...





**5 aprel 1920-ci il** - Səhər saat *5:00*-da erməni silahlı dəstələri Qazax qəzasının ***Qaraçan, Çaxmanlı, Yaradulla*** kəndinə basqın edərək dinc əhalini güllələbaran edirlər. Hər **3** kənddə qətliam törədilir. Çoxlu sayda dinc, günahsız azərbaycanlı ölür...

**5 aprel 1920-ci il** - *«Daşnaksütyun»* terror təşkilatının erməni quldur dəstələri Qazax rayonunun ***Tatlı*** kəndi yaxınlığındakı kiçik bir Azərbaycan kəndini ələ keçirərək, onun bütün sakinlərinə qəddarcasına divan tuturlar...

**5 aprel 1920-ci il** - Səhər saat **5** radələrində Ermənistan tərəfindən erməni silahlı quldar birləşmələri Azərbaycan ərazisindəki ***Yaradulla*** kəndinə basqın edirlər. Əhalinin üçdə bir qismindən çoxu məhv edilir, əmlakları yağmalanır...

**5 aprel 1990-cı il** - *Tərtər-Kəlbəcər* marşrutu ilə hərəkət edən sərnişin avtobusu erməni yaraqlıları tərəfindən atəşə tutulur. ***Bağlıpəyə*** kənd sakini Aslan **Xıdırov** həlak olur; **2** sərnişin ağır yaralanır...

**5 aprel 1991-ci il** - Cəbrayıl rayonunun ***Qaracallı, Quşçular, Qışlaq, Süleymanlı, Sirik*** kəndləri erməni yaşayış məntəqələrindən atəşə tutulur...

**5 aprel 1993-cü il** - Füzuli rayonunun Yuxarı Qarabağ ilə həmsərhəd olan bəzi kəndləri atəşə tutulur. ***Üçbulaq*** kəndi ətrafında baş verən döyüşlərdə ölənlər və yaralananlar olur...

**5 aprel 1993-cü il** - Goranboyun ***Gülüstan-Xarxarut*** yolu ərazisindəki keşikçi məntəqəsinə adamları gətirən avtobus ermənilər tərəfindən vurulur. **4** nəfər ağır yaralanır...

**6 aprel 1917-cü il** - Azərbaycanda kəndli hərəkatının fəal iştirakçılarından biri, igid vətənpərvər **Süleyman Ağahüseyn oğlu *(Qaçaq Süleyman)*** Cənubi Azərbaycanın ***Şahqasım*** kəndində faciəli surətdə həlak olur...

**6 aprel 1919-cu il** - Qarabağın **18** evdən ibarət olan azərbaycanlılar yaşayan ***Cavanşir*** kəndi erməni silahlı dəstələrinin hücumuna məruz qalır. Bir nəfər də olsun sağ adam qalmır; **25** kişi, **20** qadın və **10** uşaq ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**6 aprel 1920-ci il** - Erməni yaraqlıları ***Gümrü*** şəhərində və ətraf ərazilərdə **1.500** azərbaycanlı türkünü amansızlıqla qətlə yetirirlər...

**6 aprel 1992-ci il** - Erməni quldur birləşmələri Tovuz rayonunun ***Əlibəyli*** kəndini artilleriya atəşinə tuturlar. Dinc əhali arasında ölənlər və yaralananlar olur...

**6 aprel 1992-ci il** - Laçın -Şuşa avtomobil yolu ilə hərəkət edən **Xəyyam**

Əvəz oğlu **Mirzəyevin** idarə etdiyi *QAZ-52* markalı maşın erməni terrorçuları tərəfindən PDM-lərdən atəşə tutulur. **Xəyyam Əvəz oğlu Mirzəyev** həlak olur, müşayiətçi ***Yusif Süleymanov*** isə ağır yaralanır...

**6 aprel 1993-cü il** - Azərbaycanda fövqəladə vəziyyət elan olunur. Çağırışçıların və ehtiyatda olan hərbi mükəlləfiyyətlilərin səfərbərliyinə başlanılır...

**7 aprel 1909-cu il** - Türkiyədə müxalifət düşərgəsinin vətənpərvər ziyalılarından biri olan ***Həsən Fəhmi bəy*** öldürülür...

**7 aprel 1916-cı il** - Rizeyə rus desantı çıxarılır...

**7 aprel 1991-ci il** - Erməni yaraqlıları Qubadlı rayonunun ***Yuxarı Cibikli*** kəndinə basqın edirlər. Kənd sakinləri - **Şahin İlyas oğlu Hüseynov, Qərib Qulam oğlu Nəzərov** və bir nəfər **Oleq** adlı rus zabiti qətlə yetirilir, **2** nəfər ağır yaralanır...

**7 aprel 1992-ci il** - Ağdamın ***Abdal*** və ***Gülablı*** kəndləri ermənilərin atəşinə məruz qalır...

**7 aprel 1992-ci il** - Erməni yaraqlıları Kəlbəcərin ***Ağdaban*** kəndi istiqamətində hücuma keçirlər. İtkilər olur...

**7 aprel 1993-cü il** - Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli, Ağdam, Tərtər rayonlarının əraziləri ermənilər tərəfindən atəşə tutulur...

**7 aprel 2010-cu il** - Saat *12.20*-də Şimali Qafqaz dəmiryolunda, ***Kizlər*** stansiyası yaxınlığında Azərbaycana taxıl gətirən yük qatarının hərəkəti zamanı ***partlayış*** baş verir. Qatarın **6** vaqonu relsdən çıxır. Partlayış Həştərxandan Bakıya taxıl gətirən qatarın sonuncu vaqonunun altında olur və nəticədə hər iki istiqamətdə hərəkət dayandırılır. ***Bakı-Tümen*** və ***Bakı-Moskva*** sərnişin qatarlarının hərəkəti də bu səbəbdən təxirə salınır...

**7 aprel 2010-cu il** - Axşam saatlarında Lənkəranda dindarlarla polis arasında qarşıdurma yaranır. Olay ***"Cümə"*** məscidinə axund təyinatı üstündə baş verir. Qarşıdurmanı yatırmaq üçün polis gözyaşardıcı qazdan istifadə edir. Hadisədə ölən və yaralananlar olur. Hadisə ilə bağlı **30** nəfər həbs edilir...

**8 aprel 1918-ci il** - Xırdalan stansiyası yaxınlığında sovet qoşunları ilə müsavatçıların və Qotsinskinin silahlı qüvvələri arasında ***qızğın vuruşma*** baş verir. Ölənlər və yaralananlar olur...

**8 aprel 1920-ci il** - Erməni quldur birləşmələri təkrarən basqın edərək ***Yaradulla*** Azərbaycan kəndini və Qazax rayonundakı ***Tatlı*** kəndinin cənub hissəsini yandırırlar...





**8 aprel 1988 - ci il** - **5** nəfər erməni terrorçusu *"Jiquli"* maşınında ***Sarvanlar*** *(Zəngibasar)* kəndinə girib kəndi boşaltmağı tələb edirlər. Etiraz cavabı alan terrorçular maşını camaatın üstünə sürərək **3** nəfəri ağır yaralayırlar...

**8 aprel 1991-ci il** - Füzuli rayonunun ***Yuxarı Divanalılar*** kəndinin ərazisində erməni yaraqlıları ilə baş verən atışmada azərbaycanlılardan ölən və yaralananlar olur...

**8 aprel 1992-ci il** - Kəlbəcər rayonunun ***Ağdaban kəndi*** ermənilər tərəfindən işğal olunaraq yandırılır. **30** nəfər azərbaycanlı qətlə yetirilir, **2** nəfər evində yanıb kül olur, **7** nəfər girov götürülür, **50** nəfər itkin düşür. Kəndin bütün əmlakı qarət olunur. Azərbaycan Respublikasının Kəlbəcər rayonunun ***Ağdaban*** kəndi erməni terror birləşmələri tərəfindən tamamilə yandırılır. Kəndin **80-100** yaşlı **8** ağsaqqalı, eləcə də **2** azyaşlı uşaq, **7** qadın diri-diri yandırılaraq öldürülür, **12** nəfər ağır yaralanır. Kolxozun **1.000** baş mal-qarası, **4.000** baş qoyunu; camaatın minlərlə baş mal-qarası və davarı sürülüb aparılır...

**8 aprel 1992-ci il** - Erməni yaraqlıları ilə Ağdərə rayonunun ***Çardaqlı*** və ***Maqavuz*** kəndləri uğrunda gedən döyüşlərdə igid tərtərlilər - **Həbib Hüseyn oğlu Cəfərov, Mübariz Böyükkişi oğlu Süleymanov, Namiq Məzahir oğlu Əsədov** həlak olurlar...

**8 aprel 1994-cü il** - Qarabağ uğrunda gedə qanlı döyüşlərdə ucarlı igidlər - **Mübariz Arif oğlu Səmədov, Fəqan Qənbər oğlu Həsənov** şəhid olurlar...

**9 aprel 1920-ci il** - Qazax rayonu ərazisində azərbaycanlı kəndlilərin barışıq haqqında imzalanmış müqaviləyə əməl edərək ağ bayraqlar qaldırmasına baxmayaraq, qaniçən daşnaq Dronun erməni quldur birləşmələri ***Əskipara, Yuxarı Əskipara, Aşağı Fərəhli, Ayrım, Quşçu Ayrım, Xeyrimli, Bənası, Salahlı*** kəndlərinə basqın edir və onları tamamilə yandırırlar. Dinc əhali arasında çoxsaylı tələfat olur. Özünün qəddarlığı ilə ad çıxaran erməni faşist ***Dro*** *(sonralar o, Hitlerin silahdaşı olub)* bir sıra qətllərə şəxsən başçılıq edir. Bu **qətllər** zamanı qadınlar və qocalar təsviredilməz işgəncələrə məruz qalırlar...

**9 aprel 1935-ci il** - Orta Xəzərdə *(Skif-Turan platformasında)* **6** bal gücündə **zəlzələ** baş verir...

**9 aprel 1991-ci il** - Cəbrayıl rayonunun ***Sirik, Qışlaq, Süleymanlı*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**9 aprel 1994-cü il** - Füzuli və Ağdam cəbhələrində gedən qanlı döyüşlərdə bir neçə Azərbaycan əsgəri həlak olur...

**10 aprel 1840-cı il** - Çar hökuməti Cənubi Qafqazda inzibati-hərbi islahat keçirir. *"Cənubi Qafqaz diyarının idarəsi üçün təsisatlar"* haqqında qanun qəbul edilir. Bu islahata görə Qarabağ əyaləti Şuşa qəzasına çevrilir və Kaspi vilayətinə tabe edilir. Bununla da ***Qarabağ*** anlayışı öz siyasi mənasını itirmiş olur və yalnız coğrafi anlayış kimi qalır...

**10 aprel 1990-cı il** - Erməni terrorçusu tərəfindən Laçın rayonunun ***Sadınlar*** kənd sakini **Cavanşir Sarı oğlu İbrahimov** *Meşə başı* adlanan sahədə təsərrüfat işi gördüyü yerdə qətlə yetirilir...

**10 aprel 1990-cı il** - Erməni millətçiləri səhər saat ***8.30*** - da Martuni *(Xocavənd)* rayonunun ***Qaradağlı*** kənd sakini ***İlqar Əliyevi*** odlu silahla ağır yaralayırlar. Çoxlu qan itirdiyindən halı pisləşən İlqar güclə özünü evinə yetirib həyat yoldaşını və **5** körpəsini azğınlaşmış ermənilərdən xilas etmək məqsədi ilə qapısını bağlayır. Kənd camaatı ermənilərə tərəf atəş açır. İlqar yollarda güllə yağışı altında, çətinliklə xəstəxanaya çatdırılır...

**10 aprel 1991-ci il** - Cəbrayıl rayonunun ***Yuxarı Məzrə*** kəndindəki milis postu ermənilər tərəfindən atəşə tutulur...

**10 aprel 1992-ci il** - Ağdamın ***Şelli, Gülablı, Abdal, Əliağalı, Qalayçılar, Papravənd*** və ***Şotlanlı*** kəndləri ermənilər tərəfindən atəşə və basqına məruz qalır...

**10 aprel 1992-ci il** - Goranboy rayonunun ***Xanqərvənd, Tapqaraqoyunlu, Şəfəq*** kəndləri atəşə tutulur. ***Şəfəq kəndi*** hücuma məruz qalır...

**10 aprel 1992-ci il** - Erməni hərbi birləşməsi ***Marquşevan*** kəndindən Tərtər istiqamətində hücuma keçir. **İntiqam Həsənov, Nəriman Quliyev** itkin düşür; 10 nəfər döyüşçü yaralanır...

**10 aprel 1992-ci il** - Azərbaycan ordusu Marquşevan kəndi istiqamətində hücuma keçir. Keçmiş Ağdərə rayonunun ***Marquşevan kəndi*** uğrunda döyüşlərdə tərtərli döyüşçülər - **Rasim Aydın oğlu Mürsəlov, Vəli Tapdıq oğlu Abbasov, Rövşən Cümşüd oğlu Kərimov, Vüqar Haqverdi oğlu Məmmədov, Knyaz Cümşüd oğlu Qurbanov, Vüqar Tofiq oğlu Həsənov, Nəriman Allahverdi oğlu Quliyev** həlak olurlar...

**10 aprel 1992-ci il** - İtaliyanın ***Genuya*** şəhərində konfrans öz işinə başlayır...

**10 aprel 1993-cü il** - Zəngilan ərazisində ermənilərlə döyüşdə igid oğullarımız - **Nizami İsrafil oğlu** Sərxanov *(Neftçala r.)*, **Xanlar İsbənd oğlu Qafarov** *(Biləsuvar r., İsmətli k.)*, **Maarif Atakişi oğlu İsmayılov** *(Əlibayramlı (Şirvan)ş.)* həlak olurlar...

**10 aprel 1993-cü il** - Ermənilərlə qanlı müharibədə zəngilanlı döyüşçülər - **Qorxmaz Bahadur oğlu Allahverdiyev** *(Zəngilan ş.)*, **Müşfiq Əjdər oğlu Mehralıyev** *(Nəcəflər k.)*, **Sərvan Qüdrət oğlu Cəfərov** *(Zəngilan ş.)*, **Vüqar Abbasqulu oğlu Abışov** *(Alıbəyli k.)* həlak olurlar...





**10 aprel 1994-cü il** - Düşmən 3 istiqamətdən ***Tərtər*** üzərinə zərbələr endirir. Əsas zərbə istiqamətində Ermənistanın 83-cü motoatıcı briqadası və Stepanakert *(Xankəndi)* yerli alayının qüvvələrindən istifadə olunur. İtkilərimiz olur...

**10 aprel 2003-cü il** - Görkəmli azərbaycanlı islam alimi **Ayətullah Şeyx Məhəmməd Xoylu Seyyid Əbülqasım Musəvi oğlu** İraqın Nəcəf şəhərindəki məsciddə Amerika əsgərlərinin əli ilə öldürülərək şəhid olur...

**11 aprel 1553-cü il** - Dövrünün görkəmli şəxsiyyəti **Əmir Əbdülməkarim Siracəddin Qasım Mövlana Seyid Əhməd oğlu** ölür...

**11 aprel 1635 - ci il** - Şahın hərbi şurası ***İrəvan*** qalasının təcili geri alınması haqqında qərar verir və itkilər hesabına olsa da qala geri alınır...

**11 aprel 1918-ci il** - Naxçıvanın ***Qaraxanbəyli*** kəndi ərazisinə toplaşan daşnaq terrorçuları Naxçıvan şəhərinə və ətraf kəndlərə basqın edirlər. Naxçıvan şəhərində **2** nəfər qətlə yetirilir. Şəhər ətrafında **4** nəfər girov götürülür. Qonşu kəndlərdə isə **150** nəfər azərbaycanlı dinc sakin qətlə yetirilir...

**11 aprel 1988-ci il** - DQMV PK vilayətdə gedən proseslər haqqında respublika və ittifaq miqyaslı təşkilatlara çoxsaylı məktublar göndərməyə başlayır. Məktublarda Azərbaycanın və azərbaycanlıların ünvanına yalan və təhqirlərlə dolu *«faktlar»* göstərilir. Ermənilər əsasən SSRİ Ali Sovetinə, SSRİ Prokurorluğuna, Ermənistan SSR-in rəhbərliyinə ünvanlanmış bu məktublarda hüquqlarının pozulması barədə yazıb vilayətdə baş alıb gedən mitinqləri əsaslandırmağa çalışırlar. Qəribə burası idi ki, ***M.S.Qorbaçov*** cinayətkarlar barəsində ölçü götürməyə icazə vermir...

**11 aprel 1991-ci il** - Qarabağda Xocalı rayonunun ***Meşəli*** kəndi ermənilər tərəfindən güclü raket atəşinə tutulur...

**11 aprel 1992-ci il** - Milli Qəhrəman **Pəhlivan Əhliman oğlu Fərzəliyev** Füzuli rayonunun ***Qacar*** kəndi istiqamətində erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**11 aprel 1992-ci il** - Milli Qəhrəman **Fəxrəddin Musa oğlu Musayev** döyüş əməliyyatı zamanı faciəli surətdə həlak olur...

**11 aprel 1992-ci il** - Erməni hərbi birləşmələri **250** nəfərlik silahlı dəstə ilə Füzuli rayonunun **Qacar** kəndi istiqamətində güclü hücuma keçirlər. Kəndin özünümüdafiə qüvvələrinin birləşmiş dəstələri düşmənlə ölüm-dirim mübarizəsinə qalxırlar. **Cəmilli kəndi** işğal olunur. Cəmillidə 2 nəfər, Qacarda **4** nəfər - **Qacar** kənd sakini, kəndin ilk şəhidi, 1967-ci il təvəllüdlü topçu **Miralim Həşim oğlu Əliyev** və daha **3** nəfər kənd müdafiəçisi həlak olur...

**11 aprel 1992-ci il** - Füzuli rayonunun **Qacar** kəndinin *(Füzuli rayonu)* sə-

masında ermənilər tərəfindən vertolyot vurulur. Bütün ekipaj üzvləri (3 *nəfər*) həlak olur...

**11 fevral 1993 -cü il** - Ermənilərlə qanlı döyüşlərdə zəngilanlı döyüşçülər - **Elşən Zülfüqar oğlu Orucov** *(Aladin kəndi)*, **Nadir Bahadur oğlu Feyziyev** *(Mincivan qəsəbəsi)*, **Məhərrəm Həsən oğlu Süleymanov** *(Mincivan qəsəbəsi)* həlak olurlar...

**11 aprel 1994-cü il** - Milli Qəhrəman **Yelmar Şahmar oğlu Edilov** Ağdam bölgəsinin ***Suma-Güllücə*** kəndi ərazisində baş verən şiddətli döyüşdə həlak olur...

**11 aprel 1994-cü il** - Qarabağ döyüşlərində ucarlı igidlər - **Eldəniz Fəzan oğlu Əhmədov, Pünhan Cəmil oğlu Mehdiyev, Qabil Müslət oğlu Rzayev, Cavad Cəlil oğlu Səlimov, Mahmud Rubil oğlu Talıbov, Əlizamin Məhəmməd oğlu Xəlilov, Dilşad Ağamalı oğlu Hüseynov** həlak olurlar...

**12 aprel 1803-cü il** - Tiflisdə Car-Balakənin Rusiya tərkibinə qatılması şərtləri ilə *"Andlı öhdəlik haqqında"* saziş imzalanır. Sazişə görə Car-Balakən Camaatı Rusiyaya ipəklə xərac ödəməli, öz ərazisində rus qoşunlarını yerləşdirməli idi...

**12 aprel 1919-cu il** - Erməni silahlı birləşmələri **60** evdən ibarət azərbaycanlılar yaşayan ***Mucu*** kəndinə hücum edir; **35** ev yandırılır, **150** kişi , **55** qadın və **25** uşaq qətlə yetirilir. Uşaqların gözləri çıxarılır, sonra onlar tonqala atılır...

**12 aprel 1939-cu il** - Xəzərin Bakıda və Abşeron rayonunun digər yaşayış məntəqələri sahillərində sunami dalğaları müşahidə edilir...

**12 aprel 1991-ci il** - Milli Qəhrəman **Aytəkin İsrail oğlu Məmmədov** Xanlar rayonunun ***Quşçu*** kəndi ərazisində erməni quldurları ilə döyüşdə həlak olur...

**12 aprel 1992-ci il** - Keçmiş Ağdərə rayonunun ***Marquşevan*** və ***Marağa*** kəndləri uğrunda gedən döyüşlərdə tərtərlilər - **Arif Məmmədbağır oğlu Həsənov, Nəsir Yaqub oğlu Hacıyev, Intiqam Qulu oğlu Həsənov, Mayıl Idris oğlu Allahverdiyev** həlak olurlar...

**12 aprel 1992-ci il** - Ermənilər bəşəriyyət əleyhinə cinayət hesab edilən bir vəhşiliyə əl ataraq Şuşanın müdafiəçilərinə qarşı kimyəvi silahdan istifadə edirlər. Şəhərə ***120*** mm-lik toplardan sianid maddəsi hopdurulan iynəvari qəlpələr doldurulmuş mərmilər atılır...

**12 aprel 1992-ci il** - Erməni hərbi birləşmələri Tərtəri atəşə tutaraq onun ərazisində zirehli transpartyorların müşayiəti ilə bir neçə saat manevr edirlər...

**12 aprel 1992-ci il** - *Ağdam şəhəri* və Ağdam rayonunun ***Papravənd*** və ***Boyəhmədli*** kəndləri şiddətli atəşə tutulur. Ağdam şəhərində **2** ev, Boyəhmədlidə





3 ev, Papravənddə **8** ev dağıdılır. Papravəndə basqın edən düşmən geri oturdulur...

**12 aprel 1992-ci il** - Ağdam rayonunun ***Şelli, Abdal və Gülablı*** kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur...

**13 aprel 1827-ci il** - Rus qoşunları ***Üçkilsəni*** *(Eçmiadzini)* zəbt edir...

**13 aprel 1894-cü il** - Erməni qiyamçıları Türkiyə ərazisində *«İnqilabi erməni federasiyası»*nı yaradırlar. Federasiya Türkiyə vilayətlərində yaşayan bütün erməniləri öz ətrafında birləşməyə çağırır...

**13 aprel 1903-cü il** - Bakıda, *Volçi-Vorot* yaxınlığında şəhərin bütün rayonlarından gələn fəhlələrin iştirakı ilə böyük mitinq keçirilir...

**13 aprel 1918-ci il** - Bu gündən etibarən Ararat orduları Göyçə mahalının və Yeni Bayazit qəzasının dinc müsəlman əhalisinə basqın edir, onları müsəlmansızlaşdırırlar. **22** müsəlman kəndi yandırılaraq məhv edilir...

**13 aprel 1918-ci il** - Erməni terrorçuları ***Xoy*** şəhərinə daxil olub, qırğınlar törədir, şəhəri qarət edirlər...

**13 aprel 1918-ci il** - S.Şaumyan Moskvaya göndərdiyi növbəti məktubunda azərbaycanlılara qarşı daşnaqların apardığı müharibənin milli qırğın xarakteri daşımasını etiraf edir. Aydın olur ki, bütün bunlar bilərəkdən törədilmişdir...

**13 aprel 1919-cu il** - 5-ci sahənin Dağlıq zolağının müvəkkili İsmayıl Sultanovun qəza rəisinin adma ***21.04.1919-cu il*** tarixli raportundan: «...Ararat Respublikası qoşunlarının Yeni Bayazid qəzasının Göyçə rayonunun dinc kəndlərinə basqını başlamışdır. Bundan məqsəd ərazini Göyçə gölünün şərq və şimal həndəvərində məskunlaşmış müsəlmanlardan təmizləməkdi. Bir həftədə **60.000** əhalisi olan **22** kənd darmadağın edilmişdir. Bədbəxt müsəlmanlar Göyçə müsəlmanlarını qırıb-çatmaq məqsədi güdən erməni birləşmələrinin top-tüfəng atəşləri altında tələf olurdular. Ermənilərin və Ermənistan hökumətinin öz keçmiş qonşularına bu cür insanlıqdan kənar münasibətlərini görəndə adamı dəhşət bürüyür. Erməni qoşunlarının əlinə keçən müsəlmanlara onlar tarixdə görünməmiş və eşidilməmiş əziyyətlərlə işgəncələr verirlər, çox az sayda gənc qadın və yeniyetmə qızlar istisna olmaqla qalan bütün qadınları, uşaqları, kişiləri, qocaları öldürürlər. Erməni quldurların təqib etdikləri azərbaycanlı və kürd qaçqınları sığınacaq tapmaq ümidilə üz tutduqları Gəncə mahalının 5-ci sahəsi ilə həmsərhəd qarlı dağ aşırımlarında həlak olmuşlar»...

**13 aprel 1919 -cu il** - Erməni silahlı dəstələri **70** evdən ibarət azərbaycanlılar yaşayan Haşman kəndinə hücum edir. **120** nəfər azəri türkü - **60** kişi, **40** qadın, **20** uşaq qətlə yetirilir. Onların cəsədləri eybəcər hala salınır...

**13 aprel 1919-cu il** - Daşnaq terrorçular Tayqulaq Andranikin başçılığı ilə Göyçə mahalının **22** məntəqəsinə - ***İnəkdağ*** və ətraf kəndlərə basqın edurlər. Əhali öldürülür və didərgin salınır. ***Söyüdlü*** aşırımından Kəlbəcər üzə aşmağa can atan zavallı **400** ailə qara, çovğuna düşərək ***Sümüktökülən*** dərədə kütləvi şəkildə donvurmadan məhv olur...

**13 aprel 1991-ci il** - Qarabağ hadisələri başlayandan *200-cü* azərbaycanlı qətlə yetirilir...

**13 aprel 1992-ci il** - Ağdamın ***Güllücə, Boyəhmədli, Şotlanlı, Əhmədavar*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**13 aprel 1992-ci il** - Milli Qəhrəman **Firudin İsa oğlu Şamıyev** erməni quldurları ilə ***Məzəm*** kəndinin uğrunda gedən döyüşlərdə həlak olur. ***Quşçu Ayrım*** və ***Aşağı Əskipara*** kəndləri ərazisində gedən döyüşlərdə **1** nəfər ölür, **9** nəfər yaralanır...

**13 aprel 1994-cü il** - Dağıstan Respublikasının ***"Dağıstan alovları"*** stansiyası yaxınlığında *"Moskva-Bakı"* sərnişin qatarı erməni terrorçuları tərəfindən partladılır. **6** nəfər həlak olur, **3** nəfər yaralanır...

**13 aprel 1994-cü il** - *"Karatyan"* adlı **4** nəfərlik iqtisadçılar qrupu torpaqlar haqqında fikirlər hazırlamaq, ərazinin strateji nöqtələrini araşdırmaq məqsədilə Zəngilana gəlir...

**14 aprel 1909-cu il** - Marağa şəhərinin qubernatoru olmuş Səməd xanın qoşunları Təbrizə hücum edir...

**14 aprel 1918-ci il** - Polkovnik Avetisovun başçılıq etdiyi daşnaq terrorçuları Lənkəran qəzasında **4.000** əhalini qətlə yetirirlər. ***Sütəmurtov, Musakücə, Türkoba, Aşağı Nüvədi*** və digər kəndlərdə *(ümumilikdə* **40** *yaşayış məntəqəsində)* erməni daşnaqları xüsusilə ağır cinayətlər törədirlər...

**14 aprel 1919-cu il** - Erməni daşnaqları **30** evdən ibarət azərbaycanlılar yaşayan ***Zeyvə*** kəndinə hücum edirlər. **30** kişi, **20** qadın, **32** uşaq məhv edilərək diri-diri tonqalda yandırılır...

**14 aprel 1919-cu il** - Yaraqlı erməni quldurları azərbaycanlıların yaşadıqları ***Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Aşağı Şorca, Soğanquluağalı, Ağkilsə, Zod, Quluağalı*** kəndlərinə hücum edib onları talan edirlər. Silahsız əhali qaçmaq məcburiyyətində qalır. Azərbaycanlıların bütün əmlakları ermənilər tərəfindən qarət olunur. Onlarla ölənlər və yaralananlar olur...

**14 aprel 1944-cü il** - SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Cənubi Qafqaz Müsəlmanlarının Ruhani İdarəsi yaradılır. Onun ilk sədri ***Şeyxulislam Ağa Əlizadə*** seçilir...





**14 aprel 1948-ci il** - Azərbaycan SSR Nazirlər Soveti Ermənistandan azərbaycanlıların köçürülməsini *«siyasi və xalq təsərrüfatı üçün əhəmiyyətli»* hesab edərək bütün nazirlərdən, əlaqədar təşkilatlardan tələb edir ki, qeyd olunan tələblər təcili həyata keçirilsin...

**14 aprel 1991-ci il** - Laçın rayonunun ***Zabux*** kəndi ermənilər tərəfdən avtomat və pulemyotlardan atəşə tutulur...

**14 aprel 1992-ci il** - Ermənilərin ***Ağdam*** şəhərinə atdıqları mərmi nəticəsində **2** nəfər həlak olur, **2** nəfər isə yaralanır. Erməni yaraqlıları rayonun ***Papravənd, Şelli, Qalayçılar*** kəndlərinə hücum edir. **2** nəfər həlak olur...

**14 aprel 1992-ci il** - Şuşa şəhərinin ermənilər tərəfindən mərmi atəşinə tutulması nəticəsində **1** nəfər həlak olur, **7** nəfər yaralanır...

**14 aprel - 1993-cü il** - Xocavənd rayonu istiqamətindən ***Ağdam*** rayonu ərazisinə ermənilər tərəfindən güclü hücum olunur. Düşmənin bu hücumu müvəqqəti dayandırılırsa da, Azərbaycan tərəfindən **4** nəfər həlak olur, **7** nəfər yaralanır...

**14 aprel - 1993-cü il** - Goranboy rayonunun ***Gülüstan kəndi*** uğrunda şiddətli döyüşlər gedir...

**15 aprel 1395-ci il** - Terek çayı sahilində Əmir Teymurun ordusu ilə Qızıl Orda xanı Toxtamışın qoşunu arasında ***döyüş*** baş verir. Əmir Teymur qalib gəlir. Bu döyüşdə azərbaycanlılar - Şirvanşah I İbrahimin və Şəki hakimi Seyid Əlinin komandanlığı ilə dəstələr vassalları olduğu Teymurun tərəfində vuruşurlar...

**15 aprel 1917-ci il** - Bakıda **5** gün davam edən Qafqaz müsəlmanlarının qalmaqallı qurultayı keçirilir...

**15 aprel 1919-cu il** - Erməni yaraqlıları ***Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Zərzibil, Çayəhmədli, İnəkdağ, Qara İman, Kəsəmən, Baş Kənd, Kiçik Mərzə, Şişqaya, Baş Hacı, Qərib Qaya*** kəndlərinə hücum edib əhalini qırır, maldövlətlərini ələ keçirirlər. Bütün bu kəndlərin sağ qalmış əhalisi silahlanmış erməni quldurların basqınından canlarını götürüb müxtəlif istiqamətlərə qaçırlar...

**15 aprel 1918-ci il** - Ərəş qəzasının ***Çomaqlı*** stansiyası yaxınlığında erməni silahlıları azərbaycanlıların araba karvanına basqın edərək **21** arabaçını qətlə yetirir, onların cəsədlərinin gözlərini süngü ilə oyurlar...

**15 aprel 1920-ci il** - Fətəli xan Xoyski Dərbənd rayonuna rus qoşunlarının toplanması səbəbləri barədə məlumat vermək üçün Çiçerinin adına növbəti nota göndərir...

**15 aprel 1994-cü il** - Ermənilər Ağdam rayonunun ***Suma, Güllücə, İlxıçılar, Tağıbəyli*** kəndləri istiqamətlərində güclü hücuma keçir. Azərbaycan tərəfi çoxlu sayda itkilər verir...

**15 aprel 1994-cü il** -ATƏM-in Minsk qrupu Praqada keçirilən görüşündə *"Etimadı möhkəmləndirmək tədbirləri"* adlı plan işləyib hazırlayır və *"doqquzlar"ın* bəyanatı qəbul olunur...

**16 aprel 1945-ci il** - **2** həftədən çox davam edən və yüzlərlə azərbaycanlının da ölümünə səbəb olan ***Berlin əməliyyatı*** başlayır...

**16 aprel 1945-ci il** - Sovet İttifaqı Qəhrəmanı, 67-ci zenit-artilleriya diviziyasının komandiri, qvardiya polkovniki **Həbibulla Hüseynov** həlak olur...

**16 aprel 1945-ci il** - Azərbaycanın igid oğlu, Sovet İttifaqı Qəhrəmanı *(ölümündən sonra-31.05.1945)*, starşina **Məstan Aslan oğlu Əliyev** döyüş zamanı həlak olur...

**16 aprel 1991-ci il** - *Ağdam-Füzuli* avtomobil yolunda *"Moskviç"* markalı **93-69 AQV** taksi maşını erməni yaraqlıları tərəfindən güllləbaran edilir. Sürücü **Adil İntiqam oğlu İbrahimov** və sərnişin **Mübariz İnqilab oğlu İsmayılov** həlak olurlar; digər sərnişinlər - ***Çingiz Axundov*** və ***Nazim*** adlı bir nəfər yaralanırlar...

**16 aprel 1991-ci il** - Goranboy rayonunun ***Zeyvə*** və ***Tapqaraqoyunlu*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Erməni yaraqlıları Zeyvə kəndinə basqın edirlər. *"Əzizbəyov"* kolxozunun **3** nəfər işçisi vəhşicəsinə qətlə yetirilir...

**16 aprel 1991-ci il** - Erməni yaraqlıları Xocavənd rayonunun ***Qarakənd*** kəndi yaxınlığında bir nəfər azərbaycanlını qətlə yetirirlər...

**16 aprel 1992-ci il** - Ağdam rayonunun ***Abdal, Şelli*** kəndləri atəşə tutulur...

**16 aprel 1993-ci il** - Erməni silahlıları Ağdamın ***Əliağalı*** kəndinə hücum edir. **2** nəfər həlak olur, **7** nəfər yaralanır...

**16 aprel 1993-cü il** - Avropa Şurası Nazirlər Komitəsi Dağlıq Qarabağ münaqişəsinin genişlənməsi ilə əlaqədar bəyanatla çıxış edir. Bəyanatda Kəlbəcər rayonunun ermənilər tərəfindən işğalı haqqında heç bir söz deyilmir. Ümumiyyətlə, təcavüzkarın kim olması məsələsinin üstündən *(Ermənistanın adı ümumiyyətlə çəkilmir)* büsbütün yan keçilir...

**16 aprel 1994-cü il** - Erməni yaraqlıları ***Tərtər cəbhəsi*** xəttini yarmaq üçün davamlı cəhd edir. İtkilərimiz olur...

**16 aprel 2002-ci il** - Beynəlxalq axtarışda olan **53** yaşlı tanınmış erməni terrorçu-cinayətkarı ***Qriqori Əsriyan*** Rusiya DİN əməkdaşları tərəfindən saxlanılır





*(Qarabağda, Azərbaycanın digər bölgələrində, eləcə də müxtəlif ölkə ərazilərində onlarla qanunsuz terror əməliyyatları həyata keçirmiş bu qatı cinayətkar təəssüf ki, hələ də öz layiqli cəzasını almayıbdır)...*

**17 aprel 1930-cu il** - Bakıdan gələn ordu hissələri Nuxada üsyanı amansızlıqla yatırırlar. Üsyanın yatırılmasında 64-cü Qafqaz polku, 66-cı Qafqaz eskadronunun 9-cu polkunun 1 rotası və 4-cü polkun rotası iştirak edir. Dinc əhaliyə divan tutulur. 100-dən çox adam öldürülür, **150** nəfər yaralanır, **865** nəfər həbs olunur. Üsyançıların bir hissəsi müqavimət göstərə bilmədikləri üçün dağlara çəkilib qaçaqçılıqla məşğul olur...

**17 aprel 1930-cu il** - Sovet silahlı dəstələri tərəfindən ***Dəhnə*** *(Şəki)* kəndinə hücum edilir. **Molla Sübhan Yusif oğlu, Hacı Məhəmməd Sadiq oğlu, Həbillah Mustafa oğlu, Hacı Hümmət Qasım oğlu, Məmmədhəsən Cəlil oğlu, Hacı İbrahim Mustafa Salman oğlu** kənddə güllələnirlər. **23** nəfər kənd sakini - **Məhəmməd Mikayıl oğlu, Zülqədər Musa oğlu, Hüseyn Süleyman oğlu, Əli Hacı Qasım oğlu, Zəkəriyyə Kazım oğlu, İsgəndər Kazım oğlu, Hacı Quzu Sadiq oğlu, Mahmud Hacı Quzu oğlu, Məhəmməd Musa oğlu, Abdurahman Abdulla oğlu, Qafar Süleyman oğlu, İsaq Löyman oğlu, Muxtar Məhəmməd oğlu, Yusif Məmməd oğlu, Əliəşrəf İbadulla oğlu, Camal İbadulla oğlu, Əyri İbadulla oğlu, Ziyad Cəlal oğlu, Hacı Yusif Kümçüzadə, Hamil Cəmaləddin oğlu, Nəsrullah Məmməd oğlu, Maqsud Qədir oğlu, Əziz Cəmil oğlu** sürgün olunurlar...

**17 aprel 1980-ci il** - Türkiyənin Vatikandakı səfiri ***Vecdi*** Turelə qarşı erməni yaraqlıları silah işlədirlər. Səfir, onun mühafizəçisi və sürücüsü yaralanır...

**17 aprel 1991-ci il** - Cəbrayıl rayonunun ***Doşulu*** kəndi erməni yaraqlıları tərəfindən atəşə tutulur...

**17 aprel 1994-cü il** - Goranboy rayonunun ***Tapqaraqoyunlu*** kəndi istiqamətində ermənilər güclü hücuma keçir...

**17 aprel 2000-ci il** - *"Dağlıq Qarabağ Respublikası Konstitusiyası"*nın rus variantını Moskvaya gətirən və onun Rusiya Ədliyyə Nazirliyində kiçik müzakirəsini təşkil edən doktor ***Vladimir Nazaryan*** bu qurumun erməni üzvləri ilə görüşür...

**18 aprel 1796-cı il** - *"Qızılayaq"* general ***Valerian Zubov*** Azərbaycana hərbi yürüşə başlayır...

**18 aprel 1920-ci il** - Qafqaz Cəbhəsi qərargahı Moskvaya məruzə edir ki, hücuma hazırdır...

**18 aprel 1991-ci il** - Füzuli rayonunun Divanalılar kəndi yaxınlığında yerli milis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularını aparan *"Təcili yardım"* maşını atəşə tutulur. Sürücü **Əlvan Ərşad oğlu Ağayev,** milis zabiti **Namiq Həsən oğlu Hümbətov,** hərbi qulluqçu **Ainur Raşitoviç Inayev** həlak olurlar, **2** nəfər - milis serjantı ***Çingiz Ərşad oğlu İsmayılov,*** hərbi qulluqçu ***İqor Vladimiroviç Şelmenkov*** ağır yaralanırlar...

**18 aprel 1991-ci il** - Q.Sarkisyanın başçılıq etdiyi erməni terrorçuları Azərbaycan Respublikasının Dağlıq Qarabağ Vilayətinin Xocavənd rayonundakı ***Ağoğlan türbəsi*** yanında dayanmış avtomobili atəşə tutur. **3** azərbaycanlı milis əməkdaşı həlak olur...

**18 aprel 1992-ci il** - *Qazax-Cəfərli* avtomobil yolunun 10-cu kilometrliyində *"VAZ"* markalı maşın ermənilərin silahlı basqınına məruz qalır, nəticədə **2** nəfər azərbaycanlı ağır yaralanır...

**18 aprel 1993-cü il** - Ermənilər Kəlbəcərdən girov götürdükləri **30** nəfərdən 19-nu Əmirəliyeva Arzu Binnət qızının gözləri qarşısında güllələyirlər. Güllələnənlər arasında onun həyat yoldaşı, anası, bacısı, qayınatası, qaynı, baldızı və əmisi arvadı da olur...

**18 aprel 1994 - cü il** - Ağdam rayonunun ***Güllücə, Suma, İlxıçılar, Tağıbəyli*** kəndləri ərazisində şiddətli döyüşlər gedir. İtkilər olur...

**18 aprel 1994-cü il** - Ağdam rayonunun ***Cəvahirli kəndi*** istiqamətində erməni yaraqlıları ilə gedən qanlı döyüşlərdə **Nazim İbrahim oğlu Cəbrayılov** həlak olur...

**19 aprel 1919-cu il** - Yaraqlı erməni quldurları azərbaycanlıların yaşadıqları ***Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Zərzibil, Çayəhmədli, İnəkdağ, Qara İman, Kəsəmən, Baş Kənd, Kiçik Məzrə, Şişqaya, Baş Hacı, Qərib Qaya*** kəndlərinə yenidən basqın edirlər. Silahsız azərbaycanlılar kəndi yenidən tərk etməyə məcbur olurlar. Ölən və yaralananlar olur. Azərbaycanlıların bütün əmlak və mal-qaraları qarət olunur...

**19 aprel 1920-ci il** - Erməni quldur birləşmələri *«Daşnaksütyun»* terror təşkilatının göstərişini yerinə yetirərək, indiki Ağdam rayonunun *Gülablı* kəndinin ətraf məhəllələrini yandırır. Sakinlər arasında çaxnaşma salınır. Bir neçə kəndli əsir götürülür...

**19 aprel 1921-ci il** - RSFSR Xalq Komissarları Soveti *"Neft sənayesi və onu yeni iqtisadi siyasət yoluna salmaq məsələsi"*ni müzakirə edir və *"lazımi tədbirlər"* görür...

**19 aprel 1939-cu il** - Görkəmli Azərbaycan ziyalısı **Əsəd Nəsir oğlu Axundov**





güllələnir...

**19 aprel 1991-ci il** - Azərbaycanın **2** nəfər işıqlı ziyalısı - Azərbaycan Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri, Azərbaycan Ali Sovetinin deputatı (1990), parlamentin millətlərarası münasibətlər üzrə daimi komissiyasının sədri, xalq hərəkatının liderlərindən biri, Qarabağa Xalq Yardımı Komitəsinin sədr müavini, Azərbaycan Yazıçılar İttifaqı katibliyinin heyət üzvü, tanınmış türkoloq-alim **Aydın Məmmədov** *(1944-cü il təvəllüdlü)* və Azərbaycan xalq hərəkatının digər vətənpərvər öncüllərindən biri, Azərbaycan SSR Ali Sovetinin deputatı (1990), AMEA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun bölmə müdiri və elmi işçisi, filologiya elmləri doktoru **Dilarə Əliyeva** *(1929-cu il təvəllüdlü)* müəmmalı avtomobil qəzasında həlak olurlar...

**19 aprel 1991-ci il** - *Şuşa-Ağdam* avtomobil yolunda maşın karvanı - sürücü Mirzəyevin idarə etdiyi ***99-67 AQD,*** Qədir Əmirovun idarə etdiyi ***96-20 AQYA*** nömrəli avtobuslar, Həsən Quliyevin idarə etdiyi ***96-79 AQV*** nömrəli *"UAZ"* markalı maşını *Ağa körpüsü* yaxınlığında ermənilər tərəfindən partlayışa məruz qalır; Allahverdi Cümşüdovun şəxsi maşını tam yararsız hala düşür. Bu hadisə nəticəsində ağır yaralananlar da olur...

**19 aprel 1992-ci il** - Ermənilər Xocavənd rayonunun Əmirallar kəndini zirehli maşınlardan və iriçaplı pulemyotlardan atəşə tuturlar. Kəndin müdafiəçilərindən **Xanoğlan Həsənov** və **Xanoğlan Salahov** həlak olurlar...

**19 aprel 1992-ci il** - ***"Müqəddəs Erməni Vətən birliyi"*** təşkilatı *(təşkilat 3 dekabr 1989-cu ildə Xartumda erməni mühaciri Emin Aydınyanın təşəbbüsü ilə yaradılıb)* Laçın rayonunun ***Hacılar*** kəndində müstəqil silahlı dəstə kimi fəaliyyətə başlayır...

**20 aprel 1827-ci il** - Rusiya-İran müharibəsi zamanı ruslar ***Xudafərin*** körpülərini tuturlar. Döyüşlər zamanı çoxlu sayda azərbaycanlı dinc sakinlər həlak olurlar...

**20 aprel 1847-ci il** - *"Kəndli əsasnamələri"* adlı sənədlər nəşr olunur...

**20 aprel 1915-ci il** - Ruslar cəbhə xəttində insanlığa sığmayan üsulla müsəlmanlara qarşı birinci deportasiyalarını yekunlaşdırırlar. Bu aksiya nəticəsində Türkiyənin təxminən **400 000** nəfər müsəlman əhalisi qətlə yetirilir və itkin düşür...

**20 aprel 1918-ci il** - Ərəş qəzasının *Ərəbki* kəndinə basqın edən erməni silahlı quldurları **8** dinc azərbaycanlı sakinini qətlə yetirirlər; bu cəsədlərin gözləri süngü ilə oyulur...

**20 aprel 1920-ci il** - San-Remo konfransında «erməni məsələsi» müzakirə

edilir. Bu, onların öz qonşularına qarşı olan təkəbbürlü münasibəti daha da artırır...

**20 aprel 1921-ci il** - Azərbaycan əyalətinə vali göndərilən Eynüddövlə zahirən bütün şərt və təəhhüdləri qəbul edərək Təbrizə daxil olur...

**20 aprel 1990-cı il** - Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin keçirdiyi iclasda fövqəladə vəziyyət rejimində seçkilərə hazırlıq və onun keçirilməsinin qeyri-qanuniliyi müzakirə olunur...

**20 aprel 1991-ci il** - Cəbrayıl rayonunun ***Qışlaq, Doşulu, Daşbaşı*** kəndləri ermənilər tərəfdən atəşə tutulur...

**20 aprel 1991-ci il** - Xocalı aeroportunda ***Xankəndi*** şəhər sakini ***M.Mirzəbekyan*** saxlanılır. Ondan **10 000** manat pul, **40** şüşə konyak, **100** kq ət və narkotik maddə müsadirə olunur...

**20 aprel 1991-ci il** - SSRİ DİN DQ komandam, general-polkovnik Y.Şatalin Ermənistan SSR Ali Sovetinin sədri L.Ter-Petrosyana məktub göndərərək bildirir ki, erməni yaraqlılarının əli ilə milli münaqişə zamanı DQ-ın **19** hərbi qulluqçusu öldürülmüşdür...

**20 aprel 1991-cü il** - **İlham Baxşeyiş oğlu Allahverdiyev** Xankəndi yaxınlığında ermənilərin gizli şəkildə maşına qoyduqları partlayıcı qurğunun işə düşməsi nəticəsində faciəli sürətdə həlak olur...

**21 aprel 1408-cü il** - Qara Yusif Təbrizin cənubunda ***Sərdrud*** döyüşündə Miranşaha qalib gələrək onu öldürür. Əbu Bəkr isə qaçır. Azərbaycanda Teymuri ağalığına son qoyulur...

**21 aprel 1549-cu il** - I Şah İsmayılın oğlu **Əlqas Mirzə** atalarının qisasını almaq məqsədilə **3** dustaq tərəfindən ***Əlamut*** qalasındakı hündür həbsxanadan aşağı atılaraq öldürülür...

**21 aprel 1831-ci il** - ***Talış üsyanı*** məğlub olur...

**21 aprel 1902-ci il** - Bakıda birinci açıq siyasi nümayiş baş verir...

**21 aprel 1903-cü il** - "Cənubi Qafqazın beş quberniyasında pay torpaqlarını müəyyənləşdirmək və torpaq quruluşu işini aparmaq qaydası haqqında" **əsasnamə** verilir...

**21 aprel 1916 cı- il** - Urmiyada **100**-dən çox müsəlman cilovların və ermənilərin əli ilə amansızlıqla qətlə yetirilir...

**21 aprel 1918-ci il** - Qızıl Ordu hissələri ilə müsavat qoşunları arasında ***Hacıqabul*** ərazisində qanlı vuruşma olur...

**21 aprel 1918-ci il** - Salyan qəzasının ***Tatarməhlə, Kor-Qarabucaq*** və başqa kəndləri ərazilərində erməni yaraqlıları tərəfindən amansız qətliamlar törədilir.





**1.000** nəfərə yaxın dinc azərbaycanlı öldürülür...

**21 aprel 1918 ci il** - Erməni silahlı quldurları ***Basarkeçər*** bölgəsində azərbaycanlıların yaşadıqları kəndlərdə dinc sakinləri amansızlıqla qətlə yetirirlər...

**21 aprel 1920-ci il** - Qafqaz Cəbhəsi Komandanlığı Tuxaçevski, Orconikidze və Zaxarovun imzası ilə yazdığı direktivdə *27 apreldə* Azərbaycan sərhədini keçəndən sonra nəinki təkcə Bakını, bütün Azərbaycanı tutmağı XI Qızıl Ordu və ***Volqa-Xəzər*** donanmasına tapşırır...

**21 aprel 1938-ci il** - Görkəmli dövlət xadimi, *"Hümmət"* təşkilatının banilərindən biri **Sultanməcid Məcid oğlu Əfəndiyev** *(partiya təxəllüsləri - **Müftizadə, Yoldaş, Sultan**) "dünyasını dəyişir"...*

**21 aprel 1990-cı il** - Rayonların ərazilərində qismən dəyişikliklər edilməsi haqqında ***fərman*** imzalanır...

**21 aprel 1991-ci il** - Cəbrayıl rayonunun ***Süleymanlı, Qışlaq, Nüsus, Daşbaşı, Sirik, Sur*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**21 aprel 1994-cü il** - Tərtərli igidlər - **Qabil Cəlil oğlu Əliyev, Bəxtiyar Abil oğlu Əliyev, Müşfiq Saleh oğlu Hüseynov, Çingiz Bayram oğlu Qasımov, Elman Qənimət oğlu Əliyev, Abil Əsəd oğlu Muradov** ermənilərlə döyüşdə həlak olurlar...

**22 aprel 1831-ci il** - Çar qoşunları Talış üsyançılarının son dayağı olan ***Əmburan*** kəndini ələ keçirir. Mir Həsən xan qaçır. ***Talış üsyanı*** yatırılır...

**22 aprel 1918-ci il** - Cənubi Qafqaz Demokratik Federativ Respublikası yaradılır. Zaqafqaziya Seymi Zaqafqaziyanı ***Müstəqil Federativ Respublika*** elan edir *(26 apreldə Çxengelinin rəhbərliyi altında yeni hökumət təşkil olunur)*...

**22 aprel 1920-ci il** - ***Məmmədhəsən Hacınski*** yeni hökuməti təşkil etməkdən imtina edir...

**22 aprel 1920-ci il** - RK(b)P Qafqaz Ölkə Komitəsi Bakı bürosunun müşavirəsi keçirilir. Müşavirə hakimiyyəti təslim etmək haqqında aprelin *27*-də müsavat hökumətinə ultimatum verilməsini və dərhal silahlı üsyana başlamağı qərara alır...

**22 aprel 1962-ci il** - Görkəmli Azərbaycan ziyalısı, milli-azadlıq hərəkatının təəssübkeşlərindən biri **Ceyhun bəy Əbdülhüseyn oğlu Hacıbəyli** vətəndən çox uzaqlarda, Paris şəhərində ölür...

**22 aprel 1992-ci il** - Zəngilan rayonunun ***Kollu, Günqışlaq, Seyidlər, Pirveyisli, Rəzdərə*** kəndləri ermənilər tərəfindən basqına məruz qalır. Azyaşlı **Sadıq Baloğlan oğlu Süleymanov** qətlə yetirilir...

**22 aprel 1993-cü il** - Ağdam rayonunun qərb tərəfindəki kəndləri ermənilər

tərəfdən atəşə tutulur. İtkilər və dağıntılar olur...

**22 aprel 1993-cü il** - Goranboy rayonunun ***Gülüstan*** yaşayış məntəqəsi ətrafında şiddətli döyüşlər gedir. **4** nəfər ağır yaralanır...

**23 aprel 1827-ci il** - Ruslar İrəvan qalasını mühasirəyə alırlar...

**23 aprel 1868-ci il** - Xəzər dənizinin Bakıya yaxın hissəsində zəlzələ baş verir. Bakıda Xəzər dənizinin səviyyəsinin az vaxt içərisində kəskin surətdə aşağı düşməsi müşahidə olunur...

**23 aprel 1883-cü il** - *"Qafqaz ölkə idarəsinin təsis olunması"* ilə əlaqədar olaraq ***Qafqaz canişinliyi*** ləğv edilir...

**23 aprel 1918-ci il** - Naxçıvan qəzasının ***Qaraxanbəyli*** kəndi yaxınlığında erməni daşnaqları ***terror aktı*** nəticəsində **3** nəfər azərbaycanlını qətlə yetirirlər...

**23 aprel 1918 -ci il**- Səlmasda quduzlaşmış cilov qüvvələri erməni silahlıları ilə birgə dinc müsəlman əhalisinə qarşı qırğın törədirlər. Təkcə Sədaqyan darvazasının yaxınlığında şəhər əhalisindən *100*-ə yaxın qadın öz balasını itirir. Quldurlar *Əhrəncan* darvazasından şəhərə daxil olub evləri yandırırlar, əhalini vəhşicəsinə qırıb-tökürlər. Şəhərin demək olar ki, hər yeri cəsədlərlə dolur. Fəryad səsləri hər tərəfi bürüyür. Cilovlarla ermənilər evlərin bağlı qapılarını sındıraraq onlarla müsəlman ailəsini vəhşicəsinə qətlə yetirirlər...

**23 aprel 1920-ci il** - ABŞ Ermənistanı de-fakto tanıyır...

**23 aprel 1920-ci il** - Erməni quldur birləşmələri *Şişqaya* Azərbaycan kəndinə basqın edir və bütün sakinləri öldürürlər. Qətlə yetirilənlər arasında qocalar və qadınlar da olur. Erməni quldurlar uşaqları diri-diri quyulara atır...

**23 aprel 1923-cü il** - Rusiya K(b)P MK XII qurultayında ***K.Radek*** çıxışında Azərbaycandakı erməni şovinizmindən bəhs edir. ***İ.Stalin*** isə ona qarşı çıxır...

**23 aprel 1943-cü il** - Azərbaycanın igid oğlu, Böyük Vətən müharibəsi qəhrəmanı, partizan hərəkatının iştirakçısı, kapitan **İsmayıl Əlibala oğlu Əliyev** döyüş zamanı həlak olur...

**23 aprel 1991-ci il** - Şuşa şəhəri mərmi atəşinə tutulur. ***Göyhərağa*** məscidinin damı və **22** ev dağıdılır. **4** nəfər dinc sakin ağır yaralanır...

**23 aprel 1991-ci il** - *«Qarabağ»* terror təşkilatının nəzarət etdiyi erməni quldur birləşmələri ***Şuşa*** şəhərini ağır toplardan atəşə tuturlar. Yaşayış binalarına ciddi zərər dəyir. Dinc vətəndaşlar arasında ölənlər və yaralananlar olur...

**23 aprel 1994-cü il** - *"Azərbaycan Bayrağı"* ordenli, tərtərli taqım komandiri **Mehrac Məmməd oğlu Mahmudov** ermənilərlə döyüşdə həlak olur...





**24 aprel 1915-ci il** - Erməni silahlı quldurları ***Van*** yaxınlığında türklər və azərbaycanlılar yaşayan kəndlərə hücum edərək onların əhalisini qırırlar; kəndlər yandırılaraq dağıdılır. Daşnaq ermənilər bu ərazilərdə sayı qeydə alınmayan ***qətliamlar*** törədirlər...

**24 aprel 1877-ci il** - Rusiya Türkiyəyə müharibə elan edir. Bundan sonra artıq Qafqaz da Balkanlar kimi qızğın hərbi əməliyyat meydanına çevrilir...

**24 aprel 1918-ci il** - Daşnaq terrorçuları Naxçıvan qəzasının ***Arıqlı*** kəndinə hücum edərək, **25** dinc sakini amansızlıqla qətlə yetirirlər. ***Xoşlu*** və ***Nehrəm*** kəndlərinə də hücum edən erməni quldurları **2** nəfər dinc sakini öldürür, **1** nəfəri isə girov aparırlar...

**24 aprel 1931-ci il** - Ermənilər igidliyi ilə Qərbi Azərbaycanda ad qazanmış **Qaçaq Bəhramı** öldürüb atın üstünə bağlayırlar, sonra onu tut ağacına sarıyıb donuzlara yedirirlər...

**24 aprel 1983-cü il** - Erməni daşnaqları ***"genosid"*** gününü bəhanə edərək Masis *(Zəngibasar)* rayonu mərkəzində - **Uluxanlıda** və digər ərazilərdə azərbaycanlılar yaşayan kəndlərə basqınlar edir, onlara məxsus olan qəbiristanlıqları dağıdırlar. Əliyalın və müdafiəsiz qalan əhali *Türkiyə-SSRİ* sərhədlərinə sığınmağa məcbur olur...

**24 aprel 1988-ci il** - Xankəndi şəhər İK-nin qərarı ilə ilk dəfə olaraq *«1915-ci il erməni genosidi»*ni anma mərasimi keçirilir. Burada vilayət rəhbərləri və **9** minədək erməni iştirak edir. Bu gün Xankəndindəki erməni abidəsi qarşısında təntənəli surətdə **2** azərbaycanlını qurban kəsmək planlaşdırılır...

**24 aprel 1992-ci il** - Ağdamın ***Şelli, Papravənd, Abdal-Gülablı*** kəndləri erməni hücumuna məruz qalır. **2** nəfər həlak olur, **10** nəfər yaralanır...

**24 aprel 1993-cü il** - Füzuli və Cəbrayıl rayonlarının əraziləri ermənilər tərəfindən müxtəlif silah növlərindən atəşə məruz qalır...

**24 aprel 1994-cü il** - Yerevanda prezident L.Ter-Petrosyanın iştirakı ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında Murad Şahnazaryanın *Zəngilan-Füzuli* sərhəd zolaqları ilə bağlı **"İqtisadi proqram"**ından bəhs edən məktubu müzakirəyə çıxarılır...

**25 aprel 1221-ci il** - Monqollar Azərbaycana, Arrana və Şirvana ikinci dəfə yürüş edirlər. *Beyləqan şəhəri* onlar tərəfindən demək olar ki, tamamilə dağıdılır...

**25 aprel 1841-ci il** - Qazax, Şəmşəddin və Borçalı nahiyələrində yaşayan ağalar torpaq sahibliyindən və həmin torpaqları becərən kəndlilər üzərində

hüquqlardan məhrum edilir...

**25 aprel 1909-cu il** - İngiltərə ilə əlbir olan çarizm guya xarici təbəələri müdafiə etmək bəhanəsi ilə ***Təbriz*** şəhərinə qoşun yeridir. Rus qoşunu mücahidləri tərksilah etməyə başlayır...

**25 aprel 1918-ci il** - Lənkəran vilayət idarəsinə qarşı üsyan başlanır. Partizan dəstələri ağqvardiyaçıların qərargahını, poçtu, radiostansiyanı və başqa mühüm binaları tuturlar...

**25 aprel 1918-ci il** - Bakıda Xalq Komissarları Soveti yaradılır. Bakı XKS-nin sədri daşnaq-bolşevik ***Stepan Şaumyan*** seçilir...

**25 aprel 1918-ci il** - Erməni terrorçuları Zəngəzurun ***Dəstəyurd*** kəndinə basqın edərək orada qətllər törədirlər...

**25 aprel 1918-ci il** - Ərəş qəzasının ***Savalan*** kəndinə hücum edən erməni terrorçuları **7** nəfəri qətlə yetirirlər; sonra ermənilər kənddən qaça bilməyən qadın və uşaqların başlarını kəsərək onları da öldürürlər...

**25 aprel 1918-ci il** - Qars yaxınlığındakı ***Subatan*** kəndində erməni yaraqlıları tərəfindən **750** nəfər türk millətindən olan etniklər vəhşicəsinə qətlə yetirilir, yandırılır, asılır. Öldürülənlərin içərisində **257** nəfər uşaq olur...

**25 aprel 1918-ci il** - Soyqırımın 3-cü bu günündə Səlmasda cilovlarla ermənilər **40 000** müsəlman əsiri bir yerə toplayaraq onları bazardan keçirib ***Həftvan*** və ***Qalasər*** kəndlərinə aparırlar. Əsirlər lüt-üryan bir həftə burada saxlanılır; sonra onlar müxtəlif uzaq bölgələrə yola salınır. Onların yarıdan çoxu yollarda aclıqdan qırılır; ***Xoy*** və ***Güney*** mahallarına çatanların çoxusu isə müxtəlif xəstəliklərdən həlak olurlar...

**25 aprel 1919-cu il** - Bolşevik separatçı qüvvələri Azərbaycan Respublikasının cənubunda ***"Muğan Respublikası"*** və ya ***"Lənkəran Respublikası"*** yaratmağı planlaşdırırlar...

**25 aprel 1922-ci il** - Əslən Qarabağdan olan daşnaq ermənisi ***Zaren Məlik-Şahnazaryan*** Tiflis şəhərində *"Gənc Türklər"*dən olan **Camal paşanı** və onun bir köməkçisini qətlə yetirir...

**25 aprel 1991-ci il** - Erməni quldurları azərbaycanlıların yaşadığı ***Umudlu*** kəndinə saat **16. 00**-da basqın edirlər. Kənd mədəniyyət evinin direktoru, **5** uşaq atası **Məcid Niftalıyev** ağır güllə yarası alır. Ermənilər eləcə də Tərtər rayonunun ***Qapanlı*** və ***Qaradağlı*** kəndlərini atəşə tuturlar. Dinc əhali arasında ölənlər və yaralananlar olur...

**25 aprel 1993-cü il** - Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli, Ağdam rayonlarının əraziləri ermənilər tərəfindən artilleriya atəşinə məruz qalır. Dağıntılar olur...

**25 aprel 1994-cü il** - Ermənilər Ağdam rayonunun ***Qərvənd*** kəndinə güclü





hücum edirlər. İtkilər olur...

**26 aprel 1920-ci il** - Ölkə PK-nın Bakı bürosu ilə AK(b) P MK-nin birlikdə keçirilmiş təcili iclası hakimiyyətin ələ alınması planını müəyyən edir. Üsyana rəhbərlik etmək üçün A.Əlimov, D.Bünyadzadə, M.D.Hüseynov, Ə.H.Qarayev, Q.Musabəyov, N.Nərimanov və H.Sultanovdan ibarət Müvəqqəti Azərbaycan İnqilab Komitəsi təşkil edilir...

**26 aprel 1920-ci il** -Erməni saqallıları indiki Ağdam rayonunun ***Abdal*** və ***Gülablı*** kəndlərini zəbt edirlər. **Gülablı** kəndi yandırılır...

**26 aprel 1920-ci il** - Rus qoşunları Azərbaycanın şimalındadır; bir neçə saat sonra rus əsgərləri şimal sərhədini keçir...

**26 aprel 1946-cı il** - Qərbi Azərbaycanın ***Amasiya*** rayonunda **Cələb** (Radzor), ***İlanlı*** (Çaybasar), ***Qaraməmməd*** (Meğraşot); ***Düzkənd*** (Axuryan) rayonunda ***Molla Musa*** (Voskehask), ***Dirəklər*** (Karnut), ***İlxıyabı*** (Hayqabats), ***Yuxarı Qanlıca*** (Marmaraşen), ***Aşağı Qanlıca*** (Bahramaberd), ***Böyük Kəti*** (Keti), ***Kiçik Kəti*** (Lernatsk), ***Ocaqqulu*** (Arapi), ***Ortakilsə*** (Maisyan); ***Yelenovka*** (Sevan) rayonunda ***Aleksandrovka*** (Çkalovka), ***Ördəkli*** (Lçaşen), ***Çirçir*** (Varser), ***Şəhriz*** (Geğamavan); ***Hamamlı*** (Spitak) rayonunda ***Ağbulaq*** (Luskaxpyur), ***Göy Yoxuş*** (Saralanc), ***Goran*** (Qoqaran), ***Qaltaxçı*** (Artagyuğ), ***Qaraboya*** (Xikoyan), ***Qaral*** (Katnacur), ***Quçağan*** (Lernavan), ***Qızılörən*** (Şenavan), ***Muncuqlu*** (Tsilkar), ***Çotur*** (Sarameç), ***Əfəndi*** (Karadzor) kəndlərinin adları ermənilər tərəfindən dəyişdirilir...

**26 aprel 1988-ci il** - Vilayət XDS İK-nin sessiyası çağırılır. İK-nin sədri V.V.Osipovu vəzifəsindən azad edib, yerinə qatı millətçi, separatçı V.A.Tovmasyanı seçmək planlaşdırılır. Müzakirələr zamanı DQMV-in Azərbaycanın tərkib hissəsindən çıxmasına dair qərarlar, fikirlər səsləndirilir. Qəribə burasıdır ki, Azərbaycan rəhbərliyi separatçı ***V.A.Tovmasyanın*** seçilməsinə öz rəsmi razılığını verir...

**26 aprel 1991-ci il** - Erməni yaraqlıları Goranboy rayonunun ***Gürzalılar*** kəndinə hücum edir. **2** nəfər öldürülür, **1** nəfər yaralanır...

**26 aprel 1991-ci il** - Goranboy rayonu ərazisində polis əməkdaşları - **Azər Xametov** və **Səlimxan Rəhimxanov** erməni terrorçuları tərəfindən qətlə yetirilirlər...

**26 aprel 1992-ci il** - Erməni silahlı quldur dəstələri **20**-dən çox zirehli maşının və **2** tankın köməyi ilə Qafan rayonu tərəfdən Azərbaycan Respublikasının sərhədini keçib, Zəngilan rayonunun ərazisinə soxularaq **Qazançı** və **Dərəli** kəndlərini tutur; ***Seyidlər*** kəndinə girməyə cəhd göstərirlər. Düşmən ***Şayıflı*** kəndi

istiqamətində güclü hücuma keçir. Ölənlər və yaralananlar olur...

**26 aprel 1994-cü il** - Erməni hərbi birləşmələri ilə keçirilən döyüş əməliyyatında *1975-ci il* təvəllüdlü, cəbrayıllı **Arif Ağa oğlu Rüstəmov** şəhid olur...

**26 aprel 1994-cü il** - Ermənilərlə müharibədə zəngilanlı döyüşçülər - **İsaq Allahverdi oğlu Fərəcov** *(Xumarlı k.)*, **Hüseyn Oktyabr oğlu Əliyev** *(Mincivan q.)*, **Hüseyn Həsən oğlu Hüseynov** *(İçəri Müşlan k.)* həlak olurlar...

**26 aprel 1994-cü il** - Ağdamın ***Güllücə*** kəndi ərazisində gedən qanlı döyüşdə **Fərahim Bəylər oğlu Quliyev** həlak olur...

**27 aprel 1903-cü il** - Minlərlə Bakı proletariatı *"mütləqiyyət quruluşuna öz hiddətli hökmünü oxuyur"*. Nümayişdən sonra çar hakim dairələri təqiblərə əl atır. *100*-dən artıq adam həbs olunur...

**27 aprel 1290-cı il** - Qızılordalılarla Elxanilər arasında Dərbənddən şimalda, ***"Şarasu"*** adlı yerdə baş verən döyüşdə qızılordalılar məğlub olurlar...

**27 aprel 1920-ci il** - Günorta H.Sultanov başda olmaqla kommunistlərin nümayəndə heyəti yaxın **12** saat ərzində hakimiyyəti təslim etmək barəsində AK(b)P MK, RK(b)P Ölkə Komitəsinin Bakı Bürosu və Mərkəzi Fəhlə Konfransı adından Müsavat hökumətinə ultimatum ünvanlayır. Hökumət ultimatumu parlamentin müzakirəsinə verir. Axşam təxminən saat **11** radələrində Azərbaycan Parlamenti hakimiyyətin təhvil verilməsi haqqında qərar qəbul edir. Bununla da **23** ay davam edən Azərbaycan Demokratik Respublikası hökumətinin fəaliyyəti dayandırılır...

**27 aprel 1920-ci il** - 72 minlik XI Qırmızı Ordu başda ***"III İnternasional"*** olmaqla Samur çayını keçərək, Azərbaycan sərhədinə daxil olub, Azərbaycanı - Bakını işğal edir. Azərbaycan Ordusunun kiçik dəstələri, eləcə də sərhəd qüvvələri Qizil Ordunun qarşısını ala bilmir. Gecə Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyası tərəfindən devrilir. Azərbaycanı bolşeviklər idarə etməyə başlayır... Müsavat ordusunun *7*-ci piyada alayı üsyançıların tərəfinə keçir...

**27 aprel 1920-ci il** - Gecə AXC hökumət başçısı olmuş **Nəsib bəy Yusifbəyli** daşnaq muzdlusu tərəfindən qətlə yetirilir; cəsəd naməlum şəraitdə yox edilir...

**27 aprel 1992-ci il** - Ağdam rayonunun ***Abdal-Gülablı*** kəndi ermənilər tərəfindən atəşə tutulur. **1** nəfər yaralanır, **15** ev dağıdılır...

**27 aprel 1992-ci il** - Qazax rayonunun ***Barxudarlı*** və ***Sofulu*** kəndləri erməni yaraqlıları tərəfindən işğal edilir. **7** dinc sakin şəhid olur, **3** nəfər ağır yaralanır. **200** evin əmlakı qarət olunur. Evlərin əksəriyyəti yandırılır. **4** qorunan tarixi abidə məhv edilir. Kənd əhalisi doğma yurdundan didərgin düşür...





**28 aprel 1841-ci il** - Qazax, Şəmşəddil, Borçalı nahiyələrində yaşayan ağalar torpaq sahibliyindən və həmin torpaqları becərən kəndlilər üzərində hüquqlardan məhrum edilir...

**28 aprel 1920-ci il** - X və XI Qızıl Ordu (*20.000* piyada və *6,5* min kavaler) Xəzərin qərb sahillərini, o cümlədən ***Dərbənd*** və ***Bakı*** şəhərlərini ələ keçirir. ***Azərbaycan işğal edilir...***

**28 aprel 1920-ci il** - Azərbaycan Sovet Sosialist Respublikası elan edilir. Bütün hakimiyyət Müvəqqəli İnqilab Komitəsinə verilir. Azərbaycanın müstəqilliyinə son qoyulur...

**28 aprel 1920-ci il** - Hökumət binalarının hamısı, eləcə də Parlament kommunistlər tərəfindən tutulur...

**28 aprel 1920-ci il** - ***A.N.Karagözov*** Dağlıq Qarabağ üzrə komissar təyin olunur...

**28 aprel 1920-ci il** - Gəncə Vilayət Komitəsi F.Əliyevin başçılığı ilə Quberniya İnqilab Komitəsini təşkil edir. Komitə hakimiyyətin təslim edilməsi haqqında qubernatora ***ultimatum*** verir...

**28 aprel 1922-ci il** - II Ümumazərbaycan Sovetlər qurultayı öz işinə başlayır...

**28 aprel 1991-ci il** - ***Cəbrayıl*** şəhəri və ***Süleymanlı*** kəndi ermənilər tərəfindən atəşə tutulur...

**28 aprel 1991-ci il** - Erməni quldur birləşmələri ***Sədərək*** qəsəbəsini Ermənistan tərəfdən ağır toplardan atəşə tuturlar. Dinc əhali arasında ölənlər olur...

**28 aprel 1992 ci il** - Narışlar kəndinə olan erməni hücumu nəticəsində **6** nəfər həlak olur, 2 nəfər yaralanır...

**28 aprel 1992-ci il** - Ağdamın ***Əlağalı, Qalayçılar, Şotlanlı*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Kəndlərə ciddi ziyan dəyir, yaralananlar olur...

**28 aprel 1994-cü il** - Əslən Zaqatala rayonundan olan əsir düşmüş **Zeynal** adlı bir nəfər vətənpərvər azərbaycanlı ermənilər tərəfindən döyülüb işgəncə verilərək vəhşicəsinə qətlə yetirilir...

**28 aprel 1994-cü il** - Ağdam rayonunun ***Baş Qərvənd*** kəndi uğrunda gedən qanlı döyüşlərdə ***Basarkeçər (Vardenis)*** rayonunun ***Sarıyaqub*** kəndinin mərd oğlu ***Yaşar Eldar oğlu Hüseynov*** əbədiyyətə qovuşur...

**29 aprel 1909-cu il** - Çar Rusiyası müxtəlif bəhanələrlə *(xarici konsulluqları və təbəqələri müdafiə etmək, ərzaq daşınması və s.)* Təbrizə qoşun yeridir. Beləliklə, ***Təbriz üsyanı*** yatırılır...

**29 aprel 1918-ci il** - Erməni silahlı quldur dəstələri ***Gümrü*** yaxınlığında Gümrüdən Ahalqalaya qaçqın daşıyan **500** arabalıq karvana basqın edirlər. Erməni vəhşiləri çoxu qadın, qoca, uşaq olan **3.000** adamı vəhşicəsinə qətlə yetirirlər...

**29 aprel 1918-ci il** - Hamazaspın başçılıq etdiyi daşnaq terror birləşmələri Quba qəzasının ***Şıxlar*** kəndinə basqın edirlər. Dinc əhali gülləbaran edilir. Erməni cəlladları *40*-dan çox uşağı dəmir yolu stansiyasının yaxınlığındakı Xan çinarların budaqlarından asırlar...

**29 aprel 1920-ci il** - Axşamçağı qubernator Gəncə quberniyasında hakimiyyətin İnqilab Komitəsinə təslim edilməsi haqqındakı aktı imzalayır...

**29 aprel 1991-ci il** - *Ağdam-Füzuli* avtomobil yolunun *34*-cü kilometrliyində olan körpü ermənilər tərəfindən partladılır...

**29 aprel 1991-ci il** - Erməni quldur birləşmələri ***Qazax*** və ***Laçın*** rayonlarının kəndlərini ağır toplardan atəşə tuturlar. Dinc əhali arasında ölənlər olur...

**29 aprel 1992-ci il** - Erməni silahlılarının Yuxarı Qarabağın ***Kosalar*** kəndinə hücumu zamanı 5 nəfər (**Fəxrəddin Səfərov, Ramiz Qəmbərov, Nəriman Quliyev, Elton Əkbərov** və **17** yaşlı **Pənah Muxtarov**) həlak olur, **15** nəfər yaralanır...

**29 aprel 1992-ci il** - Ağdam rayonunun bir sıra yaşayış məntəqələri ermənilər tərəfindən atəşə tutulur. Ölənlər, yaralananlar və zərərçəkənlər olur...

**29 aprel 1992-ci il** - Daşnaq terrorçuları ***Füzuli şəhəri*** istqamətindəki bir neçə kəndə həmlə edirlər. **1** nəfər həlak olur, **1** nəfər ağır yaralanır...

**30 aprel 1221-ci il** - Monqollar hücum edərək ***Şamaxını*** tutub orada çoxlu sayda əhalini məhv edirlər...

**30 aprel 1630-cu il** - Osmanlı ordusu çoxlu qurbanlar hesabına ***İrəvanı*** tutur...

**30 aprel 1796-cı il** - Valerian Zubovun başçılığı ilə *30* minlik rus qoşunu Dərbəndə yaxınlaşır...

**30 aprel 1918-ci il** - Zəngəzur qəzasının ***Arakilis*** kəndinə basqın edən erməni daşnaqları **25** nəfər dinc sakini qətlə yetirirlər...

**30 aprel 1918-ci il** - Hamazaspın, Vendutsun, Nikolay Muradyanın başçılıq etdikləri daşnaq terror birləşmələri ***Xaçmaz*** ərazilərinə basqın edərək, **246** nəfəri qətlə yetirirlər. Onların 200 nəfərinin əl-qolunu bağlayaraq relslər boyu düzürlər; sonra uzərlərindən zirehli qatar keçirirlər. Erməni soyğunçuları əhalinin var-dövlətini talan edirlər...

**30 aprel 1919-cu il** - İngilislərdən sonra guya qaçqınları yerləşdirmək adı ilə Qarsa ermənilər daxil olurlar...





**30 aprel 1920-ci il** - XI Qızıl Ordu hissələri ***Şamaxı*** və Salyanı işğal edir...

**30 aprel 1943-cü il** - Görkəmli hüquqşünas, Sorbonna *(Fransa)* universitetinin məzunu, professor **Mustafa Məmməd oğlu Vəkilov** ölür...

**30 aprel 1969-cu il** - Azərbaycan SSR DTK-nin Stepanakert (Xankəndi) şöbəsinin məlumatına görə, **mayın 1**-də şəhərdəki bir sıra orta məktəblərdə erməniləri Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda mübarizəyə səsləyən vərəqələrin paylanması planlaşdırılır...

**30 aprel 1990-cı il** - Gürcüstanın ***Qasımlı*** kənd sakini azərbaycanlı qonağı ilə birlikdə daşnaq terrorçuları tərəfindən oğurlanır...

**30 aprel 1992-ci il** - Xocavənd rayonunun ***Əmirallar*** kəndinə erməni yaraqlı qüvvələri tərəfindən olan hücum Ağdam özünümüdafiə qüvvələrinin köməyi ilə dəf edilir. İtkilər olur...

**30 aprel 1992-ci il** - Yuxarı Qarabağda, Ağdərə rayonunun ***Narıclar*** kəndi erməni daşnaqlarının təkrar hücumuna məruz qalır. **5** nəfər həlak olur; **5** nəfər ağır yaralanır...

**30 aprel 1992-ci il** - Şuşanın igid oğlu, Milli Qəhrəman Ramiz Bulud oğlu Qəmbərov Yuxarı Qarabağın ***Kosalar*** kəndi ərazisində ermənilərlə döyüşdə qəhrəmancasına həlak olur...

**30 aprel 1992-ci il** - Şuşanın ***Hacı talası*** deyilən ərazisində ermənilərlə döyüş zamanı **4** nəfər azərbaycanlı həlak olur, **12** isə nəfər ağır yaralanır...

**30 aprel 1993-cü il** - BMT TŞ Dağlıq Qarabağ münaqişəsi ilə bağlı *822* saylı qətnamə qəbul edir. Lakin erməni tərəfi bu qətnamənin tələblərini yerinə yetirmir...

**30 aprel 2009-cu il** - Azərbaycan Dövlət Neft Akademiyası binasının 2-ci korpusunda, saat **9** radələrində baş verən ***terror aktı*** nəticəsində **14** nəfər azərbaycanlı öldürülür, **28** nəfər yaralanır...

# M A Y

**1 may 1900-cü il** - İmperator II Nikolay tərəfindən ***"Cənubi Qafqazda dövlət kəndlilərinin torpaq quruluşu haqqında qanun"*** verilir...

**1 may 1904-cü il** - Qara şəhər - Ağ şəhər, Bibiheybət və s. ərazilərin fəhlələri ***Bir May tətili*** keçirirlər. Həbs olunanlar, döyülənlər olur...

**1 may 1905-ci il** - Naxçıvanda, ***Şıxmahmudlu*** yolu yaxınlığında erməni silahlılarının atdıqları atəş nəticəsində ***Cəhri*** kəndindən olan **3** nəfər azərbaycanlı ağır yaralanır...

**1 may 1918-ci il** - Hərbi nazir G.Karqanovun tapşırığı ilə erməni ***Amazasp*** **2.000** nəfərlik cəza dəstəsi ilə Qubaya gəlir. Axşama qədər *713* nəfər azərbaycanlı qətlə yetirilir. *90*-dan çox ev yandırılır. Quba qəzasında bir neçə kənd ermənilər tərəfindən dağıdılır. Yüzlərlə azərbaycanlının öldürülməsi planlaşdırılır...

**1 may 1918-ci il** - Erməni quldur yaraqlıları ***Qars*** və Qars yaxınlığındakı Şörəyöl mahalının ***Böyük Şiştəpə, Kiçik Şiştəpə*** və ***Düzkənd*** kəndlərinin içərisində qadın, qoca, uşaq olan **1.600** sakinini vəhşicəsinə qətlə yetirirlər...

**1 may 1918-ci il** - Hamazaspın başçılığı ilə ***Quba*** şəhərinə basqın edən terrorçu daşnaqlar **2.000**-dən çox şəhər sakinini qətlə yetirirlər. ***Kərbəlayı Məmmədtağının*** **14** nəfərlik ailəsini gözü qabağında öldürürlər. **Məhəmməd Rəsul oğlunun** qarnını xəncərlə cırırlar; arvadının və **3** uşağının başını kəsirlər. **Hacı Dadaşbala Qasım oğlunu,** arvadı **Bibixanımı** və oğlu **Abdulqasımı** öz evində ev ilə birlikdə yandırırlar. **Kərbəlayı Abuzəri** və onun **2** azyaşlı qızlarını - **Hökumə** və **Bəstini** doğrayırlar; arvadının döşlərini kəsərək qətlə yetirirlər. **Məşədi Qəmbər Molla Məhəmmədsaleh oğlu,** arvadı və **4** azyaşlı uşağı işgəncə ilə öldürülür. **Molla Şahbaz** ailəsi ilə, usta **Məmmədrəsul Bayram oğlu** öz oğlu ilə, **Məşədi Musa Zeynal oğlu, Məşədi Əli Məşədi Feyzulla oğlu, Kərbəlayı Dadaş Bağır oğlu, Cabbar Məmmədəli oğlu, Sahibə** adlı qadın, **Səfərəli Məşədi Talıb oğlu** və neçə-neçə günahsız adamlar işgəncələrlə qətlə yetirilirlər. **100**-dən çox qadın və qızın namusuna təcavüz edilir...

**1 may 1918-ci il** - Terrorçu daşnaqlar Ərəş qəzasının ***Axşam*** və ***Dzaxlı*** kəndlərinə basqın edərək Axşam kəndində **9** qadın, **10** azyaşlı uşağı qətlə yetirirlər. Erməni cəlladları bir nəfər ***Dzaxlı*** kənd sakininin bədəninə **17** süngü yarası vururlar...

**1 may 1920-ci il** - XI Qızıl ordu Gəncəyə daxil olur...

**1 may 1920-ci il** - F.Raskolnikovun komandanlığı ilə donanmanın gəmiləri Bakı limanına girir...





**1 may 1991-ci il** - Xocavənd *(keçmiş Hadrut)* rayonunun Tuğ kənd sakini İslam Vəliyevin idarə etdiyi *UAZ* markalı ***30 -78 AQD*** nömrəli maşın *Füzuli-Tuğ* avtomobil yolunda, Tug kəndinə **3** kilometr qalmış erməni terrorçuları tərəfindən minaya salınaraq partladılır. **İslam Allahverdi oğlu Vəliyev,** onun əmisi oğlu, **16 yaşlı Ələmşad Eldar oğlu Vəliyev** faciəli şəkildə həlak olurlar; **1** nəfər sərnişin isə ağır yaralanır...

**1 may 1991-ci il** - Hadrut rayonunun *(bir neçə aydan sonra o, Xocavənd rayonu adlandırılır)* Tuğ kənd orta məktəbinə məxsus olan *«UAZ-469»* markalı maşın ermənilər tərəfindən partladılır, nəticədə **3** nəfər azərbaycanlı həlak olur...

**1 may 1991-ci il** - Qeydə alınan siyahıya görə erməni yaraqlıları tərəfindən 1988-ci ilin fevralından bu günədək **270** nəfər azərbaycanlı öldürülmüş, **800**-dən çox adam yaralanmışdır...

**1 may 1993-cü il** - Ermənistanın ***İcevan*** rayonu ərazisindən Azərbaycan Respublikası ərazisi olan Qazax rayonunun ***Quşçu Ayrım*** kəndinin minomyotlardan atəşə tutulması nəticəsində **1** qadın və **1** uşaq həlak olur...

**1 may 1993-cü il** - Erməni yaraqlıları Qazax rayonu ərazisinə soxularaq ***Kəmərli*** kənd sakinləri olan **2** çobanı qətlə yetirir...

**2 may 1918-ci il** - Fövqəladə İstintaq Komissiyasının üzvü A.F.Novatskinin məruzəsinə görə, *"Daşnaksütyun"* erməni terror təşkilatının fəal üzvlərindən biri, uşaqların və qocaların qənimi sayılan Hamazaspm erməni quldur dəstələri səhər tezdən ***Quba*** şəhərini mühasirəyə alırlar. Mülki əhalinin silahsız olduğundan xəbər tutan erməni saqqallıları şəhərə soxulurlar. Müsəlmanların **200** evi və **22** məscidi dağıdılır və yandırılır. Təxminən **3000** nəfər azərbaycanlı vəhşicəsinə öldürülür. Erməni quldurları evlərə soxulur və bütün ailələri qırıb-çatır, südəmər körpələrə də rəhm etmir, onları güllələyir və ya analarının qucağındaca doğrayırlar...

**2 may 1918-ci il** - Daşnaq generalı Silikyanın terrorçu qrupu ***Zod*** kənd sakini, ***Göyçə*** mahalında böyük nüfuz sahibi olan **Səməd ağanı** qətlə yetirir...

**2 may 1919-cu il** - Əsgərlərin və Lənkəran zəhmətkeşlərinin yığıncağı burada Sovet hakimiyyəti elan etmək və Sovet Rusiyası ilə birləşmək haqqında ***qətnamə*** qəbul edir...

**2 may 1920-ci il** - ADR Nazirlər Şurasının sədri vəzifəsində çalışmış **Nəsib bəy Yusif oğlu Yusifbəyli** *39* yaşında Kürdəmir qəzasının ***Qarxunlu*** *(Yevlax)* kəndindən olan quldur ***Əşrəfin*** yaxın adamları tərəfindən qətlə yetirilir...

**2 may 1938-ci il** - Azərbaycan SSR XDİK Fövqəladə Üçlüyünün qərarı ilə tanınmış din xadimi, keçmiş Zaqafqaziya qazısı **Mir Məmmədkərim ağa Mir Cəfər oğlu Mir Cəfərov** güllələnir...

**2 may 1945-ci il** - Berlin şəhəri alınır. Berlin uğrundakı döyüşlərdə yüzlərlə igid azərbaycanlı oğulları da həlak olur...

**2 may 1991-ci il** - Füzulidən Tuğ kəndinə doğru hərəkət edən *30-78 AQD* dövlət nömrə nişanlı avtomaşın ermənilər tərəfindən partladılır; nəticədə bir nəfər azərbaycanlı ağır yaralanır...

**2 may 1992-ci il** - Goranboy rayonunun *Todan* və *Şəfəq* kəndlərinə erməni yaraqlıları basqın edirlər. **1** nəfər həlak olur, **1** nəfər yaralanır...

**2 may 1993-cü il** - Ermənilər ***Ağdam*** şəhərinin qərb hissəsində yerləşən yaşayş məntəqələrini toplardan və qrad qurğularından atəşə tuturlar. Dağıntılar və tələfat baş verir...

**2 may 1993-cü il** - Ermənistan ordusunun artilleriyası *Qazax* şəhərini atəşə tutur. **3** nəfər yaralanır, **5** ev dağılır...

**3 may 1336-cı il** - Dövrünün görkəmli mütəfəkkiri, nüfuzlu vəzir **Qiyasəddin Məhəmməd Xacə Rəşid oğlu** müəmmalı şəkildə öldürülür...

**3 may 1467-ci il** - Qaraqoyunlu hökmdarı **Mirzə Cahanşah Həqiqi** Uzun Həsənlə döyüşdə öldürülür...

**3 may 1497-ci il** - Gödək Əhməd bir çox çətin döyüşlərdən sonra Ağqoyunlu taxtına çıxır...

**3 may 1918-ci il** - Terrorçu daşnaq Artyom Avenosovun başçılıq etdiyi silahlı birləşmə Xaçmaz ilə Quba arasındakı kəndlərin əhalisinə divan tutur. Qətlə yetirilən azərbaycanlıların meyitləri bəzən iki-iki, üç-üç, beş-beş tələsik torpağa gömülür, bəzən isə yol kənarındakı qanovlara atılır...

**3 may 1920-ci il** - Rusiyanın hərbi-dəniz donanması Lənkərana və Astaraya donanma çıxarır. Azərbaycan İnqilab Komitəsinin dekreti ilə yerlərdə qəza, mahal və kənd inqilab komitələri yaradılır...

**3 may 1920-ci il** - XI Qızıl Ordunun köməyi ilə Lənkəran və Astara işğal olunur...

**3 may 1988-ci il** - Qarabağın ***Tuğ*** kəndində *(indiki Xocavənd rayonunun tərkibində olan yaşayış məntəqəsi)* yuva quran ermənilər yerli hökumət binası üzərində Ermənistan SSR-in bayrağını qaldıraraq iğtişaşlar törədirlər...

**3 may 1989-cu il** - Stepanakert (Xankəndi) şəhərində ermənilərin tətili başlanır. Onlar DQMV-da xüsusi idarə komitəsinin ləğv edilməsini, vilayət partiya və icraiyyə komitələrinin fəaliyyətinin bərpa olunmasını tələb edirlər...





**3 may 1991-ci il** - Qazax şəhəri ermənilər tərəfindən mərmi atəşinə tutulur. İsmayılovlar ailəsinin evləri dağılır. Ailə başçıları olan ər və arvad həlak olurlar; oğlu və gəlinləri isə yaralanırlar...

**3 may 1992-ci il** - Erməni yaraqlıları Şərur rayonunun ***Sədərək*** qəsəbəsinə basqın edirlər. **2** milis əməkdaşı qətlə yetirilir, **11** nəfər yaralanır...

**3 may 1992-ci il** - Ağdam şəhərində Qarabağın müdafiəsi uğrunda döyüşən hərbi hissə, tabor və dəstə komandirlərinin **2** gün davam edən müşavirəsi keçirilir...

**3 may 1992-ci il** - Füzuli və Cəbrayıl rayonlarının əraziləri ermənilər tərəfindən top və qrad qurğularından atəşə tutulur. Dağıntılar olur...

**4 may 1915-ci il** - Emәni-rus hərbi birləşmələri Ərdahanda ağır faciələrlə nəticələnən kütləvi qırğın törədirlər...

**4 may 1918-ci il** - Andranikin qoşunu gizli yolla ***Basarkeçər*** ərazisinə gətirilir. Onlar gecə qəflətən müsəlmanların yaşadıqları kəndlərə hücum edərək onları yandırırlar. Dinc əhali vəhşicəsinə qətlə yetirilir. Aşıq Nəcəf belinə bağlanmış qaynar samovarla yandırılaraq öldürülür...

**4 may 1918-ci il** - Naxçıvan qəzasının ***Bənənyar*** və ***Qızılca*** kəndlərinə basqın edən erməni yaraqlıları 3 nəfər günahsız azərbaycanlını qətlə yetirirlər...

**4 may 1988-ci il** - Erməni yaraqlıları xəlvətcə Gədəbəy rayonunun ***Qaravəllilər*** kəndi yaxınlığındakı postda hərbi avtomaşına basqın edirlər, hərbi qulluqçulara qumbaralar atırlar. Nəticədə **2** uşaq atası, **22** yaşlı leytenant **Vadim Poyarkov** həlak olur, sürücü sıravi əsgər **Yuri Fedorşin** ağır yaralanır. Quldurlar qaçıb gizlənə bilirlər...

**4 may 1988-ci il** - DQMV rəhbəri ***Q.A.Poqosyan*** minaaxtaran qurğunun istehsalı ilə əlaqədar olaraq Şuşadakı radiozavodu bəhanələrlə Xankəndinə köçürmək üçün DQMV PK-nin II katibi vəzifəsində çalışan B.A.Malkovu və Qarabağ İpək Kombinatının partkomu R.Köçəryanı *(sonralar o, Ermənistanın Prezidenti oldu)* Şuşaya göndərir...

**4 may 1989-cu il** - Dağlıq Qarabağın bütün erməni partiya, sovet rəhbərlərinin və deputatlarının imzası ilə M.S.Qorbaçova içərisində Azərbaycanın ünvanına təhqiramiz sözlər işlədilmiş açıq məktub göndərilir...

**4 may 1992-ci il** - Erməni silahlı birləşmələri günün ikinci yarısında zirehli texnikanın köməyi ilə sərhədi keçib Naxçıvan MR-nın ***Sədərək*** qəsəbəsinə hücum edirlər...

**4 may 1993-cü il** - Cəbrayıl şəhər sakini, buldozerçi **Musa Maqsud oğlu Məmmədov** Xocavənd rayonunun Mülkədərə kəndinin yolunda təmir işi apa-

rarkən daşnaq terrorçularının basdırdıqları minaya düşür. Musa Məmmədov həlak olur, onun idarə etdiyi buldozer isə tamamilə sıradan çıxır...

**4 may 2000-ci il** - Səudiyyə Ərəbistanının məşhur qoca milyonçusu Məhəmməd bin Ladenin milliyyətcə erməni taciri olan Afik Akopyanın qızı Ləyyadan olan *19*-cu oğlu İbrahim *(o, 1984-cü ildə "Laden" beynəlxalq tikinti şirkətinin əsasını qoymuşdu)* ona məxsus olan **"Vadi Əl-Qaid"** şirkətinin filialının Yerevanda açılmasına nail olur...

**5 may 1902-ci il** - Sabunçu neft mədənlərində dartayçıların tətili baş verir...

**5 may 1905-ci il** - Ermənilər Naxçıvan qəzasının ***Cəhri*** kəndində **3** nəfər azərbaycanlını ağır yaralayırlar...

**5 may 1920-ci il** - Bütün bəy, xan və vəqf torpaqları müsadirə olunaraq əvəzi ödənilmədən kəndlilərin istifadəsinə verilir...

**5 may 1920-ci il** - ***"Timofey Ulyantsev"*** zirehli qatarı ***Ağstafa*** və ***Poylu*** stansiyalarını tutub Gürcüstan sərhədlərinə çatır...

**5 may 1924-cü il** - Azərbaycan K(b)P-nın VI qurultayında S.M.Kirov Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsi ətrafında yaranan məsələlərə şübhəli münasibət bildirir...

**5 may 1992-ci il** - Milli Qəhrəman **Kərim Məhəmməd oğlu Kərimov** erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**5 may 1992-ci il** - Ağdamın ***Şelli, Çuxurməhlə və Xıdırlı*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar və tələfat olur. Çuxurməhlə kəndi ərazisindəki baş verən döyüşlər zamanı **2** nəfər azərbaycanlı qətlə yetirilir...

**5 may 1994-cü il** - Qarabağ döyüşlərində ağcabədili igidlər - **Cavanşir Muradxan oğlu Həsənov, Cabir Məmməd oğlu Şıxəliyev** həlak olurlar...

**5 may 2000-ci il** - Ermənistan Təhlükəsizlik Şurasında keçirilən *«Erməni xalqının milli təhlükəsizlik probleminə dair»* sənədin müzakirəsi zamanı Qarabağa ermənilərin köçürülməsi başlıca mövzu olur. Müzakirə zamanı MDB çərçivəsində *«sıxılan və əzilən, tənha qalan»* erməni millətinə yardım üçün xaricdəki icma başçılarına, kilsə rəhbərlərinə müraciət edilməsi qərara alınır. Romadan ilk erməni ailəsi, iş adamı, *«keşiş Albertinonun atası»* ***Yeramuş Sarkisyan*** oğlu ilə birgə Xankəndinə gəlir. 2001-ci ilədək Y.Sarkisyan Xankəndidə yaşayır. Onun ardınca isə 2001-ci ilin aprelində İtaliyadan **26** erməni ailəsi Dağlıq Qarabağa yaşamaq üçün yola düşür. Mayın 5-də keçirilmiş iclasdan sonra prezident Robert Köçəryanın imzası ilə ***Fransada, Amerikada*** *(əsasən Kaliforniyada),* ***İranda, Rusiya Federasiyasında, Argentinada, Livanda, Liviyada, Suriyada...*** yaşayan erməni icmasının başçılarına yardım diləyən məktublar göndərilir. Həmin məktublardan biri 2000-ci il iyunun 9-da Parisdə nəşr olunan «La Vie» («Həyat») jurnalında çap olunur (nömrə 28, səh.2). Ümumiyyətlə, 1994-2001-ci illər ərzində işğal olunmuş Azərbaycan torpaqlarına xaricdən yaşamaq və s. məqsədlər üçün Fransadan, Livandan, Argentinadan, Sudandan, Liviyadan, Suriyadan, ABŞ-dan və s. ölkələrdən aşağıdakılar köçürülür:

1. FRANSA

- Paris: **3** ailə (1995-ci ildə), **21** ailə (1992-ci ildə), **19** ailə (1999-cu ildə), **33** ailə (2000-ci ildə);
- Marsel: **15** ailə (2000-ci ildə);
- Lion: **8** ailə (2000-ci ildə);

2. LİVAN

- Beyrut: 1998-ci ilədək **42** ailə Ermənistana gəlib. Onlardan **13** ailə 1999-cu ildə Xankəndinə köçürülür;

3. ARGENTİNA

- Buenos-Ayres: **5** ailə (2000-ci ildə);

4. AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI

- Nyu-Cersi: **7** ailə (1998-ci ildə);
- Vaşinqton: **4** ailə (1999-cu ildə);
- Kaliforniya: **11** ailə (1999-cu ildə), **4** ailə (2000-ci ildə);

5. SURİYA ƏRƏB RESPUBLİKASI

- Dəməşq: **9** ailə (1996-cı ildə), **2** ailə (1997-ci ildə);

6. LİVİYA

- Tripoli: **16** ailə (1995-ci ildə);

7. SUDAN

- Xartum: **3** ailə (1999-cu ildə)...

Qeyd: Bu adamların bir qismi Yerevan rəsmiləri tərəfindən ikili vətəndaşlıq sənədləri də alır. Ermənilər tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ərazisinə köçürülən bu ailələrin bir qisminin adları MKİ-nin *(ABŞ)*, BND-nin *(Almaniya)*, FTX-nin *(RF)* sənədlərində çəkilir. Onlar terrorçu qrupların tərkibində 1988-1994-cü illərdə Qarabağda baş verən terror aktlarında iştirak etmiş şəxslərdir...

**6 may 1905-ci il** - Silahlı erməni quldurları Naxçıvan ərazisində azərbaycanlılara qarşı ***dəhşətli qırğın*** həyata keçirirlər...

**6 may 1921-ci il** - Bakıda Azərbaycan SSR-in ***I Sovetlər qurultayı*** açılır...

**6 may 1989-cu il** - SSRİ Xalq Deputatlarının I qurultayı Moskvada öz işinə

başlayır. Qurultay ermənilərin maraqlarına uyğun ***qərarlar*** qəbul edir...

**6 may 1989-cu il** - SSRİ Nazirlər Sovetinin qərarı ilə DQMV-dakı idarə və müəssisələr Azərbaycan SSR-in tabeliyindən çıxarılır. Vilayət ərazisində bununla da azərbaycanlıların yaşadıqları məntəqələrin ermənilər tərəfindən blokadasına imkan yaranır...

**6 may 1991-ci il** - Ağdam-Şuşa marşrutu ilə hərəkət edən sərnişin avtobusuna ermənilər tərəfdən raket mərmiləri atılır...

**6 may 1992-ci il** - Füzuli rayonunun ***Qacar*** və ***Divanalılar*** kəndlərinə erməni yaraqlılarının basqını nəticəsində **2** nəfər həlak olur, **5** nəfər yaralanır...

**6 may 1992-ci il** - Naxçıvanın Sədərək qəsəbəsi, eləcə də ***Havus, Cünnüt*** kəndləri erməni yaraqlılarının basqınına məruz qalır. **3** nəfər həlak olur, **45** nəfər yaralanır...

**6 may 1993-cü il** - Füzuli rayonunun ermənilərlə həmsərhəd olan kəndləri ermənilər tərəfindən atəşə tutulur. Ölən və yaralananlar olur...

**6 may 1993-cü il** - Qubadlı, Goranboy, Zəngilan və Ağdam rayonlarının əraziləri ermənilər tərəfindən atəşə məruz qalır...

**7 may 1130-cu il** - Dövrünün görkəmli mütəfəkkir alimi **Eynülquzat Abdulla Məhəmməd oğlu Miyanəçi** Həmədanda dar ağacından asılır...

**7 may 1188-ci il** - Sultan III Toğrul vəzir Cəlaləddin Übeydullah ibn Yunisin başçılığı ilə Qızil Arslanın sərəncamına gələn qoşun hissəsini **Day-Mərc** deyilən ərazidə *(Həmədan yaxınlığında)* darmadağın edir; vəzir Cəlaləddin əsir düşsə də Toğrul onu sonra azad edir...

**7 may 1905-ci il** - Ermənilər Naxçıvan qəzasının ***Tunbul*** kəndində **1** nəfər azərbaycanlını qətlə yetirirlər...

**7 may 1906-cı il** - Bakıda fəhlələrin siyasi nümayişi keçirilir. Kütləvi həbslər başlayır...

**7 may 1912-ci il** - Nuxada *(Şəkidə)* müəssisələrin çoxu tətil edir...

**7 may 1918-ci il** - Cəbrayıl qəzasının ***Köhnə Tağ*** kəndində yuva salmış daşnaq terror qrupunun üzvləri tərəfindən ***Dağtumas*** kənd sakinləri **Eyvaz İbrahimoğlu** və **Məhəmməd Cəfərqulu oğlu** ***Mirzəli kovu*** deyilən ərazidə qətlə yetirilir...

**7 may 1920-ci il** - Ordunun və donanmanın yenidən təşkil edilməsi ilə bağlı Azərbaycan İnqilab Komitəsi tərəfindən ***dekret*** verilir...

**7 may 1969-cu il** - Moskvanın təzyiqi nəticəsində Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarında **2.000** hektardan çox Azərbaycan torpaqlarının Ermənistana verilməsi nəzərdə tutulur...

**7 may 1991-ci il** - Ağdam rayonunun ***Mərzili*** kəndinin sakini ermənilər tərəfindən girov götürülür...

**7 may 1992-ci il** - Füzuli rayonunun ***Hoğa*** *(Üçbulaq)* kəndi ərazisində gedən döyüşlərdə **6** nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir, 10 nəfər yaralanır...

**7 may 1992-ci il** - Erməni yaraqlıları Şuşa rayonunun ***Xəlfəli, Kosalar, Qaybalı*** və ***Zarıslı*** kəndlərinə güclü hücuma keçirlər. Dağıntılar və tələfat olur...

**8 may 1945-ci il** - Almaniyanın danışıqsız təslim olması barədə akt imzalanır. Təkcə bugünki döyüşlərdə onlarla azərbaycanlı həlak olur...

**8 may 1988-ci il** - Kərkicahan qəsəbəsinin sakinləri ***(180 imza)*** Azərbaycan KP MK-nın birinci katibi Ə.X.Vəzirova mövcud vəziyyətlə əlaqədar müraciət ünvanlasalar da, bu müraciət demək olar ki, baxımsız qalır...

**8 may 1991-ci il** - Ermənilər Laçın rayonu ərazilərini, kəndləri atəşə tutmaq məqsədilə Gorus rayonu ərazilərində müxtəlif silah anbarları təşkil edirlər...

**8 may 1992-ci il** - Qarabağın tacı olan Şuşa şəhəri erməni-rus hərbi birləşmələri tərəfindən işğal edilir. **155** nəfər həlak olur, **167** nəfər yaralanır. Şuşalılar çox çətinliklə, xeyli itki verərək şəhəri tərk etmək məcburiyyətində qalırlar. Başdan-başa muzey şəhəri olan cənnətməkan **Şuşa** düşmən əlinə keçir. Onlarla tarixi-memarlıq abidələri məhv edilir...

**8 may 1992-ci il** - *23* yaşlı ***Fəxrəddin Hüseyn oğlu Zülfüqarov*** itkin düşür...

**8 may 1992-ci il** - Laçın rayonunun ***Köhnəkənd*** kəndi yaxınlığında **Allahverdi Əsgər oğlu Əliyev** erməni quldurları tərəfindən amansızlıqla qətlə yetirilir...

**8 may 1992-ci il** - Laçının ***Köhnəkənd*** kənd sakini **Novruz Yusif oğlu Əhmədov** *(1970-ci il təvəllüdlü)* Şuşanın işğalı zamanı həlak olur...

**8 may 1992-ci il** - Şuşanın ***Qaybalı, Xəlfəli, Kosalar, Zarıslı*** kəndləri işğal edilir. Çoxlu sayda itkilər olur...

**8 may 1993-cü il** - Şuşa həbsxanasında girov saxlanılan **Nadir Bakılı Qor** adlı erməni nəzarətçisi tərəfindən vəhşicəsinə döyülüb işgəncə verilərək donuz saxlanan yerdə elektrik cərəyanı ilə qətlə yetirilir...

**8 may 1993-cü il** - DQMV-da Fərrux kəndi ətrafındakı yüksəkliklər uğrunda şiddətli ermənilərlə azərbaycanlılar arasında döyüşlər gedir. İtkilər olur...

**8 may 1994-cü il** - Azərbaycan atəşkəslə bağlı ***Bişkek*** protokolunu imzalayır...

**8 may 1994-cü il** - Qarabağ döyüşlərində ağcabədili igidlər - **İsgəndər Alış oğlu Alışov, Məftun Məhəmməd oğlu Baxışov** həlak olurlar...

**9 may 1905-ci il** - Naxçıvanlı **Əli Hacı Bayramzadə** ***Əliabad*** adlı kəndin erməni sakinləri tərəfindən gecə vaxtı bulaq başında 7 güllə yarası ilə vəhşicəsinə qətlə yetirilir...

**9 may 1915 - ci il** - Erməni quldur birləşmələrinin hücumu nəticəsində ***Bitlis*** şəhərində **123** türk öldürülür. Həlak olanların əksəriyyəti qadın və uşaqlardır...

**9 may 1991-ci il** - Laçın şəhərinin ermənilər tərəfindən top atəşinə tutulması nəticəsində ***Arduşlu*** kənd sakini **Seyfəli Əli oğlu Qədirov** həlak olur...

**9 may 1991-ci il** - DQMV Təşkilat Komitəsinin rəhbəri V.P.Polyaniçkoya ermənilər Xankəndində sui-qəsd *(bu, baş tutmasa da, 1 avqust 1991-ci il tarixdə o, Şimali Osetiyada naməlum terrorçu tərəfindən öldürülür)* hazırlayırlar...

**9 may 1992-ci il** - Xocalı rayonunun Qarabağ silsiləsinin şimal-şərq yamacında yerləşən **Kosalar** kəndi ermənilər tərəfindən işğal edilir. Kənd sakinlərindən - **Abdullayev Mahir, Abdullayeva Maya Saleh (Sərhad) qızı, Ağayev Rasim, Bayramov Cəllad, Cəbrayılov Mikayıl, Fərmanov Mübariz, Hacıyev Alim, Hüseynov Yaşar, Həsənov Elşad, Həsənov Ramiz, Həsənov Tabil, Məmmədov Sərvər, Məmmədov Zakir, Pənahov Mübariz, Quliyev Fərhad, Quliyev Şahbaz, Qəhrəmanov Polad, Rüstəmov Eldar, İbrahimli Xəqani, Səfərov Mübariz, Əliyev Arzu, Əliyev Nadir, Əsgərov Xəzani,** eləcə də onlarla digər adamlar qətlə yetirilirlər...

**9 may 1992-ci il** - **38** yaşlı **Şükür Bərxudar oğlu Quliyev** Kosalar kəndi yaxınlığında itkin düşür...

**9 may 1992-ci il** - Laçın şəhəri ermənilər tərəfindən top atəşinə tutulan zaman Arduşlu kəndinin sakinləri - **Seyfəli Əli oğlu Qədirov** (1947), **Şahin Əhməd oğlu Əhmədov** (1968), **Ramiz İsmayıl oğlu Heydərov** (1972), **Mehman Fəxrəddin oğlu Qasımov** (1965), **Qaçay Surxay oğlu Məhərrəmov** (1936), **Elməddin İsaq oğlu Musayev** (1980) həlak olurlar...

**10 may 1796-cı il** - Qacar dövlətinə rəsmən müharibə elan edən Rusiyanın Qafqazdakı qoşunlarının yeni komandanı təyin edilmiş qraf ***V.Zubov*** Dərbəndi tutur...

**10 may 1905-ci il** - Naxçıvan şəhərində daşnaq terrorçuları qırğın törədərək **100** nəfər dinc azərbaycanlı sakini qətlə yetirirlər...

**10 may 1917-ci il** - Sultan bəy ilə Andranikin qoşunları arasında indiki Laçın rayonu ərazisində tarixə ***«Qaragöl döyüşü»*** adı ilə daxil olmuş ***Qaragöl faciəsi*** baş verir. ***Zabıx əməliyyatı*** zamanı Sultan bəy böyük bir səhvə yol verərək ələ keçmiş Andranikə mərhəmət göstərərək onu buraxır...

**10 may 1989-cu il** - Erməni terrorçuları Qazax rayonunun ***Bağanis Ayrım, Bərxudarlı*** və ***Naxçıvanın*** bütün sərhəd kəndlərini top və minomyotlardan atəşə tuturlar. Ölənlər və yaralananlar olur, xeyli yaşayış evi dağıdılır...





**10 may 1992-ci il** - Ağbulaq və Pircamal kəndləri ərazisində şiddətli döyüşlər gedir. İtkilər olur...

**10 may 1994-cü il** - Füzulili döyüşçülər - **Qəniyyət Qənimət oğlu Rzayev, Həmid Rzayev** ***Şükürbəyli*** kəndi yaxınlığında gedən şiddətli döyüşdə həlak olurlar...

**10 may 2003-cü il** - Ağcabədi rayonunun ***Hacıbədəlli*** kəndinin 1981-ci il təvəllüdlü vətənpərvər oğlu **Mahir Əsgər oğlu Məhərrəmov** həqiqi hərbi xidmət zamanı həlak olur...

**11 may 1905-ci il** - Həmzadın başçılıq etdiyi daşnaq erməni terror qrupu Daşaltı çayının sağ tərəfindəki dəyirmana basqın edərək Şuşa şəhər sakini, dəyirmançı **Xaspoladı**, onun həyat yoldaşı **Gülayanı** qətlə yetirir, onların **6** aylıq körpələri-Məhəmmədi qıçlarından yapışaraq iki şaqqaya ayırıb valideynlərinin üstünə atırlar...

**11 may 1905-ci il** - 5 nəfər erməni terrorçusu Qafqaz xalqları arasında dostluq mövqeyindən çıxış edən knyaz M.A.Naxaşidze və Q.Takayşvilini, general Alıxanovu və daha bir nəfər azərbaycanlını amansızlıqla qətlə yetirirlər...

**11 may 1918-ci il** - Erməni terrorçuları *Ağdam-Qəbələ* yolunun ***Ağtala dərəsi*** deyilən ərazisində araba karvanına basqın edirlər; **20** nəfər arabaçı qətlə yetirilir...

**11 may 1920-ci il** - XI Qızıl Ordu hissələri Zaqatala ərazisinə soxulur...

**11 may 1920-ci il** - Qaryagində *(indiki Füzuli rayonunun ərazisində)* İnqilab Komitəsi təşkil olunur...

**11 may 1988-ci il** - Erməni yaraqlıları Vedibasarın azərbaycanlılar yaşayan Şirazlı kəndinə basqın edirlər. **2** nəfər öldürülür. **80** nəfər xəsarət alır, **8** ev yandırılır; **64** ev uçurdularaq dağıdılır, **330** ailənin əmlakı talan olunur. Kənd əhalisi Türkiyə sərhədinə yığılır və **4** ay burada ağır şəraitdə çadırlarda yaşamaq məcburiyyətində qalır...

**11 may 1988 ci il** - Daşnaq terrorçuları tərəfindən İrəvanda M.Əzizbəyovun abidəsi uçurulur. M. F. Axundov adına orta məktəbinə, C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrına ermənilər tərəfindən hücumlar edilir. Hər iki müəssisənin fəaliyyəti dayandırılır...

**11 may 1992-ci il** - Naxçıvanlı *(Naxçıvanik)* kəndi uğrunda şiddətli döyüşlər gedir. Bütün cəbhə boyu döyüşlər davam edir. İtkilər olur. Ağdam şəhəri atəşə tutulur. **10**-dan çox ev dağılır...

**11 may 1992-ci il** - Qazax rayonunun ***Qızılhacılı*** kəndi ermənilər tərəfindən işğal edilir...

**11 may 1992-ci il** - Şuşa həbsxanasında ermənilər tərəfindən **197** əsir alınmış azərbaycanlıya işgəncələr verilir...

**11 may 1992-ci il** - Marquşevan kəndinə uğursuz hücum əməliyyatı nəticəsində Azərbaycan tərəfi itkilərə məruz qalır...

**11 may 1994-cü il** - Milli Qəhrəman **Eldar İsfəndiyar oğlu Həsənov** Füzuli rayonu ərazisində ermənilərlə baş verən döyüşdə həlak olur...

**12 may 1920-ci il** - İnqilab Komitəsinin xalq məhkəməsinin yaradılması, silki və mülki rütbələrin ləğv edilməsi haqqında dekret verililir. Əksinqilab və təxribatçılığa qarşı mübarizə üçün Fövqəladə Komissiya Ali İnqilabi Tribunal təsis edir...

**12 may 1920-ci il** - Erməni şahidlərinin uydurma ifadələri əsasında müstəntiq M.Səfixanyanın saxta ittihamları ilə Gəncənin general-qubernatoru **Xudadat bəy Rəfibəyli** Bakıda güllələnir və onun cəsədi dənizə atılır...

**12 may 1920-ci il** - XI Qızıl Ordu Balakəni *"azad edir"*...

**12 may 1992-ci il** - ***Ağdam şəhəri, Şelli, Əhmədavar, Xıdırlı, Qalayçılar, Abdal-Gülablı*** kəndləri atəşə tutulur. Dağıntılar olur...

**12 may 1994-cü il** - Azərbaycanın son həftələr düşmən üzərində hərbi uğurlarına baxmayaraq Azərbaycanla Ermənistan arasında cəbhədə ***atəşkəs elan*** olunur. ***R.Quliyev*** Rusiyanın təklif etdiyi ***Bişkek*** protokolunu imzalayır...

**13 may 1905-ci il** - Ermənilər İrəvanda ***Qarsaçay*** bağçasında azərbaycanlılara qarşı hücuma keçirlər. Qırğın nəticəsində yüzlərlə azərbaycanlı həlak olur...

**13 may 1947-ci il** - İranda Milli Hökumətin baş prokuroru **Firudin Qəni oğlu İbrahimi** *6* aylıq ağır məhbəs həyatından sonra toya gedirmiş kimi açıq alınla dar ağacının altına gedir. Şah görsün deyə onun cəsədi **3** gün dar ağacından asılı saxlanılır...

**13 may 1988-ci il** - Daşnaq terrorçuları Xankəndindəki Pedaqoji İnstituta basqın edirlər. **6** nəfər azərbaycanlı tələbə ağır bədən xəsarəti alır...

**13 may 1992-ci il** - Ağdam şəhəri və Abdal-Gülablı kəndi atəşə tutulur. ***Güllücə, Boyəhmədli, Şotlanlı*** kəndləri hücuma məruz qalır. Bir neçə kənd düşmən əlinə keçir. Ölən, yaralananlar və dağıntılar olur...

**13 may 1992-ci il** - Tərtər və Bərdə şəhərləri ermənilər tərəfindən raket atəşinə tutulur. Bərdə şəhərinin ***C. Cabbarlı*** küçəsindəki **5** saylı ev dağıdılır,





5 nəfər azərbaycanlı dinc sakin həlak olur...

**13 may 1992-ci il** - Polkovnik ***M.Ovsepyanın*** mühacir silahlı dəstəsi Laçın rayonu istiqamətində hücuma hazırlaşır...

**13 may 1992-ci il** - İsfahanda erməni icmasının iclas salonunda fars mənşəli ***Yadigarinin*** Şuşadan çəkib gətirdiyi faciələri əks etdirən sənədli kadrlar nümayiş etdirilir...

**13 may 2002-ci il** - Yerevan Vaşinqtondan aldığı **103** milyon ABŞ dollarının **42** milyonunu ərazidə nüvə tədqiqatı məsələlərinə sərf etməyi planlaşdırır...

**14 may 1805-ci il** - Rusiya ilə Qarabağ və Şəki xanlıqları arasında müqavilə imzalanır. Gəncə yaxınlığındakı ***Kürəkçay*** sahilində bağlanan bu müqaviləni Qarabağ xanı İbrahimxəlil xan ilə Zaqafqaziyadakı rus ordusunun baş komandanı P.D. Sisianov imzalayırlar. "Kürəkçay müqaviləsi"nə görə Qarabağ xanlığı Rusiyanın himayəsinə keçir; İbrahimxəlil xan Qarabağda yerləşdirilən rus qoşunlarını ərzaqla təmin etməyi, hər il Rusiyaya 8 min çervon bac verməyi öhdəsinə götürür. Xan hakimiyyətinin irsiliyi imperator tərəfindən təsdiq edilmək şərti ilə saxlanılır. Vergi toplamaq, məhkəmə işləri və s. xanın ixtiyarında qalır. İb-rahimxəlil xana general-leytenant, oğlanları-Məmmədhəsən və Mehdiqulu ağaya isə general-mayor rütbəsi verilir. ***"Kürəkçay müqaviləsi"*** ilə Qarabağ xanlığı faktiki olaraq Rusiyaya ilhaq edilir. Mayın 21-də Şəki xanı da *"Kürəkçay" müqaviləsini* imzalayır. 1819-cu ildə Şəki, 1822-ci ildə Qarabağ xanlıqlarının ləğvi ilə "Kürəkçay müqaviləsi" öz qüvvəsini itirir...

**14 may 1870-ci il** - Şimali Azərbaycanda kəndli islahatı keçirilir...

**14 may 1915-ci il** - Bu gün tarixə ən çox müsəlmanın *(əsasən türk və azərbaycanlı)*, o cümlədən, qadın və uşaqların ermənilər tərəfindən qətlə yetirildiyi gün kimi düşür...

**14 may 1915-ci il** - Erməni silahlı könüllüləri ***Vanı*** zəbt edirlər. **200**-dən çox türk əsgəri amansızlıqla qətlə yetirilir...

**14 may 1921-ci il** - Xaçmazda *(Oğuz rayonu)* sovet əleyhinə çıxanların həbsinə başlanılır. Yerli sakinlər buna sərt təpki göstərirlər. Göndərilən milis dəstələri ilə yerlilər arasında gecə döyüş baş verir. Olənlər və yaralananlar olur. Kəndlilər və ətrafdakılar türk **Hüseyn Əfəndinin** başçılığı ilə hücuma keçirlər. Üsyanı yatırmaq üçün Zaqataladan Atakarılovun rəhbərliyi ilə alay köməyə gəlir. Türk **Şərif Əfəndi** döyüşlərin birində öldürülür. Üsyançılar geri çəkilmək məcburiyyətində qalaraq, dağ kəndlərinə, əsasən də Filfili kəndinə toplanırlar. Bu üsyanın yatırılmasına ermənilər də yaxından köməklik edirlər. Az sonra bu üsyan da yatırılır. Üsyançıların bir qismi güllələnir, bir hissəsi həbs olunur, qa-

lanları da sürgünə göndərilir...

**14 may 1938-ci il** - Azərbaycan SSR XDİK DT baş mayoru ***Rayevin*** əmri ilə **61** nəfər güllələnir...

**14 may 1988-ci il** - DQMV-nin mərkəzində *(Xankəndi şəhərində)* şəhər sakinləri **A.Məmmədov** və **A.Həsənov** gündüzün günorta çağında ermənilər tərəfindən təhqir olunaraq vəhşicəsinə döyülürlər...

**14 may 1992-ci il** - İordaniyadakı *"Erməni cəmiyyəti"*nin ideoloqlarından biri Harri Maqat Ambarsumyan ***"Qafqaz Investisiya Bankı"***nın xətti ilə *(bankın rəhbəri milliyyətcə Livan ermənisi, milyonçu* ***Adnan Hasoqidir****)* Bakıda olur...

**14 may 1992-ci il** - Ağdam rayonunun ***Xıdırlı kəndi*** ermənilər tərəfindən güclü atəşə tutularaq hücuma məruz qalır...

**14 may 1992-ci il** - Laçın rayonunun Cağazur kənd sakini **Mayıl Musa oğlu Musayev** (1954) kənd uğrunda ermənilərlə gedən döyüşdə həlak olur. 31-ci postda döyüş zamanı digər Cağazur kənd sakini **Xaqani Xankişi oğlu Zeynalov** (1958) da erməni yaraqlıları tərəfindən qətlə yetirilir. Onun meyidini götürmək mümkün olmur...

**15 may 1623-cü il** - Şah Abbasın vəliəhdi İbrahim Mirzə Şirazda ov zamanı güllə ilə vurulub yaralanaraq qətlə yetirilir...

**15 may 1919-cu il** - Lənkəranda Muğan kəndli deputatları sovetinin fövqəladə qurultayı açılır. Qurultay Lənkəranda və Muğanda Sovet Hakimiyyətini elan edir...

**15 may 1920-ci il** - Xalq Maarif Komissarlığının qərarı ilə vicdan azadlığı elan edilir; din dövlət və məktəbdən ayrılır. Azərbaycan ərazisindəki meşələr, sular və yeraltı sərvətlər milliləşdirilərək dövlət mülkiyyətinə verilir...

**15 may 1938-ci il** - Azərbaycan Demokratik Respublikasının hakimiyyəti dövründə sənaye və ticarət naziri, xarici işlər naziri vəzifələrində çalışmış görkəmli ziyalı, hüquqşünas **Məmməd Yusif Hacıbala oğlu Cəfərov** Bakının Şağan yaşayış məntəqəsinin qəbiristanlığında dəfn olunur...

**15 may 1988-ci il** - Xankəndində bir qrup azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə döyülərək bir maşına yığılıb ***Şuşa*** şəhərinə göndərilir. Ermənilər bu hərəkətləri ilə Şuşa ermənilərinin Xankəndinə köçüb burada müntəzəm keçirilən mitinqləri gücləndirmək niyyəti güdürlər. Təxminən belə də olur. Şuşa mərkəzi meydanına toplanan azərbaycanlılar bu kimi hərəkətlərin qarşılığında ermənilərdən **2** günə Şuşanı tərk etməyi tələb edirlər. Beləcə erməni xisləti ilə qurulan tor öz bəhrəsini verir...

**15 may 1991-ci il** - Xocavənd rayonunun ***Qaradağlı*** kəndinə ermənilər silahlı





basqın edir. Ölən və yaralananlar olur...

**15 may 1992-ci il** - *«SSRİ-nin hərbi əmlakının bölüşdürülməsi haqqında»* Daşkənddə imzalanmış müqavilə əsasında IV Ordunun silahları Azərbaycana verilməli olduğu halda bu, nədənsə tam həyata keçirilmir...

**15 may 1992-ci il** - Ağdamın ***Abdal-Gülablı*** kəndi ermənilər tərəfindən atəşə tutularaq hücuma məruz qalır. Ağdam şəhəri güclü raket atəşinə tutulur. **8** nəfər həlak olur...

**15 may 1992-ci il** - Laçındakı qərargah boşaldılır; texnika və könüllü müdafiə batalyonları müəmmalı səbəbdən oradan çıxarılır...

**15 may 1992-ci il** - Milli Qəhrəman, kapitan **Cəlil Əziz oğlu Səfərov** döyüş tapşırığını yerinə yetirərkən erməni gülləsinə tuş gəlir...

**15 may 1992-ci il** - Ağdamın vətənpərvər igid oğlu **Sənan Əkbər oğlu Rüstəmov** ermənilərlə döyüşdə qəhrəmancasına həlak olur...

**15 may 1992-ci il** - Cəbrayıl RPŞ-nin bölmə rəisi, kapitan **Əbdürrəhim Heydərov** ***Dolanlar*** kəndi ərazisində ermənilərin basdırdığı minaya düşərək həlak olur...

**16 may 1812-ci il** - Rusiya ilə Osmanlı dövlətləri arasında bağlanmış Buxarest sülh müqaviləsi Osmanlıların Cənubi Qafqazın böyük bir hissəsinin Rusiya tərəfindən işğal olunmasını təsdiq edir...

**16 may 1915-ci il** - Erməni daşnaqları ***Aram Manukyanın*** başçılığı ilə ruslarla birlikdə ***Van*** şəhərinə girirlər...

**16 may 1988-ci il** - Ermənilər Xankəndində yenidən bir qrup azərbaycanlını döyərək maşınlara yığır və Şuşaya göndərir...

**16 may 1988 -ci il** - Ermənilər Xankəndi Pedaqoji İnstitutuna basqın edərək azərbaycanlı tələbələri oradan qovurlar...

**16 may 1991-ci il** - Xocavənd *(Martuni)* rayonunun Xocavənd yaşayış məntəqəsində vəzifə borcunu yerinə yetirən sahə müvəkkili, kiçik polis leytenantı **Köçəri Məmmədovun** həyatına erməni terrorçusu tərəfindən sui-qəsd edilir. Başqa bir polis əməkdaşı da baş nahiyəsindən aldığı gülldən yaralanır...

**16 may 1992-ci il** - Füzuli rayonunun ***Yuxarı Veysəlli*** kəndini düşməndən azad etmək məqsədilə itki və uğursuzluqla nəticələnən döyüş əməliyyatı keçirilir...

**16 may 1992-ci il** - Ermənilərlə döyüşdə Zəngilanın qəhrəman oğlu **Qaytaran İbrahim oğlu Abbasov** həlak olur...

**16 may 1993-cü il** - Zəngilan, Qubadlı, Tərtər və Goranboy rayonlarının əraziləri ermənilərin atəşinə məruz qalır. Dağıntılar olur...

**17 may 1639-cu il** - Osmanlı-Səfəvi imperatorluqları arasında ***"Qəsri-Şirin"*** sülh müqavilәsi imzalanır. ***1555-ci*** il ***Amasiya*** və ***1612-ci*** il ***Sərab*** sülh müqavilələrinin şərtləri təsdiqlənir...

**17 may 1915 ci il** - Terrorçu erməni quldur birləşmələri Türkiyənin qədim Van şəhərini yandırırlar. Dinc əhali arasında çoxlu sayda tələfat olur...

**17 may 1921-ci il** - İnqilab Komitəsi ***"Bütün növ ərzaq inhisarlarının ləğv edilməsi haqqında"*** dekreti ilə ərzaq sapalağını ləğv edir...

**17 may 1991-ci il** - Ermənilər Laçın rayonunun ***Qarıqışlaq*** kəndinə hücum edirlər. Kənd sakinləri **Polad Əsgər oğlu Məmmədov** (1968-ci il təvəllüdlü) və **Tahir Məmməd oğlu Məmmədov** (1963-cü il təvəllüdlü) döyüş zamanı həlak olurlar. Erməni yaraqlılarının Laçının ***Sadınlar*** kəndinə hücumu nəticəsində kənd sakinləri - **Qaçay Fərhad oğlu Allahverdiyev** və **Nadir Şükür oğlu Orucov** həlak olurlar...

**17 may 1992-ci il** - *Ağdam şəhəri, Əhmədavar, Şelli, Gülablı, Saybalı* kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**17 may 1992-ci il** - Laçın rayonunun ***Qaygı*** qəsəbəsi uğrunda gedən döyüşlərdə ***Minkənd*** sakini **İsarafil Xasay oğlu Hümbətov** (1958) həlak olur...

**17 may 1992-ci il** - Ermənilər Laçın istiqamətində gözlənilmədən güclü hücuma keçirlər. Bu hücumlar zamanı ümumilikdə **300**-dən çox adam həlak olur, **100** nəfərə qədər adam itkin düşür...

**18 may 1877-ci il** - Bəyliəhməd kəndi yaxınlığındakı döyüşdə 16-cı Nijeqorod süvari alayının 2-ci divizion komandiri **N.Novruzov** qəhrəmanlıq göstərir. Onun divizionu rusların sağ cinahına zərbə vurmaq istəyən türkləri geri oturtmuş və çoxlu qənimət, o cümlədən 2 top ələ keçirmişdir...

**18 may 1912 -ci il** - Həmədan ilə Qor arasında, Çardoli vilayətinin Şorca kəndində erməni əsilli Yepremin dəstəsi ***facia*** törədir (***Əbdülbaqixan Çardoli*** adlı bir şəxsin atdığı güllə iə 1868-ci ildə Gəncənin Barsil kəndində anadan olmuş erməni ***Yeprem (David Yantes Əsirbeqyan)*** özü də qətlə yetirilir. Onun meyidi mayın 23-də Tehrana gətirilərək orada basdırılır)...

**18 may 1918-ci il** - Rusiya çarı erməni ***Aram Manukyanı*** Vanın qubernatoru təyin edir və ruslara sadiq olduqları üçün ermənilərə öz təşəkkürünü bildirir...

**18 may 1920-ci il** - Sovet hərb gəmiləri İranın ***Ənzəli*** limanına gəlib çatır...

**18 may 1988-ci il** - Bakıda keçirilən mitinqdə Dağlıq Qarabağda və onun ətrafında yaranmış vəziyyətin normallaşmasına dair məsələlər qaldırılır, təkliflər





irəli sürülür. Rəsmi dövlət məmurları Qarabağdakı mövcud vəziyyətə etinasızlıq göstərirlər...

**18 may 1991-ci il** - Ağdam rayonunun ***Qarağacı*** deyilən ərazisində mövqe tutan azərbaycanlı hərbçilər ermənilər tərəfindən atəşə tutulur...

**18 may 1992-ci il** - Laçınlı igidlər - **Əşrəf Yediyar oğlu Nəsibov** (1958), **Sabir Əhməd oğlu Həsənov** (1964), **Bakir Əhməd oğlu Nəzərov** (1968), **Ələsgər Qədim oğlu İsaxanov** (1969), **Hidayət Mehbalı oğlu Təhməzov** (1956), **Zakir Kamran oğlu Əmirov, İbiş Eyvaz oğlu Əsgərov** (1926) ... Laçının ermənilər tərəfindən işğalı zamanı həlak olurlar. Bülüldüz kənd sakini **Zakir Kamran oğlu Əmirov** itkin düşür...

**18 may 1992-ci il** - Erməni silahlı birləşmələri Sədərək qəsəbəsinə hücum edirlər. **10** nəfər (**Mustafa Hüseyn oğlu Şirəliyev, Malik Əliyev, Hidayət Əjdər oğlu Ramazanov, Muxtar İsa oğlu Məmmədov** və başqaları) ***Sədərək*** döyüşlərində şəhid olurlar. **50** nəfər dinc sakin ağır yaralanır...

**18 may 1992-ci il** - Qarabağın qara qapısı sayılan cənnətməkan Laçın rayonu erməni silahlı birləşmələri tərəfindən işğal olunur. Çoxlu sayda azərbaycanlılar erməni yaraqlıları tərəfindən vəhşicəsinə qətlə yetirilir. Əhali doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalır. Laçın şəhəri və onun ətraf kəndləri dağıdılır. Onlarla ev və qiymətli tarixi-memarlıq inciləri məhv edilir...

**18 may 1992-ci il** - Saat *13.50*-də Laçın rayonunun ***Qarıqışlaq*** kəndində girov düşən yaşı **9-11** arasında olan **8** nəfər qız uşağı *(bu qızların 4-ü Hacılar kəndindən idi)* ermənilər tərəfindən vəhşicəsinə güllələnir...

**19 may 1918-ci il** - Naxçıvanın ***Badamlı*** kəndinə silahlı basqın edən erməni terrorçuları **3** nəfər azərbaycanlını qətlə yetirərək, **18** baş qaramalı oğurlayırlar...

**19 may 1921-ci il** - Azərbaycan SSR-nin I Konstitusiyası qəbul olunur. Azərbaycan İnqilab Komitəsi ləğv edilir. Ali qanunverici, sərəncamverici, nəzarətedici orqan olan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yaradılır...

**19 may 1989-cu il** - Naxçıvan MSSR-in ***Yaycı*** kəndinə hücum edən erməni yaraqlıları **1** nəfər kənd sakinini qətlə yetirirlər...

**19 may 1989-cu il** - N.İ.Rıjkovun sədrliyi ilə keçirilən Sov.İKP MK SB-nun millətlərarası münasibətlər məsələləri üzrə komissiyasının iclasında Dağlıq Qarabağda və onun ətrafında yaranmış vəziyyət müzakirə edilir. *Ə.X. Vəzirovun* və *S.Q.Arutyunyanın* məlumatları dinlənilir...

**19 may 1990-cı il** - Naxçıvanın ***Yaycı*** kənd sakini **Tağı Qasım oğlu Qasımov** erməni terrorçusu tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**19 may 1992-ci il** - Əlavə 7 azərbaycanlı girov da *"Sonasar"* əsir düşərgəsinə göndərilir. *"Sonasar"*da terrorçu-həkim ***Aida Saakyanın*** zəhərli iynə və preparatları ilə qətlə yetirilən uşaqlar üçün ayrıca qəbiristanlıq salınır. Dərə adlanan qəbiristanlıqda erməni muzdluları bir gündə **36** azərbaycanlını basdırırlar *(bu barədə əldə etdiyi ilk məlumatı 27 mayda BMT-nin Uşaq Fonduna diplomat Françesko Vendrell çatdırmışdır)*...

**19 may 1992-ci il** - Ağdam rayon mərkəzi atəşə tutulur. Dağıntılar olur...

**19 may 1992-ci il** - Laçın rayonunun **6** kəndində dar ağacları qurulur. **Hicran Əmirova** (1948-ci il təvəllüdlü), **Rəbiyyə Abdullayeva** (1950-ci il təvəllüdlü) və neçə-neçə başqaları bu dar ağaclarından asılır. "Alxaslı kəndindəki dar ağacından bəlkə də ana-bala olan **2** qadın asılmışdı" *(İran jurnalisti Səyyah Hüseyn: "Laçın dəftəri" kitabı. "Morteza qardaşları" nəşriyyatı, 1995, s. 52)*...

**20 may 1687-ci il** - Dövrünün görkəmli mütəfəkkiri **Dərviş Əmirəddin Ərdəbili** ölür...

**20 may 1903-cü il** - Gümrüdə daşnaq terrorçuları dinc türklərə rəğbəti olduğuna görə rus kahini **Vasilyevi** qətlə yetirirlər...

**20 may 1991-ci il** - Cəbrayıl şəhəri, Süleymanlı, Qışlaq, Şirik, Dolanlar kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**20 may 1991-ci il** - Şuşa rayonunun ***Turşsu*** kəndi sakini, **70** yaşlı **Məstan Həsənov** daşnaq terrorçusu tərəfindən oğurlanır...

**20 may 1992-ci il** - Zəngilan rayonunun ***Qazançı*** kəndi yaxınlığında *"UAZ-469"* markalı ***80-33 AQD*** dövlət nömrə nişanlı avtomaşın ermənilər tərəfindən silahlı basqına məruz qalır; nəticədə **2** nəfər həlak olur, **2** nəfər yaralanır...

**20 may 1993-cü il** - Tərtər, Goranboy, Füzuli, Cəbrayıl, Ağdam, Qubadlı rayonlarının əraziləri ermənilər tərəfindən top və qrad qurğularından atəşə tutulur. Dağıntılar olur...

**21 may 1805-ci il** - Şəki xanı Səlim xan da Rusiya hakimiyyətini qəbul edərək ***"Kürəkçay"*** müqaviləsini imzalayır. O, Rusiyaya hər il 7 min çervon bac verməyi öhdəsinə götürür. Şəki xanlığı Rusiyaya ilhaq edilir. 1819-cu ildə Şəki xanlığının ləğvi ilə əlaqədar olaraq **"Kürəkçay müqaviləsi"** də öz qüvvəsini itirir...

**21 may 1920-ci il** - Tərtərdə və Şəkidə yerli əhali kommunist işğalına qarşı üsyan törədirlər. Günahsız azərbaycanlılar arasında ölənlər və yaralananlar olur. Müqavimətin qarşısını almaq üçün Gəncədən Qarabağa süvari bölmələri





gətirilir. Ermənilər xəyanət edərək düşmən tərəfinə keçirlər. Üsyan amansızlıqla yatırılır......

**21 may 1988-ci il** - Sov.İKP MK-nın tapşırığı ilə Yerevana ezam olunmuş MK katibi A.N.Yakovlev *«demokratiya ideyaları»* ilə erməniləri dəstəkləyir. Digər bir MK katibi Y.K.Liqaçov Bakıda DQMV-in Ermənistan SSR-ə birləşdirilməsinin yolverilməz olduğunu bildirir. DQMV-da müəssisə və təşkilatlar öz işini dayandırır. Küçələrə axışan adamlar birləşərək ziddiyyətli çəkişmələrə girişirlər. Xankəndində qırmızı rəngli «Partiya, Lenin, Qorbaçov» şüarı altında qara hərflərlə yazılmış ***"Stalin, Beriya, Liqaçov"*** şüarları çoxluq təşkil edir. Tətilçilərə Yerevandan hər gün 5 təyyarə ərzaq göndərilir...

**21 may 1992-ci il** - 15 gün düşmən əlində olan ***Gövşad*** kənd sakini **Tahir Məmmədovun** cəsədi ermənilərdən pis vəziyyətdə geri alınır...

**21 may 1994-cü il** - Parisin ***"Kontinental"*** hotelində akademik A.Aqanbekyanın başçılığı ilə erməni icmasının üzvləri tərəfindən müzakirələr keçirilir, bununla da Azərbaycana qarşı ekoloji hücumun başlanğıcı qoyulur. *"Azərbaycan millətinə qarşı erməni millətinin Ekoloji proqramı"* sənədi erməni icmasının üzvləri tərəfindən müzakirə edilir...

**22 may 1916 -cı il** - Erməni silahlı quldurları ***Van*** şəhəri yaxınlığındakı **Kepriköy** kəndini yerlə yeksan edirlər. **200** nəfər türk vəhşicəsinə öldürülür...

**22 may 1919-cu il** - A.İ.Mikoyan Rusiya K(b)P MK-nə və V.İ.Leninə məlumat verərək bildirir ki, Ermənistan hökumətinin agentləri olan daşnaklar Qarabağın Ermənistana birləşdirilməsinə çalışırlar, lakin bu, Qarabağ əhalisi üçün Bakı kimi dolanacaq mənbəyindən məhrum olmaq və heç vaxt, heç nə ilə bağlı olmadığı Erivanla bağlanmaq demək olardı. Erməni kəndliləri özlərinin V qurultayında Sovet Azərbaycanını *"tanımağı"* və onunla *"birləşməyi"* qərara alırlar...

**22 may 1992-ci il** - Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələri atəşə tutulur. İtkilər və dağıntılar olur...

**22 may 1992-ci il** - Ağdam rayonunun bir sıra kəndləri ermənilər tərəfindən mərmi yağışına tutulur. Dağıntılar olur...

**23 may 1524-cü il** - Azərbaycan Səfəvi dövlətinin banisi, görkəmli sərkərdə, şair və dövlət başçısı **I Şah İsmayıl Xətai Sultan Heydər oğlu *Sayın*** aşırımında ölür...

**23 may 1905-ci il** - Ermənilər İrəvanda, Üçmüəzzində, Gümrüdə, Qırxbu-

laqda, Qazançıda, Kamanda azərbaycanlılara qarşı amansız **faciə** törədirlər. Bu ***qətliamlar*** nəticəsində yüzlərlə azərbaycanlı öldürülür...

**23 may 1991-cü il** - Laçının ***Qayğı*** qəsəbəsi ərazisində şiddətli döyüşlər gedir. **Şəfa Abduləli oğlu Qədimalıyev** döyüş zamanı həlak olur. O, Laçının münaqişə başlanandan öldürülən ***20-ci qurbanı*** hesab olunur...

**23 may 1993-cü il** - Füzuli və Cəbrayıl rayonlarının əraziləri ermənilər tərəfindən atəşə tutulur. İtkilər və dağıntılar olur...

**24 may 1905-ci il** - Ermənilər İrəvanda azərbaycanlı soyqırımı törətməyə cəhd edirlər. Erməni quldurları **11** nəfər azərbaycanlını - **4** qadın, **2** uşaq, **5** kişini amansızcasına qətlə yetirirlər...

**24 may 1914-cü il** - Qarabağın ***Baş Güneypəyə*** kəndinə hücum edən ermənilər ***Şirinsu*** adlanan dərədə **9** nəfər dinc sakini amansızlıqla qətlə yetirərək onların başlarını kəsirlər...

**24 may 1918-ci il** - Daşnaq terrorçular ***Naxçıvan*** şəhərinin ətraf kəndlərinə silahlı basqın edərək, **2** nəfəri öldürür, **1** qadını və **3** kişini isə yaralayırlar. **100** baş malqara aparılır...

**24 may 1920-ci il** - Azərbaycan İnqilab Komitəsi neft sənayesinin milliləşdirilməsi haqqında ***dekret*** verir...

**24 may 1989-cu il** - ABŞ-da (Kaliforniya, Nyu-Cersi ştatları) *"13-lər"* adlı terror təşkilatı (liderlərindən - hüquqşünas **Sirus Badamçıyan**) yaradılır...

**24 may 1990-cı il** - Erməni yaraqlıları *"Qrad"* qurğularından atdıqları atəşlərdən sonra Qazax rayonunun kəndlərinə hücum edirlər. Mülki əhali arasında ölənlər və yaralananlar olur...

**24 may 1992-ci il** - Ağdam rayonunun ***Papravənd*** kəndi ermənilər tərəfindən güclü atəşə tutulur. Kənd müdafiəçilərindən **Sahib Məmmədov** həlak olur, **1** nəfər isə ağır yaralanır...

**24 may 1992-ci il** - Zəngilan rayon icra hakimiyyətinin binasında xoşagəlməz olay baş verir. **2** nəfər azərbaycanlı özümüzünkülər tərəfindən güllələnərək qətlə yetirilir; **1** nəfər isə yaralanır...

**24 may 1993-cü il** - Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Tərtər rayonlarının əraziləri ermənilər tərəfindən güclü artilleriya atəşinə məruz qalır. Dağıntılar və tələfat olur...

**25 may 1387-ci il** - Qaraqoyunlular ***Təbrizə*** daxil olub, ***Şahəlini*** həbs edir...

**25 may 1918-ci il** - Daşnaq terrorçuları Zəngəzur qəzasının ***Şnif*** kəndinə soxularaq **95** nəfəri amansızlıqla qətlə yetirirlər...





**25 may 1918-ci il** - Erməni terrorçuları Ərəş qəzasının ***Kürto*** kəndinə basqın edərək **67** azərbaycanlını qətlə yetirirlər. Bıçaqlanan qadın və uşaqların meyidləri arxa tullanılır, bəziləri isə diri-diri divara mismarlanaraq öldürülür...

**25 may 1920-ci il** - Sovet rejiminə, kommunist işğalına, bolşeviklərin 28-ci atıcı diviziyasına qoşulan daşnaq terror qruplaşmalarına qarşı Gəncədə ***Cavad bəy Sıxlınskinin, Mirzə Məhəmməd Qacarın*** və ***Cahangir bəy Kazımbəyovun*** başçılığı ilə üsyan baş verir. Ölənlər və yaralananlar olur. **12.000** insan qanı Gəncəni dəhşətli al rəngə boyayır...

**25 may 1947-ci il** - Cənubi Azərbaycanda milli demokratik hərəkatın rəhbərlərindən biri **Firudin Qəni oğlu İbrahimi** edam edilir...

**25 may 1989-cu il** - SSRİ Xalq Deputatlarının I qurultayı keçirilir. Qurultayın gedişi televiziya ilə birbaşa yayımlanır. Erməni deputatlar burada üstünlük əldə edirlər. Azərbaycandan gedən deputatların passivliyi və M.S.Qorbaçovun erməniləri müdafiə etməsi nəticəsində qəbul olunan qərarlar ermənilərin xeyrinə olur...

**25 may 1992-ci il** - Ağdam rayonunun bir sıra yaşayış məntəqələri ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar və tələfat olur...

**25 may 1992-ci il** - Erməni birləşmiş silahlı qüvvələri Laçın rayonunun ***Güləbird*** kəndi istiqamətində güclü hücuma keçirlər...

**25 may 2004-cü il** - AŞPA-nın iclasında həmin qurumun Dağlıq Qarabağ üzrə məruzəçisi ***Terri Devis*** müəmmalı çıxış edir...

**26 may 1132-ci il** - Həmədan yaxınlığındakı ***Dey-Mərc*** adlanan yerdə şahzadələr-***Məsud*** və ***Səlcuq Şahın*** birləşmiş qüvvələri ilə ***Səncərin*** qoşunları arasında ***qanlı döyüş*** baş verir...

**26 may 1827-ci il** - Ruslar Naxçıvanı işğal edir...

**26 may 1918-ci il** - Daşnaq terrorçular ***Naxçıvan*** şəhərinin kənarında **2** azərbaycanlını amansızlıqla qətlə yetirirlər...

**26 may 1918 - ci il** - Zaqafqaziya Seymi özünü buraxmazdan əvvəl Seymin erməni sektoru İrəvan şəhərinin Ermənistana verilməsi haqqında Seymin Azərbaycan sektoruna müraciət edir. Bundan **2** gün sonra Azərbaycanin ***İrəvan*** şəhəri Azərbaycandan ayrı düşərək erməni terror təşkilatının mərkəzi qərargahlarından birinə çevrilir...

**26 may 1920-ci il** - Gəncədə Sovet rejiminə qarşı etiraz çıxışı baş verir. Bu, üsyana çevrilir. Üsyanın başlanmasına səbəb Azərbaycan diviziyasının komanda heyətinin XI Ordu qərargahından göndərilmiş zabitlərlə əvəz edilməsi

olur. Şəhər komendantı ***Məhəmməd Mirzə Qacar*** vəzifəsindən azad olunur. Podpolkovnik Cahangir Kazımbəyovun başçılığı ilə 3-cü atıcı alayı üsyana qalxır. Üsyana rəhbərlik üçün general ***Cavad bəy Şıxlinski, Məhəmməd Mirzə Qacar, Cahangir Kazımbəyov*** və başqalarının daxil olduqları ***Hərbi Şura*** yaradılır. Ətraf kəndlərin əhalisi də üsyançıların tərəfinə keçir. Üsyançılar çətinliklə də olsa, şəhərin ermənilər yaşayan hissəsini tuta bilirlər. İtkilər də çox olur. **6** gün davam edən şiddətli döyüşlər nəticəsində üsyançılar məhv edilir...

**26 may 1990-cı il** - Daşnaq terrorçusu tərəfindən Qazax rayonunun ***Əskipara*** kəndinin uşaq bağçası raket atəşinə tutulur...

**26 may 1991-ci il** - Şuşa-Ağdam marşrutu ilə hərəkət edən sərnişin avtobusuna ermənilər tərəfindən partlayıcı raketlər atılır...

**26 may 1992-ci il** - Goranboy rayonunun ***Todan və Şəfəq*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. **3** nəfər həlak olur, **8** nəfər yaralanır...

**27 may 1918-ci il** - Naxçıvan qəzasının ***Qaraxanbəyli*** kəndində yuva salan erməni terrorçuları ***Qızılca*** və ***Çeşməbasar*** kəndlərinə basqın edərək **6** nəfər azərbaycanlını qətlə yetirirlər. Girov düşən **2** nəfər də az sonra öldürülür...

**27 may 1990-cı il** - Erməni terrorçuları ***Xanlar (Göygöl)*** rayonunun ***Oktyabr*** kənd sakini ***T. İbrahimovu*** girov götürürlər...

**27 may 1990-cı il** - Dəfələrlə rüşvətxorluqda, kütləvi iğtişaşlar, oğurluqlar təşkil etməkdə təqsirli bilinərək həbs olunan və Qarabağda məşhur başdaşı, sinədaşı alverçisi olan qatı millətçi ***Arkadi Manuçarov*** SSRİ Prokurorluğunun istintaqı altında olsa da, hansı yolla isə Ermənistan SSR-in xalq deputatı seçilir. Nə SSRİ-nin hüquq-mühafizə orqanları, nə də Azərbaycan tərəfi bu məsələyə münasibət bildirmirlər...

**27 may 1993-cü il** - Ağdam şəhərinin qərbində yerləşən kəndlər ermənilər tərəfindən atəşə tutulur. Ölənlər və yaralananlar olur...

**27 may 1993-cü il** - Füzuli rayonunun Xocavənd rayonu ilə həmsərhəd kəndləri ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar və tələfat olur...

**28 may 1248-ci il** - Dövrünün görkəmli mütəfəkkiri, şairi ***Bəşir ibn Hamid ibn Süleyman ibn Yusif ibn Süleyman ibn Abdulla İmam Nəcməddin Əbu Nöman Cəfəri Təbrizi*** ölür...

**28 may 1805-ci il** - Azərbaycanın ***Şəki xanlığı*** ruslar tərəfindən tutulur...

**28 may 1812-ci il** - Osmanlılarla ruslar arasında Buxarestdə ***sülh müqaviləsi*** imzalanır...





**28 may 1841-ci il** - Xəzər vilayətinin tiyuldar bəylərinin torpaqlarının müsadirəsi haqqında qanun verilir...

**28 may 1914-cü il** - Bakı fəhlələrinin yeni ümumi tətili başlayır...

**28 may 1918-ci il** - İndiki Ermənistanın çox kiçik bir ərazisində Ararat Respublikası yaradılır və o, tezliklə qonşularına qarşı təcavüzkar siyasətə keçərək ərazisini genişləndirməyə başlayır...

**28 aprel 1920-ci il** - ADR -in hökumət başçısı **Nəsib bəy Yusifbəyli** amansızlıqla qətlə yetirilir; onun cəsədi itirilir...

**28 may 1993-cü il** - Cəbrayıl və Füzuli rayonlarının yaşayış məntəqələri Xocavənd rayonunun ermənilər yaşayan kəndlərindən atəşə tutulur. Ölənlər, yaralananlar və dağıntılar olur...

**29 may 1555-ci il** - Səfəvilərlə Osmanlılar arasında ***Amasiya sülh müqaviləsi*** imzalanır. ***Səfəvi-Osmanlı*** müharibəsinin birinci mərhələsi başa çatır...

**29 may 1610-cu il** - Böyük istedad sahibi, dövrünün görkəmli şəxsiyyəti, vəzir **Safi Xacə Hatəmbəy Etimadüddövlə** Urmiya şəhərinin ***Dəmdən qalası*** altında gözlənilmədən ölür...

**29 may 1905 - ci il** - Silahlı ermənilər İrəvanda müsəlmanlara qarşı **soyqırım** törədirlər...

**29 may 1918-ci il** - İrəvan şəhəri Cənubi Qafqazda sülh və əmin-amanlıq yaradılması məqsədilə bir siyasi mərkəz kimi ermənilərə güzəşt olaraq verilir. Amma ermənilər vədlərinə növbəti dəfə xilaf çıxaraq həm Cümhuriyyət, həm də Sovet hakimiyyəti illərində Azərbaycana qarşı ərazi iddialarını davam etdirirlər...

**29 may 1920 -ci il** -Bakının sabiq general -qubernatoru **Murad Gəray oğlu** ÇK-nın baş müstəntiqi, daşnaq Adamyan tərəfindən istintaqa cəlb edilərək günahı sübut olunmadan gecə güllələnir...

**29 may 1988-ci il** - Azərbaycan və Ermənistan rəhbərləri Ə.X.Vəzirovla S.Q.Arutyunyan Qazax rayonunda Dağlıq Qarabağ məsələsini müzakirə etmək məqsədilə görüşürlər...

**29 may 1991-ci il** - Şuşa-Ağdam avtomobil yolunda, ***Ağa körpüsü*** ilə ***Zərin bağı*** adlanan yer arasında Ağdama gedən maşın karvanı ermənilər tərəfindən partladılır. **10** nəfər azərbaycanlı müxtəlif dərəcədə qəlpə yarası alır, **2** avtobus tamamilə yararsız hala düşür; **3** digər nəqliyyat vasitəsi ciddi zədələnir. **2** avtobus partladılır...

**30 may 1990-cı il** - *Ağdam-Şuşa* yolu ilə hərəkət edən azərbaycanlılara məxsus **17** maşın Əsgəran ərazisində ermənilər tərəfindən daş-qalaq edilir. Xeyli adam bədən xəsarəti alır...

**30 may 1990-cı il** - Şahbuz rayonunun ***Kərməçataq,*** eləcə də ***Babək*** və ***Culfa*** rayonlarının Ermənistanla həmsərhəd kəndləri atəşə tutulur. Ölənlər və yaralananlar olur...

**30 may 1991-ci il** - Dağıstanın ***Xasavyurd*** stansiyası yaxınlığında *"Moskva-Bakı"* sərnişin qatarı erməni terrorçuları tərəfindən partladılır. **7** nəfər qadın olmaqla **15** nəfər həlak olur, **22** nəfər ağır yaralanır...

**30 may 1991-ci il** - Erməni yaraqlıları Ağdam rayonunun ***Əliağalı*** kəndinə basqın edirlər. **Məmməd Hüseynov** və **Alı Hacıyev** ağır güllə yarası alır. **3** nəfər - ***Elşən Talıbov, Elman*** və ***Nuru Cəfərov*** qardaşları girov götürülürlər...

**30 may 1992-ci il** - Erməni terrorçuları Ağdam rayonunun ***Əliağalı*** kəndinə hücum edir. **2** nəfər yaralanır, **3** nəfər girov götürülür...

**30 may 1992-ci il** - Ağdamın ***Gülablı, Abdal, Papravənd, Şelli*** və ***Əhmədavar*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. **3** nəfər yaralanır...

**31 may 1906-cı il** - Azərbaycanda I Dumaya *müəmmalı seçkilər* keçirilir...

**31 may 1920-ci il** - Gəncədə bir neçə gün qabaq C.B.Şıxlınskinin, M.M.Qacarın və C.B.Kazımbəyovun başçılığı ilə başlanan qanlı ***üsyan*** amansızlıqla yatırılır. XI Ordu Gəncəyə daxil olur...

**31 may 1920-ci il** - Gəncə üsyanı ilə əlaqəsi olmayan ADR-ın Səhiyyə və Sosial Təminat naziri vəzifəsində çalışmış **Xudadat bəy Rəfibəyov** üsyanda qarışıqlıq zamanı həlak olur...

**31 may 1990-cı il** - Şahbuz və Culfa rayonlarının bir neçə kəndləri erməni terrorçuları tərəfindən atəşə tutulur. Ölənlər və yaralananlar olur...

**31 may 1993-cü il** - Zəngilan, Qubadlı, Cəbrayıl rayonlarının əraziləri ermənilər tərəfindən güclü artilleriya atəşinə tutulur. Dağıntılar və itkilər olur...





# IYUN

**1 iyun 1905-ci il** - Silahlı erməni daşnaqları ***İrəvanda*** və ətraf kəndlərdə müsəlmanlara qarşı qırğınlar törədirlər...

**1 iyun 1918-ci il** - Andranikin qoşun birləşmələri bu gündən ***Dilican, Yelenovka (Sevan), Nov-Bayazit, Martuni, Dərələyəz*** istiqamətində hərəkət edərək iyunun ***17-də Naxçıvana*** çatır...

**1 iyun 1992-ci il** - Cəbrayıl rayonunun ***Qışlaq kəndi*** ermənilər tərəfindən atəşə tutulur. ***Sırxavənd, Orta Güneypəyə, Baş Güneypəyə, Kiçan, Bəşirlər, Manikli, Qaraşlar*** kəndləri ərazilərində döyüşlər gedir. İtkilər olur...

**1 iyun 1992-ci il** - Milli Qəhrəman **Şikar Davud oğlu Aslanov** Sur kəndi yaxınlığında ermənilərlə döyüşdə düşmən qumbarasından həlak olur...

**1 iyun 1993-cü il** - Erməni terrorçu qrupları ***Ağdam, Füzuli*** və ***Cəbrayıl*** rayonları istiqamətində bir neçə hücum əməliyyatı həyata keçirirlər. Dağıntılar və itkilər olur...

**2 iyun 1806-cı il** - Rus bölüm komandiri, mayor ***Lisaneviç*** gecəyarısı ailə üzvləri ilə Qaraqaya deyilən ərazidə düşərgə salmış hünərli və ədalətli Qarabağ xanı **İbrahimxəlil xanı**, eləcə də onun arvadını, oğlunu, qızını, nəvəsini və bir neçə yaxın adamını vəhşicəsinə qətlə yetirir...

**2 iyun 1806-cı il** - ***1400*** nəfər piyada, bir o qədər də süvaridən ibarət və **9** topu olan olan rus qoşunları general ***Qlazenapın*** komandanlığı altında Xəzər dənizi sahili boyu cənuba doğru hərəkət edir...

**2 iyun 1829-cu il** - Çaborio yanında *(Axalsıx vilayətində)* baş vermiş döyüşdə rus ordusu tərkibində vuruşan qarabağlılardan təşkil olunmuş ***3-cü*** Azərbaycan alayı türklərdən **3** bayraq, **2** top və xeyli əsləhə qənimət götürür...

**2 iyun 1905-ci il** - Ermənilər İrəvanın ***Mənkus*** kəndinə hücum edirlər. Silahsız kənd sakinləri qaçmağa başlayır. Ələ keçən **80** yaşlı əlil bir kişi ermənilər tərəfindən təndir şişi ilə əzab verilərək öldürülür...

**2 iyun 1907-ci il** - İnqilabi ruhlu millət vəkilləri çoxluq təşkil etdiyinə görə II Dövlət Duması da çar fərmanı ilə buraxılır...

**2 iyun 1989-cu il** - Ermənistan KP MK-nin I katibi ***S.Q.Arutyunyan*** Moskvada *«1989-cu il iyunun 1-nə Ermənistanda bir nəfər də olsun azərbaycanlı ailəsi qalmamışdır, halbuki hələ də Azərbaycanda **450.000** nəfər erməni yaşayır»* - sözləri ilə çıxış edir...

**2 iyun 1991-ci il** - Gülablı kəndi ermənilər tərəfindən atəşə tutulur. **1** nəfər ağır yaralanaraq xəstəxanada ölür...

**2 iyun 1991-ci il** - Əsgəranın **Harov** və **Kətik** kəndləri arasında ermənilərin raket bazası aşkar olunur...

**2 iyun 1992-ci il** - Ağdam şəhəri yaxınlığındakı postlar, eləcə də, ***Gülablı, Papravənd*** və ***Şelli*** kəndləri atəşə tutulur. Dağıntılar olur...

**2 iyun 1993-cü il** - Bakı dəmir yolu vağzalında sərnişin qatarının bir neçə vaqonunun partladılması nəticəsində dövlətə külli miqdarda maddi ziyan dəyir. Partlayışın icraçısı Rusiya vətəndaşı ***İqor Anatoliyeviç Xatkovski*** Ermənistan Respublikası Milli Təhlükəsizlik Baş İdarəsi Kəşfiyyat şöbəsinin rəisi, polkovnik ***Caan Ohanesyan*** və müavini ***Aşot Qalayan,*** eləcə də Rusiya əks-kəşfiyyat xidmətinin əməkdaşı mayor ***Boris Simonyan*** və ***V.S.Petrosyan*** tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək casusluq və terrorçuluq məqsədilə Azərbaycana göndərildiyini, böyük insan tələfatı ilə nəticələnəcək ***partlayışlar*** törətmək tapşırığı aldığını etiraf edir. İstintaqla sübuta yetirilir ki, həmin qrup 1991-1994-cü illərdə Rusiya ərazisindən Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar (bu partlayışlar nəticəsində **47** nəfər günahsız insan həlak olmuş, **83** nəfər yaralanmışdır) törətmişlər...

**3 iyun 829-cu il** - Ərəblərlə xürrəmilər arasında ***Həştadsər*** dağında güclü döyüşlər baş verir. **Məhəmməd ibn Hümeyd** döyüş zamanı öldürülür. Xürrəmilər də çoxlu sayda itki verir...

**3 iyun 1831-ci il** - *"Ticarət əsasnaməsi"* ilə yeni tarif tətbiq olunur. Yeni tarif əsasında Avropa malları daha Cənubi Qafqaz vasitəsilə üçüncü ölkəyə aparıla bilmir...

**3 iyun 1905-ci il** - Erməni silahlıları sübh tezdən İrəvan mahalındakı ***Güllücə*** kəndinə basqın edir. Mahmud adlı bir kənd sakini öldürülür. Bir qadın **8** güllə ilə qətlə yetirilib edam edilir. Camaat ***Tutya, Kamal, Damagirmə*** kəndlərinə sığınırlar...

**3 iyun 1905-ci il** - Şoragöl, Pənbək, Aleksandropol *(Abaran tərəflər)* erməni silahlıları ***Uşu*** adlı müsəlmanlar yaşayan kəndə hücum edirlər...

**3 iyun 1907-ci il** - II Dövlət Dumasının buraxılması və sosial-demokratların həbs edilməsi haqqında çar hökuməti fərman verir...

**3 iyun 1920-ci il** - Şuşada rus istilasına qarşı üsyan baş verir. Ölənlər və yaralananlar olur...

**3 iyun 1920-ci il** - Qafqaz Bürosunun qərarı ilə Dağlıq Qarabağın guya Ermənistana mənsub olması təsdiq edilir...





**3 iyun 1991-ci il** - DQMV-nin Harov kəndi yaxınlığında J.Sarkisyanın yük maşınında çoxlu sayda silah və hərbi sursat aşkar edilir...

**3 iyun 1992-ci il** - Ağdam rayonunun ***Gülablı, Şelli, Papravənd*** kəndləri atəşə tutulur. Dağıntılar və tələfat olur...

**3 iyun 1992-ci il** - Keçmiş Ağdərə rayonunun ***Qırmızıkənd, Marquşevan*** kəndləri uğrundakı döyüşlərdə **Mehman Nadir oğlu Həsənov, Vüqar Aslan oğlu Cəfərov, Vladimir Iliçeviç Lavdannikov** həlak olurlar...

**3 iyun 1993-cü il** - Ağdam rayonunun ***Qalayçılar, Cinli, Xaçındərbənd, Muğanlı*** kəndləri ermənilər tərəfindən müxtəlif növ silahlardan atəşə tutulur. Qalayçılar kənd sakini **Adil Əliyev** həlak olur, **2** nəfər yaralanır...

**4 iyun 1679-cu il** - Baş verən *zəlzələ* nəticəsində İrəvan şəhəri yerlə yeksan olur...

**4 iyun 1797-ci il** - İbrahimxəlil xanın qardaşı oğlu ***Məhəmməd bəyin*** *(təxəllüsü* ***"Batmanqılınc")*** təşəbbüsü ilə **Ağaməhəmməd şah Qacar Şuşada** sui - qəsd nəticəsində ***Abbas*** və ***Səfərəli*** tərəfindən öldürülür...

**4 iyun 1918-ci il** - Qubada təxribat törədən daşnaq terrorçuları girov götürdükləri **9** nəfərdən **5**-ni xüsusi amansızlıqla qətlə yetirirlər...

**4 iyun 1919-cu il** - Erməni silahlıları Şuşa ətrafındakı ***Üçmıxlar*** kəndində yerləşən milli ordu bölməsinə hücum edərək **3** nəfəri qətlə yetirir, **4** nəfəri isə yaralayırlar...

**4 iyun 1919-cu il** - Şuşada silahlı ermənilər Azərbaycan əsgərlərinə atəş açırlar; **3** əsgər öldürülür...

**4 iyun 1991-ci il** - Laçın rayonunun ***Zabux, Güləbird, Malıbəy, Cicimli*** kəndlərinin hərbçilərin müdafiə etdiyi postları ermənilər tərəfindən vertolyotdan avtomat və pulemyotlarla atəşə tutulur...

**4 iyun 1992-ci il** - Ağdam rayonunun ***Papravənd*** kəndi ermənilər tərəfindən qrad qurğularından atəşə tutulur. Kənd sakinləri - **Şükürov Şamil** və onun oğlu **Şükürov Ədalət** həlak olurlar...

**4 iyun 1993-cü il** - Gəncədə Surət Hüseynovun başçılığı ilə hərbi müxalifət qiyam qaldırır. Toqquşma nəticəsində **35** nəfər həlak olur, **135** nəfər yaralanır, **1.000** nəfərdən çox döyüşçü girov götürülür...

**4 iyun 1999-cu il** - Azərbaycanın ***Ağdaş*** bölgəsində baş verən *zəlzələ* nəticəsində çoxsaylı evlər zədələnərək dağılır...

**4 iyun 2001-ci il** - Dünyanın **56** ölkəsində mərkəzi olan Erməni Katolik Kilsəsinin ***Xankəndində*** *(Stepanakert)* özəyi yaradılır...

**5 iyun 1606-cı il** - *4* aylıq mühasirədən sonra qızılbaşlar **Gəncəni** ələ keçirirlər. Çoxlu sayda itkilər olur...

**5 iyun 1827-ci il** - Ruslarla iranlılar arasında ***Cavanbulaq döyüşü*** baş verir. Az sonra ruslar ***Abbasabadı*** işğal edirlər...

**5 iyun 1863-cü il** - Keçmiş çar ordusu zabiti ***Hacı Murtuzun*** başçılığı ilə Zaqatala dairəsində ***üsyan*** başlanır...

**5 iyun 1920-ci il** - Qarabağda baş verən antisovet üsyanının qarşısı qəddarlıqla alınır...

**5 iyun 1920-ci il** - Nuru paşa və polkovnik Zeynalovun başçılığı ilə Şuşada Sovet hakimiyyəti əleyhinə üsyan başlanır...

**5 iyun 1921-ci il** - RK(b)P-nin Qafqaz Bürosu Azərbaycanın tərkibində mərkəzi Şuşa olan Dağlıq Qarabağa geniş vilayət muxtariyyəti verilməsi haqqında qərar qəbul edir...

**5 iyun 1992-ci il** - Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun səyi ilə döyüşçü **Ələsgər Məmmədovun** cəsədi ermənilərdən pis vəziyyətdə geri alınır...

**5 iyun 1993-cu il** - Gəncə şəhərində hökumət qüvvələri ilə qiyamçılar arasında qarşıdurma davam edir; **50** nəfərədək adam öldürülür...

**6 iyun 1796-cı il** - Rus generalı ***V.Zubov*** Qubanı tutur...

**6 iyun 1836-cı il** - Rəhdar *(gömrük)* sistemi ləğv olunur...

**6 iyun 1863-cü il** - Leysan yağış altında ***Balakən-Zaqatala*** üsyançıları qalaya hücum edirlər, lakin qala toplarının atəşləri altında onlar pərən-pərən düşürlər. Tələfat verən üsyançılar geri çəkilmək məcburiyyətində qalırlar...

**6 iyun 1920-ci il** - Zaqatalada Sovet rejiminin özbaşınalığına qarşı Əhmədiyevin və Molla Hafiz Əfəndinin başçılığı ilə **12** gün davam edən ***xalq üsyanı*** başlayır...

**6 iyun 1920-ci il** - Ənzəlidə Gilan Respublikasının yaranması elan edilir və müvəqqəti hökumət təşkil olunur...

**6 iyun 1988 - ci il** - DQMV-ın mərkəzi Xankəndində erməni ekstremistləri azərbaycanlılara qarşı təhqiredici hərəkətlər edirlər. İnstitutda azərbaycanlı müəllimlər döyülərək təhqir edilir. Dərslər pozulur...

**6 iyun 1991-ci il** - Gorus istiqamətindən Qubadlı rayonunun ***Yuxarı Cibikli*** kəndinə doğru uçan vertolyotdan terrorçu daşnaqlar avtomat silahlarla kəndi atəşə tuturlar. Kənd sakini **Aydın Nadir oğlu Nağıyev** qətlə yetirilir...





**6 iyun 1993-cü il** - İmişlidən Cəbrayıla, qohumlarını yoluxmağa gəlmiş **Nail Fehruz oğlu Cəfərov** Süleymanlı kəndində erməni yaraqlısının atdığı atəşlə qətlə yetirilir...

**6 iyun 1993-cü il** - Zəngilan, Qubadlı, Ağdam, Cəbrayıl, Füzuli, Tərtər rayonlarının əraziləri ermənilər tərəfindən artilleriya atəşinə tutulur. Dağıntılar olur...

**7 iyun 1905 -ci il** - Erməni yaraqlıları müsəlmanlar yaşayan ***Uşu*** kəndinə güclü basqın edirlər. Müsəlmanlar sayca az olsalar da, bir müddət müqavimət göstərə bilirlər. Düşmənin çox və güclü silahlanmış olduğunu görən müsəlmanlar kəndi tərk etmək məcburiyyətində qalırlar. Ermənilər kəndə od vururlar...

**7 iyun 1724-cü il** - Altı günlük inadlı mübarizədən sonra İrəvan qalası təslim olur. Bu vuruşmalarda şəhərin müdafiəçilərindən **15 000** nəfər həlak olur...

**7 iyun 1918-ci il** - ***S.Lalayanın*** və ***T.Əmiryanın*** başçılıq etdikləri terrorçu qruplar ***Hacıqabul, Kürdəmir, Göyçay*** ərazilərində minlərlə dinc sakinləri qətlə yetirirlər...

**7 iyun 1968-ci il** - Erməni terrorçuları İrəvan şəhərinin ***Kiyevyan*** küçəsindəki ***1b*** binasının *15*-ci mənzilində yaşayan Azərbaycan tarixinin bilicisi, yazıları və danışıqları ilə erməni saxtakarlığını ifşa edən **İsarfil Məmmədovu** məhv etmək üçün **partlayış** törədirlər...

**7 iyun 1989-cu il** - Mardakertdəki terror birləşməsi ***Xatınbəyli*** kəndinin bağ sahəsində sovxoz fəhləsi kimi kənd salmış ***Gəncxana*** adlanan yaşayış məntəqəsindəki **22** azərbaycanlı ailəsinin üzərinə basqın təşkil edir. Fəhlələrin əmlakı, mal-qarası yandırılır, talan edilir. Yaşayış evləri dağıdılır; **121** nəfər azərbaycanlı ev-eşiyindən didərgin düşür. Kənd sakinlərindən **Fazil Qaybalıyev, Məstan Gəncəliyev, Ramiz Quliyev, Şiraslan Ağayev** əsir götürülür...

**7 iyun 1992-ci il** - Ağdam rayonunun ***Şelli, Papravənd*** kəndləri ara-sıra ermənilər tərəfindən atəşə tutulur...

**7 iyun 1993-cü il** - Tərtər, Füzuli, Zəngilan, Qubadlı, Ağdam və Cəbrayıl rayonlarının ermənilərlə sərhəd yaşayış məntəqələri ermənilər tərəfdən top və qrad qurğularından güclü atəşə tutulur. Tələfat və dağıntılar olur...

**8 iyun 1604-cü il** - İrəvan qalası ***I Şah Abbas*** tərəfindən tutulur. ***Şərif paşa*** başda olmaqla qarnizonun qalan hissəsi təslim olur. I Şah Abbas İrəvan qalasını osmanlılardan azad edərək, İrəvanın idarəsini Əmirgünə xan Qacara tapşırır...

**8 iyun 1905-ci il** - Erməni silahlı dəstələri ***Əştərək*** rayonunda, ***Alagöz (Ara-***

*qadz)* dağının cənub-şərq ətəyində yerləşən müsəlmanlar yaşayan Uşu kəndinə basqın edirlər. Çoxlu sayda azərbaycanlı *(südəmər uşaqlar, qocalar, qadınlar, kişilər)* öldürülür. Kənd yandırılır...

**8 iyun 1905-ci il** - Ermənilər ***Eçmiadzin*** və ***Üçkilsədə*** azəri türklərinə qarşı ***qırğın*** törədirlər...

**8 iyun 1906-cı il** - Səhər saat *10:30* radələrində ***Xıdırlı, Qiyaslı, Çuxurməhlə*** kəndlərinin sakinləri suvarma kanallarını təmizləyərkən *40* nəfər silahlı ermənilər tərəfindən ***güllələbaran*** edilir. *3* nəfər adam həlak olur, azərbaycanlılara məxsus olan *13* at da öldürülür...

**8 iyun 1918-ci il** - Zəngəzurun ***Şıxlı*** kəndinə basqın edən daşnaq terrorçular **95** nəfər dinc azərbaycanlını qəddarcasına qətlə yetirirlər. Kənd tamamilə dağıdılır...

**8 iyun 1944-cü il** - Azərbaycanın, Ağdaş rayonunun igid, ziyalı oğlu, Sovet İttifaqı Qəhrəmanı **Səməd Abdullayev** döyüş zamanı qəhrəmancasına həlak olur...

**8 iyun 1989-cu il** - DQMV-dakı ***«Qarabağ hərəkatı»*** ilə Ermənistandakı ***«Qarabağ»*** təşkilatının Xankəndində birgə iclası keçirilir. Onlar azərbaycanlılara qarşı təxribatları gücləndirməyi qərara alır...

**8 iyun 1990-cı il** - ***K.Bayramov və Ç.Mustafayev QAZ-24*** maşınla Gürcüstana gedərkən ***Marneuli*** ərazisində **5** terrorçu erməni tərəfindən girov götürülərək vəhşicəsinə döyülürlər...

**8 iyun 1990-cı il** - Şuşa-Mingəçevir avtobus marşrutunun sürücüsü ***F.Salahov*** Xankəndi ərazisində ermənilər tərəfindən vəhşicəsinə döyülür...

**8 iyun 1990-cı il** - *Laçın -Şuşa* marşrutunun sürücüsü ***A.Abbasov*** erməni gülləsindən ağır yaralanır...

**8 iyun 1992-ci il** - Ermənilərin Füzuli şəhərinə atdıqları mərmilərin tərkibi yoxlanılarkən onlarda zəhərləyici maddələr *(Sianidlər qrupu)* aşkar olunur...

**8 iyun 1992-ci il** - Qazax rayonunun ***Yuxarı Əskipara*** kəndi erməni yaraqlıları tərəfindən işğal edilir...

**8 iyun 1992-ci il** - Ağdam rayonunun ***Güllücə*** kəndi və ***Qarağacı*** postu erməni yaraqlılarının hücumuna məruz qalır. **1** nəfər Güllücə kənd sakini, **5** nəfər müdafiəçi həlak olurlar, **2** nəfər ağır yaralanır...

**9 iyun 1123-cü il** - Çar IV David Sultan Mahmudun Şirvandan getməsindən istifadə edərək yenidən ölkəyə soxulur. O, Şirvanşahın əsas iqamətgahı olan Gülüstanı tutur və bütün ölkəni işğal edir...

**9 iyun 1488-ci il** - Şahdağın ətəyində Şirvanşahların birləşmiş qüvvələri ilə





qızılbaşlar arasında döyüş baş verir. Qızılbaşlar məğlub olur. Ərdəbil hakimi, Səfəviyyə Ruhani Ordeninin başçısı **Şeyx Heydər** *(Şah İsmayıl Xətainin atası)* döyüşdə öldürülür. Hər iki tərəf çoxlu sayda itki verir...

**9 iyun 1905-ci il** - Erməni yaraqlıları saat *12*-də Eçmiədzin ərazisindəki ***Təkyə*** kəndinə hücum edir. ***Axund Məhəmməd Əli Mirzə Əbdülhüseyn Qazızadənin*** böyük imarətlərinə ermənilər tərəfindən od vurulur. Quran kitabları süngülərə keçirilir. Kənd yadırılaraq dağıdılır. ***Pərsi, Nəzrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, Qarabulaq, Irxu, Əngirsək*** kəndləri də ermənilər tərəfindən yandırılaraq dağıdılır...

**9 iyun 1905-ci il** - Eçmiədzin qəzasındakı ***Pərsi, Nəzrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, İrgu*** müsəlman kəndləri yenidən ermənilər tərəfindən yandırılıb külə döndərilir. Silahlı erməni quldurları buradakı dinc əhaliyə vəhşicəsinə divan tutur...

**9 iyun 1912-ci il** - III Dövlət Duması öz fəaliyyətini dayandırır...

**9 iyun 1920-ci il** - Banklar milliləşdirilir. Bunun Azərbaycan üçün zərəri olur...

**9 iyun 1920-ci il** - Zaqatalada Sovet hakimiyyəti əleyhinə-rus işğalına qarşı üsyan başlanır...

**9 iyun 1989-cu il** - Hamamlıya sığorta pulu almağa gedən **Rəhim Daşdəmirov** erməni millətçiləri - ***Sergey Poqosyan*** ilə ***Sergey Mədətyanın*** hücumuna məruz qalır. Rəhim Daşdəmirov onlar tərəfindən armatur çubuğu ilə döyülərək amansızlıqla qətlə yetirilir...

**9 iyun 1991-ci il** - Tərtər rayonunun azərbaycanlılar yaşayan Qapanlı kəndinin **2** dinc sakini **E.Həsənov** və oğlu **Ə.Həsənov** erməni terrorçuları tərəfindən amansızlıqla qətlə yetirilir, daha **2** nəfər isə ağır yaralanır...

**9 iyun 1992-ci il** - Milli Qəhrəman **Namiq Müslüm oğlu Allahverdiyev** və **Vüqar Mirəzbər oğlu Mürsəlov** Cəmilli yüksəkliyində erməni yaraqlıları ilə döyüşdə həlak olurlar...

**9 iyun 1994-cü il** - Kəlbəcər rayonunun ***Başlıbel*** kəndi ərazisində ilk uşaq basdırılan qəbiristanlıq yaranır. Bu uşaq qəbiristanlığı ermənilər tərəfindən uzun müddət gizli saxlanılmışdır...

**10 iyun 1314-cü il** - Azərbaycanın məşhur söz ustası, şair, alim, şeyx, vəzir **Hümaməddin Təbrizi Əlay oğlu** *116* yaşında Təbrizdə, hamamda isti sulu hovuzun üzərindəki taxta üstündə oturduğu zaman özündən gedir, hovuza düşür və orada ölür...

**10 iyun 1804-cü il** - Rusiya ilə İran arasında diplomatik münasibətlər kəsilir,

***müharibə*** başlayır...

**10 iyun 1905-ci il** - Eçmiədzində *(Üçmüəzzində)* azərbaycanlılar yaşayan **9** kənd ermənilər tərəfindən dağıdılır. Daşnaq terror birləşməsi Eçmiədzin qəzasının ***Toros*** kəndinə də silahlı basqın edirlər. Qətlə yetirilmiş **53** nəfər azərbaycanlının cəsədləri yandırılır. Kəndin taxıl zəmilərinə od vurulur...

**10 iyun 1905-ci il** - 1 iyundan başlanan erməni hücumları nəticəsində ***Cəbrayıl-Qaryagin*** bölgəsində ***Veysəlli, Qacar, Çəmən, Arış, Qışlaq, Mərzə*** kəndləri darmadağın edilir. Əhali ev-eşiyindən didərgin salınır. Bu kəndlər ermənilər tərəfindən qarət edilərək yandırılır...

**10 iyun 1918-ci il** - Bakı Soveti qoşunları ***Gəncə*** üzərinə yürüş edir. İtkilər olur...

**10 iyun 1918-ci il** - Daşnaq terrorçular Zəngəzurun ***Zabazadur*** kəndinin müsəlmanlar yaşayan məhəlləsinə hücum edərək orada amansız ***qətliamlar*** törədirlər. Əhali yurd-yuvasından didərgin salınır...

**10 iyun 1992-ci il** - Erməni silahlıları ***Qazax*** rayonunun ərazisinə basqın edirlər. **7** nəfər həlak olur, **30** nəfər ağır yaralanır...

**10 iyun 1993-cü il** - Rusiyanın müdafiə naziri P.Qraçevin əmri ilə ***60***-cı aviasiya polkunun ***SU-25*** hücum təyyarələri, ***936***-cı aviasiya polkunun ***SU-24*** bombardmançı təyyarələri Rusiya ərazisinə keçirilir...

**11 iyun 1908-ci il** - İsmayıllı rayonunun ***Tircan*** kəndində ***Muşadağ*** dağının sürüşməsi baş verir. Evlər çökür, tələfat olur...

**11 iyun 1918-ci il** - Gəncədə yuva salan daşnaqlar **15** nəfər süvarini, Milli Ordu əsgərini girov götürərək tikə-tikə doğrayırlar...

**11 iyun 1919-cu il** - Denikin təhlükəsi ilə əlaqədar olaraq Azərbaycanın bütün ərazilərində ***hərbi vəziyyət*** elan edilir...

**11 iyun 1920 -ci il** - Tərtər və Ağdam ərazilərini ələ keçirən Qızıl Ordu hissələri ***Şuşa*** istiqamətində irəliləyir...

**11 iyun 1947-ci il** - Azərbaycan Milli Hökumətinin baş naziri **Seyidcəfər Seyidcavad oğlu Pişəvəri Cavadzadə** ***(Xalxali)*** Şimali Azərbaycanda müəmmalı şəkildə həlak olur...

**11 iyun 1988-ci il** - Bakı şəhərinin ***Vorovski*** qəsəbəsində azərbaycanlı milis serjantı **Fazil İsmayılov** Krasnodardan gəlmiş erməni terrorçusu ***Aleksandr Ağabekyan*** tərəfindən qətlə yetirir. Nəzarətə alınan terrorçu gizli əlin köməyi ilə aradan çıxaraq ölkədən qaçırılır...

**11 iyun 1990-cı il** - Xankəndində **1** nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir...





**11 iyun 1990-cı il** - Kəlbəcərdə **1** nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə öldürülür...

**11 iyun 1990-cı il** - Erməni terrorçuları Kəlbəcər rayonunun ***Yellicə*** kəndinin çobanlarına basqın edir. ***B.Cəbrayılov*** və onun oğlanları ***Eldar*** və ***Ələkbər*** ağır güllə yarası alırlar. **Eldar** həlak olur. Terrorçular **600** baş qoyunu və **20** baş mal-qaranı sürüb aparırlar...

**11 iyun 1992-ci il** - Qazax rayonunun ***Qızıl Hacılı*** kəndi erməni terrorçuları tərəfindən işğal olunur...

**11 iyun 1992-ci il** - Cəbrayıl, Füzuli, Ağdam, Qazax, Tovuz, Goranboy, Kəlbəcər rayonlarının əraziləri ermənilər tərəfindən atəşə tutulur. Tələfat və dağıntılar olur...

**11 iyun 1993-cü il** - Ağdam rayonunun ***Cinli, Yeni Qaralar, Əliağalı*** kəndləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalır. Ölənlər və yaralananlar olur...

**11 iyun 1997-ci il** - ATƏT-in Minsk qrupu *"Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş"* adlanan birinci sənədi tərəflərə təqdim edir...

**12 iyun 1724-cü il** - Rusiya ilə Türkiyə arasında gedən hərbi-siyasi mübarizənin tarixində mühüm mərhələ olan ***İstambul müqaviləsi*** imzalanır. Azərbaycan ərazilərində Rusiya və Türkiyənin nüfuzu möhkəmlənir, ***Çıraqqala, Şamaxı, Cavad*** sərhəd məntəqələri yaradılır. ***Bakı, Dərbənd, Salyan, Lənkəran, Rəşt, Ənzəli*** Rusiyaya ilhaq edilir...

**12 iyun 1770-cı il** - Rusiya EA-nın həqiqi üzvü S.Q.Qmelinin ekspedisiyası Dərbəndə gəlir...

**12 iyun 1806-cı il** - Qarabağ xanı **İbrahimxəlil xan** ailə üzvləri ilə bir yerdə böhtan nəticəsində mayor ***Lisaneviçin*** dəstəsi tərəfindən ***faciəli*** surətdə öldürülür...

**12 iyun 1921-ci il** - Ermənistan Xalq Komissarları Soveti ***3 iyun*** qərar bəyannaməsini *(Qafqaz Bürosu özbaşına Dağlıq Qarabağın Ermənistana məxsus olmasının Ermənistan hökumət bəyannaməsində göstərilməsi barəsində qərar qəbul etmişdi)* dekretləşdirir...

**12 iyun 1830-cu il** - Şeyx Şaban və Həmzət bəyin başçılığı ilə ***Balakən üsyanı*** başlayır...

**12 iyun 1990-cı il** - Sudanın Əl-Übeydə yaşayış məntəqəsində ***"Erməni icmalarının birgə mübarizə ittifaqı"*** deyilən birlik yaradılır...

**12 iyun 1991-ci il** - Xocalı rayonunun ***Cəmilli*** kəndi ermənilər yaşayan ***Xə-***

*nəzək* kəndi tərəfdən atəşə tutulur. Dağıntılar olur...

**12 iyun 1992-ci il** - Qarabağda könüllü mücahidlər dəstəsi kimi formalaşan ***"Yevkrapa"*** terrorçu qrupunun ***"055"*** nömrəli ***Laden*** briqadasının üzvləri ilə müştərək iş birliyi qurulur...

**12 iyun 1992-ci il** - Goranboy rayonu ərazisində Azərbaycan silahlı qüvvələrinin ilk geniş hücum əməliyyatı - ***"Goranboy əməliyyatı"*** həyata keçirirlər. İtkilər olur...

**12 iyun 1992-ci il** - Füzuli şəhəri və şəhərin qərbində yerləşən kəndləri ermənilər tərəfindən artilleriya atəşinə tutulur...

**12 iyun 1992-ci il** - Milli Qəhrəman **Elşad Eynulla oğlu Hüseynov** Ağdam rayonu ərazisindəki döyüşdə həlak olur...

**12 iyun 1992-ci il** - Milli Qəhrəman **İnqilab Ələkbər oğlu İsmayılov** Əsgəran yaxınlığında, ***Daşbaşı*** kəndi ərazisində erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**12 iyun 1992-ci il** - **Araz Əhməd oğlu Pirimov** *Dəhraz* kəndi yaxınlığında minaya düşərək həlak olur...

**12 iyun 1992-ci il** - Milli Qəhrəman **Allahverdi Teymur oğlu Bağırov** döyüş meydanında minaya düşərək həlak olur...

**12 iyun 1992-ci il** - **İdris Oruc oğlu Hümbətov** ***Şişdağ, Göyrüclü*** əraziləri uğrunda erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**12 iyun 1992 - ci il** - Ağdam cəbhəsi istiqamətində şiddətli döyüşlər gedir. İtkilər verilir. Rayonun ***Əliağalı, Əlimədədli, Qalayçılar*** kəndlərində gedən şiddətli döyüşlərdə şəhid olanlar, ağır yaralananlar olur. Bu kəndlər əldən-ələ keçərək nəticədə ermənilər tərəfindən işğal olunur...

**12 iyun 1992-ci il** - Qazax, Tovuz, Kəlbəcər, Füzuli, Cəbrayıl rayonlarının yaşayış məntəqələri ermənilər tərəfindən atəşə tutulur. Dinc əhali arasında çoxsaylı itkilər olur...

**12 iyun 1992-ci il** - Azərbaycan Ordusu geniş miqyaslı hərbi əməliyyatlara başlayır. Demək olar ki, bir neçə ay davam edən bu kortəbii hücumlarda yüzlərlə əsgərimiz şəhid olur, onlarla kəndimiz düşmən əlinə keçir...

**12 iyun 1993-cü il** - Düşmən Ağdamın şimaldan **5** kilometr, cənubdan isə **12** kilometrliyinə yaxınlaşır. Ağdam şəhəri **2** tərəfdən mühasirəyə alınır. Ölənlər və yaralananlar olur. **Ağdam** cəbhəsində vəziyyət son dərəcə gərgin şəkil alır...

**12 iyun 1993-cü il** - Səhər Azərbaycan ordusunun hissələri ***Xanlar (Göygöl)*** və ***Naftalan*** rayonları tərəfdən ***Şaumyan*** rayon mərkəzinə doğru güclü zərbə vurur. İtkilər olur...

**12 iyun 1993-cü il** - Səhər Ermənistan ekspedisiya korpusu ***Ağdam*** və ***Ağdərə*** istiqamətlərində **6 min** nəfər canlı qüvvə, **75** zirehli texnika, **Mİ-24** vertolyotları ilə güclü hücuma keçir...





**12 iyun 1993-cü il** - Erməni silahlı qüvvələri güclü artilleriya hazırlığından sonra tanklarla Ağdam şəhəri istiqamətində ***Şelli, Mərzili, Yusifcanlı, Cinli, Yeni Qaralar*** kəndlərinə doğru irimiqyaslı hücuma keçirlər. Yusifcanlı kənd sakini **Xanış Abdullayev** və **Fizzə** adlı bir qadın qətlə yetirilir. **Şükür Cəfərov** maşını ilə birlikdə ermənilər tərəfindən yandırılır. Mərzilidə **3** nəfər dinc sakin qətlə yetirilir. ***Əlimədədli*** və ***Cinli*** kəndləri həndəvərində şiddətli döyüşlər gedir. Ağdamın **Əliağalı, Cinli, Yusifcanlı** və **Yeni Qaralar** kəndləri ermənilər tərəfindən işğal olunur. Tələfat və dağıntılar olur...

**12 iyun 1993-cü il** - Qarabağ döyüşlərində ağcabədili igidlər - **Kəriş Həsənalı oğlu Əliyev, Yaqub Surxay oğlu Məmmədov, Qaryağdı Niyaz oğlu Piriyev, Niyaz Umud oğlu Piriyev, Şahmar Mahmud oğlu Zeynalov** şəhid olurlar...

**13 iyun 1796-cı il** - *"Qızılayaq"* rus generalı ***V. Zubov*** Bakını və Şamaxını tutur...

**13 iyun 1905-ci il** - Çoxlu sayda silahlı erməni daşnaq əsgərləri çirkin niyyətlərlə indiki Füzuli rayonunun ***Qacar*** kəndinin *(o zaman Cəbrayıl qəzasının tərkibində idi)* sakinləri - ***Əhməd Kərbəlayı Qasım oğlunun, Tapdıq Yüzbaşının*** və digərlərinin evlərinə soxulurlar; Divanalılar kəndi də erməni basqınına məruz qalır. Xeyli sayda kənd sakini qətlə yetirilir...

**13 iyun 1920-ci il** - Şəkinin ***Baş Göynük*** kəndində sovet əleyhinə üsyan qalxır. *11*-ci ordunun *7*-ci süvari diviziyasını xilas etmək üçün buraya əlavə qüvvələr göndərilir. Köməyə gələn əlavə qüvvələrin yardımı ilə ordu hissələri üsyançıların müqavimətini qıra bilir. Xeyli sayda insan həlak olur. *Zaqatala-Şəki* şose yolu və başqa strateji məntəqələr yenidən ələ keçirilir...

**13 iyun 1920-ci il** - Bakı Sovetinin I təntənəli iclasında Bakı Sovetinə ***Ə.H.Qarayev*** sədr seçilir...

**13 iyun 1920-ci il** - Denikinin hücumu ilə əlaqədar Respublikada ***hərbi vəziyyət*** elan edilir...

**13 iyun 1923-cü il** - Şaduns Zaqafqaziya Ölkə Komtitəsinə Dağlıq Qarabağ Muxtar Vilayəti yaratmağın Zaqafqaziya ÖK-nin bilavasitə işi olduğunu yazır...

**13 iyun 1990-ci il** - Şuşalı sürücülər **N.Muxtarov** və **A.Quliyevin** avtomobilləri Əsgəranla Xankəndi arasında ermənilər tərəfindən daşqalaq edilir. Hər iki sürücü ağır bədən xəsarəti alır, maşınlar yararsız hala düşür...

**13 iyun 1992-ci il** - Xocalı *(Əsgəran)* rayonunun *Dəhraz* kəndi uğrunda şiddətli döyüşlər gedir...

**13 iyun 1992-ci il** - Cəbrayıl şəhəri ermənilər tərəfindən güclü raket atəşinə

məruz qalır...

**13 iyun 1992-ci il** - Tərtər rayonunun *"Torpaqtəpə"* döyüş səngərində düşmənin atdığı mərmidən Azərbaycanın Milli Qəhrəmanı **Şikar Şükür oğlu Şikarov** dünyasını dəyişir...

**13 iyun 1993-cü il** - Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli, Ağdam, Tərtər rayonlarının əraziləri ermənilər tərəfindən güclü artilleriya atəşinə məruz qalır. Dağıntılar, tələfat olur...

**14 iyun 1804-cü il** - İran qoşunları İrəvan istiqamətində hücuma keçir. Beləliklə, ***I Rusiya - Iran müharibəsi*** başlayır...

**14 iyun 1905- ci il** - Cəbrayıl *(Qaryagin)* qəzası ərazisində erməni silahlıları müsəlmanlara qarşı qırğınlar törədirlər...

**14 iyun 1918-ci il** - Osmanlı qoşunu ilə Maqalovun komandası altında Azərbaycan qoşunu Bakını mühasirə edir...

**14 iyun 1918-ci il** - Ermənilər Araz körpüsünü dağıdaraq *Yaycı* kəndinə doğru hücum edirlər. Kəndi talan edərək əhalisinin böyük bir hissəsini qətlə yetirirlər...

**14 iyun 1918-ci il** - Daşnaq terrorçuları *Xoy* şəhərini mühasirəyə alaraq onu top atəşinə tuturlar. Şəhərin azərbaycanlılardan ibarət təxminən *30.000* əhalisi qanına qəltan edilir...

**14 iyun 1920-ci il** - Yuxarı Qarabağın ***Şuşa*** və ***Xankəndi*** yaşayış məntəqələri XI Qızıl Ordu tərəfindən ələ keçirilir...

**14 iyun 1992-ci il** - Qazax rayonunun ***Aşağı Əskipara*** kəndi erməni yaraqlıları tərəfindən işğal olunur. Rayonun ***Çaylı*** kəndi ermənilər tərəfindən *"Kristal"* tipli raketlərdən atəşə tutulur. Kəndin **2** nəfər dinc sakini şəhid olur; **7** ev dağıdılır...

**14 iyun 1992-ci il** - Azərbaycan Silahlı Qüvvələri Goranboy istiqamətində ***Aşağı Ağcakənd, Yuxarı Ağcakənd*** qəsəbələrini, ***Xarxaput, Mənəşli, Gülüstan, Talış*** kəndlərini düşməndən azad edir. ***Şampritpuk*** yüksəkliyindəki mövqelər ələ keçirilir. Goranboy ərazisi Azərbaycan hərbi hissələrinin nəzarəti altına keçir. Bu döyüşlərdə **16** nəfər həlak olur, **100** nəfər yaralanır...

**14 iyun 1992-ci il** - Əsgəran *(Xocalı)* rayonunun ***Dəhraz*** kəndi ərazisində baş verən qanlı döyüşdə yaralanmış komandiri ***Məqami Abdullayevi*** xilas edərkən Azərbaycanın Milli Qəhrəmanı **Rövşən Nəriman oğlu Əliyev** həlak olur...

**14 iyun 1993-cü il** - Erməni hərbi birləşmələri şimaldan Ağdamın **5**, cənubdan isə **14** kilometrliyinə çatırlar...

**14 iyun 1993-cü il** - Tərtər, Fuzuli, Ağdam, Zəngilan, Qubadlı və Cəbrayıl





rayonlarının yaşayış məntəqələri ermənilər tərəfindən atəşə tutulur...

**14 iyun 2009 - cu il** - İranda ***iyunun*** *12*-də keçirilmiş Prezident seçkilərindən narazı qalan qüvvələr ölkənin bir sıra iri şəhərlərində ***nümayişlər*** keçirirlər. Bu aksiyalar zamanı hökumət qüvvələri tərəfindən əsasən azərbaycanlılardan ibarət olan **10** nəfər öldürülür, **20** nəfər yaralanır...

**15 iyun 1722-ci il** - I Pyotr Azərbaycan dilində ***"Bəyannamə"*** nəşr etdirərək Azərbaycanın vilayətlərinə - Şirvana və Xəzəryanı bölgələrə göndərir. Bundan məqsəd rus ordusunun işğalçı yürüşlərini ört-basdır etmək, əhalidə ruslara qarşı inam yaratmaq, onların işğalçı niyyətləri daşımadığını bildirmək idi...

**15 iyun 1810-cu il** - Mehri rayonu ruslar tərəfindən işğal edilir...

**15 iyun 1810-cu il** - Mirzə Əbülhəsən xan Lojanın **35** həqiqi üzvü və İngiltərənin məşhur lojlarından olan **5** nəfər ali məqamlı üzv olan qonaqların iştirak etdiyi mərasimdə çox böyük cah-cəlalla framasonçu lojaya üzvlüyə daxil olur...

**15 iyun 1918-ci il** - Göyçay ərazisinə girən daşnaq qruplaşmaları ***Cəngi*** kəndində 20 nəfəri, ***Qaravəlli*** kəndində **2** nəfəri, ***Qarabucaq*** kəndində **7** nəfəri, ***Ərəb-Mehdibəy*** kəndində **83** nəfəri qəddarcasına qətlə yetirirlər. Həmin kəndlər, eləcə də **Mustafalı** və **Sadalı** kəndləri ermənilər tərəfindən talan olunur...

**15 iyun 1919-cu il** - Qaniçən ***Andranik Ozanyan*** Fransada Poqos Nubar paşanın vasitəçiliyi ilə Fransa prezidenti Raymon Puankare tərəfindən qəbul edilir. Qəbul zamanı *«Erməni Harribaldisi»* ***Andranik*** müttəfiqlərin ***Qarabağ*** məsələsindəki mövqeyindən narazı olduğunu bildirir və qeyd edir ki, *«erməni xalqı dünya müharibəsi dövründə Türkiyə və Almaniyaya qarşı Antanta ilə çiyin-çiyinə vuruşmuşdur; bu, Fransanın və onun müttəfiqlərinin haqq işini bərqərar etmək uğrunda böyük mübarizəsinə ermənilərin töhfəsidir».* Antanta rəhbərləri bu kimi təbliğatların təsiri altına düşür...

**15 iyun 1920-ci il** - Sovet qoşunları ***Şuşanı*** tutur. Tevonun daşnaq mauzerçi dəstələri Şuşa qəzasını işğal etmək məqsədilə bir sıra əməliyyatlar keçirir...

**15 iyun 1920-ci il** - Qarabağda sovet rejiminə qarşı Azərbaycan Milli Ordu hissələri ***üsyan*** edir...

**15 iyun 1988-ci il** - Masis rayonunda ermənilər **40** azərbaycanlı evini yandırırlar. **1** saat ərzində **480** ailə doğma ocağından çıxarılır...

**15 iyun 1988-ci il** - Ermənistan SSR Ali Sovetinin sessiyası DQMV-nin Ermənistana birləşdirilməsi barədə qərar qəbul edərək SSRİ Ali Sovetinə müraciət edir ki, buna razılıq versin...

**15 iyun 1992-ci il** - Milli Qəhrəman **Etibar Firudin oğlu Hacıyev** Aşağı Ağcakənd yaxınlığında maşınla minaya düşərək həlak olur...

**15 iyun 1992-ci il** - Erməni silahlı birləşmələri Füzuli rayonunun ***Qacar*** kəndinə hücum edir, amma ağır zərbə alaraq geri çəkilmək məcburiyyətində qalır. Kənddə ciddi dağıntı və tələfat olur...

**15 iyun 1992-ci il** - Erməni komandanlığı əks-zərbə endirməyə, bir qədər əvvəlki vəziyyəti bərpa etməyə cəhd göstərir...

**15 iyun 1992-ci il** - Dağlıq Qarabağda ***Əsgəran*** və *Xanabad* yaşayış məntəqələri uğrunda azərbaycanlılarla ermənilər arasında ağır döyüşlər gedir...

**15 iyun 1992-ci il** - Milli Qəhrəman **Elşad Eynulla oğlu Hüseynov** ***Fərrux*** kəndi ərazisində erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**15 iyun 1992-ci il** - Milli Qəhrəman **Kazımağa Mövsüm oğlu Kərimov** ermənilərlə döyüşdə həlak olur...

**15 iyun 1992-ci il** - Dağlıq Qarabağın ***Sırxavənd, Qazançı, Naxçıvanik*** kəndləri uğrunda gedən döyüşlərdə ağdamlı igidlər - **Sərdar Qaraş oğlu Vəliyev, Əlcəzair Cəmil oğlu Vəlimməmmədov, Elzamin Yusif oğlu Yusifov, Oqlay Çərkəz oğlu Yusifov, Vahid Vəli oğlu Zeynalov, Kamal İsa oğlu Rzayev, Qərib Talış oğlu Rzayev, Elbrus Teymur oğlu Novruzov, Rasim Rüstəm oğlu Nəsirov, Məhəmməd Hümbətalı oğlu Musayev, Əlfi Tahir oğlu Muxtarov, Vilayət Oruc oğlu Məhərrəmov, Telman Şamil oğlu Məmmədov, Nizami Məcid oğlu Məmmədov, Şirin Muxtar oğlu Məmmədov, Səyyaf İsmayıl oğlu Məmmədov, Bakir Bayram oğlu Mehdiyev, Bəşir Müxbir oğlu Qasımov, Muxtar Cahid oğlu Qasımov, İskəndər Ramazan oğlu Xankişiyev, Elçin Eldar oğlu Hüseynov, Mahir Savalan oğlu Hüseynov, Rafiq Hüseyn oğlu Hüseynov, Azər Telman oğlu Həsənov, Tanrıverdi Ənvər oğlu Göyüşov, Hafiz Kamal oğlu Əsgərov, Mübariz Kəriş oğlu Ələkbərov, Allahyar Niftalı oğlu Əliyev, Məmməd Heydər oğlu Əliyev, İbrahim Səfər oğlu Əhmədpur, Firəddin Lənkəran oğlu Cəfərov, Adil Əli oğlu Cəfərov, Natiq Yunis oğlu Camalov, Eldəniz Qaçay oğlu Atakişiyev, Xaqani Kazım oğlu Aslanov, Mübariz Ərşad oğlu Ağayev, Hüläməddin Yaqub oğlu Abdullayev** həlak olurlar...

**15 iyun 1992-ci il** - Qarabağın ***Gülüstan*** kəndi uğrunda döyüşlər gedir. İtkilər var...

**15 iyun 1993-cü il** - Ağdam rayonunun ***Əlimədədli, Qalayçılar, Xaçındərbətli, Kürdlər, Mollalar, Çullu*** kəndləri erməni hərbi birləşmələri tərəfindən işğal olunur. Bu kəndlərin əhalisi doğma dədə-baba yurdlarından didərgin salınır...

**15 iyun 1996-cı il** - Moskvada ATƏT-in Minsk qrupu çərçivəsində Dağlıq Qarabağ probleminin *«həllinə»* dair danışıqlar keçirilir. Erməni tərəfi müxtəlif bəhanələr gətirərək ***Şuşa*** və ***Laçının*** azad edilməsini qeyri-məqbul hesab edir. Laçının azad edilməsi məsələsində erməni tərəfinin etdiyi təklif həmsədrlərin fikirləri ilə üst-üstə düşür...





**16 iyun 1827-ci il** - Ruslar *Naxçıvanı* ələ keçirir...

**16 iyun 1905 - ci il** - Ağoğlan monastrında erməni şovinistləri düşünülmüş şəkildə müsəlmanları guya onlarla birlikdə Çar hökumətinə qarşı silahlı döyüşə çağırır. Daşnaklar ***Cəbrayıl*** və ***Zəngəzur*** qəzalarında qətllər törədərək çoxlu sayda azərbaycanlını öldürürlər...

**16 iyun 1991-ci il** - Goranboy rayonunun ***Başqışlaq, Todan*** və ***Buzluq*** kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur...

**16 iyun 1992-ci il** - Cəbrayıl şəhəri, ***Qışlaq, Sur*** kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur...

**16 iyun 1992-ci il** - İtkilər hesabına olsa da ***Gülüstan*** kəndi düşməndən təmizlənir...

**16 iyun 1993-cü il** - Ağdam rayonunun ***Əliağalı, Qaralar, Əlimədədli, Kürdlər, Qalayçılar*** kəndlərinə erməni yaraqlıları hücum edirlər. Qalayçılar kənd sakinləri **Məmməd Nəsirov** və **Ziyad Bayramov** daşnaqlar tərəfindən vəhşicəsinə qətlə yetirilirlər. 2 nəfər yaralanır...

**16 iyun 1993-cü il** - Füzuli, Cəbrayıl, Ağdam, Tərtər rayonlarının əraziləri ermənilər tərəfindən güclü artilleriya atəşinə tutulur. Dağıntılar və tələfat olur...

**16 iyun 1993-cü il** - Gecə 2 saatlıq artilleriya hazırlığından sonra erməni hərbi birləşmələri Ağdərə bölgəsində ***Ulu Qarabəy*** *(keçmiş Metsşen)*, ***Madagız, Lüləsaz*** *(keçmiş Akop Komari)* kəndləri istiqamətində və eləcə də Ağdam rayonunun ***Əlimədədli, Qalayçılar, Əliağalı*** kəndləri istiqamətlərində güclü hücuma keçir. Erməni qoşunları səhər tezdən ***Ağdam*** cəbhəsində irəliləyərək qəfil zərbə nəticəsində ***Cinli, Qalayçılar, Əlimədədli*** və ***Əliağalı*** kəndlərini ələ keçirərək *Ağdam-Ağdərə* yoluna doğru irəliləməyə cəhd edir. İtkilərimiz olur...

**17 iyun 1797-ci il** - Saray adamlarından ***Sadıq Gürcü*** *(mesxetiyalı Andrey)*, isfahanlı *Xodadad*, mazandaranlı ***Abbas***, eləcə də ***Səfərəli*** adlı bir nəfər gecə sui-qəsd təşkil edərək **Ağaməhəmməd şah Qacarı** Şuşada faciəli şəkildə qətlə yetirirlər...

**17 iyun 1905-ci il** - Erməni yaraqlıları indiki Füzuli rayonunun ***Veysəlli, Divanalılar, Yağlıvənd, Dilağarda*** və ***Qacar*** kəndlərinə hücum edirlər...

**17 iyun 1918-ci il** - Erməni zabiti Andranikin qoşun birləşməsi irəliləyərək ***Naxçıvana*** çatır...

**17 iyun 1919 -cu il** - Daşnaq ***Aşot Məlik Movsesyanın*** terrorçu dəstəsi ***Ordubad*** şəhərinə basqın edərək **qətllər** törədirlər...

**17 iyun 1984-cü il** - Ermənistanda fəaliyyət göstərən terror təşkilatlarla əlaqədə olan *Vartanov* soyadlı bir erməni terrorçusu Bakıda **106** saylı sərnişin avtobusunu partladır. Nəticədə **2** uşaq anası olan bir qadın həlak olur, bir neçə adam yaralanır...

**17 iyun 1988-ci il** - Azərbaycan SSR Ali Soveti Ermənistan SSR Ali Sovetinin **15 iyun** sessiyasındakı qərarına rədd cavabı verdikdən sonra Ermənistanda yaşayan azərbaycanlıların vəziyyəti ağırlaşır. ***Masis*** və digər rayonların kəndlərinə ermənilər tərəfindən kütləvi basqınlar edilir...

**17 iyun 1992-ci il** - Qarabağın ***Talış*** kəndi uğrunda şiddətli döyüşlər gedir...

**17 iyun 1992-ci il** - Ağdərə uğrunda döyüşdə igid tərtərli **Əli Firudin oğlu Vəliyev** həlak olur...

**17 iyun 1992-ci il** - Ağdam şəhəri ermənilər tərəfindən tank və toplardan atəşə tutulur. Tələfat və dağıntılar olur...

**17 iyun 1993-cü il** - Erməni silahlı qüvvələrinin Ağdam rayon mərkəzi istiqamətində hücumu davam edir. Ağdərə zəbt olunur. Düşmən *Ağdam-Ağdərə* şose yolunu kəsməyə çalışır. Ağdam şəhəri və onun ətraf kəndləri toplardan və qrad qurğularından güclü atəşə tutulur. İtkilər olur...

**17 iyun 2005-ci il** - Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə ***Paris*** şəhərində uğursuz ***Azərbaycan-Ermənistan*** danışıqları başlayır...

**18 iyun 1722-ci il** - I Pyotr Həştərxandan keçərək Azərbaycan ərazilərinə ***yürüş*** edir...

**18 iyun 1735-ci il** - İrəvan yaxınlığındakı ***Bağavars*** *(Yağavərd)* boğazında Arpaçayı müharibəsində bəzi siyasilərin təhriki ilə Nadirlə döyüş aparan Şərq qoşunları komandanı **Abdulla paşa,** Osmanlı sultanının kürəkəni **Mustafa paşa** və **50.000** Osmanlı əsgəri həlak olur...

**18 iyun 1807-ci il** - Ruslarla türklər arasında baş vermiş ***Gümrü*** yaxınlığındakı döyüşdə türk qoşunları məğlub olur...

**18 iyun 1905-ci il** - Silahlı erməni daşnaqları ***Cəbrayıl*** *(Qaryagin)* qəzası ərazisində azərbaycanlılara qarşı dəhşətli qırğınlar törədirlər...

**18 iyun 1920-ci il** - XI Ordunun bölmələri Zaqatalaya daxil olurlar. Burada bölgə əhalisinə amansız divan tutulur...

**18 iyun 1988-ci il** - SSRİ AS RH *"Dağlıq Qarabağ barəsində məsələyə dair Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetinin qərarları haqqında"* qərar qəbul edir. SSRİ Ali Sovetinin sessiyasında Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması təsdiq edilsə də, buna qarşı çıxışlar da olur...

**18 iyun 1992-ci il** - Qarabağın *Talış kəndi* düşməndən təmizlənirsə də, bu,





itkilər hesabına olur...

**18 iyun 1993-cü il** - Azərbaycan ordusunun hərbi hissələri Ağdamın bütün perimetri boyu hücuma keçərək düşməni hər yerdə bir neçə kilometr geri çəkilməyə məcbur edirlər.Amma bu döyüşlər itkilərsiz olmur...

**19 iyun 1826-cı il** - Abbas Mirzənin başçılığı ilə İran qoşunları Azərbaycanın şimal torpaqlarına hücum edir. ***Rusiya - İran müharibəsi*** başlayır...

**19 iyun 1918-ci il** - Daşnaq terrorçular *Ağdaş-Qəbələ* yolunda **Baxşalı** adlı azərbaycanlını ailəsi ilə birlikdə məhv edirlər. Baxşalı dərisindən zoğ açılıb diri-diri ağacdan asılaraq amansızlıqla qətlə yetirilir...

**19 iyun 1919-cu il** - Şuşanın Xanbağı yaşayış məntəqəsinə basqın edən silahlı ermənilər **2** nəfər günahsız azərbaycanlını amansızlıqla qətlə yetirirlər...

**19 iyun 1920-ci il** - ADR-in hökumət rəhbəri vəzifəsində çalışmış **Fətəli xan Xoyski** muzdlu erməni qatillərinin ***(Aram Yerkayan, Musaq Qriqoryan)*** əli ilə Tiflisdə qətlə yetirilir...

**19 iyun 1920-ci il** - Ermənistan hökuməti Dağlıq Qarabağın Ermənistanın ayrılmaz hissəsi olması haqqında ***bəyanat*** verir...

**19 iyun 1929-cu il** - Azəarbaycan SSR XKS-nin qərarına əsasən ***Nuxa*** adı dəyişdirilərək ***Şəki*** adlandırılır. Azərbaycan MİK bunu təsdiq edir...

**19 iyun 1988-ci il** - Zəngibasarın ***Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar*** kəndinə hücum edən daşnaq terror qrupları fiziki güc tətbiq edərək əhalini döyür, söyür, əmlaklarını talan edirlər. Ermənistan ərazisində müdafiəsiz qalmış **10** mindən çox azərbaycanlı ***SSRİ-Türkiyə*** sərhədlərinə toplaşaraq orada gecələmək məcburiyyətində qalır. **20** nəfər azərbaycanlı bu münaqişələrdə müxtəlif dərəcəli xəsarət alır...

**19 iyun 1991-ci il** - Xankəndi-Şuşa avtomobil yolunda ermənilər hərbi qulluqçulara basqın edir. Ölən və yaralananlar olur...

**19 iyun 1991-ci il** - *"Yevlax-Laçın"* avtomobil yolunun 106-cı kilometrliyində *5459* saylı hərbi hissəyə məxsus olan ***"UAZ-469"*** markalı avtomaşın ermənilər tərəfindən partladılır. **3** nəfər həlak olur, **3** nəfər isə ağır yaralanır...

**19 iyun 1992-ci il** - Qarabağın ***Qaralar*** kəndi uğrunda qızğın döyüşlər gedir...

**19 iyun 1992-ci il** - Milli Qəhrəman **Elşad Məmmədhənifə oğlu Yəhyayev** Aranzəmi kəndi uğrunda gedən döyüşdə erməni gülləsinə tuş gəlir...

**19 iyun 1992-ci il** - Gecə ***Yeni Qaralar*** kəndinə ön mövqeyə tələsən igid komandir Şirin Mirzəyevin əyləşdiyi maşın geri qayıdarkən minaya düşür. **Şirin Vəli oğlu, Mübariz Fariz oğlu, Araz Cavanşir oğlu Mirzəyevlər** əbədiyyətə qovuşurlar...

**19 iyun 2001-ci il** - Amerika Erməni Demokratik Şurası tərəfindən ***(Max-desyanın qrupu)*** Dağlıq Qarabağın *"özünümüdafiə dəstələri"*nə **30** adda müxtəlif kompüter və elektron avadanlığı dəstləri *"hədiyyə"* edilir. **8** nəfərlik mühəndis qrupu Ermənistanın Türkiyə və Azərbaycan sərhədləri istiqamətində həmin elektron avadanlıqlarının quraşdırılmasmda iştirak edir...

**19 iyun 2006-cı il** - Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsinin dağlıq hissəsində ermənilər tərəfindən qondarma ***"Dağlıq Qarabağ Respublikasının Parlamenti"***nə ***"seçkilər"*** keçirilir...

**19 iyun 2010-cu il** - Ermənilərin atəşkəs rejimini pozması nəticəsində Tərtər rayonunun ***Çaylı*** kəndi istiqamətində ermənilərlə döyüşərək düşmənin bir neçə *(50-dən çox)* əsgərini məhv edən Azərbaycan ordusunun **22** yaşlı igid, qeyrətli oğlu, gizir **Mübariz Ağakərim oğlu İbrahimov** qəhrəmanlıqla həlak olur. Azərbaycan Respublikası Prezidentinin **22 iyul 2010-cu il** tarixli sərəncamına əsasən **Mübariz İbrahimov** Azərbaycanın ərazi bütövlüyünün və müstəqilliyinin qorunmasında müstəsna xidmətlərinə görə Azərbaycanın Milli Qəhrəmanı (ölümündən sonra) fəxri adına layiq görülür...

**20 iyun 1747-ci il** - Nadir şah Əfşar Xorasanın ***Xabuşan*** vilayətinin ***Xoşab*** kəndində qardaşı oğlu ***Əliqulu*** tərəfindən hazırlanan sui-qəsd nəticəsində öldürülür...

**20 iyun 1805-ci il** - P.M.Karyaginin Qarabağda törətdiyi zülmlərdən qəzəblənən İbrahim xanın İranda yaşayan oğlu ***Əbdül Fəttah ağa*** *(bəzi mənbədə **Əbül-fət** kimi də göstərilib)* onun qoşunu ilə ***Əsgəran*** yaxınlığında döyüşür...

**20 iyun 1905-ci il** - Bakı faytonçuları tətil keçirirlər...

**20 iyun 1918-ci il** - Andranikin quldur hərbçi dəstəsi ***Naxçıvana*** daxil olub orada talanlar və qırğınlar törədir...

**20 iyun 1918-ci il** - Daşnaq terrorçular ***Nuxa*** yolunda biçindən qayıdan 23 nəfəri amansızlıqla qətlə yetirirlər...

**20 iyun 1920-ci il** - Müsavatçılarla XI ordu döyüşçüləri arasında vuruşma olur. XI ordu ***Zaqatalanı*** tutur...

**20 iyun 1988-ci il** - Masis rayonunun azərbaycanlı əhalisinin çoxu evlərindən qovularaq ***Rəncbər*** kənd sərhəd zastavasında sığınacaq tapır...

**20 iyun 1988-ci il** - DQMV-də təcili növbədənkənar sessiya çağırılır. Ermənilərin məqsədi qərarla Azərbaycanın tərkibindən çıxmaq və Azərbaycan bayrağını Ermənistan bayrağı ilə əvəz etməkdən ibarətdir. Ermənilər zalda fit çalaraq gələn nümayəndə heyətinin üzvlərini (Sov.İKP MK-nin məsul işçisi L.Şişov, Azərbaycan SSR Ali Sovetinin sədri S.Tatlıyev, Azərbaycan KP MK katibi V.Konavalov, AHİŞ sədri L.Rəsulova və general Krayev) ələ salırlar. Hətta bir müddət binanın üzərindəki Azərbaycan bayrağı erməni bayrağı ilə əvəzlənir...





**20 iyun 1993-cü il** - Zəngilan, Qubadlı, Ağdam, Füzuli, Cəbrayıl, Tərtər rayonlarının əraziləri ermənilər tərəfindən artilleriya atəşinə tutulur. Dağıntılar olur...

**21 iyun 1503-cü il** - Həmədan yaxınlığında, Almaqulağı döyüşündə ***Sultan Murad*** məğlub olur. Ağqoyunlu dövlətinin ikinci qolu dağıdılır. Şah I İsmayıl Şirazı ələ keçirir. ***Ağqoyunlu*** dövlətinin varlığına son qoyulur...

**21 iyun 1806-cı il** - Dərbənd Rusiyanın ixtiyarına keçir...

**21 iyun 1830-cu il** - Tikilməkdə olan ***Yeni Zaqatala*** rayonunda baş verən dağlılarla ruslar arasındakı döyüşdə rus qoşunları qalib gəlir...

**21 iyun 1918-ci il** - Daşnaq erməni terrorçuları Nuxa qəzasının *Ağdam-Hacılı* yolunda azərbaycanlıların karvanına basqın edirlər. Terrorçular tərəfindən **60** nəfər qətlə yetirilir. **200** arabalıq əmlak talan olunur...

**21 iyun 1990-cı il** - Erməni terrorçuları ***Şuşa*** şəhərində ezamiyyətdə olan ***E.Əliyevi*** girov götürürlər...

**21 iyun 1990-cı il** - Laçın rayonunun ***Xumarta*** kəndində anadan olmuş **Kamal Bəşir oğlu Səlimov** (1937) və onun 14 yaşlı oğlu **Elçin Kamal oğlu Səlimov** (1976) Köhnəkəndin ***Seyidlər*** adlanan örüş sahəsində naxır otardıqları zaman ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilirlər. Atanın gözləri çıxarılır, dili kəsilir; oğlunun kəllə nahiyəsi isə süngü ilə deşilir...

**21 iyun 1991-ci il** - Ağdərə *(Mardakert)* rayonunun ***Çərəkdar*** kəndi yaxınlığında ***Baş Güney*** kənd sakini **Maarif Həsənov** erməni terrorçusu tərəfindən qətlə yetirilir...

**21 iyun 1992-ci il** - Ağdam rayonunun ***Cinli*** və ***Əlimədədli*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**21 iyun 1992-ci il** - Keçmiş Ağdərə rayonunun ***Madagiz*** kəndi uğrunda gedən döyüşlərdə igid tərtərlilər - **Vüqar Sahib oğlu Həsənov, Mehman Asif oğlu Dadaşov, Yaşar Mikayıl oğlu Quliyev** şəhid olurlar...

**21 iyun 1992- ci il** - Ermənilər ***Ağdam*** ərazilərini güclü atəşə tuturlar. ***Əliağalı*** kəndində **4** nəfər həlak olur, **1** nəfər yaralanır. ***Əlimədədli*** kəndində kənd sakini **Aybəniz Hüseynova** yaralanır, onun körpə uşağı həlak olur. ***Şıxbabalı*** kəndində X sinif şagirdi **Mehman Şirinov** və **Telman Quliyev** həlak olur. Ağdam DAM-nin rəisi ***Vaqif Rzayev***, şərab zavodunun gözətçisi ***Rəsul Hüseynov*** yaralanırlar...

**21 iyun 2004-cü il** - Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Praqada görüşü keçirilir...

**22 iyun 1806-cı il** - Dərbənd ruslar tərəfindən işğal olunur...

**22 iyun 1915 ci il** - Erməni terrorçu birləşmələri Vanın vaxtında qaçıb canını qurtara bilməyən bütün müsəlman əhalisini - türkləri, azərbaycanlıları, kürdləri vəhşicəsinə öldürürlər...

**22 iyun 1918-ci il** - Andranik dəstəsi ilə qəflətən ***Culfaya*** *(Naxçıvan MR)* hücum edib burada qırğın törədir...

**22 iyun 1920-ci il** - Bakıda bir sıra qəzaların inqilab komitələrinin ***I qurultayı*** toplaşır...

**22 iyun 1941-ci il** - Almaniya SSRİ-yə hücum edir. Faşist İtaliyası da SSRİ-yə müharibə elan edir. **350 000** nəfər azərbaycanlının da ölümü ilə nəticələnən **Böyük Vətən müharibəsi** başlayır...

**22 iyun 1991-ci il** - Agdərə rayonunun **Sırxavənd** kəndinin qoyun sürülərinə basqın edən daşnaq terrorçular dinc sakin olan azərbaycanlı çobanı qətlə yetirərək, **200** başdan çox qoyunu sürüb aparırlar...

**22 iyun 1992-ci il** - Milli Qəhrəman **Səyavuş Həsən oğlu Həsənov** Ağdərə rayonunun ***Qarsiravan*** *(Qırmızıkənd)* kəndi yaxınlığında erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**22 iyun 1992-ci il** - **Hidayət Lənkəran oğlu İbrahimov** kəşfiyyata gedərkən qəzaya düşərək həlak olur...

**22 iyun 1992-ci il** - **Araz Əliyev** ermənilərlə Naxçıvanik kəndi uğrunda gedən döyüşlərdə həlak olur...

**23 iyun 1828-ci il** - Rus qoşunları qəti hücumla Qarsı alırlar...

**23 iyun 1908-ci il** - Tehranda əksinqilabi çevriliş baş verir. Ölkədə xüsusi irtica qüvvələri ***("Fetovvat", "Səadət", "İslamiyyə")*** təşkil edilir. Konstitusiya tərəfdarlarına və demokratik qüvvələrə qarşı divan tutulur. Şahın göstərişi ilə rus kazak dəstələri tərəfindən *(komandir-polkovnik Lyaxov)* məclisin və paytaxtdakı Azərbaycan şurasının binası top atəşinə tutulur. Xalq döyüşə hazırlığa başlayır. Mərkəz Tehrandan Təbrizə köçürülür...

**23 iyun 1918-ci il** - Azərbaycanda yaranmış gərgin vəziyyətlə əlaqədar bütün ölkə ərazisində hərbi vəziyyət elan olunur...

**23 iyun 1918-ci il** - Silahlı erməni quldur birləşmələri *(Andranik və başqaları)* sübh çağı ***Xoy*** şəhərinin yaxınlığında şəhər əhalisini atəşə tuturlar. Yerli





əhali güclü müqavimət göstərirsə də, itkilər olur...

**23 iyun 1993-cü il** - Ağdam rayonunun ***Yeddixırman, Şelli*** kəndləri yaxınlığındakı yüksəkliklər ermənilərin əlinə keçir...

**23 iyun 2005-ci il** - Qarabağ probleminin mövcudluğu ilə yaranmış AŞPA-nın alt komitəsinin birinci iclasında ilk növbədə alt komitənin sədri, AŞPA-nın keçmiş baş katibi ***Lord Rassel Constonun*** *"bəsit"* məruzəsi dinlənilir...

**24 iyun 1135-ci il** - Xəlifənin qoşunları ***Bisütun*** dağları ətrafında ***Məsud*** tərəfindən darmadağın edilir...

**24 iyun 1724-cü il** - Osmanlı və Rusiya dövlətləri arasında bağlanan İstanbul müqaviləsinə əsasən, İrəvan, Gürcüstan və Xəzəryanı bölgələr istisna olmaqla bütün Azərbaycan Türkiyəyə, ***Xəzərsahili ərazilər, Dərbənd, Bakı, Salyan, Lənkəran, Rəşt*** və ***Ənzəli*** zolağı Rusiyaya verilir...

**24 iyun 1903-cü il** - Lənkəranda *6,5* bal gücündə zəlzələ baş verir. Tələfat və dağıntılar olur...

**24 iyun 1930-cu il** - Ağdam şəhərində keçirilən BSİ-nin Fövqəladə Üçlüyünün iclasının protokolundan çıxarışa əsasən antisovet təbliğat apardığına görə Şuşa rayonunun ***Malıbəyli*** kənd sakini, **45** yaşlı ziyalı **Əsgər Qəmbər oğlu Hacıyev** güllələnir...

**24 iyun 1988-ci il** - Arkadi Volski Moskvanın xüsusi nümayəndəsi kimi Dağlıq Qarabağ Muxtar Vilayətinə göndərilir...

**24 iyun 1993-cü il** - Əsgərlərimiz ermənilərlə Ağdam şəhərindən **5** km şimalda mövqe döyüşləri aparırlar. İtkilər olur...

**25 iyun 1718-ci il** - I Pyotrun yaxın adamı ***Volınski*** Azərbaycanı tərk edir. Bir müddət Azərbaycanda xaos yaranır...

**25 iyun 1914-cü il** - Qarşılıqlı kənd təsərrüfatı kredit cəmiyyəti açılır...

**25 iyun 1938-ci il** - Azərbaycan SSR XƏİK DT baş mayoru ***Rayevin*** əmri ilə 33 nəfər güllələnir...

**25 iyun 1989-cu il** - Bakı şəhər sakini **Əli Məhəmməd oğlu Nəbiyev** Kərkicahan yaşayış məntəqəsində yaşayan qardaşıgilə gedərkən yolda erməni yaraqlıları tərəfindən qətlə yetirilir...

**25 iyun 1991-ci il** - Ağdərənin ***Mahal yurdu*** yaylağında daşnaq terrorçular M.F.Axundov adına sovxozun çobanını amansızlıqla qətlə yetirirlər...

**25 iyun 1991-ci il** - ABŞ Senatı ermənilərin Azərbaycan ərazisindən *«zorla köçürülməsini»* pisləyən qətnamə qəbul edir...

**25 iyun 1993-cü il** - Ağdam rayonunun ***Boyəhmədli*** və ***Papravənd*** kəndləri ermənilər tərəfindən işğal olunur...

**25 iyun 2000-ci il** - Beyrutda Ümumerməni Kilsə Şurası ***"Erməni üçün bərabər pay bölgüsü"*** qətnaməsi çıxarır...

**26 iyun 1723-cü il** - I Pyotrun qoşunu Bakıya daxil olur...

**26 iyun 1826-cı il** - 1 gün sonra Gəncədə üsyana başlamaq planlaşdırılır...

**26 iyun 1826-cı il** - Naxçıvan rus qoşunları tərəfindən döyüşsüz alınır...

**26 iyun 1918-ci il** - Əhalisinin ***91,9*** faizinin müsəlman olduğu ***Zaqatala*** mahalına *(dairəsinə)* aid məsələ Azərbaycanla Gürcüstan arasında *"müzakirə"* edilir...

**26 iyun 1918-ci il** - Xoy şəhəri erməni işğalından azad edilirsə də, şəhər əhalisinin hər dörddən biri ermənilər tərəfindən qətlə yetirilir...

**26 iyun 1990-cı il** - Erməni yaraqlıları Gədəbəy rayonunun ***Göyəli*** kəndinə basqın edirlər. Dinc sakinlərdən **İ. Nuriyev, M. Nağıyev** və **İ. Orucov** vəhşicəsinə qətlə yetirilir. **İ. İsmayılov** itkin düşür. ***İ. Muradov*** yaralanır...

**26 iyun 1991-ci il** - Ağdərə rayonunun ***İmarət Qərvənd*** kənd sakini ***Murovdağ*** yolunda ermənilər tərəfdən qətlə yetirilir; digər kənd sakini isə ağır yaralanır...

**26 iyun 1992-ci il** - Azərbaycanın Milli Ordu hissələri ***Ağdərə*** istiqamətində düşmənin müqavimətini qıraraq ayrı-ayrı yaşayış məntəqələri uğrunda ölüm-dirim mübarizəsinə qalxır. İtkilər olur...

**26 iyun 1993-cü il** - Ağdərə istiqamətində şiddətli döyüşlər gedir. Düşmən ***Ağdərəni*** zəbt edir. Ermənilər böyük qüvvə ilə - *4* piyada alayı, *2* tank batalyonu *(60 tank), 5* artilleriya divizionu *(120 artilleriya sistemi), 1* vertolyot eskadrilyası *(10-a qədər Mİ-24 vertolyotu), 1* desant hücum alayı ***Ağdam*** üzərinə yeriyir. *30*-a qədər əsgərimiz şəhid olur...

**26 iyun 1993-cü il** - Ağdam rayonunun ***Boyəhmədli, Qızıl Kəngərli, Sofulu, Mollalar, Papravənd, Qarapirim*** kəndləri erməni silahlı birləşmələri tərəfindən işğal olunur. İtkilər olur...

**27 iyun 1607-ci il** - Qızılbaşlar ***Şamaxını*** ələ keçirir, şəhəri osmanlılardan azad edirlər. Hər iki tərəf çoxlu sayda itkilər verir. ***Şamaxı qalası*** təslim olur...

**27 iyun 1722-ci il** - Çar I Pyotrun qoşunu Xəzər dənizinin kənarı ilə hərəkət edərək Qafqaza daxil olur...

**27 iyun 1826-cı il** - Gəncədə ruslara qarşı üsyan başlayır...





**27 iyun 1918-ci il** - Göyçay ətrafında ***Nuru paşa*** ordusunun əsas qüvvələri ilə Sovet döyüşçüləri arasında qanlı döyüşlər baş verir...

**27 iyun 1918-ci il** - Azərbaycan ilə Gürcüstan arasında Denikinə qarşı birgə mübarizə aparmaq üçün hərbi saziş imzalanır. Ermənistan bu sazişə qoşulmayıb, Denikinlə müqavilə bağlayaraq ***Qarabağ*** və ***Dilican*** tərəfə qoşun yeridir. ADR mövcud vəziyyəti nəzərə alıb, həmin istiqamətlərdə qoşun yerləşdirməyə məcbur olur...

**27 iyun 1921-ci il** - Azərbaycan KP MK Siyasi Bürosu və Təşkilat Bürosunun iclası keçirilir. ***Azərbaycan-Ermənistan*** sərhədləri haqqında Tiflis komissiyasının işi müzakirə olunur...

**27 iyun 1923-cü il** - Zaqafqaziya Ölkə Komitəsinin Plenumunun iclası Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə ***Şaduns*** və ***Qaragözovun*** məruzəsi əsasında bir ay müddətində Dağlıq Qarabağın muxtar vilayət kimi ayrılmasını tapşırır...

**27 iyun 1993-cü il** - Ağdam, Füzuli, Cəbrayıl rayonlarının əraziləri ermənilər tərəfindən artilleriya atəşinə tutulur. Çoxlu dağıntılar və tələfat olur...

**28 iyun 1192-ci il** - Qəzvin yaxınlığında ***Toğrul*** ilə ***Qutluq-İnanc Mahmud*** və tərəfdarlarının **15** minlik qoşunları arasında şiddətli döyüş baş verir. Qutluq İnancın döyüşçülərinin əksəriyyəti III Toğrulun tərəfinə keçir. ***Qutluq İnanc*** məğlub olur...

**28 iyun 1458-cü il** - Cahanşah Teymurilərin paytaxtı olan ***Herata*** daxil olur, Şahruxun taxtında oturur...

**28 iyun 1722-ci il** - Matyuşkinin başçılığı ilə hərəkət edən rus donanması Bakını tutur...

**28 iyun 1918-ci il** - Göyçay ətrafındakı döyüşdə birləşmiş ***Azərbaycan-Türk*** hərbi qüvvələri Bakı Sovetinin qoşunları ilə qanlı mübarizə aparır...

**28 iyun 1918-ci il** - Böyük Britaniya hökuməti qoşunların Bakıdan çıxarılması haqqında ***Paris*** sülh konfransına məlumat verir. İngilis qoşunlarının İtaliya ordusu ilə əvəz olunması haqqında qərar qəbul olunursa da, İtaliyadakı hökumət dəyişikliyi buna imkan vermir...

**28 iyun 1991-ci il** - Gecə saat ***1-də*** Azərbaycan Respublikası ***Martuni*** *(Xocavənd)* rayonunun ***Qaradağlı*** kəndi ermənilər yaşayan məntəqələrdən toplardan, qrad qurğularından, qumbaraatanlardan, pulemyot və avtomatlardan bir neçə saat atəşə tutulur. ***"Qarabağ"*** terror təşkilatından olan silahlı erməni quldurlarının hücum əməliyyatı zamanı atdıqları atəş nəticəsində yatmaqda olan insanların bağırtıları, ah-nalələri göylərə yüksəlir. ***20*** ev yanır. Kəndin ***4*** kilo-

metrliyində, *Vərəndəli* adlanan sahədə yerləşən ferma da od tutub yanır. Fermadakı evlərə soxulan azğınlaşmış erməni quldurları *6* nəfər ( *3* kişi, *3* qadın) günahsız, məsum insanın həyatına son qoyurlar. Onları diri-diri yandıraraq qətlə yetirirlər. **Tohid Cəlil oğlu Məmmədov, Bakir Qaçay oğlu Tağıyev, Məxmər Məcid qızı Hüseynova, Səbiqə Mürsəl qızı Əliyeva** öldürülərək pis formaya salınır. Onların meyidləri üst-üstə qalaqlanaraq yandırılır. **2** övlad atası, **29** yaşlı **İltifat Əjdər oğlu Şirinov** ilə onun anası, **55** yaşlı **Qaragöz Həbil qızı Şirinovanın** meyidləri isə qucaqlaşmış vəziyyətdə yanıb külə dönmüş halda tapılır. Ölüm anında görünür, ana balasını son dəfə bağrına basıb qucaqlamışdır. **3** nəfər kənd sakini - **Gülarə Hüseynova, Mənzər Tağıyeva** və onun oğlu *Talıb* ağır yaralanırlar. Həmin vaxt ermənilər fermadan **130** baş iribuynuzlu mal-qaram da oğurlayıb aparırlar...

**28 iyun 1992-ci il** - Cəbrayıl rayonundan istiqamət götürmüş hücum əməliyyatlarında cəbrayıllı igidlər - **Süleymanov Ərəstun, Rüstəmov Pəhləvan, Nəcəfov Elsevər, Məmişov Kazım, Məmmədov Hümbət, Quliyev Rufiz, Qasımov İlham, Qasımov Mübariz, Hüseynov Rafiq, Fərzəliyev Zeynal, Əsədov Fuad, Cəbrayılov Barat, Asanov Novruz** həlak olurlar; **80** nəfər ağır yaralanır...

**28 iyun 1992-ci il** - Füzuli rayonunun **Qacar** kəndi ermənilər tərəfindən qrad qurğularından güclü atəşə tutulur. **4** nəfər dinc sakin həlak olur, **14** nəfər isə yaralanır...

**28 iyun 1992-ci il** - Bütün ***Füzuli-Cəbrayıl*** cəbhəsi boyu uğursuzluqla nəticələnən geniş hücum əməliyyatı həyata keçirilir. Çoxlu sayda Azərbaycan əsgəri şəhid olur və ya itkin düşür. Füzulili əsgərlərdən - **Əsəd Baba oğlu Abbasov, Mətləb İmamverdi oğlu Allahverdiyev, Saleh Balaca oğlu Hüseynov, Fəyyaz Mövsüm oğlu İbayev, Kamil Kərim oğlu Kərimov, Rasim Səxavət oğlu İbrahimov** *(Milli Qəhrəman)*, **Vəli Famil oğlu Məmmədov, Ələkbər Kamal oğlu Musayev, Nadir Şəmsəddin oğlu Namazov, Mahir Qəzənfər oğlu Əliyev, Əli Qaçay oğlu Cavadov** və daha bir neçə nəfər həlak olurlar...

**28 iyun 1992-ci il** - *Yuxarı Veysəlli-Qırmızı Bazar* istiqamətlərində bütün cəbhə boyu olan hücum əməliyyatı zamanı Milli Ordunun zabiti, baş leytenant ***Sahib Hüseyn oğlu Hüseynov*** kəllə-beyin travması alaraq ağır yaralanır...

**28 iyun 1992-ci il** - Cəbrayıl şəhəri mərmi atəşinə tutulur. Tələfat və dağıntılar olur. Tanınmış ziyalı **Məhəmməd Hüseyn oğlu Əliyev,** evdar qadın **Qızbəs Topuş qızı Əhmədova** və yay tətilində xalası Səmayəgilə qonaq gəlmiş Sumqayıt şəhər **22** saylı məktəbin 5-ci sinif şagirdi **Pünhan Bəyiş oğlu Xanalıyev** həlak olurlar. **30** nəfər dinc sakin yaralanır...

**28 iyun 1992-ci il** - Ağdam rayonunun ***Papravənd*** kəndi erməni silahlılarının hücumuna məruz qalır. *8* nəfər həlak olur, *3* nəfər girov düşür...





**28 iyun 1993-cü il** - Ağdam şəhəri intensiv olaraq toplardan və qrad qurğularından atəşə tutulur. Şəhərin *4-5* kilometrlik qərb hissəsində qızğın döyüşlər gedir. Ölənlər və yaralananlar olur...

**29 iyun 1861-ci il** - *"Cənubi Qafqaz diyarının mərkəzləşdirilməsi haqqında əsasnamə"* təsdiq olunur...

**29 iyun 1906-cı il** - Erməni terrorçuları Qafan rayonunun ***Mədən*** bazarını dağıtdıqdan sonra müsəlmanlar yaşayan ***Karxana*** kəndinə hücum edirlər. Gizli sığınacaqda daldalanan 30-a qədər qadını da qətlə yetirdikdən sonra onlar ***Xələc, Saldaşlı, İncəvar, Daşnov, Qatar, Oxçu, Sabadin, Aralıq, Pirdavan, Atqız*** kəndlərini də dağıdıb qarət edirlər...

**29 iyun 1991-ci il** - Goranboy rayonunun ***Mənəşli*** kəndi ermənilər tərəfindən atəşə tutulur...

**29 iyun 1992-ci il** - Keçirilən döyüş əməliyyatı zamanı 1965-ci il təvəllüdlü **Cavanşir İsmayıl oğlu Nəqiyev** həlak olur...

**29 iyun 1992-ci il** - Erməni yaraqlıları Tərtər rayonunun ***Həsənqaya*** kəndinə hücum edirlər. **1** nəfər azərbaycanlı kənd müdafiəçisi həlak olur, **5** nəfər yaralanır...

**29 iyun 1992-ci il** - Ağdam rayonunun ***Papravənd*** kəndi yenidən erməni silahlılarının hücumuna məruz qalır...

**29 iyun 1993-cü il** - Ağdam şəhəri ermənilər tərəfindən şiddətli raket atəşinə tutulur. Ölən və yaralananlar olur...

**29 iyun 1993-cü il** - Ağdamın ***Qızıl Kəngərli*** və ***Xramord*** yaşayış məntəqələri ərazilərində şiddətli döyüşlər gedir. Ölənlər və yaralananlar olur. Erməni terrorçu birləşmələri tərəfindən ***Ağdam-Ağdərə*** yolu bağlanır. Cəbhə xətti artıq Ağdam şəhərinin **3** kilometrliyindən keçir...

**30 iyun 1527-ci il** - Arpaçay sahilində şiddətli döyüş baş verir...

**30 iyun 1625-ci il** - I Şah Abbas ***Əlikitçay*** dərəsində gürcüləri ağır məğlubiyyətə uğradır...

**30 iyun 1717-ci il** - Pyotrun yaxın adamı Volınski ilə Fətəli xan rəsmi olaraq ***Rusiya-İran*** ticarət müqaviləsini tərtib edirlər...

**30 iyun 1905-ci il** - Ermənilər İrəvan yaxınlığındakı müsəlmanlar yaşayan Gəzəcik kəndinə hücum edirlər. Kəndə od vurulur, odlu silahdan hara gəldi, atəş açırlar. Quldurlar məscidi, müsəlmanların müqəddəs kitablarını yandırırlar. Onlar qoca kəndli Novruz kişiyə dəhşətli dərəcədə işgəncə verirlər. Kənd sakini

**Novruz** kişi əsir götürülərək ermənilər yaşayan qonşu ***Tijrabad*** kəndinə aparılır. ***Keşiş Hayrapet*** onun başını kəsir...

**30 iyun 1991-ci il** - Erməni terrorçuları Hadrut rayonunun ***Şəhriyar*** kəndinə basqın edirlər. **2** nəfər kənd sakini qətlə yetirilir, **4** nəfər girov aparılır...

**30 iyun 1991-ci il** - Erməni terrorçuları ***Temirtau*** *(Dağıstan MSSR)* dayanacağı yaxınlığında Bakı istiqamətində hərəkət edən sərnişin qatarında güclü partlayış törədirlər. ***16*** nəfər həlak olur, ***20*** nəfər yaralanır...

**30 iyun 1992-ci il** - Ağdam rayonunun Papravənd kəndi ermənilər tərəfindən güclü atəşə tutulur. Dağıntılar olur...

**30 iyun 1993-cü il** - Ağdam şəhəri və onun yaxınlığında yerləşən kəndlər ermənilər tərəfindən toplardan və qrad qurğularından şiddətli atəşə tutulur. Xeyli sayda ölənlər və yaralananlar olur...





# IYUL

**1 iyul 1668-ci il** - Azərbaycanda gücü **10** bal olan **zəlzələ** baş verir. Minlərlə adam ölür. Şamaxı şəhərində yerin altı üstünə çevrilir...

**1 iyul 1883-cü il** - Cəbrayıl və Cavanşir qəzaları yaradılır...

**1 iyul 1903-cü il** - Bakıda fəhlələrin ilk kütləvi ümumi siyasi tətili keçirilir...

**1 iyul 1905-ci il** - Daşnaq terrorçuları ***İrəvan*** şəhərində çoxlu sayda azərbaycanlını qətlə yetirirlər...

**1 iyul 1908-ci il** - Şahın əmri ilə hökumət qoşunları ***Təbriz*** şəhəri üzərinə hücuma keçir...

**1 iyul 1923-cü il** - Azərbaycan KP MK Rəyasət Heyəti S.M.Kirovun sədrliyi ilə iclas keçirir. Mərkəzi İcraiyyə Komitəsinə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmasını dekretləşdirmək təklif olunur...

**1 iyul 1992-ci il** - Ağdam rayonunun ***Çuxurməhlə*** və ***Şelli*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Şellidə **4** ev dağılır, **3** nəfər dinc sakin ağır yaralanır...

**1 iyul 1992-ci il** - Milli Qəhrəman **Şikar Davud oğlu Aslanov** Şaqah yüksəkliyi uğrunda erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**1 iyul 1992-ci il** - Sərsəng su anbarı ətrafında erməni silahlıları ilə gedən döyüşlərdə Basarkeçərin ***Zərzibil*** kəndinin 1968-ci il təvəllüdlü mərd oğlu **Azad Alı oğlu Abbasov** qəhrəmancasına həlak olur...

**2 iyul 1618-ci il** - Osmanlılarla qızılbaş qoşunları ***Sərab*** düzündə, ***Ərəştəban*** və ***Şəkəmsaray*** qəsəbələri arasındakı ***Sınıq*** körpünün yaxınlığında üz-üzə gəlir. Hər iki tərəf çoxlu sayda *(təxminən **15.000** nəfər)* itki verir...

**2 iyul 1905-ci il** - Erməni daşnaqları ***Naxçıvan*** qəzasının bir neçə kəndində (**Güllücə, Təzəkənd, Tutya, Kötüklü, Kamallı** və s.) sayı qeydə tam alınmayan qətliamlar törədirlər...

**2 iyul 1920-ci il** - Erməni yaraqlıları Zəngibasarda kütləvi ***terror aktı*** törədərək 1500 nəfər azəri türkünü qətlə yetirir...

**2 iyul 1992-ci il** - Cəbrayıl istiqamətində, ***Şayaq*** kəndi ərazisində şiddətli döyüşlər gedir. İtkilər olur...

**2 iyul 1992-ci il** - Ağdam rayonunun ***Abdal, Gülablı, Əliağalı, Xıdırlı və Qiyaslı*** kəndləri ermənilər tərəfdən atəşə tutulur...

**2 iyul 1992-ci il** - **Nurələm İslam oğlu Şükürov** Ağdam rayonunun ***Əliağalı***

kəndi yaxınlığında erməni quldurları ilə döyüşdə həlak olur...

**2 iyul 1993-cü il** - Füzuli şəhəri, eləcə də Füzuli rayonunun ***Dövlətyarlı, Xələfşə*** və ***Cuvarlı*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar olur...

**2 iyul 1993-cü il** - Füzuli rayonunun ***Gorazıllı, Qaradağlı, Yuxarı Güzlək*** kəndləri ermənilər tərəfindən işğal edilir. Gorazıllı kəndində toyxanaya soxulan terrorçu erməni yaraqlıları **10** nəfərdən çox şənlik iştirakçısını vəhşicəsinə girov götürürlər...

**2 iyul 1993-cü il** - Bakı Dəmiryolu vağzalında sərnişin qatarı partladılır. Dövlətə külli miqdarda ziyan dəyir...

**2 iyul 1993-cü il** - Xocavənd rayonunun ***Günəşli*** *(əhalisi* **366** *nəfər)* və ***Xətai*** *(əhalisi* **190** *nəfər)* kəndləri ermənilər tərəfindən işğal olunur...

**2 iyul 1993-cü il** - Cəbrayıl rayonunun ***Quşçular*** kəndi ətrafında ağır döyüşlər gedir. Tələfat olur...

**2 iyul 1993-cü il** - Düşmən artilleriya hazırlığından sonra ***Cəbrayıl şəhəri*** istiqamətində hücuma keçir. Tələfat və da ğıntılar olur...

**3 iyul 1938-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası ***(Matuleviç, Kolpakov, Kulik)*** Səyyar sessiyasının qərarı ilə ***Laçın*** rayon PK-nin keçmiş katibi, Azərbaycan Meyvə-Tərəvəz Ticarəti Təşkilatının direktoru **Teymur Heydər oğlu Salahov** güllələnir...

**3 iyul 1938-ci il** - SSRİ Ali Soveti Hərbi Kollegiyasının ***(Matuleviç, Kolpakov, Kulik)*** qərarı ilə Azərbaycan SSR EA-nın Tarix, Ədəbiyyat və Dilçilik İnstitutunun elmi əməkdaşı, APİ-nin Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri **Abdulla Məhəmməd oğlu Şərifov** güllələnir...

**3 iyul 1938-ci il** - Azərbaycan SSR XDİK DT baş mayoru ***Rayevin*** əmri ilə **59** nəfər güllələnir...

**3 iyul 1944-cü il** - Belorusun paytaxtı ***Minsk*** şəhəri düşməndən azad edilir. Bu döyüşlərdə yüzlərlə igid azərbaycanlı da həlak olur...

**3 iyul 1967-ci il** - Ermənilər tərəfindən Qarabağda böyük bir ***facia*** törədilır. Bu faciənin şahidləri olmuş qohumlarımın mənə verdikləri məluimata görə, ermənilər həmin gün Qarabağın ***Xankəndi*** *(Stepanakert)* şəhərində ***Xocavənd*** *(Martuni)* rayonunun 3 nəfər günahsız vətəndaşını - məktəb direktoru **Ərşad Daşdəmir oğlu Məmmədovu** (saxta ittihamlar əsasında hakim ona **11** il iş kəsir), eləcə də briqadir Ələmşah Mustafayevi və kənd sakini Zöhrab Məmmədovu (məhkəmə hökmünə görə onlar bəraət alırlar) məhkəmə salonundan çıxarkən üzərlərinə benzin tökməklə yandıraraq vəhşicəsinə qətlə yetirirlər. Azğınlaşmış ermənilər onların kəsilmiş başlarını futbol topu tək bir-birlərinə ötürürlər. Öz





yaxın qohumu tərəfindən öldürülmüş azyaşlı uşağın atası **Benik** Ərşad Məmmədovun ağzından *12* qızıl dişini də çıxarır. Kimsəsizliklərini görüb heç bir şeyə gücü çatmayan azərbaycanlılar yalnız göz yaşlarına güc verirlər...

**3 iyul 1991-ci il** - Erməni yaraqlı quldurları Füzuli rayonunun ***Qacar*** kəndinə hücum edirlər. Dinc əhalidən bir neçə nəfər vəhşicəsinə qətlə yetirilir. ***«Daşnaksütyun»*** beynəlxalq terror təşkilatının *«Etnik cəhətdən təmiz zonalar»* yaradılmasına dair ideoloji göstərişi təəssüf ki, növbəti dəfə yerinə yetirilir...

**3 iyul 1992-ci il** - Cəbrayıl şəhəri və onun bir neçə kəndi ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar baş verir. **1** nəfər həlak olur...

**3 iyul 1992-ci il** - Milli Qəhrəman **Eldar Abdulla oğlu Tağızadə** Bərdədə ***"Şakan"*** ləqəbli cinayətkar tərəfindən qətlə yetirilir...

**3 iyul 1993-cü il** - Düşmən Ağdamın ***Mərzili*** və ***Bağbanlar*** kəndlərinə hücum edir. Ağdam rayonunun bəzi kəndləri minalardan təmizlənir. Yerli Bağbanlar taboru mövqelərindən çıxarılaraq Kökəltmə Birliyi ərazisinə göndərilir...

**3 iyul 1994-cü il** - Bakıda *"28 May"* və *"Gənclik"* metrostansiyaları arasında elektrik qatarında daşnaq muzdlusu və *"Sadvalçı"* ***Azər Salman oğlu Aslanov*** tərəfindən **partlayış** törədilir. **14** nəfər həlak olur, **54** nəfər yaralanır. İstintaq zamanı müəyyən olunur ki, bu terror aktının təlimatçıları Ermənistan xüsusi xidmət orqanlarının polkovniki ***Karen Baqdasaryan*** və kapitan ***Seyran Sarkisyan*** olmuşdur...

**4 iyul 1797-ci il** - İbrahimxəlil xanın qardaşı oğlu Məhəmməd bəyin təşəbbüsü ilə **Ağaməhəmməd şah Qacar** yaxın adamları - ***Səfərəli bəy*** və ***Abbas bəy*** tərəfindən sui-qəsd nəticəsində Şuşada öldürülür...

**4 iyul 1903-cü il** - Bakıdakı tətil bütün müəssisələri əhatə edir...

**4 iyul 1918-ci il** - ***Batum müqaviləsi*** imzalanır...

**4 iyul 1918-ci il** - Türkiyə yeni yaranan Zaqafqaziya respublikaları ilə "sülh və dostluq haqqında" müqavilə bağlamaqla Ararat Respublikasını rəsmi olaraq tanıyır. Ararat Respublikası tarixi erməni ərazilərində yox, Azərbaycanın tarixi ərazisi olan İrəvan quberniyasının ərazisində yaradılır...

**4 iyul 1919 -cu il** - Erməni terrorçusu ***Sasenin*** başçılıq etdiyi erməni silahlı daşnaqları **Böyük Vediyə** hücum edirlər. Çoxsaylı insan tələfatı ilə nəticələnən qətllər törədilir. Danışıqlar zamanı gözlənilmədən ermənilər tərəfdən atılan atəş nəticəsində Böyük Vedi kəndinin **2** sakini - **Zeynalabdin Şıxəli oğlu** və **Nəsrulla bəy Bəşir bəy oğlu** da öldürülür...

**4 iyul 1920-ci il** - Erməni silahlı quldur dəstələri ***Zəngilana*** basqın edirlər. Terrorçular yüzlərlə günahsız, silahsız dinc sakini qətlə yetirirlər. Onlar qaç-

mağa çalışanları yaxalayaraq öldürür və meyidlərini xəndəklərə atırlar...

**4 iyul 1921-ci il** - Qafqaz Bürosunun axşam iclasında Dağlıq Qarabağın ərazi mənsubiyyəti məsələsi ciddi fikir ayrılığına səbəb olur. Qafqaz Bürosu məsələnin qəti həllini RK(b)P MK-nə keçirməyi lazım bilir. O, Sovet imperiyasının təzyiqi altında Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında qərar qəbul edir...

**4 iyul 1923-cü il** - Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinin iclasında Qarabağın dağlıq hissəsinin mərkəzi Xankəndi olmaqla Muxtar Vilayət yaradılması qərara alınır...

**4 iyul 1938-ci il** - Azərbaycan SSR XDİK DT baş mayoru ***Rayevin*** əmri ilə 58 nəfər güllələnir...

**4 iyul 1988-ci il** - DQMV İK 8/156 №-li qərarı ilə qaçqınları Şuşada və onun kəndlərində yerləşdirməyi qadağan edir və bu məsələ üzrə Şuşanın rəhbər işçiləri barəsində ölçü götürməyi respublika rəhbərliyi qarşısında qaldırır...

**4 iyul 1990-cı il** - Cəbrayıl rayonu ərazisində *"Fövqəladə vəziyyəti ləğv etmək"* haqqında SSRİ Prezidenti fərman verir...

**4 iyul 1991-ci il** - Erməni terrorçuları Füzuli rayonunun ***Qacar*** kəndinə basqın edirlər. **1** nəfər dinc sakin ağır güllə yarası alır...

**4 iyul 1991-ci il** - Ağdərə rayonunun **70** yaşlı ***Umudlu*** kənd sakini ermənilər tərəfindən qətlə yetirilir...

**4 iyul 1992-ci il** - Azərbaycanın Milli Ordu hissələri az sayda itki verərək Ağdərəni ermənilərdən azad edirlər. Ancaq vaxtında əlavə lazımi kömək gəlmədiyindən strateji mövqelərin hamısını əldə saxlamaq mümkün olmur. Geri çəkilərkən çoxlu itkilər verilir...

**4 iyul 1993-cü il** - Ağdam rayonunun ***Şıxbabalı, İsmayılbəyli, Muğanlı, Pirzadlı, Saybalı, Bağbanlar, Mərzili, Yusifcanlı, Novruzlu*** kəndləri və onların ərazilərində yerləşən bir neçə strateji mövqelər erməni silahlı birləşmələrinin hücumu nəticəsində işğal olunur...

**4 iyul 1993-cü il** - Füzuli rayonunun ***Arış, Qoçəhmədli, Qarakollu, Mollavəli, Xatınbulaq, Gorazıllı*** kəndləri ermənilər tərəfindən işğal olunaraq yandırılır. Tələfat və dağıntılar olur...

**5 iyul 1747-ci il** - Xəyanətkar ***Əliqulu Mirzə*** Heratdan gəlib özünü hökmdar elan edir. Nadir şahın oğulları ***Nəsrullah Mirzə*** və ***İmamqulu Mirzəni,*** başqa övladlarına, eləcə də Nadir nəslinə mənsub olan bütün adamları *(Şahrux Mirzədən başqa)* şərəfsizcəsinə qılıncdan keçirir, Nadirin topladığı xəzinəni qısa zamanda dağıdır...





**5 iyul 1905-ci il** - Erməni terrorçuları Cəbrayıl qəzasının *Məzrə* kəndinə basqın edirlər. Camaat yaylağa köçdüyündən qışlaqda qalan **9** nəfər dinc sakindən 6-sı qətlə yetirilir. **1** nəfər girov götürülür. **2** nəfər isə çətinliklə qaçıb canını qurtara bilir. Terrorçular kəndi dağıdırlar...

**5 iyul 1919-cu il** - 10-lar Şurasının iclası Amerika təqdimatı əsasında ermənipərəst polkovnik Vilyam Haskeli Ermənistana müttəfiqlərin ali komissarı təyin edir. O, eyni zamanda *«Yaxın Şərqə Amerika Yardımı Komitəsi»*nin sədri təyin olunur. Onun qərargahı ***İrəvanda*** yerləşdirilir...

**5 iyul 1921-ci il** - Rusiya K(b)P MK Qafqaz Bürosu Azərbaycanın Dağlıq Qarabağ barəsində elan etdiyi öz müqəddəratını təyinetmə müddəasının təbii-tarixi şəkildə yerinə yetirilməsinə imkan vermir, onu *"geniş vilayət muxtariyyəti"* kimi ifadə edir. Azərbaycan SSR-in tərkibində mərkəzi ***Şuşa*** şəhəri olan DQMV yaradılması qərara alınır...

**5 iyul 1921-ci il** - Əlahiddə Qafqaz Ordusunun hərbi hissələri Zəngəzurun yuxarı hissəsinə soxulur. Bu bölgələr Ermənistana birləşdirilir. Sonra buraya İran, Misir, Türkiyə və Rusiyadan ermənilər köçürülür. Azərbaycanlılar isə müxtəlif yollarla bölgədən çıxarılır...

**5 iyul 1938-ci il** - Azərbaycan SSR XDİK DT baş mayoru ***Rayevin*** əmri ilə **52** nəfər güllələnir...

**5 iyul 1943-cü il** - 1 ay davam edən qanlı **Kursk** döyüşündə yüzlərlə Azərbaycan igidləri də həlak olur...

**5 iyul 1993-cü il** - Ağdam rayonunun ***İsmayılbəyli*** və ***Bağbanlar*** kəndləri uğrunda erməni silahlı qüvvələri ilə şiddətli döyüşlər gedir. Düşmən ***Şelli*** kəndi ərazisində cəbhə xəttini yarır. Ağdam şəhəri mühasirəyə düşür. İtkilər olur...

**5 iyul 1993-cü il** - Cəbrayıl şəhəri, ***Qışlaq, Süleymanlı, Banazur, Daşbaşı, Mülkədərə, Quşçular, Qaracallı*** kəndləri ermənilər tərəfindən intensiv atəşə tutulur...

**5 iyul 1993-cü il** - Ağdam rayonunun ***Şelli*** kəndi ermənilər tərəfindən işğal olunur...

**6 iyul 1170-ci il** - Mosul hakimi, sultan Arslan şahın və atabəy Eldənizin vassalı, atabəy Qütbəddin Mədud öldürülür...

**6 iyul 1990-cı il** - Erməni terrorçuları tərəfindən *Hadrut (Xocavənd)* rayonunun ***Müşfiqabad*** kənd sakini **M. Hacıyev** amansızlıqla qətlə yetirilir...

**6 iyul 1991-ci il** - Goranboy rayonunun ***Erkəc, Buzluq, Mənəşli*** kəndlərində vəzifə borclarını yerinə yetirərək, pasport rejimini yoxlayan milislər ermənilər tərəfindən atəşə tutulur. **3** nəfər **(Vahid İbrahimov, İlqar Əliyev, Məhərrəm**

**Süleymanov)** həlak olur, **13** nəfər yaralanır...

**6 iyul 1992-ci il** - Milli Ordu hissələri düşmənin müqavimətini qıraraq ***Marquşevan, Marağa, Aterk*** yaşayış məntəqələrini itkilər versələr də, ermənilərdən azad etməyə müvəffəq olurlar...

**6 iyul 1992-ci il** - Ağdamın bir neçə kəndi ermənilər tərəfindən atəşə tutulur. Düşmən ***Pircamal*** və ***Naxçıvanlı*** *(Naxçıvanik)* kəndlərinə daxil olmağa səy göstərir...

**6 iyul 1993-cü il** - Erməni silahlı qüvvələri ***Ağdam*** şəhəri istiqamətində güclü hücuma keçir. Dağıntılar və tələfat olur...

**7 iyul 1827-ci il** - Abbas Mirzənin ordusu məğlub duruma düşür. Qala təslim olur. ***Naxçıvan xanlığı*** Rusiyaya birləşdirilir...

**7 iyul 1913-cü il** - Çarın sərəncamı ilə *"Dağıstanda və Zaqatala dairəsində kəndlilərin bəylərdən və keşkəl sahiblərindən asılılıq münasibətlərinin ləğv edilməsi haqqında"* qanun qüvvəyə minir...

**7 iyul 1923-cü il** - Azərbaycan SSR MİK M.B.Qasımov (1879-1949) və Ə.M.Xanbudaqovun (1893-1937) imzaları ilə *"Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması haqqında"* dekret verir. İ.V.Stalinlə əlaqəli işləyən erməni rəhbərlərinin təzyiqi ilə mərkəzi Xankəndi olmaqla DQMV yaranır. DQMV və Kürdüstan sərhədlərini müəyyən edən komissiyalar təşkil olunur. Qarabağın digər hissəsində mərkəzi ***Ağdam*** olan Vilayət İdarəsi yaradılır...

**7 iyul 1989-cu il** - Qarabağın Xankəndi yaxınlığındakı azərbaycanlılar yaşayan ***Kərkicahan*** qəsəbəsinə erməni terrorçuları basqın edir. Kərkicahan qəsəbəsinin bəzi azərbaycanlı evləri ermənilər tərəfindən yandırılır...

**7 iyul 1991-ci il** - Xaçın dərəsində ermənilər amansız vəhşilik törədirlər: azərbaycanlılara məxsus ***31 - 85 AQU*** dövlət nişanlı avtomaşın atəşə tutulur. ***Sırxavənd*** kənd sakinləri **Novruz** İmanov və onun oğlu **Mahal,** eləcə də **Qəzənfər Həsənov** və onun oğlu **Vaqif *"Ulubab"*** ferması yanında güllələnib yandırılırlar...

**7 iyul 1992-ci il** - Ağdam rayonunun ***Qasımlı, Muğanlı, Şelli*** kəndləri ermənilər tərəfindən hərbi vertolyotlardan atəşə tutulur. Ölənlər, yaralananlar və dağıntılar olur...

**7 iyul 1992-ci il** - Ağdam rayonunun ***Papravənd*** kəndinə basqın edən silahlı ermənilər kənd sakinləri **Taleh Məmmədovu, Qabil Məmmədovu, Rizvan Quliyevi, Mütalib Abbasovu, Əli Kərimovu, Tohid Hüseynovu, Fuad Cəfərovu** qətlə yetirirlər...

**7 iyul 1993-cü il** - Cəbrayıl rayonunun bir sıra kəndləri artilleriya atəşinə məruz qalır...

**7 iyul 1993-cü il** - Ağdam rayon mərkəzinin cənub və cənub-qərb həndəvərində, ***Muradbəyli*** ərazisi yaxınlığında şiddətli döyüşlər gedir. ***Qasımlı, Qaradağlı, Poladlı, Şelli, Qurdlar*** kəndləri ermənilər tərəfindən işğal olunur...

**8 iyul 1185-ci il** - Məhəmməd Cahan Pəhləvanın vassalı, Xilatın hakimi **Nəsirəddin şah Məhəmməd ibn İbrahim II Sökmən** öldürülür...

**8 iyul 1604-cü il** - I Şah Abbas İrəvan qalasını tutur...

**8 iyul 1812-ci il** - İngiltərə ilə Rusiya arasında müqavilə imzalanır...

**8 iyul 1906-cı il** - İnqilabi çıxışlı millət vəkilləri çoxluq təşkil etdiyinə görə 72 gün mövcud olan I Dövlət Duması çar tərəfindən buraxılır...

**8 iyul 1989-cu il** - Ermənilər Xankəndində ***«Miatsum»*** hərəkatının təsis yığıncağını keçirir və Robert Koçaryanı hərəkata sədr seçirlər...

**8 iyul 1991-ci il** - Əsgəran rayonunun ***Cəmilli*** kəndinin sakinləri ot biçini zamanı erməni quldurları tərəfindən atəşə tutulur. Kəndlilər arasında ölənlər olur...

**8 iyul 1993-cü il** - Cəbrayıl rayonunun bir neçə yaşayış məntəqəsi ermənilər tərəfindən top və qrad qurğularından intensiv atəşə tutulur. Dağıntılar olur...

**8 iyul 1993-cü il** - Cəbhənin Ağdam bölgəsində qızğın döyüşlər davam edir. Düşmən Ağdam şəhərinin qərb istiqamətindəki bəzi strateji əhəmiyyətli mövqeləri ələ keçirir. Erməni silahlı qüvvələri ilə azərbaycanlılar arasında ***Qasımlı, Şelli*** və ***Saybalı*** kəndləri ərazilərində şiddətli döyüşlər gedir. Əsgərlərimiz lazımi köməyin gəlməməsi səbəbindən geri çəkilməyə məcbur olurlar. Qasımlı, Şelli, Saybalı kəndləri ermənilər tərəfindən işğal edilir...

**9 iyul 1488-ci il** - Ərdəbil hakimi, Səfəviyyə ruhani ordeninin başçısı, I Şah İsmayılın atası **Şeyx Heydər** döyüş zamanı öldürülür...

**9 iyul 1988-ci il** - *"Ararat"* dəmir yolu stansiyasında səbirsizliklə qatar gözləyən **150** nəfər azərbaycanlı qaçqının üzərinə erməni quldur dəstəsi hücum edib onlara divan tutur. **50** nəfər azərbaycanlı yaralanır; bu adamların sonrakı talelərindən heç nə məlum deyil...

**9 iyul 1989-cu il** - *Ağdam-Şuşa* sərnişin avtobusu ermənilər tərəfindən Əsgəranda daş-qalaq olunur...

**9 iyul 1991-ci il** - *Cəmilli-Şuşa* marşrutu ilə hərəkət edən sərnişin avtobusu erməni yaraqlıları tərəfindən atəşə tutulur, yaralananlar olur...

**9 iyul 1992-ci il** - Helsinki şəhərində ATƏM-in dövlət başçılarının görüşü

keçirilir. Onlar Qarabağ müharibəsinin güclənməsini müzakirə etsələr də heç bir müvafiq qərar qəbul edə bilmirlər. Münaqişənin nizama salınmasına dair danışıqların yeni mərhələsinin başlanması ilə əlaqədar Azərbaycan tərəfi ATƏM-in müraciətinə cavab olaraq hərbi əməliyyatları dayandırır. Ermənilərə də elə bu lazım imiş. Onlar *Laçın dəhlizi* vasitəsi ilə Dağlıq Qarabağa əlavə canlı qüvvə və hərbi texnika göndərirlər...

**9 iyul 1998-ci il** - Lerik rayonu ərazisində dağıntı törədən zəlzələ baş verir...

**10 iyul 1804-cü il** - Rusiya ilə İran arasında diplomatik əlaqələr kəsilir...

**10 iyul 1906-cı il** - Erməni silahlıları ikinci dəfə Şuşada ***qanlı qırğınlar*** törədirlər...

**10 iyul 1920-ci il** - Tərtər XI Qızıl ordu tərəfindən tutulur...

**10 iyul 1941-ci il** - Yüzlərlə azərbaycanlıların da həlak olduğu 2 ay davam edən ***Smolensk döyüşü*** başlayır...

**10 iyul 1954-cü il** - Şamaxı rayonu ərazisində zəlzələ baş verir...

**10 iyul 1985-ci il** - Moskvada tərtibçilərinin sırasında erməni alimləri - ***V.Ambarsumyan, İ.Knunyans, R.Tatevosov*** və başqaları da yer almış *«Demoqrafiçeski ensiklopediçeskoy slovar» 75.000* nüsxə ilə nəşr edilir...

**10 iyul 1989-cu il** - Ağdərədə *(Mardakertdə)* ermənilər Kəlbəcərə gedən azərbaycanlıların idarə etdikləri **157** maşını daş-qalaq edərək bütün şüşələrini sındırırlar...

**10 iyul 1992-ci il** - Ağdam rayonunun ***Abdal-Gülablı, Şelli*** və ***Əhmədavar*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar və tələfat olur...

**10 iyul 1993-cü il** - **"Qarabala"** ləqəbli döyüşçü-zabit **Nazim Qəmbərov** ermənilərlə döyüşdə həlak olur...

**10 iyul 1993-cü il** - Ağdam şəhəri raket atəşinə tutulur. Dəmir yolu xətləri sıradan çıxır. Şəhərin 2-3 kilometrliyində şiddətli döyüşlər gedir...

**10 iyul 1994-cü il** - Tərtərli hərbi komissar **Vahid Xeyrulla oğlu Məmmədov** Gəncədən müşavirədən qayıdarkən Goranboyun Qərvənd kəndi yaxınlığında müəmmalı şəkildə güllə ilə öldürülür...

**10 iyul 2002-ci il** - Erməni terrorçularının sağ əllərindən biri olan **Hacı Maqamedovun** terror qrupu *"Şabalıdlı"* restoranına basqın edir. Günahsız mülki şəxs - **Anar İsmayılov** həlak olur, **2** nəfər sərhədçi isə ağır yaralanır...

**11 iyul 1063-cü il** - Şavur üçüncü dəfə Şirvana basqın edir. ***Səddan*** kəndində dayanan ***Şavur*** yaxınlıqdakı kəndləri, əkin sahələrini, malikanələri yandırır...





**11 iyul 1920-ci il** - Ağdam XI Qızıl ordu tərəfindən tutulur...

**11 iyul 1989-cu il** - Şuşadan Kərkicahana - evlərinə gedərkən ermənilər **Səfərov Orduxanı, Salahov Natiqi** və **Nəbiyev Əlini** diri tutmaq istəyirlər. Bu, mümkün olmadıqda onlara atəş açırlar. Natiq Salahov güllə yarası alsa da, qaçıb canını qurtara bilir. Terrorçular girov götürdükləri Orduxan Səfərov ilə Əli Nəbiyevi soyunduraraq hər ikisini ağaca sarıyırlar. Onların sinələrini ülgücləyir, yara yerlərinə odlu siqarlar basırlar. Çoxlu işgəncələr verdikdən sonra onlardan meşin-nişangah kimi istifadə edirlər. **Əli Nəbiyevin** ürəyindən, **Orduxan Səfərovun** başından ataraq onları vəhşicəsinə öldürürlər. Bütün bunlardan sonra qansız ermənilər mərhumların gözlərini çıxararaq cəsədlərini yaxınlıqdakı çamurlu gölməçəyə atırlar ...

**11 iyul 1989-cu il** - Erməni silahlıları Tərtərdən Kəlbəcərə gedən maşın karvanının yolunu Ağdərə ərazisində partladaraq qabağını kəsirlər. Karvan güllə-baran edilir. **8** nəfər qətlə yetirilir, xeyli sərnişin ağır güllə yarası alır...

**11 iyul 1990-cı il** - Milli Qəhrəman **Şahlar Əvəz oğlu Şükürov** Ağdərə rayonu ərazisində, *Tərtər-Kəlbəcər* şose yolu üzərində erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**11 iyul 1990-cı il** - Erməni yaraqlıları Tərtərdən Kəlbəcərə gedən maşın karvanına hücum edirlər. **14** nəfər həlak olur. **35** nəfər yaralanır. Qaçıb uzaqlaşan terrorçuların *«məskənindən»* çoxlu sayda silah-sursat tapılır...

**11 iyul 1990-cı il** - Azərbaycan Respublikasının Ağdərə rayonunun ***Ketavan*** və ***Çərəktar*** kəndləri arasında, Otaqqaya adlanan yerdə Tərtərdən Kəlbəcər şəhərinə gedən avtomobil karvanına və onu müşayiət edən qoşun hissəsinə daşnaq Aşot Misaqoviçin başçılıq etdiyi terrorçu qrup tərəfindən hücum edilir. Nəticədə biri qadın **(Çimnaz İsmayılova)** olmaqla **3** adam həlak olur və **29** nəfər ağır yaralanır. İstintaq nəticəsində o da məlum olur ki, bu terror aktı Xankəndinin sakinləri olan ***«Daşnaksütyun»*** beynəlxalq erməni terror təşkilatının yerli qruplaşmalarından birinin üzvləri - ***«Napaleon»*** ləqəbli ***Arkadi Ayriyan*** və ***Samvel Babayan*** tərəfindən törədilmişdir...

**11 iyul 1992-ci il** - Erməni silahlıları Ağdam rayonunun Qalayçılar kəndinə basqın edirlər. Kənd sakinləri - **Rafiq, Natiq, Yasin** qardaşları, **Bəşir** və **Yusif Əhmədovlar,** eləcə də **Şahin Məmmədov** vəhşicəsinə qətlə yetirilirlər...

**11 iyul 1993-cü il** - Cəbhənin **Ağdam** bölgəsində gərgin vəziyyət yaranmışdır. Döyüşlər şəhərin 2-3 kilometrliyində gedir...

**12 iyul 1174-cü il** - Qurban bayramı günü **Atabəy** və onun oğulları gürcülərə qarşı hücuma keçir. Atabəyin ordusunda taun xəstəliyi böyük tələfat verir. Buna

baxmayaraq Böyük atabəyin qoşunu abxaz çarına qarşı yürüşü davam etdirir. Gürcülər qalın meşələrə və əlçatmaz dağlara tərəf çəkilir. Atabəyin qoşunu **Ağşəhər** qalasını tutur...

**12 iyul 1723-cü il** - Rus eskadrası Bakını tutur...

**12 iyul 1724-cü il** - Osmanlı imperatorluğu ilə Rusiya arasında İstanbul müqaviləsi imzalanır. ***Peterburq müqaviləsi*** *(12 sentyabr 1723-cü il)* şərtləri təsdiq edilir. Rusiya Azərbaycanın osmanlılara verilməsinə razılıq verir. Azərbaycan əraziləri ***Rusiya, Səfəvi*** və ***Osmanlı*** dövlətləri arasında bölüşdürülür. Şirvan Osmanlıların himayəsi altında müstəqil xanlıq elan edilsə də, onun sahilyanı hissəsi Rusiyaya verilir. Səfəvi irsi bölüşdürülür...

**12 iyul 1905-ci il** - Şuşa qəzasında, eləcə də Şuşa şəhərində ermənilərlə müsəlmanlar arasında silahlı toqquşma baş verir. Südəmər körpələr beşiklə birlikdə ermənilər tərəfindən yandırılır, analarının əllərindən alınan uşaqların başları daşlara çırpılır. Elə həmin gün ermənilər ***Əsgəran*** yolunu da bağlayırlar...

**12 iyul 1905-ci il** - 4 azərbaycanlı Əsgəran bazarına satmağa meyvə apardıqları vaxt yolda ermənilər tərəfindən öldürülür. ***Əsgəran*** yolu ermənilər tərəfindən bağlanılır. Bir neçə azərbaycanlı həyətində və bağında qətlə yetirilir...

**12 iyul 1906-cı il** - Erməni yaraqlıları ***Şuşa*** yaxınlığında çoxlu sayda azərbaycanlıları qətlə yetirirlər...

**12 iyul 1906-cı il** - Cəbrayıl qəzasının *Xotsaberd* kəndində məskən salan erməni terrorçuları ***Topağac*** dağının ətəyində bitki kökü tədarük edən ***Qazanzəmi*** kənd sakinləri- **Siracəddin** və **Ziyəddin Abidin oğlu** qardaşlarını girov götürərək, onlara işgəncə verib, sonra əzalarını doğrayaraq vəhşicəsinə qətlə yetirirlər...

**12 iyul 1988-ci il** - DQMV sessiyası *«Vilayətin Azərbaycan SSR-in tərkibindən çıxması haqqında»* yenidən qərar qəbul edir...

**12 iyul 1992-ci il** - Milli Qəhrəman **Baxşeyiş Xanəhməd oğlu Paşayev** Xanabad kəndi yaxınlığında ermənilərlə aparılan döyüş əməliyyatı zamanı həlak olur...

**12 iyul 1992-ci il** - Erməni ekspedisiya korpusunun əks-hücumu nəticəsində ***Aterk, Çapar, Mağavuz*** kəndləri yenidən düşmənin əlinə keçir...

**12 iyul 1993-cü il** - ATƏM-in Minsk qrupunun sədri ***M.Rafaelli*** Ağdam şəhərində olur. Heç bir müsbət iş görülmür...

**13 iyul 1716-cı il** - I Pyotrun yaxın adamı ***Volınski*** çarın göstərişli ilə gizli tapşırıq alaraq karvan yollarını öyrənmək məqsədilə ***Həştərxana, Niyazabada*** yaxınlaşır...

**13 iyul 1830-cu il** - Çarizm hakim təbəqənin nümayəndələrinə qarşı münasibətdə dəyişiklik edərək onları öz tərəfinə *"çəkir"*. **13 iyul** tarixli çar fərmanına görə Azərbaycandan Sibirə və başqa yerlərə sürgün edilmiş bəylər *"bağışlanır"*, onların əmlakları özlərinə qaytarılır...





**13 iyul 1906-cı il** - Qoloşapovun Şuşadan uzaqlaşdırılması cəhdləri bir nəticə vermir...

**13 iyul 1989-cu il** - Mardakert *(Ağdərə)* rayonunun ***Çəpər*** kəndinin **50** nəfərlik silahlı quldur dəstəsi Şaumyan adına kolxozun sədri Qaquk Sarkisyanın başçılığı ilə Kəlbəcər rayonunun **Ağdaban** kəndinə basqın edir...

**13 iyul 1992-ci il** - Ağdam rayonunun ***Abdal-Gülablı, Xıdırlı*** və ***Şelli*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**13 iyul 1992-ci il** - Cəbrayıl cəbhəsində ***Sur*** və ***Qışlaq*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**13 iyul 1993-cü il** - Ermənilər ***Ağdam*** şəhərinin **3** kilometrliyinə qədər irəliləyə bilirlər...

**14 iyul 1123-cü il** - Sultanın vəziri **Şəms Əl-Mülk Osman** Şirvan fəlakətlərinin səbəbkarı hesab olunaraq Beyləqanda edam edilir...

**14 iyul 1906-cı il** - Zəngəzur qəzasının ***Gələncik*** kəndində ermənilərlə silahlı toqquşma nəticəsində **30** nəfər azərbaycanlı türk qətlə yetirilir...

**14 iyul 1918-ci il** - İnsan cəlladı olan daşnaq generalı Andranikin başçılıq etdiyi silahlı dəstələr Culfanın ***Yaycı*** kəndini iki tərəfdən top atəşinə tuturlar. Araz çayı sahilində və kənddə **2.500** dinc sakin, günahsız kənd əhalisi qətlə yetirilir. Araz çayı qana boyanır... Qaniçən ***Andranik Ozanyan*** S.Şaumyana teleqram vuraraq öz qoşun birləşmələrini Rusiyanın mərkəzi hökumətinin sərəncamına verdiyini bildirir...

**14 iyul 1920-ci il** - Xankəndi XI Qızıl Ordu tərəfindən tutulur...

**14 iyul 1989-cu il** - Kəlbəcərdə, stadionda vertolyot erməni dustaqlarını götürüb havaya qalxarkən qəzaya uğrayaraq, orada futbol oynayan **8** nəfər azyaşlı azərbaycanlı məktəbli uşağın üzərinə düşür. Uşaqlar (ən böyüyü - **Bəxtiyar Rəhim oğlu Xəlilov** - *15* yaş, ən kiçiyi - **Anar Qardaşxan oğlu Valehov** - *6* yaş, **Azər** - *7* yaş, **Rasim** - *8* yaş, **Sahib** - *11* yaş, **Cahid** - *11* yaş, **Səxavət** - *14* yaş, **Natiq** - *14* yaş) həlak olurlar. Rus hərbçiləri dustaq daşnaq quldurlarını Xankəndinə gətirərək burada onları azadlığa buraxırlar...

**14 iyul 1992-ci il** - Milli Qəhrəman **Rövşən Nəriman oğlu Əliyev** Dəhraz kəndi ərazisində gedən qızğın döyüşdə həlak olur...

**14 iyul 1998-ci il** - Ermənistana səfər edən Rusiyanın müdafiə naziri İ.Sergeyev hərbi və hərbi-texniki əməkdaşlığı genişləndirməyə dair çıxış edir;

Ermənistanda *S-300* raket komplekslərinin olmasını, birgə təlimlərin keçirilməsini, Rusiyanın 102-ci hərbi bazasının gücləndirilməsini və digər məsələləri ön plana çəkir...

**14 iyul 2001-ci il** - ABŞ-da **22** ştatı əhatə edən Amerika Erməni Assambleyası Yuxarı Qarabağda öz mərkəzini yaradır...

**15 iyul 1478-ci il** - Yaqub Mirzə Xoy yaxınlığındakı döyüşdə qardaşı **Xəlil Mirzəni** öldürərək hakimiyyətə gəlir...

**15 iyul 1731-ci il** - Səfəvilər ***Həmədan*** yaxınlığında Osmanlılara məğlub olur...

**15 iyul 1806-cı il** - Qarabağda, ***Xonaşen*** mənzilində *(indiki Xocavənd yaşayış məntəqəsi yaxınlığında)* rus hərbi qüvvələri ilə Abbas Mirzənin qoşunları arasında **7** saata yaxın döyüş baş verir. Qızılbaş qoşunu məğlub olur. Qızılbaş qoşununun bir hissəsi öldürülür, bir hissəsi əsir düşür, qalanları isə Araz çayına tərəf geri çəkilir...

**15 iyul 1918-ci il** - Xasməmmədovun sədrliyi ilə fövqəladə təhqiqat komissiyası ***Bakı, Şamaxı*** və ***Qubada*** **30.000**-dən çox azərbaycanlının ermənilər tərəfindən öldürülməsini təsdiq edir...

**15 iyul 1920-ci il** - Şuşa XI Qızıl ordu tərəfindən tutulur...

**15 iyul 1920-ci il** - Balıq sənayesi milliləşdirilir...

**15 iyul 1989 -cu il** - Xankəndi şəhər sakini Eyvaz Allahverdiyevin evinə ermənilər bomba atırlar. Partlayış nəticəsində ev və **4** avtomobil ciddi zədələnir...

**15 iyul 1990-cı il** - Şahbuz rayonunun ***Şada*** kənd sakini R. Rüstəmov erməni terrorçuları tərəfindən girov götürülür...

**15 iyul 1991-ci il** - Goranboy rayonunun ***Erkəc*** kəndini mühasirəyə alan erməni daşnaqları azərbaycanlı milis işçilərini atəşə tuturlar. **2** azərbaycanlı milis nəfəri ağır yaralanır...

**15 iyul 1992-ci il** - İstedadlı jurnalist, Milli Qəhrəman **Çingiz Fuad oğlu Mustafayev** Yuxarı Qarabağın ***Naxçıvanik*** kəndi ərazisində həlak olur...

**15 iyul 1992-ci il** - Yuxarı Qarabağın Ağdərə istiqamətində ermənilər əks-hücuma keçərək bir sıra yaşayış məntəqəsini zəbt edirlər...

**15 iyul 1992-ci il** - Milli Qəhrəman **Nofəl Zahid oğlu Quliyev** Goranboy rayonunun ***Todan*** kəndi ərazisində erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**15 iyul 1992-ci il** - Erməni-rus hərbi birləşmələri Füzuli rayonunun ***Qacar*** kəndi üzərinə güclü hücuma keçirlər. Dağıntılar və tələfat olur...

**15 iyul 1993-cü il** - Ağdam rayonunda hakimiyyət çevrilişinə cəhd edilir. Bölgədə erməni silahlı birləşmələri ilə şiddətli döyüşlər gedir. Ölənlər və yaralanlar olur. Bir neçə strateji mövqelər düşmən əlinə keçir...





**15 iyul 1993-cü il** - Füzuli şəhəri və onun ətraf kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur. Dağıntılar və tələfat olur...

**16 iyul 919-cu il** - Ərəb xəlifəsi məşhur sərkərdə Munisin başçılığı ilə qoşun göndərir. ***Ərdəbil*** yaxınlığında güclü döyüş baş verir. Yusifin qoşunu məğlub olur, özü isə əsir götürülür...

**16 iyul 1804-cü il** - ***I Rusiya-İran müharibəsi*** başlanır...

**16 iyul 1826-cı il** - ***60*** minlik İran qoşunu Abbas Mirzənin komandanlığı ilə Araz çayını keçərək Azərbaycana hücum edir...

**16 iyul 1916-cı il** - Bayburt rus-erməni birləşmiş qüvvələri tərəfindən alınır...

**16 iyul 1919-cu il** - Erməni silahlı quldurları ***Böyük Vedi*** kəndinə yenidən hücum edərək burada amansız qətllər törədirlər...

**16 iyul 1921-ci il** - Ermənistan KP MK Qafqaz Bürosunun *5 iyul* tarixli qərarının onu təmin etmədiyini bildirir və Dağlıq Qarabağa iddiasını davam etdirməyə başlayır...

**16 iyul 1923-cü il** - Azərbaycan KP MK RH-nin iclasında ***Şuşa*** şəhəri Dağlıq Qarabağ Muxtar Vilayətinə daxil edilir...

**16 iyul 1990-cı il** - Ağdam rayonunun ***Gülablı*** kəndi ermənilər tərəfindən atəşə tutulur. Düşmən ***Yeddixırman*** dağını ələ keçirir...

**16 iyul 1993-cü il** - Cəbhənin ***Ağdam*** bölgəsində vəziyyət gərgin olaraq qalmaqdadır. Strateji əhəmiyyətli ***Yeddi Xırman*** dağı erməni silahlıları tərəfindən zəbt olunur. ***Xıdırlı, Qiyaslı, Seyidli*** kəndləri ərazilərində şiddətli döyüşlər gedir. Bu kəndlərin onlarla evləri ermənilər tərəfindən yandırılır...

**17 iyul 1723-cü il** - Rus hərbi gəmiləri Bakı körfəzinə daxil olur. Bakı hakimindən rus qarnizonunu burada yerləşdirmək tələb olunur. Bakı hakimi buna razılıq vermir. Şəhər dənizdən və qurudan aramsız top atəşinə tutulur. Şəhər divarları dağıdılır. Çoxlu insan tələfatı olur. Bakı şəhəri **5** gün sonra ruslara təslim olur...

**17 iyul 1905-ci il** - Şuşada müsəlman evləri top atəşləri ilə yandırılıb dağıdılır. Erməni yaraqlıları müsəlmanların üzərinə hücuma keçir. **30** azərbaycanlı qətlə yetirilir...

**17 iyul 1918-ci il** - Naxçıvanın ***Sirab*** kəndinə basqın edən erməni terrorçuları kənd əhalisini ***Hacı Kərim*** və ***Hacı Qəmbər*** məscidlərinə yığıb onları yandırırlar. Canlarını qurtarmaq üçün qaçıb ***Daşqala, Daştəpə, Şorsu*** adlanan

sahələrdə gizlənən əhalini mühasirəyə alan daşnaqlar həmin adamları kütləvi şəkildə qətlə yetirirlər...

**17 iyul 1920-ci il** - Şəmkir qəzasının ***Müşkürlü*** kəndində Namazın başçılığı ilə üsyan baş verir...

**17 iyul 1942-ci il** - Təxminən 7 aya yaxın davam edən və minlərlə azərbaycanlıların da ölümünə səbəb olan ***Stlinqrad döyüşü*** başlayır...

**17 iyul 1991-ci il** - Saat **18** radələrində Kəlbəcər rayonunun **Xanımdərəsi** və **Zod** kəndləri erməni terrorçuları tərəfindən atəşə tutulur. **2** nəfər azərbaycanlı polis işçisi qətlə yetirilir. **2** nəfər isə ağır yaralanır. ***Aşağı Ayrım*** kəndinə basqın edən terrorçular **1** nəfəri girov götürür, **20** baş mal-qaranı isə sürüb aparırlar...

**17 iyul 1992-ci il** - Erməni yaraqlıları ***Xocavənd*** rayonunun ***Düdükçü*** və Füzuli rayonunun ***Üçbulaq*** *(Hoğa)* kəndləri arasındakı ərazilərdə fəal döyüş əməliyyatı həyata keçirirlər...

**17 iyul 1992-ci il** - Cəbrayıl, Füzuli, Ağdam, Tərtər rayonlarının əraziləri ermənilər tərəfindən atəşə məruz qalır. Ağdam şəhərinin 5 kilometrliyində şiddətli döyüşlər gedir...

**18 iyul 1722-ci il** - 274 gəmidən ibarət olan I Pyotrun Kaspi donanması general-admiral Apraksinin komandanlığı ilə Həştərxandan cənuba Azərbaycana tərəf hərəkətə başlayır...

**18 iyul 1905-ci il** - Şuşada **30** nəfər müsəlman ermənilər tərəfindən qətlə yetirilir...

**18 iyul 1908-ci il** - İnqilabın gedişində ***Səttarxan*** fədakarlıq göstərir. O, öz kiçik dəstəsi ilə hücuma keçib ***Təbriz*** küçələrində asılan ağ bayraqları qırmızı bayraqlarla əvəzləyir. Faciələrlə tez-tez üzləşən Təbriz İran inqilabının mərkəzinə çevrilir...

**18 iyul 1941-ci il** - Azərbaycanın qəhrəman oğlu, Böyük Vətən müharibəsi qəhrəmanı, qırıcı-təyyarəçi, leytenant **Hüseyn Baləli oğlu Əliyev** həlak olur...

**18 iyul 1988-ci il** - SSRİ Ali Soveti Rəyasət Heyətinin iclası DQMV haqqında məsələni müzakirə edərək respublikalar arasında sərhədlərin dəyişdirilməsini yolverilməz hesab etdikdən sonra erməni millətçiləri azərbaycanlıların Ermənistandan çıxarılması üçün hər yerdə mitinqlər təşkil etməyə başlayırlar. Ermənistan SSR-in yüksək rəsmi instansiyaları və respublika rəhbərliyi bu qərara məhəl qoymur...

**18 iyul 1992-ci il** - Ağdam rayonunun ***Gülablı, Çuxurməhlə, Xıdırlı, Əhmədavar*** kəndləri ermənilər tərəfdən atəşə tutulur...





**19 iyul 1733-cü il** - Bağdada köməyə gəlmiş Topal Osman paşanın qoşunu ilə dəhşətli vuruşmada ***Nadir*** ağır məğlubiyyətə uğrayır...

**19 iyul 1826-cı il** - Abbas Mirzənin başçılığı ilə İran qoşunları Azərbaycana daxil olur. ***II Rusiya-İran müharibəsi*** başlayır...

**19 iyul 1920-ci il** - ADR-in qurucularından biri, Azərbaycanın görkəmli ziyalısı **Həsən bəy Məşədi Hüseyn oğlu Ağayev** Tiflis şəhərində daşnaq terrorçusu tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**19 iyul 1921-ci il** - Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin iclasında həmişə dəyişkən mövqe nümayiş etdirən S.M.Kirov da iştirak edir...

**19 iyul 1993-cü il** - Ağdam rayonunun ***Xıdırlı, Qiyaslı, Seyidli*** kəndləri ermənilər tərəfindən qarət edilərək od vurulub yandırılır...

**19 iyul 1993-cü il** - Ağdam rayonunun ***Novruzlu*** kəndi ərazisində şiddətli döyüşlər gedir. İtkilər olur...

**19 iyul 1993-cü il** - Azərbaycan ordusunda korpus sistemi ləğv olunur. Yeni yaradılan səhra cəbhəsi sistemi özünü doğrultmur. Cəbhə mövqeyindəki hərbi hissələr iflic vəziyyətə düşür...

**19 iyul 1993-cü il** - Cəbrayıl rayonunun ***Quşçular*** kəndi ermənilər tərəfindən güclü atəşə tutulur...

**19 iyul 1993-cü il** - Erməni silahlı qüvvələri Dağlıq Qarabağ hüdudlarından 10 km kənarda yerləşən Ağdam şəhəri istiqamətində irəliləyə bilir. ***Novruzlu, Xıdırlı, Qiyaslı*** kəndləri yaxınlığında şiddətli döyüşlər gedir. İtkilər olur...

**20 iyul 1894-cü il** - Qaçaq Nəbinin qardaşı ***Mehdi*** Gürcüvan kəndində hökumət casusları tərəfindən öldürülür...

**20 iyul 1918-ci il** - Naxçıvanın Vayxır kəndinə basqın edən erməni terrorçuları ələ keçən dinc sakinləri amansızlıqla qətlə yetirirlər. Çox az bir qisim adam qaçaraq ***Sulu dərə*** və ***Yel suyu*** adlanan zağaya dolub bu qırğından canını qurtara bilir...

**20 iyul 1921-ci il** - Azərbaycan K(b)P MK Siyasi Bürosu və Təşkilat Bürosu muxtar vilayətin konstitusiyasının hazırlanması üçün komissiya yaradır...

**20 iyul 1988-ci il** - SSRİ Ali Soveti Rəyasət Heyəti Qarabağın ədalətli həllinə zidd olan və ikili standarta əsaslanan qərar qəbul edir...

**20 iyul 1991-ci il** - Milli Qəhrəman ***Vüqar Tofiq oğlu Hüseynov*** erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**20 iyul 1991-ci il** - Zəngilan rayonunun ***Ağbənd*** yaşayış məntəqəsi ermənilər

tərəfindən atəşə tutulur. Ölənlər və yaralananlar olur...

**20 iyul 1991-ci il** - Goranboy rayonunun ***Erkəc*** və ***Mənəşli*** kəndləri yaxınlığındakı daxili xidmət qoşunlarının postuna ermənilər tərəfindən basqın edilir. Ölənlər və yaralananlar olur. ***Todan*** kəndi ərazisindəki atışmada isə **1** nəfər həlak olur, 7 nəfər yaralanır...

**21 iyul 1723-cü il** - Bakı limanı çətinliklə olsa da ruslar tərəfindən tutulur. 4 batalyon rus qoşunu şəhərin cənub tərəfindən sahilə çıxır...

**21 iyul 1903-cü il** - Bakıda keçirilən ilk ümumi siyasi tətil başa çatır...

**21 iyul 1905-ci il** - *«Daşnaksütyun»* partiyasının tapşırığı ilə daşnak ***Xristofor Melikyan qızı Rubina*** ilə birlikdə İstambulda ***Həmdiyer*** məscidinin qarşısında Cümə namazından çıxan Sultan Əbdül Həmidə sui-qəsd edirlər. Bomba partlayışı nəticəsində namazdan çıxan **26** müsəlman ölür, **58** müsəlman isə yaralanır...

**21 iyul 1923-cü il** - Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarlar Sovetinin Rəyasət Heyətinin iclası keçirilir. DQMV haqqında əsasnamə hazırlamaq üçün komissiya yaradılır...

**21 iyul 1988 -ci il** - Erməni terrorçuları ***Kalinino*** qəsəbəsində qəssab işləyən Qaraboğaz Məhəmmədi qətlə yetirirlər...

**21 iyul 1990-cı il** - Ağdam rayonunun ***Cinli kəndi*** ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar olur...

**21 iyul 1990-cı il** - Kəlbəcər-Ağdərə avtomobil yolunda sərnişin avtobusu ermənilər tərəfindən gülləbaran edilir. 3 nəfər həlak olur, 13 nəfər yaralanır...

**21 iyul 1990-cı il** - Erməni silahlı quldurları Qubadlı rayonunun ***Tarovlu*** kəndinə basqın edir. 22 yaşlı kənd sakini ***Şirzad Həsənov*** qətlə yetirilir. Sovxoz direktoru **Nümayiş Mehdiyev** və daha bir neçə nəfər ağır yaralanır...

**21 iyul 1991-ci il** - Axşam saat 18-də erməni yaraqlı quldurları (***"Tiqran Mets"*** adlı daşnaq terror dəstəsi) Laçın rayonu yaylağında, ***Ərimaz*** dağı ətrafında qanlı cinayət aktı törədərək **9** nəfər azərbaycanlını vəhşicəsinə qətlə yetirir. **20** alaçıq yandırılır. Erməni soyğunçular **13. 000** baş qoyunu, **29** baş qaramalı, **27** atı oğurlayaraq götürüb aparırlar...

**21 iyul 1992-ci il** - ***Sur*** kəndi ermənilər tərəfindən güclü atəşə məruz qalır...

**21 iyul 1992-ci il** - Əliağalı, Qaraşlar kəndləri və Ağdam şəhəri ermənilər tərəfindən atəşə tutulur...

**21 iyul 1992-ci il** - Milli Ordunun igid əsgərləri **Şahvələd** və **İbrahim Əvəz oğlu Cəfərov** qardaşları Ağdərə bölgəsində baş verən döyüşlərdə şəhid olurlar...





**21 iyul 1993-cü il** - Ağdam şəhəri ermənilər tərəfindən raket və toplardan güclü atəşə tutulur. Erməni silahlı qüvvələri 3 istiqamətdə ***Ağdam*** şəhəri üzərinə yenidən güclü hücuma keçir. Şəhər artıq mühasirəyə düşür. Dağıntılar və tələfat olur...

**21 iyul 1993-cü il** - Erməni silahlı birləşmələri Ağdam rayonunun ***Muğanlı*** və ***Şıxbabalı*** kəndlərini işğal edir...

**21 iyul 1993-cü il** - Ağdam rayonunun ***Çuxurməhlə, Əhmədavar, Mərzili*** kəndləri ərazilərində şiddətli döyüşlər gedir. İtkilər olur...

**21 iyul 1993-cü il** - Goranboy döyüşlərində ucarlı igidlər - **Rayət İslam oğlu Abdullayev** və **Füzuli Paşa oğlu Əhmədov** həlak olurlar...

**22 iyul 1903 -cü il** -Bakıda keçirilən ilk ümumi siyasi tətil başa çatır...

**22 iyul 1918-ci il** - Naxçıvanın ***Cəhri*** kəndinə basqın edən erməni terrorçuları namaz vaxtı ibadətlə məşğul olan kəndin əhalisini **4** məsciddə qırırlar...

**22 iyul 1992 - ci il** - Cəbrayılın ***Sur*** kəndi ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar olur...

**22 iyul 1992 -ci il** - Əliağalı, Qaraşlar kəndləri və Ağdam şəhəri ermənilər tərəfindən atəşə tutulur. Ciddi dağıntılar olur...

**22 iyul 1993-cü il** - Tərtər rayonunda ermənilər tərəfindən törədilmiş partlayış nəticəsində **5** nəfər azərbaycanlı həlak olur, **18** nəfər yaralanır...

**22 iyul 1993-cü il** - Qazax rayonunun mərkəzində ermənilər tərəfindən törədilən partlayış nəticəsində **6** nəfər həlak olur, **10** nəfər yaralanır...

**22 iyul 1993-cü il** - İgid, vətənpərvər döyüşçü **Vüqar Şahlar oğlu Abbasov** Ağdamın müdafiəsində həlak olur...

**22 iyul 1993-cü il** - Düşmən Füzuli rayonu istiqamətində ***Cuvarlı, Qoçəhmədli*** kəndlərini işğal etdikdən sonra *Cəbrayıl-Füzuli* avtomobil yolunu kəsməyə səy göstərir...

**22 iyul 1993-cü il** - Erməni silahlı birləşmələri ***Ağdam*** şəhəri istiqamətində yenidən irimiqyaslı hücuma keçir. Şəhərin qərb hissəsi düşmən tərəfindən zəbt edilir. **40** nəfər dinc sakin, **20** nəfər əsgər həlak olur, **100**-dən çox adam yaralanır. ***Xıdırlı, Qiyaslı, Muradbəyli, Çuxurməhlə, Sarıhacılı*** kəndləri tam işğal edilir. Vəziyyət son dərəcə gərgin olaraq qalır. Zəbt edilmiş yaşayış məntəqələrindən - ***Mərzili, Novruzlu, Yusifcanlı*** və s. kəndlərin ərazilərindən erməni yaraqlıları bir neçə istiqamətdən Ağdam şəhərinə soxulmağa can atır. Döyüşlər şəhərin lap həndəvərində gedir...

**23 iyul 1730-cu il** - Osmanlı sultanlığı Nadirin qələbələrindən təşvişə düşərək Səfəvi dövlətinə rəsmən müharibə elan edir...

**23 iyul 1991-ci il** - Erməni terrorçuları **Əsgəran** *(Xocalı)* rayonunun ***Cəmilli*** kəndinə basqın edirlər. Kənd ermənilər tərəfindən qarət olunur. Çoxlu sayda azərbaycanlı qətlə yetirilir...

**23 iyul 1991-ci il** - Silahlı ermənilər ***Tuğ*** kəndinin yaxınlığında azərbaycanlı milis işçilərunə hücum edirlər. Özünümüdafiə dəstəsinin könüllü döyüşçülərindən olan 23 yaşlı **Oqtay Dərgah oğlu Hüseynov** və 22 yaşlı **Amil Əvəz oğlu Yusifov** güllələnir. Sonra onların cəsədləri ermənilər tərəfindən vəhşicəsinə doğranılır...

**23 iyul 1991-ci il** - Hadrut rayonunun *(indiki Xocavənd rayonu)* ***Tuğ*** kəndi yaxınlığında Tuğ milis bölməsinin **1** nəfər əməkdaşı və **1** nəfər yerli sakin erməni quldurları tərəfindən qətlə yetirilir...

**23 iyul 1993-cü il** - Günortaya qədər və günorta Ağdamın mərkəzi küçələrində şiddətli döyüşlər gedir. Nəhayət, qızğın döyüşlərdən sonra Qarabağın bəy otağı sayılan Ağdam rayonu *(şəhəri)* təxminən saat ***17.00*** radələrində erməni silahlı qüvvələri tərəfindən işğal edilir. Beləliklə, döyüşkənliyi ilə Qarabağın düşmən çəpərlərindən biri hesab edilən, ***160. 000*** nəfər əhalisi olan Ağdam rayonu da uzun mübarizədən sonra düşmən əlinə keçir...

**23 iyul 1993-cü il** - Keçmiş Ağdərə bölgəsinin ***Haterk, Levonarx, Lüləsaz, Malakanlar*** kəndlərinin ermənilərdən azad olunması uğrunda gedən qanlı döyüşlərdə igid tərtərli döyüşçülər - **Əzim Miri oğlu Cahangirov, Mahir Yelmar oğlu Əsədov, Talıb Əli oğlu Şəldiyev, Mustafa Rəhim oğlu Quliyev, Etibar Albert oğlu Heydərov** həlak olurlar...

**23 iyul 1993-cü il** - Ağdam briqadasının hissələri **42** günlük ağır və üzücü müdafiə döyüşlərindən sonra **Ağdam** şəhərini tərk edirlər...

**23 iyul 1993-cü il** - Füzuli rayonunun inzibati mərkəzi olan Füzuli şəhəri və rayonun ətraf kəndləri ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulur. Rayonun ***Cuvarlı*** və ***Qoçəhmədli*** kəndləri işğal edilir. İtkilər olur...

**23 iyul 1993-cü il** - Ağdam şəhəri də daxil olmaqla rayonun ***Seyidli, Sarıhacılı, Bozpapaqlar, Ətyeməzli, Keştazlı, Əhmədavar, Sarıcalı, Qarazeynallı, Qullar, Kəngərli, Ağdamkənd, Qaradağlı, Muradbəyli, Əlimərdanlı, Pərioğullar, Tillər, Çərik, Açarlı*** yaşayış məntəqələri erməni silahlı birləşmələri tərəfindən işğal edilir...

**23 iyul 2000-ci il** - Raket texnologiyası istiqamətində ***Moskva-Pekin-Yerevan*** (Viktor Mixaylov+professor Kim İen Sen+Ter-Avakyan qrupu) danışıqları aparılır...





**24 iyul 1783-cü il** - Kartli-Kaxeti çarlığının Rusiya himayəsinə keçməsi haqqında ***Georgiyevsk müqaviləsi*** imzalanır...

**24 iyul 1990-cı il** - Azərbaycan Prezidenti A.Mütəllibov göstəriş verir ki, azərbaycanlı və erməni kəndləri arasında barışıq müqaviləsi bağlansın. Bu göstərişə Azərbaycan tərəfi nə qədər cəhd göstərirsə də ermənilər heç bir razılığa gəlmirlər. Əksinə, rus əsgərləri Xocalı rayonunun ***Meşəli*** kəndində kənd sakinlərində olan vur-tut bir-iki ov tüfəngini də alaraq erməni milislərinə *«hədiyyə»* edirlər...

**24 iyul 1991-ci il** - Goranboyun ***Erkəc*** kəndi ərazisində ***Başqışlaq*** kənd sakininin ermənilər tərəfindən eybəcər hala salınmış meyidi tapılır...

**24 iyul 1993-cü il** - Füzuli rayonunun ***Cuvarlı*** kəndi ermənilər tərəfindən tamamilə işğal olunur...

**24 iyul 1993-cü il** - Erməni hərbi birləşmələri ***Füzuli*** və ***Cəbrayıl*** istiqamətlərində ələ keçirdikləri kəndlərdən həmin rayonların digər yaşayış məntəqələrini də müxtəlif növ silahlardan atəşə tuturlar...

**25 iyul 1225-ci il** - Xarəzmşah Cəlaləddin Təbrizi tutur...

**25 iyul 1744-cü il** - Nadir şah Osmanlılarla müharibə məqsədi ilə Arpa çayını keçib Qars qalasının cənubunda yerləşir...

**25 iyul 1913-cü il** - Bakı fəhlələrinin ümumi tətili başlayır...

**25 iyul 1918-ci il** - Daşnaq terrorçu dəstələri ***Şərur*** bölgəsinin ***Sədərək, Həmzəli, Axura, Mahmudlu, Birəli, Avarı, Qozluca, Çivə, Yuxarı və Aşağı Yaycı, Zeyla, Dəmirçi*** kəndlərinə silahlı basqın edərək amansız qırğınlar törədirlər. Birəli kəndində Xədicə adlı qızdan başqa salamat bir kimsə qalmır. ***Avarı*** kəndində **300** nəfər diri-diri yandırılır. ***Çivə*** kəndində **200** nəfəri kənd məscidinə yığıb od vururlar. ***Qozluca*** kəndi şiddətli top atəşinə tutulur...

**25 iyul 1919 -cu il** - Erməni terrorçuları ***Gümrü*** şəhərində amansız qətllər törədirlər...

**25 iyul 1943-cü il** - Böyük Vətən müharibəsinin ən böyük vuruşmalarından biri olan və **15** aya qədər davam edən ***Kursk döyüşü*** başlayır. Bu qanlı vuruşmalarda minlərlə igid azərbaycanlı da həlak olur...

**25 iyul 1990-cı il** - Erməni silahlı dəstələri, könüllü döyüşçüləri, «boyeviklər», muzdlular Dağlıq Qarabağda yerləşdirildikdən sonra SSRİ Prezidenti M.S.Qorbaçov «SSRİ qanunvericiliyi ilə nəzərdə tutulmamış silahlı dəstələr yaradılmasını qadağan etmək və silah qanunsuz saxlandığı hallarda onu geri almaq haqqında» fərman verir. Fərmanın mürəkkəbi qurumamış Azərbaycanın bütün rayonlarında və kəndlərində *(Dağlıq Qarabağın ermənilər yaşayan məntəqələri*

*istisna olmaqla)* adi ov silahları da yığılmağa başlanılır. Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərində isə bu missiyanı rus qoşunu yerinə yetirməyə başlayır...

**25 iyul 1992-ci il** - Ağdərə rayonunun ***Muxurataq*** kəndi yaxınlığında əsir götürülmüş bir azərbaycanlının 20 yaşlı bir erməni qızı tərəfindən başı kəsilir...

**25 iyul 1992-ci il** - Cəbhənin Füzuli bölgəsində ***Üryandağ*** döyüşündə **Binnət Manaf oğlu Abbasquliyev** ermənilər tərəfindən amansızlıqla qətlə yetirilir...

**26 iyul 1579-cu il** - Abbas Mirzənin ***(I Şah Abbas)*** anası **Xeyrənnisə bəyim Mirzə Abdulla xan qızı Mazandaranlı** qətlə yetirilir...

**26 iyul 1723-cü il** - Rus batalyonları Bakını tutur. Matyuşkin Bakı sultanının Hacı Davudla əlaqəsini eşidib Məhəmməd Hüseyn bəyi həbsə almağı əmr edir. ***Knyaz Baryatinski*** Bakının komendantı təyin edilir...

**26 iyul 1826-cı il** - İran ordusu Qarabağa hərəkət edərək Şuşanı mühasirəyə alır. **48** gün şəhər mühasirədə qalsa da, Abbas Mirzənin ordusu onu tuta bilmir...

**26 iyul 1826-cı il** - Şah qoşunları Salyana hücum edir. Əhalinin bir hissəsi qırılır, digər hissəsi əsir aparılır. Şəhər yaxınlığındakı balıq vətəgələri qarət edilir...

**26 iyul 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə **46** nəfəri azərbaycanlı olan **47** nəfər güllələnir...

**26 iyul 1938-ci il** - Azərbaycan SSR XDİK DT baş mayoru ***Rayevin*** əmri ilə **3** nəfər güllələnir...

**26 iyul 1990-cı il** - Erməni silahlı quldurları Vedinin Yeni Həyat kəndinin sakini **Şamo Əli oğlu Süleymanovun** Əyricə yaylağındakı yurd yerinə basqın edirlər. *74* yaşlı Şamo Süleymanov, *70* yaşlı həyat yoldaşı **Seyran Yusifova** və köməkçi, *62* yaşlı **Gözəl Həsənova** qətlə yetirilir. Cəsədlər üzərinə erməni qansızları tərəfindən benzin tökülərək yandırılır, onların bütün əmlakları qarət olunur...

**26 iyul 1992-ci il** - Füzuli rayonunun ***Qaradağlı*** kəndi ermənilər tərəfindən müxtəlif növ silahlardan atəşə tutulur. **1** nəfər dinc kənd sakini həlak olur. Kənd dağıntıya məruz qalır...

**26 iyul 1993-cü il** - Ağdam rayonunun ***Maqsudlu, Tərnöyüt, Şahbulaq*** kəndləri də erməni hərbi birləşmələri tərəfindən işğal edilir...

**26 iyul 1995-ci il** - Cəbrayıl rayonunun ***Dağtumas*** kəndi ərazisində **10** yaşlı azərbaycanlı günahsız uşaq erməni millətçiləri tərəfindən torpağa basdırılır...





**27 iyul 1804-cü il** - Eçmiədzin və Qəmərlidə ruslarla qanlı döyüşlər baş verir...

**27 iyul 1826-cı il** - Gəncədə Rusiya müstəmləkəçiliyi əleyhinə üsyan başlanır...

**27 iyul 1937-ci il** - Azərbaycan SSR XDİK üçlüyünün qərarı və 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə **53** nəfər güllələnir...

**27 iyul 1989-cu il** - Azərbaycan dəmir yolunun *Mincivan-Mehri-Culfa* hissəsində erməni təxribatı nəticəsində sərnişin və yük qatarlarının hərəkəti kəsilir...

**27 iyul 1992-ci il** - Ağdam şəhəri, rayonun ***Çuxurməhlə, Əhmədavar, Xıdırlı*** kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur...

**27 iyul 1992-ci il** - Zəylik, Umudlu, Medşen, Aşağı Oratağ, Akop Komari kəndləri artıq düşmən əlinə keçir. Ermənilər artıq ***Sərsəng*** su bəndinə nəzarət edirlər...

**28 iyul 1049-cu il** - Şirvanşah ***Qubad ibn Yəzid*** öldürülür...

**28 iyul 1723-cü il** - Bakı ruslar tərəfindən işğal edilir. Bakı hakimi ***Məhəmməd Hüseyn bəy*** Hacı Davudla əlaqədə olduğu üçün Roqaçevskiyə sürgün edilir...

**28 iyul 1918- ci il** - Urmiyada şəhəri tərk edərək qaçan ermənilər qarşılarına çıxan hər bir müsəlmanı vəhşicəsinə qətlə yetirirlər...

**28 iyul 1920-ci il** - Naxçıvan sovetləşir. XI Qızıl Ordunun I Qafqaz polkunun 28-ci atıcı diviziyası Naxçıvana daxil olaraq orada sovet hakimiyyətini elan edir...

**28 iyul 1937-ci il** - Siyasi Üçluyün qərarı ilə **Əhməd Hacınski, Əbülfəz Babayev** kimi ziyalılar güllələnir...

**28 iyul 1937-ci il** - Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının xüsusi üçlüyünün qərarı ilə **Mehdi bəy Eynallı oğlu Sultanov, Qəzənfər Hacı Zeynal oğlu Sultanov, Mövsüm Məzahir oğtu Bəydəmirov, Əbdülbağı Nəsrulla oğlu Məmmədzadə, Əbdül Abbas oğlu Əbdülzadə, Süleyman Hüseyn oğlu İsrafilov, Əbdülhəsən Ələkbər oğlu Rəhimov, Şükür Hacı oğlu Hacıyev və Mirəbdülqəni Ələkbər oğlu Mirqasımov** güllələnirlər...

**28 iyul 1992-ci il** - İgid döyüşçülər - **Taleh Bulud oğlu Məmmədov, Rizvan Əliş oğlu Quliyev, Qabil Nəzər oğlu Məmmədov, Mütalib Əli oğlu Abbasov, Əli İsmayıl oğlu Kərimov** Ağdam rayonunun ***Papravənd*** kəndinin ermənilərdən

müdafiəsi zamanı həlak olurlar...

**29 iyul 1599-cu il** - I Şah Abbas ilə Dinməhəmməd xan Özbək arasında Herat yaxınlığında döyüş baş verir. Hər iki tərəfdən çoxlu sayda itkilər olur. I Şah Abbas Mavərənnəhri öz təsiri altına ala bilir...

**29 iyul 1744-cü il** - Nadir şah Osmanlılarla 4-cü müharibəyə başlayır...

**29 iyul 1906-cı il** - Ermənilər Zəngəzurdakı ***Karxana*** kəndinə basqın edir. Müharibədə öldürülmüş **Tahir Ordubadlının** arvadı **Pakizə** və onun südəmər qızı **Firuzə** də daxil olmaqla **30** nəfər müsəlman-qadın ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**29 iyul 1906-cı il** - Zəngəzur ərazisində qaraçəmənli **Səfiyar bəy** dəvətlə Mədən bazarına gələrkən bağlar yaxınlığında, həmzəli **Şamil bəy** isə Gorus yaxınlığında erməni daşnak qatilləri tərəfindən pusquya salınaraq vəhşicəsinə qətlə yetirilirlər...

**29 iyul 1906-cı il** - Erməni silahlı dəstələri azərbaycanlılar yaşayan ***Xələc, Saldaşlı, İncəvar, Daşnov*** kəndlərini viran qoyurlar. Qaçıb canlarını qurtaranlar Qatar kəndinə pənah gətirirlər...

**29 iyul 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli Dövlət Təhlükəsizlik Komissarı ***Sumbatovun*** əmri ilə 90 %-i azərbaycanlı olan **79** nəfər qətlə yetirilir...

**29 iyul 1989-cu il** - Ermənilərin davamlı hücumlarının nəticəsi olaraq Azərbaycanın mərkəzindən Naxçıvana gedən qatarların hərəkəti tamamilə dayandırılır. Naxçıvan Muxtar Respublikası blokada vəziyyətinə düşür...

**29 iyul 1991-ci il** - Erməni terrorçuları Hadrutdan bir neçə kilometr aralıda ***"Şəhriyar"*** kolxozunun **2** nəfər işçisini - ***30*** yaşlı **Arzumanı** və ***28*** yaşlı İmranı amansızlıqla qətlə yetirirlər...

**29 iyul 1992-ci il** - Ağdam şəhəri, Abdal, Gülablı, Əhmədavar, Əliağalı, Qalayçılar, Papravənd, Çuxurməhlə və Şelli kəndləri atəşə məruz qalır. Dağıntılar, yaralananlar olur...

**29 iyul 1992-ci il** - Cəbrayıl istiqamətində döyüşlər davam edir. ***Daşbaşı, Sur, Süleymanlı*** kəndləri atəşə tutulur...

**29 iyul 1992-ci il** - Milli Qəhrəman **Kamil Balədə oğlu Nəsibov** erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**29 iyul 1993-cü il** - BMT TŞ Dağlıq Qarabağ münaqişəsi ilə bağlı **853** saylı qətnamə qəbul edir. Lakin erməni tərəfi bu qətnamənin də tələblərini yerinə yetirmir...

**29 iyul 2001-ci il** - Mərkəzi Nyu-York və Londonda olan Erməni Ümumxeyriyyə İttifaqının Qarabağda şöbəsi yaradılır...





**30 iyul 1731-ci il** - Osmanlılar Səfəvilərlə müharibədə Kirmanşahı tutur...

**30 iyul 1902-ci il** - Bakı gəmi təmiri zavodunun fəhlələri tətil edirlər...

**30 iyul 1906-cı il** - Erməni yaraqlıları ***Karxana*** kəndinin camaatını qırandan sonra ***Lov, Xələc, Saldaşlı, İncəvar*** və ***Daşnov*** kəndlərinə hücum edərək çoxlu sayda sakinləri məhv edir, kəndləri yandırırlar...

**30 iyul 1919-cu il** - Erməni silahlı birləşmələri Gərnibasarın ***Xaştab, Ağbaşyamaclar, Qocansura, Hacıqurbanlar, Atgöz, Dəhla, Qurqərqə*** kəndlərinə basqın edərək **300** evi dağıdırlar. Çoxlu sayda günahsız kənd sakinləri öldürülür. 58 qadın və uşaq amansızlıqla qətlə yetirilir...

**30 iyul 1992-ci il** - Cəbrayıl rayonunun ***Süleymanlı*** kəndi erməni yaraqlıları tərəfindən atəşə tutulur. **3** nəfər yaralanır...

**30 iyul 1992-ci il** - Qarabağ döyüşlərində şəmkirli igidlər - **Rasim Abbas oğlu Abbasov** və **Asif Əladdin oğlu Hacıyev** Ağdərə bölgəsində həlak olurlar...

**30 iyul 1993-cü il** - Füzuli və Cəbrayıl rayonlarının bir sıra yaşayış məntəqələri ermənilərin atdıqları top mərmisinə tuş gəlir. Tələfat və dağıntılar olur...

**31 iyul 1744-cü il** - Nadir şah Naxçıvandan Qars istiqamətinə yürüş edir. O, bununla burada əhalinin müqavimətinə son qoymaq istəyir. Qars qalasını mühasirəyə alan Nadir şah Əhməd paşaya ultimatum göndərib yalançı Səfi Mirzəni tələb edir. Əhməd paşa rədd cavabı verir. Osmanlı komandanlığı mühasirədə olanlara kömək edə bilmir. Əhməd paşa bir neçə zabiti xeyli hədiyyə ilə İran düşərgəsinə göndərib Osmanlı sarayının sülh bağlamaq niyyətində olduğunu bildirir...

**31 iyul 1918-ci il** - Bakı Xalq Komissarları Şurası süqut edir...

**31 iyul 1990-cı il** - Gürcüstana Azərbaycandan qonaq getmiş iki şəmkirli erməni terrorçusu tərəfindən ***Şulaverdə*** təcavüzə məruz qalır. Onlardan biri qətlə yetirilir, digəri Ermənistana girov aparılır...

**31 iyul 1991-ci il** - Dağıstanın Temirtau stansiyası yaxınlığında ***"Moskva-Bakı"*** sərnişin qatarı erməni terrorçuları tərəfindən partladılır. Nəticədə **16** nəfər həlak olur, **23** nəfər ağır yaralanır...

**31 iyul 1992-ci il** - Ağdərə yüksəklikləri uğrunda gedən qanlı döyüşlərdə tərtərli zabit **İsmayıl Ziyəddin oğlu Məmmədov** həlak olur...

**31 iyul 1993-cü il** - Füzuli və Ağdam cəbhələrində qızğın döyüşlər davam edir. İtkilər olur...

# A V Q U S T

**1 avqust 1421-ci il** - Qara Yusifin oğlanları - İsgəndər və İsfəndiyar Teymuri sultanı Şahruxla Ələşkerd vadisində vuruşurlar. Qaraqoyunlular Teymurilərin və Şirvanşahların birləşmiş qüvvələrinə məğlub olur. Teymurilər Azərbaycanı müvəqqəti də olsa, işğal edirlər...

**1 avqust 1473-cü il** - Ağqoyunlular ilə Osmanlılar arasında Ağqoyunluların qələbəsi ilə nəticələnən ***Malatya döyüşü*** baş verir...

**1 avqust 1906-cı il** - Saat *12* radələrində silahlı ermənilər ***Zəngəzur*** ərazisindəki ***Qatar*** kəndinə hücum edirlər, qətllər törədirlər. Bu müharibədə Barabatumda olan kazaklar və İran fəhlələri açıqca ermənilərə yardım edirlər. Qüvvələrin qeyri-bərabər olduğunu görən azərbaycanlılar ***Kəllədağ*** kəndinə yollanırlar. Ermənilər kəndi dağıdırlar...

**1 avqust 1906-cı il** - Erməni silahlıları indiki ***Ağdam*** rayonunun tərkibində olan və azərbaycanlılar yaşayan ***Papravənd*** kəndinə hücum edib, **15** nəfər dinc sakini qətlə yetirirlər...

**1 avqust 1918-ci il** - *"Sentrokaspi"* diktaturası hakimiyyəti ələ alır. Bakıda hakimiyyət eserlərin, daşnakların və menşeviklərin əksinqilabi ittifaqının əlinə keçir...

**1 avqust 1918-ci il** - Zəngəzur qəzasının ***Yaqublu*** kəndinə basqın edən daşnaq terrorçular kəndi viran qoyaraq **28** nəfər dinc sakini amansızlıqla qətlə yetirirlər...

**1 avqust 1921-ci il** - Qarabağın ***Vərəndə*** vilayətinin ***Kəndxurdda*** keçirilən Sovetlər qurultayında Qafqaz Bürosunun verdiyi qərar bəyənilir...

**1 avqust 1988-ci il** - Laçın şəhəri ərazisində Ermənistan SSR-dən DQMV-a *"tikinti materialları"* adı ilə gələn *12* avtomaşın yoxlanarkən partladıcı qurğular üçün detonatorlar aşkarlanır. Narazı qalmış erməni sürücülərdən biri avtokranla elektrik xəttini qıraraq rayon mərkəzini uzun müddət işıqsız qoyur. Qarşıdurma nəticəsində hay-küy yaranan hadisə yerinə SSRİ DİN Daxili Qoşunlarının rəisi, general-polkovnik ***Y.Şatalin*** və DQMV xüsusi rayonunun komendantı, general-mayor ***V.Safonov*** da gəlir...

**1 avqust 1988-ci il** - *Şuşa-Ağdam* avtomobil yolunda sərnişin avtobusu ermənilər tərəfindən daş-qalaq olunur...

**1 avqust 1989-cu il** - Erməni yaraqlıları ***Kərki*** kəndinə basqın edirlər. Çoxlu sayda ev yandırılaraq dağıdılır...

**1 avqust 1989-cu il** - Şuşa-Ağdam istiqaməti ilə hərəkət edən sərnişin avtobusu ermənilər tərəfindən daş-qalaq edilir. Sərnişinlər təhqir olunur...





**1 avqust 1993-cü il** - Cəbrayıl rayonunun ***Quşçular*** və ***Sur*** kəndləri toplardan və qrad qurğularından atəşə tutulur. Dağıntılar olur...

**2 avqust 1906-cı il** - Erməni silahlı dəstələri ***Zəngəzur*** ərazisində - azərbaycanlılar yaşayan kəndlərdə qırğınlar törədirlər...

**2 avqust 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli Dövlət Təhlükəsizlik Komissarı ***Sumbatovun*** əmri ilə **16** nəfər güllələnir...

**2 avqust 1988-ci il** - Azərbaycan və Ermənistan rəhbərləri - Ə.X.Vəzirov S.Q.Arutyunyan Xankəndidə görüşürlər. Görüşdə Sovet İKP MK-nin nümayəndəsi A.M.Volski iştirak edir. Görüş heç bir müsbət nəticə vermir...

**2 avqust 1990-cı il** - *«Krasnaya Zvezda»* qəzetinin verdiyi məlumata əsasən İrəvanda erməni terrorçuları hərbi hissəyə hücum edərək **165** ədəd reaktiv oqnemyotu, onun **102** ədəd başlığını və **675** ədəd siqnal raketlərini aparırlar...

**2 avqust 1991-ci il** - Hadrut *(Xocavənd)* rayonunun ***Dolanlar*** kəndində "QAZ-53" markalı avtomaşın ermənilər tərəfindən partladılır. Nəticədə **4** nəfər **(Möhübbət Bəbiş oğlu Vəliyev, Lətif Səməd oğlu Cuvarov, Eyyub İsmayıl oğlu Daşdəmirov** və kombinatın sürücüsü) həlak olur, **8** nəfər ağır yaralanır...

**2 avqust 1992-ci il** - Milli Qəhrəman **Şövqiyar Cəmil oğlu Abdullayev** ermənilərlə döyüş zamanı həlak olur...

**3 avqust 1161-ci il** - Şahzadə Mahmud şah ibn Məhəmmədin tərəfdarları ***Həmədan*** yaxınlığında darmadağın edilir. Eldəniz ***Reyi*** tutur, oranı iqta kimi Cahan Pəhləvana verir...

**3 avqust 1918-ci il** - Zəngəzur qəzasının ***Şəki*** kəndinə basqın edən daşnaqlar **95** nəfər dinc sakini amansızlıqla qətlə yetirirlər. Körpə uşaqların meyidləri kənd yolunun kənarına düzülür...

**3 avqust 1937-ci il** - Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının xüsusi üçlüyünün qərarı ilə tanınmış ziyalı **Nəsibov Əsəd Nəsib oğlu** güllələnir. Güllələnmə aktını DTİ-nin 10-cu bölməsinin leytenantı ***Suxanov*** və 8-ci bölmənin rəisi ***Koqan*** imzalamışlar...

**3 avqust 1944-cü il** - Azərbaycanın igid oğlu, Sovet İttifaqı Qəhrəmanı *(ölümündən sonra, 26.10.1944)*, baş serjant **Qəzənfər Qulam oğlu Əkbərov** Belorusiyada *(Volojin şəhəri)* həlak olur...

**3 avqust 1990-cı il** - Gürcüstanın Marneuli rayonunun *Ahlı* kənd sakini olan bir azərbaycanlı erməni terrorçusu tərəfindən avtomat silahla qətlə yetirilir...

**3 avqust 1991-ci il** - Goranboy rayonunun ***Qaraçinar*** kəndi yaxınlığında azərbaycanlılara məxsus olan *"Jiquli"* maşını ermənilər tərəfindən saxlanılır; ***3*** nəfər girov götürülür...

**3 avqust 1992-ci il** - Gədəbəy rayonunun sərhədyanı yaşayış məntəqələri Ermənistan ərazilərindən güclü top atəşinə tutulur. Həmin kəndlərin sakinləri qonşu kəndlərə, eləcə də ***Bakı*** və ***Gəncə*** şəhərlərinə köçməyə məcbur olurlar...

**3 avqust 1992-ci il** - Ermənilər tərəfindən Qarabağın ***Sur*** kəndi atəşə tutulur. Təlefat və dağıntılar olur...

**3 avqust 2001-ci il** - ABŞ Erməni Missioner Assosiasiyası Qarabağda şöbə yaradır...

**3 avqust 2002-ci il** - Dubayın (BƏƏ) SMV Cumruters şirkətinin ofisi erməni bankının tərkibində fəaliyyətə başlayır...

**4 avqust 1473-cü il** - Ağqoyunlularla Osmanlı türkləri arasında ***Fərat*** sahilində, Malatya yaxınlığında güclü döyüş baş verir. Hər iki tərəfdən çoxlu sayda itkilər olur...

**4 avqust 1918-ci il** - İlk ingilis qoşun dəstəsi Bakıya gəlir. Polkovnik ***Stovsun*** komandanlığı ilə ingilislərin dəstələri Bakıda sahilə çıxır...

**4 avqust 1992-ci il** - Ağdamın ***Abdal*** və ***Gülablı*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**4 avqust 1993-cü il** - Füzuli rayonunun ermənilərlə həmsərhəd kəndləri ermənilər tərəfindən atəşə tutulur. Ölənlər və yaralananlar olur...

**4 avqust 1993-cü il** - Cəbrayıl rayonunun ermənilər yaşayan ərazilərlə sərhəd olan kənləri erməni yaraqlıları tərəfindən müxtəlif silahlardan atəşə tutulur. Dağıntılar olur...

**5 avqust 1205-ci il** - Gürcülər Azərbaycana basqın edirlər. Çoxlu sayda insan əsir düşür, Azərbaycanın bir sıra yaşayış məntəqələri viran olunur...

**5 avqust 1795-ci il** - Qarabağ xanı ***İbrahimxəlil xan*** Şuşa ağsaqqallarının təkidi ilə ağ kəfən geyib qala hasarının üstünə çıxır, şaha türkcə müraciət edərək onun təbəəsi olduğunu və ömrü boyu şaha itaət edəcəyini söyləyir...

**5 avqust 1906-cı il** - Müzəffərəddin şah konstitusiya haqqında fərman verir...

**5 avqust 1920-ci il** - Qırmızı Ordu hissələri Zəngəzura soxulur...

**5 avqust 1943-cü il** - Milli məsələlərdə fikri A.Hitlerlə üst-üstə düşməyən M.Ə.Rəsulzadə Berlini tərk edir...

**5 avqust 1991-ci il** - Erməni yaraqlı quldurları Laçının ***Fərəcan*** kəndini atəşə





tuturlar. **1** nəfər ağır yaralanır...

**6 avqust 1923-cü il** - Azərbaycan MİK-nin sədri M.B.Qasımov, XKS-nin sədr müavini M.Quliyev, daxili işlər naziri İ.Sviridov DQMV yaradıldıqdan sonra Qarabağın qalan hissəsində Ağdam, Cəbrayıl, Kürdüstan qəzalarını yaratmaq haqqında Azərbaycan MİK-nin əmrini imzalayırlar...

**6 avqust 1989-cu il** - Əsgəran (Xocalı) rayonunun ***Meşəli*** kəndi ərazisində erməni terrorçuları 5 nəfər azərbaycanlını qətlə yetirirlər. Meşəli kəndinin erməni basqınından müdafiəsi zamanı vətənin qeyrətli, mərd, vətənpərvər, fərraşlı oğlu **Miryusif Kərim oğlu Orucov** *(1940-cı ildə doğulub)* yaralı vəziyyətdə ermənilər tərəfindən əsir aparılır. Onun ölümündə Əsgəran rayon DİŞ-nin əməkdaşı ***Qərib Arutunyanın*** və digər millətçi ermənilərin əli olur. Təxminən 30 saatdan sonra onun meyidi ermənilərdən alınaraq 8 avqustda doğma ***Fərraş*** kəndində *(Laçın rayonu)* torpağa tapşırılır...

**6 avqust 1991-ci il** - Dolanlar *(Xocavənd rayonu)* kəndində **2** azərbaycanlı mülki şəxs erməni terrorçularının basdırdığı minaya düşür; hər ikisi həlak olur...

**6 avqust 1992-ci il** - Mİ-24 vertolyotu döyüş tapşırığını yerinə yetirərkən ermənilər tərəfindən zenit raketi ilə vurulur. Milli Qəhrəman **İzzət Cavanşir oğlu Rəhimov,** Milli Qəhrəman **Zakir Nüsrət oğlu Məcidov** həlak olurlar...

**6 avqust 1992-ci il** - Ağdam şəhəri, Sarıhacılı, Xıdırlı, Əhmədavar kəndləri ermənilər tərəfindən güclü mərmi atəşinə tutulur. Təlefat və dağıntılar olur...

**6 avqust 1992-ci il** - Milli Qəhrəman **Məzahir İzzət oğlu Rüstəmov** erməni quldurları ilə döyüşdə həlak olur...

**6 avqust 1992-ci il** - Erməni hərbi birləşmələri dövlət sərhədlərini pozaraq Gədəbəy rayonu ərazisindəki yaşayış məntəqələrinə hücum edir. Əsasən rusdilli əhali yaşayan ***Novo-İvanovka, Novo-Saratovka*** kəndləri bombalanır. Dinc sakinlərdən **5** nəfər həlak olur...

**7 avqust 1900-cü il** - Yelizavetpol *(Gəncə)* quberniyası stansiyası dəmiryolçularının tətili baş verir...

**7 avqust 1910-cu il** - Tehranda fədailərin toplandığı parka **7.000** silahlı yeridilir. **18** nəfər fədai öldürülür, **40** nəfər, o cümlədən ***Səttarxan*** yaralanır. Səttarxan və Bağırxanın Azərbaycana qayıtması ***qadağan*** olunur...

**7 avqust 1911-ci il** - Güney Azərbaycanda ***Məşrutə*** hərəkatının rəhbəri, Azərbaycan xalqının qəhrəman oğlu **Səttərxan Sərdari-milli** hiylə ilə Tehran şəhərinə gətirilərək, şah rejimi tərəfindən muzdla ələ alınmış xain daşnaq ***Yefim***

tərəfindən zəhərli güllə ilə vurulur...

**7 avqust 1918-ci il** - Zəngəzur qəzasının ***Qızılca*** kəndinə soxulan erməni terrorçuları **27** nəfər dinc sakini amansızlıqla qətlə yetirirlər...

**7 avqust 1918-ci il** - Müsəlman əhalisini qətlə yetirən Andranik Ozanyanın özbaşınalıqlarına son qoymaq məqsədilə ***K.Qarabəkir*** paşanın başçılığı ilə türk ordusu Naxçıvana daxil olur...

**7 avqust 1992-ci il** - Laçının ***Susuzdağ*** ərazisində ermənilərlə döyüşdə **17** nəfər azərbaycanlı həlak olur...

**7 avqust 1992-ci il** - Laçın rayonu ərazisinin Susuzdağ yüksəkliyi uğrunda döyüşlərdə Azərbaycanın Milli Qəhrəmanı, komandir **Aqil Səməd oğlu Məmmədov** minaya düşərək həlak olur...

**7 avqust 1992-ci il** - Azərbaycan Respublikasının Prezidenti *"Ərazi özünümüdafiə qərargahının yaradılması haqqında"* fərman verir...

**7 avqust 1993-cü il** - Füzuli və Cəbrayıl rayonlarının bəzi yaşayış məntəqələri ermənilər tərəfindən müxtəlif silah növlərindən atəşə məruz qalır. Bir neçə ***partlayış*** törədilir, dağıntılar olur...

**7 avqust 2009-cu il** - Ağstafa rayonunda, ***Aşağı Kəsəmən*** kəndində yağış yağan zaman küçədə olan **2** əmioğlu - *1991*-ci il təvəllüdlü **Rəşad Camal oğlu Mustafayev** və *1993*-cü il təvəllüdlü **Cavid Saqif oğlu Mustafayev** ildırım vurması nəticəsində faciəli şəkildə yerindəcə həlak olurlar...

**8 avqust 1294-cü il** - Görkəmli Azərbaycan mütəfəkkiri **Şihabəddin Məhəmməd ibn Əhməd Xoylu** ölür...

**8 avqust 1905-ci il** - Gəncə quberniyasının ***Şuşa*** qəzasında ***Vəng*** kəndinin 300-dən çox erməni qulduru yaxınlıqdan keçən azərbaycanlılardan ibarət karvana basqın edirlər; tacirlər öldürülür, əmlakları talanır. Sonra ermənilər qonşu müsəlman kəndinə basqın edərək, burada kənd sakini Abbas bəyi, onun oğlunu, qardaşını və bir neçə nökər-naibini amansızcasına qətlə yetirirlər. Bundan azca sonra kəndin bütün sakinləri qəddarcasına öldürülür, evləri isə yandırılır...

**8 avqust 1905-ci il** - Şuşada Cənubi Azərbaycandan olan **17** azəri-türk fəhlələri ermənilər tərəfindən vəhşicəsinə öldürülür. Erməni yaraqlılarına Tiflisdən gələn ermənilər və rus ordusunda xidmət edən ermənilər də qoşulur. Bu ***Şuşa qırğını*** avqustun *21*-nə qədər davam edir...

**8 avqust 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli Dövlət Təhlükəsizlik Komissarı ***Sumbatovun*** əmri ilə **29** nəfər güllələnir...

**8 avqust 1991-ci il** - Ermənistandakı sonuncu Azərbaycan yaşayış məntəqəsi olan ***Mehri*** rayonunun ***Nüvədi*** kəndi də erməni quldur birləşmələrinin hücuma məruz qalır. Yaxşı silahlanmış terrorçular kəndi dağıdıb talan edirlər. Kəndin vəhşicəsinə talan edilməsi nəticəsində orada bir nəfər də olsun azərbaycanlı qalmır...





**8 avqust 1992-ci il** - Ermənistanla sərhəd zonasında yerləşən hərbi hissələrimiz erməni birləşmələrini ***Başkənd*** anklavından vurub çıxarır. İtkilərimiz olur...

**8 avqust 1992-ci il** - *"Tərtər"* özünümüdafiə batalyonunun igid döyüşçüləri **Babək Mehdi oğlu Axundov** və **Elmir Valeh oğlu Əliyev** keçmiş Ağdərə rayonunun Lüləsaz kəndinin azadlığı uğrunda gedən döyüşlərdə həlak olurlar...

**9 avqust 1578-ci il** - Mustafa Lələ paşanın başçılığı ilə **100 000** nəfərlik osmanlı qoşunu ***Çıldır gölü*** ətrafında qızılbaşlara qalib gəlir...

**9 avqust 1905-ci il** - Erməni silahlı dəstələri Zəngəzurda, Qarabağda və digər ərazilərdə azərbaycanlılara qarşı qırğınlar törədirlər...

**9 avqust 1906-cı il** - Erməni silahlı dəstələri ***Oxçu-Şəbədək*** kəndlərinə hücum edirlər. Kənd camaatı ermənilərə qarşı layiqli cavab verirlər...

**9 avqust 1919-cu il** - İngiltərə ilə İran arasında müqavilə bağlanır. İran İngiltərədən siyasi və iqtisadi asılı vəziyyətə düşür...

**9 avqust 1992-ci il** - Füzuli rayonunun cənub-qərbində, ***Ərgünəş*** dağı mövqeləri yaxınlığında şiddətli döyüşlər gedir. Ölənlər və yaralananlar olur...

**9 avqust 2000-ci il** - Xankəndində *"Dağlıq Qarabağ haqqında müstəqil konsepsiya"*nın ilkin variantı müzakirə edilir...

**9 avqust 2001-ci il** - Xankəndində ***Arkadi Qukasyanın*** yanında saat *18*-də keçirilən hərbi müşavirədə Kaliforniya ştatının keçmiş qubernatoru ***Edvard Ceresyanın*** məktubu oxunur. Erməni milyonçusu E.Ceresyana görə, ABŞ-ın Kaliforniya ştatında erməni diasporunun yaratdığı müstəqil *"Artsax"* bölməsi Xankəndinin ordu quruculuğuna yardım edəcəkdir...

**10 avqust 1230-cu il** - Cəlaləddin ilə Hakimlər İttifaqı arasında baş verən döyüşdə Xarəzmşahın ordusu darmadağın edilir. ***Cəlaləddin*** özü Xilatda gizlənir...

**10 avqust 1634-cü il** - Sultan IV Murad İrəvan qalasını tutur. O, xeyli itki də verir...

**10 avqust 1721-ci il** - Həbsdən qaçan ***Müşkür*** mahalından olan din xadimi ***Hacı Davud*** yenidən üsyana rəhbərlik edərək Qazıqumuq xanı ***Surxay xanla*** birləşib Şamaxını tutur...

**10 avqust 1745-ci il** - Nadir şahla Osmanlı qoşunları arasında ***Bağavars*** bo-

ğazında dəhşətli müharibə başlanır. Hər iki tərəfdən çoxlu sayda itkilər olur...

**10 avqust 1920-ci il** - *"Sevr"* sülh müqaviləsinə görə Türkiyənin Suriya, Livan, Fələstin, İraq vilayətləri İngiltərə və Fransanın idarəçiliyinə verilir...

**10 avqust 1920-ci il** - Ermənistan ilə Sovet Rusiyası arasında Yerevanda bağlanan sazişə görə ***Şərur-Dərələyəz*** qeyd-şərtsiz Ermənistana verilir. ***Qarabağ, Zəngəzur, Naxçıvan*** isə yenə də *"mübahisəli vilayətlər"* elan olunur. Bununla da, Rusiya Azərbaycan torpaqları hesabına Ermənistanı sovetləşdirmək siyasəti yürüdür *(N.Nərimanov Moskvaya göndərdiyi teleqramda mübahisəsiz sayılan vilayətlərin indi hansı səbəbdənsə mübahisəli sayılmasına qarşı ciddi etirazını bildirir)...*

**10 avqust 1923-cü il** - Xankəndi şəhərinin adı ***Stepanakert*** adlandırılır...

**10 avqust 1946-cı il** - Ermənistan Ali Sovetinin fərmanı ilə Dərələyəz mahalındakı yaşayış məntəqələrinin adları dəyişdirilərək erməniləşdirilir: ***Kotanlı*** - Garmraşen, ***Almalı*** - Xndzorut *(Əzizbəyov rayonu)*, ***Erdəpin*** - Yeğeris, ***Əynəzur*** - Ağavnadzor, ***Əyər*** - Aqaraxodzor, ***Arpa*** - Areni, ***Qerdqulax*** - Boloraberd, ***Başkənd*** - Varnaşen, ***Yengicə*** - Qanzax, ***Ortakənd*** - Qladzor *(Yeğernadzor rayonu)*. Ermənistandakı Azərbaycana aid türk toponimlərinin erməniləşdirilməsi prosesi bu gün də davam edir...

**10 avqust 1990-cı il** - *"Şəmkir-Gəncə"* avtomobil yolunda ***Xanlar (Göygöl)*** rayonunun *Nadil* kəndi yaxınlığında *"LAZ"* markalı *43-80 AQF* dövlət nömrə nişanlı avtobus ermənilər tərəfindən partladılır. **17** nəfər həlak olur, **26** nəfər yaralanır...

**10 avqust 1990-cı il** - *"Tbilisi-Ağdam"* marşrutu ilə hərəkət edən sərnişin avtobusu erməni terrorçuları ***A. Avanesyan*** və ***M. Tatevosyan*** tərəfindən partladılır. **20** nəfər həlak olur, **30** nəfər yaralanır...

**10 avqust 1990-cı il** - Tovuz rayonunun ***Göyəbaxan*** kəndinin kövşəninə basqın edən **8** erməni silahlı qulduru **2** azərbaycanlını girov götürür, **279** baş malqaranı sürüb aparırlar...

**10 avqust 1991-ci il** - Culfa rayonunun ***Dəmirli*** yaylağına basqın edən daşnaq terrorçuları *"Qələbə"* kolxozunun çobanını öldürərək, ***1050*** baş davarı oğurlayıb aparırlar...

**10 avqust 1992-ci il** - N.Sadıqovun motoatıcı briqadası ağır döyüşlərdən sonra ***Kasapet*** yüksəkliyinə çıxır. İtkilər də olur...

**11 avqust 1119-cu il** - Savə şəhəri yaxınlığında əmi ilə qardaşoğlu arasında *(Səncərlə Mahmud arasında)* ağır döyüş baş verir...

**11 avqust 1473-cü il** - Ağqoyunlularla osmanlılar arasında ***Otluqbeli döyüşü*** *(Tərcan düzü adlı yerdə, Üçağızlı dərə yaxınlığında - Ərzincanla Ərzurumun arasında)* baş verir. II Mehmedin (1451-1481) başçılığı ilə osmanlılar qalib gəlir. Uzun Həsən osmanlılara qarşı mübarizə aparan Misir və Suriya qüvvələrindən istifadə edə bilmir. Avropa dövlətləri Ağqoyunlulara kömək etmir. Odlu silahın olmaması da Ağqoyunluların məğlubolma səbəblərindən biri idi...





**11 avqust 1991-ci il** - Xocavənd *(Hadrut, Martuni)* rayonunda azərbaycanlıların təzəcə məskunlaşdığı ***Ağcakənd*** kəndi erməni yaraqlıları tərəfindən **5** saat atəşə tutulur. Milis işçisi, kiçik serjant ***Əmir İbrahim oğlu Məmmədov*** yaralanır...

**11 avqust 1991-ci il** - Cəbrayıl rayon DİŞ-nin əməkdaşlarını daşıyan UAZ-469 markalı maşın ***Zamzur*** kəndi yaxınlığında ermənilərin basdırdığı minaya düşür. Partlayış nəticəsində milis baş leytenantı ***Elman Hüseynov,*** milis nəfərləri ***Nadir Verdiyev, Nadir Mustafayev, Fərhad Həsənov*** və mülki şəxs ***Şöhrət Məmmədov*** yaralanırlar...

**11 avqust 1992-ci il** - Ağdam rayonunun Yuxarı Qarabağla həmsərhəd olan bəzi kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**11 avqust 1992-ci il** - Ağdamın bir sıra kəndləri ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar və tələfat olur...

**11 avqust 1993-cü il** - Erməni hərbi birləşmələri ***Füzuli*** və ***Cəbrayıl*** rayonlarının mərkəzləri istiqamətində güclü hücuma keçir...

**12 avqust 945-ci il** - Ruslar ***Bərdəni*** tərk edərkən çoxlu dağıntılar törədirlər...

**12 avqust 1745-ci il** - Nadir şahla Osmanlı qoşunu arasında gərgin və şiddətli döyüş baş verir. Məzhəb ixtilafı səbəbindən iki müsəlman milləti arasında qan tökülür. Qanlı vuruşmalarda hər iki tərəfin çoxlu sayda itkiləri olur. Osmanlı qoşunu *3* paşa *(o cümlədən Yegən Məhəmməd paşa)* və xeyli zabit, **28.000** əsgər itirir...

**12 avqust 1805-ci il** - Ruslar Bakı xanlığının bütün strateji məntəqələrini ələ keçirir...

**12 avqust 1905 -ci il** - Bakıda erməni silahlı dəstələri ikinci qanlı faciəni törədirlər...

**12 avqust 1918-ci il** - Zəngəzur qəzasının ***Ağudi*** kəndinə hücum edən erməni terrorçuları **96** nəfər dinc azərbaycanlıları qətlə yetirirlər. **Qulaməli Şəkər** oğlunun ayağını topuqdan kəsən erməni cəlladları onu qanı axa-axa yeriməyə məcbur edirlər...

**12 avqust 1989-cu il** - Bərdə rayonunun ***Kətəlparaq*** kənd sakini ***Məhi Əşrəf***

oğlu **Mehrəliyev** *Laçın- Bakı* avtomobil yolunun 7-ci kilometrliyində, ***Qaladərəsi*** kəndi ərazisində erməni yaraqlıları tərəfindən qətlə yetirilir...

**12 avqust 1991-ci il** - Erməni yaraqlı terrorçuları Kəlbəcərin ***Sarıyel*** yaylağına basqın edir. Milis starşinası **A. Ələkbərov** həlak olur, digər milis işçiləri - ***İ. Qurbanov*** və ***İ. Cəfərov*** yaralanırlar...

**12 avqust 1992-ci il** - Cəbrayıl bölgəsindəki **Sur *(Xocavənd)*** və **Doşulu** kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur...

**12 avqust 1992-ci il** - Milli Qəhrəman **Akif Abbas oğlu Əkbərov** Sarıyer adlanan ərazidə erməni quldurları ilə döyüşdə həlak olur...

**13 avqust 1903-cü il** - Axşam saat 7 radələrində Gümrüdə xristian provaslığından dərs deyən türk əsilli protoierey *(baş keşiş)* **Vasilov** şəhər küçələrinin birində ermənilər tərəfindən öldürülür...

**13 avqust 1906-cı il** - Ermənilər Zəngəzurun Atqız kəndində silahsız camaatı qırırlar. Təkcə iki qaya yeri arasından **62** qadın, bir palaz arasından kəsilmiş **15** uşaq başı tapılmışdır. Bu qadın və uşaqlara imdad diləyən 90 yaşlı ağsaqqal **Həsən Əfəndi** terrorçular tərəfindən tikə-tikə doğranır...

**13 avqust 1989-cu il** - Şuşa şəhərinin su kəməri və ***Əsgəran*** dəmiryol platforması ermənilər tərəfindən partladılır...

**13 avqust 1992-ci il** - Cəbrayıl cəbhəsində ağır döyüşlər gedir. İtkilər olur...

**13 avqust 1993 - cü il** - Füzuli və Cəbrayıl rayonları istiqamətində erməni yaraqlıları bir neçə kəndə basqın edirlər. Tələfat və dağıntılar olur...

**14 avqust 1804-cü il** - Abbas Mirzənin başçılığı ilə İran qoşunları ***Suregüldə*** ruslarla qarşılaşır. Hər iki tərəf çoxlu sayda itki verir...

**14 avqust 1906-cı il** - Oxçu-Şəbadək dağları ermənilər tərəfindən zəbt edilir. Əhali ***Saqqarsuya*** tərəf çəkilir. Kənddə qalan əlsiz-ayaqsızlar vəhşicəsinə qətlə yetirilir. Ermənilər Saqqarsuya da hücum edib əhalini qırırlar. **Molla Həsən Əfəndi** əhatəsində bir neçə arvadla əllərində *"Quran"* ermənilərin qabağına çıxırlarsa da, o qansızlar rəhmə gəlməyərək hamını vəhşicəsinə öldürürlər. Quranları süngülərə keçirirlər. Sağ qalan çox az adam başqa kəndlərə qaçır...

**14 avqust 1910-cu il** - Məşrutə inqilabı tarixində qara ləkələrin biri - ***Ətabək*** parkında qanlı və qəmli **faciə** törədilir...

**14 avqust 1990-cı il** - Ağdam-Şuşa avtobusu ermənilər tərəfindən daşa basılır. ***Sürücü M.Əliyev*** başından ağır yaralanaraq xəstəxanaya düşür...

**14 avqust 1991-ci il** - Zamzur kəndi *(Xocavənd rayonu)* ərazisində qaba





yem tədarükündən qayıdan kolxoz əməkçilərinə erməni yaraqlıları tərəfindən basqın edilir. Kənd sovetinin katibi **Arzuman Pənah oğlu İbrahimov,** sürücü **İmran Cavanşir oğlu Dünyamalıyev,** kolxozçu **Aydın Məmmədov** qətlə yetirilir...

**14 avqust 1991-ci il** - Ağdam-Şuşa avtomobil yolunda maşın karvanı erməni yaraqlıları tərəfindən atəşə tutulur...

**14 avqust 1991-ci il** - Goranboy qauonunun ***Erkəc*** və ***Başqışlaq*** kəndləri atəşə tutulur; **1** nəfər yaralanır...

**14 avqust 1992-ci il** - Ağdam şəhəri, Gülablı, Əliağalı, Papravənd, Şelli və Papravənd kəndləri ermənilər tərəfdən güclü atəşə tutulur. Dağıntılar, ölənlər və yaralananlar olur...

**14 avqust 1994-cü il** - Erməni ideoloqu Z.Balayan ***"Vətən qarşısında göstərdiyi xidmətlərə görə"*** *"Müqəddəs Georgi"* ordeninə layiq görülür...

**14 avqust 2000-ci il** - Xankəndində ***"Dağlıq Qarabağ haqqında müstəil konsepsiya"*** adlı siyasi sənədin *"Regional təhlükəsizliyin təmin olunması"* mövzusunda müşavirəsi keçirilir...

**15 avqust 1060-cı il** - Toğrul bəy Təbrizi mühasirəyə alır. Azərbaycan hakimi ***Məmlan Vəhsudan oğlu*** səlcuqların hakimiyyətindən imtina edir. Çox keçmir ki, Məmlan istiqlaliyyətini itirir...

**15 avqust 1124-cü il** - Çar IV David Şirvana hücum edərək Şamaxını, Buğurd qalasını və Şirvanın başqa mərkəzlərini tutub qala və şəhərlərdə öz qarnizonlarını saxlayır...

**15 avqust 1463-cü il** - Trabzon imperiyasının varlığına son qoyulur. Bununla da Ağqoyunlu dövləti həm müttəfiqlərindən birini, həm də Qara dənizə olan yeganə çıxış yolunu itirir...

**15 avqust 1722-ci il** - Rus eskadrası ***Dərbəndi*** ələ keçirir...

**15 avqust 1905-ci il** - Ümumrusiya müsəlmanlarının qalmaqallı ***I Qurultayı*** keçirilir...

**15 avqust 1906-cı il** - Qapan dərəsində - ***Saqqarsuda*** erməni yaraqlıları **62** nəfər müsəlman övrət və uşaqlarını vəhşicəsinə qətlə yetirirlər...

**15 avqust 1906-cı il** - Artıq bir həftədir ki, müsəlmanların yaşadıqları ***Xələc, Karxana, Qatar, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Moltalar, Batuman, Oxçu, Şəbədək, Atqız, Pürdavud, Zutul, Guman, İyilti, Sənalı, Minənəvur, Fərcan, Qalaboynu, Əcəbli, Buğacıq*** kəndləri ermənilər tərəfindən dağıdılıb talan edilir. Ötən **6** gün ərzində müsəlmanlar **200** nəfərdən çox itki vermişlər...

**15 avqust 1919-cu il** - Erməni silahlıları ***Naxçıvan*** qəzasında **3** kəndli ailəsini amansızlıqla qətlə yetirirlər...

**15 avqust 1919-cu il** - Erməni terrorçuları Ərzurumda şəhərin **426** günahsız dinc sakinini diri-diri yandırırlar...

**15 avqust 1950-ci il** - Görkəmli filosof, ictimai xadim, akademik **Heydər Nəcəf oğlu Hüseynov** müəmmalı şəkildə intihar edir...

**15 avqust 1989-cu il** - Erməni yaraqlıları saat *23.00* radələrində ***Sırxavənd*** kəndinə basqın edirlər...

**15 avqust 1992-ci il** - Cəbrayıl cəbhəsində uğursuz ***"Şişqaya əməliyyatı"*** həyata keçirilir. **40** nəfər Azərbaycan əsgəri həlak olur, **110** nəfər isə yaralanır...

**15 avqust 1992-ci il** - Cəbrayıl rayonu istiqamətində, erməni quldurları ilə döyüşdə Şişdağ deyilən ərazidə güclü hücum zamanı Azərbaycan əsgərləri - **Ələddin Şükür oğlu Həşimov** (Saatlı), **Əli Səlim oğlu Məhəmmədov** (Saatlı), **Həbibulla Musa oğlu Suliyev** (Saatlı), **Füzuli Qulu oğlu Zamanov** (Cəbrayıl, Balyand kəndi), **Natiq Kənan oğlu Süleymanov** (Gəncə), **Əligürşad Ağacavad oğlu Cavadov** (Saatlı), **Ramiz Süleyman oğlu Xudiyev** (Cəbrayıl, Daş Veysəlli kəndi), **Azər Hümbət oğlu Aslanov** (Cəbrayıl, Daş Veysəlli kəndi), **Elşən Güloğlan oğlu Allahverdiyev** (Cəbrayıl, Mərcanlı kəndi), **Mirsəyab Zülfüqar oğlu Bayramov** (Bakı şəhəri, Nizami rayonu), **Bayram Fəxrəddin oğlu Məmmədov** (Gəncə), **Sərbaz Allahqulu oğlu Zeynalov** (Bakı şəhəri, Sabunçu rayonu), **Rövşən Həsən oğlu Əliyev** (Gəncə), **Pənah Kamran oğlu Şükürov** (Cəbrayıl, Çərəkən kəndi), **Mahmud Həbib oğlu Allahverdiyev** (Cəbrayıl, Çullu kəndi), **Murad İsmayılxan oğlu Mehbalıyev** (Saatlı), **Murad Dövlət oğlu Muradov** (Saatlı), **Savalan Ömər oğlu Quliyev** (Cəbrayıl, Daş Veysəlli kəndi), **Faiq Nazim oğlu Mehdiyev** (Cəbrayıl), **Sahib İslam oğlu Quliyev** (Cəbrayıl, Qaracallı kəndi), **Alış Alışan oğlu Məmmədov** (İmişli), **Nazir Ələkbər oğlu Məmmədov** (Bakı), **Şahin Yaqub oğlu Qasımov** (Cəbrayıl, Karxulu kəndi), **Zahid Aydın oğlu Əsgərov** (Saatlı), **İlqar Məcid oğlu Qasımov** (Sabirabad), **Asəf Ağası oğlu Məmmədov** (Gəncə), **Arif Şamxal oğlu Hüseynov** (Cəbrayıl, Daşkəsən kəndi), **Hafiz Maarif oğlu Əliyev** (Bakı şəhəri, Nərimanov rayonu), **İlqar Qabil oğlu Məmmədov** (Bakı), **Salman Yolçu oğlu Həsənov** (Sumqayıt), **Firdovsi Əmrah oğlu Osmanov** (Gəncə) və daha bir neçə nəfər həlak olur, **100** nəfərdən çox əsgərimiz isə yaralanır...

**15 avqust 1992-ci il** - Füzuli rayonunun ***Yuxarı Veysəlli*** kəndi istiqamətində də döyüş əməliyyatı keçirilir. Taqım komandiri **Elxan Bayandır oğlu Yusifov** və digər **10** nəfər həlak olur, **15** nəfər yaralanır. **814** saylı hərbi hissənin şəxsi heyəti səhər saat **8.20**-də kəndi ermənilərdən təmizləyir. Kömək gəlmədiyi üçün əsgərlərimiz günortadan sonra düşmənin güclü hücumu qarşısında davam gətirməyib geri çəkilməyə məcbur olur...

**15 avqust 1992-ci il** - Füzuli-Yuxarı Veysəlli, Məngələnata-Üçbulaq və Füzuli-Məlikcan *(Xocavənd rayonu)* istiqamətlərində hücumlar zamanı füzulili igid əsgərlər - **Azadi Qara oğlu Əliyev, Tərlan Zakir oğlu Əliyev, Nizami Müşfiq oğlu Əmirov, Marks İbad oğlu Hacıyev, Ernest Yusif oğlu Hüseynov, Nazim Məhiş oğlu Quliyev, Mahir Sayuz oğlu Mikayılov, İlyas Mehralı oğlu Sultanov, Elxan Bayandır oğlu Yusifov, Muğan Gəray oğlu Əliyev, Azər Qara oğlu Əhmədov, Şikar Qara oğlu Əhmədov, Aydın İldırım oğlu Gülüşov, Qeyrət Məcnun oğlu İbişov, Azər Həmid oğlu Soltanov, Zeynal Sadıq oğlu Zeynalov, Alim İbrahim oğlu Məmmədov, Səfa Məmmədxan oğlu Məmmədov** həlak olurlar...

**15 avqust 1993-cü il** - Xocavənd rayonunun ***Quşçular, Sur*** və ***Daşbaşı*** kəndləri ərazilərindəki ermənilərlə baş verən döyüşdə cəbrayıllı igidlər - **Rantiq Novruz oğlu Məmmədov, Rüfət Rəvan oğtu Məmmədov, Faiq Fərman oğlu Məmmədov, Elsevər Kalbalı oğlu Mirzəyev, Qərib Mehdi oğlu Mirimov, Mətləb Əvəz oğlu Rəhimov, Mədət Mürşüd oğlu Rüstəmov, Cəbrayıl Əli oğlu Sevdimalıyev, Fərhad İdris oğlu Fərhadov, Bayram Məhyəddin oğlu Fərhadov, Arif Məhəmməd oğlu Fərhadov, Hafiz Məhəmməd oğlu Fətəliyev, Nurəddin Məhəmmədəli oğlu Fətullayev, Yusif Musa oğlu Hüseynov, Həsən Hüseyn oğlu Hüseynov, Zahid Əvəz oğlu Abdullayev, Ramiz Eldar oğlu Ağayev, Elçin Eldar oğlu Abdullayev, Samir Qədir oğlu Alıyev, Aydın Tapdıq oğlu Quliyev, Teymur Eyvaz oğtu Eyvazov, Etibar İslam oğlu Əliyev, Süleyman İbrahim oğlu Əmirxanov, Müslüm Cəmil oğlu İmanov, Elman Bəhram oğlu Yusifov, Vahab Yaşar oğlu Kazımov, Rəfayıl Məhəmməd oğlu Gülməmmədov, Qədir Sərxan oğlu Məlikov, Murad Hafiz oğlu Cəfərov, Rövşən Bəhlul oğlu Şəmilov, Səxavət Möhübbət oğlu Həsrətov, Məhəmmədəli Səməd oğlu Həsrətov** həlak olur. Onların əksəriyyətinin başları kəsilir...

**15 avqust 1993-cü il** - Düşmən Füzuli rayonunun **Aşağı Veysəlli, Dördlər** və **Yuxarı Yağlıvənd** kəndlərini, eləcə də Cəbrayıl rayonunun **Zamzur, Sur, Banazur, Quşçular, Qışlaq, Doşulu, Qaracallı, Süleymanlı, Balyand, Əfəndilər** kəndlərini işğal edir. Çox keçmir ki, düşmən Cəbrayıl şəhərinin 2 kilometrliyinə yaxınlaşır. Sirik və Mülkədərə istiqamətlərində ağır döyüşlər gedir. Ölənlər və yaralananlar olur...

**15 avqust 1993-cü il** - Erməni silahlı dəstələri Cəbrayıl rayonunun ***Qaracallı*** və ***Balyand*** kəndlərinə hücum edirlər. Balyand kənd sakinləri **Səkinə Heydər qızı Vəliyeva, İsa Surxay oğlu Hüseynov** və kənd orta məktəbinin müəllimi **Oruc Həmzə oğlu Babaşov** qətlə yetirilirlər. Qaracallı kənd sakini **Nizami Cümşüd oğlu Alışov** girov götürülür...

**15 avqust 1993-cü il** - Hərəkül kəndi ərazisində Cəbrayıl rayonunun ***Hovuslu*** kənd sakinləri **Səxavət Möhübbət oğlu Həsrətov, Məhəmmədəli Səməd oğlu Həsrətov**, Sofulu kənd sakini **Qərib Mehdi oğlu Mirimov** ermənilər tərəfindən qətlə yetirilir...

**15 avqust 1993-cü il** - Cəbrayıl şəhəri ermənilər tərəfindən müxtəlif növ silahlardan güclü atəşə tutulur. Şəhər sakini **Nizami Fili oğlu Əliyev** həlak olur. Xeyli sayda şəhər sakini yaralanır...

**16 avqust 1473-cü il** - Ağqoyunlu şahzadəsi, görkəmli sərkərdə, Uzun Həsənin oğlu **Zeynal Mirzə** Tərcanda öldürülür...

**16 avqust 1905-ci il** - Ermənilərlə azərbaycanlılar arasında Şuşa şəhərində küçə döyüşləri başlayır. **Qara** adlı bir müsəlman, ***Abbas*** bəyin oğlu, qardaşı, xidmətçisi və bir neçə azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilir...

**16 avqust 1905-ci il** - Bakı fəhlələrinin ümumi tətili keçirilir...

**16 avqust 1906-cı il** - Ümumrusiya müsəlmanlarının bir həftə davam edən III Qurultayı keçirilir...

**16 avqust 1912-ci il** - Gəncə şəhərində *Tiflis* kommersiya bankının şöbəsi açılır...

**16 avqust 1989-cu il** - Xankəndində ermənilər *«Dağlıq Qarabağ əhalisinin qurultayı»*nı keçirir. Şura *(79 nəfər)* və Rəyasət Heyəti *(12 nəfər)* yaradılır. SSRİ xalq deputatı Voçaqan Qriqoryan Heyətin sədri seçilir. Qurultay Dağlıq Qarabağı *«müstəqil ittifaq ərazisi»* elan edir...

**16 avqust 1990-cı il** - Füzuli şəhəri ilə ***Dövlətyarlı*** kəndi arasındakı körpü erməni terrorçusu tərəfindən partladılır. ***Ağdam*** ilə əlaqə çətinləşir...

**16 avqust 1991-ci il** - Ermənilər DQMV-nin Azərbaycandan ayrılması haqqında qərar çıxarırlar...

**16 avqust 1992-ci il** - Milli Ordunun könüllü əsgəri, 5 uşaq atası **Telman Babayev** Əliağalı kəndindən bir neçə kilometr kənarda - ***Sırxavənd*** kəndi yaxınlığındakı ***"Muradlar çinarı"*** deyilən yerdə erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**16 avqust 1992-ci il** - Ağdam şəhəri, ***Abdal-Gülablı, Əhmədavar*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Yaralananlar və dağıntılar olur...

**16 avqust 1993-cü il** - Erməni yaraqlıları Cəbrayıl rayonunun ***Süleymanlı*** kəndinə basqın edirlər. Dinc kənd sakinləri **Saday Misirxan oğlu Cəbrayılov**, **Əyyub Şərif oğlu Xudiyev** və kənd icra nümayəndəsi **Müzəffər Qəzənfər oğlu Əsgərov** qətlə yetirilir. ***Şükür Yaşar oğlu, Camal Soltan oğlu, Azər Zabit oğlu*** girov götürülür...

**17 avqust 1905-ci il** - Ermənilər Şuşada ***Köçərli*** və ***Xəlfəli*** məhəllələrində 18 evi yandırıb əhalisini qətlə yetirirlər...





**17 avqust 1918-ci il** - Daşnaq terrorçular Zəngəzur qəzasının *Vağudi* kəndində amansız qətliamlar törədirlər. **400** nəfər dinc kənd sakini sığındıqları kənd məscidində diri-diri yandırılır. **Qədimə Tahir qızının** döşü kəsilərək körpə balasının ağzına tıxanır. **Nisə Aman qızı, Sona Cəfərqulu qızı** da daxil olmaqla **15** qız alçaldılıb təhqir edilərək qətlə yetirilir. **Gülbəsti Qasım qızının** döşlərini kəsib bel sümüyündən asırlar...

**17 avqust 1918-ci il** - İngilis ***Denstervil*** öz ştabı və qoşunları ilə birlikdə Bakıya gəlir...

**17 avqust 1939-cu il** - Ceraberd rayonu ***Mardakert,*** Dizaq isə ***Hadrut*** adlandırılır...

**17 avqust 1990-cı il** - Erməni terrorçuları Qazax rayonunun ***Yuxarı Əskipara*** kəndinə hücum edirlər. **F. Mehdiyev** qətlə yetirilir; ***V. Həsənov*** və ***N. Eminov*** ağır yaralanırlar...

**17 avqust 1990-cı il** - Qazax rayonu ərazisində bir nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**17 avqust 1992-ci il** - Keçmiş Ağdərə rayonunun ***Drmbon*** kəndi və həmin kəndin yüksəklikləri uğrunda şiddətli döyüşlər gedir...

**17 avqust 1992-ci il** - Naxçıvanlı döyüşçülər - **Eldar Əsəd oğlu Qənbərov, Murad Hüseynqulu oğlu Musayev** ***Xorxat*** yüksəkliyi uğrunda döyüşlərdə həlak olurlar...

**17 avqust 1992-ci il** - Cəbrayıl istiqamətində ***Sur, Süleymanlı, Qışlaq, Quşçular*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**17 avqust 1993-cü il** - Erməni daşnaqları tərəfindən Füzuli rayonunun ***Qacar*** kəndindən olan **25** dinc sakin öz doğma ev-eşiyini tərk etmək istəmədiklərinə görə vəhşicəsinə güllələnirlər. Kənd dağıdılır. Əhalinin əmlakı qarət olunur...

**17 avqust 1993-cü il** - Cəbrayıl rayonunun ***Daşkəsən*** kəndi ermənilər tərəfindən işğal edilir...

**17 avqust 1999-cu il** - Türkiyənin ***İzmit*** şəhərində dağıdıcı *zəlzələ* baş verir. İçərisində azərbaycanlılar da olan **18.000** insan həlak olur; **300.000** adam evsiz-eşiksiz qalır...

**17 avqust 2009-cu il** - Saat *10* radələrində ***Dərnəgül*** qəsəbəsi, ***S.Bəhlulzadə*** küçəsində yerləşən **3** saylı yataqxanada 1966-cı il təvəllüdlü ***Esmira Möhübbət qızı Orucova*** münaqişə zəminində qonşusu, 1975-ci il təvəllüdlü **Vəfa Allahverdi qızı Talıbovanı** bıçaqla qətlə yetirir...

**17 avqust 2009-cu il** - Xaçmaz rayonunun ***Arzu*** kəndində **2** nəfər yeniyetmə kənd sakini - 13 yaşlı **Elman İlkin oğlu Mirzəyev** və onun qohumu, 15 yaşlı **Səbuhi Şahin oğlu Ramazanov** saat **19** radələrində *Samur-Abşeron* kanalında çimərkən boğularaq dünyalarını dəyişirlər...

**18 avqust 1472-ci il** - II Mehmetin oğlu Mustafa ilə ağqoyunlular arasında döyüşdə ağqoyunlular məğlub olur. Uzun Həsənin oğlu **Yusif Mirzə** və digər iki qardaşı əsir düşərək edam edilirlər...

**18 avqust 1905-ci il** - Şuşada ermənilərlə müsəlmanlar arasında qanlı, silahlı hadisə, toqquşma baş verir...

**18 avqust 1918-ci il** - Erməni quldur birləşmələri ***Eçmiədzin, Sürməli, İrəvan*** və ***Yeni Bayazid*** qəzalarının azərbaycanlılar yaşayan **50** kəndini viran qoyurlar...

**18 avqust 1943-cü il** - Görkəmli hərbi xadim, artilleriya general-leytenantı **Əlağa İsmayıl Ağa oğlu Şıxlinski** ölür...

**18 avqust 1989-cu il** - Laçın rayonunun ***Cicimli*** kənd sakini **Mehdi Rüstəm oğlu Məmmədov** kəndin yaxınlığında pusquda dayanmış erməni yaraqlısı tərəfindən namərdcəsinə qətlə yetirilir...

**18 avqust 1990-cı il** - Qazax rayonu ərazisində **2** nəfər azərbaycanlı erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetiririlir...

**18 avqust 1991-ci il** - Erməni hərbi hissələri rusların köməyi ilə vertolyotlar və ağır texnikadan istifadə etməklə Qazax rayonuna - ***Bağanis-Ayrım*** kəndinə hücum edir, kənd dağılır, dinc əhaliyə işgəncə verilir...

**18 avqust 1991-ci il** - Erməni terrorçuları Goranboy rayonunun ***Buzluq*** və ***Tapqaraqoyunlu*** kəndinə hücum edirlər. Bu hücum nəticəsində azərbaycanlılardan 3 nəfər **(Hüseyn Mehdiyev, Akif Abdullayev, Eldar Babayev)** öldürülür və daha 3 nəfər yaralanır, 3 nəfər girov düşür...

**18 avqust 1991-ci il** - Goranboy rayonunun ***Mənəşli, Buzluq, Erkəc*** və ***Todan*** kəndlərinə ermənilər tərəfindən hücum olunur. Buzluq və Erkəc kənd sakinləri kəndi tərk edir. **2** nəfər öldürülür, **3** nəfər yaralanır, **3** nəfər girov götürülür...

**18 avqust 1992-ci il** - Ağdam şəhəri və ***Abdal-Gülablı*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**18 avqust 1992-ci il** - Cəbrayıl rayon mərkəzi və onun yaxınlığında yerləşən kəndlər ermənilərin atdıqları mərmilər nəticəsində çoxlu dağıntıya məruz qalır...

**18 avqust 1992-ci il** - Milli Qəhrəman **Səxavət Ələmdar oğlu Məhərrəmov** Ağdərə rayonunun ***Mehrətağ*** kəndi yaxınlığında erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**18 avqust 1993-cü il** - Erməni hərbi birləşmələri ***Cəbrayıl*** şəhəri istiqamətində güclü hücuma keçirlər. Bu döyüş əməliyyatı zamanı çoxlu sayda ölən və yaralananlar olur...





**18 avqust 1993-cü il** - Füzuli şəhəri istiqamətində erməni hərbi birləşmələrinin *35* ədəd ***T-72*** tankı mövqe döyüşlərinə çıxarılır. Şəhərin *3* kilometrliyində döyüşlər gedir. Cəbrayıl və Füzuli şəhərləri istiqamətində güclü hücuma keçən düşmən Azərbaycan ordusunun müdafiə xəttini poza bilir. Düşmən ***Cəbrayıl*** və ***Füzuli*** istiqamətində bir neçə yaşayış məntəqələrini ələ keçirməyə müvəffəq olur...

**18 avqust 1993-cü il** - Füzuli rayonunun ***Yuxarı Əbdürrəhmanlı*** kəndi erməni hərbi birləşmələri tərəfindən viran edilərək dağıdılır. **25** nəfər amansızlıqla qətlə yetirilir...

**18 avqust 1993-cü il** - Erməni yaraqlıları Cəbrayıl rayonunun ***Yuxarı Məzrə*** və ***Daşkəsən*** kəndlərinə hücum edir. Yuxarı Məzrə kənd sakini **Qönçə Səfəralı qızı Təhməzova** həyətyanı sahədə işləyərkən güllələnir. Onun həmkəndlisi ***Nurəddin Mehdiyev*** güllə yarası alır. **Baxış Zeynal oğlu İbişov** mərmi atəşi ilə qətlə yetirilir. Daşkəsən kənd sakini **Manya Məmmədalı qızı Bəbirova** itkin düşür...

**18 avqust 1993-cü il** - Cəbrayıl rayon mərkəzində şiddətli döyüşlər gedir. Düşmən Cəbrayıl şəhəri yaxınlığında bir neçə yaşayış məntəqəsini ələ keçirə bilir. Çoxlu sayda əsgərimiz şəhid olur. ***Cəbrayıl şəhəri*** müvəqqəti də olsa əldən-ələ keçir...

**18 avqust 2001-ci il** - Erməni-daşnaq faşizminin yetirməsi olan Murad Qurbanovun başçılıq etdiyi terrorçu qrupun üzvləri tərəfindən Rusiya işğallarına qarşı Qafqaz xalqlarının, o cümlədən Azərbaycan xalqının azadlıq rəmzi hesab olunan ***Şeyx Şamilin*** Zaqatala şəhərində qoyulmuş büstü partladılır...

**19 avqust 1293-cü il** - Görkəmli şair, alim ***Şihabəddin Əbu Abdulla Məhəmməd ibn Əhməd ibn Xəlil Zülfünün Şafii Xoylu*** Şamda ölür...

**19 avqust 1891-ci il** - Nəsrəddin şahın **"8 mart 1890-cı il"** müqaviləsinə etiraz əlaməti olaraq Təbriz əhalisi bazarı bağlayır. **20.000** adam silahlanır. Şaha teleqram vurulur...

**19 avqust 1905-ci il** - Ermənilər Şuşada güclü qırğın törədirlər. 30-dan çox azərbaycanlı qətlə yetirilir. ***Xəlfəli*** və ***Köçərli*** məhəllərində **18** ev yandırılır...

**19 avqust 1919-cu il** - Dağlıq Qarabağ erməniləri özlərinin VII qurultayını keçirir...

**19 avqust 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə **49** nəfər güllələnir...

**19 avqust 1990-cı il** - Erməni terrorçuları ***Əskipara-Qazax*** marşrutu ilə hərəkət edən sərnişin avtobusuna hücum edirlər. **2** nəfər dinc sakin qətlə yetirilir. Milli Qəhrəman **Şamoy Məhyəddin oğlu Çobanov** Qazax rayonu ərazisində,

Aşağı Əskipara kəndindən Yuxarı Əskipara kəndinə gedən sərnişin dolu avtobusu müşayiət edərkən erməni yaraqlıları ilə atışmada həlak olur. **2** nəfər polis əməkdaşı və **2** dinc sakin güllə yarası alır...

**19 avqust 1990-cı il** - Milli Qəhrəman **İlham Müzəffər oğlu Əliyev** Aşağı Əskipara kəndi uğrunda erməni yaraqlıları ilə döyüşdə aldığı güllə yarasından **1** gün sonra həlak olur...

**19 avqust 1992-ci il** - Sur, Süleymanlı, Qışlaq, Quşçular kəndləri növbəti dəfə ermənilər tərəfindən atəşə tutulur...

**20 avqust 1220-ci il** - Monqolların Şirvana ilk basqını olur. Çətinliklə olsa da **Şamaxı** və **Dərbənd** monqollar tərəfindən zəbt olunur...

**20 avqust 1783-cü il** - Potyomkin ***Georgiyevsk*** müqaviləsinin bağlanması haqqında Azərbaycan xanlarına müraciət edir...

**20 avqust 1837-ci il** - Kəndxuda Hacı Məhəmmədin toyunda Şamilin məktubu oxunur və üsyana başlamaq qərara alınır. ***Hacı Məhəmməd*** və köməkçisi ***Yarəli*** üsyana rəhbərlik edirlər. Beləliklə, ***Quba üsyanının*** ikinci mərhələsi başlanır...

**20 avqust 1905-ci il** - Bakının ***Merkuri*** və ***Milyutinski*** küçələrində ermənilər yol keçən müsəlmanlara atəş açırlar. Bir nəfər müsəlman fanarçı qətlə yetirilir...

**20 avqust 1905-ci il** - Çar hökuməti fitnəsinin əli ilə Bakıda milli qırğın, neft mədənlərində isə yanğınlar törədilir. Saat *17.30*-da ermənilər müsəlmanlara hücum edir. Çoxlu sayda ölən və yaralananlar olur. Yaxşı silahlanmış erməni quldur birləşmələri şəhərin əhalisi sıx olan müsəlman məhəllələrinə basqın edirlər. Çoxlu sayda insanlar vəhşicəsinə öldürülür. Kişilərin başını kəsir, hamilə qadınların qarnını yırtır, uşaqları tonqallara atır, ya da su quyularında boğurlar. Meyidlərin bir qismi dənizə atılır...

**20 avqust 1989-cu il** - *«Milli müdafiə dəstələri»* yaratmaqla **17** yaşından **50** yaşınadək olan bütün ermənilər bu *«ixtisaslaşdırılmış»* dəstələrə cəlb olunurlar...

**20 avqust 1990-cı il** - Ermənistan silahlı qüvvələri Qazax rayonunun **Bağanis Ayrım** kəndini işğal edir. **5** nəfər kənd sakini ermənilər tərəfindən vəhşicəsinə öz evlərində diri-diri yandırılır...

**20 avqust 1992-ci il** - Füzuli və Cəbrayıl şəhərləri ermənilər tərəfindən güclü raket atəşinə tutulur. Ölən və yaralananlar, dağıntılar olur...

**20 avqust 1992-ci il** - Cəbrayıl rayonunun ***Süleymanlı, Qışlaq və Quşçular*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Cəbrayıl şəhəri ətrafında qanlı





döyüşlər gedir. Rayon mərkəzi yaxınlığında yerləşən bir neçə kənd işğal olunur. Xeyli sayda ölənlər və yaralananlar olur. Erməni yaraqlıları ***Papı*** və ***Çərəkən*** kəndlərinə hücum edirlər. Papı kənd sakini **Xəlil Balaca oğlu Həsənov** qətlə yetirilir. Çərəkən kənd sakinləri **Eldar Musa oğlu Musayev, Seyilxan Salman oğlu Şükürov** itkin düşürlər......

**20 avqust 1992-ci il** - Canyataq və Gülyataq kəndləri erməni quldurlarından azad edilir. Azərbaycan tərəfi də çoxlu sayda itki verir...

**21 avqust 1905-ci il** - Bakıda **4** nəfər müsəlman ermənilər tərəfindən qətlə yetirilir, **3** müsəlman yaralanır...

**21 avqust 1905-ci il** - Ermənilərlə müsəlmanlar arasında Şuşada baş verən döyüşlərdə erməni silahlı quldurları dinc əhaliyə qarşı silah işlədirlər və nəticədə qətlə yetirilənlər olur. Orada Realnı məktəbin təmirində işləyən iranlı *(azərbaycanlı)* **17** fəhlə də ermənilər tərəfindən vəhşicəsinə öldürülür. Onların başları kəsilir...

**21 avqust 1921-ci il** - Tarixi sənədlərə istinadən ***28 aprel 1920-ci il*** tarixdən bu günədək ***48.000*** azərbaycanlı ermənilərin əli ilə məhv edilib...

**21 avqust 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə *7* azərbaycanlı güllələnir...

**21 avqust 1990-cı il** - Qazax rayonu ərazisində **2** nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**21 avqust 1990-cı il** - Qazax rayonu ərazisində **Səhər Müslüm qızı Qəhrəmanova, İldırım Müzəffər oğlu Əliyev** və hərbi qulluqçu **Aleksandr Vladimiroviç Lipatov** erməni yaraqlıları tərəfindən amansızlıqla qətlə yetirilir...

**21 avqust 1991-ci il** - Polis əməkdaşlarını Cəbrayıl rayonunun ərazisindəki Şayaq postuna aparan *"KAVZ"* markalı ***70-30 AQO*** dövlət nömrə nişanlı avtobus erməni terrorçuları tərəfindən atəşə tutularaq partladılır. **2** nəfər (o cümlədən sürücü **Şamil Heydər oğlu Əhmədov**) həlak olur; 3 nəfər (polis baş leytenantı **Şəmil Şərif oğlu Əhmədov,** polis serjantı **Camal Məmmədov,** sıravi **Rövşən Xəlilov**) isə ağır yaralanır...

**21 avqust 1991-ci il** - Goranboyun ***Mənəşli, Buzluq, Erkəc*** kəndləri uğrunda şiddətli döyüşlər gedir...

**21 avqust 1991-ci il** - Erməni terrorçuları ***Qazax*** rayonu ərazisində *2* nəfər azərbaycanlı mülki şəxsini vəhşicəsinə qətlə yetirirlər...

**21 avqust 1993-cü il** - Cənub bölgəsində ***Əlikram Hümbətovun*** başçılığı ilə davam edən ***qiyam*** başqa ərazilərə də yayılır...

**22 avqust 1905-ci il** - Bakıda mühasirə vəziyyəti elan olunur. Çar hökuməti tətilçilərə qarşı qoşun yeridir. Çoxlu sayda fəhlə işdən qovulur. Sabunçu xəstəxanasını səngərə çevirən fəhlələr mühasirəyə alınır, bina atəşə tutulur. Ölənlər və yaralananlar olur...

**22 avqust 1922-ci il** - Erməni şahidlərinin yalan ifadələri əsasında Tiflis şəhərində 1919-cu ilin baharında AXC-nin əleyhinə Qarabağda qiyam qaldıran daşnaq generalı ***Dro Kananyanın*** və ***Dəli Qazarın*** terror qruplarının darmadağın edilməsi əməliyyatına başçılıq etmiş general-mayor **Həbib bəy Yusif oğlu Səlimov** daşnaq-bolşevik qaragüruhçuları tərəfindən güllələnir...

**22 avqust 1990-cı il** - DQMV üzrə Respublika Təşkilat Komitəsinin *Xocalı* və ***Kərkicahan*** yaşayış məntəqələrində sosial obyektlərin tikilməsi müzakirə olunur...

**22 avqust 1990-cı il** - Ağdam-Füzuli şose yolu üzərində ***Qarqar*** çayının körpüsü ermənilər tərəfindən partladılır...

**22 avqust 1991-ci il** - Qazax rayonunun ***Bağanis-Ayrım*** kəndinə basqın edən erməni terrorçuları kəndi viran qoyurlar; əhali yurdundan didərgin salınır...

**22 avqust 1992-ci il** - **Ruslan Həmid oğlu Muradov** Gülyataq kəndi uğrunda erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**22 avqust 1992-ci il** - ***Sığnaq dağı*** yaxınlığında döyüşlər gedir. Düşmənin mərmi skladı partladılır, axşama qədər düşmən mövqelərindən partlayış səsləri kəsilmir. DQMV-nin paytaxtı ***Xankəndi şəhəri*** ilə neçə-neçə yaşayış məntəqələrini ələ keçirən Azərbaycan əsgərlərinin arası cəmi ***14*** kilometrdir. Azərbaycan tərəfi döyüşlər zamanı çoxlu sayda itkilər verir...

**22 avqust 1992-ci il** - **Zakir Adıgözəl oğlu İmanov** Qarabağın Qarakənd yaxınlığında erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**22 avqust 1992-ci il** - Qarabağın ***Manikli, Xatınbəyli, Orta Güneypəyə*** kəndləri çoxlu sayda itkilər bahasına düşməndən təmizlənir...

**22 avqust 1992-ci il** - Erməni terrorçuları qəflətən Zəngilan rayonunun ***Şayıflı*** kəndinə basqın edirlər. Şayıflı dəmiryol stansiyasının rəisi **Məhəmməd Qasımov** və oğlu **Baloğlan Qasımov** iş yerlərində tutularaq ələ keçirlər. Onların hər ikisi qəddarcasına doğranılır...

**22 avqust 1993-cü il** - Zərdab rayon məhkəməsinin hakimi **Məhərrəm Fehruz oğlu Məmmədov,** onun Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində yaşayan anası **Səfurə Mirsəlim qızı Məmmədova,** onların yaxın qohumları **Rəsul Bəyqulu oğlu İbrahimov** və **Aminə Ədil qızı Hüseynova** Məhərrəmə məxsus olan şəxsi minik maşınında, *Horadiz- Beyləqan* avtomobil yolunda , ***"Kültəpə"*** adlanan yerdə ermənilərin atdığı raket atəşinə tuş gəlirlər. Onların hamısı od alan maşında yanıb külə dönürlər...





**23 avqust 1514-cü il** - Maku yaxınlığında baş verən ***Çaldıran*** döyüşü səfəvilərin məğlubiyyəti ilə nəticələnir. Osmanlı dövləti ***Ərzurum*** şəhəri ilə birlikdə ***Şərqi Anadolu*** və ***Şimali Mesopotamiyanı*** da ələ keçirir...

**23 avqust 1514-cü il** - Çaldıran döyüşündə görkəmli Səfəvi sərkərdəsi şamlı tayfasından olan əmir-əl-ümərа ***Hüseynbəy Lələ Şamlı (Lələ bəy)*** öldürülür...

**23 avqust 1722-ci il** - I Pyotrun rus piyada qoşunları Dərbəndi işğal edir...

**23 avqust 1744-cü il** - Nadir şah Osmanlılarla müharibədə ***Qars*** qalasına şiddətli hücum edirsə də, onu ala bilmir. Hər iki tərəfdən çoxlu sayda itkilər olur...

**23 avqust 1905-ci il** - Şuşa qəzasında erməni terrorçuları 2-ci dəfə güclü qırğın törədirlər. **4** kənd yerlə yeksan olir. Dinc əhalidən **100** nəfər qətlə yetirilir...

**23 avqust 1920-ci il** - Quba qəzasının ***Küzün*** kəndinin əhalisi sevet rejiminə qarşı silahlı üsyan qaldırır. Qəza Komitəsi üsyanın qarşısını almaq üçün 4-cü süvari alayından **45** nəfərlik dəstə göndərir. Sovet qüvvələri ilə bərabər üsyançılar da itki verirlər...

**23 avqust 1989-cu il** - Erməni quldur yaraqlıları ***Ağdərə*** bölgəsində **Soltan Ağayevi** namərdcəsinə qətlə yetirirlər. Onun *"Niva"* markalı minik maşını dağıdılaraq yararsız hala salınır...

**23 avqust 1990-cı il** - Ermənistan Respublikası müstəqillik haqqında ***Bəyannamə*** qəbul edir. Bəyannamədə Ermənistan və *«Dağlıq Qarabağ Respublikası»*nın birlikdə müstəqil olduğu göstərilir...

**23 avqust 1991-ci il** - Erməni terrorçuları *Şuşa-Cəmilli* yolunda avtobusu gülləyə tuturlar. **4** nəfər həlak olur, **13** nəfər yaralanır...

**23 avqust 1991-ci il** - Goranboy rayonunun ***Rus Borisi*** kəndinə ermənilər basqın edirlər. Bəzi kənd sakinləri soyğunçuluğa məruz qalır...

**23 avqust 1991-ci il** - Şuşa-Cəmilli yolu ilə hərəkət edən sərnişin avtobusu erməni yaraqlıları tərəfindən atəşə tutulur. **4** nəfər ( **Vaqif Sadıqov, Natiq Salahov,** 94 yaşlı **Göyüş Cavadov,** 5 yaşlı **Maya Abdullayeva)** həlak olur; **16** nəfər yaralanır...

**23 avqust 1993-cü il** - Azərbaycanın çox böyük strateji əhəmiyyətə malik olan Cəbrayıl və Füzuli rayonları, eləcə də onların birlikdə demək olar ki, 80-ə qədər kəndi erməni hərbi birləşmələrinin hücumu nəticəsində işğal edilir. Onlarla dinc sakinlər qətlə yetirilir və ya girov düşür. Füzulinin **110 000,** Cəbrayılın

isə **60 000** nəfər əhalisi doğma yurd-yuvalarından didərgin salınır. Bununla da, Azərbaycan xalqının növbəti **qanlı faciə tarixinin daha bir qara səhifəsi** yazılır...

**23 avqust 1993-cü il** - Azərbaycanın cənub bölgəsində Əlikram Hümbətovun başçılıq etdiyi qiyam çətinliklə olsa da yatırılır. Qondarma ***"Talış-Muğan Respublikası"*** yaratmaq planı iflasa uğrayır. Amma itkilər də olur...

**23 avqust 1993-cü il** - Saat *16*-da 160-cı briqadanın və yerli Füzuli briqadasının müdafiə etdiyi ***Füzuli şəhəri*** düşmən əlinə keçir. Çoxlu sayda itkilər olur...

**23 avqust 1993-cü il** - Lənkəran sakinləri - **Etibar Böyükağa oğlu Əliyev, Sultan Nəhmət oğlu Bayramov, Paşa Qurban oğlu Təhməzov** *"Talış-Muğan Respublikası"* yaratmaq istəyən nadanların atdığı güllələrin qurbanı olurlar...

**23 avqust 1993-cü il - Fərhad Həsən oğlu Qaraşov, Həsən Hüseyn oğlu Qaraşov, İsmiyəli İsmayıl oğlu Həsənov, Fatma Hüseynqulu qızı Həsənova, Mətanət Əli qızı Mehdiyeva, Umudvar Əli oğlu Qəhrəmanov, Tərlan Allahverdi qızı Məmmədova, Hamlet Tahir oğlu Həsənov, Arzu Süleyman oğlu Nərimanov, Rafiq Həsi oğlu Rzayev** və daha bir neçə nəfər Füzuli rayonu ərazisində şəhid olur və ya itkin düşürlər...

**23 avqust 2005-ci il** - Moskva şəhərində Azərbaycan və Ermənistan Xarici İşlər Nazirlərinin görüşü keçirilir...

**24 avqust 944-cü il** - Ruslar Bərdəni mühasirəyə alırlar. Salari hakiminin Bərdədəki naibi öhdəsində olan *5600* nəfərlə yadelli işğalçılara müqavimət göstərir. ***Mərzban ibn Məhəmməd*** topladığı *30 000*-lik qoşunla Bərdənin müdafiəsinə köməyə gəlir. Güclü döyüşlərdə hər iki tərəfdən çoxlu sayda adam tələf olur. Bərdə şəhəri ruslar tərəfindən tutulur...

**24 avqust 1578-ci il** - Türklər Tiflisi ələ keçirir...

**24 avqust 1905-ci il** - Bakıda, ***Birinci Kantapin*** küçəsindəki *29* nömrəli evin qarşısında ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilən *55* yaşlı bir müsəlman meyidi aşkarlanır...

**24 avqust 1918-ci il** - Daşnaq terrorçular ***Üçmüəzzin, Sürməli, İrəvan, Yeni Bayazit*** qəzalarında ***qətliamlar*** törədirlər. Onlarla kənd talan edilərək dağıdılır...

**24 avqust 1988-ci il** - Xankəndində DQMV XDS İK-nin sessiyası çağırılır. Moskvanın nümayəndəsi Arkadi Volski iclasda iştirak edir. Sessiya başlanan kimi tribunaya qalxan ermənilər Azərbaycanın və azərbaycanlıların ünvanına təhqir və söyüşlər yağdırırlar. Azərbaycanlılar sessiyadan yarımçıq çıxmalı olur...

**24 avqust 1990-cı il** - Kəlbəcər rayonunun ***Alolar*** kənd sakini **B. Ramazanov**





erməni yaraqlıları tərəfindən girov götürülür...

**24 avqust 1991-ci il** - Xocalı şəhəri raket atəşinə məruz qalır...

**24 avqust 1991-ci il** - Ağdamın ***Şotlanlı*** yaylağı atəşə tutulur; **1** nəfər yaralanır...

**24 avqust 1992-ci il** - Ağdam rayonunun ***Abdal*** və ***Gülablı*** kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur. Tələfat və dağıntılar olur...

**25 avqust 1905-ci il** - Bakıda Krasnovodsk *(Səməd Vurğun)* və Suraxanı *(Bir May)* küçələrinin kəsişdiyi ərazidə ermənilərlə müsəlmanlar arasında atışma baş verir...

**25 avqust 1905-ci il** - 3 erməni xəncərlə **Məhəmmədqulu bəy Şəfi ağa oğlunu** qətlə yetirir...

**25 avqust 1905-ci il** - Cavanşir qəzasının *Qaladərəsi* kəndinin yaraqlı erməni quldur sakinləri **Əbdürrəhman bəy Kərim bəy oğlunun** köçünə basqın edir. Bəy öldürülür, onun çoxlu sayda qoyun sürüləri, **55** baş qaramalı və əmlakı zəbt olunur...

**25 avqust 1905-ci il** - Qondarma daşnaq generalı ***Hamazasp*** və onun əlaltısı ***A.Mikoyanın*** rəhbəri olduqları terror qruplaşması Cavanşir qəzasının ***Çıraxlı, Kəmərli, Hacıqərvənd*** və ***Pirxud*** kəndlərinə basqın edirlər. *100*-ə yaxın azərbaycanlı qətlə yetirilir. Kəndlərin əhalisi yurd-yuvalarından didərgin salınır...

**25 avqust 1938-ci il** - Azərbaycan SSR XDİK baş mayoru ***Rayevin*** əmri ilə *82* nəfər güllələnir...

**25 avqust 1941-ci il** - Sovet qoşunu ***Sovet-İran*** müqaviləsinin 6-cı maddəsinə əsasən Şimali İrana - Cənubi Azərbaycana *(Ərdəbil və Təbriz istiqamətində 40 kilometr irəliləyirlər)*, ingilis qoşunları isə İranın cənubuna çıxarılır...

**25 avqust 1943-cü il** - Böyük Vətən müharibəsinin tərkib hissəsi olan və *5* ay davam edən ***Dnepr*** uğrunda döyüş başlayır. Bu qanlı vuruşmalarda minlərlə azərbaycanlı da həlak olur...

**25 avqust 1988-ci il** - Xocalı Deputatlar Sovetinin sessiyası keçirilir...

**25 avqust 1990-cı il** - Ermənilərin ***"Amaras"*** terror dəstəsi Şuşanın *Göytəpə* yaşayış məntəqəsinə basqın edirlər. Valideynləri qətlə yetirilən , evləri yandırılan *5* yaşlı ***Elçin Allahverdiyev*** yetim və evsiz qalır...

**25 avqust 1991-ci il** - Goranboy rayonunun ***Şəfəq*** kəndi ermənilər tərəfindən atəşə tutulur. **1** nəfər həlak olur, **1** nəfər yaralanır, **2** nəfər kontuziya alır...

**25 avqust 1992-ci il** - Ağdam şəhəri və onun Yuxarı Qarabağla həmsərhəd olan kəndləri atəşə tutulur...

**25 avqust 1993-cü il** - Erməni yaraqlıları Cəbrayıl rayonunun ***Dağtumas***

kəndinə basqın edirlər. Kənd xəstəxanasının baş həkimi **Əli Mahmudov**, kənd ağsaqqalı **Əli Quliyev**, baytar həkim **Qüdrət Rüstəmov**, 1916-cı il təvəllüdlü **Bənövşə İbrahim qızı Osmanova**, 1918-ci il təvəllüdlü **Əziz Salman oğlu Mehrəliyev**, eləcə də **Məhəmməd Əvəz oğlu Məmmədov** və onun oğlu Səxavət, 1930-cu il təvəllüdlü **Məhəmmədəli Ədil oğlu Hacıyev**, onun həyat yoldaşı **Gülarə İsmayıl qızı Nəcəfova** və başqaları güllələnirlər. Girov düşən qadınların zinət əşyaları əllərindən alınır. Evlərə od vurulur. *3.000*-ə yaxın əhali doğma dədə-baba yurdundan didərgin düşür...

**25 avqust 1993-cü il** - Cəbrayıl rayonunun ***Hovuslu*** kəndi erməni yaraqlılarının hücumuna məruz qalır. **Aydın Adışirin oğlu Cavadov**, onun həyat yoldaşı **Şövkət Məmməd qızı Məmmədova, Nənəxanım Məmməd qızı Piralıyeva, Narxanım Məmməd qızı Məmmədova, Mahnisə Şıxəli qızı Əmrahova** qətlə yetirilirlər...

**25 avqust 1993-cü il** - Erməni yaraqlıları Cəbrayıl rayonunun ***Daşveysəlli*** kəndinə basqın edirlər. El ağsaqqalı **Hüseyn Ataş oğlu Hüseynov, Şakir Məhəmməd oğlu Əliyev, Şura Şəmil qızı Yunisova** amansızlıqla qətlə yetirilir...

**25 avqust 1993-cü il** - Ermənilərlə döyüşdə zəngilanlı igidlər - **Əsgər Vəli oğlu Nağıyev** (Bartaz k.), **Məmməd İlyas oğlu Məmmədov** (Vəliqulubəyli k.), **Ramazan Dünyamalı oğlu Quliyev** (Məmmədbəyli k.), **Faiq Əvəz oğlu Rzayev** (Zəngilan ş.) həlak olurlar...

**26 avqust 837-ci il** - Babəkin əsas iqamətgahı olan ***Bəzz qalası*** ərəblər tərəfindən tutulur. Qalanın müdafiəsinə cəsur sərkərdə ***Adin*** başçılıq edirdi. ***Bəzz döyüşü*** orta əsr müharibələri tarixində ən çox insan qırğınına səbəb olan döyüşlərdəndir. Bu döyüşlərdə yaralananlardan və itkin düşənlərdən başqa, ərəblərdən ***100 000*** nəfər, üsyançılardan isə ***80 000*** nəfər həlak olur. Qala müdafiəçilərindən ***7600*** nəfər əsir götürülür. Onların arasında Babəkin ailə üzvləri və yaxın qohumları, o cümlədən *17* oğlu, *23* arvadı, qızı və gəlini də vardı...

**26 avqust 1896-cı il** - Osmanlı bankı erməni terrorçuları tərəfindən tutulur və bank işçiləri girov götürülür. Sədr Əzəm Xəlil Rifət Paşaya sui-qəsd edilir...

**26 avqust 1905-ci il** - Ermənilər Sultan Əbdül Həmidə sui-qəsd edirlər...

**26 avqust 1905-ci il** - Bakının Balaxanı *(Füzuli)* küçəsində ermənilər **Fərid Əbdül Zeynal oğluna** *25* güllə vururlar...

**26 avqust 1919-cu il** - Qarabağ və bir sıra digər ərazilər ermənilər və azərbaycanlılar arasında *«mübahisəli»* sayıldığı üçün Qarabağ ermənilərinin VII qurultayında *«Dağlıq Qarabağ ermənilərinin Azərbaycan hökuməti ilə müvəqqəti razılığı»* qəbul edilir...





**26 avqust 1920-ci il** - Taxıl ticarətinin inhisara alınması haqqında dekret verilir...

**26 avqust 1936-cı il** - Görkəmli ziyalı *Məhəmmədhəsən Baharlı* yenidən həbs olunur...

**26 avqust 1941-ci il** - Sovet ordu hissələri ***Ərdəbil*** və ***Təbriz*** şəhərlərinə daxil olurlar...

**26 avqust 1989-cu il** - Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti DQMV-də Konstitusiyaya zidd tədbir haqqında Dağlıq Qarabağın Azərbaycan SSR-dən qoparılmasına qarşı qərar çıxarır...

**26 avqust 1992-ci il** - Ağdam şəhəri və rayonun Yuxarı Qarabağla həmsərhəd kəndləri atəşə tutulur...

**27 avqust 1905-ci il** - Dolanlar kəndində məskən salmış erməni daşnaqları Dağtumas kəndinə binagüzarlığa gedən Qazanzəmi kənd sakini ***Şükür Məmməd oğlunu Tumas-Ata*** dağının yamacında qətlə yetirirlər...

**27 avqust 1918-ci il** - 3 ay davam edən alman-rus danışıqları nəhayət ki, başa çatır. Berlində bağlanmış sazişin 14-cü maddəsində göstərilir ki, Almaniya Qafqazda Gürcüstanın hüdudlarından kənarda hərbi əməliyyatlarda hər hansı 3-cü dövlətə hcç bir yardım göstərməyəcəkdir. *"Rusiya - Bakı vilayətində neft çıxarılmanın bütün imkanlarını Almaniyaya verəcəkdir". 27 **avqust sazişi*** ilə bağlı Azərbaycan nümayəndə heyəti Almaniya səfirliyinə etiraz notası verir...

**27 avqust 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə ***148*** nəfər güllələnir...

**27 avqust 1991-ci il** - Goranboy rayonunun ***Todan, Erkəc, Mənəşli*** kəndləri ermənilər tərəfdən atəşə tutulur. **2** nəfər ağır yaralanır. Daşnaqların ***Rus Borisi*** kəndinə qəflətən olan həmlələri **3** nəfər naxırçının ölümcül hala salınması və mal-qaranın oğurlanaraq aparılması ilə nəticələnir...

**27 avqust 1992-ci il** - Şuşanın 1964-cü il təvəllüdlü vətənpərvər oğlu **Süleyman Firudin oğlu Bayramov** həlak olur...

**27 avqust 1992-ci il** - **Allahverdi Qənbərov** və daha **6** nəfər mərmi partlayışından həlak olurlar...

**27 avqust 1992-ci il** - Milli Qəhrəman **Şövqüyar Cəmil oğlu Abdullayev** ermənilərlə döyüşdə həlak olur...

**28 avqust 1919-cu il** - Erməni daşnaqları Vedibasarın ***Şahablı*** kəndində

amansız qətliam törədirlər. Kişilər öldürülür, uşaqlar təndirə atılır, qadınlar qılıncdan keçirilir. Bir neçə gözəgəlimli qadının namusuna təcavüz edilir...

**28 avqust 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə *25* nəfər güllələnir...

**28 avqust 1969-cu il** - Xankəndi şəhərində Azərbaycan SSR Maarif Nazirliyi tərəfindən keçirilən müəllimlərin zona müşavirəsi iştirakçılarının azərbaycanlılardan ibarət qrupunun qaldıqları ***"Qarabağ"*** mehmanxanası qarşısında daşnaq terrorçusu azərbaycanlı ziyalılarını öldürmək məqsədi ilə əl qumbarası partladır; *3* azərbaycanlı müəllim ağır qəlpə yarası alır...

**28 avqust 1988-ci il** - Şuşa-Ağdam yolunda hərəkət edən, sərnişinləri azərbaycanlılardan ibarət olan **9** avtobusa daş və dəmir parçaları ilə silahlanmış erməni yaraqlıları pusqu quraraq hücum edirlər. **18** adam müxtəlif dərəcədə xəsarət alır, 3 nəfər - ***Ə.Fərzəliyev, B.Saidler, S.Kərimov*** Ağdam xəstəxanasına gətirilir...

**28 avqust 1991-ci il** - Xocalı şəhəri ***Mehdikənd*** və ***Kətik*** kəndləri istiqamətindən raket atəşinə tutulur. Xocalıda məktəb binası və *20* yaşayış evi zədələnir, elektrik enerjisi kəsilir. Çoxlu dağıntılar olur...

**28 avqust 1991-ci il** - Şuşa şəhər sakinləri - ***Yaqub Muradov*** və ***Müdafət Hüseynov*** ermənilər tərəfindən girov götürülür...

**29 avqust 1734-cü il** - Nadir döyüş üçün Şirvana gəlir. ***Surxay xan*** Dağıstana qaçır...

**29 avqust 1903-cü il** - Gəncədə **"Hnçak"** terror təşkilatının hazırladığı ssenari əsasında ermənilərlə azərbaycanlılar arasında baş verən silahlı toqquşmada günahsız azərbaycanlılar qətlə yetirilir. **II** Hissə deyilən ərazədə daşnaqlar erməni kilsəsinin çağırışı ilə türklərin yaşadıqları məhəllələrə silahlı basqın edərək orada talanlar törədir, xeyli sayda dinc sakini qətlə yetirirlər...

**29 avqust 1905-ci il** - Erməni quldur birləşmələri Bakıda şəhərin sakinlərinə - etnik azərbaycanlılara dəhşətli divan tuturlar. Şahidlərin dediklərinə görə, Bakıda avqustun axırlarında baş vermiş bu hadisələr öz qəddarlığına və kütləviliyinə görə elə həmin ilin fevralında Bakıda törədilmiş faciəni kölgədə qoyur...

**29 avqust 1905-ci il** - Batum şəhərində erməni komitəsi tərəfindən göndərilən terrorçular **Məhəmmədqulu bəy Kəngərlini** qətlə yetirirlər...

**29 avqust 1920-ci il** - Azərbaycan Həmkarlar İttifaqının I qurultayı keçirilir. Qurultay müxtəlif məsələləri müzakirə edir, Azərbaycan Həmkarlar ittifaqları Şurasını ***(AHİŞ)*** seçir. Şuranın sədri ***A.İ.Mikoyan*** olur...

**29 avqust 1991-ci il** - Goranboy rayonunun ***Şəfəq*** kəndi erməni yaraqlıları tərəfindən atəşə tutulur. **1** nəfər mülki şəxs öldürülür, **3** nəfər yaralanır...

**29 avqust 1993-cü il** - Erməni silahlı birləşmələri ***Qubadlı*** rayonu istiqamətində irimiqyaslı hücum həyata keçirməyə başlayırlar...

**29 avqust 1997-ci il** - Rusiya ilə Ermənistan arasında dostluq və əməkdaşlıq adı altında hərbi ittifaq müqaviləsi imzalanır...

**30 avqust 1410-cu il** - Qaraqoyunlu ***Qara Yusif*** ilə Cəlairi ***Sultan Əhməd*** arasında ***Təbriz*** yaxınlığındakı ***Əsəd*** qəsəbəsində, ***Şənbi-Qazan*** adlı yerdə döyüş olur. Qara Yusif qalib gəlir. ***Cəlairilər dövləti*** süquta uğrayır...

**30 avqust 1941-ci il** - Sovet qoşunları irəliləyərək Zəncana daxil olurlar...

**30 avqust 1991-ci il** - **Cəfər Musa oğlu Məmmədov** Mehmanə kəndi yaxınlığında erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**30 avqust 1991-ci il** - Goranboy rayonunun ***Todan, Erkəc, Şəfəq*** kəndləri ermənilər tərəfdən atəşə tutulur. **1** nəfər həlak olur, **2** nəfər yaralanır...

**30 avqust 1991-ci il** - Erməni yaraqlıları Füzuli rayonunun ***Aşağı Veysəlli*** kəndinə hücum edirlər. **6** nəfər mülki şəxs sahədə ot yığarkən girov götürülür...

**30 avqust 1992-ci il** - **Ramiz Şahlar oğlu Ramazanov** Ağdərənin ***Mehmana*** kəndi uğrunda gedən döyüşdə həlak olur...

**30 avqust 1992-ci il** - Cəbrayıl şəhəri və Süleymanlı kəndi ermənilər tərəfdən müxtəlif silahlardan atəşə tutulur. **Tofiq Mustafa oğlu Süleymanov, Səmayə Qiyas qızı Kərimova, Ramiz Surxay oğlu Həsənov, Rəfiqə İsa qızı Kazımova** həlak olurlar. Nüzgar kənd sakini ***Qafqaz Əli oğlu Fərgüzarov*** və daha *30* nəfərədək günahsız dinc sakin yaralanır...

**30 avqust 1993-cü il** - Hadrut *(Xocavənd)* rayonu ərazisində *"Zil"* markalı avtomaşın ermənilər tərəfindən partladılır. **2** nəfər həlak olur...

**30 avqust 1993-cü il** - *"Xanlıq qaşı"* (Cəbrayıl-Qubadlı sərhədində) deyilən ərazidə ermənilər tərəfindən Cəbrayıl avtonəqliyyat müəssisəsinə məxsus olan avtobus partladılır. Dağtumas kənd sakinləri **Abbas Rüstəmov, Həsən Məmmədov, İlham Rüstəmov, Pənah Rüstəmov** həlak olurlar. Çaytumas kənd sakini ***Mövlanverdi İbrahim*** oğlu ağır yaralanır...

**30 avqust 2004-cü il** - Azərbaycan və Ermənistan Xarici İşlər Nazirlərinin Praqada növbəti görüşü keçirilir...

**31 avqust 1903-cü il** - Tiflisdə, erməni kilsəsinin yanında keşiş Ter-Araratovun göstərişi ilə erməni silahlıları günahsız müsəlman vətəndaşlarına atəş açırlar...

**31 avqust 1915-ci il** - Bakıda Tağıyevin toxuculuq fabrikində ən iri iqtisadi tətil baş verir...

**31 avqust 1941-ci il** - Sovet qoşunları irəliləyərək ***Qəzvinə*** daxil olurlar...

**31 dekabr 1990-cı il** - 1988-ci ilin fevralından başlanan Qarabağ müharibəsində öldürülən azərbaycanlıların sayı ***360*** nəfərə çatır...

**31 avqust 1991-ci il** - Goranboy rayonunun ***Buzluq*** kəndi yaxınlığında işgəncə ilə öldürülmüş **1** nəfər milis işçisinin meyidi aşkarlanır...

**31 avqust 1992-ci il** - Cəbrayıl şəhəri, Qışlaq kəndi, Süleymanlı kəndi ermənilər tərəfindən intensiv atəşə tutulur. **4** nəfər mülki şəxs həlak olur, **30** nəfər yaralanır...

**31 avqust 1992-ci il** - Milli Qəhrəman **Mətləb Kamran oğlu Quliyev** Ağdərə rayonunun ***Çıldıran*** və ***Mehmanə*** kəndləri arasında ermənilərlə döyüşdə həlak olur...

**31 avqust 1993-cü il** - Azərbaycanın cənnətməkan diyarı olan ***Qubadlı*** rayonu ermənilər tərəfindən işğal olunur. Rayon əhalisi erməni-daşnaq faşistlərinin etnik təmizləmə siyasətinin qurbanı olur. Onlarla adam, xüsusilə də dinc, günahsız sakinlər erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**31 avqust 1993-cü il** - Qubadlının igid oğlu **Nadir Ərşad oğlu Bədəlov** həlak olur...

**31 avqust 1993-cü il** - **Əyyub Əli oğlu Vəliyev** və yoldaşları *"Qaranquş"* adlı erməni cinayətkar qrupunun üzvləri tərəfindən vəhşicəsinə güllələnərək faciəli şəkildə həlak olurlar...

**31 avqust 1993-cü il** - Erməni silahlı birləşmələri Füzuli rayonunun Kürdmahmudlu kəndinə hücum edirlər. **17** nəfər dinc sakin qətlə yetirilir. Əsir düşmüş ***Mürvət Ağayev*** qulağı kəsilərək, əlləri məftillə arxadan bağlanılaraq ağacdan asılır; ayağı altında ocaq qalanaraq diri-diri yandırılır. Kənd əhalisi öz doğma dədə-baba yurdlarından didərgin düşür...





# SENTYABR

**1 sentyabr 1801-ci il** - Rus çarı I Aleksandr Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında ***"Manifest"*** verir. Qazax, Şəmşəddil, Borçalı, Pəmbək Azərbaycan torpaqları Rusiyanın tərkibinə qatılır. Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalının başlanğıcı qoyulur...

**1 sentyabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə tərkibində xeyli azərbaycanlı olan ***193*** nəfər güllələnir...

**1 sentyabr 1992-ci il** - Cəsur vətənpərvər, könüllü döyüşçü **İslam İdris oğlu Quliyev** erməni yaraqlıları ilə döyüşdə qəhrəmancasına şəhid olur...

**1 sentyabr 1992-ci il** - Zəngilan rayonun ***Qazançı*** kəndi; Ağstafa rayonunun ***Köhnə Qışlaq*** kəndi; Şahbuz rayonunun ***Batabat*** qəsəbəsi; Gədəbəy rayonunun ***Mormor*** və ***Mutudərə*** kəndləri ermənilər tərəfdən müxtəlif növ silahlardan atəşə tutulur...

**1 sentyabr 1993-cü il** - Erməni yaraqlıları Qubadlı rayonunun Mahruzlu, ***Ulaşlı, Çərəli, Qaralar*** kəndlərinə hücum edir. İtkilər və dağıntılar olur...

**1 sentyabr 2004-cü il** - Avropa Şurasının Baş Katibi Terri Devisi əvəz edən Devid Atkinson AŞPA-nın Siyasi Komitəsinin Parisdə keçirilən iclasında Dağlıq Qarabağ üzrə yeni məruzəçi təyin olunur...

**2 sentyabr 1394-cü il** - XIV əsrin məşhur şəxsiyyətlərindən biri, görkəmli mütəfəkkir, hürufi təriqətinin banisi **Nəimi Şah Fəzlullah ibn Əbu Məhəmməd Təbrizi** öldürülür...

**2 sentyabr 1826-cı il** - ***2.000*** nəfərlik rus qoşunu erməni mənşəli general ***V.Mədətovun*** komandanlığı ilə ***10.000*** nəfərlik şah qoşununa ***Şəmkir*** yaxınlığında hücum edir və qalib gəlir. Şah qvardiyası ***1.500*** adam itirir...

**2 sentyabr 1829-cu il** - Rusiya ilə Osmanlı dövləti arasında bağlanmış ***Ədirnə*** *(Adrianapolis)* sülh müqaviləsinə görə ***Ahalsıx*** padşahlığının *(Qars vilayətinin)* bir hissəsi Rusiyaya verilir. Osmanlı dövləti bütün Cənubi Qafqazın Rusiya tərəfindən işğalını tanıyır. Türkiyədən ***14 000*** erməni ailəsi Azərbaycana köçürülür...

**2 sentyabr 1903-cü il** - Axşam saat *17* radələrində Bakıda kilsə zənglərinin çağırışı ilə xeyli sayda silahlı erməni kütləsi erməni məbədinin hasarı qarşısına toplaşır. Onlar silahsız azərbaycanlılara qarşı qırğın törətmək istəyirlər...

**2 sentyabr 1920-ci il** - *«Daşnaksütyun»* terror təşkilatından olan erməni quldurlarının vəhşiliyindən can qurtarmaq üçün ***İrəvan*** və ***Şərur Dərələyəz*** mahallarının qaçqın dəstəsindən olan ***1500*** dinc sakin Araz çayının gur axınlı ***Olta*** qolunu keçməyə çalışır. İstambuldakı *«Osmanlı»* arxivinin sənədlərində göstərildiyi kimi, 650 müsəlman çayda batıb boğularaq tələf olur...

**2 sentyabr 1936 - cı il** - Zaqatala və Balakən rayonlarının ərazisində *7* bal gücündə **zəlzələ** baş verir. Dağıntı və tələfat olur...

**2 sentyabr 1953-cü il** - Oğuz rayonunda zəlzələ baş verir. ***Çalut, Sincan*** və başqa kəndlərdə güclü dağıntılar olur...

**2 sentyabr 1991-ci il** - Ermənilər ***"Dağlıq Qarabağ Respublikası"*** deyilən oyuncaq qurumu yaratdıqlarını elan edirlər...

**2 sentyabr 1991-ci il** - Erməni quldurları Xocavənd rayonunun ***Qaradağlı*** kəndinə gələn *UAZ* markalı avtomaşını atəşə tutur. **Soltan Rəşid oğlu Bayramov** həlak olur...

**2 sentyabr 1992-ci il** - Ağdamın bir sıra kəndləri ermənilər tərəfindən şiddətli atəşə tutulur. Ölənlər, yaralananlar və dağıntılar olur...

**2 sentyabr 1992-ci il** - Milli Qəhrəman **Tahir Tofiq oğlu Həsənov** Çıldıran kəndi yaxınlığında erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**2 sentyabr 1993-cü il** - Qubadlı rayonunun şimal hissəsindəki kəndlər silahlı ermənilər tərəfindən tam işğal olunur...

**2 sentyabr 1993-cü il** - Hadrut *(Xocavənd)* rayonunun çıxacağında erməni terrorçuları tərəfindən sərnişin avtobusu partladılır; **4** nəfər həlak olur, **8** nəfər ağır yaralanır...

**2 sentyabr 1993-cü il** - Erməni ordusu Cəbrayıl rayonunun cənubunda döyüş əməliyyatı apararaq rayonun daha **2** kəndini - ***Kavdar*** və ***Fuğanlı*** yaşayış məntəqələrini işğal edir...

**3 sentyabr 1191-ci il** - Atabəy Şəmsəddin Eldəgəzin oğlu **Qızıl Arslan** keçirdiyi kef məclisində öz yatağında sui-qəsd nəticəsində öldürülür...

**3 sentyabr 1826-cı il** - Rus qoşunu ilə İran ordusu arasında Şəmkir yaxınlığında baş verən döyüşdə İran qoşunu ağır məğlubiyyətə düçar olur...

**3 sentyabr 1838-ci il** - Üsyançılar **Şəkini** tərk edirlər. **Məşədi Məhəmməd** İrana qaçır...

**3 sentyabr 1918-ci il** - Daşnaq terrorçular Zəngəzur qəzasının ***Sisian*** kəndinin **60** nəfər dinc sakinini amansızlıqla qətlə yetirirlər...

**3 sentyabr 1920-ci il** - Erməni yaraqlıları Şirəköl mahalının ***Düzkənd*** kəndinə hücum edərək **120** nəfəri qətlə yetirir...





**3 sentyabr 1920-ci il** - 10 gün öncə Quba qəzasının ***Küzün*** kəndindən başlayan üsyanın dalğası çox keçmir ki, ətraf əraziləri də bürüyür. Üsyançılar *Dəvəçi-Xaçmaz* üzərinə hücum edirlər. Onların qarşısına 7-ci süvari dəstə çıxarılır. Gərgin döyüşlərdən sonra sovet-bolşevik döyüşçüləri mövqelərini qoruyub saxlaya bilirlər. Üsüyanı yatırmaq üçün ***1.000*** nəfərlik əlavə əsgər göndərilir. Şahlar bəyin dəstəsindən ***16*** nəfər yaxalanır, ***50*** tüfəng ələ keçirilir. Hökumət antisovet çıxışların qarşısını almaq üçün bir sıra tədbirlər həyata keçirmək məcburiyyətində qalır. Xeyli sayda ölən və yaralananlar olur...

**3 sentyabr 1988-ci il** - Terrorçu daşnaqlar Xankəndi yaxınlığındakı ***Kəkicahan*** qəsəbəsinə hücum edirlər. Küçələrdə *"Azərbaycanlılar! Sizə Arsak torpağında yer yoxdur!"* sözləri yazılmış vərəqələr yayırlar...

**3 sentyabr 1992-ci il** - Ağdam və Füzuli rayonlarının bir sıra yaşayış məntəqələri ermənilər tərəfindən atəşə tutulur...

**3 sentyabr 2010-cu il** - Saat *00.15* radələrində Lənkəran rayonunun ***Qumbaşı*** kəndi ərazisində Masallı rayonu istiqamətindən gələn silahlı şəxslər kənd məscidinin qarşısına toplaşmış yerli sakinlərə *"Vinçester"* markalı silahdan atəş açırlar. Atəş nəticəsində kənd sakini, 1969-cu il təvəllüdlü **Elşən Əliməmməd oğlu Hüseynov** qətlə yetirilir. Digər bir kənd skini, 1985-ci il təvəllüdlü **Ramin Baloğlan oğlu Ağamalıyev** döş qəfəsindən ağır güllə yarası alır. Dinc sakinlərə odlu silahdan atəş açan *Arif Feyzullayev* tutularaq istintaqa təhvil verilir; hadisənin digər iştirakçıları axtarılır...

**4 sentyabr 1826-cı il** - Ruslar *Gəncəni* yenidən tutur...

**4 sentyabr 1837-ci il** - Quba qalası uğrunda döyüşlər gedir. ***Quba*** üsyanının ikinci mərhələsi məğlubiyyətlərlə davam edir...

**4 sentyabr 1992-ci il** - Füzuli rayonunun ***Qacar*** kəndi ermənilər tərəfindən qrad qurğularından şiddətli atəşə tutulur. Ölənlər və yaralananlar olur...

**4 sentyabr 1992-ci il** - Erməni yaraqlıları ***Ağdam*** rayonunun gözəl və səfalı təbiətə malik olan ***Abdal-Gülablı*** kəndinə basqın edirlər. Qızğın və şiddətli döyüşlərdən sonra Ağdamın böyük strateji əhəmiyyət kəsb edən Abdal və Gülablı kəndləri ermənilər tərəfindən işğal olunur. ***10*** nəfər vətən müdafiəçisi həlak olur, *20* nəfər yaralanır, ***2*** nəfər girov düşür. Kənd əhalisi didərgin salınır. Ağdam şəhəri demək olar ki, təhlükə qarşısında qalır...

**4 sentyabr 1992-ci il** - Baş leytenant, Milli Qəhrəman **Fəxrəddin Vəliyəddin oğlu Nəcəfov** keçmiş Ağdərə rayonunun ***Çıldıran*** kəndi yaxınlığında baş verən döyüşdə həlak olur...

**4 sentyabr 1999-cu il** - *"Vartan cəngavərləri"* terrorçu qrupunun nüvə məsələləri

ilə bağlı məşvərət ocağının bir hissəsi Artsax *(Xankəndi)* mərkəzinə keçirilir...

**5 sentyabr 1722-ci il** - Rus ordusunun yürüşü dayandırılır. *I* Pyotr Rusiyaya dönür...

**5 sentyabr 1806-cı il** - Bakı qalasının açarlarını vermək və məxfi söhbət etmək üçün Hüseynqulu xan Sisianovu qalaya dəvət edir. Görüş zamanı Hüseynqulu xanın xalası oğlu Sisianovu qətlə yetirir. Bakıda azərbaycanlıların qırğını başlayır. Rus qoşunları Bulqakovun komandanlığı ilə Bakıya tərəf hərəkət edir. ***Hüseynqulu xan*** İrana qaçır, əhali isə şəhərə yaxınlaşan rus qoşunlarını salamlayır...

**5 sentyabr 1837-ci il** - Quba üsyançıları şəhərə hücum edirlər...

**5 sentyabr 1903-cü il** - Qars şəhərində daşnaq terrorçuları milliyyətcə Azərbaycan türkü olan məmur **Şərif Laçınbəyovu** qətlə yetirirlər...

**5 sentyabr 1919-cu il** - Bakı Dəmiryol teleqrafxanasının rəisi Hacıbəy Seyidbəyov Bakıdakı *"Novı Sovet"* restoranında tanınmış ziyalılar - firqə katibi **Haşım Əliyevi** və **Mirfəttah Musəvini** tapança ilə öldürür, firqə sədri ***Qoqoberidzeni*** isə yaralayır...

**5 sentyabr 1988-ci il** - Kərkicahan qəsəbəsi ***Xankəndi*** şəhər ermənilən tərəfindən pulemyot və avtomat atəşinə tutulur...

**5 sentyabr 1992-ci il** - Ağdam rayonunun *Abdal-Gülablı* kəndi artıq bir neçə saatdır ki, ermənilərin əlinə keçmişdir. Ermənilər kəndin evlərinə od vuraraq yandırırlar...

**6 sentyabr 1514-cü il** - Qızılbaşları təqib edən ***Sultan I Səlim*** Təbrizə daxil olur...

**6 sentyabr 1903-cü il** - Ermənilər tərəfindən Qarsda güclü iğtişaşlar və kütləvi qətllər törədilir...

**6 sentyabr 1991-ci il** - Goranboy rayonunun ***Şəfəq*** kəndinə basqın edən erməni terrorçuları *2* nəfər azərbaycanlı polis əməkdaşını güllə ilə yaralayırlar...

**6 sentyabr 1992-ci il** - Füzuli rayonunun ərazisində, ***Haçağədik*** adlanan mövqedə erməni yaraqlıları ilə güclü döyüşlər baş verir. Döyüşçülərimiz arasında ölənlər və yaralananlar olur...

**6 sentyabr 2001-ci il** - Laçın rayonunun ***Zabux*** kəndi ərazisində Moskva Kurçatov adına Fizika İnstitutunun ***"Prof. Averyan qrupu"***nun tədqiqat mərkəzi fəaliyyətə başlayır...





**7 sentyabr 1949-cu il** - Azərbaycan DTK-nın rəhbəri S.Yemelyanov köçürmə ilə bağlı ona ünvanlanmış şikayəti Gəncədəki müavininə göndərir; o isə məktubu DTK-nın 5-ci bölməsinin rəhbəri erməni Abramova ötürür. Abramov məktubun üzərinə dərkənar qoyaraq təsdiq edir ki, *"köçürülən azərbaycanlılar yerli erməni əhalisini sıxışdırırlar. Bu azərbaycanlılar provakasiya yoluna və anonim məktubların yazılması üsuluna əl atırlar"...*

**7 sentyabr 1978-ci il** - İranın **12** şəhərində, o cümlədən ***Təbrizdə*** şah rejiminə qarşı çıxışlar başlayır...

**7 sentyabr 1991-ci il** - Erməni yaraqlı quldurları dinc əhalini qorxutmaq məqsədilə Tuğ kəndinin sakinləri **Vaqif Nəcəfov** və **İbiş Məmmədovu** öz həyatyanı sahələrində işləyərkən vəhşicəsinə qətlə yetirirlər...

**7 sentyabr 1991-ci il** - Xankəndinə istiqamətlənən azərbaycanlılarla dolu olan sərnişin avtobusu erməni terrorçuları tərəfindən basqına məruz qalır. **3** nəfər öldürülür, **4** nəfər yaralanır...

**7 sentyabr 1991-ci il** - Erməni terrorçuları tərəfindən *Xankəndi-Ağdam* istiqamətində hərəkət edən və içərisində azərbaycanlılar olan sərnişin avtobusu atəşə tutulur. Nəticədə *3* sərnişin ölür, *20* nəfər yaralanır...

**7 sentyabr 1992-ci il** - Cəbrayıl rayonunun ***Qaracallı*** kəndi ermənilər tərəfindən atəşə tutulur...

**7 sentyabr 1992-ci il** - Ağdam rayonunun qərb hissəsində yerləşən kəndlər qrad qurğularından və toplardan atəşə tutulur. Dağıntılar olur...

**7 sentyabr 1992-ci il** - Füzuli rayonu ərazisində, ***Haçağədik*** adlanan yerdə erməni yaraqlıları ilə güclü mövqe döyüşləri baş verir. Ölən və yaralananlar olur...

**8 sentyabr 1978-ci il** - Tehranda xalqa divan tutulur. Çoxlu sayda azərbaycanlı da ölür, yaralanır və həbs olunur...

**8 sentyabr 1984-cü il** - Terrorçu ***Vartanyan Henri Surenoviç*** Bakıda 106 saylı marşrut avtobusunu partladır. **Fatimə Famil qızı** Surxayzadə faciəli şəkildə həlak olur, **4** nəfər sərnişin ağır bədən xəsarəti alır. Məsuliyyətə cəlb olunan terrorçu Moskvanın təzyiqi altında psixi xəstə kimi Ukrayna SSR-ə müalicəyə göndərilir. Sonra o, oradan azadlığa buraxılır...

**8 sentyabr 1990-cı il** - Laçın rayonunun ***Köhnəkənd*** kənd sakini **Xanoğlan Süleyman oğlu Süleymanov** (1945-ci il təvəllüdlü) və onun qardaşı **Elman Süleyman oğlu Süleymanov** Alıcan kəndi yaxınlığındakı yolda, QAZ-53 markalı maşında ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilirlər. Digər qardaş-***Elxan***

*Süleymanov* isə ağır yaralanır...

**8 sentyabr 1991-ci il** - Səsvermə günü seçki məntəqəsinə gətirilən azərbaycanlı seçicilərlə dolu olan avtobus erməni yaraqlıları tərəfindən atəşə tutulur. Cavan oğlan **Əloğlan Əlastan oğlu Quliyev,** təqaüdçü **Rəxşəndə Hüseynova,** 6 uşaq anası **Rahilə Hüseynova,** 7 uşaq anası **Nazənin Quliyeva** həlak olurlar. Qalan adamlar ağır yaralanır. Az sonra yaralılardan **7** uşaq anası **Qənirə Həmid qızı Hüseynova,** eləcə də vertolyotla Bakıya çatdırılan **Gündüz Əlqəmə oğlu Quliyev,** təqaüdçu **Validə Babayeva** da əbədiyyətə qovuşurlar. ***Ağdam-Qaradağlı*** *(Xocavənd rayonu)* yolunda gündüz saat *15* radələrində erməni quldurları tərəfindən atəşə tutulan bu sərnişin avtobusunda ümumilikdə **8** nəfər (*2* gənc oğlan, *6* qadın) həlak olur, **40** nəfər yaralanır. Çox keçmir ki, bu terror aktının ***"Qarabağ"*** təşkilatından olan erməni terrorçuları - ***Valodi Xaçaturyan, Saro Yeremyan, Saşa Çalyan, Armo Arustamyan*** tərəfindən törəndiyi sübut olunur...

**8 sentyabr 1992-ci il** - Ağdamın bəzi yaşayış məntəqələri ermənilər tərəfindən mərmi atəşinə tutulur. Ciddi dağıntılar olur...

**8 sentyabr 1992-ci il** - Füzuli şəhəri naməlum səbəblərdən bombalanır. Ölənlər, yaralananlar, dağıntılar olur...

**9 sentyabr 1578-ci il** - Səfəvilərlə Osmanlılar arasında 1578-ci ildə Qanıx *(Alazan)* çayı sahilində döyüş baş verir...

**9 sentyabr 1903-cü il** - Erməni terrorçusu ***Qars*** şəhərində ***Şərif Laçınbəyovu*** qətlə yetirir...

**9 sentyabr 1918-ci il** - Andranikin dəstəsi və ona qoşulan digər millətçi daşnaq qruplar Zəngəzurda müsəlman kəndlərinə basqın edir, kəndlərin əhalisini yaşına və cinsinə əhəmiyyət vermədən vəhşicəsinə öldürürlər...

**9 sentyabr 1930-cu il** - Qərbi Azərbaycanda ***İcevan*** *(Karvansaray),* ***Basarkeçər*** *(Vardenis)* rayonları yaradılır...

**9 sentyabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə ***185*** nəfər güllələnir...

**9 sentyabr 1942-ci il** - Azərbaycan SSR-də ***hərbi vəziyyət*** elan edilir. Bakı ətrafında istehkamlar qurulur...

**9 sentyabr 1993-cü il** - Terrorçu daşnaqlar ***Cəbrayıl*** rayonunun ***Şahvəlli*** kəndinə basqın edirlər. Doğma yurdlarını tərk etmək istəmədiklərinə görə dinc sakinlər - ***Məhəmməd Yunis oğlu İsmayılov,*** onun oğlu ***Ramazan,*** yeznəsi ***Mürvət Əmrah oğlu Qurbanov*** və həmkəndlisi ***Əhməd Abbas oğlu Maqsudov*** ermənilər tərəfindən döyülərək girov götürülürlər...





**10 sentyabr 1618-ci il** - Sərab yaxınlığında ***Sınıqkörpü*** adlanan yerdə ***I Şah Abbas*** osmanlı ordusunu məğlub edir...

**10 sentyabr 1837-ci il** - Quba üsyanının ikinci mərhələsi məğlubiyyətlə başa çatır...

**10 sentyabr 1916-cı il** - İlk azərbaycanlı hərbi təyyarəçi, Tiflis kadet məktəbinin məzunu, poruçik ***Fərrux ağa Kərim oğlu Qayıbov*** həlak olur...

**10 sentyabr 1989-cu il** - Qubadlı rayonunun ***Seytas*** kənd sakini **İbrahim Xansuvar oğlu Heydərov** Məzrə düzü adlanan sahədə erməni yaraqlısı tərəfindən qətlə yetirilir...

**10 sentyabr 1990-cı il** - Erməni yaraqlıları Martuni rayon DİŞ-nə basqın edərək rəis müavini ***M. Bəylərovu,*** əməliyyat müvəkkili ***A. Məmmədovu*** və milis serjantı ***F. Mirzəyevi*** girov götürürlər...

**10 sentyabr 1990-cı il** - Uzun müddət Ağdərə rayon PK-nin II katibi vəzifəsində çalışan ***Arif Əliyev*** və onun sürücüsü ***Bayram Misirov*** erməni terrorçuları tərəfindən girov götürülərək ***12*** gün ağır işgəncələr altında saxlanılırlar. Ermənilər A. Əliyevin qızıl dişlərini sökürlər və xoş bir təsadüf nəticəsində onu güllələmirlər. Sonra onun yanına daha *2* azərbaycanlı əsir gətirilir...

**10 sentyabr 1991-ci il** - Xocalı yaşayış məntəqəsi ermənilər tərəfindən müxtəlif istiqamətlərdən atılan raket atəşinə məruz qalır. **Zahid Lətif oğlu Muradov** həlak olur, qardaşı ***Mail*** və eləcə də ***3*** qardaş - ***Azay, Gəray, Xasay Məmmədovlar, Məhəmməd Mahmudov, 12*** yaşlı ***Aynurə Bəşirova,*** *7* yaşlı ***Emin Cəfərov*** yaralanırlar...

**10 sentyabr 1991-ci il** - Ermənilər Ağdam rayonunun ərazisindən ***900*** baş qoyun və çoxlu sayda mal-qara oğurlayırlar...

**11 sentyabr 1768-ci il** - Hüseyn xanla döyüşdə Fətəli xan qalib gəlir. Şəki xanına çatmış Şamaxı xanlığının ərazisi də Fətəli xanın hakimiyyəti altına keçir...

**11 sentyabr 1905-ci il** - Bibiheybətdə RSDFP Bakı Komitəsinin və Bakı bolşevik təşkilatı fəallarının rayonlararası yığıncağı keçirilir. Yığıncaq iştirakçıları həbs olunur...

**11 sentyabr 1918-ci il** - Andranik Ozanyan öz quldur dəstəsi ilə ***4*** müsəlman kəndini dağıdır, ***Arıqlı, Şükür, Məlikli, Pulkənd, Şəki, Qızılcıq*** kəndlərini yandırır; 500 nəfərədək müsəlman kişi, qadın və uşaq öldürülür...

**11 sentyabr 1990-cı il** - Erməni yaraqlıları Xocavənd rayonunun ***Əmirallar*** kəndinə hücum edərək kəndin sovet sədrini, onun 15 yaşlı oğlu ***Vüqarı,*** 14 yaşlı

*Həsi Əhmədovu*, eləcə də *Fatma Şahbazovanı, Əzizə Mehdiyevanı* yaralayırlar...

**11 sentyabr 1992-ci il** - Ağdam rayonunun Yuxarı Qarabağla həmsərhəd kəndləri erməni yaraqlıları tərəfindən müxtəlif növ silahlardan atəşə tutulur. Dağıntılar olur...

**12 sentyabr 1723-cü il** - Səfəvi imperatorluğu ilə Rusiya arasında ***Peterburq müqaviləsi*** *(Səfir İsmayıl bəy)* bağlanır. **Dərbənd, Bakı, Salyan, Lənkəran, Astarabad, Mazandaran, Gilan, Rəşt** və **Ənzəli** əraziləri Rusiyaya verilir. Xəzəryanı vilayətlər zorla Rusiyaya birləşdirilir...

**12 sentyabr 1795-ci il** - Ağa Məhəmməd xan Qacar *Tiflisi* tutaraq yandırır...

**12 sentyabr 1801-ci il** - İmperator I Aleksandrın Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında ***"Manifest"*** imzalaması nəticəsində Azərbaycanın ***Qazax, Şəmşəddil, Borçalı*** və ***Pəmbək*** əraziləri Rusiyaya qatılır...

**12 sentyabr 1803-cü il** - Şeyxəli xan Dərbənd şəhərini yenidən Quba xanlığına birləşdirir...

**12 sentyabr 1830-cu il** - Qafqaz dağlıları başçılarından biri olan Həmzət bəy *2000* nəfərlik qoşunu ilə ***Car-Balakən*** vilayətinə daxil olur...

**12 sentyabr 1918-ci il** - Andranikin rəhbərliyi ilə erməni terrorçuları Zəngəzurun ***Rut, Dərəbas, Ərikli, Şükür, Məlikli, İrlik, Rəhlili, Xotanan*** kəndlərinə basqın edərək kəndləri viran qoyurlar. *500* kişi, qadın, uşaq amansızlıqla qətlə yetirilir...

**12 sentyabr 1920-ci il** - ADR-ın silahlı müqavimətinə baxmayaraq, əksinqilabçı qüvvələr *(şah hökumət qoşunları)* Təbrizə hücum edir. ***Ala Qapı*** ələ keçirilir. Yüzlərlə adam qətlə yetirilir...

**13 sentyabr 1744-cü il** - Nadir şah ***Kirs*** qalasına şiddətli hücum edirsə də onu ala bilmir...

**13 sentyabr 1826-cı il** - Gəncədə, Nizami məqbərəsinin yaxınlığında ruslarla İran qoşunu arasında baş verən döyüşdə İran qoşunu məğlub olur. Bu məğlubiyyət müharibənin sonrakı taleyinə əhəmiyyətli təsir edir...

**13 sentyabr 1826-cı il** - Erməni mənşəli çar generalı *V.Mədətov* Şəmkirdə *2000* nəfər azərbaycanlı türkünün qətlinə *fərman* verir...

**13 sentyabr 1918-ci il** - Andranikin başçılığı ilə ermənilər tərəfindən Zəngəzurun ***Urud, Darabaş, Ağudi, Vağudi*** kəndləri darmadağın edilir; ***Arıklı, Şükər, Məliklər, Pirkənd, Şəki, Qızılcıq*** kəndlərinin, Qarakilsənin müsəlmanlar yaşayan hissəsi, ***İrəşcik, Pürülü, Kürdlər, Xotanan, Sisyan*** və ***Zabazadur*** kəndləri yandırılır. Yüzlərlə qadın, qoca, uşaq öldürülür (Azərbaycan Respublikası Dövlət Arxivində fond 894, siyahı 4, 65, vər.129-da saxlanan və mühafizə olunan sənəddə (Zəngəzur qəza rəisi Məlik Namazəliyevin ***12 sentyabr 1918-ci il*** tarixli 8 nömrəli raportu) də bu faktlar öz əksini tapıb)...

**13 sentyabr 1918-ci il** - Zəngəzurda *(Sisyanda) 50 000* azərbaycanlı Andranikin silahlı dəstələrinin hücumları ilə əlaqədar olaraq öz doğma ocaqlarını tərk etmək məcburiyyətində qalır. ***Canbuh*** və ***Xanar*** dərələrinin qənşərindəki ***Qarıqışlaq*** kəndinin yüzlərlə sakini qılıncdan keçirilir. ***Vağudi*** kəndinin qadın və uşaqlarına ağır işgəncələr verilir; Məscidə sığınmış *400* kənd sakinini od vurub yandırırlar. ***Bağırbəyli*** kəndində *7* kişi və qadın bir damın içində ermənilər tərəfindən diri-diri yandırılır, onların meyidləri eybəcər hala salınır...

**13 sentyabr 1988-ci il** - İrəvanda Sov.İKP MK-nın şöbə müdirinin müavini Q.Xarçenkonun iştirakı ilə geniş plenum keçirilir...

**13 sentyabr 1988-ci il** - *«Amerikanın səsi»* radiosunun Ermənistan redaksiyası ***«Qarabağ»*** komitəsinin Dağlıq Qarabağla Ermənistanı birləşdirmək planı haqqında məlumat verir. Həmin plana əsasən Qarabağ erməniləri çalışıb SSRİ tərkibindən çıxmalı, sonra Ermənistan SSR-in tərkibinə daxil olmaq şərti ilə yenidən SSRİ-nin tərkibinə daxil edilmələri təklifilə müraciət etməli idilər...

**13 sentyabr 1990-cı il** - Ağdam rayonuna pənah gətirmiş qaçqın *Mehbalı* və *Hümbət Əliyev* qardaşları ***95-46 AJQ*** nömrəli şəxsi maşınında Füzuli rayonuna gedərkən ***Pirağabulaq*** deyilən ərazi yaxınlığında erməni yaraqlılarının atəşinə məruz qalırlar. **Mehbalı Əliyev** ermənilər tərəfindən vəhşicəsinə öldürülür...

**13 sentyabr 1991-ci il** - Ağdam rayonuna pənah gətirmiş 1 nəfər azərbaycanlı qaçqın ermənilər tərəfindən *Ağdam-Xankəndi* avtomobil yolu yaxınlığında vəhşicəsinə qətlə yetirilir...

**13 sentyabr 1992-ci il** - Milli Qəhrəman **Rövşən Əbdülhüseyn oğlu Abdullayev** Zəngilan rayonunun ***Qazançı*** kəndi ərazilərində erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**14 sentyabr 1603-cü il** - I Şah Abbas ilə Osmanlılar arasında ***Sufyan döyüşü*** baş verir. Şah Abbas Azərbaycana yürüş edir...

**14 sentyabr 1829-cu il** - Türkiyənin Ədirnə şəhərində imzalanmış ***Ədirnə müqaviləsi*** 1828-1829-cu illər *Rusiya-Türkiyə* müharibəsinin başa çatmasını bildirir. Ədirnə sülhü Zaqafqaziyanın çox hissəsinin Rusiyaya birləşdirilməsini başa çatdırır. *Ədirnə müqaviləsi* ilə Osmanlı imperiyasının da ermənilərin yenicə işğal olunmuş Şimali Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilməyə

başlayır...

**14 sentyabr 1920-ci il** - Şah hökumətinin hücumu nəticəsində Təbriz üsyanı yatırılır. "Təcəddüd" qəzetinin binası dağıdılır. Üsyançılara amansız divan tutulur. Çoxlu sayda adamlar qətlə yetirilir. Milli hökumətin rəhbəri **Şeyx Məhəmməd Hacı Əbdülhəmid oğlu Xiyabani** vəhşicəsinə öldürülür. Şeyxin **300** nəfərdən çox tərəfdarı tutularaq həbs edilir...

**14 sentyabr 1990-cı il** - Cinli və Gülablı kəndləri ermənilər tərəfindən aramsız atəşə tutulur...

**14 sentyabr 1990-cı il** - Xocalıdan Ağdama doğru hərəkət edən avtomaşın və onun içərisindəki azərbaycanlılar Əsgəran yaxınlığında ermənilər tərəfindən güclü daşqalaq edilir. 7 nəfər yaralanır...

**14 sentyabr 1991-ci il** - Goranboy rayonunun ***Buzluq, Baş Qışlaq*** və ***Mənəşli*** kəndləri ermənilər tərəfindən müxtəlif növ silahlardan atəşə tutulur. Bəzi kəndlərə hücum edilir. Nəticədə **14** nəfər azərbaycanlı (**4** polis əməkdaşı, **10** mülki şəxs) həlak olur, **4** nəfər (**3** polis əməkdaşı, **1** nəfər mülki şəxs) yaralanır, **3** polis nəfəri itkin düşür. **Buzluq, Mənəşli, Erkəc** kəndləri düşmən əlinə keçir...

**14 sentyabr 1991-ci il** - Milli Qəhrəman **Yusif Əliyusif oğlu Əliyev** Goranboy rayonunun ***Buzluq*** kəndi ərazisində erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**14 sentyabr 1991-ci il** - Xocavənd rayonunun ***Zamzur*** kəndi ətrafında Cəbrayıl rayon PŞ-nin UAZ-469 markalı avtomaşını ermənilərin basdırdıqları minaya düşərək partladılır. **2** polis əməkdaşı (Zamzur polis bölməsinin rəisi **Zahid Əhmədov** və sürücü **Əsgər Veysəlov**) həlak olur...

**14 sentyabr 1992-ci il** - Cəbrayıl rayonunun ***Quşçular, Qışlaq, Süleymanlı*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar olur...

**14 sentyabr 1992-ci il** - Milli Qəhrəman **Ənvər Səyyad oğlu Fərəcov** erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**14 sentyabr 1993-cü il** - Cəbrayıl rayonunun ***Xələfli*** kənd sakini, *11* yaşlı **İsa Musa oğlu Hüseynov** Füzuli rayonunun Bəhmənli kəndi ərazisində erməni terrorçularının atdıqları mərmi atəşinə tuş gələrək elə yerindəcə dünyasını dəyişir...

**14 sentyabr 2004-cü il** - AŞPA-nın Qarabağ münaqişəsi üzrə məruzəçisi Terri Devisin yazılı hesabatı AŞPA-nın Siyasi Komitəsinin müzakirəsinə çıxarılır...

**15 sentyabr 1814-cü il** - Qüvvəyə minən ***"Gülüstan"*** müqaviləsinə görə Azərbaycanın *7* xanlığının ***(Qarabağ, Quba, Şəki, Şirvan, Gəncə, Bakı, Lənkəran)*** ərazisi, eləcə də ***Şərqi Gürcüstan*** və ***Dağıstan (Dərbənd xanlığı)*** əraziləri də Rusiyanın himayəsinə keçir. ***"Gülüstan müqaviləsi"*** Azərbaycanın parçalanmasının





əsasını qoyur. Azərbaycan xalqı *2* yerə bölünür...

**15 sentyabr 1918-ci il** - Qafqaz İslam Ordusunun və Azərbaycanın hərbi hissələri ***Qurban bayramı*** günlərində birlikdə Bakıya daxil olurlar. Bakı uğrundakı döyüşlərdə ***1.000*** nəfərdən çox türk əsgər və zabiti, ***5.000*** nəfərdən çox yerli əhali şəhid olur...

**15 sentyabr 1989-cu il** - Qərbi Azərbaycanda, ulu ***Ağbabada, Yeniyol*** kənd sakini, çoban **Bəkir Binnət oğlu Hüseynov** ermənilər tərəfindən su hovuzunda boğularaq öldürülür...

**15 sentyabr 1989-cu il** - Gorus rayonunun ***Ağbulaq*** kənd sakini **Bərxudar Əsgərov** öz toy günündə evinə dönərkən erməni quldur yaraqlısı tərəfindən namərdcəsinə qətlə yetirilir...

**15 sentyabr 1989-cu il** - Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV Xüsusi İdarə Komitəsinin ləğv olunması üzrə müvafiq qərar qəbul edilməsi üçün SSRİ Ali Sovetinin Rəyasət Heyəti qarşısında vəsatət qaldırılması barədə qərar qəbul olunur...

**15 sentyabr 1990-cı il** - Bir dəstə erməni terrorçusu DQMV-nin ***Xankəndi*** şəhərində radioteleviziya mərkəzini partladır...

**15 sentyabr 1991-ci il** - Erməni quldur birləşmələri artilleriyanın və ***ZTR***-lərin köməyi ilə ***Goranboy*** rayonunda azərbaycanlılar yaşayan bir neçə kəndə hücum edirlər. Dinc əhali arasında ölənlər və yaralananlar olur...

**15 sentyabr 1993-cü il** - Azərbaycanın ***Qazax*** rayonu Ermənistanın İcevan rayonu tərəfdən güclü artilleriya atəşinə tutulur. Ölənlər, yaralananlar və dağıntılar olur...

**16 sentyabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə tərkibində xeyli azərbaycanlı olan ***427*** nəfər güllələnir...

**16 sentyabr 1938-ci il** - Azərbaycan SSR XDİK DT baş mayoru ***Rayevin*** əmri ilə *7* nəfər güllələnir...

**16 sentyabr 1989-cu il** - *"Tbilisi-Bakı"* marşrutu ilə hərəkət edən sərnişin avtobusu ermənilər tərəfindən partladılır. **5** nəfər ( o cümlədən **2** qadın və **5** yaşlı Azər Musayev) həlak olur, *27* nəfər yaralanır...

**16 sentyabr 1989-cu il** - Xəzər dənizinin Bakıya yaxın sahəsində **zəlzələ** baş verir...

**16 sentyabr 1991-ci il** - Dağlıq Qarabağın sərhəd kəndlərində atışma zamanı kalaşnikov avtomatının patronları ələ keçirilir. Təəccüblü odur ki, ələ keçən gizlilərin üzərindəki nömrələr ərəb rəqəmləri ilə yazılmışdır...

**16 sentyabr 1991-ci il** - Goranboy rayonunun *Şəfəq* və *Zeyvə* kəndlərinə ermənilər tərəfindən basqın edilir. 1 nəfər azərbaycanlı ağır yaralanır...

**16 sentyabr 1993-cü il** - Erməni tərəfi Azərbaycanın bütün dövlət sərhəddi boyunca hücum hərəkətlərini gücləndirərək ***Tovuz, Gədəbəy, Zəngilan*** və ***Sədərək*** *(Naxçıvan MR)* rayonlarında ordumuzun mövqelərini yarmağa can atır...

**17 sentyabr 1429-cu il** - Qaraqoyunlu İsgəndər ilə Şahruxun orduları arasında Səlmasda 40 saatlıq döyüş olur. **İsgəndər** məğlub olur. ***Şahrux*** isə qışlamaq üçün Qarabağa gəlir...

**17 sentyabr 1944-cü il** - Azərbaycanın igid oğlu, Sovet İttifaqı Qəhrəmanı *(ölümündən sonra, 24.03.1945),* baş serjant **Məhərrəm Əkbər oğlu Dadaşov** Çexiya ərazisində döyüşdə həlak olur...

**17 sentyabr 1991-ci il** - Hadrut *(Xocavənd)* rayonunun ***Günəşli*** kəndi yaxınlığındakı meşədə pusquda dayanmış erməni saqqallıları odlu silahla çoban F.Rüstəmovu yaralayırlar...

**17 sentyabr 1991-ci il** - Yerevan şəhərində **«Millətlərarası münaqişələrin tənzimlənməsinin hüquqi, siyasi və mənəvi aspektləri»** adlı Beynəlxalq Konqres keçirilir. Konqresin ***«Dağlıq Qarabağ Respublikası»***nın tanınmasına dair Qətnaməsində göstərilir ki, *«Dağlıq Qarabağ Respublikası»*nın elan edilməsi beynəlxalq hüquqi aktlarla əks olunmuş *«xalqın öz müqəddəratını təyinetməsi»* hüququna əsaslanır...

**17 sentyabr 1991-ci il** - Goranboy rayonunun ***Şəfəq*** kəndi ərazisində MAZ markalı avtomaşın ermənilər tərəfindən atəşə tutulur. Sürücü aldığı yaradan yerindəcə həlak olur...

**18 sentyabr 1731-ci il** - Səfəvilər Osmanlılarla döyüşdə ***Həmədanı*** itirir...

**18 sentyabr 1894-cü il** - Erməni terrorizminin ideoloqları ***"Hnçak"*** terror təşkilatının əli ilə İstambulda müsəlmanlara qarşı qanlı küçə qırğını təşkil edirlər. Az sonra ermənilər ***Ağ Hisarda*** türkləri, azərbaycanlıları və kürdləri qırıbçatırlar. Öldürülənlər arasında saysız-hesabsız qadınlar, qocalar və uşaqlar olur...

**18 sentyabr 1923-cü il** - Vilayət Partiya Komitəsinin qərarı ilə ***Xankəndi*** şəhərinin adı Stepan Şaumyanın şərəfinə ***Stepanakert*** adı ilə əvəz olunur...

**18 sentyabr 1942-ci il** - Azərbaycanın azadfikirli gəncləri - ***İsgəndərli Süleyman Əli Abbas oğlu, Tağıyev Ələsgər Səttar oğlu, Mustafayev Çingiz Seyfulla oğlu, Rzayev Məmmədhüseyn Həbib oğlu, Ağayev Hüseynağa Mirqasım oğlu,***





***Məmmədov Ağa Ələsgər Rza oğlu, Rzayev Saleh Əbdülhüseyn oğlu, Mehdiyev Zaman Zeynal oğlu*** həbs olunurlar. ***"İldırım"*** adlı təşkilatın üzvləri olan bu gəncləri erməni əsilli müstəntiq Aruşanov və onun həmfikirləri istintaq edirlər...

**18 sentyabr 1988-ci il** - Minlərlə erməni yaraqlısı Xocalıya və Kərkicahana hücum edirlər. 1 nəfər qətlə yetirilir, *25* nəfər yaralanır...

**18 sentyabr 1988-ci il** - Xankəndində *70* azərbaycanlı evi ermənilər tərəfindən yandırılır. Yüzlərlə azərbaycanlı şəhəri tərk etmək məcburiyyətində qalır. Azərbaycanlıların ermənilər tərəfindən silah gücünə, zor ilə Xankəndindən ***(Stepanakertdən)*** çıxarılmasına başlanılır...

**18 sentyabr 1989-cu il** - Ağdam rayonunun *Qiyaslı* kəndi ərazisinə basqın edən erməni yaraqlıları *2* nəfər dinc sakini qətlə yetirir; ***4*** nəfər isə güllə yarası alır...

**18 sentyabr 1989-cu il** - Ağdam rayonunun *Qiyaslı* kəndi yaxınlığında, saat 1630-da hərbi qulluqçular və erməni yaraqlıları nizamnamənin ziddinə olaraq heç bir xəbərdarlıq etmədən silahsız və günahsız azərbaycanlıları - ***Z.Abdullayevi, K.Axundovu, A.İsmayılovu*** və daha bir nəfəri güllə ilə ağır yaralayırlar. Yaralılar Ağdam şəhər xəstəxanasına gətirilir...

**18 sentyabr 1990-cı il** - Xankəndində *(Stepanakertdə)* fəaliyyət göstərən Respublika Təşkilat Komitəsinin fəaliyyətini dayandırmaq üçün ermənilər gündüz mitinq keçirərək, qışqırıb *«Doloy, musulmane!», «Doloy turki!», «Orq-komitet, von iz Karabaxa !»* şüarlarını səsləndirirlər...

**18 sentyabr 1992-ci il** - Milli Qəhrəman **Səxavət Ələmdar oğlu Məhərrəmov** Ağdərə ərazisində, ***Mehrataq*** kəndində erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**18 sentyabr 1992-ci il** - Ağdamın Yuxarı Qarabağla həmsərhəd kəndləri iri çaplı pulemyotlardan atəşə tutulur...

**18 sentyabr 1992-ci il** - **Əbülfəz Bəbir oğlu İmanov, Əbdül Qəhrəman oğlu Mahmudov, Mahmud Zeynalabdin oğlu Zeynalov, Sabit Vaqif oğlu Səfərov** Sədərək döyüşlərində şəhid olurlar. **Ruhiyyə Abdulla qızı Usubova** kənd müdafiəçilərinə çörək yaparkən təndir başında düşmən mərmisindən həlak olur...

**18 sentyabr 1992-ci il** - Laçın dəhlizinin şimal hissəsinə doğru, 3-cü dağ-atıcı alayın hissələri paraşüt-desant dəstəsinin dəstəyi ilə ***Şuşa*** və eləcə də ***Xocavənd*** rayonu istiqamətində hücumlar olunur...

**19 sentyabr 1395-ci il** - Dövrünün görkəmli şəxsiyyəti, alim, şair, xəttat, filosof ***Şah Sultan Əhməd Cəlayiri*** Təbriz yaxınlığında Qara Yusif ilə döyüşdə tutularaq amansızlıqla öldürülür...

**19 sentyabr 1907-ci il** - Neft sənayeçilərinin muzdlu nökərləri *"Naftalan"* cəmiyyəti fəhlələrinin müvəffəqiyyətlə qurtaran tətilinin təşkilatçısı RSDFP Bibiheybət RK-nin və *"Hümmət"* SDQİB-nin üzvü **Xanlar Səfərəliyevi** arxadan *(mədən müdiri Abuzərbəyin təhriki ilə Cəfər adlı bir buruq ustası tərəfindən)* atılmış güllə ilə ölümcül yaralayırlar...

**19 sentyabr 1918-ci il** - Zəngəzurun ***Bağırbəyli*** kəndinə hücum edən erməni daşnaqları kəndi tamam dağıdırlar. Ələ keçən *7* nəfər dinc sakin bir evə doldurularaq diri-diri yandırılır...

**19 sentyabr 1918-ci il** - Zəngəzurun ***Məlikli*** kəndində yuva qurmuş daşnaq terrorçuları ***Əngəvəlit*** güneyi adlanan yerdə Dərələyəzdəki yaylaq yurdlarından arana qayıdan Mərcanlı elatının köçünə basqın edir. Səməd Allahverdi oğlu, Ağahəsən Fərzalı oğlu və başqa yaylaqçılar da daxil olmaqla *7* nəfər günahsız azərbaycanlı quduzlaşmış erməni yaraqlıları tərəfindən qətlə yetirilir...

**19 sentyabr 1919-cu il** - Erməni silahlıları Cəbrayıl qəzasının ***Əfəndilər*** kəndi ərazisində amansız terror aktı törədərək *3* çobanı öldürürlər. Onlar çobanlardan birinin başını kəsirlər. Sonra ermənilər bütün mal-qaranı oğurlayıb aparırlar...

**19 sentyabr 1919-cu il** - I piyada alayının çavuşu ***Qaraşarovun*** raportuna görə, Cəbrayıl rayonu kəndlərindən birinin yaxınlığında erməni quldurlar *3* çobanı öldürürlər. Onlardan birinin başı kəsilir. Azərbaycanlılara məxsus bütün mal-qara oğurlanıb aparılır...

**19 sentyabr 1938-ci il** - Azərbaycan SSR XDİK DT baş mayoru ***Rayevin*** əmri ilə *3* nəfər güllələnir...

**19 sentyabr 1988-ci il** - Ermənilər tərəfindən *Xankəndi* - Ağdam şose yolu ilə hərəkət edən azərbaycanlılara məxsus avtomaşınlar daş-qalaq edilir...

**19 sentyabr 1988-ci il** - Ermənilər tərəfindən ***Stepanakert (Xankəndi)*** şəhərində *44* azərbaycanlı evi yandırılaraq külə döndərilir...

**19 sentyabr 1989-cu il** - Azərbaycan SSR AS-nin növbədənkənar XI Çağırış 10-cu sessiyasında DQMV-da vəziyyət müzakirə olunur...

**19 sentyabr 1992-ci il** - Milli Qəhrəman Oqtay Güləli oğlu Güləliyev Laçın rayonunun Hoçaz kəndi yaxınlığında erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**19 sentyabr 1997-ci il** - ATƏT-in Minsk qrupu *"Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında"* ikinci sənədi tərəflərə təklif edir...

**20 sentyabr 1123-cü il** - Sultan Mahmud qardaşları ***Toğrul*** və ***Məsud*** ilə münasibətləri yoluna qoymaqda ikən gürcülər Şirvana hücum edirlər. Şirvan başdan-başa dağıdılır...





**20 sentyabr 1827-ci il** - Ruslarla iranlılar arasında ***Sərdarabad döyüşü*** baş verir. Sərdarabad qalası ruslar tərəfindən işğal olunur...

**20 sentyabr 1918-ci il** - Andranikin silahlı dəstələri Zəngəzur qəzasındakı ***Rut, Darabas, Ağudi, Vağudi*** kəndlərini dağıdaraq ***Arıqlı, Şükür, Məlikli, Pulkənd, Şəki, Qızılcıq, İrlik, Rəhlili, Kürdlər, Xotapan, Sisyan, Zabazadur*** kəndlərini yandırır; *500*-dən çox kişi, qadın və uşaq öldürülür...

**20 sentyabr 1918 -ci il** - Bakı komissarları ***Ağcaqum*** çölündə güllələnirlər...

**20 sentyabr 1920-ci il** - Təbrizdə ingilis imperialistləri və şah istibdadı əleyhinə 7 apreldə M.Xiyabaninin rəhbərliyi altında başlanan üsyan yatırılır. **M.Xiyabani** öldürülür...

**20 sentyabr 1944-cü il** - Gürcüstan SSR-in Türkiyə ilə sərhəd rayonları olan Adıgey, Axalsix, Axalkələk, Aspindz, Boqolokovski və Acariya MSSR-dən **15.568** ailədən ibarət **69.869** nəfər *( o cümlədən, minlərlə azərbaycanlı)* Orta Asiya Respublikalarına sürgün edilir...

**20 sentyabr 1988-ci il** - SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Stepanakertdə *(Xankəndi)* xüsusi vəziyyət elan olunur və qadağan saatı qoyulur...

**20 sentyabr 1991-ci il** - Ağdam rayonunun ***Abdal kəndi*** ermənilər tərəfdən güclü atəşə məruz qalır. Dağıntılar olur...

**20 sentyabr 1991-ci il** - Goranboy rayonunun ***Todan*** kəndi yaxınlığındakı döyüşdə *1* nəfər yaralanır, *2* milis işçisi itkin düşür...

**20 sentyabr 2001-ci il** - Erməni daşnaq faşizminin yetirməsi olan Hacı Maqamedovun terror qrupu ***Katex kəndi*** ərazisində yerləşən yol polis məntəqəsinə basqın edir. *1* nəfər azərbaycanlı mülki şəxs qətlə yetirilir; *1* nəfər isə yaralanır...

**21 sentyabr 1826-cı il** - Məşhur partizan, general-mayor ***Denis Davıdovun*** süvari dəstəsi ***Mirak*** yanındakı *(Naxçıvan yaxınlığında)* döyüşdə İran qoşunlarını yeni bir məğlubiyyətə uğradır...

**21 sentyabr 1921-ci il** - Sovet qüvvələri ***Qaradonlu*** *(İmişli)* yaşayış məntəqəsində və onun ətrafında üsyan edənlərə qarşı hücum edir. Kəndlilərin birləşmiş silahlı dəstələrinə ***Sarıxan*** rəhbərlik edir. Qəza rəisi tərəfindən gərgin vəziyyət nəzərə alınaraq XI Ordu qüvvələrinin göndərilməsi tələb olunur. Sovet hakimiyyətinə qarşı baş verən bu hadisələrdə yerli adamlardan xeyli ölən və yaralananlar olur...

**21 sentyabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə ***42*** nəfər güllələnir...

**21 sentyabr 1988-ci il** - Azərbaycan hökumətinin rəsmi nümayəndələri Həsən

Həsənovun başçılığı ilə Xocalıya gəlir. Görüşlər zamanı bir sıra fikir ayrılıqları olur...

**21 sentyabr 1988-ci il** - Xankəndində azərbaycanlılar yaşayan evlər ermənilər tərəfindən yenidən yandırılır, adamlar döyülərək Şuşaya qovulurlar...

**21 sentyabr 1988-ci il** - Dağlıq Qarabağ və Ağdam rayonunun ərazilərində *xüsusi vəziyyət* elan olunur...

**21 sentyabr 1989-cu il** - Xankəndində yaşayan azərbaycanlılar ermənilər tərəfindən döyülərək şəhərdən tamam qovulurlar. Bu hadisə Bakıda və Gəncədə vəziyyəti gərginləşdirir...

**21 sentyabr 1991-ci il** - Ermənistan Respublikası xalq referendumu keçirir. Bununla da Ermənistan Respublikası *23 avqust 1990-cı il* tarixli ***"Müstəqillik Bəyannaməsi"***nin özünə aid hissəsini bir daha təsdiq etmiş olur...

**21 sentyabr 1991-ci il** - Goranboy rayonunun ***Todan*** kəndinin sakini erməni terrorçusu tərəfindən atılan güllə nəticəsində ağır yaralanır...

**21 sentyabr 1991-ci il** - B.Yeltsin, N.Nazarbayev, A.Mütəllibov Gəncədə ictimaiyyətin nümayəndələri ilə görüşürlər...

**21 sentyabr 1992-ci il** - Keçmiş Ağdərə rayonunun ***Qırmızıkənd*** və ***Çıldıran*** kəndləri uğrunda gedən döyüşlərdə ***"Tərtər"*** özünümüdafiə batalyonunun igid əsgərləri **Tofiq Zakir oğlu Quliyev, Vüqar Mədət oğlu Hətəmi** həlak olurlar...

**21 sentyabr 1993-cü il** - Tovuz və Ordubad rayonlarının kəndləri ermənilər tərəfdən müxtəlif növ silahlardan atəşə tutulur...

**21 sentyabr 2003-cü il** - Roma Papası Ermənistana gəlir. O, Qarabağın işğalı zamanı həlak olan ermənilərin məzarını ziyarət edir...

**22 sentyabr 1930-cu il** - Antisovet təbliğatlarına görə Fövqəladə Üçlüyün qərarı ilə Naxçıvanın ***Keçili*** kənd sakinləri - **Məmmədəli Cəfərəli oğlu, Salan İsmayıl oğlu, Şahsuvar Kərim oğlu, Eyvaz Kərim oğlu, Məmmədəli Məmmədhüseyn oğlu, Ələkbər Məmi oğlu, Müslüm Gülməli oğlu,** Şahbuz sakinləri - **Məmmədhüseyn Mazan oğlu, Paşan Hüzeynəli oğlu** (Kükü kəndi), **Xəlil İbrahim oğlu, Bayram Əli oğlu, Məmmədhəsən Nəsir oğlu** (Biçənək kəndi) əmlakları müsadirə edilməklə güllələnirlər. Ümumiyyətlə, üçlüyün qərarı ilə azərbaycanlılardan ***Keçili*** kəndindən **10** nəfər, ***Kükü*** kəndindən **5** nəfər, ***Biçənək*** kəndindən **4** nəfər, ***Ərəfsə*** kəndindən **9** nəfər, ***Ləkətağ*** kəndindən **3** nəfər, ***Nahacir*** kəndindən **12** nəfər, ***Göynük*** kəndindən **6** nəfər, ***Dizə*** kəndindən **1** nəfər, ***Teyvaz*** kəndindən **1** nəfər güllələnmə cəzasına məhkum edilir...

**22 sentyabr 1988-ci il** - İrəvan, Leninakan, Abovyan, Eçmiədzin və digər şəhərlərdə Qarabağın Ermənistana birləşdirilməsi, azərbaycanlıların Ermənistandan çıxarılması tələbləri ilə ***kütləvi tətillər, mitinqlər*** keçirilir...





**22 sentyabr 1988-ci il** - DQMV-nın mərkəzi Xankəndində erməni ekstremistləri yerli milisin köməyi ilə ***44*** azərbaycanlılar yaşayan evi dağıdıb yandırırlar. Onlar bu yolla azərbaycanlıların buradan zor ilə çıxarılmasını təşkil edirlər...

**22 sentyabr 1990-cı il** - Xankəndində komendant saatı tətbiq edilir...

**22 sentyabr 1991-ci il** - B.Yeltsin, N.Nazarbayev, A.Mütəllibov hərbi vertolyotlarla Xankəndi *(Stepanakert)* şəhərinə yola düşürlər...

22 sentyabr 1992-ci il - Cəbrayıl rayonu ərazisində, ***Şişqaya*** yüksəkliyi istiqamətində əməliyyat keçirilir...

**23 sentyabr 1722-ci il** - Əfqan tayfaları Mir Mahmud xanın başçılığı ilə üsyan qaldıraraq ***İsfahanı*** ələ keçirir...

**23 sentyabr 1918-ci il** - Andranikin quldur dəstəsi ***Tat*** kəndinə soxularaq kəndi viran edirlər. Əhalinin bir hissəsi böyük kahalara doldurularaq ağzında gərmədən ocaq çatılır. Əhali tüstüdə boğdurularaq odda yandırılır. Girov götürülənlərin başları daşların üstünə qoyularaq gürzlərlə əzilir. Cəsədlər ***Zabux*** çayına atılır. Qadın və qızların saçlarından kəsilərək özlərinə çatı toxudulur; sonra isə onlar işgəncələr verilərək çılpaq halda həmin çatılar vasitəsilə ağaclardan asılır...

**23 sentyabr 1930-cu il** - Fövqəladə Üslüyün qərarı ilə antisovet fəaliyyətlərinə görə Şahbuz sakinləri *Səfi İsmayıl oğlu, Novruzəli Məmmədqulu oğlu* (Kükü kəndi), Naxçıvanın Biçənək kənd sakinləri *Əli Qurban oğlu Qurbanov, Novruz Məmiş oğlu Babayev, Zülfüqar Dünyamalı oğlu Əsgərov, İmamqulu Dünyamalı oğlu Məmmədəliyev* güllələnmə cəzasına layiq görülürlər...

**23 sentyabr 1988-ci il** - DQMV və ***Ağdam*** rayonunda ***xüsusi vəziyyət*** və ***qadağan saatı*** tətbiq edildikdən sonra azərbaycanlılardan soyuq silahlar da müsadirə olunur...

**23 sentyabr 1988 -ci il** - DQMV-nın mərkəzi olan ***Xankəndi*** şəhərində azərbaycanlılara qarşı erməni ixtişaşları davam edir. Daha **30** ev də yandırılaraq dağıdılır...

**23 sentyabr 1991-ci il** - Erməni terrorçuları tərəfindən *Ağbulaq (Əsgəran rayonu)* kəndinə doğru istiqamətlənən azərbaycanlı milis işçilərini aparan maşın atəşə tutulur. Sürücü qətlə yetirilir, bir nəfər milis işçisi ağır yaralanır...

**23 sentyabr 1991-ci il** - Goranboy rayonunun ***Todan*** kəndindəki milis postu atəşə tutulur; 1 nəfər yaralanır...

**23 sentyabr 1991-ci il** - Erməni terrorçuları tərəfindən *Yevlax-Laçın* yolunda içərisində azərbaycanlılar olan avtomaşın partladılır. **2** nəfər həlak olur, **14** nəfər

yaralanır...

**23 sentyabr 1992-ci il** - Cəbrayıl istiqamətindəki ***"Şişqaya"*** döyüş əməliyyatı hava şəraiti ilə əlaqədar olaraq dayandırılır. 2 nəfər yaralanır...

**23 sentyabr 1992-ci il** - Ağdam rayonunun ***Abdal*** və ***Gülablı*** kəndlərini azad etmək məqsədi ilə döyüş əməliyyatı keçirilir...

**23 sentyabr 2005-ci il** - Ermənistanın müstəqilliyi günü münasibətilə Yerevana dəvət olunmuş qondarma *"Dnestryanı Respublika"*nın, Cənubi Osetiyanın, Abxaziyanın *(Moskvadakı ofisin nümayəndəsi)*, Qarabağın yüksək rütbəli təmsilçiləri ***"MDB-2"***nin ***"Təhlükəsizlik qurumu"*** deyilən hərbi sazişə imza atır. Qondarma *"respublikalar"*ın generallarının imzaladıqları bu sazişdə bir-birinə si-lahlı dəstələrin göndərilməsi, hərbi qarşıdurmalarda iştirakı... və s. barədə xüsusi bəndlər özünə yer alır...

**24 sentyabr 1907-ci il** - *"Naftalan"* şirkətinin çilingəri ***Xanlar Səfərəliyevin*** öldürülməsinə qarşı ümumi etiraz tətili keçirilir...

**24 sentyabr 1991-ci il** - Xocalı yaşayış məntəqəsi iriçaplı pulemyotlardan və müxtəlif tipli raketlərdən atəşə tutulur, dağıntılar olur...

**24 sentyabr 1991-ci il** - Erməni silahlı dəstələri 366-cı alayın hərbi texnikasının köməyi ilə **İmarət Qərvənd** kəndinə basqın edərək, kəndi xarabalığa çevirir. **1** nəfər kənd sakini yandırılaraq qətlə yetirilir. Kənd yerlə yeksan olunur. **1.200** nəfər kənd sakini meşələrə qaçmaq məcburiyyətində qalır...

**24 sentyabr 1991-ci il** - Milli Qəhrəman **Fazil Umud oğlu Mehdiyev** Əsgəran *(Xocalı)* rayonunun ***Ağbulaq*** kəndi ərazisində erməni yaraqlıları ilə atışmada həlak olur. ***Qarayev*** soyadlı bir nəfər polis əməkdaşı isə ağır yaralanır...

**24 sentyabr 1991-ci il** - Ağdam rayonunun ***Gülablı*** kəndi yaxınlığında *"UAZ-469"* markalı avtomaşın ermənilər tərəfindən atəşə tutulur. *1* nəfər həlak olur, *1* nəfər yaralanır...

**24 sentyabr 1992-ci il** - Fərrux kəndi və Daşbaşı yüksəkliyi azad olunur. İtkilər olur...

**24 sentyabr 1992-ci il** - *"Tərtər"* batalyonunun könüllü igid əsgərləri ***Oruc Umud oğlu Qaytaranov*** və ***Elnur Rəcəb oğlu Muradov*** keçmiş Ağdərə rayonunun Çıldıran kəndi uğrunda gedən döyüşlərdə şəhid olurlar...

**24 sentyabr 1993-cü il** - Azərbaycan Respublikası *MDB*-yə daxil olur...

**25 sentyabr 1908-ci il** - İrtica qüvvələri tərəfindən ***Təbriz*** üzərinə *2* gün davam edən hücum başlanır. İtkilər olur...





**25 sentyabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə ***96*** nəfər güllələnir...

**25 sentyabr 1988-ci il** - DQMV-də və Ağdam rayonunda asayişi qorumaq üçün mühafizə orqanları ***"müəyyən tədbirlər"*** görür...

**25 sentyabr 1991-ci il** - Milli Qəhrəman **Sərdar Mədət oğlu Səfərov** Əsgəran rayonu ərazisində erməni yaraqlıları tərəfindən amansızlıqla qətlə yetirilir...

**25 sentyabr 1991-ci il** - Ağdamdan Xocalıya fəhlə gətirən avtobus Əsgəranda ermənilər tərəfindən aşırılır. Sürücü və sərnişinlər döyülərək yaralanır...

**25 sentyabr 1991-ci il** - Kərkicahan qəsəbəsinin *(Xankəndinin yaxınlığında)* daşnaq erməni terrorçuları tərəfindən atəşə tutulması nəticəsində *1* nəfər azərbaycanlı həlak olur, *7* nəfər isə ağır yaralanır...

**25 sentyabr 1992-ci il** - Ağdam rayonunun ***Abdal*** və ***Gülablı*** kəndlərini azad etmək istəyən qüvvələr geri çəkilir...

**25 sentyabr 1992-ci il** - Xanabad kəndi uğrunda döyüşlər davam edir. İtkilər olur...

**25 sentyabr 1992-ci il** - Erməni silahlıları ***Qazax*** rayonunun ***Fərəhli*** kəndinə hücum edirlər. Kənd sakini **Sayad Allahverdiyev** qətlə yetirilir...

**25 sentyabr 1992-ci il** - Keçmiş Ağdərə rayonunun ***Çıldıran*** kəndi uğrunda gedən qanlı döyüşdə əslən füzulili olan Yasamal rayon sakini, igid komandir **Rahib Vahid oğlu Tağıyev** faciəli şəkildə həlak olur...

**25 sentyabr 2000-ci il** - Roma papası II İohan Ermənistanda olur. Qondarma ***"Dağlıq Qarabağ respublikası"***nın başçısı ***Arkadi Qukasyana*** ordunun *"İnternet"* şəbəkəsindən geniş istifadəsini tövsiyə edir...

**26 sentyabr 1618-ci il** - Mərənddə ***Səfəvi-Osmanlı*** sülhü imzalanır...

**26 sentyabr 1666-cı il** - Dövrünün görkəmli şəxsiyyəti **Sani Şah Səfi Səfəvi oğlu II Şah Abbas** Damqanın Xosrovabad qəsəbəsində 35 yaşında öldürülür...

**26 sentyabr 1827-ci il** - İrəvanın ruslar tərəfindən mühasirəsi başlayır...

**26 sentyabr 1905-ci il** - Erməni daşnaqları ***Cavanşir*** qəzasında ixtişaş törədərək **Əsəd** adlı bir müsəlmanı öldürürlər...

**26 sentyabr 1921-ci il** - Azərbaycan K(b) P MK-nin siyasi və təşkilat bürosu yenidən ***«Qarabağ işi»*** deyilən məsələni müzakirə edərək qərar qəbul edir: *«Qafqaz bürosundan xahiş edilsin ki, Dağlıq Qarabağın ayrılması haqqında qərarına yenidən baxsın, hələlik müxtariyyət elan olunmasın»...*

**26 sentyabr 1930-cu il** - Naxçıvanın Ərəfsə kənd sakinləri - **Molla Haşım Əlməmməd, Şahvələd Əbdülhəsən oğlu, Aslan Məmməd oğlu, Kərbəlayi Rəhim Qafarəli oğlu, Kərbəlayi Nəcəfqulu Abbasqulu oğlu** Fövqəladə Üçlüyün qərarı

ilə antisovet fəaliyyətinə görə güllələnirlər...

**26 sentyabr 1988-ci il** - *Yevlax-Laçın* avtomobil yolunda avtomaşın ermənilər tərəfindən partladılır; **2** nəfər həlak olur, **14** nəfər yaralanır...

**26 sentyabr 1989-cu il** - Ağbulaq kəndində öz toyundan sonra evə qayıdan *23* yaşlı **Barxudar Əsgərov** erməni terrorçusu tərəfindən qətlə yetirilir...

**26 sentyabr 1991-ci il** - Xocalı polis şöbəsinin cəsur əməkdaşları **Əli Vəliyev** və **Natiq Əhmədov** ermənilərin *"sarı BTR"* adlandırdıqları Əliyə məxsus olan *72-07 AQS* nömrə nişanlı ***"VAZ-2106"*** markalı *"Jiquli"* minik avtomobilində **Əsgəran** rayonunun çıxacağındakı kiçik elektrik yarımstansiyasının yaxınlığında ermənilər tərəfindən amansızcasına qətlə yetirilirlər. Avtomaşına baxış keçirilərkən *57* güllə yeri aşkar edilir...

**26 sentyabr 1991-ci il** - *Yevlax-Laçın* yolunda erməni terrorçuları tərəfindən azərbaycanlılara məxsus avtomaşın partladılır. *2* nəfər həlak olur, *14* nəfər yaralanır...

**26 sentyabr 1991-ci il** - Şuşa şəhəri ***Topxana, Daşaltı*** və ***Şuşikənd*** istiqamətlərindən ermənilərin raket atəşinə məruz qalır...

**26 sentyabr 1991-ci il** - Erməni terrorçuları ***Şuşa*** şəhərini raket atəşinə tuturlar. Şəhər sakini **Füzuli Fərhadov** həlak olur; *9* nəfər dinc sakin ağır yaralanır...

**27 sentyabr 1534-cü il** - Sultan I Süleyman Azərbaycanda səfəvilərin ciddi müqavimətinə rast gəlsə də tezliklə Təbrizi ələ keçirir...

**27 sentyabr 1905-ci il** - Peterburqda neft sənayeçilərinin müşavirəsi keçirilir...

**27 sentyabr 1917-ci il** - Bakıda ümumi tətil elan olunur...

**27 sentyabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə *16* nəfər güllələnir...

**27 sentyabr 1991-ci il** - Ermənilər Şuşanı Topxanadan güclü atəşə tuturlar və ardınca şəhər ətrafına həmlə edirlər. *1* nəfər *(Şuşa şəhər sakini- Füzuli Fərhadov)* həlak olur; *9* nəfər yaralanır, *1* nəfər girov düşür...

**27 sentyabr 1992-ci il** - Füzuli və Cəbrayıl rayonlarında ***"Fövqəladə vəziyyət rejimi müddətinin uzadılması haqqında"*** fərman verilir...

**28 sentyabr 1603-cü il** - I Şah Abbas Təbrizə yaxınlaşır. Təbrizlilərin üsyan qaldırması Şah Abbasa kömək edir...

**28 sentyabr 1918-ci il** - Zəngəzurun ***Dornu*** kəndində məskən salan ermənilər





azərbaycanlıları aldadıb kənddən kənara çıxararaq, onları daşnaq terrorçularının mühasirəsinə salırlar. Dornunun azərbaycanlı əhalisi kiçikdən böyüyə ermənilər tərəfindən qətlə yetirilir...

**28 sentyabr 1937-ci il** - Azərbaycan SSR XDİK-nin xüsusi üçlüyünün qərarı ilə Azərbaycanın mərd ziyalı qızı ***Mədinə xanım Mehdi qızı Qiyasbəyli*** güllələnir. Onun ölüm aktını DTİ-nin 10-cu bölməsinin leytenantı ***Suxanov*** və 8-ci bölmənin rəisi ***Koqan*** imzalamışlar...

**28 sentyabr 1937-ci il** - Azərbaycan XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə *41* nəfər güllələnir...

**28 sentyabr 1988-ci il** - Ermənistanda və DQMV-da azərbaycanlılar ermənilər tərəfindən kütləvi surətdə işdən qovulurlar...

**28 sentyabr 1991-ci il** - Erməni terrorçusu ağdamlı bir qadını qəbir üstə gedərkən snayperlə qətlə yetirir...

**28 sentyabr 1992-ci il** - Ağdam şəhəri, eləcə də rayonun ***Əliağalı, Əliməddli, Kürdlər, Mollalar*** və ***Xaçındərbətli*** kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur. Yanğınlar baş verir. Yaralananlar olur; *20*-dən çox ev dağılır...

**29 sentyabr 1619-cu il** - Osmanlı sultanı II Osman *"Səfəvi-Osmanlı"* müqaviləsini təsdiq edir...

**29 sentyabr 1877-ci il** - Azərbaycan maarifçiliyinin görkəmli nümayəndələrindən biri ***Həsənbəy Məlikov*** Zərdabinin nəşr etdirdiyi milli mətbuatımızın qaranquşu olan ***"Əkinçi"*** qəzeti hakim qüvvələrin fitnə-fəsadı nəticəsində bağlanır...

**29 sentyabr 1930-cu il** - Naxçıvanın ***Dizə*** kənd sakinləri - **Mütəllib Fətulla oğlu Məmmədov, Nəcəf Əlibəy**, Göynük kənd sakinləri - **Ağaəli Şükür oğlu Həsənov, Zöhrəli Şükür oğlu Həsənov**, Teyvaz kənd sakini **Ələsgər Mir Əsəd oğlu Seyidov**, Ləkətağ kənd sakini **Allahqulu Həsənxan oğlu Hüseynov**, Nəhəcir kənd sakinləri - **Kərbəlayı Baba Əbil oğlu Babayev, Molla İbrahim Nurməmməd oğlu Xanməmmədov, Paşa Şükür oğlu Həsənov, Məzi Şıxməmməd oğlu Xanməmmədov, Kərbəlayi Muxlar Səfərəli oğlu Yaqubov, Qafar Kərbəlayi Əli oğlu Həmzəyev, Həsənxan Həsənqulu oğlu Ramazanov, Teymur Şirməmməd oğlu Xanməmmədov, Mustafa İmaməli oğlu Ramazanov** Fövqəladə Üçlüyün qərarı ilə antisovet fəaliyyətlərinə görə güllələnirlər...

**29 sentyabr 1991-ci il** - Şuşa şəhəri və Kərkicahan qəsəbəsi ermənilər tərəfindən raket atəşinə tutulur. Ciddi dağıntılar olur. *Həsənov* soyadlı bir nəfər qəsəbə sakini ermənilər tərəfindən qətlə yetirilir...

**29 sentyabr 1991-ci il** - Goranboy rayonunun ***Şəfəq*** və ***Zeyvə*** kəndləri er-

mənilər tərəfindən atəşə tutularaq basqına məruz qalır. *2* nəfər həlak olur, *9* nəfər yaralanır...

**29 sentyabr 1991- ci il** - Martuni *(Xocavənd)* rayonunun ***Muğanlı*** kənd sakini **Atlıxan İsmayılov** Qarakənddə məskən salmış daşnaq terrorçusu tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**29 sentyabr 1992-ci il** - Xocavənd rayonunun ***Quşçular*** və ***Sur*** kəndləri, eləcə də, ***Cəbrayıl şəhəri*** yaxınlığındakı postlar ermənilər tərəfindən güclü atəşə tutulur...

**29 sentyabr 1992-ci il** - ***Ağdam şəhəri, Bağbanlar, Mərzili, Novruzlu*** kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur. ***Xanabad*** kəndi və ətraf yüksəkliklər uğrunda döyüşlər davam etdirilir. İtkilər olur...

**29 sentyabr 1992-ci il** - Keçmiş Ağdərə rayonunun ***Çıldıran*** kəndi uğrunda gedən döyüşlərdə tərtərli igid əsgərlər - **Arif Aqil oğlu Muxtarov, Toğrul Rafiq oğlu Hüseynov** şəhid olurlar. Gərgin döyüşlərdən və çoxlu sayda itkilər verəndən sonra Azərbaycan əsgərləri ***Çıldıran*** kəndinə və bir neçə hakim yüksəkliklərə nəzarəti ələ keçirirlər...

**29 sentyabr 1992-ci il** - Terrorçu daşnaqlar Laçın rayonunun ***Səfiyan*** kəndinə basqın edirlər. *10* nəfər dinc sakin amansızlıqla qətlə yetirilir, *16* nəfər yaralanır...

**29 sentyabr 1994-cü il** - Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini **Afiyəddin Cəlilov** və Prezident yanında Xüsusi İdarənin rəisi **Şəmsi Rəhimov** vəhşicəsinə qətlə yetirilirlər...

**30 sentyabr 1139-cu il** - Gəncədə dağıdıcı *zəlzələ* baş verir. Gəncə şəhəri əhalisinin demək olar ki, yarısı - **150.000** nəfər adam həlak olur. Paytaxt şəhəri olan Gəncə dağıdılır...

**30 sentyabr 1885- ci il** - Erməni terror təşkilatının üzvləri İstanbulun Qumqapı məhəlləsində silahlı toqquşma törədirlər. Müsəlman polisləri və mülki adamları arasında çoxlu sayda ölənlər olur...

**30 sentyabr 1905-ci il** - *«Daşnaksütyun»* beynəlxalq erməni terror təşkilatının saqqallıları qədim Azərbaycan şəhəri ***Qazaxı*** tutaraq yandırırlar. Dinc əhali arasında çoxlu tələfat olur...

**30 sentyabr 1920-ci il** - RSFSR ilə Azərbaycan SSR arasında hərbi iqtisadi ittifaq haqqında ***Moskva müqaviləsi*** imzalanır...

**30 sentyabr 1991-ci il** - Dağlıq Qarabağın Hadrut *(Xocavənd)* qauonunun 303 nəfər əhalisi olan **Salakətin kəndi** ermənilər tərəfindən işğal edilir. Uzun əsrlər azərbaycanlıların yaşadığı bu kəndin əhalisi doğma yurd-yuvalarını tərk





etmək məcburiyyətində qalır...

**30 sentyabr 1991-ci il** - Erməni quldur birləşmələri *«Daşnaksütyun»* terror təşkilatının göstərişini yerinə yetirərək, artilleriya hazırlığından sonra Azərbaycanın ***Goranboy*** rayonunun qərb hissəsinə hücuma keçib onun bir sıra yaşayış məntəqələrini işğal edirlər...

**30 sentyabr 1991-ci il** - Şahbuz rayonunun ***Biçənək*** kəndinə basqın edən daşnaq terrorçuları teleradio ötürücüsünü dağıdırlar, *2* nəfər kənd sakini ermənilər tərəfindən girov götürülür...

**30 sentyabr 1992-ci il** - Cəbrayıl şəhəri yaxınlığında yerləşən postlar ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar və yaralananlar olur...

**30 sentyabr 1992-ci il** - Erməni yaraqlıları ***Zəngilan*** rayonunun ***Kolluqışlaq*** kəndinə hücum edirlər. Öz həyətyanı bağlarında təsərrüfat işləri ilə məşğul olan **Anuş Mikayıl qızı Quliyeva** və onun oğlu **Elşad Kamil oğlu Quliyev** avtomat silahdan açılan atəş nəticəsində amansızlıqla qətlə yetirilirlər...

# OKTYABR

**1 oktyabr 1703-cü il** - Bavariya ermənisi ***İsrail Oriyan*** *«Böyük Ermənistan»* adlı xəritəni Rus çarı I Pyotrun masasının üstünə qoyur. ***«Böyük Ermənistan»*** xülyası çarın xoşuna gəldiyindən o, İ.Qriyana sərhəng *(polkovnik)* rütbəsi verir...

**1 oktyabr 1730-cu il** - Osmanlı sədrəzəmi **İbrahim paşa** öldürülür. ***III Sultan Əhməd*** devrilir, onun yerinə qardaşı Sultan Mahmud gəlir...

**1 oktyabr 1797-ci il** - Rus çarı II Yekaterinanın oğlu Pavelin fərmanı ilə *2.000* erməni rus təbəəliyini qəbul edir...

**1 oktyabr 1827-ci il** - İrəvan qalası ruslar tərəfindən işğal edilir...

**1 oktyabr 1930-cu il** - Fövqəladə Üçlüyün qərarı ilə Naxçıvanın Xanəgah kənd sakini **Baxşəli Ələkbər oğlu Yusifov,** ***Saltax*** kənd sakini **Qaraxan Sultan oğlu Kəngərlinski,** ***Noraşen*** kənd sakini ***İbiş Məmmədəli oğlu Məmmədov, Qarabağlar*** kənd sakini **İmaməli Tarverdi oğlu** antisovet fəaliyyətlərinə görə güllələnirlər...

**1 oktyabr 1992-ci il** - Milli Qəhrəmanlar - **İlqar Sədi oğlu İsmayılov, Kərəm Ərşad oğlu Mirzəyev** və **Əli Hüseyn oğlu Məmmədov** Laçın rayonu ərazisində, Qızartı dağı uğrunda ermənilərlə gedən döyüşdə həlak olurlar...

**1 oktyabr 1992-ci il** - Ağdam şəhəri, Əliağalı, Əlimədədli, Xaçındərbətli, Mollalar, Kürdlər, eləcə də digər kəndlər ermənilər tərəfindən atəşə və basqına məruz qalır. Dağıntılar olur...

**1 oktyabr 1992-ci il** - Erməni yaraqlıları Zəngilan rayonunun ***Saralı Xəştab*** kəndinə basqın edirlər. Kəndin dinc sakinləri **Vüqar Abbasquliyev** və **Vüqar Babayev** qətlə yetirilirlər...

**2 oktyabr 1827-ci il** - Rus qoşunları tərəfindən *Xoy* və ***Mərənd*** şəhərləri tutulur...

**2 oktyabr 1990-cı il** - Erməni terrorçuları tərəfindən Kərkicahanda törədilən bomba partlayışı nəticəsində **I** sinif şagirdi Eyvaz **Abbasov** həlak olur, onun qardaşı **Əvəz Abbasov** ağır yaralanır...

**2 oktyabr 1992-ci il** - Ağdam rayonunun *Şelli* kəndi uğrunda gedən döyüşlərdə **Vüqar Məmmədbağır oğlu İbrahimli** düşmən gülləsinə tuş gələrək həlak olur...

**2 oktyabr 1992-ci il** - Laçının ***Suarası*** kəndi yaxınlığında, ***Sarımsaqlıdağ*** adlanan ərazidə erməni yaraqlıları ilə döyüşdə bir nəfər **Natiq** adlı Sumqayıtdan gənc oğlan və gəncəli bir gənc *(onun qardaşı Cəbrayılda ermənilərlə döyüşdə şəhid olmuşdu)* həlak olur...

**2 oktyabr 1992-ci il** - Xocavənd rayonunun **Əmiralılar, Kuropatkin, Muğanlı, Günəşli, Xətai** kəndləri erməni yaraqlıları tərəfindən işğal edilir...

**2 oktyabr 1992-ci il** - Ağdam şəhəri və rayonun Yuxarı Qarabağa bitişik kəndləri ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar olur...

**2 oktyabr 1995-ci il** - Milli Qəhrəman **Ramazan Heybullah oğlu Çirinqov** xidməti vəzifəsini yerinə yetirərkən ***Balakən*** rayonunun ***Qabaqçöl*** kəndində cinayətkarlar tərəfindən qətlə yetirilir...

**3 oktyabr 1806-cı il** - Bakı şəhəri rus qoşunları tərəfindən işğal edilir. Bakı xanlığı bununla da Rusiyaya tabe edilir. **Bakı xanlığı** ləğv edilərək yerində Bakı əyaləti *(okruqu)* yaradılır. **Bakı** qəti olaraq Rusiyaya birləşdirilir...

**3 oktyabr 1905-ci il** - Erməni quldur yaraqlıları ***Hamazaspın*** komandanlığı ilə ***Sırxavənd*** və ***Əliağalı*** kənd camaatını qırıb-tökürlər. Sırxavənd kəndinin çalaçuxur yerləri insan qanı ilə dolur. Vəhşi yırtıcılar südəmər körpələri süngülərə keçirir, beşiyi ilə bir yerdə uşaqları odlayırlar, onları analarının qucağından alıb, divarlara vuraraq para-para edirlər...

**3 oktyabr 1991-ci il** - Xocavənd rayonu ərazisində ***UAZ-469*** markalı avtomobil ermənilər tərəfindən güllələbaran edilir. *2* hərbi qulluqçu həlak olur, *2* nəfər yaralanır...

**3 oktyabr 1992-ci il** - ***Ağdam şəhəri,*** eləcə də ***Ağdam*** rayonunun ***Bağbanlar, Mərzili*** və ***Novruzlu*** kəndləri ermənilər tərəfindən şiddətli atəşə tutulur. Ölənlər və yaralananlar olur...

**3 oktyabr 1992-ci il** - Milli Qəhrəman ***Əliyar Yusif oğlu Əliyev*** və sürücüsü **Əlisəadət Ağayev** Şurumbaşı yüksəkliyi ərazisində, *"Turşsu"* bulağı yaxınlığında erməni yaraqlıları ilə döyüşdə həlak olurlar...

**4 oktyabr 1905-ci il** - Sırxavənd kənd sakinləri **Abbasqulu** və **İman Həsən oğlanları** meşədə ermənilər tərəfindən qətlə yetirilərək yandırılırlar. Onların başı kəsilərək cinayət yerində qoca atalarına əmanət kimi qoyulur...

**4 oktyabr 1930-cu il** - Naxçıvanın *Ərəfsə* kənd sakini **Kərbəlayi Şahvəli Məmməd oğlu Mehdiyev,** ***Kükü*** kənd sakini **Məmi Mikayıl oğlu Quliyev** antisovet fəaliyyətlərinə görə Fövqəladə Üçlüyün qərarı ilə güllələnirlər...

**4 oktyabr 1988-ci il** - Dağlıq Qarabağın ***Xankəndi*** və ***Xocalı*** yaşayış məntə-

qələrində azərbaycanlılara qarşı vəhşicəsinə ***basqınlar*** edilir, onlar amansızlıqla döyülür və köçüb getmələri tələb olunur...

**4 oktyabr 1991-ci il** - Ağdam rayonunun ***Cinli, Qalayçılar, Papravənd*** və ***Xıdırlı*** kəndləri ermənilər tərəfindən müxtəlif silah növlərindən atəşə tutulur...

**4 oktyabr 1992-ci il** - Milli Qəhrəman **Fəxrəddin Vəliyəddin oğlu Nəcəfov** Çıldıran kəndi yaxınlığında erməni yaraqhları ilə döyüşdə həlak olur...

**4 oktyabr 1994-cü il** - Dövlət çevrilişinə cəhd edilir. Gəncədə *Surət Hüseynovun* tərəfdarları icra hakimiyyətinin binasını tuturlar. Baş nazir qiyamçıları müdafiə edir. Prezident yaranmış vəziyyətlə bağlı televiziya və radio ilə xalqa müraciət edir...

**5 oktyabr 1921-ci il** - 1920-ci ilin mayından ***Camal paşanın*** başçılığı ilə başlayan üsyan oktyabrın 5-də yatırılır...

**5 oktyabr 1958-ci il** - Xəzər dənizinin ***Makarov Sayı*** adlanan hissəsində güclü ***zəlzələ*** baş verir. Dağıntılar olur...

**5 oktyabr 1989-cu il** - Gorusdan gələn ***Mİ-26*** vertolyotu ***Hadrut*** rayonuna enir. Vertolyotdan silah və döyüş sursatı - partladıcı qurğular, ov tüfəngləri, habelə partladıcı qurğular və zenit topları üçün xeyli miqdarda döyüş sursatı və hissələri tapılır. Onun ardınca 2-ci vertolyot da oraya enmək istəyir, lakin enmə meydançasında hərbi qulluqçular olduğunu görən pilotlar vertolyotu hündürə qaldırıb Gorus tərəfə uzaqlaşırlar. Ən qəribəsi odur ki, Azərbaycanın rəsmi dövlət qurumları bu kimi məsələlərə etinasız yanaşmaqda davam edirlər...

**5 oktyabr 1990-cı il** - Qafan şəhərində yuva salmış erməni terrorçuları ***3*** nəfər ***Zəngilan*** şəhər sakinini girov götürürlər...

**5 oktyabr 1992-ci il** - Ağdam rayonunun Yuxarı Qarabağla həmsərhəd kəndləri ermənilər tərəfindən müxtəlif silah növlərindən atəşə tutulur. Dağıntılar olur...

**6 oktyabr 1944-cü il** - Qvardiya leytenantı, Sovet İttifaqı Qəhrəmanı (ölümündən sonra, 24.03.1945) **Cəmil Məmməd oğlu Əhmədov** həlak olur...

**6 oktyabr 1917-ci il** - Müvəqqəti hökumət tərəfindən duma buraxılır...

**6 oktyabr 1991 -ci il** - Erməni terrorçuları Qazax rayonunun ***Xeyrimli*** kəndinə basqın edirlər. *1* nəfər azərbaycanlı dinc sakin qətlə yetirilir, *1* nəfər yaralanır...

**6 oktyabr 1991-ci il** - Ağdam rayonunun ***Abdal*** və ***Gülablı*** kəndləri ermənilər tərəfindən atəşə məruz qalır. Gülablıda ***2*** nəfər yaralanır...





**7 oktyabr 1931-ci il** - Xəzər dənizinin ***Bakı*** şəhərinə yaxın hissəsində güclü ***zəlzələ*** baş verir...

**7 oktyabr 1987-ci il** - Akademik ***Abel Aqanbekyan*** Fransanın ***"Fiqaro"*** qəzetində ***Dağlıq Qarabağ Muxtar Vilayətinin*** Ermənistan Respublikasının ərazisi olmasını iddia edir...

**7 oktyabr 1989-cu il** - Erməni terrorçusu ***Artur Artaşoviç Abramyan*** *Ağdam -Şuşa* şose yolu və ***Xəlfəliçay*** üzərindəki ***Ağa körpüsünü*** partladır...

**7 oktyabr 1989-cu il** - Konstitusiya günü Martuni *(indiki Xocavənd)* rayonunun ***Qaradağlı*** kəndinə məxsus olan ***2*** yük maşını ermənilər tərəfindən yararsız hala salınır; yaralananlar olur...

**7 oktyabr 1991-ci il** - Ağdam rayonunun ***Cinli*** kəndi ermənilər tərəfindən atəşə tutulur. Ciddi dağıntılar olur...

**7 oktyabr 2000-ci il** - Erməni diasporunun ***Qarabağ*** hərbi qanadı ilə *"Sadval"*çılara məxsus ləzgi diasporunun hərbi qanadı Xankəndidə əlaqə yaradırlar...

**8 oktyabr 1509-cu il** - Dövrünün görkəmli mütəfəkkiri **Möhyəddin Mövlana Seyid Əhməd oğlu** öldürülür...

**8 oktyabr 1821-ci il** - Çar fərmanı ilə Cənubi Qafqazda güzəştli ticarət tarifinin tətbiq edilməsinə görə buraya gətirilən əcnəbi malların yalnız 50 %-dən gömrük haqqı alınmasına icazə verilir...

**8 oktyabr 1991-ci il** - Ağdam rayonunun ***Abdal*** və ***Gülablı*** kəndləri növbəti dəfə ermənilər tərəfindən atəşə tutulur...

**8 oktyabr 1991- ci il** - Xocalı şəhəri daşnaq terrorçuların toplaşdığı Noraguh tərəfdən atəşə tutulur. Xocalı şəhər DİŞ-nin milis nəfəri **Vaqif Yusif oğlu Behbudov** həlak olur...

**8 oktyabr 1992-ci il** - Erməni hərbi birləşmələri növbəti dəfə böyük qüvvə ilə Füzuli rayonunun ***Qacar*** kəndinə hücum edir. Hücum nəticəsində Milli Ordunun *17* əsgəri şəhid olur...

**8 oktyabr 1992-ci il** - Füzuli şəhəri *"naməlum qüvvələr"* tərəfindən bombalanır. **8** nəfər həlak olur, **10** nəfər yaralanır...

**8 oktyabr 1992-ci il** - Laçınlı igidlər, qardaşlar - **Cavanşir Cəmil oğlu Ağayev, Fazil Cəmil oğlu** Ağayev doğma kəndləri olan ***Qazıdərə*** yaşayış məntəqəsi uğrunda gedən döyüşlərdə həlak olurlar...

**9 oktyabr 1989-cu il** - Laçın rayonunun ***Kalafalıq*** kənd sakini, 1960-cı il təvəllüdlü **Rza Cəlal oğlu Sadıqov** şəxsi maşınında odlu silahla ermənilər tərəfindən Qaladərəsi kəndinə gedən zaman qətlə yetirilir...

**9 oktyabr 1989-cu il** - Qaradağlı kəndi *(Xocavənd rayonu)* yaxınlığında ermənilər **1** xüsusi maşını zədələyib yararsız hala salır və **2** yük maşınını dağıdırlar...

**9 oktyabr 1991-ci il** - Kərkicahan qəsəbəsi Xankəndi şəhəri istiqamətindən ermənilər tərəfindən atəşə tutulur. Qəsəbəyə qonaq gəlmiş dinc sakin **Nadir Qoçaq oğlu Əliyev** həlak olur...

**9 oktyabr 1991-ci il** - Kərkicahan qəsəbəsi, Cəmilli kəndi və Xocalı yaşayış məntəqəsi müxtəlif istiqamətlərdən ermənilər tərəfindən atəşə tutulur...

**9 oktyabr 1991-ci il** - Füzuli rayon hərbi komendantlığında ***Füzuli, Cəbrayıl, Hadrut*** rayonlarının hüquq-mühafizə orqanlarının rəhbərlərinin, SSRİ DİN, DQ, rayonların hərbi komendantlarının və sərhəd zonası komendantlığı nümayəndələrinin görüşü keçirilir...

**9 oktyabr 1991-ci il** - Goranboy rayonunun ***Şəfəq və Zeyvə*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. *1* nəfər azərbaycanlı mülki şəxs həlak olur, *2* nəfər yaralanır...

**9 oktyabr 2006-cı il** - ATƏT-in ekoloji vəziyyəti qiymətləndirən missiyası ilə görüşən *«Dağlıq Qarabağ»*ın *«xarici işlər naziri»* ***Masis Mailyan*** hazırda ***«Dağlıq Qarabağ»*** ərazisinin 15%-nin - Martuni *(Xocavənd)* rayonunun şərq, Mardakert *(Ağdərə)* rayonunun şimal-şərq hissəsinin və Şaumyan *(Ağcakənd)* rayonunun bütünlüklə Azərbaycan *«işğalı»* altında olduğunu bildirir...

**10 oktyabr 1812-ci il** - Aslandüz yaxınlığında baş verən döyüşdə ruslar iranlılar üzərində əhəmiyyətli və həlledici qələbə qazanır...

**10 oktyabr 1918-ci il** - Zəngəzurun ***Balahəsənli*** kəndinə basqın edən daşnaqlar kəndi viran qoyurlar. Dinc kənd sakinləri öldürülərək oda atılır...

**10 oktyabr 1989-cu il** - Erməni terrorçuları ***Qaladərəsi*** kəndində *1* nəfər azərbaycanlını - Laçın rayonunun Kalafahq kənd sakini ***Rza Cəlal oğlu Sadıqovu*** şəxsi minik maşınında odlu silahla namərdcəsinə qətlə yetirirlər...

**10 oktyabr 1989-cu il** - Ağdam rayon taksimotor parkına məxsus *87-96 AQD* dövlət nişanlı *QAZ-24* markalı maşın ***Qaradağlı*** kənd *(keçmiş Martuni rayonu)* sakinlərini apararkən kənddən *6* kilometr məsafədə, ***Qişi*** yolunda erməni quldurları tərəfindən saxlanılır. Sürücü və sərnişinlər vəhşicəsinə döyülür.





***Firudin Hüseynovun*** pulu, pasportu, digər sənədləri əlindən alınır. Müqəddəs nemət olan çörəyi ayaqları altında tapdayan ermənilər taksi maşınını əzib sındırırlar...

**10 oktyabr 1989-cu il** - Turşsu kəndi istiqamətində hücuma keçən erməni yaraqlıları **14** yaşlı **Kamil Axundovu** qətlə yetirirlər...

**10 oktyabr 1993-cü il** - Zəngilan rayonunun bir sıra yaşayış məntəqələri ermənilər tərəfindən güclü atəşə tutulur. İtkilər olur...

**10 oktyabr 1994-cü il** - Erməni Silahlı Qüvvələri atəşkəsi pozaraq ***Goranboy*** rayonunun ***Tapqaraqoyunlu*** kəndi istiqamətində irəliləyir. Neytral zona ***100*** metrə qədər ixtisar olunur...

**11 oktyabr 1743-cü il** - Surxay xanın yardımı ilə ***Yeni Şamaxını*** *(Ağsu)* tutmuş I Sam Mirzənin üsyanından Mosulda ikən xəbər tutan Nadir şah onun üstünə oğlu Nəsrullah Mirzəni göndərir; o da yalançı şahzadəni ələ keçirərək öldürür və Heydər xanı Şamaxıya hakim təyin edir...

**11 oktyabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə *51* nəfər güllələnir...

**11 oktyabr 1937-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının bağlı məhkəmə iclasının çıxardığı qərara görə ***(Matuleviç, Zaryanov, Jiqur)*** görkəmli Azərbaycan ziyalısı, Azərbaycan Partiya Tarixi İnstitutunun baş elmi işçisi, ADU-nun tarix müəllimi **Hüseynəli Süleyman oğlu Biləndərli** güllələnir...

**11 oktyabr 1941-ci il** - Sovet Ordusu əsgərləri Cənubi Azərbaycanda yerləşdirilir...

**11 oktyabr 1988-ci il** - Azərbaycan və Ermənistan I katiblərinin növbəti görüşləri də müsbət bir nəticə vermir...

**11 oktyabr 1989-cu il** - Martuni rayonunun ***Qaradağlı*** kənd kolxozunun yaxınlığındakı ferma ermənilər tərəfindən atəşə tutulur. İşçiləri fermadan qovan ermənilər ot və saman tayalarına od vururlar...

**11 oktyabr 1992-ci il** - Füzuli rayonunun Yuxarı Qarabağla həmsərhəd ərazisində yerləşən bəzi kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**11 oktyabr 1992-ci il** - Milli Qəhrəman **Zakir Tofiq oğlu Yusifov** döyüş əməliyyatı zamanı qəhrəmancasına həlak olur...

**11 oktyabr 1992-ci il** - Milli Qəhrəman **Tahir Əminağa oğlu Bağırov** döyüş tapşırığını yerinə yetirərkən dünyasını dəyişir...

**12 oktyabr 1813-cü il** - İran ilə Rusiya arasında Qarabağın tabeliyində olan

Gülüstan kəndində *"Gülüstan"* adlanan barışıq aktı imzalanır. İran tərəfindən şahın vəkili ***Mirzə Əbdülhəsən xan Şirazi,*** Rusiya tərəfindən Qafqazın baş komandanı ***Rtişşev*** bu müqaviləyə imza atırlar. İngiltərənin səfiri ser ***Qravzli*** burada iştirak edir. Bu barışıq aktı *12* gün sonra - 24 oktyabrda ***"Gülüstan"*** sülh müqaviləsi kimi imzalanır. **Qarabağ, Gəncə, Şəki, Şirvan, Quba, Bakı, Talış xanlıqları,** habelə, **Şərqi Gürcüstan** və **Dağıstan** əraziləri Rusiyaya birləşdirilir...

**12 oktyabr 1930-cu il** - Naxçıvanın Ərəfsə kənd sakini **Əliqulu Hacı Cabbar oğlu,** Kulis kənd sakinləri **Mürşüd Mirzə Məmməd oğlu, Eyniş Əlixan oğlu Məhərrəmov, Novruz Kərbəlayi Həsən oğlu Məhərrəmov** Fövqəladə Üçlüyün qərarı ilə antisovet fəaliyyətlərinə görə güllələnirlər...

**12 oktyabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə görkəmli ziyalı **Vəli Məmmədhüseyn oğlu Xuluflu** ilə bərabər digər **45** nəfər tanınmış şəxsiyyətlər güllələnir...

**12 oktyabr 1937-ci il** - Azərbaycanın mücadilə, azadlıq mübarizəsi tarixində öz dəst-xətti olan və bütün türk dünyasında tanınan vətənpərvər şair, istibdada, sosial ədalətsizliyə qarşı mübarizədə *"pantürkist"* damğası alan böyük düşüncə sahibi, Azərbaycan Dövlət Himninin müəllifi **Axundzadə Cavad Məhəmmədəli oğlu *(Əhməd Cavad)*** güllələnir...

**12 oktyabr 1937-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə tanınmış Azərbaycan ziyalısı **Məmmədkazım Ələkbər oğlu Ələkbərli** güllələnir...

**12 oktyabr 1937-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası səyyar sessiyasının qərarı ilə tanınmış ziyalı, SSRİ EA Azərbaycan filialı Tarix İnstitutunun doktorantı **Əbdüləziz Heydər oğlu Salamzadə** güllələnir...

**12 oktyabr 1937-ci il** - SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarı ilə Azərbaycanın tanınmış ziyalısı, Azərbaycan K(b)P MK-nin məsul işçisi, Azərbaycan MK-nin plenum üzvü, respublika təbliğatçıları kursunun müdiri **Mikayıl Namaz oğlu Hüseynov** güllələnir...

**12 oktyabr 1937-ci il** - Bir gün əvvəl keçirilmiş SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar məhkəməsinin qərarı ilə Azərbaycanın görkəmli ziyalısı, universitetin rektoru, professor **Balabəy Cabbar oğlu Həsənbəyov** Bakı şəhərində güllələnir...

**12 oktyabr 1991-ci il** - Goranboy rayonunun ***Todan*** kəndi ermənilər tərəfindən atəşə tutulur. *1* nəfər həlak olur, *12* nəfər yaralanır...

**12 oktyabr 1991-ci il** - Saat 10.00-da Martuni *(Xocavənd)* rayonunun ***Aşan*** kəndi istiqamətindən Qaradağlı kəndinə ermənilər tərəfindən hücum edilir. Yerli milis işçisi ***Rayət Mütəllim oğlu Quliyev*** ağır yaralanır...

**12 oktyabr 1992-ci il** - Erməni silahlı hərbi birləşmələri Füzuli rayonunun





***Qacar*** kəndinə güclü hücuma keçir. Kəndin müdafiəsi uğrunda şiddətli döyüşdə çoxlu sayda ölənlər və yaralananlar olur...

**12 oktyabr 1992-ci il** - Ağdamın işğal olunmuş kəndlərini geri qaytarmaq üçün ***Xocavənd*** rayonu istiqamətində güclü döyüş əməliyyatları keçirilir. İtkilər olur...

**12 oktyabr 1993-cü il** - Ağdamın ***Göytəpə*** kəndi yaxınlığında döyüşdə azərbaycanlı əsgərlərdən - **Habil Nəsibov, Vüqar** adlı bir gənc və zəngilanlı **1** nəfər döyüşçü yaralanırlar...

**13 oktyabr 1827-ci il** - Təbrizin qəhrəmancasına müdafiə olunmasına baxmayaraq ruslar onu işğal edirlər. Polkovnik Burtsev Təbrizə komendant təyin olunur. Təbrizin fəthindən sonra ***Abbas Mirzə*** ilə ***Paskeviç*** arasında sülh danışıqları başlayır...

**13 oktyabr 1918-ci il** - 33 evli ***Salakətin*** kəndi *(hazırda Xocavənd rayonunun tabeliyindədir)* ermənilər tərəfindən tamamilə yandırılır; kəndin bütün əmlakı və mal-qaraları qarət edilir...

**13 oktyabr 1921-ci il** - Qars şəhərində RSFSR-in iştirakı ilə Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist Respublikaları ilə Türkiyə arasında müqavilə imzalanır...

**13 oktyabr 1937-ci il** - Fövqəladə Üçlüyün qərarı ilə tanınmış ziyalı **İbrahim Tağıyev** güllələnir...

**13 oktyabr 1937-ci il** - Bir gün əvvəl keçirilmiş SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar sessiyasının ***(Matuleviç, Zaryanov, Jiqur)*** bağlı məhkəmə iclasının qərarı ilə Azərbaycanın görkəmli ziyalısı, sovet Şərqinin ilk professoru, SSRİ EA Azərbaycan filialının baş elmi işçisi, APİ və ADU-nun dil və ədəbiyyat kafedrasının müdiri **Bəkir Vahab oğlu Çobanzadə** güllələnir...

**13 oktyabr 1937-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar sessiyasının ***(Matuleviç, Zaryanov, Jiqur)*** qərarı ilə görkəmli ziyalı, Azərbaycan SSR EA Ədəbiyyat və Dilçilik İnstitutunun elmi katibi, dil-ədəbiyyat şöbəsinin müdiri **Hənəfi Baba oğlu Zeynallı** güllələnməyə məhkum olunur. İstintaq işinin 392-ci səhifəsindəki arayışa görə hökm *13* oktyabrda Bakıda icra edilmişdir...

**13 oktyabr 1937-ci il** - Bir gün öncə keçirilmiş SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının bağlı məhkəmə iclasının qərarı ilə ***(Matuleviç, Zaryanov, Jiqur)*** Azərbaycanın görkəmli ziyalısı, Yazıçılar İttifaqının, Azərbaycan MİK-nin və Bakı Sovetinin üzvü **Böyükağa Mirqasım oğlu Talıblı** güllələnir...

**13 oktyabr 1937-ci il** - Fövqəladə Üçlüyün qərarı ilə Azərbaycanın görkəmli ziyalısı, Mətbuatda dövlət sirlərini mühafizə edən baş idarənin rəisi **İbrahim Ab-**

**dulla oğlu Eminbəyli** güllələnir...

**13 oktyabr 1937-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar sessiyası üzvlərinin ***(Matuleviç, Zaryanov, Jiqur)*** bir gün öncə keçirilmiş məhkəmə iclasının hökmü ilə görkəmli Azərbaycan ziyalısı, Azərbaycan SSR-in keçmiş maarif komissarı, Azərbaycan K(b)P MK-nin üzvü, Nuxa şəhər PK-nin birinci katibi **Məmməd İsmayıl oğlu Cuvarlı** güllələnir...

**13 oktyabr 1937-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə tanınmış türkoloq, SSRİ EA-nın Azərbaycan filialının elmi əməkdaşı **Xalid Seyid Xocayev** güllələnir...

**13 oktyabr 1937-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar sessiyasının ***(Matuleviç, Zaryanov, Jiqur)*** qərarı ilə Azərbaycan EA-nın əməkdaşı, tarixçi, professor **Əziz Qubaydullin** güllələnir...

**13 oktyabr 1937-ci il** - SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası ***(Matuleviç, Zaryanov, Jiqur)*** Səyyar sessiyasının qərarı ilə Azərbaycan milli 77-ci Atıcı diviziyasının 230-cu alayının zabiti, rota komandiri, kapitan **Kəbi Hacı Murad oğlu Saniyev** güllələnir...

**13 oktyabr 1937-ci il** - SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının hökmü ilə görkəmli hərbi xadim, diviziya komandiri **Qambay Məmməd Əli oğlu Vəzirov** güllələnir...

**13 oktyabr 1943-cü il** - Azərbaycanın igid oğlu, Sovet İttifaqı Qəhrəmanı (ölümündən sonra, 26.10.1943), serjant **Mikayıl Məmməd oğlu Ələkbərov** Dnepropetrovsk vilayətinin ***Şerbinovka*** kəndi uğrunda döyüşdə həlak olur...

**13 oktyabr 1990-cı il** - Yaraqlı ermənilər Laçın rayonunun ***Malbinəsi*** kəndinə hücum edirlər. ***Cəfərov*** soyadlı ***80*** yaşlı kənd sakini və onun ***2*** nəvəsi ağır qəlpə yarası alırlar...

**13 oktyabr 1992-ci il** - ***"Tərtər"*** özünümüdafiə batalyonunun könüllü əsgərləri - **İlham Hüseyn oğlu Nəcəfov, Rizvan Nəsib oğlu Nəbiyev, Zəka Abbas oğlu Kamalov** keçmiş Ağdərə rayonunun ***Drmbon, Vəng*** kəndləri uğrundakı döyüşlərdə həlak olurlar...

**13 oktyabr 2001-ci il** - Xankəndidə şərti olaraq *"Hərbi dairə"* adlandırılan alimlər qrupu ermənilər tərəfindən işğal olunmuş ***Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı*** rayonlarının coğrafi xəritəsini Fransadakı ***"VİK Nuklears LNÇ"*** Şirkətinin nümayəndələrinə təqdim edir...

**14 oktyabr 1406-cı il** - Qara Yusif Naxçıvanın qərbində, Araz çayı sahilində Əbubəkrə qalib gəlir...

**14 oktyabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə ***26*** nəfər güllələnir...

**14 oktyabr 1992-ci il** - Ağdam şəhəri və rayonun bir sıra kəndləri ermənilər tərəfdən müxtəlif növ silahlardan atəşə tutulur. Dağıntılar olur...

**14 oktyabr 1992-ci il** - Keçmiş Ağdərə rayonunun ***Xramord*** və ***Çıldıran*** kəndləri ətrafında gedən döyüşlərdə tərtərli əsgərlər - **Şahin Məhəmməd oğlu Eyvazov** və **Azər Salman oğlu Məmmədov** həlak olurlar...

**14 oktyabr 1993-cü il** - BMT TŞ Qarabağ münaqişəsi ilə bağlı **874** saylı qətnamə qəbul edir. Lakin erməni tərəfi bu qətnamənin tələblərini də yerinə yetirmir...

**15 oktyabr 1830-cu il** - Zaqatala üsyançıları ruslara qalib gəlsələr də, sonra bəzi səbəblərə görə *(çar generalı Şeyx Şabanla Həmzət bəyi ələ aldı)* məğlub olurlar...

**15 oktyabr 1918-ci il** - Xınzirəkdə fəaliyyət göstərən daşnaq qruplaşmaları ***Yazı*** düzündə payızlıq taxıl səpini ilə məşğul olan Zəngəzurun ***Əliquluuşağı*** kəndinin əkinçilərini gülləbaran edirlər. Kənd ağsaqqalı **Alı Cəfər oğlu** başda olmaqla **23 nəfər** azərbaycanlı vəhşicəsinə qətlə yetirilir...

**15 oktyabr 1990-cı il** - Erməni terrorçuları ***"Simferopol-Bakı"*** sərnişin qatarında partlayış törədirlər. Qəza nəticəsində ***11*** nəfər ağır bədən xəsarəti alır...

**15 oktyabr 1991-ci il** - Ağdərə rayonunun azərbaycanlılar yaşayan ***İmarət-Qərvənd*** kəndi erməni silahlı dəstələri tərəfindən işğal olunur. Onlarla dinc kənd sakini həlak olur...

**15 oktyabr 1992-ci il** - Ağdam rayonunun zəbt olunmuş ərazilərinin azad edilməsi əməliyyatları davam etdirilir. İtkilər olur...

**15 oktyabr 1993-cü il** - Ağdam rayonunun ***Qərvənd*** kəndi ermənilər tərəfindən qrad qurğularından atəşə tutulur. ***1*** qadın və ***2*** yaşlı uşaq həlak olur...

**16 oktyabr 1613-cü il** - Şah Abbas Azərbaycanın şimal vilayətlərinə və Gürcüstana yürüş edir. Baş verən döyüşlərdə çoxlu sayda itkilər olur...

**16 oktyabr 1921-ci il** - İran milli azadlıq hərəkatının görkəmli xadimi, azərbaycanlı **Heydərxan Əmioğlu** ***(Tarıverdiyev Heydər Ələkbər oğlu)*** xaincəsinə öldürülür...

**16 oktyabr 1991-ci il** - Rusiya və Qazaxıstan müşahidəçilər qrupu ***Jeleznovodsk*** sənədinə uyğun olaraq *"vasitəçilik missiyasını yerinə yetirmək üçün"* Xankəndinə gəlirlər...

**16 oktyabr 1991-ci il** - Ağdərə rayonunun **İmarət-Qərvənd** kəndi erməni si-

lahlı dəstələri tərəfindən yandırılır; onlarla dinc sakin həlak olur...

**16 oktyabr 1991-ci il** - Erməni terrorçusu ***Tuğ*** kəndində *1* nəfər dinc sakini qətlə yetirir; bir milis əməkdaşı - ***E. Səfərov*** ağır güllə yarası alır...

**16 oktyabr 1993-cü il** - Füzuli rayonunun ***Horadiz*** kəndini tam ələ keçirən daşnaq terror birləşməsi rayonun ***Horadiz qəsəbəsi*** istiqamətində irəliləməyə cəhd göstərirlər. Bir neçə dinc sakin və əsgərlər qətlə yetirilir...

**17 oktyabr 1612-ci il** - Osmanlılarla Səfəvilər arasında ***Sərabda*** 1555-ci il ***Amasiya*** sülh şərtlərinə uyğun ***müqavilə*** bağlanır. Bu, əslində 1555-ci il sülhünün bərpası idi. İndiki Azərbaycan, Ermənistan, Gürcüstan ərazilərinin Səfəvi dövlətinə mənsubluğu Osmanlı imperatorluğu tərəfindən rəsmən təsdiq olunur...

**17 oktyabr 1922-ci il** - Zaqafqaziya Ölkə Komitəsinin muxtar vilayətin icraiyyə komitəsi sədrliyinə Karagözovu tövsiyə edir. ***S.Şaduns*** Dağlıq Qarabağda məsul iş üçün Azərbaycana göndərilir...

**17 oktyabr 1991-ci il** - Yuxarı Qarabağın ***Tuğ*** kəndi yaxınlığında yerləşən milis postu erməni yaraqlıları tərəfindən atəşə tutulur. *1* nəfər azərbaycanlı mülki şəxs öldürülür, *1* milis işçisi yaralanır...

**17 oktyabr 1991-ci il** - Ağdam rayonunun ***Cinli*** kəndi növbəti dəfə ermənilərin atəşinə məruz qalır...

**17 oktyabr 1991-ci il** - Ağdərə yaylağında ermənilər tərəfindən azərbaycanlı çobanlara basqın edilir. ***Baş Güney*** kənd sakini, çoban **Q. Abdullayev** qətlə yetirilir, daha **1** nəfər çoban ağır yaralanır. Ermənilər qoyun sürülərini çəkib aparırlar...

**18 oktyabr 1812-ci il** - General Kotlyarevskinin komandanlığı ilə rus qoşunları Araz çayı yaxınlığında - ***Aslandüzdə*** baş verən döyüşdə Abbas Mirzənin ordusunu darmadağın edir...

**18 oktyabr 1992-ci il** - Cəbrayılın ***Quşçular*** və ***Qışlaq*** kəndləri ərazilərindəki postlar ermənilər tərəfindən atəşə tutulur...

**18 oktyabr 1992-ci il** - Erməni-rus birləşmiş hərbi qüvvələri səhər saat 5-də Füzuli rayonunun ***Qacar*** kəndinə hücum edirlər. İtkilər olur...

**18 oktyabr 1993-cü il** - Cəbrayıl rayonunun ***Quycaq*** və ***Səfərşa*** kəndləri ermənilər tərəfindən işğal edilir...

**18 oktyabr 1993-cü il** - Füzuli rayonunun ***Horadiz qəsəbəsi*** yaxınlığında erməni hərbi birləşmələri ilə Azərbaycan əsgərləri arasında şiddətli döyüşlər baş verir. İtkilər olur...





**19 oktyabr 1905-ci il** - Bakıda əzəmətli ***siyasi nümayiş*** keçirilir. Polislər və kazaklar nümayişçiləri atəşə tuturlar. *17* nəfər öldürülür...

**19 oktyabr 1938-ci il** - Azərbaycan SSR XDİK-in xüsusi üçlüyünün qərarı ilə tanınmış ziyalı **Xədicə xanım Osman qızı Qayıbova** güllələnir. Onun ölüm aktına DTK Birinci Xüsusi Şöbəsinin rəisi, leytenant ***Sovçenko*** qol çəkir...

**19 oktyabr 1938-ci il** - Azərbaycanın SSR XDİK-in Üçlüyünün ***(Şneyder, Rayev, Savçenko)*** qərarı ilə görkəmli aktyor, rejissor, Azərbaycanın xalq artisti **Abbas Mirzə Rəsul oğlu** Şərifzadə əmlakı müsadirə edilməklə güllələnməyə məhkum olunur...

**19 oktyabr 1942-ci il** - Böyük Vətən müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş Azərbaycanın igid oğlu, Sovet İttifaqı Qəhrəmanı (ölümündən sonra, 31.03.1943) **Qafur Nəsir oğlu Məmmədov** həlak olur...

**19 oktyabr 1991-ci il** - Ağdərə rayonunun ***Sırxavənd*** kəndi yaxınlığında ***"UAZ-469"*** markalı avtomaşın ermənilər tərəfindən partladılır. *3* nəfər (sürücü **Nazim Bəşirov**, sərnişin **Yelmar Cəfərov** və daha *1* nəfər) həlak olur; *2* nəfər isə (***Allahverdi Həsənov*** və başqa bir şəxs) ağır yaralanır...

**19 oktyabr 1992-ci il** - Ağdam şəhəri ermənilər tərəfindən güclü raket atəşinə tutulur. *3* nəfər həlak olur. Dağıntılar olur...

**19 oktyabr 1992-ci il** - Cəbrayıl rayonunun ***Quşçular*** kəndi yaxınlığındakı post ermənilər tərəfindən atəşə tutulur...

**20 oktyabr 1830-cu il** - Rusiyadan Azərbaycana təriqətçi və bidətçi əhalinin köçürülməsi haqqında ***fərman*** verilir...

**20 oktyabr 1905-ci il** - Xəzər donanmasının inqilabçı matrosları qaragüruhçuların Bakıda düzəltdiyi nümayişi silahla dağıdır. Dənizçilər tərksilah olunur. Matroslar həbsə alınır. *11* nəfər hərbi məhkəməyə verilir...

**20 oktyabr 1914-cü il** - Rusiya Osmanlı dövlətinə ***müharibə*** elan edir...

**20 oktyabr 1992-ci il** - Milli Qəhrəman **Vasili Əhməd oğlu Əliyev** və onun **Bəhmən** adlı baş leytenant olan dostu erməni yaraqlıları ilə döyüşdə həlak olurlar...

**20 oktyabr 1992-ci il** - Ağcabədinin ***Hindarx*** kəndinin vətənpərvər oğlu **Yalçın Yolçu oğlu Hüseynov** döyüş zamanı itkin düşür...

**21 oktyabr 1508-ci il** - I Şah İsmayıl Bağdadı tutarkən çoxlu sayda itkilər

verir...

**21 oktyabr 1603-cü il** - Təbriz əhalisi türklərin əleyhinə üsyan qaldırır. I Şah Abbas Təbriz şəhərini tutur...

**21 oktyabr 1796-cı il** - Rus qoşunu *Gəncəyə* hücum edib şəhəri tutur...

**21 oktyabr 1921-ci il** - Azərbaycan K(b)P MK Təşkilat Bürosu üzvləri ilə Qarabağın məsul işçilərinin birgə keçirdikləri konfransda Dağlıq Qarabağın muxtar vilayət kimi ayrılması xüsusi qeyddə məqsədəuyğun hesab olunur...

**21 oktyabr 1990-cı il** - Laçın rayonu ərazisində 1 nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**21 oktyabr 1990-cı il** - Laçın rayonunun ***Ağanus*** kənd sakini **Təvəkkül Adil oğlu Məhərrəmov** ***Qaladərəsi*** kəndi yaxnlığında erməni yaraqlıları tərəfindən amansızlıqla qətlə yetirilir...

**21 oktyabr 1991-ci il** - Ağdərə rayonunun ***Baş Güney*** kəndi erməni yaraqlıları tərəfindən atəşə tutulur. Az snra silahlı ermənilər kəndə basqın edirlər. Kənd sakini **Həmzə Ələkbərov** qətlə yetirilir; ***Müzəffər Nəsibov*** ağır yaralanır...

**21 oktyabr 1991-ci il** - Ağdamın ***Xaçındərbətli*** kəndinə ermənilər tərəfindən basqın edilir. *2* naxırçı yaralanır, çoxlu sayda mal-qara oğurlanaraq aparılır...

**21 oktyabr 1994-cü il** - Rusiyanın eks-prezidenti ***B. Yeltsinlə*** prezident ***L. Ter-Petrosyan*** arasında ***hərbi müqavilə*** imzalanır...

**22 oktyabr 1734-cü il** - Nadir ***Şamaxını*** zəbt edir. Şəhərdə çoxlu sayda ölənlər olur...

**22 oktyabr 1806-cı il** - Şəki xanı Səlim xanla ruslar arasında həlledici döyüş baş verir. ***Şəki*** tutulur. Səlim xanı Rusiyaya sədaqətli olan ***Cəfərqulu xan*** əvəz edir...

**22 oktyabr 1962-ci il** - Görkəmli Azərbaycan ziyalısı, milli-azadlıq hərəkatının təəssübkeşlərindən biri **Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli** vətəndən uzaqlarda - Parisdə həyata əlvida deyir...

**22 oktyabr 1990-cı il** - Şuşadan Ağdama sərnişin aparan ***"UAZ"*** markalı minik maşını daşnaq terrorçuları tərəfindən ələ keçirilir. *1* nəfər qadın, *12* yaşlı oğlu və *23* yaşlı sürücü girov götürülür...

**22 oktyabr 1991-ci il** - Daşnaq terrorçuları tərəfindən ***Füzuli*** rayonunun ***Yuxarı Veysəlli*** kəndindən *1* nəfər dinc sakin girov götürülür...

**22 oktyabr 1992-ci il** - Xocavənd *(Hadrut)* rayonunun ***Xozabert*** kəndində yuva qurmuş daşnaq terror birləşməsi Qubadlı rayonunun ***Başarat*** və ***Milanlı*** kəndlərinə basqın edirlər. ***Topağac*** və ***Qantəpərli*** yüksəklikləri ermənilər tərəfindən ələ keçirilir. Ölənlər və yaralananlar olur...





**22 oktyabr 1992-ci il** - Ağdam və Füzuli rayonlarının şimal və qərb hissəsində yerləşən kəndlər ermənilər tərəfindən müxtəlif silah növlərindən güclü atəşə tutulur. Dağıntılar və itkilər olur...

**23 oktyabr 1851-ci il** - Çar hökuməti yeni vergi sistemi haqqında qanun verir. Qanuna görə dövlət kəndlilərinin mükəlləfiyyətləri *2* hissəyə bölünür: 1)vergilər; 2) torpaq bəhəri. Bəhər torpağın miqdarından və keyfiyyətindən asılı olsa da, vergi hamı üçün bərabər tutulur. Kəndli vergini pulla ödəməli olur...

**23 oktyabr 1942-ci il** - 2 aydan artıq davam edən və yüzlərlə azərbaycanlının ölümünə səbəb olan ***Əl-Ələmeyn*** döyüşü başlayır...

**23 oktyabr 1991-ci il** - Ağdamdan Şuşaya gedən avtomobil ermənilər tərəfindən atəşə tutulur. *1* nəfər həlak olur, *1* nəfər isə ağır yaralanır...

**23 oktyabr 1992-ci il** - ***Ağdam şəhəri, Əlimədədli, Əliağalı, Xaçındərbətli, Mollalar*** və ***Kürdlər*** kəndləri top və qrad qurğularından atəşə tutulur. Ölənlər və yaralananlar olur...

**23 oktyabr 1993-cü il** - ***"Daşnaqsütun"*** təşkilatının ideologiyasına uyğun fəaliyyət göstərən DQO-nun erməni terror və quldur birləşmələri Füzuli rayonunun **Arazboyu** kəndlərini, **Horadiz** qəsəbəsini və stansiyasını ələ keçirir. Çoxlu sayda ölənlər *(o cümlədən qadın və uşaqlar)* olur. Bununla da ***Zəngilan*** rayonu ilə əlaqə tamam kəsilir...

**23 oktyabr 1993-cü il** - Ermənilər *Füzuli-Horadiz* avtomobil yolunda girov götürdükləri **40** nəfər mülki şəxsin əksəriyyətini - **26** nəfəri amansızlıqla qətlə yetirirlər...

**23 oktyabr 1993-cü il** - Ermənistan Silahlı Qüvvələri atəşin dayandırılması haqqında razılaşmanı pozaraq Azərbaycan Respublikasının cənub-qərb rayonlarına güclü hücum edir. Bir sıra yaşayış məntəqələri düşmən əlinə keçir. Çoxlu sayda azərbaycanlı həlak olur...

**23 oktyabr 1993-cü il** - Erməni terrorçuları Füzuli rayonunun ***Yağlıvənd*** kəndinin qəbiristanlığında dəfn mərasimi iştirakçılarından *13* nəfərini qətlə yetirirlər, *15* nəfər yaralanır...

**23 oktyabr 1993-cü il** - Erməni yaraqlıları Cəbrayıl rayonunun ***Arazboyu*** kəndlərinə basqın edirlər. ***Mahmudlu*** kənd sakinləri **Yurik Bəhlul oğlu Əhmədov, Bilal Həsənəli oğlu Əliyev, Şamil Səlim oğlu Yəhyayev**, Aşağı Maralyan kənd sakinləri **Məşi Məmmədalı oğlu Məmmədov, Cəfər Dadaş oğlu Abbasov, Bəxtiyar Zülfiqar oğlu Səfərov**, Böyük Mərcanlı kənd sakinləri **Baha Ağaməd oğlu Əzizov, Məmməd İbrahim oğlu Quliyev, Lala Ağahüseyn qızı Məmmədzamanova** amansızlıqla qətlə yetirilirlər...

**23 oktyabr 1993-cü il** - Terrorçu daşnaqlar Cəbrayıl rayonunun ***Sarıcallı*** kəndinə basqın edirlər. Kəndin dinc sakinlərindən olan **Pili Dilavər oğlu Əliyev** həyatında ermənilər tərəfindən amansızlıqla qətlə yetirilir. ***Ramiz Əyyub oğlu Hacıyev*** *(8 avqust 1994-cü il tarixdə o, ermənilər tərəfindən Xankəndində vəhşicəsinə qətlə yetirilir)* isə girov götürülür...

**23 oktyabr 1993-cü il** - Terrorçu daşnaqlar Cəbrayıl rayonunun ***Mehdili*** kəndinə basqın edirlər. **16** yaşlı **Rəşad Əhliman oğlu** girov götürülür. ***500*** baş qoyun sürüsü, çoxlu sayda nəqliyyat vasitəsi ermənilərin əlinə keçir. Həmin kəndə sığınmış ***Daşveysəlli*** kənd sakini **Ayaz Vəli oğlu Xudiyev** erməni hücumu nəticəsində İrana adlayarkən Araz çayında boğulur...

**23 oktyabr 1993-cü il** - Silahlı erməni birləşmələrinin Cəbrayıl rayonunun ***Arazboyu*** kəndlərinə basqını zamanı ***Safarşa*** kənd sakinləri **Sabir Hüseyn oğlu Həsənquliyev** və həyat yoldaşı **Cəmilə Yaqub qızı Əkbərova** Araz çayında boğulurlar. ***Nüzgər*** kənd sakini, Zəngilanda fizika-riyaziyyat müəllimi işləyən **Məmməd Yunus oğlu Məmmədov** Stansı Mahmudlu kəndində, *H*orovlu kənd orta məktəbinin müəllimi **Əkbər Məhəmməd oğlu Quliyev** Füzuli rayonunun Arayatlı kəndi ətrafında ermənilər tərəfindən güllələnərək qətlə yetirilirlər. ***Şıxalıağalı*** kənd sakini **Zabitə Əhməd qızı Zalova** erməni yaraqlıları tərəfindən qətlə yetirilir; onun oğlu - **Təbriz Novruz oğlu İsgəndərov** girov götürülür. Əhali yurd- yuvasından didərgin salınır. ***Doşulu*** kənd sakinləri **Şirin Bilal oğlu Şirinov**, oğlanları **Nazim** və **Tahir,** həmkəndliləri **Cavanşir Ərşad oğlu Hüseynov,** ***Məzrə*** kənd sakini **Nisə Xanlar qızı Əliyeva** *Horadiz-Daşburun* avtomobil yolunda, *Şükürbəyli* kəndi yaxınlığında ermənilər tərəfindən girov götürülürlər. İndiyədək də onlardan bir xəbər yoxdur...

**23 oktyabr 1993-cü il** - Cəbrayıl rayonunun ***Niyazqulular*** kənd sakini **Mehdiqulu Mədət oğlu Quliyev** idarə etdiyi yük maşınında həyat yoldaşı **Ofelya Məmiş qızı,** oğlanları **13** yaşlı Ceyhun və **11** yaşlı Xürrəm, **6** yaşlı qızı **Ceyhunə** ilə birlikdə Füzuli rayonunun Horadiz qəsəbəsi ərazisində erməni terrorçuları tərəfindən girov götürülür. İndiyə qədər onlardan bir xəbər yoxdur...

**23 oktyabr 1993-cü il** - Füzuli rayon sakini **Vaqif Sədri oğlu Rəhimov** *"VAZ-2106"* markalı, ***58-54 AQL*** dövlət nişanlı şəxsi minik avtomobilində Zəngilan rayonundan qayıdarkən Arazboyu ərazilərdə daşnaq terrorçularının həmləsinə tuş gəlir. Maşında olan **Vaqif Rəhimov**, atası **Sədri Rəhim oğlu,** anası **Şərqiyə Mirəzim qızı,** qardaşları **Müsəddin** və **Bəhlul** terrorçular tərəfindən girov götürülür...

**23 oktyabr 1993-cü il** - Strateji əhəmiyyətə malik olan ***Cəbrayıl*** rayonunun ərazisi axşama yaxın demək olar ki, tamamilə işğal olunur...





**24 oktyabr 1813-cü il** - Rusiya ilə İran arasında Qarabağın ***Gülüstan*** kəndində müqavilə bağlanır. İran tərəfindən şahın vəkili Mirzə Əbdülhəsən xan Şirazinin, Rusiya tərəfindən Qafqazın baş komanadnı Rtişşevin 12 oktyabrda imzaladıqları ***barışıq aktı*** 12 gün sonra sülh müqaviləsi kimi imzalanır. Rusiyadan sülh bağlamağı İran dövləti xahiş edir. Bu müqavilə 1804-1813-cü illər Rusiya-İran müharibəsinə son qoyur. ***"Gülüstan"*** müqaviləsinin şərtlərinə görə **Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı** və **Talış** xanlıqları Rusiyaya birləşdirilir, İran dövləti Dağıstana və Şərqi Gürcüstana olan iddiasından əl çəkir, Rusiyaya Xəzər dənizində hərbi donanma saxlamağa ixtiyar verilir. Azərbaycanın iki yerə bölünməsinin başlanğıcı olan ***"Gülüstan müqaviləsi"*** **15 sentyabr 1814-cü il** tarixdə qüvvəyə minir...

**24 oktyabr 1919-cu il** - Naxçıvanda ***ABŞ general-qubernatorluğu*** yaradılır. ***Edmurd Delli*** qubernator təyin edilir...

**24 oktyabr 1991-ci il** - Ağdam rayonunun ***Cinli*** kəndi ermənilər tərəfindən atəşə tutulur. Dağıntılar olur...

**24 oktyabr 1991-ci il** - Yevlax-Laçın avtomobil yolunda, ***Zərin bağı*** adlanan yerdə avtomobil ermənilər tərəfindən atəşə tutulur. Sürücü girov götürülür...

**24 oktyabr 1992-ci il** - ABŞ Konqresi ***"Azadlığı müdafiə aktına 907 saylı əlavə"***ni qəbul edir. Bununla da Azərbaycan ABŞ-ın dövlət yardımından məhrum olur...

**24 oktyabr 1993-cü il** - Cəbrayıl rayonunun Arazboyu ərazidəki *40*-a qədər kəndi, Füzuli rayonunun Horadiz qəsəbəsi də daxil olmaqla rayonun əksər Arazqırağı yaşayış məntəqələri ermənilər tərəfindən tamamilə işğal edilir. Cəbrayıl rayonunun irili-xırdalı bütün ***90*** yaşayış məntəqəsi, Füzuli rayonunun inzibati mərkəzi olan Füzuli şəhəri də daxil olmaqla *74* kəndindən *65*-i artıq düşmən əlindədir. Xeyli sayda ölənlər, yaralananlar və girov düşənlər olur. Qərbdən ***Xudafərin,*** şərqdən ***Horadiz*** keçidləri tutulduğundan dinc əhali Araz çayından İran ərazisinə keçmək məcburiyyətindədir. Bu günün dəhşətli faciələri ilə zəngin anları Azərbaycan tarixinin qara səhifələrindən birini təşkil edir...

**24 oktyabr 1993-cü il** - Cəbrayıl rayonunun Arazboyu kəndlərinə erməni silahlılarının basqınları zamanı sərhəd kəndlərə sığınmış ***Şəybəy*** kənd sakinləri **Vəliş Allahverdi oğlu Məmmədov,** həyat yoldaşı **Fatma Adış qızı Məmmədova,** *Quycaq* kənd sakini **Oruc Əziz oğlu Paşayev** şəxsi minik maşınında Füzuli rayonunun ***Qazaxlar kəndi*** ərazisində ermənilərin atdıqları mərmiyə tuş gələrək həlak olurlar...

**24 oktyabr 1993-cü il** - Erməni silahlıları Füzuli rayonunun ***Qazaxlar*** kəndi

ərazisinə basqın edirlər. Dinc əhalini çıxarmağa çalışan *Mərcanlı* kənd sakini **Fazil Seyidəliyevin** təkərli traktoru gülləbaran edilir. Lafetə yığılanlardan **Göyçək Xəlil qızı Seyidəliyeva, Gözəl Mehdi qızı İmanova, Xanım Qərib qızı Əmrahova, Faiq Fazil oğlu Seyidəliyev, Seyidəli İsmayıl oğlu Məmmədov, Mübariz Fərmayıl oğlu Məmmədov, Tamella Fərmayıl qızı Məmmədova** qətlə yetirilir. Vəhşicəsinə öldürülmüş **Elvin** və **Elgün Hüseyn oğlu Quliyev** qardaşlarının və **Rasim Yolçu oğlu İsgəndərovun** tikələri ələ gəlmir. **Allahyar İsrafil oğlu Həsənov** Arazı üzüb keçmək istəyərkən çayda boğulur. ***Fazil Seyidəliyev*** və ***Aminə Qarayeva*** ağır qəlpə yarası alırlar. ***K-700*** markalı rezin təkərli traktora hücum zamanı ermənilər sürücü işləyən Böyük Mərcanlı kənd sakini **İsmayıl Şükür oğlu Mehdiyev** və onun **İlyas** adlı oğlunu amansızlıqla qətlə yetirirlər...

**25 oktyabr 1917-ci il** - Petroqradda bolşevik üsyanı nəticəsində Müvəqqəti Hökumət devrilir...

**25 oktyabr 1928-ci il** - Bir raporta görə, həyata keçirilən tədbirlər nəticəsində Melitopola *3*, Həştərxana *1*, Kurska *4*, Mahaçqalaya *1*, Kremennayaya *2*, Krivoy Roqa *3* bəy və xan sürgün olunur...

**25 oktyabr 1989-cu il** - Erməni yaraqlı quldurları ***Gorus*** rayonu ərazisindən ***Laçın*** rayonu istiqamətində yürüş edirlər...

**25 oktyabr 1993-cü il** - Ermənilərlə döyüşdə zəngilanlı döyüşçülər - **Baloğlan Süleyman oğlu Süleymanov** (Rəzdərə k.), **Bəhram Bahadur oğlu Adıgözəlov** (Mincivan q.), **Emin Famil oğlu Nəsibov** (Zəngilan ş.), **Əlibaba Xürrəm oğlu Məmmədov** (Ağalı k.) həlak olurlar...

**25 okyabr 1993-cü il** - Erməni terrorçuları ***Cəbrayıl*** rayonunun ***Qumlaq*** kəndi yaxınlığında ***UAZ-469*** markalı maşını gülləbaran edirlər. Nəticədə ***Mincivan*** qəsəbə sakinləri ***Bəhram Adıgözəlov*** və ***Emin Nəsibov*** qətlə yetirilirlər...

**25 oktyabr 1993-cü il** - ***Cəbrayıl*** rayonunun ***Qumlaq*** və ***Zəngilan*** rayonunun ***Bartaz*** yaşayış məntəqələri istiqamətlərindən ağır texnikalarla həmlə edən düşmən çoxlu sayda tələfat versə də, Zəngilan alayı da ***9*** nəfər igid əsgərini itirir. Gecə ermənilər Zəngilana gedən yolu kəsirlər...

**26 oktyabr 1738-ci il** - Car və Tala ləzgiləri Nadir şahın qardaşını və digər sərkərdələri öldürürlər...

**26 oktyabr 1738-ci il** - Nadirin kiçik qardaşı, sərkərdə, 1736-cı il Azərbaycan hakimi İbrahim xan Qarabağ, Şəki, Şirvan və Balakəndə İran əsarətinə





qarşı baş verən üsyanları yatırmaq məqsədilə böyük yürüşə başlayır. ***Cənik dağı*** dərə-sindəki vuruşmada İran qoşunu mühasirəyə düşür və məhv edilir; atışma zamanı ***İbrahim xan*** özü də öldürülür...

**26 oktyabr 1992-ci il** - Cəbrayıl rayonunun 1973-cü il təvəllüdlü vətənpərvər oğlu **Qürbət Səmərqənd oğlu Qəhrəmanov** ermənilərlə döyüşdə həlak olur...

**26 oktyabr 1992-ci il** - Ağdam şəhəri, Əliağalı, Əlimədədli, Xaçındərbətli, Mollalar, Kürdlər kəndləri toplardan və raket qurğularından atəşə tutulur. Çoxlu dağıntılar var...

**26 oktyabr 1993-cü il** -Füzuli rayonunun ***Arazqırağı*** bir neçə kəndi də erməni silahlı birləşməsinin güclü hücumları nəticəsində işğal edilir. Ölənlər, yaralananlar və dağıntılar olur...

**26 oktyabr 1993-cü il** - Ermənilər ratsiya ilə zəngilanlılara ***xəbərdarlıq ultimatumu*** verirlər: *"Qonşuluq xatirinə arvad-uşağı dəmir yolu ilə çıxarmağa icazə veririk"*. Amma heç bir saat keçməmiş onlar azərbaycanlılara qarşı hücuma keçirlər...

**26 oktyabr 1993-cü il** - Erməni silahlıları Zəngilan rayonunun ***Ağbənd-Vejnəli*** istiqamətindən tanklarla və piyadalarla hücuma keçir. ***"Koroğlu daşı"*** deyilən yerdə qanlı döyüşlər gedir. Zəngilan alayı müdafiə olunur. Çoxlu sayda itkilər olur. Tağbənddə ***4*** azərbaycanlı əsgəri ağır yaralanır. Mahrızlı kəndi yandırılır. Seyid nəslindən olan **Qəfəs nənə** və onun **bacısını** ermənilər vəhşicəsinə yandırırlar...

**27 oktyabr 1620-ci il** - I Şah Abbasın fərmanı ilə ***Qafan*** və ***Üçtəpə*** kəndləri **Kunkan** adlı bir erməninin mülkiyyətinə verilir...

**27 oktyabr 1922-ci il** - Zaqafqaziya Ölkə Komitəsinin iclasında Azərbaycan K(b)P MK-nə **5 iyul 1921-ci** il tarixli qərarın həyata keçirilməsi təklif olunur...

**27 oktyabr 1957-ci il** - Axşam saat 21 radələrində ***Qaryagin*** rayonunun *(indiki Füzuli rayonu)* ***Horadiz*** kəndində dağlardan süzülüb-gələn gur yağışın çoxluğu səbəbindən qıjıltı ilə axıb sellənən ***Dəli çay*** kənddə **11** nəfərin həyatına son qoyur. Həmin gün analoji ***facia*** hadisəsi rayonun digər kəndlərində də baş verir. Ölənlər və yaralananlar olur...

**27 oktyabr 1991-ci il** - Saat *18* radələrində Xocavənd rayonunun ***Xocavənd*** yaşayış məntəqəsi erməni terrorçuları tərəfindən güclü atəşə tutulur. Yusif və ***İlyas Paşayevlər***, eləcə də ***Rübabə Novruzova*** ağır güllə yarası alırlar. Sürücü ***İsmixan Misir oğlu Allahverdiyev*** ermənilər tərəfindən girov götürülür...

**27 oktyabr 1992-ci il** - Ağdam şəhəri, Əliağalı, Əlimədədli, Mollalar və Cinli kəndləri növbəti dəfə atəşə tutulur. Yaralananlar, ölənlər və dağıntılar olur...

**27 oktyabr 1993-cü il** - Ermənilər Zəngilan rayonunun ***İkinci Ağalı*** kəndini də yandırırlar. Rayonun ***Şərifan*** kəndi yaxınlığında qanlı döyüşlər gedir...

**27 oktyabr 1993-cü il** - Ermənistan ordusu artıq ***Zəngilan*** şəhərinin həndəvərindədir. Şiddətli döyüşlər gedir. İtkilər olur...

**28 oktyabr 1895-ci il** - Xalq qəhrəmanı *Qaçaq Nəbi* öz dəstəsi ilə Gorusu mühasirəyə alır, qalanın rəisi Səlim bəydən Həcərin azad olunmasını tələb edir; tələb yerinə yetirilir...

**28 oktyabr 1906-cı il** - Bakı qradonaçalnikliyi yaradılır...

**28 oktyabr 1991-ci il** - Ermənilər daxili qoşunların zirehli texnikasından istifadə edərək, *Xocavənd* rayonunun azərbaycanlılar yaşayan kəndlərinə hücuma keçməyə başlayırlar. Dağıntılar və itkilər olur...

**28 oktyabr 1992-ci il** - Ağdərə rayonu ərazisində əsir götürülmüş ***Mayıl Məmmədəli oğlu Məmmədova*** Xankəndi şəhər DTK inzibati binasında ***Sergey Abramyan*** adlı erməni zabiti tərəfindən torpaq yedizdirilir, ***Tuğ*** kəndində saxlanıldığı vaxt ermənilər tərəfindən tonqalda qızdırılmış xaçşəkilli dəmirlə sinəsindən damğalanır, ***Aşot Qriqoryan*** tərəfindən alnına çapıq çəkilir, köz ilə həmin yerdən xaç şəklində dərisini yandırıb ona amansız işgəncələr verirlər...

**28 oktyabr 1992-ci il** - Qarabağ döyüşlərində ucarlı igidlər - **Ramiz Ənvər oğlu Bəydəmirov, Vidadi Məmmədrəhim oğlu Kərimov** həlak olurlar...

**28 oktyabr 1993-cü il** - Zəngilan rayonunun **Mincivan** qəsəbəsi və dəmiryol stansiyası ermənilər tərəfindən işğal olunur...

**28 oktyabr 1993-cü il** - Zəngilan rayonunun ***Havalı*** kəndi ermənilər tərəfindən işğal olunur. ***Genlik, Malatkeşin*** kəndləri yandırılır. ***Vejnəli*** və ***Kollu Qışlaq*** kəndləri yaxınlığında, eləcə də, ***Şükürataz*** yüksəkliyində qanlı döyüşlər gedir. İtkilər olur...

**28 oktyabr 1995-ci il** - Erməni terrorçuları tərəfindən Bakı metropoliteninin ***"Ulduz"*** və ***"Nərimanov"*** stansiyaları arasında ***terror aktı*** törədilir. Nəticədə *290* nəfər (o cümlədən, *137* qadın, *29* uşaq) faciəli şəkildə həlak olur (ölənlərin 99 %-i azərbaycanlıdır); *270* nəfər ağır yaralanır...

**29 oktyabr 1781-ci il** - Dövrünün nüfuzlu şəxsiyyəti, Təbrizin bəylərbəyi ***Nəcəfqulu xan*** öldürülür...

**29 oktyabr 1914-cü il** - Rusiya-Türk müharibəsi ***(Sarıqamış)*** başlanır...

**29 oktyabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə *263* nəfər güllələnir...





**29 oktyabr 1991-ci il** - Kral Hüseynin göstərişi ilə ərəb ölkələrindəki erməni icmalarının Əmmanda ***"Mərkəzləşdirilmiş Erməni İcmalarının İttifaqı"*** adlı mərkəzi beynəlxalq erməni təşkilatı kimi qeydə alınır...

**29 oktyabr 1991-ci il** - Saat *15* radələrində Azərbaycan Hava Yolları Konserninin Yevlax Şirkətinə məxsus olan *"AN-2"* təyyarəsi Əsgəran *(Xocalı)* rayonunun ***Xanabad*** və ***Kərmirsar*** kəndləri ərazisində ermənilər tərəfindən vurulur. **Hamlet (Sabir) Rəcəbov, Ceyhun Bəşirov, Yunis Misirov, Əhmədağa Baxşıyev, Azad Sadıqov, Hikmət Muradov, Əsəd Əsədov** bu erməni terrorunun qurbanlarından olurlar. Onların meyidləri ermənilər tərəfindən vəhşicəsinə yandırılır...

**29 oktyabr 1992-ci il** - Fərrux, Xanabad və Sırxavənd kəndləri uğrunda iri miqyaslı ***hərbi əməliyyat*** keçirilir. İtkilər olur...

**29 oktyabr 1992-ci il** - AN-2 təyyarəsinin ekipajı arasında Milli Qəhrəman **Hikmət Oqtay oğlu Muradov** da ermənilərin atdığı raket atəşindən həlak olur...

**29 oktyabr 1992-ci il** - Ağdam şəhəri raket atəşinə tutulur. Dağıntılar var. 3 nəfər həlak olur...

**29 oktyabr 1992-ci il** - Əkrəm Ərşad oğlu İsmayılov Qaraqaya döyüşündə ermənilərlə atışmada həlak olur...

**29 oktyabr 1993-cü il** - Zəngilan rayonunun **Babaylı, Məmmədbəyli, Birinci Ağalı, İkinci Ağalı, Rəbənd, Alıbəyli, Xumarlı, Sarıl, Şərifan, Hacallı, Muğanlı, Ağbənd, Vejnəli, Əmirxanlı, Xurama, Bartaz, Şayıflı, Nəcəflər, Yuriflər, Cahangirbəyli, Saralı Xəştab, Şamlı, Aladin, İsgəndərbəyli, Kolluqışlaq, Rəzdərə, Muğanlı, Qaragöl, Qaragöz, Vənətli kəndləri** və **Mincivan** qəsəbəsi ermənilər tərəfindən işğal olunur...

**30 oktyabr 1918-ci il** - ***"Mudros"*** sülh müqaviləsinə görə Türkiyənin Suriya Livan, Fələstin, İraq vilayətləri İngiltərə və Fransanın idarəçiliyinə verilir...

**30 oktyabr 1919-cu il** - İngiltərə hökuməti ilə müsavatın nümayəndə heyəti arasında Britaniya imperialistləri İran və Azərbaycan arasında hərbi-siyasi birlik layihəsini irəli sürür. İngiltərənin layihəsinin mahiyyəti Azərbaycanı İranın şah hökumətinə tabe etmək yolu ilə tam əsarət altına almaqdan ibarət idi...

**30 oktyabr 1991-ci il** - Qarabağın abad kəndlərindən olan **Tuğ** və **Salakətin** kəndləri erməni terrorçuları tərəfindən işğal olunur. Tuğ kəndi büsbütün yandırılır. Ölənlər və yaralananlar olur. 230-dan çox evi və ictimai binanı yandıran ermənilər müasir silahların gücünə arzərbaycanlı əhalini öz tarixi dədə-baba torpaqlarından qovurlar...

**30 oktyabr 1991-ci il** - Xocavənd rayonunun ***Xocavənd*** və ***Əmirallar*** yaşayış

məntəqələri daşnaq terrorçuları tərəfindən atəşə tutulur. Az sonra ermənilər tərəfindən Xocavəndə basqın olunur. Kənd sakinləri doğma yurd yerlərini tərk etmək məcburiyyətində qalırlar. ***Əmirallar*** kəndinin orta məktəb binası və bir neçə evləri raket mərmilərindən yanaraq ciddi zədələnir. Ağır yaralananlar olur...

**30 oktyabr 1992-ci il** - Qara qaya uğrunda ermənilərlə qanlı döyüşdə **Rafiq Əhəd oğlu Quliyev** həlak olur...

**30 oktyabr 1993-cü il** - Uzun və üzücü döyüşlərdən sonra strateji əhəmiyyəti olan **Zəngilan rayonu** da erməni hərbi birləşmələri tərəfindən işğal edilir. Zəngilanlı igidlər təpədən-dırnağadək silahlanmış düşmənlə döyüşə-döyüşə, bir sıra hallarda özlərini təhlükəyə atıb çoxlu sayda itkilər verərək dinc əhalinin Araz çayına yetişməsinə şərait yaradırlar. **10** nəfərdən çox adam Arazın sularında boğulur. Ətraf əraziləri adamların dəhşətli fəryadı, naləsi, hönkürtüsü bürüyür. Zəngilanlılar həyatlarında ən faciəli günlərindən birini yaşayırlar. Zəngilan rayonunun işğalı ilə Azərbaycanın tarixinə daha bir qara səhifə yazılır...

**30 oktyabr 2003-cü il** - Daşnaq erməni faşizminin yetirməsi olan sadvalçı ***Qurban Muradovun*** terrorçu qrupu Azərbaycanın şimal bölgəsində *2* evə və *2* mağazaya basqın edir. *1* nəfər azərbaycanlı günahsız mülki şəxs qətlə yetirilir...

**31 oktyabr 1914-cü il** - Qafqazda hərbi əməliyyat başlayır. Türk qoşunu ***Qars*** və ***Batum*** tərəfdən Qafqaza girir...

**31 oktyabr 1942-ci il** - Saat *11*-də ***4438*** saylı iş üzrə Cinayət Məcəlləsinin 72-ci maddəsinin II hissəsi ilə ittiham olunan aşağıdakı azadfikirli gənclər - Azərbaycan Sənaye İnstitutunun (ASİ) 2-ci kurs tələbəsi **Süleyman Əli Abbas oğlu İsgəndərli** (1922), elektrik montyoru işləyən vətənpərvər **Ələsgər Səttar oğlu Tağıyev** (1921), Bakı Dəmiryol Texnikumunun tələbəsi **Çingiz Seyfulla oğlu Mustafayev** (1923), ADU-nun 3-cü kurs tələbəsi **Məmmədhüseyn Həbib oğlu Rzayev** (1921), ASİ-nin tələbəsi **Hüseynağa Mirhaşım oğlu Ağayev** (1921), ADU-nun 4-cü kurs tələbəsi **Ağa Ələsgər Rza oğlu Məmmədov** (1921), ADU-nun 4-cü kurs tələbəsi **Saleh Əbdülhüseyn oğlu Rzayev** (1921), ASİ-nin 2-ci kurs tələbəsi **Zaman Zeynal oğlu Mehdiyev** (1923) 10 il müddətinə azadlıqdan məhrum edilirlər...

**31 oktyabr 1991-ci il** - Tuğ kəndini işğal edən ermənilər evləri qarət edir, bəzilərini yandırırlar...

**31 oktyabr 1991-ci il** - Azərbaycan Respublikası Ali Sovetinin deputatı, Ağ-





damın vətənpərvər oğlu, **37** yaşlı **Eldar Teymur oğlu Bağırov** Bakıda bacısıgilin evi qarşısında *"öz ermənilərimiz"* tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**31 oktyabr 1992-ci il** - Milli Qəhrəman **Nicat Xıdır oğlu Həsənov** Ağdam rayonu ərazisində, Qazançı yaşayış məntəqəsi yaxınlığında erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**31 oktyabr 1992-ci il** - Milli Qəhrəman **Ənvər Talış oğlu Arazov** Sırxavənd yaxınlığında erməni yaraqlıları ilə döyüşdə həlak olur...

# NOYABR

**1 noyabr 1988-ci il** - Şuşa yaxınlığında, ***Topxana*** adlı yerdə ermənilər tərəfindən Ermənistan SSR-in ***Kanaker*** alüminium zavodu filialının və onun işçiləri üçün kooperativ əsasında pansionatın qanunsuz tikintisinə başlanılır. DQMV İcraiyyə Komitəsi Stepanakertə köçən Sumqayıtın keçmiş sakinlərinə gərək olan mənzil tikintisi bəhanəsi ilə bu obyektin tikintisinə icazə verir...

**1 noyabr 1991-ci il** - Xocalı özünümüdafiə dəstəsinin döyüşçüləri, kəşfiyyatçılar və polis əməkdaşları erməni yaraqlılarının basqınlarını çətinliklə də olsa, dəf edə bilirlər...

**1 noyabr 1992-ci il** - Cəbrayıl rayonunun ermənilərlə sərhəd kəndləri atəşə tutulur. Dağıntılar olur...

**1 noyabr 1993-cü il** - Ağdam və Füzuli rayonlarının ərazilərində döyüşlər gedir. Həlak olan, yaralanan və itkin düşənlər vardır.

**2 noyabr 1803-cü il** - Rus qoşunları ***Gəncə*** xanlığı ərazisinə işğalçı yürüş edir. Yüzlərlə günahsız adam həlak olur...

**2 noyabr 1917-ci il** - Bakı Sovetinin geniş iclasında Sovet Hakimiyyəti elan edilir...

**2 noyabr 1988-ci il** - DQMV DİI-nin rəhbərliyi milis kapitanı ***Musa Vəli oğlu Camalovu*** çağırıb xidməti silahını və sənədlərini əlindən alırlar...

**2 noyabr 1989-cu il** - Martuni *(Xocavənd)* şəhərində qərar tutan erməni terrorçuları şəhərin azərbaycanlılar yaşayan məhəlləsinə - ***12*** evə basqın edirlər. ***500*** nəfərə yaxın azərbaycanlı əhali ev-eşiyindən didərgin düşür...

**2 noyabr 1991-ci il** - Hadrut rayonunun **Salakətin kəndi** və kəndin yaxınlığındakı bir sıra mövqelər tam olaraq ermənilərin əlinə keçir...

**3 noyabr 1990-cı il** - Ağbulaq kəndinə ermənilər silahlı basqın edir...

**3 noyabr 1990-cı il** - Laçın rayonunun ***Zabux*** kəndində daşnaqların basqını nəticəsində *3* nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**3 noyabr 1991-ci il** - Füzuli rayonunun *Arış* kəndi istiqamətində hücum edən ermənilər kənd sakini ***Mehman Hüseynovu,*** eləcə də milis əməkdaşları ***İlqar İbrahimovu, Nadir Qardaşovu*** girov götürürlər...





**3 noyabr 1992-ci il** - Füzuli rayonunun ermənilərlə sərhəd kəndləri güclü atəşə tutulur. Dağıntılar olur...

**4 noyabr 1042-ci il** - Təbrizdə güclü *zəlzələ* baş verir. **40 000** adam həlak olur...

**4 noyabr 1214-cü il** - Atabəy Özbək Qarabağa yürüş edir. Xaçın knyazlığı ərazisində çoxlu **qırğın** törədilir, zəngin hərbi qənimət əldə olunur. Atabəy Özbək qələbə qazanır...

**4 noyabr 1920-ci il** - Qafqaz Bürosu Dağlıq Qarabağa ***muxtariyyət*** verilməsini həyata keçirməyə çağırır...

**4 noyabr 1988-ci il** - İrəvanda keçirilən mitinqdə Ermənistanı onun köklü sakinləri olan azərbaycanlılardan təmizləmək haqqında şüarlar səsləndirilir...

**4 noyabr 1992-ci il** - Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının əraziləri ermənilər tərəfindən güclü atəşə tutulur...

**4 noyabr 2000-ci il** - Mahaçqalada erməni diasporunun ***Qarabağ*** hərbi qanadı ilə *"Sadval"*çılara məxsus ləzgi diasporunun hərbi qanadı arasında ***əlaqə*** yaradılır...

**5 noyabr 1720-ci il** - Rusiya ilə Türkiyə arasında daimi sülh haqqında saziş bağlanır. Amma bu saziş hər iki dövlət arasındakı gərgin münasibətləri yaxşılaşdırmır...

**5 noyabr 1814-cü il** - İngiltərə ilə İran arasında ***Tehran müqaviləsi*** imzalanır...

**5 noyabr 1991-ci il** - Erməni terrorçuları Şuşa rayonunun ***Nəbilər*** kəndinə basqın edirlər. Kənd sakini **Vahid Qara oğlu Sevindikov** qətlə yetirilir; milis əməkdaşı ***Elxan Fərhad oğlu Ələkbərov*** ağır yaralanır...

**5 noyabr 1991-ci il** - Qazax rayonunun ***Xeyrimli*** və ***Aşağı Əskipara*** kəndlərinə erməni yaraqlıları basqın edir. Aşağı Əskipara kəndinin *2* nəfər dinc sakini qətlə yetirilir, *4* nəfər yaralanır...

**5 noyabr 1992-ci il** - Füzuli və Ağdam rayonlarının əraziləri ermənilər tərəfindən atəşə tutulur. Tələfat və dağıntılar olur...

**5 noyabr 1992-ci il** - Zəngilan rayonunun ***Qaragöl*** kəndinə erməni silahlıları basqın edir. Dinc sakinlər - Qərib və **Pərviz Nəcəfovlar** amansızlıqla qətlə yetirilirlər...

**5 noyabr 1992-ci il** - Ağdərənin polis əməkdaşlarını aparan avtobus ***Qozlu*** adlanan sahədə ermənilərin silahlı hücumuna məruz qalır. *5* polis əməkdaşı

həlak olur, *10* nəfər isə ağır yaralanır...

**6 noyabr 1412-ci il** - Qara Yusif ilə Şirvanşah İbrahim arasında ***döyüş*** baş verir. Hər iki tərəfdən çoxlu sayda itkilər olur...

**6 noyabr 1989-cu il** - Erməni terrorçuları Ağdam ilə Şuşanı birləşdirən ***Qarqar çayı*** üzərindəki körpünü partladırlar. Şuşa ilə nəqliyyat əlaqəsi kəsilir...

**6 noyabr 1991-ci il** - Qazax rayonu ərazisinə basqın edən erməni yaraqhları ***Yuxarı Əskipara*** kəndinin bir nəfər dinc sakinini qətlə yetirir...

**6 noyabr 1992-ci il** - Ağdam rayonunun Yuxarı Qarabağla həmsərhəd kəndləri atəşə tutulur...

**6 noyabr 1992-ci il** - Böyük xanəndə, *"Rast"* muğamının mahir ifaçısı ***Şahmalı Mürsəqulu (Əlif) oğlu Hacıyev - Kürdoğlu*** 7 yaşlı oğlu **Şahiməli** ilə bir yerdə ermənilərin *"Qrad"* qurğusundan atdıqları mərminin qurbanı olurlar...

**7 noyabr 1605-ci il** - Qızılbaşlar ilə osmanlılar arasında Təbriz yaxınlığında qanlı döyüşlər baş verir. Osmanlı sərdarı ***Cığaloğlu*** darmadağın edilir. Hər iki tərəfdən çoxlu sayda əsgər öldürülür...

**7 noyabr 1605-ci il** - I Şah Abbas ***Sufiyan*** ətrafında *(Təbriz yaxınlığında)* Osmanlı ordusu üzərində qələbə çalır. Çoxlu sayda itkilər olur...

**7 noyabr 1605-ci il** - Ərdəbil və Sərab arasındakı döyüşdə türklər məğlub olur. Cığaloğlu Sinan paşa Diyarbəkirə qaçır. Səfəvilər külli miqdarda hərbi qənimətə sahib olur...

**7 noyabr 1827-ci il** - Abbas Mirzə ilə Rusiya nümayəndələri arasında ***uğursuz danışıqlar*** başlayır...

**7 noyabr 1917-ci il** - Dünyanın ən böyük imperaiyası olan SSRİ-nin əsası qoyulur...

**7 noyabr 1944-cü il** - XX əsrin məşhur kəşfiyyatçılarından biri, bakılı **Rixard Zorge** Tokio türməsində öldürülür...

**7 noyabr 1989-cu il** - Mardakert *(Ağdərə)* rayonunun ***Dovşanlı*** kəndində yuva salan erməni terrorçuları kənddə azərbaycanlılar yaşayan *12* evə basqın edirlər. Onlar kəndin azərbaycanlı əhalisini *1* saat ərzində kənddən çıxmağa məcbur edirlər. Şəxsi əmlaklarından məhrum olan azərbaycanlı əhali ev-eşiyindən didərgin salınır...

**7 noyabr 1991-ci il** - Erməni terrorçuları Füzuli rayonunun ***Xələfşə*** kəndinə basqın edirlər. *72* yaşlı **Məxmər Hacıyeva** kənd yolunda qətlə yetirilir, *70* yaşlı **Şura Mustafayeva** yatağında vəhşicəsinə güllələnir. Milis əməkdaşları ***İbrahim Məmmədzadə*** və ***Xalıqverdi Əhmədov*** ağır yaralanırlar...





**7 noyabr 1998-ci il** - Dağlıq Qarabağ münaqişəsinin həllinə dair ***«Ümumi dövlət»*** adı ilə tanınan 3-cü təklif irəli sürülür. Bu variant mahiyyət etibarı ilə Dağlıq Qarabağı müstəqil dövlətə çevirmək məqsədi güdür...

**8 noyabr 1905-ci il** - Erməni daşnaqları müsəlmanları müharibəyə çağırmaq üçün Dərəbağın bağında təqsirsiz, günahsız ***Bəhmənli*** sakinlərini **(Abbas Həsən oğlu** və başqalarını) amansızlıqla qətlə yetirirlər...

**8 noyabr 1914-cü il** - Türk qoşunları Cənubi Azərbaycana girir. Onlar rus ordusunun arxasına keçmək niyyəti güdürlər...

**8 noyabr 1934-ci il** - Görkəmli ictimai və siyasi xadim, tanınmış alim, Azərbaycan Parlamentinin sədri vəzifəsində çalışmış dəyərli ziyalı Əlimərdan bəy Topçubaşov Azərbaycandan kənarda didərgin həyatı sürərək Fransada, Parisin Sen-Deni rayonunda vəfat edir...

**8 noyabr 1992-ci il** - Cəbrayıl rayonunun bir neçə yaşayış məntəqəsi və oradakı postlar erməni artilleriyasının atəşinə məruz qalır. Dağıntılar olur...

**8 noyabr 1993-cü il** - ATƏM-in Minsk qrupu Vyanada ***«Yeniləşdirilmiş cədvəl»***ə Azərbaycan tərəfi üçün heç də məqbul olunmayan ***zəif düzəlişlər*** edir...

**9 noyabr 1733-cü il** - Ağ-Dərbənddə Osmanlı qoşunu ilə Nadirin qoşunu arasında ***dəhşətli döyüş*** baş verir...

**9 noyabr 1905-ci il** - Gəncənin ***Qoşaçinar*** adlı ərazisində ermənilər heç bir səbəb olmadan **Əmiraslan Əlipaşa oğlunu, Cabbar Hüseyn oğlunu, Rüstəm İsmayıl oğlunu, Rza Cəbrayıl oğlunu,** eləcə də **Molla Cəlilli** kəndinin digər sakinlərini gülləbaran edirlər...

**9 noyabr 1991-ci il** - Salakətin kəndi (əvvəllər Hadrut rayonunun, indi Xocavənd rayonunun tabeliyndədir) yenidən ermənilər tərəfindən işğal olunaraq yandırılır...

**9 noyabr 1992-ci il** - Cəbrayıl rayonunun bir sıra yaşayış məntəqəsi ermənilər tərəfindən atəşə tutulur...

**9 noyabr 1992-ci il** - Ağdam şəhəri və ona bitişik kəndlər ermənilər tərəfindən qrad qurğularından atəşə tutulur...

**10 noyabr 1467-ci il** - Muş düzündəki döyüşdə qaraqoyunlular məğlub olur...

**10 noyabr 1724-cü il** - Rus çarı I Pyotr erməni xalqını öz himayəsinə almaq

haqqında *fərman* imzalayır...

**10 noyabr 1918-ci il** - Türk ordusu Bakını tərk edir...

**10 noyabr 1990-cı il** - Ağdam ilə Şuşa arasındakı avtomobil yolu *Əsgəran* yaxınlığında ermənilər tərəfindən bağlanır...

**10 noyabr 1992-ci il** - Erməni yaraqlıları Ağdamın Ergi düzündəki qışlaqlara basqın edir. Mərzili kənd sakinləri *Sarıgül Şirinova, Mürsəl Babayev, Avşar Yolçuyev,* Novruzlu kənd sakini *Əbil Bayramov* girov götürülür...

**10 noyabr 1992-ci il** - Ümummilli Erməni Hərəkatının lideri, Azərbaycan torpaqlarının işğalında fəal iştirakına görə *"Müqəddəs Georgi"* ordeni almış *Aşot Beloyan* Bakıya gəlir...

**11 noyabr 1467-ci il** - Ağqoyunlularla Qaraqoyunlular arasında *Muş döyüşü* baş verir. Qaraqoyunlular məğlub olur. Cahan şah öldürülür. Bağdada qədər olan geniş ərazi Ağqoyunluların əlinə keçir...

**11 noyabr 1549-cu il** - Dövrünün görkəmli söz ustası, xəttat **Bəhram Mirzə** ölür...

**11 noyabr 1724-cü il** - I Pyotrun göstərişi ilə erməni ailələrinin ilk qrupları Gilan, Mazandaran və Bakıya köçürülür...

**11 noyabr 1917-ci il** - SQÖM milli təşkilatların iştirakı ilə OZAKOM ləğv edilərək əvəzində Zaqafqaziya Komissarlığı yaradılır...

**11 noyabr 1918-ci il** - İngilislərin dolayısı ilə Andranik Ozanyanın tərəfini saxlamaları məlum olur. Bundan istifadə edən *Andranik* azərbaycanlılar yaşayan kəndlərə basqın edir; cinsindən və yaşından asılı olmayaraq əhalini vəhşicəsinə qətlə yetirir...

**11 noyabr 1991-ci il** - Erməni terrorçuları Qazax rayonunun *Xeyrimli* kəndinə basqın edirlər. *2* nəfər dinc sakin qətlə yetirilir, *1* nəfər yaralanır...

**11 noyabr 1991-ci il** - Ağdam rayonunun *Abdal* və *Gülablı* kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur. Ciddi dağıntılar olur...

**11 noyabr 1993-cü il** - *Robert Köçəryan, Zori Balayan* və *Abdulla Öcalan* arasında üçtərəfli görüş keçirilir...

**12 noyabr 1905-ci il** - Gəncədə Amos Perovun dəyirmanında erməni daşnaqları **Kərbəlayi Fərəc Həsən oğlu** adlı bir müsəlmanı öldürürlər...

**12 noyabr 1988-ci il** - Ermənistanın Spitak rayonunun PK-nin birinci katibi *H.Muradyan,* RİK-nin sədri *F.Abuçyan,* baş həkim *R.Baqdaryan,* hakim *E.Nazaryan,* milis rəisi *V.Sarkisyan,* prokuror *Araksiyan,* xalq hakimi *V.Sərkisyan*





azərbaycanlı ailələrin mənzillərindən qovulmasını, evlərinin yandırılmasını, bəzilərinin ölümlərini təşkil edirlər. *36* nəfər yaşlı sakin öldürülür. *70* uşaq (5 yaşından 12 yaşına qədər) valideynlərinin gözləri qarşısında 1,5 metr diametrliyində, 20 metr uzunluğunda olan trubalara doldurulur və trubalar qaynaqlanır. *27* uşaq müxtəlif istiqamətə aparılır...

**12 noyabr 1991-ci il** - Xocavənd rayonunun *Axullu* kəndi ermənilər tərəfindən işğal olunur. Ölənlər və yaralananlar olur. Kənd əhalisi doğma ocaqlarından didərgin düşür...

**12 noyabr 1991-ci il** - Ağdam-Xocalı marşrutu ilə uçan *Mİ-8* vertolyotu *Əsgəran* yaxınlığında atəşə tutulur. Vertolyotu çətinliklə olsa da Xocalı aeroportuna endirmək mümkün olur...

**12 noyabr 1991-ci il** - Xocalıdan Ağdama gələn *UAZ* avtomobili *Noraguh* istiqamətindən atəşə tutulur. **T.Məhərrəmov** aldığı ağır yaradan ölür...

**12 noyabr 1991-ci il** - Xocalıdakı 23 saylı SMD-nin rəisi **Tahir Məmmədov** daşnaq terrorçuları tərəfindən qətlə yetirilir...

**12 noyabr 1993-cü il** - BMT TŞ Qarabağ problemi ilə bağlı Zəngilan rayonunun və Horadiz qəsəbəsinin ermənilər tərəfindən işğalını pisləyən **884** saylı qətnamə qəbul edir. Lakin erməni tərəfi bu qətnamənin tələblərini də yerinə yetirmir...

**13 noyabr 1187-ci il** - III Toğrulun qoşunu ilə Qızıl Arslanın qoşunları Həmədan yaxınlığında üz-üzə gəlir. Bir neçə günlük döyüşdən sonra Atabəyin qoşunu geri çəkilir...

**13 noyabr 1905-ci il** - Gəncə ərazisində **Məşədi Sadıq** adlı bir müsəlmanın ermənilər tərəfindən doğranmış bədəni tapılır...

**13 noyabr 1926-cı il** - Azərbaycanın görkəmli ziyalıları *Məhəmmədhəsən Baharlının* və *Rəhim bəy Vəkilovun* istintaq işinə baxılır. Onlar antisovet fəaliyyətdə təqsirli bilinərək ciddi rejimli təcridxanaya salınırlar...

**13 noyabr 1992-ci il** - Cəbrayıl rayonunun bir sıra yaşayış məntəqələri və orada yerləşdirilmiş postlar ermənilərin artilleriya atəşlərinə məruz qalır. Dağıntılar olur...

**14 noyabr 1830-cü il** - Car rus qoşunları tərəfindən tutulur. *32* üsyançı həbs olunaraq edam edilir...

**14 noyabr 1989-cu il** - Qubadlı rayonunun *Seytas* kənd sakinləri heyvanlarını otararkən erməni yaraqlıları tərəfindən güllələbaran edilirlər. Nobatçılardan

**İnqilab Oruc oğlu Babaşov** qətlə yetirilir, ***Xəyyam Əliyev*** isə yaralanır...

**14 noyabr 1990-cı il** - Cəbrayıl rayonunun ***Söyüdlü*** kənd sakini ***Məcid Allahverdiyev*** erməni terrorçuları tərəfindən girov götürülür...

**14 noyabr 1992-ci il** - Füzuli rayonunun ***Xocavənd*** rayonu ilə həmsərhəd kəndləri ermənilər tərəfindən atəşə tutulur...

**14 noyabr 2001-ci il** - *12.30*-da Yerevanda Ermənistan MEA-nın yerləşdiyi binanın III mərtəbəsində ***"Taliban"*** hökumətinin Əfqanıstandan kənarda fəaliyyət göstərən qanunvericilik orqanı üzvlərinin bir qrupunun iştirakı ilə qeyri-leqal yığıncağı keçirilir...

**15 noyabr 1731-ci il** - Səfəvilər Osmanlılarla döyüşdə ***Urmiyanı*** itirirlər...

**15 noyabr 1917-ci il** - Cənubi Qafqaz Xüsusi Komitəsi ləğv edilir. Cənubi Qafqaz Komissarlığı (sədri - ***Y.Gegeçkori***) yaradılır...

**15 noyabr 1918-ci il** - Mudros barışığına görə türk qoşunları Azərbaycan ərazisini tərk edir...

**15 noyabr 1920-ci il** - Erməni yaraqlıları İrəvan şəhərində aborigen əhalinin sayını azaltmaq üçün qırğınlar törədib çoxlu sayda azəri türklərini qətlə yetirirlər...

**15 noyabr 1944-cü il** - Stalinin rəhbərliyi ilə müxtəlif ərazilərdəki, eləcə də, Türkiyə sərhədləri yaxınlığındakı mesxeti türkləri Orta Asiyaya və Fərqanəyə deportasiya edilir...

**15 noyabr 1988-ci il** - Şuşa yaxınlığındakı ***Topxana*** meşəsi ermənilər tərəfindən dağıdılır, yandırılır, ağaclar buldozerlərin ağzına verilərək məhv edilir...

**15 noyabr 1989-cu il** - Əsgəran rayon sakini ***Şirin Səməd oğlu Şirinov*** Meşəli kəndi yaxınlığında, ***Meydan*** deyilən ərazidə erməni yaraqlısı tərəfindən namərdcəsinə güllələnir. Aldığı güllədən o, xəstəxanada keçinir...

**15 noyabr 1990-cı il** - Ağdamdan Şuşaya gedən ***"QAZ-24"*** markalı avtomaşın ermənilər tərəfindən saxlanılır. Sərnişinlər - xüsusilə, ***Q. Cümşüdov*** vəhşicəsinə döyülür; sürücü **Rasim Xasay oğlu Məmmədov** ağır bıçaq zərbəsi alaraq qətlə yetirilir. Avtomaşın ermənilər tərəfindən oğurlanır...

**15 noyabr 1990-cı il** - Ağdam-Şuşa avtomobil yolunda daha *1* nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**15 noyabr 1991-ci il** - Zamzur kəndinin *5* sakini erməni quldurları tərəfindən qətlə yetirilir. Ertəsi gün bu kənd işğal olunur və tamamilə yandırılır...

**15 noyabr 1991-ci il** - Milli Qəhrəman **İmamverdi Barat oğlu Əliyev** Hadrut rayonunun ***Şaqah*** kəndi yaxınlığında erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**15 noyabr 1991-ci il** - Milli Qəhrəman **Kazım Ərşad oğlu Məmmədov** Zamzur





kəndi ərazisində erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**15 noyabr 1991-ci il** - Daşnaq terrorçuları tərəfindən ***Xocavənd*** kənd sakini **Fərzəli Fərzəliyev** həyatında qətlə yetirilir...

**15 noyabr 1991-ci il** - Azərbaycan Respublikasının Müdafiə naziri *"Qazax, Ağstafa, Kəlbəcər, Laçın, Qubadlı, Şuşa, Zəngilan, Cəbrayıl, Tovuz, Füzuli, Ağdam, Goranboy, Xanlar, Yevlax, Bərdə, Tərtər, Ucar, Daşkəsən, Gədəbəy, Şəmkir rayonlarında, Gəncə və Xocalı şəhərlərində ərazi müdafiə taborlarının təşkili haqqında"* əmr verir...

**15 noyabr 1991-ci il** - Xocavənd *(Hadrut)* rayonunun ***Yenikənd*** kəndini mühafizə edən milis postu erməni yaraqlıları tərəfindən hücuma məruz qalır. Basqın nəticəsində *13* nəfər itkin düşür. Bir gün sonra itkin düşən milis işçilərindən *4* nəfərin meyidi tapılır. Onlardan 2-si yandırılmış vəziyyətdə olur...

**15 noyabr 1991-ci il** - Şayaq postu *(Cəbrayıl istiqamətində)* erməni yaraqlıları tərəfindən atəşə tutularaq hücuma məruz qalır. *4* polis işçisi həlak olur, *3* nəfər yaralanır. *2* qadın terrorçu ermənilər tərəfindən girov götürülür. ***Zamzur*** kəndi, ***Şayaq*** postu və onlara yaxın olan bəzi mövqelər ermənilərin əlinə keçir...

**15 noyabr 1991-ci il** - Erməni yaraqlıları güclü hücumla **Zamzur** kəndini ələ keçirir. 4 nəfər həlak olur...

**15 noyabr 1992-ci il** - Erməni yaraqlıları keçmiş Ağdərə rayonunun **Çıldıran** kəndinə soxulur...

**16 noyabr 1603-cü il** - I Şah Abbas ***İrəvan*** qalasını mühasirəyə alır...

**16 noyabr 1733-cü il** - **30 000** nəfərlik qoşunla Nadir vuruşmaq üçün Bağdada gəlir...

**16 noyabr 1795-ci il** - İmperatriçə general ***Qudoviçə*** belə göstəriş verir: *«Ağaməhəmməd Şirvana gəlib Şamaxı və Bakını zəbt etsə, Xəzər dənizinə və bizim sərhədlərimizə yaxınlaşsa, ordumuz onun Dağıstana gəlməsinin və Dərbəndi ələ keçirməsinin qarşısını mütləq almalı və bizə pənah gətirən Tarki şamxalını, Qaraqaytaq usmisini, hətta Dərbənd xanını müdafiə edib qorumalıdır, sonra isə Ağaməhəmmədin dəstəsini məğlubiyyətə uğradıb təqib etmək gərəkdir. O, bizim əleyhimizə və iradəmizə qarşı qalxmış olsa onu hakimiyyətdən belə devirməliyik».* Çox təəssüf ki, bəzi Azərbaycan xanları az sonra bu fitvaya qoşulurlar. II Yekaterina öz sərəncamı ilə Cənubi Qafqaz və Xəzər sahillərini tutmağı general Qudoviçə tapşırır...

**16 noyabr 1855-ci il** - Qars qarnizonu ruslara təslim olur. Rusiyanın Qafqaz cəbhəsində əldə etdiyi qələbələr onun Krımdakı vəziyyətini bir qədər yüngülləşdirir...

**16 noyabr 1877-ci il** - Rus-Türk müharibəsi zamanı rus qoşunları *Qarsı* ələ keçirir. Bu qala-şəhər demək olar ki, *40* il rusların əlində qalır...

**16 noyabr 1914-cü il** - Erməni zabiti ***Andranik Ozanyan 1200*** nəfərlik əsgər və zabiti olan I könüllülər hissəsinə başçılıq edir və ***Səlmas-Van*** istiqamətlərində döyüşlərdə iştirak etməyə başlayır. ***Asurlu, Başqalan, Van, Qotur, Aşnak, Muxancıq*** *(Dilman)* və ***MollaHəsənin*** zəbt olunmasında rus qoşunlarının komandanı Çernozubova *(Andranikin qoşun hissələri onun tabeliyində olub)* ən çox Andranik kömək edir...

**16 noyabr 1987-ci il** - Mixail Qorbaçovun müşaviri, erməni akademiki ***A.Aqanbekyan*** Parisdə *«İnterkontinental»* otelində jurnalistlər qarşısında çıxış edərək bildirir: *«Mən şad olardım ki, Dağlıq Qarabağı Ermənistana qaytarsınlar. Mən artıq bununla bağlı təkliflər vermişəm və ümid edirəm ki, bu ideya tezliklə həyata keçiriləcəkdir».* Bu bəyanat Qarabağ üzərinə ermənilərin ilk rəsmi hücum siqnalı olur və çox keçmir ki, ***Qarabağ müharibəsi*** başlanır...

**16 noyabr 1991-ci il** - Xocavənd kənd sakini **Fərzəli Fərzəliyev** erməni quldur yaraqlısı tərəfindən qətlə yetirilir. Bir neçə ev yandırılır; içi taxılla dolu olan kolxoz anbarına od vurulur...

**16 noyabr 1991-ci il** - Xocavənd *(Hadrut)* rayonunun ***Yenikənd*** kəndinin milis postunda erməni hücumu zamanı 1 gün qabaq itkin düşmüş milis işçilərindən *4* nəfərin meyidi tapılır. Onların ikisi yandırılmış vəziyyətdə idi...

**16 noyabr 1991-ci il** - Stepanakert *(Xankəndi)* şəhərində erməni yaraqlılarından ibarət bir terrorçu dəstə vilayət prokurorluğunun binasına soxularaq Azərbaycan Respublikası Prokurorluğu istintaq şöbəsinin prokuroru ***Şükür Rzayevi*** girov götürürlər...

**16 noyabr 1992-ci il** - Azərbaycan ordusu itkilər bahasına olsa da, qətiyyət göstərərək ***Çıldıran*** kəndini yenidən ələ keçirir...

**17 noyabr 1905-ci il** - Erməni quldur birləşmələri *«Daşnaksütyun»* terror təşkilatının göstərişini yerinə yetirərək Gəncənin dinc əhalisinə qanlı divan tuturlar. Adamları dəstə-dəstə binalara *(çox vaxt məscidlərə)* dolduraraq diri-diri yandırırlar...

**17 noyabr 1917-ci il** - Dünyanın ən böyük imperiyası olan SSRİ-nin əsası qoyulur...

**17 noyabr 1918-ci il** - Türkiyə dünya müharibəsində məğlub olduğundan ***«Mudros müqaviləsi»*** şərtinə görə bir həftə ərzində öz qoşunlarını Bakıdan, bir ay ərzində isə Qafqaz və Cənubi Azərbaycan ərazilərindən çıxarır. Bu, Andranikin silahlı quldur birləşməsinə geniş meydan açır...





**17 noyabr 1918-ci il** - General ***Tomsonun*** komandanlığı altında müttəfiq hindli əsgərlərdən ibarət ingilis ordusu ***Mudros*** razılaşmasının şərtlərinə əsasən ***Bakıya*** daxil olur...

**17 noyabr 1988-ci il** - Erməni-rus hərbi birləşmiş dəstələri ***Füzuli*** rayonunun ***Qacar*** kəndinə hücum edir...

**17 noyabr 1988-ci il** - Bakıda Azadlıq meydanında kütləvi etiraz mitinqi keçirilir. Ermənistanda və Qarabağda soydaşlarımıza qarşı ermənilərin vəhşi davranışları Azərbaycanda milli azadlıq hərəkatının, dirçəlişin başlanmasına gətirib çıxarır...

**17 noyabr 1989-cu il** - DQMV-nin Hadrut rayonunun ***Tuğ*** kəndində kəndin sakini, 9-cu sinif şagirdi **Teyyub Süleymanov** məktəbin həyətində ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**17 noyabr 1992-ci il** - *"Tərtər"* özünümüdafiə batalyonunun igid əsgərləri - **İlham Arif oğlu Allahverdiyev, Əli Zakir oğlu İsmayılov, Elşad Əsgər oğlu Quliyev, Mahir Cəlil oğlu İmamquliyev, Vasif Telman oğlu Hüseynov, Teyyub Mirzə oğlu Həsənov, Vüqar Azay oğlu Allahverdiyev, Vüqar İsa oğlu Hüseynov, Sərdar Cəmil oğlu Zeynalov, Sərdar Əmir oğlu Əmiraslanov, Vidadi Hüseyn oğlu Quliyev, Əfqan Tapdıq oğlu Hacıyev** keçmiş Ağdərə rayonunun ***Vəng*** kəndi ərazisində gedən qanlı döyüşlərdə həlak olurlar...

**18 noyabr 1795-ci il** - II Yekaterinanın əmri ilə Zaqafqaziyada, Tiflisdə, Bakıda, Şirvanda, Qarabağda vəziyyətlə əlaqədar *"müdafiə"* məqsədilə Azərbaycana qoşun yeridilir...

**18 noyabr 1905-ci il** - Gəncədə silahlı erməni daşnakları çoxlu sayda günahsız azərbaycanlını öldürürlər...

**18 noyabr 1905-ci il** - Toğana kənd sakinləri **Məşədi Məhəmməd oğlu** və **Mehrəli Zeynal oğlu** saat ***18.00*** radələrində, Gəncənin ***2-ci sahə*** deyilən ərazisində, ***Kolanı*** yolunda evlərinə buğda gətirdikləri zaman ermənilərin açdıqları atəşdən həlak olurlar...

**18 noyabr 1919-cu il** - Ermənipərəst siyasi xadim olan ***Orlando*** çıxışında Ermənistanın müstəqilliyini müdafiə edərək bildirir: *"Ermənilərə deyin ki, mən onların işini öz işim hesab edirəm..."*

**18 noyabr 1987-ci il** - Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə məsləhətçisi ***Abel Aqanbekyan*** Parisdə erməni icması qarşısındakı çıxışında SSRİ rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin məqbul hesab etməsini bəyan edir. Bu xəbəri fransız kommunistlərinin ***"Humanite"*** qəzeti yayır...

**18 noyabr 1990-cı il** - Erməni yaraqlıları Şuşanın ***Göytala*** kəndinə basqın

edir. *V. Bayramov* güllə yarası alır...

**18 noyabr 1991-ci il** - Keçmiş Martuni *(Xocavənd)* rayonunun *Xocavənd* kəndi ermənilər tərəfindən mühasirəyə alınır. Evlər və ictimai binalar yandırılır. Kənd əhalisinə divan tutulur. Terrorçular 4 BTR ilə kəndə girirlər. **32** yaşayış evi yandırılır. **Teymur Babayev** və onun qızı, **5** uşaq anası **Adilə Babayeva** qətlə yetirilir. **65** yaşlı ***Dilbər Babayeva,*** **10** yaşlı ***Ceyhunə Babayeva*** ağır yaralanırlar...

**19 noyabr 1905-ci il** - Erməni silahlı dəstələri *Gəncə* yaxınlığında ***qırğınlar*** törədirlər...

**19 noyabr 1988-ci il** - Daşnaq terrorçuları Vedibasarın *Yersax* kəndinə basqın edirlər. Xeyli sayda dinc sakin bədən xəsarəti alır. Yaralıları Naxçıvana aparan maşınlar ermənilər tərəfindən gülləbaran edilir. Minlərlə azərbaycanlı doğma Vedibasardan da didərgin düşür...

**19 noyabr 1991-ci il** - Xocavənd *(keçmiş Martuni və Hadrut rayonları)* rayonunun azərbaycanlılar yaşayan yaşayış məntəqələri ermənilər tərəfindən atəşə tutulur. Az sonra erməni yaraqlıları kəndə hücum edir və beləliklə Qarabağın *1460* nəfər əhalisi olan **Xocavənd kəndi** ermənilər tərəfindən işğal edilir. Əhali kəndi tərk etmək məcburiyyətində qalır. Dinc əhali amansızlıqla qətlə yetirilir, **4** nəfər kənd sakini həlak olur; **24** nəfər əsir və itkin düşür...

**19 noyabr 1992-ci il** - Füzuli rayonunun bir sıra kəndləri ermənilər tərəfindən müxtəlif növ silahlardan atəşə tutulur. İtkilər və dağıntılar olur...

**20 noyabr 1905-ci il** - Erməni silahlı dəstələri ***Tiflis*** şəhərində azərbaycanlılara qarşı ***ixtişaşlar, qırğınlar*** törədirlər...

**20 noyabr 1905-ci il** - Erməni terrorçuları Gəncənin *2-ci* sahəsində yaşayan **Tağı bəy Hacı Məlikovu** və **Mikayıl Hacı Məlikovu, Hadi Tat Mustafa oğlunu,** Mollacəlilli kənd sakinləri **Güllü Aşur qızını** və **Əli Nağı oğlunu** qətlə yetirirlər...

**20 noyabr 1918-ci il** - Erməni quldur birləşmələri aşağıdakı Kürd və Azərbaycan kəndlərini yerlə-yeksan edirlər: *Leqat* (70 ev), ***Tay*** (75 ev), ***Mülk*** (30 ev), ***Gül*** (10 ev), ***Bənövşəpuş*** (5 ev), ***Tağəmir*** (25 ev). Onlar ümumiyyətlə, 200 kəndlini kəsib doğrayırlar. Yaxşı silahlanmış erməni quldurlarına müqavimət göstərmək cəhdləri uğursuz olur...

**20 noyabr 1981-ci il** - Erməni terrorçuları Kaliforniya ştatının Los-Anceles şəhərində türk konsulluğu binasını partladırlar. Məsuliyyəti ***"CSAQ"*** erməni terror təşkilatı öz üzərinə götürür...

**20 noyabr 1988-ci il** - Masis rayonunun azərbaycanlı əhalisi daşnaq terror qruplarının təzyiqlərinə davam gətirməyərək, məcburən ***SSRİ-Türkiyə*** sərhədində yerləşən ***Rəncbər*** kəndinə tərəf sığınırlar...

**20 noyabr 1988 -ci il** - Daşnaq terrorçu dəstəsi tərəfindən Sisian rayonunun Şəki kənd sakinləri - ***Xəlisə Əmrullah qızı Sadıqova*** (1914-cü il təvəllüdlü) və ***Şahnisə Əziz qızı Namazova*** (1922-ci il təvəllüdlü) kənddən qaçqın salınır. Yaşlı, ağbirçək qadınların hər ikisi yolda çovğuna düşüb donaraq həlak olurlar...

**20 noyabr 1989-cu il** - Terrorçu daşnaqlar *Kərkicahan - Şuşa* avtomobil yolunu iki yerdən partladırlar...

**20 noyabr 1990-cı il** - Erməni yaraqlı quldurları tərəfindən Laçının Seyidlər kənd sakini, 1965-ci il təvəllüdlü **Elxan Kərim oğlu Məmmədov** Zabux kəndi yaxınlığında amansızlıqla qətlə yetirilir...

**20 noyabr 1990-cı il** - Sumqayıt şəhər sakini **Şahlar Cəlil oğlu Nəcəfov** Laçın rayonunun ***Zabux*** kəndinə tikinti materialı apararkən erməni terrorçusu tərəfindən qətlə yetirilir. Sərnişin ***Etibar Məmmədov*** isə ağır güllə yarası alır...

**20 noyabr 1990-cı il** - Erməni terrorçuları *Tərtər-Kəlbəcər* avtomobil yolunda maşın karvanına basqın edirlər. Nəticədə *2* nəfər azərbaycanlı həlak olur...

**20 noyabr 1990-cı il** - Laçın rayonunun ***Zabux*** kəndində *2* nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilir...

**20 noyabr 1991-ci il** - Ermənilər Xınzirək və ***Gorundzor*** yaşayış məntəqələri ərazilərindən Laçın rayonunun ***Cicimli*** kəndini atəşə tutur. Dağıntılar olur...

**20 noyabr 1991-ci il** - Saat *14.00* radələrində Qarabağın Hadrut (Xocavənd) qauonunun ***Qarakənd*** kəndi yaxınlığında içərisində Azərbaycan Respublikasının bir sıra yüksək rütbəli vəzifəli şəxsləri olan *"Mİ-8" N 72* hərbi vertolyotu ermənilər tərəfindən ***"Barret M81-A1"*** silahı ilə vurulur, bu zaman güclü nüvə yangını baş verir. Bu ***terror aktı*** nəticəsində vertolyotdakı adamların hamısı - **Tofiq İsmayılov** (dövlət katibi), **Zülfü Hacıyev** (Baş nazirin müavini), **İsmət Qayıbov** (Baş prokuror), **Məhəmməd Əsədov** (dövlət müşaviri), **Vaqif Cəfərov** (millət vəkili), **Vəli Məmmədov** (millət vəkili), **Osman Mirzəyev** (Prezident Aparatının şöbə müdiri), **Qurban Namazəliyev** (nazir müavini), **Rafiq Məmmədov** (dövlət kalibinin köməkçisi), **Alı Mustafayev** (telejurnalist), **Arif Hüseynzadə** (AzTV-nin işıqçısı), **Fəxrəddin Şahbazov** (video-operator), **İqor Plavski** (DQMV-ın prokuroru), **Vladimir Kovalyov** (DQMV-ın Daxili İşlər İdarəsinin rəisi), **Sergey İvanov** (Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi), **Nikolay Jinkin** (fövqəladə vəziyyət rayonunun komendantı), **Sanbal Serikov** (Qazaxıstan DİN-nin müavini), **Mixail Lukaşov** (milis general-mayoru), **Oleq**

**Koçerov** (polkovnik-leytenant), **Vyaçeslav Kotov** (vertolyot heyətinin komandiri), **Gennadi Domov** (vertolyot heyətinin üzvü), **Dmitri Yarovenko** (vertolyot heyətinin üzvü) həlak olurlar...

**20 noyabr 1991-ci il** - Şuşa rayonunun *Malıbəyli* kəndinin *5* nəfər dinc sakini ermənilər tərəfindən girov götürülür...

**20 noyabr 1992-ci il** - Ağcabədinin igid döyüşçüləri -**İlqar Heydər oğlu İsmayılov, Mübariz Zalış oğlu Sarıyev, Fuad Dərgah oğlu Verdiyev** Xocavənd rayonu ərazisində ermənilərlə döyüşdə həlak olurlar...

**21 noyabr 1905-ci il** - Tiflisdə ermənilər səhər bir nəfər azərbaycanlını qətlə yetirirlər...

**21 noyabr 1905-ci il** - *«Daşnaksütyun»* beynəlxalq erməni terror təşkilatının saqqallıları Tiflis sakinlərinə Gürcüstan tarixində ən qanlı və amansız divan tutaraq, onları, eləcə də azərbaycanlıları qırıb-çatırlar. Nə uşaqlara, nə qadınlara, nə qocalara, nə də əlillərə rəhm edilmir. Yaralıların nəfəsini kəsirlər. Həmin gün axşam erməni quldurları Tiflisdə çoxlu sayda azərbaycanlıları vəhşicəsinə qətlə yetirirlər. Yalnız bir meyxanada **10** nəfər müsəlman cəsədi tapılır. Onlarla müsəlmanın meyidi məscidlərə daşınır...

**21 noyabr 1914-cü il** - Rusiya imperatoru Fransanın Rusiyadakı səfiri *M.Polsoloqla* görüşündə erməni məsələsini nəzərə alacağını, onlar üçün müstəqil dövlət yaradacağını bildirir...

**21 noyabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə tərkibində azərbaycanlıların da olduğu *113* nəfər güllələnir...

**21 noyabr 1988-ci il** - Bakıda və Gəncədə iğtişaşlar baş verir; *3* nəfər hərbçi öldürülür, xeyli adam yaralanır. Bakı, Gəncə və Naxçıvanda ***xüsusi vəziyyət, qadağan saatı*** elan olunur...

**21 noyabr 1990-cı il** - Laçın rayonunun *Seyidlər* kənd sakini **Elxan Kərim oğlu Məmmədov** kənd yolunda erməni basqını nəticəsində qətlə yetirilir...

**21 noyabr 1990-cı il** - Cəbrayıl rayonunun *Qışlaq* kəndinin milis postu ermənilər yaşayan məntəqələrdən atəşə tutulur. Kənd müdafiəçilərindən bir nəfər ağır güllə yarası alır; dağıntılar olur...

**21 noyabr 1991-ci il** - Abdal və Gülablı kəndləri ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulur. *3* nəfər yaralanır...

**21 noyabr 1991-ci il** - İordaniyadakı *"Erməni cəmiyyəti"*nin ideoloqları ***Aram Yasaulyan*** və ***Harri Maratla*** (Ambarsumyan) Əmmandakı *"Jordan press"* Fondunda İordaniya təhlükəsizlik xidmətinin başçısı ***Səid Beno*** görüşürlər...





**21 noyabr 1991-cı il** - Mİ-8 vertolyotunda həlak olanların meyidləri Ağdam məscidinə gətirilir. Hər tərəf qan ağlayır...

**21 noyabr 1991-ci il** - Erməni yaraqlıları Ağdam rayonunun ***Abdal-Gülablı*** kəndinə basqın edir. *1* nəfər dinc kənd sakini həlak olur, *2* nəfər yaralanır...

**21 noyabr 1992-ci il** - Sırxavənd kəndi yenidən ermənilərin əlinə keçir. Batalyon komandiri, cəsur döyüşçü ***Asif Atakişiyev*** ağır yaralanır. Goranboy-Ağdərə əməliyyatı başa çatır...

**21 noyabr 1999-cu il** - ***İbrahim bin Laden Gülablı*** və ***Malıbəyli*** kəndləri ərazisində məskunlaşan ***"Çeqakron"*** erməni terrorçu təşkilatının liderlərindən olan ***Vartan Aruşanyan*** ilə görüşür...

**21 noyabr 1999-cu il** - Eçmiədzində ermənilər azərbaycanlı qadın **Roza Bəktaşini** və onun **2** qızını çox dəhşətli şəkildə qətlə yetirirlər. Belə ki, erməni vəhşilər onların hər üçünü çoxlu sayda ilanların olduğu xəndəyə atır, xəndəyin kənarlarında dayanaraq onların ilanlar tərəfindən hansı dəhşətlərlə öldürülməsini müşahidə edirlər...

**22 noyabr 1066-cı il** - Türk Qara Təkin ikinci dəfə Şirvana yürüş edir. Çoxlu adam qırılır, yaşayış məntəqələri viran qalır...

**22 noyabr 1803-cü il** - Sisianov başda olmaqla rus ordusu Gəncə üzərinə yürüşə başlayır...

**22 noyabr 1905-ci il** - Tiflisdə erməni yaraqlılarının atəşi nəticəsində **10** nəfər azərbaycanlı öldürülür. Daşnaq terrorçular - ***Armen, Kara Bağdasaryan, Tiqran Stepanyan*** və ***Durbaxın*** rəhbərlik etdiyi terrorçu dəstələr Borçalıda və Tiflisdə çoxlu sayda azəri türkünü qətlə yetirirlər...

**22 noyabr 1918-ci il** - Erməni Andranikin qoşunu azərbaycanlılar yaşayan kəndlərdə qətliamlar törədərək ingilis-fransız missiyasının yerləşdiyi Gorusa gəlib burada Zaqafqaziyada Antanta qoşunlarının baş komandanı, general-mayor ***V.M.Tomsonun*** sərəncamına əsasən qubernatorluq yaradır. İrəvan quberniyasından Naxçıvan qəzasınadək olan ərazi Andranikin qubernatorluğuna həvalə edilir. Bu hadisə onun daha da əl-qol açmasına, azərbaycanlılara qarşı daha çox qətliamlar törətməsinə şərait yaradır...

**22 noyabr 1953-cü il** - Azərbaycan xalqının işıqlı oğullarından biri, repressiyanın günahsız qurbanlarından biri olan **Alı Qələndər oğlu Alıyev** Krasnoyarsk vilayətinin ***Boquçak*** rayonu ərazisində ağac qıran zaman *(o, rayonda ağacqıranların briqadiri idi)* faciəli şəkildə həlak olur...

**22 noyabr 1988-ci il** - Ermənistan SSR Ali Sovetinin sessiyasında respublika rəhbərliyinin məxfi göstərişinə əsasən 1 həftə ərzində ***200*** mindən artıq azər-

baycanlının doğma ocaqlarından, yurd-yuvalarından qovulması planlaşdırılır...

**22 noyabr 1990-cı il** - Saat 9 radələrində erməni yaraqlıları qəflətən ***Kərkicahan*** qəsəbəsinə basqın edirlər. Qəsəbə sakini **Tofiq Həsənov** qətlə yetirilir. Onun meyidi tanınmaz hala salınır. Atışma zamanı ***Əfqan Novruz oğlu Tanrıverdiyev*** yaralanır...

**22 noyabr 1991-ci il** - Daşnaq terrorçuları Xocavənd rayonunun ***Axullu*** kəndinə ikinci dəfə silahlı basqın edirlər. Polis kapitanı ***Aydın Bayram oğlu Hüseynov,*** polis nəfəri ***Bəkir Bünyad oğlu Sadıqov*** ağır güllə yarası alırlar. Daha *5* nəfər müxtəlif dərəcəli bədən xəsarəti alır...

**22 noyabr 1991-ci il** - 40-a yaxın erməni yaraqlısı *Xocalı* aeroportuna basqın etsə də, yenidən geri çəkilməyə məcbur olur...

**22 noyabr 1992-ci il** - Cəbrayıl cəbhəsi istiqamətində ***Xocavənd*** rayonunun ***Sur*** və ***Dolanlar*** məntəqələri ermənilər tərəfindən atəşə tutulur. *1* nəfər yaralanır...

**23 noyabr 1905-ci il** - Ermənilər ***Gəncə*** çayı yaxınlığında azərbaycanlılara hücum edərək qırğın törədirlər. Çoxlu sayda tkilər olur...

**23 noyabr 1918-ci il** - ***Tomson*** erməni milli şurasının üzvlərini qəbul edir. ***Yepiskop Baqrat*** ona saxta məlumatlar təqdim edir. Azərbaycanla Ermənistan arasında silahlı toqquşmaların kəsilməsi, mübahisəli məsələlərə son qoymaq haqqında saziş imzalanır. Ancaq bir müddət keçməmiş erməni tərəfi bu sazişi pozurlar...

**23 noyabr 1918-ci il** - Andranikin quldur yaraqlı dəstələri ***Zəngəzurda*** və ***Qarabağda*** bir neçə azərbaycanlılar yaşayan kəndlərə basqın edirlər. Bu qəddarlıq nəticəsində kəndlər talan olunur, *10* nəfər vəhşicəsinə öldürülür...

**23 noyabr 1919-cu il** - Azərbaycan ilə Ermənistan arasında bütün mübahisəli məsələlərin dinc yolla həll edilməsi haqqında Tiflisdə müqavilə imzalanır. Müqaviləyə görə tərəflər arasında hərbi toqquşma dayandırılır, mübahisəli məsələlərin sülh yolu ilə həll edilməsi nəzərdə tutulur. Sazişin şərtlərinə görə ermənilər Zəngəzurdan qoşunlarını çıxarmalı idilər. Azərbaycan tərəfi ermənilərin *"səmimiliyinə"* inanıb qoşununu Zəngəzurdan çıxarır. Ermənistan isə bölgəyə əlavə qoşun hissəsi yeridərək Zəngəzurda iri miqyaslı əməliyyat keçirir...

**23 noyabr 1986-cı il** - Avstraliyanın Melburn şəhərində türk konsulluğu binası qarşısında maşında partlayış baş verir. *1* nəfər ölür, *5* mərtəbəli binaya çoxlu ziyan dəyir. Çox keçmir ki, günahkarların Viktoriya şəhərindən olan ermənilər - ***Hakop Levonyan, Levon Dəmiryan*** olması məlum olur...





**23 noyabr 1991-ci il** - Erməni yaraqlıları Xocavənd *(Hadrut)* rayonunun Axullu kəndinə hücum edir. Hücum dəf edilərkən milis işçilərindən iki nəfər - ***A.Hüseynov*** və ***B.Talıbov*** yaralanırlar...

**23 noyabr 1991-ci il** - Qazax rayonunun ***Barxudarlı*** kəndindən əsir götürülmüş **Vüqar Mollaşərif oğlu Əfəndiyev** İcevan polis şöbəsində saxlanarkən ermənilər onun bədənindən elektrik cərəyanı keçirmiş, hər iki qulağını siqaret közü ilə yandırmış, sol qabırğalarını sındırmış, kəlbətinlə üzündə olan tüklər dartılıb çıxarılaraq ona ağır işgəncələr verilmişdir...

**23 noyabr 1992-ci il** - Azərbaycanın Daxili Qoşunlar Alayı şimal sektorunda hücum əməliyyatına başlayır və çoxlu itkilər bahasına olsa da, ermənilərin Sırxavənd müdafiə xəttini tutur...

**24 noyabr 1577-ci il** - I Şah Təhmasibin oğlu ***II Şah İsmayıl (Adil)*** ölür...

**24 noyabr 1905-ci il** - Tiflisdə ermənilərin atdıqları atəş nəticəsində *2* müsəlman qətlə yetirilir...

**24 noyabr 1905-ci il** - Erməni yaraqlıları ilə ***Gəncə*** yaxınlığında baş verən vuruşmada *8* nəfər müsəlman qətlə yetirilir...

**24 noyabr 1918-ci il** - Terrorçu daşnaqlar Yeni Bayazit qəzasının ***Toxluca*** kəndini dağıdırlar. Çoxlu sayda əhali öldürülür. Sağ qalanlar kəndi birdəfəlik tərk edirlər. Erməni cəlladları ələ keçirdikləri kənd sakini ***İbrahim Hüseyn oğlunun*** gözlərini vəhşicəsinə çıxardıqdan sonra onu buraxırlar...

**24 noyabr 1919-cu il** - Daşnaq terrorçusu Dro rəhbərlik etdiyi silahlı dəstələrlə ***Sürməlidə*** və ***Zəngəzurda*** onlarla kəndi viran edərək, əhalisini qətlə yetirir...

**24 noyabr 1988-ci il** - Bakı, Naxçıvan, Gəncə şəhərlərində ***xüsusi vəziyyət*** elan olunur, ***qadağan saatı*** qoyulur...

**24 noyabr 1988-ci il** - Ermənistanın ərazisindən Azərbaycanın ***Qubadlı*** rayonunun ***Eyvazlı, Qədirli, Davudlu*** kəndlərinə daşnaq terrorçuları tərəfindən basqınlar edilir; **Eyvazlı** kəndi tamamilə yandırılır...

**24 noyabr 1990-cı il** - Saat 17.00 radələrində hərbi paltar geymiş erməni yaraqlıları ***X.Hüseynovun*** idarə etdiyi ***"QAZ-53"*** markalı maşını atəşə tuturlar. Nəticədə *Qaradağlı-Martuni* avtomobil yolunun *5* kilometrliyində *3* nəfər mülki şəxs olan azərbaycanlı kişisi faciəli surətdə qətlə yetirilir. Mərhumlar **(Xandəmir Hüseynov, A.Səfixanov, Vahid Alıxanlı)** əvvəl qarət olunur, sonra qəddarcasına güllələnirlər. Ermənilər onların sinələrinə güllə ilə xaç çəkirlər. Qaradağlı kəndinin *58* yaşlı sakini Xandəmir Hüseynovun bədəninə qəddar düşmən *30*-dan artıq güllə vurur...

**24 noyabr 1992-ci il** - Əlavə kömək gəlmədiyinə görə azərbaycanlılar ***Sırxavənd*** müdafiə xəttini təhvil verərək geri çəkilmək məcburiyyətində qalırlar...

**24 noyabr 1992-ci il** - Ağdam cəbhəsində vəziyyət gərgin olaraq qalmaqdadır. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy Ağdamdadır...

**24 noyabr 1992-ci il** - Sur müdafiə postu ermənilər tərəfindən atəşə tutulur...

**24 noyabr 1993-cü il** - Ermənistan Respublikası silahlı qüvvələrinin bölmələri uzunmüddətli raket-top atəşindən sonra Azərbaycanın əvvəllər işğal etdikləri Cəbrayıl rayonunun ərazisindən Azərbaycan Respublikasının İran İslam Respublikası ilə dövlət sərhədini qoruyan sərhəd qoşunlarının IX, X və XI zastavaları istiqamətində zirehli texnikanın köməyi ilə hücuma keçirlər. Ermənistan təcavüzünün yenidən belə davam etməsi onunla nəticələnir ki, düşmən qüvvələri Azərbaycan Respublikasının İran İslam Respublikası ilə dövlət sərhədinin 161 kilometrini nəzarət altına alır. Sərhəddəki mühəndis-texniki qurğular və tikilməkdə olan Xudafərin su qovşağının material obyektləri ermənilər tərəfindən dağıdılır, yandırılır və talan edilir...

**25 noyabr 1814-cü il**- Rusiyaya qarşı Tehranda ***İngiltərə - İran*** müqaviləsi imzalanır...

**25 noyabr 1905-ci il** - Bakı Fəhlə Deputatları Soveti yaradılır...

**25 noyabr 1918-ci il** - Ermənilər Mehri dərəsinin ***Lehvaz, Tey, Mülk, Vartanizor, Əldərə, Tuğut, Məzzəcat, Hortagiz, Dəstəkert*** müsəlman kəndlərinə hücum edir, kəndləri dağıdır, yüzlərlə əhalisini qırırlar...

**25 noyabr 1988-ci il** - Axşam çağı *Əlibayramlı (Şabran)* şəhərinin girəcəyində magistral yolda ağır qəza baş verir. *4* nəfər həlak olur, *15* nəfər ağır yaralanır. Qarşıdakı yük maşınını ötüb keçən *"Jiquli"* sürətini azaltmağa imkan tapmamış özünü 250 nəfərlik izdihama vurur...

**25 noyabr 1988-ci il** - Zəngəzurun Mehri rayonunun ***Aldərə, Leyvaz, Vartanizor, Maralzəmi*** kəndlərinin əhalisi dədə-baba yurdlarını tərk etmək məcburiyyətində qalırlar...

**25 noyabr 1988-ci il** - Amasiya rayonunun *Əzizbəyov* kənd sakini, Böyük Vətən müharibəsi iştirakçısı və əlili, *75* yaşlı **Abdulla Aydınov** rayon mərkəzində ermənilərin təhqir və söyüşlərinə cavab qaytardığına görə daşnaq terrorçusu tərəfindən vəhşiliklə öldürülür. *87* yaşlı Kalinino rayon sakini, Böyük Vətən müharibəsinin iştirakçısı, əlil **Məhəmməd Sadıqov** doğma yurdunu tərk etmədiyinə görə daşnaq terrorçusu tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**25 noyabr 1988-ci il** - Ermənilər gecə azərbaycanlılarla ermənilərin birgə yaşadıqları Quqark rayonunun ***Vartanlı*** kəndinə basqın edirlər. Kəndin *14* nəfər azərbaycanlı sakini - **Mehralı, Xanım, Alim İsgəndərovlar, Qərib Bayramov, Leyli Hüseynova, Süleyman Məmmədov** və başqaları vəhşicəsinə qətlə yetirilir, 13 nəfər kənd sakini itkin düşür...





**25 noyabr 1988-ci il** - Tuğ kəndində ermənilərlə azərbaycanlıların münaqişəsi baş verir. Azərbaycanlıların evlərinə çoxlu ziyan dəyir. Bir neçə azərbaycanlı tutularaq ***Hadrut*** şəhərinə aparılır...

**25 noyabr 1988-ci il** - Xüsusi vəziyyət rejimi həyata keçirilməsinə baxmayaraq, Bakıda, ***Azadlıq*** meydanında *(keçmiş Lenin meydanı)* keçirilən mitinqin qarşısını almaq mümkün olmur...

**25 noyabr 1990-cı il** - Erməni yaraqlıları Gürcüstan SSR ərazisində azərbaycanlılar yaşayan məntəqələrə işləyən marşrut avtobusunu partladırlar. *20* nəfər mülki azərbaycanlı şəxs qətlə yetirilir...

**25 noyabr 2000-ci il** - Bakı və Sumqayıt şəhərlərində *6,5* bal gücündə ***zəlzələ*** baş verir. Zəlzələnin episentri Bakıdan *50* kilometr aralıda, Xəzər dənizində qeydə alınır. Çoxsaylı evlər zədələnərək dağılır. *23* nəfər həlak olur...

**26 noyabr 1462-ci il** - Dövrünün nüfuzlu şəxsiyyəti, alim, baş vəzir **Fətulla Muinəddin Təbrizi** Herat şəhərində müəmmalı şəkildə ölür...

**26 noyabr 1905-ci il** - Naxçıvanın ***Cəhri*** kəndinə hücum edən ermənilər kazaklarla birlikdə dəhşətli faciələr törədirlər. *4* ailə ermənilər tərəfindən məhv edilir. Naxçıvan şəhərinin bazarına basqın edən erməni quldurları *85* dükanı, *75* anbarı və başqa tikililəri yandıraraq məhv edirlər...

**26 noyabr 1918-ci il** - Terrorçu daşnaqlar ***Mehri*** bölgəsinin Lehvaz kəndində *70,* Teybədə *75,* Mülkdə *30,* Güldə *10,* Bənövşənuşda *5,* Tağalifdə *25,* I Vartanazurda *100,* II Vartanazurda *65* evi dağıdaraq *200* nəfər azərbaycanlını vəhşicəsinə qətlə yetirirlər. Lehvaz kənd sakini Kərbəlayı Mehdinin başı kəsilərək yolun ortasında iri bir daşın üzərinə qoyulur. ***Lök*** kəndində qaçıb canlarını qurtara bilməyən qocalar, qadınlar, uşaqlar güllələnərək dərədən axan çaya tökülür...

**26 noyabr 1924-cü il** - Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə verilir. Əsasnaməyə görə Şuşa qəzasından ***Şuşa*** və ***Xankəndi*** şəhərləri, eləcə də *115* kənd, Cavanşir qəzasından *62* kənd, Qaryagin qəzasından *30* kənd, Qubadlı qəzasından isə *Qaladərəsi* kəndi DQMV-a verilir. Beləliklə, imperiyanın hakim dairələri *Qarabağ* adlı münaqişə ocağının əsasını qoymuş olurlar...

**26 noyabr 1988-ci il** - Erməni ekstremistləri tərəfindən Sevan rayonunun ***Çubuqlu*** kəndində ***Nəsrəddin*** və ***Həbib Əliyevlər*** vəhşicəsinə döyülərək ölümcül

hala salmır. Onlara məxsus *"Jiquli"* maşını əzilərək dağıdılır...

**26 noyabr 1988-ci il** - Yuxarı Necili kənd sakini, **Sabir** adlı mağaza işçisi ermənilər tərəfindən vəhşicəsinə öldürülür...

**26 noyabr 1989-cu il** - Erməni terrorçuları ***Mehri*** rayonunun ***Nüvədi*** kəndinə hücum edir. ***10*** nəfər dinc sakin müxtəlif dərəcəli güllə yarası alır...

**26 noyabr 1991-ci il** - Azərbaycan Respublikasının Ali Soveti *(yeni yaranan Milli Şura)* Dağlıq Qarabağın muxtariyyətini ləğv edir. Həmin gün DQ-ın bir sıra yaşayış məntəqələrində azərbaycanlılara qarşı bir neçə qeydə alınan münaqişələr baş verir...

**26 noyabr 1993-cü il** - Erməni silahlı qüvvələri saat 18.00-dən 19.00-a qədər Füzuli rayonunun ***Şükürbəyli*** kəndi tərəfdən Kərimbəyli kəndini *«Qrad»* qurğularından atəşə tutur. İşğalçılar ***Böyük Bəhmənli*** kəndini qarət edərək oradan sərhəd zastavasına soxulub hündür qüllədən kəşfiyyat məqsədilə istifadə etməyə başlayır...

**27 noyabr 1905-ci il** - Erməni silahlı dəstələri Naxçıvanda, Qarabağda və Cavanşir qəzasında azərbaycanlılara qarşı qırğınlar törədirlər. Cavanşir qəzasının Dəmirli kəndində ermənilər ***8*** dinc sakını öldürürlər. Camaat evlərini tərk etmək məcburiyyətində qalır. Terrorçular kəndi yandırırlar...

**27 noyabr 1905-ci il** - Bakı fəhlələrinin əzəmətli nümayişi keçirilir...

**27 noyabr 1905-ci il** - Erməni yaraqlıları Cavanşir qəzasındakı müsəlmanlar yaşayan Dəmirli kəndini zəbt edib ona od vururlar. **Dəmirli faciəsi** baş verir. Dəmirlinin ***8*** nəfər sakini həlak olur. Kəndin ***4*** kişisi özlərinə mövqe seçərək ***1000***-dən artıq erməni ilə qəhrəmancasına döyüşür...

**27 noyabr 1905-ci il** - Erməni silahlı dəstələri ***Naxçıvanda*** müsəlman qırğını törədirlər...

**27 noyabr 1937-ci il** - Azərbaycan SSR XDİK İdarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə tərkibində azərbaycanlılar olan ***50*** nəfər güllələnir...

**27 noyabr 1988-ci il** - Qərbi Azərbaycanın ***Qaraqışlaq*** kəndinin **Müşfiq** adlı sakini ***Çubuğlu*** kəndində ermənilər tərəfindən balta ilə vurularaq öldürülür...

**27 noyabr 1988 -ci il** - Kirovakanda at oynadan ***Samvel Qazanstyanın*** terrorçu erməni dəstəsi ***Vartana*** kəndinə soxulur. **Qara Bayramov** qətlə yetirilir. ***Lyova*** və ***Lendrum Xaçaturyan*** qardaşları **Leyli Hüseynovanı** əzabla öldürürlər. ***Samvel Vanesyanın*** terrorçu dəstəsi **Mehralı İsgəndərovu,** arvadı **Xanımı** və ***17*** yaşlı oğlu **Alimi** öldürməzdən əvvəl Xanımı ərinin gözləri qarşısında lüt rəqs etməyə məcbur edirlər. Sonra onlar parça-parça doğranılır. ***Qriqori Çavuşyan*** və





***Hamlet Qasparyan*** adlı adamların rəhbərlik etdikləri silahlı dəstə üzvləri **Abdulla Əliyevi** *(1924-cü il təvəllüdlü)* öldürürlər. Evlərini tərk etmədiklərinə görə **Süleyman Məmmədov** ***Suren Yosmedyan,*** **Əhməd Alıyev** isə ***Vazgenin*** terror qrupları tərəfindən qətlə yetirilir. Terrorçu ***Suren Zehranyan*** **Fatma Əliyevanı** minik maşınının təkərləri altına salıb əzir. Ümumilikdə **14** nəfər kənd sakini ermənilər tərəfindən qətlə yetirilir; **13** nəfər itkin düşür. Beləliklə, kənd əhalisi doğma ev-eşiyini tərk etmək məcburiyyətində qalır...

**27 noyabr 1988-ci il** - Daşnaq terrrorçular Qərbi Azərbaycanda (Ermənistanda) Masis rayonunun ***Mehmandar, Sarvanlar*** və ***Zəhmət*** kəndlərinə basqın edirlər. Zəhmət *(Masis rayonu)* kəndində ***10*** yaşlı qız uşağı, ***60*** yaşlı qadın və ***3*** nəfər digər dinc, günahsız azərbaycanlı azğınlaşmış erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilir. Masis rayon mərkəzində məscidə ermənilər tərəfindən od vurulur. Erməni vandalları azərbaycanlıların qəbiristanlıqlarını, evlərini, digər tikililərini viran edirlər...

**27 noyabr 1988-ci il** - Ermənistanın ***Quqark*** rayonunda, ***Şaumyan*** kəndində erməni quldurları qanlı cinayət törədirlər: **Bəsti Əliyeva** güllə ilə öldürülür, başı kəsilir, cəsədi kənddəki körpüdən yerə atılır; **Əhməd Qazaxəliyev** qətlə yetirilir, cəsədi yandırılır; **Qərib Bayramov** öldürülür, cəsədi yandırılır; **Oruc Əliyev,** onun həyat yoldaşı **Gülsüm Əliyeva,** oğlu **Abdulla** vəhşicəsinə öldürülür; **Fatimə Abbasova** öz evində güllə ilə öldürülür; **Vaqif Qasımov** ağır yaralanır, onun sonrakı taleyi məlum olmur...

**27 noyabr 1990-cı il** - Xocavəndin *(Martuninin)* azərbaycanlılar yaşayan ***Rus tağı*** məhəlləsi ermənilər tərəfindən qumbaraatanlardan və avtomatlardan atəşə tutulur. Şəhər sakini ***Bidad Əliyevin*** və Xocavənd kənd sakini ***Nadir Nəzərovun*** evləri yandırılır...

**27 noyabr 1991-ci il** - SSRİ Dövlət Şurası DQMV-nin ləğvi ilə bağlı qərarın dəyişdirilməsini Azərbaycan rəhbərliyindən tələb edir...

**27 noyabr 1992-ci il** - Füzuli, Cəbrayıl, Ağdam rayonlarının Yuxarı Qarabağla həmsərhəd kəndləri ermənilər tərəfindən müxtəlif növ silahlardan atəşə tutulur...

**28 noyabr 1578-ci il** - Ağsu çayı sahilində yerləşən ***Mollahəsən*** kəndi yaxınlığında ***20*** minlik ordusu olan Krım xanı ***Adil Gəray*** ilə Səfəvi hərbi qüvvələri arasında döyüş baş verir. Hər iki tərəfdən çoxlu itkilər olur. Səfəvilər Şirvanda qalib gəlirlər...

**28 noyabr 1905-ci il** - Qazax qəzasında qulluq edən strajniklərdən biri, erməni əsilli ***Sevan Tumanov*** öz silahlı dəstəsi ilə ***Atalı*** kənd sakinlərini (**Bəşir** və

onun *15* qonşusunu) qətlə yetirərək onlara məxsus ***800*** baş mal-qaranı aparırlar...

**28 noyabr 1917-ci il** - Tiflisdə Qafqaz, Cənubi Rusiya və Ukrayna Antibolşevik Qüvvələrinin Hərəkatı Birliyinin yaradılmasına aid müşavirə keçirilir...

**28 noyabr 1945-ci il** - Ermənistan partiya rəhbəri Arutyunov Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi haqqında Kommunist Partiyasının Mərkəzi Qərargahına təklif göndərir...

**28 noyabr 1958-ci il** - Xəzər dənizində ***(Makarov bankasında)*** güclü ***zəlzələ*** baş verir...

**28 noyabr 1985-ci il** - 6 il müddətinə həbs olunmuş məşhur ASALA terrorçusu, ***"İnqilabi Hərəkat"*** qrupunun rəhbəri *Monte Melkonyan* 1990-cı il tarixdə Fransa həbsxanasından buraxılaraq terror fəaliyyətini davam etdirmək üçün Ermənistana və Qarabağa göndərilir. O, Xocavənd rayonunun işğalı zamanı xüsusi terror dəstəsinin komandanı olur. 1993-cü ildə Qarabağda öldürülən bu terrorçunun Yerevanda təntənəli dəfn mərasimi keçirilir. Dəfndə Ermənistan Prezidenti də iştirak edir. Adı Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilmiş bu beynəlxalq terrorçu Ermənistanın Milli Qəhrəmanı elan olunmuşdur...

**28 noyabr 1988-ci il** - Qərbi Azərbaycanın ***Sarvanlar, Zəhmət, Mehmandar*** (Masis rayonu) kəndləri atəşə tutulur. Bir neçə saatdan sonra bu kəndlər zorla boşaldılır. Sarvanlar kəndinin *30* yaşlı sakini **Bəxtiyar Məmməd oğlu Abbasov** ermənilər tərəfindən yolda maşınla vurularaq öldürülür...

**28 noyabr 1988 -ci il** - Zəngibasar kəndinin *22* yaşlı sakini **Müşfiq Tağıyev** köçünü Azərbaycana gətirərkən ***Çubuqlu*** kəndi yaxınlığında erməni silahlılarının basqınına məruz qalaraq qəddarlıqla qətlə yetirilir. Onun cəsədi tanınmaz hala salınır. Amansız ermənilər ona 100 yara vururlar. Bütün əmlakı erməni soyğunçuları tərəfindən talan edilir. Valideynləri övladlarının meyidini ermənilərdən ***4.000*** manata alırlar...

**28 noyabr 1988-ci il** - Erməni daşnaqları Basarkeçər rayonunun ***Çaxırlı, Qanlı, Kərkibaş, Şişqaya, Zod*** kəndlərinə silahlı hücum edirlər. ***34*** nəfər döyülərək işgəncə ilə qətlə yetirilir. Yaşayış məntəqələrini tərk edib Kəlbəcər və Gədəbəy rayonlarına adlamaq üçün Sarınər, Urumbasar gədikləri istiqamətində hərəkət edən qaçqınlardan *12* nəfəri yolda çovğuna düşərək tələf olurlar...

**28 noyabr 1988-ci il** - Böyük Vətən müharibəsi iştirakçısı, *82* yaşlı **Təmraz Yusif oğlu İsgəndərov** öz həyatında erməni terrorçusu tərəfindən qətlə yetirilir...

**28 noyabr 1988-ci il** - Zəngibasar mahalının ***Nizami*** *(Yuxarı Necili)* kənd sakini ***Sabir Mehdiyev*** və oğlu erməni daşnaqları tərəfindən vəhşicəsinə döyülərək xəstəxanaya düşürlər. **Sabir Mehdiyev** xəstəxanada ölür, oğlu isə şikəst edilir. Milis forması geymiş daşnaqlar tərəfindən onun sol qulağı kəsilir...

**28 noyabr 1989-cu il** - Qubadlı rayonunun ***Davudlu*** və ***Novlu*** kəndləri arasındakı ərazidə *2* azərbaycanlı - sovxoz direktoru **Qaçay Məcid oğlu Ələkbərov** və sürücüsü **Telman Rüstəm oğlu Hümbətəliyev** ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir. Daşnaq terrorçular Novlu kənd sovetinin sədri vəzifəsində çalışan **Mehdi Qasım oğlu Mehdiyevi** girov götürürlər. Onun meyidi bir müddət sonra ***Sisian*** rayonunun ərazisindən tapılır...

**28 noyabr 1989-cu il** - SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Xüsusi İdarə Komitəsi ləğv edilir. DQMV ilə paritet əsaslarla Respublika Təşkilat Komitəsi yaratmaq və 20-ci çağırış DQMV XDS-nin fəaliyyətini bərpa etmək qərara alınır. *"Hakimiyyət və idarəetmə orqanlarının bərpa edilməsi şəraitində"* DQMV Xüsusi İdarə Komitəsinin saxlanması məqsədəuyğun hesab olunur...

**28 noyabr 1989-cu il** - Qubadlı rayonu ərazisində *2* nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə öldürülür...

**28 noyabr 1991-ci il** - Əsgəranda ***UAZ*** markalı avtomaşında *3* nəfər azərbaycanlı ermənilər tərəfindən amansızcasına qətlə yetirilir. Avtomobil yolu ermənilər tərəfindən bağlanır...

**29 noyabr 1744-cü il** - Nadir şahın qoşunu ***Şəki*** üzərinə yürüş edir. ***"Gələsən-Görəsən"***də ciddi müqavimətə rast gələn qoşun Bərdəyə tərəf çəkilir....

**29 noyabr 1803-cü il** - Şəmkirə daxil olan P.D.Sisianov Gəncə xanı Cavad xana yazdığı təcili məktubunda qeyd edir : *"Gəlmişəm ki, şəhərinizi Avropa adəti üzrə tutum".* Bu, əslində təhqiredici bir məktub olur...

**29 noyabr 1905-ci il** - Qazax qəzasının ***Əlibəyli, Tatlı, Əskipara*** kəndlərində ermənilərlə müsəlmanlar arasında ***müharibələr*** baş verir. Erməni hücumu nəticəsində baş verən bu qanlı olaylarda Tatlıda *2*, Əskiparada *4* nəfər azərbaycanlı qətlə yetirilir...

**29 noyabr 1905-ci il** - Erməni silahlıları ***Yaradulla*** kəndinin taxıl daşıyan arabaçılarının qarşısını kəsib *5* nəfəri öldürürlər, *9* nəfəri isə əsir aparırlar. Bütün arpa və buğdaları qarət etdikdən sonra kəndə od vururlar...

**29 noyabr 1905-ci il** - Ermənilərlə müsəlmanlar arasında ***Qazax*** qəzasında dəhşətli ***Qaraqoyunlu müharibəsi*** baş verir...

**29 noyabr 1914-cü il** - Şərqi Anadolunun ***Van*** bölgəsində erməni partizan birləşmələri yaradılır...

**29 noyabr 1920-ci il** - Bolşeviklərin zor gücü ilə Ermənistanda Sovet Hakimiyyəti qurulur...

**29 noyabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət

təhlükəsizlik komissarı *Sumbatovun* əmri ilə *151* nəfər güllələnir...

**29 noyabr 1981-ci il** - İsmayıllı rayonu ərazisində *zəlzələ* baş verir. Dağıntılar olur...

**29 noyabr 1988-ci il** - Qərbi Azərbaycanın Basarkeçər mahalının *Aşağı* və *Yuxarı Şorca, Qayabaşı, Qoşabulaq, Subatan, Zağalı, Sarı Yaqub, Qaraqoyunlu, Nərimanlı, Ağkilsə, Gözəldərə, Zərkənd, Zod, İnəkdağı* kəndlərinin əhalisi Kəlbəcər dağlarını aşaraq böyük çətinliklə *(44 nəfər itki)* Azərbaycana gəlirlər. Erməni qaragüruhu digər həmvətənlərimiz kimi *Dilican* və *İcevan* rayonlarının bir sıra azərbaycanlılar yaşayan kəndlərinin əhalisini də ata-baba yurdundan didərgin salır...

**29 noyabr 1988-ci il** - Ermənistanın *Quqark* rayonunda *70* nəfər azərbaycanlı qətlə yetirilir. Təkcə *Gözəldərə* kəndində *21* nəfər, o cümlədən *6* qadın və *3* körpə ermənilər tərəfindən vəhşicəsinə öldürülür...

**29 noyabr 1989-cu il** - Ermənistanda qalmış *40* nəfər azərbaycanlı kütləvi şəkildə ermənilər tərəfindən məhv edilir...

**29 noyabr 1990-cı il** - Ağdam rayonunun *Şelli* və *Cinli* kəndlərinə ermənilər tərəfindən basqın edilir...

**29 noyabr 1990-cı il** - Xocalı təyyarə limanına növbə çəkməyə gedən milis işçilərini aparan avtobus erməni terrorçuları tərəfindən atəşə tutulur. *1* nəfər həlak olur, *16* nəfər yaralanır...

**29 noyabr 1990-ci il** - 16 yaşlı Xocalı sakini **Xanoğlan Şahməmmədov** qoyun otorarkən erməni yaraqlısı tərəfindən girov götürülür...

**29 noyabr 1991-ci il** - Ağdam-Cəmilli reysi ilə uçan vertolyot ermənilər tərəfindən atəşə tutulur...

**29 noyabr 1991-ci il** - Əslən Xıdırlı kənd sakini olan bir nəfər azərbaycanlı Xramord kəndi yaxınlığında yaralanır...

**29 noyabr 1995-ci il** - Bakı metropolitenində erməni terrorçuları tərəfindən güclü *partlayış* törədilir. *286* nəfər azərbaycanlı faciəli surətdə həlak olur, *270* nəfər yaralanır...

**29 noyabr 2001-ci il** - Əslən Bakı ermənisi olan *"Qızıl Xaç"* ordenli polkovnik *Tiqran Moiseyeviç Xaçenyan* "Əsl milli hökumət"in Dağlıq Qarabağdakı nümayəndəsi təyin olunur...

**30 noyabr 1803-cü il** - Qafqazın baş komandanı *P.D.Sisianov* Gəncə ermənilərinə müraciət edir ki, müsəlmanların soyğunçuluğundan, hər cür təqib və sıxışdırılmalardan onların canı tezliklə qurtaracaq. Gəncə qalasının yollarının planını, xəritəsini xanın arvadlarından biri olan erməni qızı Astigikin qardaşı





*Andoyan* Sisianova verir *(sonralar Cavad xanın ölümünə bais olanlardan biri də öz qaynı olur)...*

**30 noyabr 1805-ci il** - P. D. Sisianov başda olmaqla rus qoşunları Kür çayını keçib *Şəki* və *Şirvan* ərazisinə daxil olur...

**30 noyabr 1905-ci il** - Cavanşir qəzasında erməni yaraqlıları *Cıraqlı* və *Hacıqərvənd* faciələrini törədirlər. Hər iki kəndi od vurub yandırırlar...

**30 noyabr 1920-ci il** - Azərbaycan İnqilab Komitəsinin Ermənistan Sovet Respublikasına ünvanladığı teleqramda və 1 dekabr bəyannaməsində *("Nərimanov bəyannaməsi")* artıq Zəngəzurun guya *"Ermənistana verilməsindən"* bəhs olunur...

**30 noyabr 1988-ci il** - Daşnaq terrorçular *Quqark (Ermənistan SSR)* rayonunun *Gözəldərə* kəndinə basqın edir. *21* nəfər, o cümlədən *6* qadın, *3* körpə qətlə yetirilir...

**30 noyabr 1988-ci il** - Erməni daşnaqları malakanlar yaşayan Lermontov kəndində qaçıb gizlənən Calaloğlu rayonunun *Qarqar* kənd sakini **Bəsti Mustafayevanı** üzərinə neft tökərək yandırıb öldürürlər. Onun *20. 000* manat pulu və qızıl əşyaları ermənilər tərəfindən qarət olunur...

**30 noyabr 1988-ci il** - Vedibasarda-Vedi rayonunun *Xalisə* kəndində *2* azərbaycanlı (1908-ci il təvəllüdlü **Gülgəz İsmayılova** və bu kəndə sığınmış Şidli kənd sakini, 1893-cü il təvəllüdlü **Məhəmməd Nəsrulla oğlu Əliyev**) erməni yaraqlıları tərəfindən vəhşicəsinə qətlə yetirilir. *170* evlik kəndin əhalisi doğma ocağından qovulur...

**30 noyabr 1988-ci il** - Daşnaq terrorçular *Hamamlı (Spitak)* rayonunun *Saral* kəndindən *Həmzəçimən* kəndinə yollanan qaçqın dəstəsinə hücum edir. 18 nəfər qətlə yetirilir. **Mövsüm Balacayevin** *8* nəfərlik ailəsi tamamilə məhv edilir. Kənd əhalisi yurdlarından didərgin salınır...

**30 noyabr 1988-ci il** - Sevan şəhərində yerləşən Respublika ruhi xəstəxanasındakı azərbaycanlı xəstələrdən *22* nəfəri daşnaq terrorçular tərəfindən su ilə doldurulmuş quyuya atılaraq boğulub məhv olurlar...

**30 noyabr 1988-ci il** - Erməni terrorçu qrupları *Allahverdi* (Ermənistan SSR, Tumanyan rayonu) rayonunun *Ayrım* kəndinə hücum edir. Kənd sakinlərindən **Haqverdi Haqverdiyev** və **Abbas Əliyev** evlərini tərk etmədiklərinə görə ermənilər tərəfindən döyülərək qətlə yetirilir...

**30 noyabr 1990-cı il** - Erməni terrorçuları tərəfindən *Xankəndi (Xocalı)* aeroportu yaxınlığında içərisində azərbaycanlıların olduğu sərnişin avtobusu partladılır. *2* nəfər həlak olur, *11* nəfər yaralanır...

**30 noyabr 1990-cı il** - Çaykəndə sığınmış erməni terrorçuları *Xanlar (Göygöl)* rayon sakinlərini - **Məmmədəli Əhmədov, Sənan Ağayarov, Raqub Rzayev, Şərif Məmmədov, Sərhəddin Əliyev, Rafiq Məmmədovu** qətlə yetirirlər...

**30 noyabr 1990-cı il** - Xanlar (Göygöl) rayonunun *Martunaşen* kəndində *5* azərbaycanlı polis nəfəri ermənilər tərəfindən amansızlıqla qətlə yetirilir...

# DEKABR

**1 dekabr 1510-cu il** - I Şah İsmayıl ilə Özbək hakimi Məhəmməd Şeybani xan arasında ***Mahmudi*** adlı *(Mərv qalası yaxınlığı)* yerdə döyüş baş verir. **Şeybani** öldürülür, qoşunu məğlub olur. Xorasan ələ keçirilir...

**1 dekabr 1917-ci il** - Zəngəzur qəzasının ***Kürdlər*** azərbaycanlı kəndinə hücum edən ermənilər kəndi dağıdaraq adamları qətlə yetirirlər...

**1 dekabr 1918-ci il** - Polkovnik Doluxanovun başçılıq etdiyi terrorçu daşnaqlar Vedibasarın Şahablı kəndinə basqın edərək bütün kişiləri qılıncdan keçirirlər; uşaqlar təndirlərə atılır. *8* seçmə qadın ermənilər tərəfindən girov aparılır...

**1 dekabr 1920-ci il** - Azərbaycan hökuməti bəyanatında Naxçıvanı Ermənistanın tərkib hissəsi elan edir. Amma Naxçıvan əhalisinin 90 %-i bunun əleyhinə çıxır...

**1 dekabr 1920-ci il** - Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyətinin qələbəsinə həsr olunmuş təntənəli iclasında *N.Nərimanov* Azərbaycan İnqilab Komitəsinin bəyannaməsini elan edir...

**1 dekabr 1920-ci il** - Azərbaycan rəhbərliyi Moskvanın təzyiqlərinə davam gətirməyərək Zəngəzurun Ermənistana verilməsi haqqında bəyanatla çıxış edir. Moskva Azərbaycanı güzəştlərə məcbur etmək üçün *"proletar beynəlmiləlçiliyi"* kimi gülünc təbliğat vasitələrindən istifadə edir. Məhz bundan az sonra Zəngəzur mahalı *2* hissəyə bölünərək ***4.505 kv.km*** ərazisi Ermənistana verilir. Rusiyanın təzyiqi ilə Azərbaycan Xalq Komissarları Şurası tərəfindən Qərbi Azərbaycanın ***Dilican*** və ***Göyçə*** əraziləri ermənilərə verilir...

**1 dekabr 1946-cı il** - İranda hökumət qoşunları Azərbaycana daxil olur...

**1 dekabr 1988-ci il** - Daşnaq ***Benik Asatyanın*** başçılıq etdiyi terrorçu dəstənin üzvləri Quqark rayonunun ***Vartana*** kəndindən qaçqın düşən ***240*** nəfər uşaq, qadın və yaşlı adamlardan ibarət dəstəni qarlı dağlarda pusquya salırlar. ***100*** nəfər azərbaycanlı güllələbaran edilir. Ələ keçən *13* nəfər dinc sakin işgəncələrlə qətlə yetirildikdən sonra onların cəsədləri yandırılır...

**1 dekabr 1988-ci il** - Ermənistan SSR-dən qovulmuş və acınacaqlı vəziyyətə düşmüş 95 azərbaycanlı ailə Füzuli şəhərində və rayonun digər yaşayış məntəqələrində yerləşdirilir...

**1 dekabr 1988-ci il** - Qərbi Azərbaycanın Masis rayonunun ***Zəngilər*** kənd sakini **Şərif Südeyf oğlunun** meyidi tapılır. Ermənilər onu amansız işgəncə ilə öldürmüşlər...





**1 dekabr 1989-cu il** - Ermənistan SSR Ali Soveti *"Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında"* antikonstitusion qərar çıxarır. "DQMV-də vəziyyətin normallaşdırılması sahəsində tədbirlər haqqında SSRİ Ali Soveti qərarının qəbuledilməzliyi barədə" qərarlar qəbul edir...

**1 dekabr 1991-ci il** - Kərkicahan qəsəbəsi güclü atəşə tutulur. Gecə erməni yaraqlıları rus hərbçiləri ilə birlikdə qəsəbəyə soxulmağa cəhd etsələr də, buna tam nail ola bilmirlər. *8* saatlıq davam edən qeyri-bərabər döyüşdən sonra ermənilər yaşayış məntəqəsinin bir hissəsini ələ keçirir. Azərbaycanlılara məxsus olan *21* ev ermənilər tərəfindən yandırılır. *2* nəfər ölür, *5* nəfər yaralanır, *3* nəfər qəsəbə sakini itkin düşür...

**1 dekabr 1992-ci il** - Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında ***qərar*** qəbul edir...

**2 dekabr 1918-ci il** - Erməni quldur yaraqlıları ***Sırxavənd, Qalayçılar*** və ***Dovşanlı*** kəndlərinə hücum edir. Çoxlu qətllər törədən ermənilər kəndləri çapıbtalayırlar...

**2 dekabr 1918-ci il** - *«Daşnaksütyun»* terror təşkilatının sərsəm ***«Böyük Ermənistan - dənizdən dənizə ölkə»*** yaratmaq proqramını həyata keçirən erməni quldur birləşmələri Cəbrayıl *(Qaryağın)* qəzasının azərbaycanlılar yaşayan kəndlərinə yenidən basqınlar edirlər. Təlafat və dağıntılar olur...

**2 dekabr 1918-ci il** - Ermənilərin silahlı quldur dəstəsi ***Aşağı Məlikli*** adlı Azərbaycan kəndinə soxulur. Bütün əmlak və mal-qara sürülüb aparılır. Kənd yandırılır...

**2 dekabr 1918-ci il** - Mülküdərə kəndində məskən salan terrorçular Cəbrayıl qəzasının ***Məzrə, Məlikli, Tatar*** kəndlərinə basqın edirlər. Məzrə kəndində *6* nəfər azərbaycanlı qətlə yetirilir. Məlikli və Tatar kəndlərində *2* qadın güllə yarası alaraq şikəst olur. **Məzrə, Məlikli** və **Tatar** kəndləri viran olunur...

**2 dekabr 1918-ci il** - Polkovnik Doluxanovun başçılıq etdiyi, Van və Sasun ermənilərindən təşkil olunmuş daşnaq terror qrupu Vedibasarın ***Qaraxaç, Qadılı, Şidli, Xalisə, Avşar, Cadqıran, Kiçik Vedi*** kəndlərinə basqınlar edərək çoxlu sayda ***qətliamlar*** törədirlər. ***300*** qadın əsir götürülür...

**2 dekabr 1918-ci il** - Cavanşir qəzasının ***Mehman*** kəndində məskən salan daşnaq terrorçular kənddə yaşayan azərbaycanlıları mühasirəyə alır, onları tərksilah edirlər. *3* nəfər azərbaycanlı qətlə yetirilir. Kənd azərbaycanlılardan təmizlənir...

**2 dekabr 1918-ci il** - Cəbrayıl qəzasında ***Xanağabulağı*** kənd sakini **Allahqulu Mahmud oğlu** otlağa qoyun çıxardığı yerdə ermənilər tərəfindən qətlə yetirilir.

Qəzanın Cilan kəndinə diləyə gəlmiş **Həsən İmamverdi oğlu** da ermənilər tərəfindən öldürülür...

**2 dekabr 1920-ci il** - Türkiyə ilə Ermənistan arasında ***Gümrü (Aleksandropol)*** sülh müqaviləsi bağlanır. Ermənistan faktiki olaraq Türkiyənin prorektoratına çevrilir...

**2 dekabr 1988-ci il** - Erməni terrorçuları Amasiya rayonunun kəndlərinə hücum edirlər. Çoxlu sayda qətlə yetirilənlər (**Mühid Həsənov - Əzizbəyov kəndi, Elbəyi** və **Roza Süleymanovlar** - Çaxmaq kənd sakinləri, **Məmməd Musayev** - Amasiya qəsəbəsi, **Nəbi Rüstəmov, Bayraməli Məmmədov** - Güllücə kəndi və s.) olur. Qaçqın düşənlərdən ***6*** nəfəri çovğuna dözməyərək donvurmadan həlak olurlar...

**2 dekabr 1988-ci il** - Gorus rayonunun sonuncu yeganə azərbaycanlı sakini **Cavanşir Rüstəm oğlu** erməni terrorçuları tərəfindən döyülərək qətlə yetirilir...

**2 dekabr 1990-cı il** - Çaykənd və Kamo kəndlərində məskən salmış erməni yaraqlıları ətraf kəndlərdə yaşayan azərbaycanlı əhaliyə hücum edərək onlardan **11** nəfəri qətlə yetirirlər...

**2 dekabr 1991-ci il** - Kərkicahan qəsəbə sakini **Elman Həsənov** öz həyatında erməni yaraqlısı tərəfindən qətlə yetirilir. ***4*** uşaq anası ***S. Sabahova*** ağır güllə yarası alır...

**2 dekabr 1991-ci il** - Xocalı yaxınlığında ələ keçirilən hərbi texnika və silah-sursat uzun mübahisələrdən sonra ruslara qaytarılır...

**2 dekabr 1991-ci il** - Ermənilər rus hərbçiləri ilə birlikdə ***Kərkicahan*** qəsəbəsinə soxulurlar. Basqınçılar evləri yandırır, qarət edir, əhalini güllələbaran edirlər. Kənd sakinlərindən həlak olanlar olur. Əsir və itkin düşənlərin bəzilərinin taleyindən neçə illərdir ki, xəbər yoxdur. Sağ qalanlar dağ yolları ilə Şuşaya üz tutur. Həmin gün kərkicahanlılar həlak olmuş həmyerlilərini dəfn etməyə macal və yer tapmırlar...

**2 dekabr 1992-ci il** - Ağdam şəhəri və şəhərə yaxın bir neçə kənd ermənilər tərəfindən toplardan atəşə tutulur. Ölənlər və yaralananlar olur...

**2 dekabr 1997-ci il** - Minsk qrupu həmsədrləri *"mərhələli həll"* planında dəyişiklik edərək, Dağlıq Qarabağı münaqişə tərəfi kimi tanıtmağa cəhd göstərir. DQ münaqişəsinin dinc yolla həlli üçün ATƏT-in Minsk qrupu *"mərhələli həll"* planının prinsiplərini təqdim edir. ***«Dağlıq Qarabağ məsələsi»*** ilə bağlı Azərbaycan və Ermənistan tərəflərinə ***«münaqişənin mərhələli həlli»*** variantı təqdim olunur. Lakin bu variantın müzakirəsi baş tutmur...

**3 dekabr 1787-ci il** - Fətəli xan ləzgilərdən topladığı qoşunla Qarabağa yürüş





edir. Qarabağ xanı İbrahimxəlil xan ***Ömər (Umar) xan Avardan*** aldığı yardımçı qoşun hissəsi ilə Kür çayı yaxasında Fətəli xanı qarşılayır. Həm qarabağlılar, həm də qubalılar xeyli itki verir. Fətəli xan geri çəkilərək II İrakli ilə məsləhətləşməyə gedir...

**3 dekabr 1806-cı il** - Rus ordusu şiddətli qırğından sonra general Bulqakovun rəhbərliyi altında Bakı şəhərinə daxil olur. ***Bakı*** təslim olur və işğal edilir...

**3 dekabr 1918-ci il** - Cəbrayıl qəzasının ***Axullu*** kəndinə basqın edən erməni yaraqlıları ***2*** kişi, ***3*** qadın və ***1*** uşağı qətlə yetirirlər. Qəzanın ***Hoğa*** kəndinə də hücum edən ermənilər **Əsəd ağa Cavanşir oğlunu,** qızı **İradə Bəyimi,** qardaşı qızı **Fatimə Bəyimi,** ev qulluqçusu **İncə İbad qızını,** nökərləri - **Allahverdi Əziz oğlunu, İsa Abış oğlunu, Vəli Kərbəlayı Ələsgər** oğlunu xəncərlə doğrayırlar. Onun əmlakını qarət edib evinə od vururlar. Kənddə ***3*** nəfər başqa dinc sakinlər də ermənilər tərəfindən qətlə yetirilir...

**3 dekabr 1919-cu il** - Erməni saqqallılar Cəbrayıl qəzasının ***Hoğa (Üçbulaq)*** kəndini mühasirəyə alaraq ***10*** müsəlmanı öldürürlər. Onlar ağsaqqal **Əsəd ağa Cavanşirə** və onun ailəsinə xüsusi qəddarlıqla divan tuturlar...

**3 dekabr 1919-cu il** - Daşnaq terrorçuları Zəngəzurun ***Çaylı, Əsədli, Oxçu*** kəndlərinə təkrar basqın edirlər. Məscid binası bombalanaraq dağıdılır; günahsız kənd sakinləri öldürülür, tikə-tikə doğranılır. Azərbaycan parlamentinin deputatı M.S.Axundzadə Zəngəzurdan vurduğu teleqramda bildirir ki, ermənilər ***Çaylı, Əsədli*** və ***Oxçu*** kəndlərində ***900*** müsəlmanı qətlə yetirmişlər. ***400*** qadın və uşaq vəhşicəsinə doğranmışdır...

**3 dekabr 1920-ci il** - Türkiyə Böyük Millət Məclisi Hökuməti ilə Ermənistan arasında Gümrü müqaviləsi imzalanır. Yeni Türk Dövlətinin imzaladığı bu andlaşma ilə ***Türkiyə -Ermənistan*** sərhədləri təsdiq edilir...

**3 dekabr 1988 -ci il** - Dilicanda **Vahid Sarıyev** ermənilər tərəfindən işgəncə ilə öldürülür...

**3 dekabr 1990-cı il** - Erməni yaraqlıları Cəbrayıl rayonunun ***Yuxarı Məzrə*** kəndinə hücum edərək dinc sakinlərdən **Aydın Poladxan oğlu Quliyevi, Mətləb Əvəz oğlu Rəhimovu** qətlə yetirirlər. 2 nəfər güllə yarası alır...

**3 dekabr 1990-cı il** - Cəbrayıl rayonunun ***Sirik, Yuxarı Mərzə, Doşulu*** kəndləri atəşə tutulur. Yuxarı Mərzə kəndinə ermənilər tərəfindən hücum olunur...

**3 dekabr 1991-ci il** - Ağdam rayonunun ***Papravənd*** kəndi erməni yaraqlılarının hücumuna məruz qalır. Düşmən geri oturdulur. İtkilər olur...

**3 dekabr 1992-ci il** - Ağdam şəhəri və onun yaxınlığındakı kəndlər ermənilər tərəfindən qrad qurğularından atəşə tutulur. Dağıntılar olur...

**4 dekabr 1731-ci il** - Səfəvilər Osmanlılarla döyüşdə Təbrizi itirirlər...

**4 dekabr 1742-ci il** - İranxarab düşərgəsinə çəkilən Nadir şah ötəri bir məhkəmədən sonra günahsız oğlu ***Rzaqulunun*** gözlərini çıxartdırır...

**4 dekabr 1914-cü il** - Təxminən ay yarım davam edən ***Sarıqamış əməliyyatı*** keçirilir. Türk ordusu məğlub olur...

**4 dekabr 1988-ci il** - Bakıda Azadlıq meydanında noyabrın 17-dən davam edən kütləvi etiraz mitinqi amansızcasına, zorakılıqla dağıdılır...

**4 dekabr 1991-ci il** - Kərkicahan qəsəbəsinin bir hissəsini tutmuş erməni quldurları oradan qovulub çıxarılır. İtkilər (qəsəbə sakini **Osman Səfərov** qətlə yetirilir, *3* nəfər ağır güllə yarası alır) və dağıntılar olur...

**4 dekabr 1991-ci il** - Ağdam rayonunun ***Cinli*** kəndi ermənilər tərəfindən atəşə tutu- lur...

**5 dekabr 1132-ci il** - Səncər Xorasana yenicə çatmışdı ki, Mahmudun oğlu şahzadə Davud yeni Sultan II Toğrula qarşı çıxır. Davudla Ağ Sunqur Azərbaycan və Arranın qoşunlarını toplayıb Həmədana doğru hərəkət edirlər. Vahan kəndi yaxınlığında Davudla II Toğrul arasında şiddətli döyüş baş verir. Davudun türk döyüşçülərinin bir hissəsi Toğrulun tərəfinə keçir və bu, döyüşün taleyini həll edir...

**5 dekabr 1917-ci il** - Daşnaq terrorçular ***Zəngəzur*** qəzasının azərbaycanlılar yaşayan ***Ərəfsə*** kəndinə hücum edirlər. *6* nəfər dinc sakin öldürülür. Əhali məcbur olub ev-eşiyini tərk edir...

**5 dekabr 1917-ci il** - Zaqafqaziya komissarlığı ***Ərzincanda*** barışıq haqqında saziş imzalayır...

**5 dekabr 1918-ci il** - Vedinin Dəhnəz kəndinə basqın edən ermənilər kəndi viran qoyaraq, ***150*** nəfər dinc kənd sakinini amansızlıqla qətlə yetirirlər...

**5 dekabr 1919-cu il** - Erməni silahlıları Vedibasarın *10* kəndinə basqın edirlər. Xeyli sayda adam öldürülür. ***100*** qadın əsir aparılır...

**5 dekabr 1936-cı il** - Azərbaycan SSR İttifaq Respublikası kimi SSRİ-nin tərkibinə daxil olur...

**5 dekabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı ***Sumbatovun*** əmri ilə tərkibində xeyli azərbaycanlı olan *127* nəfər güllələnir...

**5 dekabr 1941-ci il** - Sovet qoşunları Moskva altında əks hücuma keçir. Bu döyüşlərdə Azərbaycanın yüzlərlə igid oğlanları da həlak olur...

**5 dekabr 1941-ci il** - Görkəmli Azərbaycan şairi və dramaturqu, XX əsrin mütərəqqi romantizminin banilərindən biri, Azərbaycan xalqının faciələrlə dolu





həyatını duyub-dərk edən, sosial ədalətsizliyə, istibdada qarşı mübarizədə "pantürkist" damğası alan, mücadilə tariximizdə düşündürücü ədəbi əsərləri ilə iz qoyan **Hüseyn Abdulla oğlu Rasizadə *(Hüseyn Cavid)*** 59 yaşında Sibirin qarlı çöllərində, İrkutskda, Tayşet vilayətinin ***Şevçenko*** kəndində sürgündə faciəli şəkildə 20 yaşlı Zeynallı Yaqubun qolları üstündə canını tapşırır və 59 saylı qəbirdə dəfn olunur...

**5 dekabr 1988-ci il** - Erməni terrorçuları Hamamlı (Spitak) şəhərində *17* azyaşlı azəri türkünü iri diametrli boruya (uzunluğu 20 m., diametri 1,5 m) dolduraraq borunun ağızlarını qaynaq edirlər. Borunu hündür uçurumdan yuvarlayaraq içərisindəki bütün uşaqları vəhşiliklə qətlə yetirirlər...

**5 dekabr 1988 -ci il** - Qərbi Azərbaycanlı **Gündüz Canmirzə oğlu Xalıqov** erməni daşnaqları tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**5 dekabr 1988 -ci il** - Erməni daşnaqları ***Şörəyölün*** qədim oymağı hesab olunan ***Gözəldərə*** kəndini yerlə yeksan edirlər. Azərbaycan tarixinə Gözəldərə faciəsi adlı bir facia də əlavə olunur...

**5 dekabr 1988-ci il** - Sovet İKP MK və SSRİ Nazirlər Soveti Azərbaycanda və Ermənistanda vətəndaşların Konstitusiya hüquqlarının kobud surətdə pozulması haqqında qərar verir...

**5 dekabr 1988-ci il** - Sovet ordusunun xüsusi hərbi hissələri Bakının ***Azadlıq (Lenin)*** meydanında *17* gün davam edən mitinqi dağıdır. Yüzlərlə adam ekstremist adı ilə həbs olunur, onlarla adam yaralanır...

**5 dekabr 1991-ci il** - Dağlıq Qarabağ üzrə Respublika Qərargahında SSRİ DİN DQ-nın komandanı, general-leytenant V.Savin ilə *"görüş"* keçirilir...

**6 dekabr 1790-cı il** - Ağaməhəmməd şah Qacarı öldürmək üçün *15* nəfər tərəfindən sui-qəsd hazırlanır...

**6 dekabr 1846-cı il** - Rus çarı I Nikolay bəy və ağaların hüquqları haqqında *12* maddədən ibarət ***reskript (sərəncam)*** verir...

**6 dekabr 1957-ci il** - Dərələyəz mahalındakı ***Keşişkənd*** rayonunun adı ermənilər tərəfindən dəyişdirilərək Yeğeqnadzor qoyulur...

**6 dekabr 1989-cu il** - Azərbaycan SSR Ali Soveti tərəfindən yaradılan Dağlıq Qarabağ üzrə Respublika Təşkilat Komitəsinə Azərbaycan partiya təşkilatının rəhbərlərindən biri, Azərbaycan KP MK-nin II katibi V.Polyaniçko sədr təyin olunur...

**6 dekabr 1990-cı il** - Ağdam-Şuşa avtomobil yolu ***Əsgəranda*** gündüz açılırsa da axşam ermənilər tərəfindən yenidən bağlanılır...

**6 dekabr 1991-ci il** - Ağdam-Qaradağlı marşrutu ilə uçan vertolyot ermənilər

tərəfindən atəşə tutulur...

**6 dekabr 1992-ci il** - Ağdam rayonunun Ağdam şəhərindən sonra ən böyük yaşayış məntəqəsi olan ***Mərzili kəndi*** müvəqqəti olsa da süqut edir...

**6 dekabr 2000-ci il** - Bakıda gücü *6* bal olan *zəlzələ* baş verir...

**7 dekabr 1988-ci il** - Qərbi Azərbaycanda (Ermənistanda) azərbaycanlıların yaşayış məntəqələri olmuş ***Gümrüdə*** (Leninakan), ***Hamamlıda*** (Spitak) ***8*** bal gücündə *zəlzələ* baş verir. Böyük dağıntılar olur, ***25000*** nəfər adam ölür...

**7 dekabr 1989-cu il** - Xocavənd rayonunun *Qaradağlı* kənd sakini *Tofiq Məmmədovun,* Qəhrəman Ana *Qüdrət Məmmədovanın* evi ermənilərin atdıqları atəşdən od tutub yanaraq tamamilə dağılır. Onun 14 nəfərdən ibarət ailə üzvü şaxtalı havada çöldə gecələməli olur. Bununla kifayətlənməyən quduz yaraqlılar hündür dağlardan müxtəlif yandırıcı maddalərlə dolu çəlləkləri və təkərləri, üzüaşağı kəndə tərəf diyirləyərək camaatı kənddən uzaqlaşdırmaq istəyirlər...

**7 dekabr 1990-cı il** - Ağdam rayonunun ***Gülablı*** kəndi erməni yaraqlıları tərəfindən atəşə tutulur...

**7 dekabr 1991-ci il** - Xocavənd (Martuni, Hadrut) rayonu istiqamətindən Füzuli rayonunun Yuxarı Divanalılar kəndinə erməni quldurları basqın edir. *17* nəfər (5 kişi, 8 qadın, 4 uşaq) girov götürülür, *3* ev yandırılır. Kənd camaatı doğma yuvalarından didərgin düşür...

**7 dekabr 1992-ci il** - Ağdam rayonunun qərb mövqelərində şiddətli döyüşlər gedir...

**7 dekabr 1992-ci il** - Ağdam rayonunun ***Mərzili*** kəndi düşməndən azad edilsə də, itkilər olur...

**7 dekabr 1992-ci il** - Sur kəndi ermənilər tərəfindən atəşə tutulur...

**8 dekabr 1298-ci il** - Dövrünün görkəmli şəxsiyyəti **Şeyx Həsən Naxçıvani Bulqari Təbrizi** müəmmalı şəkildə ölür...

**8 dekabr 1877-ci il** - Erməni Milli Məclisi ermənilərin Rusiya tərkibində Osmanlılara qarşı savaşmasına qərar verir...

**8 dekabr 1917-ci il** - Zəngəzurun azərbaycanlılar yaşayan ***İrəmis*** kəndinə basqın edən silahlı ermənilər *8* dinc sakini vəhçicəsinə qətlə yetirirlər...

**8 dekabr 1919-cu il** - Erməni daşnaqları Cəbrayıl qəzasının *Arış* kəndinə hücum edirlər. Əhali atəşə tutulur, ölənlər və yaralananlar olur. Mal-qara və qoyun sürüləri ermənilər tərəfindən oğurlanıb aparılır...

**8 dekabr 1988-ci il** - Azərbaycan KP MK Bürosu tərəfindən daimi yaşayış





yerini tərk etməyə məcbur olmuş vətəndaşların problemi müzakirə olunur. Qeyd edilir ki, *7* dekabra qədər Ermənistan SSR-dən gəlmiş azərbaycanlıların sayı ***119.094*** nəfərdir; Azərbaycan SSR-dən gedən ermənilərin sayı isə ***89.641*** nəfər olmuşdur...

**8 dekabr 1988-ci il** - Ermənistandan azərbaycanlılar yaşayan sonuncu Nüvədi kəndinin əhalisi də qovulur...

**8 dekabr 1991-ci il** - Milli Qəhrəman **Rizvan Rəhman oğlu Teymurov** Kərkicahan yaşayış məntəqəsi yaxınlığında erməni yaraqlıları ilə döyüşdə həlak olur. *8* nəfər yaralanır...

**8 dekabr 1991-ci il** - Brest şəhəri yaxınlığında ***"Viskuli"*** mehmanxanasında Belorus, Ukrayna respublikaları ilə Rusiya Federasiyası rəhbərləri ***"Müstəqil Dövlətlər Birliyi"*** yaradılması haqqında müqavilə bağlayırlar...

**8 dekabr 1991-ci il** - Erməni quldurları Xankəndi şəhəri yaxınlığında yerləşən Kərkicahan qəsəbəsini PDM və ZTR-dən atəşə tuturlar. Az sonra qəsəbənin azərbaycanlılar yaşayan hissəsi ermənilərin hücumuna məruz qalır. Qəsəbə sakini ***Rizvan Ağalarov*** həlak olur; *8* nəfər ağır yaralanır...

**8 dekabr 1994-cü il** - Şuşa rayon polis şöbəsinin rəisi, vətənpərvər qarabağlı **Eldəniz Qurban oğlu Quliyev** və əqidəsinin saflığı ilə çoxlarından fərqlənən Şuşa şəhərinin qorxmaz sakini **İlham İslam oğlu Murtuyev** Zaqatala rayonu ərazisində müəmmalı şəkildə qətlə yetirilirlər...

**9 dekabr 1795-ci il** - Rus qoşunları ***Savelyevin*** komandanlığı altında Dərbəndi ələ keçirmək məqsədilə Azərbaycan ərazilərinə soxulur...

**9 dekabr 1867-ci il** - Göyçay, Qazax və Zəngəzur qəzaları yaradılır...

**9 dekabr 1867-ci il** - *"Qafqaz və Zaqafqaziya ölkəsinin idarə olunmasının dəyişdirilməsi haqqında"* adı altında imperator fərmanı təsdiq olunur...

**9 dekabr 1914-cü il** - Rusiya ilə Türkiyə müharibəyə başlayır...

**9 dekabr 1918-ci il** - Dağlıq Qarabağ erməniləri öz müstəqilliklərinə dair referendum keçirərək böyük səs çoxluğu ilə (90%) nəticə əldə edirlər...

**9 dekabr 1918-ci il** - Andranik öz quldur dəstəsi ilə Zəngəzurun *12* müsəlmanlar yaşayan kəndlərini dağıdır. Meyidləri təhqir edir, *10* qadını əsir aparır. Kəndlərə od vurur...

**9 dekabr 1991-ci il** - Goranboy rayonunun ***Todan*** kəndinə erməni yaraqlıları hücum edir. Dağıntılar, ölənlər (*2* nəfər) və yaralananlar (*5* nəfər) olur...

**9 dekabr 1991-ci il** - Erməni basqını nəticəsində Şuşa rayonunun ***Malıbəyli*** kəndinin *2* nəfər dinc sakini güllə yarası alır...

**10 dekabr 1586-cı il** - Osmanlı sultanı, Səfəvi şahzadəsi, məşhur sərkərdə *Həmzə Mirzə* Gəncə yaxınlığında erməni dəlləyi *Xudaverdi* tərəfindən öldürülür...

**10 dekabr 1918-ci il** - Yaraqlı erməni quldurları *Qalayçılar* və *Şabadin* kəndlərinə hücum edir. Kənd sakinlərindən ölən və yaralananlar olur. Bu kəndlər də ermənilər tərəfindən talan olunur...

**10 dekabr 1922-ci il** - ZSFSR MK yaradılır. Azərbaycan SSR formal olaraq müstəqillikdən məhrum edilir. Bakıda I Sovetlər Qurultayı toplaşır...

**10 dekabr 1933-cü il** - Mir Cəfər Abbas oğlu Bağırov AK(b)P MK-nın birinci katibi seçilir...

**10 dekabr 1988-ci il** - Ermənistan *"Türklərsiz Respublika"* elan olunur...

**10 dekabr 1988-ci il** - Zəlzələ ilə əlaqədar olaraq Yuqoslaviyadan göndərilən təyyarə Belqrad-Ankara-İrəvan marşrutu ilə Ermənistana uçur. Ankaradan uçduğu üçün ermənilər onu türk təyyarəsi hesab edərək qəzaya uğradırlar. Təyyarənin *6* nəfərlik şəxsi heyəti həlak olur...

**10 dekabr 1991-ci il** - Dağlıq Qarabağ erməniləri *«Dağlıq Qarabağ Respublikasının müstəqilliyinə dair refendum»* keçirirlər. Azərbaycanın rəsmi dövlət qurumları buna etinasız yanaşır...

**10 dekabr 1991-ci il** - Səhər saat *6* radələrində erməni silahlı dəstələri *3* ədəd zirehli maşınla Goranboy rayonunun *Todan* kəndinə hücum edirlər. Kənd işğal edilərək yandırılır. Od vurulmuş 80-ə yaxın evin tüstüsü göylərə qalxır. Ölənlər və yaralananlar olur...

**10 dekabr 1991-ci il** - Kərkicahan qəsəbəsində güclü, şiddətli döyüşlər gedir. Qəsəbə sakinləri əsl qəhrəmanlıqla döyüşür...

**10 dekabr 1992-ci il** - Erməni hərbi birləşmələri Zəngilan rayonunun ***Canbar, Aşağı Gəəli, Pirveyis, Şayıflı, Nəcəflər, Günqışlaq, Yuxarı Gəəli, Qazançı, Dərəli, Ağkənd, Bürünlü, Qaragöl, Şərikan*** və ***Seyidlər*** kəndlərinə hücum edirlər. Bu kəndlərin əksəriyyəti ermənilər tərəfindən işğal olunur. Onlarla dinc azərbaycanlı sakin və milli ordunun əsgərləri həlak olur. ***60*** nəfər itkin düşür. Yüzlərlə ev dağıdılır və yandırılır...

**10 dekabr 1992-ci il** - Daşnaq terrorçu birləşmələri Zəngilan rayonunun ***Dardan yuxarı*** adlanan ***Şayıflı*** və ***Şərikan*** kəndlərinin əhatə etdiyi oymaqlara silahlı hücum edirlər. Zəngilan ərazisində ermənilərlə döyüşdə zəngilanlılar - **Həsən Mirağa oğlu İsmayılov** (Şayıflı k.), **Müseyib Abbas oğlu Ələkbərov** (Şayıflı k.), **Vəli Abbas oğlu Abbasov** (Aşağı Gəəli k.), **Nabat Balakişi qızı Nəsirova** (Aşağı Gəəli k.), **Telman Vəli oğlu Abbasov** (Aşağı Gəəli k.), **Nüsrət Eyvaz oğlu





Şirinov** (Aşağı Gəəli k.), **İsmayıl Qaraş oğlu İsmayılov** (Şərikan k.), **Töhfə Canməmməd qızı Məmmədova** (Şərikan k.), **Feyruz Məhərrəm oğlu Məmmədov** (Şayıflı k.), **Qiyas Veysəl oğlu Tağıyev** (Zəngilan ş.), **Rəhim Teymur oğlu Yaqubov** (Qaragöl k.), **Sabir Şahməmməd oğlu Atakişiyev** (Zərnəli k.), **Qorxmaz İsmayıl oğlu Sadıqov** (Malatkeşin k.), **Dadaş Əmirxan oğlu Rəsulov** (Malatkeşin k.), **İlyas Məmmədqulu oğlu Qurbanov** (Yuxarı Yeməzli k.), **Seymur Əsgər oğlu Əsgərov** (Məlikli k.), **Sahib Vəli oğlu Cabbarov** (Zəngilan), **Pənah Məmməd oğlu Məmmədov** (Zəngilan), **Cəlil Sərdar oğlu Zeynalov** (Ağalı k.), **Elman Nuşirəvan oğlu Qurbanov** (Genlik k.), **Sahib İsrafil oğlu Novruzov** (Şayıflı k.), **Adil Əmrah oğlu Rüstəmov** (Zəngilan ş.), **Zülfüqar Fazil oğlu Məmmədov** (Bürünlü k.), **Musa Balakişi oğlu Məmmədov** (Şərikan k.) şəhid olurlar, itkin düşürlər...

**10 dekabr 1993-cü il** - Ermənistanın işğalçı qüvvələri zəbt etdikləri Füzuli və Xocavənd rayonları ərazisindən Beyləqan rayonu istiqamətində hücum edirlər. Ölənlər və yaralananlar olur...

**10 dekabr 2006-cı il** - *«Dağlıq Qarabağ Respublikası»* heç bir hüquqi qüvvəyə malik olmayan qanunsuz ***«Konstitusiya referendumu»*** keçirir...

**11 dekabr 1917-ci il** - Erməni silahlıları Zəngəzurun Pöhrəli kəndinə hücum edirlər. 9 nəfər dinc sakin qətlə yetirilir. Kəndə od vurulur...

**11 dekabr 1918-ci il** - Andranikin silahlı quldur dəstələri *12*-dən çox müsəlmanlar yaşayan kəndi yandırıb-dağıdır, cinsindən, yaşından asılı olmayaraq bütün kənd əhalisini doğratdırır və ya əsir götürür...

**11 dekabr 1918-ci il** - Daşnaq terrorçular Şuşa yaxınlığında poçtu dağıdıb, orada işləyən azərbaycanlıları qətlə yetirirlər...

**11 dekabr 1988-ci il** - Azərbaycandan Ermənistanda baş vermiş zəlzələ zonasına kömək məqsədilə göndərilən *"İL-76"* təyyarəsi zəlzələ zonasına çatarkən ermənilər tərəfindən müəmmalı şəkildə vurulur. Təyyarədə böyük əksəriyyəti azərbaycanlı olan *79* nəfərdən *78*-i həlak olur...

**11 dekabr 1991-ci il** - Ağdamın ***Şelli*** və ***Şotlanlı*** kəndlərinə ermənilər silahlı basqın edir...

**11 dekabr 1991-ci il** - Şuşa rayon icra hakimiyyətinin başçısı, vətənpərvər ziyalı **Mikayıl Qoca oğlu Gözəlov** öz iş otağında muzdlu qatil tərəfindən amansızlıqla qətlə yetirilir...

**11 dekabr 1991-ci il** - Goranboy rayonunun ***Todan*** kəndi itkilər hesabına olsa da geri alınır...

**11 dekabr 1991-ci il** - Xocalı şəhərinə ermənilər tərəfindən *50*-dən çox raket mərmisi atılır. Çoxlu dağıntılar olur...

**11 dekabr 1992-ci il** - Zəngilan rayonunun *4* kəndi ermənilər tərəfindən zəbt edilir...

**11 dekabr 1992-ci il** - Zəngilan rayonunun ***Qıraq Müşlan*** kənd sakini, ***9-cu*** sinif şagirdi **Könül İmanqulu qızı Hüseynova** məktəbdən evə gedərkən ermənilərin atdığı qrad mərmisinin qurbanı olur...

**11 dekabr 1992-ci il** - Erməni yaraqlıları güclü hücumla Qubadlı rayonunun ***Cibikli*** kəndinə daxil olurlar...

**12 dekabr 1727-ci il** - Rusiya ilə Səfəvi dövlətləri arasında Nabur sülh müqaviləsi bağlanır. Bu müqaviləyə əsasən ***Cavad, Salyan, Şeşpara, Rustov, Quba*** və ***Təngə*** əraziləri ruslara verilir. ***Hacı Davud xan*** Təngə qalasını təslim etməkdən imtina edir. Xəzəryanı vilayətlərin idarəsi ***V.Dolqorukiyə*** həvalə edilir...

**12 dekabr 1905-ci il** - İranda 1911-ci ilə qədər davam edən inqilab başlanır...

**12 dekabr 1945-ci il** - Nə qədər qəribə olsa da, Güney Azərbaycanda Milli Hökumətin yaradılmasına ***("21 Azər" hərəkatı)*** əngəllər törətmək istəyən qüvvələr də tapılır...

**12 dekabr 1946-cı il** - Hökumət qoşunları Təbrizə daxil olur. Təbriz ələ keçir. Milli Hökumət süqut edir. Azərbaycanın dinc əhalisinə divan tutulur; minlərlə adam qətlə yetirilir. ADR üzvləri öldürülür...

**12 dekabr 1989-cu il** - Goranboy rayonunun ***Todan*** kəndinə hücum edən daşnaq terrorçuları *4* nəfər əliyalın azərbaycanlı, dinc sakini qətlə yetirirlər...

**12 dekabr 1990-cı il** - Saat 14 radələrində Ağdamdan Şuşaya gedən ***13- 58 AQYA*** nömrəli avtobus ***Xanbağı*** yaxınlığında erməni terrorçuları tərəfindən atəşə tutulur. Meşəli kənd sakini olan sərnişin ***Əli Mürsəl oğlu Mehrəliyev*** ağır güllə yarası alır...

**12 dekabr 1991-ci il** - Xocalı şəhəri *"Alazan"* raketlərindən, *"Qrad"* qurğularından, toplardan, iriçaplı pulemyotlardan atəşə tutulur. Şəhər yarımmühasirə vəziyyətindədir. Şəhərdə ərzağa böyük tələbat vardır...

**12 dekabr 1991-ci il** - Ağdam rayonunun ***Əhmədavar, Şelli, Xıdırlı, Çuxurməhlə, Qalayçılar*** kəndləri atəşə tutulur. Nəticədə *2* nəfər azərbaycanlı həlak olur, *5* nəfər yaralanır...

**12 dekabr 1991-ci il** - Laçın rayonunun ermənilərlə həmsərhəd əraziləri erməni yaraqlıları tərəfindən atəşə tutulur...

**12 dekabr 1991 ci il** - Daşnaq terrorçuları ***Xocalının (Əsgəranın)*** Cəmilli kəndinə basqın edirlər. Kənd dağıdılaraq yandırılır. *6* nəfər kənd sakini ağır güllə yarası alır...





**12 dekabr 1991-ci il** - *"Dağlıq Qarabağ Respublikasının"* rəhbərləri MDB-yə daxil olmaq üçün Rusiya, Ukrayna prezidentlərinə və Belorusiya parlamentinin spikerinə xahiş teleqramları ilə müraciət edirlər...

**12 dekabr 1991-ci il** - Kərkicahan qəsəbəsinə basqın edən ermənilər milis əməkdaşı Firdovsi Məmmədovu qətlə yetirirlər...

**12 dekabr 1992-ci il** - Ermənilər Azərbaycan Ordusunun diqqətini Laçın dəhlizindən yayındırmaq üçün Zəngilan və Qubadlı rayonlarının ***Şayıflı, Seyidlər, Ərkənd, Çərəli, Qazançı, Günqışlaq, Pirveyisli, Canbar, Yuxarı Qayalı*** kəndlərini zəbt edir. Bu hücumlar nəticəsində ***20*** nəfər azərbaycanlı öldürülür, ***40*** nəfər isə yaralanır, ***60*** nəfər İtkin düşür...

**13 dekabr 1497-ci il** - İsfahan yaxınlığında baş verən döyüşdə qiyamçı feodallar **Gödək Əhmədi** məğlub edib onu öldürürlər...

**13 dekabr 1754-cü il** - 4-cü Osmanlı padşahı **Sultan I Mahmud xan** İstanbulda ölür...

**13 dekabr 1904-cü il** - Bakı fəhlələri arasında çoxdan hazırlanan, ***Balaxanı, Sabunçu, Bibiheybət*** rayonlarında başlanan və ***31 dekabra*** qədər davam edən ***tətil*** tezliklə şəhərin bütün müəssisələrini və neft mədənlərini əhatə edir. Çoxlu sayda fəhlə həbs edilir və işdən qovulur...

**13 dekabr 1922-ci il** - Keçirilən I Zaqafqaziya Sovetlər qurultayında ZSFSR Konstitusiyası qəbul edilir. Zaqafqaziya Sovet Sosialist Federativ İttifaqı Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası şəklində yenidən təşkil edilir...

**13 dekabr 1946-cı il** - Təbrizdə terror həyata keçirilir. İdarəetmə orqanları dağılır. Az müddət içərisində ***30 000*** adam ölür; minlərlə adam yaralanır və zindana salınır, ***300 000*** adam sürgün olunur. Cənubi Azərbaycanda milli hərəkat məğlub olur. Milli hökumətin pis silahlanması, hökumət rəhbərliyində fikir ayrılıqlarının olması, əyalətlərdə şah qoşunlarına müqavimət göstərilməməsi və bu işdə Azərbaycan Demokratik Firqəsinin qətiyyətsizliyi, rəhbərliyin ölkəni tərk etməsi və digər səbəblər hərəkatın məğlubiyyətinə səbəb olur...

**13 dekabr 1991-ci il** - Cəmilli kəndinin ***UAZ*** markalı maşını erməni terrorçuları tərəfindən atəşə tutulur. ***10*** uşaq atası Tahir Sadıqov qətlə yetirilir, maşında olan digər ***15*** nəfər müxtəlif dərəcəli güllə yarası alır...

**13 dekabr 1992-ci il** - Füzuli şəhəri, eləcə də rayonun ***Arış, Xələfşə, Cuvarlı, Qoçəhmədli*** kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur. Həlak olanlar, yaralananlar və dağıntılar qeydə alınır...

**13 dekabr 1992-ci il** - Tərtər və Ağdam rayonlarının ermənilərlə həmsərhəd

verir...

**14 dekabr 1990-cı il** - Ağdərə rayonu ərazisində *1* nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**14 dekabr 1990-cı il** - Ağdərə rayonunun ***Umudlu*** kəndi ərazisində maşın karvanı qəflətən erməni terrorçularının basqımına məruz qalır. Sürücülərdən biri - **A. Məmmədov** həlak olur; digər bir sürücü ***S. Əmirov*** və mühafizəçi ***D. Şakirov*** yaralanırlar...

**14 dekabr 1991-ci il** - Erməni terrorçusu tərəfindən Kərkicahan qəsəbəsinin dinc sakini **A. Nəcəfov** qətlə yetirilir; ***Elxan Abbasov, Elxan Məmmədov, Mütəllim Əhmədov*** və telerepartyor ***Seyidağa Mövsümov*** yaralanırlar...

**14 dekabr 1991-ci il** - Şuşa rayonunun ***Malıbəyli*** kəndi erməni terrorçularının basqınına məruz qalır. Sovxozun ferması və daha *16* ev yandırılır. Kəndin dinc sakinləri - ***Gülxar Bayramova, Qəşəm Quliyev, Allahverdi Bəxtiyarov, Bilal Məmmədov, Arzu Salmanova, Oqtay Mədətov, Bayram Mədətov, İsmayıl Abdullayev*** yaralanaraq müxtəlif dərəcəli bədən xəsarəti alırlar...

**14 dekabr 1991-ci il** - Şuşa rayonunun ***Quşçular*** kəndi ermənilər tərəfindən raket atəşinə tutulur. *5* ev tamamilə dağıdılır. Kəndin dinc sakinlərindən - ***Bərsayıl İbrahimov, Mərziyə İbrahimov, Malik İsfəndiyarov*** yaralanırlar...

**14 dekabr 1992-ci il** - Ağdam cəbhəsi boyu erməni yaraqlıları ilə döyüşlər davam edir. Tələfat və dağıntılar olur...

**15 dekabr 1904-cü il** - Balaxanı şosesində tətil edən silahsız fəhlələrə amansız divan tutulur...

**15 dekabr 1917-ci il** - Daşnaq terrorçular Şərqi Anadoluda azərbaycanlılar yaşayan ***Çamurlu*** kəndinə hücum edirlər. Qarsda nüfuzu ilə hörmət qazanan Şamil ağa daşnaqların əlinə keçməmələri üçün arvadını və uşaqlarını vurub öldürür; özünü vurmağa macal tapmamış düşmənlər onu tərksilah edib tuturlar...

**15 dekabr 1918-ci il** - Ermənilər ***Hoğa*** kəndində *(indiki Füzuli rayonunun Üçbulaq kəndi)* 55 azərbaycanlı evini dağıdır, mülkədar Cavanşirin malikanəsinə od vurub yandırırlar. Ailə başçısı **Əsəd ağa Cavanşiri**, oğlu **Sultan ağanı**, qızı **İyanə bəyimi**, qardaşı qızı **Fatma bəyimi**, qulluqçuları **İnci Abış qızını** və **Vəli Kərbəlayi Ələsgər oğlunu** vəhşicəsinə öldürərək, dərilərini soyub xəncərlə doğrayırlar...

**15 dekabr 1922-ci il** - Azərbaycan K(b)P MK-nin iclası Zaqafqaziya Ölkə Komitəsinin *27* ***oktyabr*** qərarını icra üçün qəbul edir...

**15 dekabr 1988-ci il** - SSRİ rəhbərliyi Azərbaycan və Ermənistan rəhbərlə-

rinə bir sıra qanunsuz hərəkətlərə görə öz respublikalarında vəzifəli şəxslərin cəzalandırılması tapşırığını verir. Bir ay ərzində Azərbaycanda ermənilər guya sıxışdırdığına görə 2532 nəfər məsuliyyətə cəlb olunur, *222* nəfər işdən çıxarılır. *19.000* nəfərdən çox erməni Azərbaycana qayıdır...

**15 dekabr 1990-cı il** - Samvel Babayanın və Arkadi Ayriyanın başçılıq etdiyi erməni terrorçu qrupu tərəfindən Əsgəran rayonunun ***Kosalar*** və ***Cəmilli*** kəndləri ərazisində *3* nəfər azərbaycanlı -milis baş leytenantı **Mikayıl Əhmədiyyə oğlu Cəbrayılov**, mühafizə şöbəsinin əməkdaşı **Arzu Yaqub oğlu Əliyev**, 11-ci sinif şagirdi **Əhməd Cavadov** qəddarlıqla qətlə yetirilir. Həbs olunan ***S.Babayan*** *(Samvel Babayan 1993-1999-cu illərdə qondarma «Dağlıq Qarabağ Respublikası»nın müdafiə naziri vəzifəsində çalışmışdır)* 1992-ci ildə əsir azərbaycanlı ilə dəyişdirilir...

**15 dekabr 1991-ci il** - Ağdam rayonunun ***Gülablı*** və ***Əhmədavar*** kəndlərinə ermənilərin silahlı basqını olur...

**15 dekabr 1991-ci il** - Daşnaq terrorçuları Xocalı hava limanına basqın edirlər. Polis əməkdaşı ***E. Əhmədov*** atışma zamanı qətlə yetirilir. Daha *2* nəfər ağır güllə yarası alır...

**15 dekabr 1991-ci il** - Xocalı rayonunun ***Cəmilli*** kəndinə erməni birləşmiş silahlı qüvvələri tərəfindən *366*-cı alayın hərbi texnikası və komanda heyətinin iştirakı ilə hücum olunur. *9* nəfər dinc kənd sakini **(Xıdır Cabbarov, Vaqif Cavadov, Əhməd Cavadov, Fikrət Mehdiyev, Vaqif Sadıqov, Natiq Salahov, Şakir Salahov, Məmməd Zeynalov, Bəhram İsmayılov)** qətlə yetirilir. Əhali kənddən didərgin salınır, evlər tamamilə yandırılır...

**16 dekabr 1312-ci il** - Dövrünün görkəmli alimi, şair, təriqət başçısı **Nəcməddin Əbu Bəkr Zərkub Təbrizi** müəmmalı şəkildə ölür...

**16 dekabr 1474-cü il** - Məşhur astronom **Qazızadə Rumi** və Uluqbəyin tələbəsi, dövrünün görkəmli mütəfəkkiri **Əli Quşçi** ***(Əli bin Məhəmməd əl-Quşçi)*** müəmmalı şəkildə ölür...

**16 dekabr 1917-ci il** - Xalq Komissarlar Sovetinin iclasında ***İ. V.Stalinin*** təklifi ilə ***S. G. Şaumyan*** Qafqazın fövqəladə komissarı təyin edilir...

**16 dekabr 1918-ci il** - Tuğ kəndinin *(hazırda Xocavənd rayonunun tərkibindədir)* mülkədarı **Ağabəy Məlikaslanov** ermənilər tərəfindən vəhşicəsinə öldürülür; onun bütün əmlakı qarət edilir...

**16 dekabr 1937-ci il** - Azərbaycan SSR XDİK idarəsinin 3-cü ranqının Dövlət Təhlükəsizlik Komissarı ***Sumbatovun*** əmri ilə *365* (196+169) nəfər güllələnir...





**16 dekabr 1989-cu il** - Stepanakert (Xankəndi) şəhərində *«DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı»* keçirilir. *«Qurultay»* Azərbaycan SSR tərkibində muxtar vilayət kimi Dağlıq Qarabağın statusunu tanımaqdan imtina etdiyini bildirir, Vilayəti Azərbaycan SSR Konstitusiyasının və Respublikanın digər qanunlarının icrasının dayandırıldığı «müstəqil ittifaq ərazisi» elan edir...

**16 dekabr 1991-ci il** - Xocalı *(keçmiş Əsgəran)* rayonunun Qarabağ silsiləsində yerləşən ***Cəmilli*** kəndi ermənilərin hərbi birləşmələri tərəfindən işğal olunaraq yandırılır. Azərbaycan tarixinin qanlı **Cəmilli faciəsi** baş verir. 15 nəfər - **Xıdır Cabbarov, Vaqif Cavadov, Əhməd Cavadov, Fikrət Mehdiyev, Vaqif Sadıqov, Natiq Salahov, Şakir Salahov, Məmməd Zeynalov, Bəhram İsmayılov...** daşnaq erməni terrorçuları tərəfindən qətlə yetirilirlər...

**16 dekabr 1993-cü il** - Erməni birləşmiş qoşunları Beyləqan şəhəri istiqamətində hücuma cəhd göstərirlər. İtkilər, dağıntılar olur...

**17 dekabr 1252-ci il** - Dövrünün görkəmli şəxsiyyəti, nüfuzlu din xadimi, əsgər qazisi **Şərif Şəmsəddin Əbu Abdulla Məhəmməd ibn Hüseyn** müəmmalı şəkildə ölür...

**17 dekabr 1717-ci il** - I Pyotrun yaxın adamı Volınski Şamaxıya qayıdır. O, Cənubi Qafqazın xristianları, sonra isə Dərbənddən gələn erməni tacirləri ilə görüşür. Onlar Volınskiyə Dərbənd qalasının planını gizlicə təqdim edirlər...

**17 dekabr 1788-ci il** - Ruslar İndiki Ukrayna torpaqlarında, Qara dənizin quzeyində yerləşən Özi qalasını işğal edirlər və ***25.000*** adamı qətlə yetirirlər...

**17 dekabr 1917-ci il** - Daşnaq terrorçular Zəngəzur qəzasının azərbaycanlılar yaşayan ***Bəhrili*** kəndinə basqın edərək *9* nəfər dinc sakini qətlə yetirirlər...

**17 dekabr 1918-ci il** - Ermənilər Zəngəzurun ***Kələndərəsi*** ətrafında olan müsəlman kəndlərinə, o cümlədən ***Nubaord*** kəndinə od vurub yandırırlar, oradaqətliam, soyğunçuluq törədirlər. Əhali doğma yurd-yuvasından didərgin salınır...

**17 dekabr 1990-cı il** - Naxçıvanın ***Şərur*** rayonunda *2* nəfər azərbaycanlı ermənilər tərəfindən öldürülür...

**17 dekabr 1990-cı il** - Şərur rayonunda pusqu quran erməni yaraqlıları 23 yaşlı milis işçisi ***F. Əliyevi*** və mülki şəxs ***İ. Hacıyevi*** vəhşicəsinə qətlə yetirirlər. Dinc sakin ***F. Abdullayev*** güllə yarası alır...

**17 dekabr 1991-ci il** - Ağdamın ***Şelli*** kəndi müxtəlif silahlardan atəşə tutulur. 1 nəfər yaralanır...

**17 dekabr 1991-ci il** - Xocalı rayonunun ***Cəmilli*** kəndi ermənilər tərəfindən

yandırılır. Kəndin əhalisi öz dədə-baba torpağından zorla qovulur. Basqınçılar kənddəki evlərin bütün əşyalarını, mal-qaranı daşıyıb aparır. Kəndin yaxınlığında döyüş gedir. Ölənlər və yaralananlar olur...

**17 dekabr 1992-ci il** - Azərbaycan Respublikasının Prezidenti *"Cəbrayıl rayonu ərazisində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında"* fərman verir...

**17 dekabr 1992-ci il** - Ağdamın qərb bölgələrində ermənilərlə qızğın döyüşlər davam edir...

**18 dekabr 1800-cü il** - Rus çarı Pavel Gürcüstanı Rusiyaya ilhaq etməyə dair fərmana qol çəkir. ***General Qnorrinq*** Gürcüstana hakim təyin olunur. Bundan sonra Azərbaycanın da gələcək müqəddəratında *"aşkar məqamlar planı"* nəzərə çarpır...

**18 dekabr 1901-ci il** - Tovuz stansiyasının dəmiryolçuları tətil edirlər...

**18 dekabr 1917-ci il** - Rus-erməni qüvvələri ilə türklər arasında Ərzincanda barışıq aktı yenidən müzakirə olunur. Vladimir İliç Lenin daşnaq ***S.G.Şaumyanı*** Zaqafqaziya işləri üzrə komissar təyin edir. P.A.Caparidze isə Bakı Sovetinin sədri olur...

**18 dekabr 1918-ci il** - Erməni quldur dəstələri Cəbrayılın Sirik kəndini darmadağın edərək yandırırlar. Kənddən *11* kişi, *10* qadın, *14* uşaq erməni güllə-baranı nəticəsində qətlə yetirilir...

**18 dekabr 1940-cı il** - Hitler SSRİ-yə qarşı müharibə ***("Barbarossa" planı)*** haqqında *21* saylı Direktivi imzalayır...

**18 dekabr 1990-cı il** - Terrorçu daşnaqlar Daşkəsən rayonunun Lenin adına sovxozunun otlaq sahəsinə basqın edərək, *27* yaşlı ***R.İsmayılovu*** girov götürüb, *500* baş qoyun sürüsünü aparırlar...

**18 dekabr 1993-cü il** - Xocavənd rayonunun ***Muğanlı*** kəndi istiqamətində gedən qanlı döyüşlərdə Ağcabədi rayonunun ***Minaxorlu*** kəndinin 1970-ci il təvəllüdlü vətənpərvər oğlu **Qaraş Cəmil oğlu Hacıyev** şəhid olur...

**18 dekabr 1997-ci il** - Azərbaycan Respublikasının Prezidentinin *"1948-53-cü illərdə azərbaycanlıların Ermənistandan kütləvi surətdə deportasiyası haqqında"* fərmanında azərbaycanlıların məruz qaldığı etnik təmizləmə və soyqırımına tarixi, siyasi, hüquqi qiymət verilir...

**19 dekabr 1210-cu il** - Gürcü qoşunları Azərbaycan ərazisinə ən böyük yürüşlərdən birini həyata keçirir. Onlar Naxçıvanı tuta bilməyib ***Culfaya, Mərəndə*** və ***Təbrizə*** tərəf istiqamətlənirlər. Şəhərlər qarət olunur, çoxlu mal-dövlət,





pul, zinət əşyaları gürcülərin əlinə keçir...

**19 dekabr 1905-ci il** - Movses Qriqoryanın, Ambarsum Koçarovun başçılıq etdiyi daşnaq terrorçuları Xankəndinin azərbaycanlılar yaşayan məhəllələrinə basqın edirlər. **Yusif Xanalı oğlu, Əkbər Sadıq oğlu, Məhəmməd İbrahim oğlu, Hafizə Qara qızı, Minə Qara qızı, Sitarə Usub qızı, Sadıq Kərbəlayi Xanalı oğlu, Həbib Məşədi İsgəndər oğlu, Dostuxanım Məşədi Məhəmmədbağır qızı, Rəhim Ağaməmməd oğlu, Aftab Məşədi Zeynalabidin qızı, Məşədi Zeynal,** onun oğlanları **Teymur, Firudin, Əsəd** qətlə yetirilir; sonra meyidlərə od vurulur. Azərbaycanlılara məxsus olan evlər, dükanlar qarət olunur...

**19 dekabr 1917-ci il** - Erməni Milli Şurasının iclasında ***Andranik Ozanyan*** sonrakı fəaliyyəti - yəni, türklərə və azərbaycanlılara qarşı həyata keçirəcəyi soyqırımı, vəhşilikləri sanki yerinə yetirmək barədə bəyanat verərək deyir: *"Əgər siz məni Ermənistanın oğlu sayırsınızsa, mən elə günü sabah Ərzuruma yola düşürəm...türkləri və azərbaycanlıları, kürdləri və yəhudiləri qırmaq üçün öz rəşadətli dəstəmlə gedirəm və məni heç kəs bundan dayandıra bilməz..."*

**19 dekabr 1918-ci il** - Andranikin silahlı quldur dəstəsi yerli ermənilərlə Kağı dərəsində müsəlmanları vəhşicəsinə qırırlar...

**19 dekabr 1918-ci il** - Zəngəzurun azərbaycanlılar yaşayan ***Nüvədi*** kəndinə basqın edən erməni terrorçuları qətliamlar törədirlər. Ağır yataq xəstəsi olan ***Əsəd bəy Abbasovun*** sinəsinə ermənilər süngü sancırlar. Kənddən çıxıb qaçmaq istəyən qadın və uşaqlardan ələ keçəninin başları kəsilir...

**19 dekabr 1919-cu il** - İrəvanda təşkil edilmiş ***"Müdafieyi-məzluman"*** qrupunun üzvü **Hüseynağa Şahtaxtinski** ermənilər tərəfindən qətlə yetirilir...

**19 dekabr 1920-ci il** - Erməni yaraqlıları Zəngəzurun ***Əliquluuşağı - Fərəcan*** cəbhə xətti boyunca azərbaycanlılar yaşayan kəndlərinə hücum edirlər. *26* kənd yerlə yeksan edilir. Çoxlu sayda günahsız azərbaycanlılar qətlə yetirilir. Əhali doğma yurdlarından didərgin düşür...

**19 dekabr 1991-ci il** - Ağdamın ***Şotlanlı*** kəndi ermənilər tərəfindən atəşə tutulur; bir neçə ev zədələnir...

**19 dekabr 1991-ci il** - Xocalı-Ağdam reysi ilə uçan vertolyota ermənilər tərəfindən atəş açılır...

**19 dekabr 1991-ci il** - Kərkicahan qəsəbəsi ermənilər tərəfindən top və raket qurğularından, iriçaplı pulemyotlardan atəşə tutulur. Dağıntı və tələfat olur...

**20 dekabr 1743-cü il** - Ağsu yaxınlığında baş verən döyüşdə Səfi (Sam) Mirzənin dəstələri dağıdılır, özü isə öldürülür. Nadirin əmri ilə əsir alınmış üsyançıların başlarından Ağsu yanında ***qüllə*** düzəldilir...

**20 dekabr 1911-ci il** - Çar qoşunları Təbrizə hücuma keçir. Rusiyanın təhriki ilə Təbrizə əksinqilabın hücumu başlanır...

**20 dekabr 1912-ci il** - *"Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi surətdə satılması haqqında qanun"* verilir. Çar tərəfindən Stolipin aqrar siyasətini müəyyən məhdudluqla özündə əks etdirən canişin layihəsi təsdiq edilərək qüvvəyə minir...

**20 dekabr 1918-ci il** - Zəngəzurun ***Qarçıvan, Deştahad, Fərəcan*** kəndlərinə basqın edən erməni terrorçuları həmin kəndlərdə *115* nəfər azərbaycanlı dinc sakini vəhşicəsinə qətlə yetirirlər...

**20 dekabr 1919-cu il** - Erməni daşnaqları Zəngibasarın ***Kolanı*** kəndinə hücum edir. Çoxlu sayda adam öldürülür. Kənd əhalisi yurd-yuvasından didərgin düşür...

**20 dekabr 1919-cu il** - Silahlı erməni dəstələri Cəbrayıl qəzasının (indiki Cəbrayıl rayonunun) ***Xələfli, Aşıq Məlikli, Tatar*** və ***Şıxlar*** kəndlərinə basqın edir. *10* evi yağmalayır və yandırır, *2* qadını, *6* kişini öldürür, bütün mal-qaranı sürüb aparırlar...

**20 dekabr 1942-ci il** - Görkəmli hərbi xadim, general-mayor, *"Lenin"* (ölümündən sonra) və *"Qırmızı Bayraq"* ordenli **Yaqub Allahqulu oğlu Quliyev** Stalinqrad döyüşlərində həlak olur...

**20 dekabr 1988 ci il** - Azərbaycan rəhbərlərinin qətiyyətsizliyindən istifadə edən ermənilər DQMV Xalq Deputatları Sovetinin sessiyasında Vilayətin Azərbaycanın tərkibindən çıxıb Ermənistana birləşməsini elan edirlər...

**20 dekabr 1989-cu il** - Daşnaq terrorçular Kərkicahan yaşayış məntəqəsinə hücum edirlər. ***İslam İdris oğlu*** və ***Füzuli Rəhim oğlu*** güllə yarası alırlar...

**20 dekabr 1991-ci il** - Xankəndi şəhəri yaxınlığında yerləşən ***Kərkicahan*** qəsəbəsi ermənilər tərəfindən yenidən raket atəşinə məruz qalır...

**20 dekabr 1992-ci il** - Çıldıran kəndi ərazisində gedən qanlı döyüşlərdə Basarkeçərin Zod kəndinin 1973-cü il təvəllüdlü mərd oğlu **Şöhrət Səməndər oğlu Əhmədov** qəhrəmancasına həlak olur...

**21 dekabr *1812*-ci il** - Kotlyarevski Lənkəran xanlığının ərazisinə soxulur...

**21 dekabr 1905-ci il** - Çar hökuməti Azərbaycanda ***kütləvi həbslər*** həyata keçirir...

**21 dekabr 1919-cu il** - Erməni silahlıları Zəngibasarın ***Qarğabazar*** kəndinə basqın edərək kəndi tamam dağıdırlar. 10-dan çox ev yandırılır, günahsız adamlar qətlə yetirilir...

**21 dekabr 1979-cu il** - SSRİ Əfqanıstanı işğal edir. *10* il davam edən bu işğal ərzində yüzlərlə azərbaycanlı da həlak olur...





**21 dekabr 1991-ci il** - 1958-ci il təvəllüdlü vətənpərvər şuşalı **Vahid Mövsüm oğlu Həsənov** həlak olur...

**21 dekabr 1991-ci il** - Şuşa rayonunun *Nəbilər* kəndi erməni yaraqlılarının hücumuna məruz qalır. Ölən və yaralananlar olur. Əhali doğma yurdundan didərgin düşür...

**21 dekabr 1991-ci il** - Almata şəhərində Müstəqil Dövlətlər Birliyi yaradılmasına dair ***"Almata Bəyannaməsi"*** imzalanır. 11 suveren dövlət - ***Rusiya, Ukrayna, Belorusiya, Azərbaycan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan*** və ***Moldava*** bərabər hüquqlar əsasında Müstəqil Dövlətlər Birliyi yaratmaq haqqında protokol imzalayır...

**21 dekabr 1994-cü il** - 23 yaşlı cəsur bölmə komandiri **Şahin İsmixan oğlu Hüseynov** minaya düşərək həlak olur...

**22 dekabr 1248-ci il** - Məşhur Azərbaycan filosofu, həkim, alim, Misirin qazisi **Əfzələddin Məhəmməd ibn Namavər ibn Əbdülməlik Xunəci** Qahirədə müəmmalı şəkildə ölür...

**22 dekabr 1830-cü il** - Balakən ərazisində baş verən döyüşdə üsyançılar yenə məğlub olurlar...

**22 dekabr 1918-ci il** - Gecə saat 9-da Lənkəranda erməni silahlıları ***Qala*** bazarın mühafizə əsgərləri ilə sövdələşərək ***Yeddioymaq*** kənd sakini **Molla İsgəndəri** vəhşicəsinə qətlə yetirirlər...

**22 dekabr 1919-cu il**- Erməni silahlı qruplaşmaları ***Uluxanlı*** kəndini top atəşinə tuturlar. Ölənlər və yaralananlar olur. Kənddən qaçanların bir qismi yolda terrorçular tərəfindən qətlə yetirilir, bir qismi isə Araz çayında boğulur...

**22 dekabr 1920-ci il** - Erməni yaraqlıları ***İrəvan*** şəhərində *192* nəfər azərbaycanlını qətlə yetirir...

**22 dekabr 1922-ci il** - ZSFSR SSRİ tərkibinə qatılır. Zaqfederasiyanın İttifaq Soveti Dağlıq Qarabağa muxtariyyət verilməsinin sürətləndirilməsi haqqında xüsusi qərar qəbul edir...

**22 dekabr 1941-ci il** - **Hitler** *"Qafqaz müsəlmanlarından xüsusi hərbi hissələr yaradılması haqqında"* sərəncam verir...

**22 dekabr 1990-cı il** - Gülablı kəndi yenidən ermənilər tərəfindən atəşə tutulur...

**22 dekabr 1991-ci il** - **Rəhimov Rəcəb** ermənilər tərəfindən amansızlıqla, döyülə-döyülə qətlə yetirilir...

**22 dekabr 1991-ci il** - Saat 22-də Laçın rayonunun ***Qarıqışlaq*** kəndi yaxın-

lığmdakı bağ və meşə sahələri ermənilərin *"Yevangiley"* qrupu tərəfindən partladılıb yandırılır. Dekabrın 22-dən 23-nə keçən gecə *«Yevangiley»* erməni terror qrupu tərəfindən Laçın rayonunun azərbaycanlılar yaşayan Qarıqışlaq kəndində ilk ekoloji ***terror aktı*** törədilir. Adı çəkilən terror qrupuna öz karyerasına ***«İntiqam»*** erməni terror təşkilatında başlamış ***Yevangiley Vaskanyan*** başçılıq edir. İxtisasca uşaq həkimi olan Y.Vaskanyan indi azərbaycanlı uşaqları öldürməkdə ixtisaslaşır. *«Yevangiley»* terror qrupu kifayət dərəcədə çevikdir *(14 yaraqlıdan ibarətdir),* yaxşı silahlanmış və təchiz olunmuşdur. Bu qrup *«Daşnaksütyun»* beynəlxalq erməni terror təşkilatının yeni xəttinin ekoloji terroru həyata keçirməkdə istifadə edilən erməni təşkilatları sırasına daxildir...

**23 dekabr 1904-cü il** - Balaxanıda silahlı mühafizə dəstələri, polis və kazaklar fəhlələri atəşə tuturlar. **15** adam öldürülür. Öldürülənlərin dəfni bir siyasi nümayişə çevrilir...

**23 dekabr 1911-ci il** - İranda erməni əsilli ***Yepremin*** əli ilə Milli Şura Məclisi qapadılır...

**23 dekabr 1918-ci il** - Erməni quldur birləşmələri azərbaycanlılar yaşayan Eyvazlı kəndinə basqın edərək sakinlərin əmlakını yağmalayır, mal-qarasını sürüb aparırlar. Kənd sakini **Gilan Hüseyn Allahverdi oğlu** vəhşicəsinə öldürülür. Axullu kəndində *2* kişi, *3* qadın, *1* uşaq qətlə yetirilir, *1* kişi yaralanır. Məlikli kəndində *1* kişi öldürülür. Tatar kəndində bir adam yaralanır. Eyvazlı kəndində *1* nəfər öldürülür, Şıxlar kəndində *1* sakin yaralanır. Məzrə kəndində *6* kişi qətlə yetirilir. Sirik kəndində *11* kişi, *10* qadın, *14* uşaq öldürülür və *2* kişi yaralanır...

**23 dekabr 1947-ci il** - İosif Stalin dostları - Anostas Mikoyanın və Tevosyanın təsiri altında SSRİ Nazirlər Sovetinin *"Kolxozçuların və digər Azərbaycan əhalisinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında"* mənfur ***4083*** saylı qərarını imzalayır. **100.000** azərbaycanlı bu qərardan sonra öz doğma yurd-yuvasından zorla köçürülür...

**23 dekabr 1989-cu il** - ***Məmməd Vəliyevin*** idarə etdiyi ***"UAZ-469"*** markalı ***93-93 AQR*** dövlət nişanlı maşın ***Çaykənd*** yaşayış məntəqəsində məskən salmış daşnaq terrorçularının basdırdıqları minaya düşür. Partlayış nəticəsində *5* nəfər azərbaycanlı dinc sakin ağır güllə yarası alır...

**23 dekabr 1991-ci il** - Milli Qəhrəman **Hidayət Eldar oğlu Rüstəmov** Meşəli kəndi uğrunda ermənilərlə döyüşdə həlak olur...

**23 dekabr 1991-ci il** - Milli Qəhrəman **Faiq Alış oğlu Ağayev** Meşəli kəndi uğrunda erməni yaraqlıları ilə döyüşdə həlak olur...

**23 dekabr 1991-ci il** - Ermənilərlə Cəbrayıl cəbhəsində, ***Daşbaşı*** kəndi uğrundakı döyüşdə *2* nəfər ölür, *2* nəfər yaralanır...





**23 dekabr 1991-ci il** - Qarabağ silsiləsində, Qırxqız dağının ətəklərində yerləşən Qarabağın dilbər guşələrindən biri, uzun illər ermənilərə göz dağı olan və onlar tərəfindən "qara qapı" adlandırılan cənnətməkan **Meşəli kəndi** (Xocalı rayonu) erməni-rus hərbi birləşmələri tərəfindən işğal edilərək dağıdılır. Ermənilər zümrüd bulaqları, tarixi məlum olan və olmayan maddi mədəniyyət abidələri, eləcə də təbiət möcüzələri ilə zəngin olan bu kəndə qəddarcasına od vururlar. Tüstülənib yanan ***Meşəli*** Malıbəylidən, Kərkicahandan, Kosalardan, Şuşadan, Xocalıdan ... baxıb onun yandığını görənləri də yandırır. Kənd sakinləri - **Novruz Novruzov, Allahverdi, Adilə Novruzova, Rübabə Novruz qızı Novruzova, Rahilə, İsmayıl, Bəhlul Museyib oğlu Hümbətov, Mətləb Qənimət oğlu Quliyev, Vidadi Allahverdiyev, Hidayət, Faiq, Ənvər Qasımov, Kamil, Xəlil Mahmud oğlu Kazımov, Əli Mürsəl oğlu Mehrəliyev, Hüseyn Rza oğlu Nurməmmədov, Qənimət, Pakizə Nurməmmədova, Nadir Nəbi oğlu İbadullayev, Zakir Novruz oğlu Novruzov, Əvəz Sadıqov, Pakizə Novruzova, Qönçə Qoca qızı Sadıqova, Xəlil, Sürəyya Alış qızı Xudayarova...** həlak olurlar. **350** nəfərlik əhali doğma yurdlarından didərgin salınır. Kənd sakinlərindən **3** nəfərin evindən heç kəs salamat çıxa bilmir. **12** nəfər - qadın, uşaq, cavan, qoca diri-diri yandırılır. Burada ***"Qarabağ"*** terror təşkilatından olan erməni quldurları tərəfindən azərbaycanlılara qarşı əsl genosid hadisəsi törədilir...

**23 dekabr 1991-ci il** - Erməni yaraqlıları Füzuli rayonunun ermənilərlə həmsərhəd olan ***Qaradağlı*** və digər kəndlərinə basqın edirlər. *1* nəfər qətlə yetirilir, *3* nəfər yaralanır. ***Axullu*** kəndində ***40*** ev yandırılır, *1* nəfər yaralanır. ***Cuvarlı*** kəndində *1* nəfər yaralanır...

**24 dekabr 1807-ci il** - Tam səlahiyyətli nazir vəzifəsində olan general Kloud Matyo Qardan *27* nəfərlik bir heyətlə İrana daxil olur. İran ordusunun yenidən təşkili işi başlanılır...

**24 dekabr 1829-cu il** - Erməni generalı Q.Lazarev rus generalı İ.Paskeviçə raport göndərərək, cəmi *100* gün müddətində Arazı keçməklə *40.000* nəfər erməni Naxçıvanda və Qarabağda məskunlaşdırdığını bildirir...

**24 dekabr 1942-ci il** - Azərbaycan SSR DİK hərbi tribunalının qərarı ilə ASİ-nin II kurs tələbəsi **Süleyman Əli Abbas oğlu İsgəndərli** (1922-ci ildə doğulub), vətənpərvər gənc, elektrik montyoru **Ələsgər Səttar oğlu Tağıyev** (1921-ci ildə doğulmuşdur), ADU-nun III kurs tələbəsi **Məmmədhüseyn Həbib oğlu Rzayev** (1921-ci ildə doğulmuşdur) güllələnirlər...

**24 dekabr 1991-ci il** - Ermənilər Xocalı rayonunun ***Meşəli*** kəndində qətlə

yetirdikləri azərbaycanlıların meyidlərini yığıb-daşımağa gəlmiş vertolyotları atəşə tutur...

**24 dekabr 1994-cü il** - Ermənilər Şuşa həbsxanasında Yardımlı rayon sakini Heydər Heydərovu amansız işgəncələrə məruz qoyaraq öldürürlər...

**24 dekabr 1999-cu il** - Saat *16.00*-da İrana məxsus olan ***"Peykan"*** avtobusu Cəbrayıl rayon sərhəd məntəqəsini keçərək Xankəndinə gəlir. *"Qondarma respublika"*nın diplomatı, ***"Hayastan"*** erməni xeyriyyə təşkilatının Ermənistan təmsilçisi ***Naira Melkumyan*** da avtobusu qarşılayanlar arasında olur...

**25 dekabr 833-cü il** - Xürrəmilərlə ərəblərin ***Həmədan*** yaxınlığında güclü döyüşləri baş verir. Xürrəmilər ilk dəfə olaraq ağır məğlubiyyətə düçar olurlar və ***60 000*** nəfər itki verirlər. Döyüşdən sonra xürrəmilərin bir hissəsi Bizansa gedərək orada xristianlıq dinini qəbul edirlər...

**25 dekabr 1638-ci il** - Bağdad tamamilə Türkiyənin əlinə keçir. Sultanın əmri ilə Ərzurum hakimi Kənan paşanın qoşunu tatar qarnizonu ilə birlikdə Ağrı dağının vadisinə basqın edir. Azərbaycanlılar bu basqından çox zərər (aclıq, səfalət) çəkirlər...

**25 dekabr 1805-ci il** - P. D. Sisianov Şamaxı qırğınını törədir. ***Mustafa xan*** ilə Qafqaz knyazı ***Sisianovun*** imzaladıqları traktata görə ***Şirvan xanlığı*** Rusiyaya qatılır...

**25 dekabr 1919-cu il** - Erməni silahlıları Üçmüəzzin mahalının ***Əkərək*** kəndinə hücum edərək ***8*** nəfəri amansızlıqla qətlə yetirirlər. Kəndin qəfil basqına məruz qalan əhalisi didərgin düşür...

**25 dekabr 1920-ci il** - Daşnaklar Zəngəzurda ***"Azad Sünik hökuməti"*** yaradırlar. Zəngəzur qəzasının qərb hissəsi Ermənistana birləşdirilir, Naxçıvan Azərbaycandan təcrid olunur...

**25 dekabr 1920-ci il** - Lənkəran və Astara bölgəsi yenidən sovet qüvvələrinin nəzarəti altına alınır...

**25 dekabr 1988-ci il** - Ermənistandan ***250.000*** azərbaycanlının deportasiya edilməsi əsasən başa çatdırılır...

**25 dekabr 1991-ci il** - Ağdam rayonunun ***Papravənd*** kəndi ermənilər tərəfindən atəşə tutulur...

**25 dekabr 1991-ci il** - Azərbaycan Respublikası Ali Soveti hər il 31 dekabrın ***"Dünya azərbaycanlılarının həmrəyliyi günü"*** kimi qeyd olunması haqqında qərar qəbul edir...

**25 dekabr 1992-ci il** - Yuxarı Qarabağın **Həsənabad** kəndi ermənilər tərəfindən işğal edilir. Əhali ev-eşiyini tərk etmək məcburiyyətində qalır...





**26 dekabr 836-cı il** - Üsyançılar ərəb ordusunu lərzəyə salan igid sərkərdələri Tərxanı itirirlər. Afşinin göndərdiyi casus Tərxanın evində qonaq olur, hörmətlə qarşılanır. Gecə yuxuda ikən Tərxanın başını kəsib qaçır. Bu hadisə xürrəmilərin sonrakı taleyinə ağır təsir göstərir...

**26 dekabr 1802-ci il** - Rus çarı, Talış, Quba xanları və Dağıstan hakimi arasında ***Georgiyevsk müqaviləsi*** imzalanır...

**26 dekabr 1826-cı il** - Ruslar Cənubi Azərbaycana soxulur...

**26 dekabr 1904-cü il** - Hiyləgər ***İ. Şendrikovun*** əli ilə Bakıda neft mədənlərində yanğınlar törədilir...

**26 dekabr 1905-ci il** - Abram Koxanın rəhbərlik etdiyi silahlı ermənilər ***Umudlu faciəsini*** (Cavanşir qəzası) törədərək 40 evlik kənd camaatını qan dəryasında boğdururlar. Ağdama pənah aparan kənd sakinləri yolda- ermənilər yaşayan ***Heyvalı*** kəndində ***Abram*** bəyin (DQMV-ın keçmiş I katibi H. Poqosyanın babası) silahlı erməni dəstəsinin üzvləri tərəfindən qətlə yetirilirlər. Kişilərin başları kəsilir, girov götürülən uşaqların bir hissəsi öldürülür, hamilə arvadların qarınları cırılaraq uşaqları doğranılır, qadın və qızların başlarına oyun açılır; uşaqlı-böyüklü ***300*** nəfər qətlə yetirilir, onların meyidləri yandırılır. Ermənilər həmin gün Cavanşir qəzasında, eləcə də digər ərazilərdə belə vəhşi qırğın və talanları davam etdirirlər...

**26 dekabr 1905-ci il** - Azərbaycanlıların ***60*** furqonluq ərzaq karvanı ***Əsgəran*** qalasında ermənilər tərəfindən ələ keçirilir...

**26 dekabr 1914-cü il** - ***"Allahu-Əkbər"*** dağından ***Sarıqamış*** istiqamətinə doğru hərbi əməliyyatlarda yüzlərlə türk əsgəri şəhid olur...

**26 dekabr 1918-ci il** - Erməni quldur dəstələri Cəbrayılın ***Xələfli, Tatar, Şıxlar*** kəndlərini yandırır, sakinlərin əmlakını, mal-qarasını sürüb aparırlar...

**26 dekabr 1989 -cu il** - Məmməd Vəliyevin idarə etdiyi ***"UAZ-469"*** markalı ***93-93 AQR*** dövlət nişanlı maşın Çaykənddə məskən salmış erməni terrorçularının basdırdıqları minaya düşür. ***5*** nəfər ağır xəsarət alır...

**26 dekabr 1991-ci il** - Şuşa şəhəri ***Topxana*** və ***Şuşikənd*** istiqamətlərindən top və raket atəşlərinə məruz qalır. Çoxlu dağıntılar, yaralananlar olur...

**26 dekabr 1991-ci il** - Şuşa-Laçın yolunun 4-cü kilometrliyində ***"ZİL-130"*** və ***"Moskviç" 93-99 AQ*** markalı maşınlar ermənilər tərəfindən atəşə tutularaq partladılır. ***5*** nəfər həlak olur, ***4*** nəfər yaralanır...

**26 dekabr 1991-ci il** - Şuşa şəhər sakini **Süleyman Abbasov,** onun hamilə həyat yoldaşı, yaşyarımında olan oğlu, qayınanası və onların getdikləri maşının sürücüsü ***Ağdam-Şuşa*** avtomobil yolunda erməni terrorçuları tərəfindən qətlə

yetirilirlər...

**27 dekabr 927-ci il** - Kufə şəhəri yaxınlığında baş verən döyüşdə Yusifin qoşunu məğlub olur. **Yusif** əsir düşür və öldürülür...

**27 dekabr 1175-ci il** - Sultan Qızıl Arslan ölür...

**27 dekabr 1744-cü il** - Nadir şah Dağıstana qəfil hücum çəkir. Hər iki tərəf çoxlu sayda itkilər verir...

**27 dekabr 1805-ci il** - Şamaxı xanı Mustafa xan Rusiyanın hakimiyyətini qəbuletmə aktını imzalayır. ***Şirvan (Şamaxı) xanlığı*** Rusiya tərəfindən işğal edilir...

**27 dekabr 1905-ci il** - Ermənilər Şuşa qəzasının ***Malıbəyli*** kəndində qadın və uşaqları tikə-tikə doğrayırlar. ***Nəcəfqulu*** ağanın evi yandırılır...

**27 dekabr 1923-cü il** - DQMV Birinci Sovetlər qurultayı keçirilir. Qurultay DQ İnqilab Komitəsinin hesabatını, beynəlxalq vəziyyət, xalq maarifi, kooperasiya məsələlərini və Sovetlərə seçkilər məsələsini müzakirə edir. Qurultay Vilayət İcraiyyə Komitəsini və onun Rəyasət Heyətini seçir...

**27 dekabr 1991-ci il** - Şuşanın ***Zarıslı*** kəndindən rayon mərkəzinə hərəkət edən içərisində azərbaycanlıların olduğu ***"Moskviç"*** markalı minik maşını ermənilər tərəfindən güllələbaran edilir. *3* mülki şəxs həlak olur...

**27 dekabr 1991-ci il** - Ermənilər ağır texnikanın müşayiəti ilə Xankəndi yaxınlığındakı ***Kərkicahan*** qəsəbəsinə güclü hücum edirlər. ***Mehman Hüseynovun*** başçılığı altında kəndin *22* nəfərdən ibarət könüllü müdafiə dəstəsi ermənilərlə qeyri-bərabər döyüşə girirlər. 8-9 saatlıq şiddətli döyüşdən sonra ermənilər artıq qəsəbənin yarısından çox hissəsini ələ keçirir. *20* nəfərdən çox şəhidimiz olur...

**28 dekabr 1220-ci il** - Kür çayının Ağstafa və Xram adlı qolları yaxınlığında monqol-tatar sərkərdəsi Subutay Bahadurun *20* minlik qoşunu ilə *100* minlik gürcü ordusu arasında (Tamaranın oğlu Laşi rəhbərlik edirdi) ***qanlı müharibə*** baş verir. Monqol-tatarlar qalib gəlir...

**28 dekabr 1909-cu il** - İrtica qüvvələrinin hərtərəfli hücumundan sonra Təbriz fədailərinin müqaviməti qırılır...

**28 dekabr 1911-ci il** - Çar qoşunları Təbrizi ələ keçirir. İnqilabi qüvvələr təqib edilərək onlara divan tutulur. İnqilab məğlubiyyətlə nəticələnir...

**28 dekabr 1920-ci il** - Ermənistan SSR İnqilab Komitəsi bəyanatla çıxış edərək Naxçıvan və Zəngəzur əhalisinə öz müqəddaratını azad surətdə təyin etmək hüququ verildiyini bildirir. Amma Azərbaycan öz torpaqlarının bütövlüyünə

**29 dekabr 1917-ci il** - Sovet hökuməti, Xalq Komissarlar Soveti *"Türkiyə Ermənistanı"* haqqında dekret verir. V.İ.Lenin bu dekretin həyata keçirilməsini Stepan Şaumyana müvafiq mandatla həvalə edir...

**29 dekabr 1918-ci il** - Zəngəzurun ***Qaraçimən*** və ***Xəştab*** kəndlərinə basqın edən erməni terrorçuları Qaraçiməndə *7*, Xəştabda isə *1* nəfər sakini qətlə yetirirlər...

**29 dekabr 1937-ci il** - Azərbaycan SSR XDİK-in Xüsusi Üçlüyünün qərarı ilə tanınmış terapevt-həkim **Məmməd Hacı Mirzəbaba oğlu Orxanbəyli** güllələnir...

**29 dekabr 1989-cu il** - Cəlilabadda milis işçiləri mitinqlərdə fəal iştirak edən adamların evlərinə hücum edərək onların bəzisini həbs edir...

**29 dekabr 1991-ci il** - Ermənistanın təhlükəsizlik və strateji məsələlər üzrə konsepsiyasının ilkin variantı prezident Levon Ter-Petrosyana təqdim olunur...

**29 dekabr 1993-cü il** - Azərbaycan ordusu ***Murovdağ*** ərazilərində hücuma keçir. Ömər aşırımı adldnan düşmən postu ələ keçirilir. Meydançaya yaxınlaşan əsgərlər hücumu davam etdirirlər. İtkilər olur...

**30 dekabr 1904-cü il** - Bakı fəhlələrinin ümumi tətili qələbə ilə başa çatsa da, neft sənayeçiləri ilə fəhlələr arasında *"müştərək müqavilə"* imzalanır...

**30 dekabr 1906-cı il** - Müzəffərəddin şah Konstitusiyanın qüvvəyə minməsi haqqında fərman verir...

**30 dekabr 1918-ci il** - Pilimyanın və Hişanyanın başçılığı ilə Basarkeçərə və onun azərbaycanlılar yaşayan ətraf kəndlərinə basqın edən erməni terrorçuları həmin kəndlərdə qətllər törədirlər; **1.300** baş davar aparılır...

**30 dekabr 1918-ci il** - Zəngəzurun ***Bollaraçür*** kəndinə silahlı basqın edən ermənilər *1* nəfər dinc sakini öldürür, *2* nəfəri isə ağır yaraılayırlar...

**30 dekabr 1922-ci il** - Tərkibində Azərbaycan da olan ***Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası*** yaradılır...

**30 dekabr 1922-ci il** - Sovetlər qurultayı Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) yaradılması haqqında ***müqavilə*** və ***Bəyannamə*** qəbul edir...

**30 dekabr 1988-ci il** - Hadisələr başlayandan *186* nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmiş, *200.000*-dən çox əhali doğma ocaqlarından qovulmuşdur...

**30 dekabr 1989-cu il** - Saat 17-dən 20-dək Naxçıvan şəhərində mitinq keçirilir. Qərara alınır ki, indiyədək verilən təkliflərə, tələblərə baxılmadığı üçün 31 dekabrda sərhəd qurğularını ləğv etmək aksiyası keçirilsin...

**30 dekabr 1991-ci il** - Daşnaq terrorçuları Qazax rayonunun ***Çaylı*** kəndindən ***Əskipara*** kəndinə hüzr yerinə gedən *3* nəfər azərbaycanlı dinc sakini qətlə yetirib, onların meyidlərini girov kimi özləri ilə birlikdə Ermənistana aparırlar...





**30 dekabr 1992-ci il** - Erməni yaraqlıları Ağdamın qərb kəndlərinə basqınlar edir...

**30 dekabr 1996-cı il** - ATƏT-in fəaliyyətdə olan həmsədrinin qərarı ilə Fransa Finlandiyanın əvəzinə həmsədr təyin olunur. Azərbaycan tərəfi bu təyinata etiraz edir. ABŞ üçüncü həmsədr təyin edilir. Üç həmsədrdən ***(ABŞ, Rusiya, Fransa)*** ibarət yeni struktur formalaşır...

**31 dekabr 1812-ci il** - Talış xanlığı Rusiya tərəfindən işğal edilir...

**31 dekabr 1904-cü il** - 1 gün əvvəl fəhlələrin ***"Mazut Konstitusiyası"*** adlandırdıqları müştərək müqavilə imzalandıqdan sonra Bakıda tətil dayandırılır...

**31 dekabr 1917-ci il** - Bakı Sovetinin iclasında Bakıda Sovet hakimiyyətinin bərqərar olması ilə bağlı iclas keçirilir...

**31 dekabr 1917-ci il** - Daşnaq erməni terrorçuları Vedibasarm ***Qaraxaç*** kəndinə basqın edir. ***Barışıq*** adı ilə hiylə quraraq azərbaycanlıları qətlə yetirirlər. Ermənilər əhalinin bir qismini böyük bir dama yığaraq od vurub yandırır; qalan qismini isə qılıncdan keçirirlər. Bu hücumda *500*-dən çox azərbaycanlı öldürülür...

**31 dekabr 1917-ci il** - Zəngəzurun ***Xınzirək*** kəndində məskən salan erməni silahlıları azərbaycanlılar yaşayan qonşu ***Əliquluuşağı*** kəndinin yaxınlığında yerləşən ərazidə təsərrüfat işləri ilə məşğul olan kənd sakinlərindən *6* nəfərini qətlə yetirirlər. ***Behbud*** adlı kənd sakinini odun yığdığı yerdə ələ keçirən ermənilər kürəyinə qaynar samovar bağlayıb, onu dağdan aşağı atırlar...

**31 dekabr 1918-ci il** - Cavanşir qəzasının ***Dovşanlı*** kəndində məskən salan daşnaq terrorçular kənddəki *115* azərbaycanlı evini mühasirəyə alaraq onları tərksilah edir; mal-qaralar və ev əşyaları ermənilər tərəfindən qarət olunur. Kənd viran edilir. Ev-eşiyindən didərgin düşənlər ***Boyəhmədli, Kəngərli, Tənöyüt*** kəndlərinə sığınırlar. Qəzanın ***Qarapirim*** kəndinə hücum edən daşnaqlar kəndi talan edirlər, ***Cəmşidbəy Vəlibəyovun 1.350*** baş qoyun sürüsünü və at ilxısını qarət edib aparırlar...

**31 dekabr 1918-ci il** - Qarakənddə məskən salmış erməni terrorçuları *Ağdam-Qaryagin* telefon xəttini sıradan çıxarırlar. *2* nəfər dinc, günahsız azərbaycanlı azğınlaşmış daşnaq erməniləri tərəfindən qətlə yetirilir...

**31 dekabr 1922-ci il** - Azərbaycan içərisində olmaqla ZSFSR SSRİ-nin tərkibinə daxil olur...

**31 dekabr 1937-ci il** - Qərbi Azərbaycanda (Ermənistanda) ***Cil, Ardanış, Şorca, Ağbulaq, Toxluca, Cıvıxlı, Gölkənd, Caykənd, Bəryabad, Əmirxeyir, Qaraqaya, Yanıqpəyə, Krasnoselo, Yuxarı Çənmərək, Aşağı Çənmərək, Orconikidze, Tutucur, Təzə Başkənd,*** eləcə də ***Martuni*** və ***Gədəbəy*** rayonu ərazisində yerləşən ***Köhnə Başkənd*** yaşayış məntəqələri də daxil olmaqla ***Krasnoselo*** rayonu yaradılır...

**31 dekabr 1989-cu il** - Araz çayı boyunca *137* kilometrlik ***Sovet - İran*** sərhədində qurğular dağıdılarkən xoşagəlməz faciələr yaşanır. Sərhəd dirəklərinin sökülməsi ilə azərbaycanlılar Araz çayının o biri sahilindəki qardaş-bacıları ilə həmrəy olduqlarını nümayiş etdirirlər (25 dekabr 1991-ci il tarixdə Azərbaycan Respublikası Ali Soveti 31 dekabr təqvim gününün ***"Dünya azərbaycanlılarının həmrəyliyi günü"*** kimi qeyd olunması haqqında qərar qəbul edir). Çoxlu sayda azərbaycanlılar döyülür, söyülür və həbs olunur...

**31 dekabr 1989-cu il** - İstanbulda dünya azərbaycanlılarının I Konqresinin yığıncağı keçirilir...

**31 dekabr 1990-cı il** - Ağdam rayonunun ***Cinli*** kəndinə soxulan ermənilər çobanlara basqın edirlər...

**31 dekabr 1991-ci il** - Xocalı şəhəri müxtəlif istiqamətlərdən ermənilər tərəfindən güclü atəşə tutulur...

**31 dekabr 1991-ci il** - 1988-ci ilin fevralından - ***Qarabağ müharibəsi*** başlanandan bu günə kimi ermənilər tərəfindən **750** nəfər azərbaycanlı qətlə yetirilib; **1600** nəfər yaralanmışdır. **1700**-dən çox ev dağıdılmışdır...

**31 dekabr 1992-ci il** - Qarabağ müharibəsi başlanandan ***(fevral, 1988-ci il)*** ermənilər tərəfindən öldürülən azərbaycanlıların sayı *3.500* nəfərdir...

**31 dekabr 1993-cü il** - Qarabağ müharibəsi başlanandan ***(fevral, 1988-ci il)*** ermənilər tərəfindən öldürülən azərbaycanlıların sayı ***14.500*** nəfər təşkil edir...

**31 dekabr 1993-cü il** - **İgid döyüşçü Yasin İsfəndiyar oğlu** Novruzov ermənilərlə döyüşdə minaya düşərək həlak olur...

**31 dekabr 1993-cü il** - Cəbhənin ***Tərtər-Ağdərə*** hissəsində ağır döyüşlərdən sonra *3* yaşayış məntəqəsi azad olunur; hərbi hissələrimiz ***Sərsəng*** su anbarına yaxınlaşırlar. Lakin burada hücum əməliyyatı nədənsə dayandırılır...





## SON SÖZ

**Əziz oxucu!** Beləcə bu kitabı oxuyub başa vurdun. Amma heyrətlənmə! Azəri türkü yarandığı, təşəkkül tapdığı gündən indiyə kimi cilid-cilid kitablara sığmayan şanlı salnamələr, qələbələr tarixi yaradıb. Elə onun indiki biz nəsli də əcdadının keçdiyi şərəfli tarixi yolu ləyaqətlə davam etdirir, bu tarixin hər səhifəsinə işıq salmaqdan ötrü əlindən gələni edir. Ancaq neyləyəsən ki, dünya siyasəti deyilən bir məfhum da var...Üstəlik də bədxah qonşularımız olan ermənilər bizə qarşı səlib yürüşlərini bu gün də davam etdirirlər. Təbii ki, bir kitabda ermənilərin zaman-zaman xalqımızın başına gətirdikləri vəhşilikləri, müsibətləri, soyqırımları tam əhatə etmək mümkün deyildir. İnanıram ki, bu mövzuda bundan sonra daha çox və samballı kitablar da nəşr olunacaqdır. *"Böyük Ermənistan"* xülyası ilə yaşayıb başqa xalqlara, qonşularına nifrət təbliğ edənlər, onlara qarşı təcavüzkar siyasət yeridənlər mütləq nə vaxtsa TARİX qarşısında öz layiqli cavablarını alacaqlar. Ermənilərin tarixən xalqımıza qarşı törətdikləri ağır cinayətləri unutmağa bizim haqqımız yoxdur.

Azərbaycanlılar tarixən mərd, döyüşkən, vətənpərvər, həmişə ölümün gözünün içinə dik baxan olmuşlar. Bəs Tarixin ayrı-ayrı dönəmlərində onun üzləşdiyi faciələr nə ilə bağlıdır?.. İndi adı Ermənistan kimi yazılan *Qərbi Azərbaycan,* onun tərkib hissəsi olan azərbaycanlıların dədə-baba torpağı, doğma *Zəngəzur, Göyçə* haradadır?.. Bu gün vətənimizin gözəl bir parçası olan müqəddəs Qarabağımız qan ağlayır. Biz Azərbaycanın əzəli torpağı olan *Qarabağı* hansı yolla olursa olsun, işğaldan azad etməliyik. Yoxsa gələcək nəsillər qarşısında əbədi qınaq yeri olarıq...VƏTƏN - onu qorumağı bacaranlarındır, onun keşiyində ləyaqətlə duranlarındır. Vətəni ulu əcdadlarımız seçib və zaman-zaman onu yadelli basqınlardan qoruyaraq bizim üçün saxlayıb. Bəs biz necə?.. ONU qorumağı bacarırıqmı ? ONA layiq olduğumuzu sübut edə bilirikmi ?..

**İstəkli oxucu!** Mən Qarabağı qaytaracağımıza ümidliyəm. Sən də ümidli ol! İnşallah, ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızı tezliklə azad edəcəyik! Şuşada, Xankəndində, Xocavənddə, Xocalıda, Füzulidə, Ağdamda, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə ... Azərbaycanın üçrəngli bayrağı dalğalanacaq! Bax onda Azərbaycan xalqının zəfər tarixi, qələbələri haqqında daha dəyərli, maraqlı, oxunaqlı bir kitab da yazacağıma söz verirəm. Bu, mənim ən böyük arzularımdan biridir. Elə bu arzu ilə də həlalik burada Sizdən ayrılıram. Ulu Tanrı köməyiniz olsun!..

**Hörmətlə: müəllif Nazim Tapdıqoğlu (Vəlişov)**

## İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYATIN SIYAHISI

**Azərbaycan tarixi:** Bakı, Azərnəşr, 1994.

**Azərbaycan tarixi:** İ.Əliyevin redaktəsi ilə. "Elm" nəşriyyatı, Bakı, 1993.

**Azərbaycan tarixi:** 3 cilddə. Azərbaycan Elmlər Akademiyası nəşriyyatı, Bakı, 1964.

**Azərbaycan tarixi:** Yeddi cilddə. Bakı, 1988-2001.

**Azərbaycan tarixi:** Sənədlər və nəşrlər üzrə. Bakı, 1990.

**İstoriya Azerbaydjana:** Baku, "Elm", 1979.

**İstoriya Azerbaydjana:** Bakı, 1995.

**Azərbaycan Sovet Ensiklopediyası:** I-X cildlər. Bakı, 1976-1987-ci illər.

**Azərbaycan tarixi üzrə qaynaqlar:** "Azərbaycan Universiteti" Nəşriyyatı, Bakı, 1989.

**A.A.Bakıxanov:** "Gülüstani-İrəm", Bakı, 1951; 2000.

**Z.M. Bünyadov, Y.V.Yusifov:** Azərbaycan tarixi. I cild, Bakı, 1994.

**Z.Bünyadov:** Seçilmiş əsərləri. II cild Bakı, 1999.

**M.İsmayılov:** Azərbaycan tarixi, II hissə, Bakı, 1993.

**S. Allahverdiyev, Ə. Haqverdiyev, M. Behbudov:** Azərbaycan tarixi. Bakı, "Müəllim" nəşriyyatı, 2007.

**Qızılbaşlar tarixi:** AND kitabxanası seriyasından, Bakı, 1993.

**Qarabağnamələr:** Bakı, 1989.

**Qarabağnamələr:** Ikinci kitab. Bakı, "Elm", 1989.

**Azərinform məlumat verir, bildirir, təkzib edir.** Azərnəşr, Bakı, 1991.

**Dağlıq Qarabağ:** Zəka qalib gələcək. Sənədlər və materiallar. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1989.

**Rəşid bəy İsmayılov:** Azərbaycan tarixi, Azərbaycan Dövət Nəşriyyatı, Bakı, 1993.

**Y.V.Çəmənzəminli:** Tarixi coğrafi və iqtisadi Azərbaycan. BDU nəşriyyatı, 1993.

**H.Baykara:** Azərbaycan milli istiqlal mübarizəsi tarixi. Bakı, 1992.

**A.Dadaşlı:** Azərbaycanda Sovet hakimiyyətinin qurulması. ÜİK(b)P yanında MLİ AF əsərləri. Bakı, 1947.

**N.Əlizadə:** Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə





tarixindən. Bakı, 1974.

**Y.Pompeyev:** Qarabağ qan içində. Bakı, 1996.

**S.İ.Qlinka:** Ermənilərin Azərbaycana köçürülməsi. Bakı, 1995.

**Kavkazskiy kalendar.** T. 1854.

**Rəhmətulla Tofiq:** "Urmiyanın tarixçəsi"(farsca).

**Əli Dehqani:** "Zərdüşt diyarı Urmiya" (farsca).

**Sadıq Müstəşarüddövlə:** "Məşrutə sənədləri" (farca).

**Dr. M.Ə. Riyahi:** "Xoy tarixi".

**Ə.Kəsrəvi:** Azərbaycanın on səkkiz illik tarixi".

**V.Piriyev:** Azərbaycanın tarixi-siyasi coğrafiyası.Bakı,"Müəllim", 2006.

**Səməd Sırdarniya:** Arazın hər iki tayında azərbaycanlıların soyqırımı. Bakı, 2006.

**Hidayət:** Sözün vaxtı. "Şərq-Qərb", Bakı, 1999.

**Salman Alıoğlu:** Müharibə. "Azərbaycan" nəşriyyatı, Bakı, 1995.

**Salman Alıoğlu:** Bura vətəndir. "Çinar-Çap", Bakı, 2003.

**Q.Ə.Mədətov:** Azərbaycan Böyük Vətən müharibəsində. 1941-1945. Bakı, 1965.

**İ.Sadıq:** Susmaq qızıl deyilmiş. Bakı, 1992.

**T.Əhmədov:** Erməni xəyanəti (1918-1920-ci illər). Bakı, "Nurlar", 2005.

**T.Köçərli:** Qarabağ. Bakı, 1998.

**M.Əliyev:** Qanlı günlərimiz. Bakı, 1993.

**M.Qacar, B.Məmmədov:** Füzuli şəhidləri. "Azərbaycan" nəşriyyatı, Bakı, 1995.

**F.Şükürbəyli:** İstiqlal şəhidləri. Bakı, "Sabah", 1995.

**Əmir Axundov:** Qaradağlının qan yaddaşı. "Şuşa" nəşriyyatı,Bakı, 1999.

**Əmir Qaradağlı (Axundov):** Baba ləqəbli polkovnik-leytenant. "Şuşa" nəşriyyatı, Bakı, 2007.

**Lyudmila Məhəmmədqızı:** Qaradağlı-qəlbi dağlı. Azərbaycan Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi, Bakı, 1994.

**Novruz Quliyev, Billurə Quliyeva:** Xocavənd həqiqətləri. "Avropa" nəşriyyatı, Bakı, 2007.

**A.Quliyev:** Xocavənd şəhidləri. Bakı, Azərnəşr, 2006.

**Səyyah Hüseyn (İran jurnalisti):** "Laçın dəftəri" kitabı. "Morteza qardaşları" nəşriyyatı, 1995.

**S.Rüstəmxanlı:** Ömür kitabı. Bakı, "Gənclik", 1989.

**Zəngəzur qəza rəisi Məlik Namazəliyevin 11 sentyabr 1918-ci il tarixli 5 saylı raportu.**

**Zəngəzur qəza rəisinin 12 sentyabr 1918-ci il tarixli 8 saylı raportu.**

**Zəngəzur qəza rəisinin 11 dekabr 1918-ci il tarixli 185 saylı teleqramı.**

**Gəncə quberniya dəftərxanasının 12 noyabr 1918-ci il narixli 7562 saylı izahatı.**

**DQMV Partiya Komitəsinin plenum və bürolarının protokolları** (1979-1989-cu illər).

**Dağlıq Qarabağ Sovet hakimiyyəti illərində.** Bakı, 1970.

**C.Həsənli:** "Ağ ləkə"lərin qara kölgəsi. Bakı, 1991.

**C.Həsənli:** İstiqlaliyyətin çətin yolu. Bakı, 1992.

**C.Həsənli:** Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920), Azərnəşr, Bakı, 1993.

**C.Həsənli:** Güney Azərbaycan. Bakı, 1998.

**M.Süleymanov:** Azərbaycan ordusu (1918-1920). Bakı, 1998.

**E.Əhmədov:** Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar Bakı, "Tuna", 1998.

**A.İsgəndərov**: 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı, 1997.

**V.Həbiboğlu**: Terrorçu Andranik və Böyük Ermənistan xülyası. "Gənclik", Bakı, 2002.

**N.Yaqublu:** Azərbaycan Milli istiqlal mübarizəsi və Məmmədəmin Rəsulzadə. Bakı, 2001.

**N.Yaqublu:** Azərbaycan legionerləri. Bakı, 2005.

**N.Yaqublu:** Xocalı qırğını. Bakı, 1993.

**M.Qasımov:** Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı,1993.

**Kəmalə Ruintən:** Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti, Bakı, "Adiloğlu", 2008.

**Niyaz Hacıyev:** Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, "Gənclik",2005.

**Ədalət Tahirzadə:** Nadir şah əfşar. Bakı,"Çıraq ", 2005.

**Ədalət Tahirzadə:** Ağaməhəmməd şah Qacar. Bakı,"Çıraq", 2005.

**S.Asadov, İ.Mamedov:** Terrozizm priçina i sledstvic. Baku, 2001.

**R.Mehdiyev:** Azərbaycana qarşı soyqırım gerçəklikləri. Bakı, 2000.

**M.H.Vəliyev:** Azərbaycan; fiziki coğrafi etnoqrafik və iqtisadi oçerk. Bakı, 1993.





**E.İsmayıl:** Ermənistan türklərinin 1988-ci il soyqırımı. Bakı, 1995.

**E.İsmayıl:** Oğuz yurdunun övladları. I kitab, "Təbib", 1999.

**Ə.Ələkbərli:** Qərbi Azərbaycan. Bakı, "Ağrıdağ" nəşriyyatı, 1988.

**F.Əsədov, S.Kərimova:** Çarizmi Azərbaycana gətirənlər. Bakı, "Gənclik" nəşriyyatı, 1993.

**S.Şükürov:** Gəncəli Cavad xanın hekayəti. Gəncə,1992.

**Azərbaycan Respublikası.** MDA , f. 970, siy.1, iş 3.

**C.İbrahimov:** Qaraqoyunlu dövləti. Bakı, 1948.

**Saleh bəy:** Dünyanın taleyi. Bakı, "Yazıçı", 1989.

**R.Göyüşov:** Qarabağın keçmişinə səyahət. Bakı, 1993.

**A.Mansurov:** Tarixin ağ ləkələri və yenidənqurma, Bakı, "Yazıçı", 1991.

**M.İsmayılov:** Sənin ulu baban. Bakı, 1989.

**Z.Sultanov:** Qarabağın qara günləri, Bakı, "Yazıçı", 1992.

**Z.Sultanov:** Ağdərədən gələn var. Bakı, "İşıq", 1993.

**R.Səməndər:** Şəhidlər. Bakı, "Gənclik", 1990.

**A.Qurbani:** Şəhidlər dastanı, Bakı, "Gənclik", 1992.

**A.Qurbani:** Meşəli od içində. "Dünya" nəşriyyatı, Bakı, 1996.

**Ş.Yaqubov:** Mən şahidəm ki... Bakı, 1992.

**İ.Vəliyev:** Qara gündəlik . Azərbaycan Ensiklopediyası NPB, Bakı, 1997.

**A.Babayev, R.Mirzə:** 20 Yanvar hadisələri, sənədlər, mövqelər, şərhlər (1990-2000); "Çaşıoğlu", Bakı, 2000.

**B.Əziz:** Xocalı soyqırımı, Bakı, Azərnəşr, 2008.

**S.Hüseynov:** Xocalıdan gələn səs, Bakı, "Azərbaycan" nəşriyyatı, 1993.

**S.Müslümqızı:** Xocalı nisgili və ya faciəyə gedən yol. Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2000.

**C.Kərimov:** Qansızlar, Bakı, "Gənclik", 1991.

**R.Azəri:** Unutmaq olarmı sizi, şəhidlər... Bakı, "Dünya" nəşriyyatı, 1998.

**B.Abbasoğlu:** Ağdam ağrıları, "Şuşa" nəşriyyatı, Bakı, 2003.

**Akif Nağı:** Qarabağ müharibəsi (Qısa tarix). Bakı, "MBM-R", 2009.

**Əlizamin:** Vətən fədailəri (Ağdam şəhidləri). "Öyrətmən" nəşriyyatı, Bakı, 1994.

**S.Ağayev:** Şəhid şəhərin şəhid oğulları(Ağdam). "Azərbaycan" nəşriyyatı, Bakı, 1994.

**L.İlyasova:** Laçın şəhidləri , Bakı, AzTU-nun mətbəəsi, 1995.

**Ə.Əroğul:** Azərbaycanda erməni-daşnaq terrorunun xronologiyası. Bakı, "Təknur", 2009.

**Ə.Əroğul:** Əmir Teymurun fəryadı. Bakı, "Təknur", 2009.

**Ə.R.Xələfli:** Karvan körpüdən keçir. Bakı, 1997.

**R.C.İmanov:** Azərbaycanın ərazi bütövlüyünə qəsd - Qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti. Bakı, "Adiloğlu", 2005.

**İ.İmanzadə, İ.Abbaslı:** Qəm leysanı. "Yeni Nəşrlər" evi, Bakı, 1999.

**B.Niyazlı:** Üçüncü minilliyin təqvimi. Bakı, "Azadlıq" nəşriyyatı, 2002.

**F.Şükürbəyli:** Ərgünəş fəryadı, "Dünya", 1997.

**Q.Aslan:** Goranboy qartalları. "İşıq", Bakı, 1994.

**N.Quliyeva:** Ölməzliyə gedən yol. "Azərnəşr", Bakı, 1996.

**B.Ənsəli, H.S.Nəzərli:** Qiyamətə qalmayan qisas, "Günəş" nəşriyyatı, Bakı, 1999.

**A.H.Həsənov, T.Y.Məmmədli:** Seysmologiyanın əsas elementləri. Bakı,"Elm", 2006.

**N.Zeynalov:** İki ay erməni əsirliyində. "Azərnəşr", Bakı, 2000.

**T.Yusif, C.Məmmədov:** Tərtər şəhidləri, "Azərbaycan" nəşriyyatı, Bakı, 1993.

**A.Kərimli:** Zəngilan şəhidləri. Bakı, "İşıq" nəşriyyatı, 1995.

**A.Kərimli:** Soraq verin. "Azərbaycan" nəşriyatı,Bakı, 1995.

**F.Sarvan:** Ağcabədi şəhidləri. Bakı, 1995.

**M.S.Ordubadi:** "Qanlı illər". 1905-1906-cı illərdə baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1991.

**Y.Pompeyev:** "Krovavıy omut Karabaxa". 1992.

**A.Lalayan:** Kontrevolyusionnaya rol partii "Daşnaksutyun". İstoriçeskiye zapiski.

**Azərbaycan Demokratik Respublikası.** Azərbaycan hökuməti 1918-1920. Bakı, 1990.

**Quliyev:** "Azərbaycanda erməni zülmü". Bakı, 1999.

**A.Rüstəmov:** Erməni təcavüzünün xronikası. Bakı, "Elm", 1994.

**Əsir və itkin düşmüş , girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının materialları.** "Dirçəliş-XXI əsr" jurnalı, №37, Bakı, 2001.

**Erməni vəhşəti:** Ankara, 2001.

**İrəvan əyalətinin icmal dəftəri.** Bakı, 1996.





**M.M.Nəvvab:** 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1994.

**M.Ə.Rəsulzadə:** Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.

**M.B.Məmmədzadə:** Ermənilər və İran. Bakı, 1993.

**N.Nəsibzadə:** Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.

**Y.Qazıyev:** Ermənilərin törətdiyi soyqırımların bəzi məqamları. "Xalq qəzeti", 31 mart, 2002.

**Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX- XXI əsrlər).** Bakı, "Elm", 2003.

**M.Əmrahov:** XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Bakı, ADPU-nun nəşriyyatı, 2009.

**M.Əmrahov:** İkinci dünya müharibəsi (1939-1945). Bakı, "Mütərcim", 2010.

**N.Zamanov, R.Əliyev, Ş.Səlimbəyli:** Erməni terroru. Bakı, "Avropa" nəşriyyatı, 2008.

**N.Zamanov, R.Əliyev, Ş.Səlimbəyli:** Terrorizm; Qan çilənən torpaqlar. Bakı, "Avropa", 2009.

**Nazim Tapdıqoğlu (Vəlişov):** Müqəddəs Qarabağım. Bakı, 2000.

**Nazim Tapdıqoğlu:** Füzuli rayonunun toponimləri. Bakı, 2001.

**Nazim Tapdıqoğlu :** Qubadlı rayonunun toponimləri. Bakı, 2001.

**Nazim Tapdıqoğlu :** Xocalı toponimləri; Xocalı faciəsi, qurbanları. Bakı, 2002.

**Nazim Tapdıqoğlu :** Kəlbəcərin toponimləri. Bakı, 2002.

**Nazim Tapdıqoğlu :** Zəngilan rayonunun toponimləri. Bakı, 2002.

**Nazim Tapdıqoğlu :** Qarabağın tacı -Şuşam. Bakı, 2003.

**Nazim Tapdıqoğlu :** Cəbrayıl rayonu və onun toponimiyası. Bakı, 2004.

**Nazim Tapdıqoğlu:** Laçın rayonu və onun toponimiyası. Bakı, "Araz" nəşriyyatı, 2005.

**Nazim Tapdıqoğlu, Aydın Cəlaloğlu:** Ağdam rayonu və onun toponimiyası. Bakı, "Təhsil" NPM , 2006.

**Nazim Tapdıqoğlu:** Şəmkir rayonu və onun toponimiyası. Bakı, "Adiloğlu" nəşriyyatı, Bakı , 2005.

**Nazim Tapdıqoğlu:** Füzuli rayonu və onun toponimiyası. Bakı,"Ünsiyyət" nəşriyyatı, 2007.

**Nazim Tapdıqoğlu** : Ağcabədi ensiklopediyası . Bakı , "Təhsil" NPM, 2007.

**Nazim Tapdıqoğlu, Aydın Cəlaloğlu:** "Azərbaycan faciələrinin təqvim tarixi.

Bakı, 2008.
**Nazim Tapdıqoğlu:** Füzuli rayonu . Bakı ,"Zərdabi LTD", 2009.
**Nazim Tapdıqoğlu:** Zərdab ensiklopediyası. Bakı, "Gənclik" nəşriyyatı, 2009.
**Nazim Tapdıqoğlu:** Xocavənd ensiklopediyası. Bakı, "Zərdabi LTD", 2009.





## KİTABIN İÇİNDƏKİLƏR

Ön söz....3

Yanvar....5
Fevral....33
Mart....58
Aprel....84
May....110
İyun....133
İyul....159
Avqust....182
Sentyabr....209
Oktyabr....232
Noyabr....254
Dekabr....278

Son söz....307

İstifadə olunmuş ədəbiyyatın siyahısı....308

Nazim Tapdıqoğlu
(Vəlişov)

# Azərbaycan faciələrinin təqvimi

| | |
|---|---|
| Məsləhətçi: | Salatın Əhmədli |
| Redaktor: | Mahir Məmmədov |
| Texniki redaktor: | Arif Rəsulov |
| Bədii redaktor: | Şəkər Orucova |
| Çapçı: | Yaqut Qarabəyova |
| Korrektor: | Qarabəyova Günel |
| Dizayn: | Quliyeva Ruhiyyə |

Yığılmağa verilmişdir: 29.05.2010.
Çapa imzalanmışdır : 29.09.2010.
Format 70x100 16/1 Tiraj 500.
"MBM" mətbəəsində çap olunmuşdur.